Crossref
ÜZVÜ

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGİYA

2024
№4 (82)

BAKI-2024

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof. Dr İradə Hüseynova (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

Member of Crossref

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGY

2024
№4 (82)

BAKU-2024

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Irada Huseynova (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

Siyasi elmlər

UOT 32
DOI:10.30546/3006-0346.2024.4.82.05

GÜLNARƏ QURBANOVA

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunun direktoru, professor*

*E-mail: ccahangirli@yahoo.com*

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN TƏŞƏKKÜLÜNƏ QƏRB VƏ ŞƏRQ MƏDƏNİYYƏTLƏRİNİN TƏSİRİ

## Giriş

Məlumdur ki, Azərbaycan tarix boyu fərqli mədəniyyətlərin və müxtəlif sivilizasiyaların kəsişmə nöqtəsində yerləşən məkanlardan biri kimi tanınmışdır. Bütün zamanlarda öz geostrateji mövqeyinə əsasən istər Şərq, istərsə də Qərb mədəniyyətlərinin bilavasitə ortaq nöqtəsi kimi də seçilmişdir.

Keçmişin bütün dönəmlərində Azərbaycan qədim mədəniyyətləri, böyük sivilizasiyaları bir-birinə müncər edən düyün olmuşdur. Qeyd olunan məqamlar Azərbaycanın mədəni, fəlsəfi irsinə də öz təsirlərini göstərmişdir. Digər tərəfdən, Azərbaycanın bilavasitə Böyük İpək yolunun üzərində yerləşməsi də tarixən onun iqtisadi, sosial və mədəni əlaqələrinin inkişaf edərək daha da genişlənməsinə öz müsbət töhfəsini vermişdir. Uzaq fərqli mədəniyyətlərin bəzi elementləri bu qədim yol ilə Azərbaycan mədəniyyətinə də daxil ola bilmişdir.

Təsadüfi deyil ki, Azərbaycan öz strateji əhəmiyyətinə görə hələ eramızdan əvvəllərdən başlayaraq indiyədək də Şərq və Qərbin diqqət mərkəzində olmuş/olmaqdadır. Bu mənada, Azərbaycanın mədəniyyəti də müəyyən anlamda hər iki nəhəng məkanların birbaşa sərhədində formalaşmışdır. Bu amil də, öz növbəsində, Azərbaycan mədəniyyətinin zənginliyi, rəngarəngliyi və çoxçalarlılığına səbəb olmuşdur. Şərq və Qərbin mədəni irsi Böyük İpək yolu vasitəsilə əsrlər boyu Azərbaycan ərazisindən keçib Şərqin ən Şərq, Qərbin isə ən Qərb nöqtələrinə yetişdikdən sonra yenidən təbii olaraq Azərbaycana qayıtmışdır.

## Mədəniyyət fenomeninə fəlsəfi yanaşma

Fikrimizcə, öncə Azərbaycan mədəniyyətinin təşəkkülünə Qərb və Şərqin təsirləri probleminin təhlilinə başlamazdan əvvəl, ümumilikdə mədəniyyət fenomeni, eləcə də bu fenomenin özülünü təşkil edən lokal və qlobal mədəniyyətlərin təcridi-vəhdəti probleminə zaman-məkan dixotomiyası prizmasından baxmaq və problemi məhz bu ikilik əsasında da fəlsəfi nöqteyi-nəzərdən dərk etmək lazımdır. Çünki zaman və məkan kateqoriyaları bütün mədəniyyətlərin mahiyyətinə xas və bu mahiyyəti indi və gələcəkdə düşüncələr üçün açan ən əsas vasitələrdəndirlər. Bu cəhətdən, zaman və məkan həm də hər bir mədəniyyətin mahiyyətindədir. Onu var edib yaşadan əsas amillərdəndir. Zaman keçmiş ilə gələcək arasında əlaqə, məkan isə, bu əlaqələrdən törəyənlərin təcəssümüdür. Bu cəhətdən, XX əsrin məşhur ispan sosioloq və filosofu olan Orteqa-i-Qasset (1883-1955) də yazır ki, mədəniyyət xatirə və vəddir. Geriyədönməz keçmiş və gələcək xəyaldır [17, s.136].

Fikrimizcə, mədəniyyət probleminə fəlsəfi nöqteyi-nəzərdən yanaşarkən ikinci əsas arqmet kimi, elə bilavasitə zaman və məkan kateqoriyalarının da təsirləri altında formalaşan tarixi yaddaş məsələsi götürülməlidir. Bu amil yaradılmış istənilən mədəniyyətin tarixə keçməsinə, orada özünə yer edərək yaşamasına və gələcəyə ötürülməsinə zəmanət verən əsas amildir. Eləcə də, tarixin müəyyən dönəmlərində baş vermiş hadisə və proseslərin tədqiqi və təhlili, istənilən mədəniyyətin, onun maddi və mənəvi mirasının daha asan dərk olunmasında da ən vacib amildir. Bu faktor gələcək üçün adekvat nəticələrin çıxarılmasında da son dərəcə önəmlidir. Tarixi proseslərdə baş verəcək istənilən dəyişikliklərə daha hazırlıqlı olmanın da zəmanətidir. Bu kimi məsələlərə diqqət yetirən sovet və rus tarixçisi, kulturoloq A.Y.Qureviç də yazır ki, tarixi yaddaş birmənalı olaraq mədəniyyətlərin dialoqudur. Bu dialoqlarda tərəflər olan keçmiş və indiki mədəniyyətlərdən hər ikisinin iştirakı son dərəcə vacibdir [11, s.11].

Mədəniyyət fenomeninə fəlsəfi nöqteyi nəzərdən yanaşarkən, üçüncü əsas arqument kimi tarixi yaddaşın yaradıcısı və eyni zamanda da daşıyıcısı olan insan amilini də nəzərə almaq lazımdır. Mədəniyyəti zamanda sürdürən, məkanı mədəniyyətin nailiyyətləri ilə bürüyən və tarixi yaddaşı formalaşdıran məhz Adəm övladı olan insandır. Bu mənada mədəniyyəti yaradan, onu hifz edən insan hər hansı bir bioloji növ yox, mədəniyyətin qaynağı olan varlıqdır. Mədəniyyətin bütün məsuliyyəti məhz onun üzərində-

dir. Keçmişin mədəniyyəti onun yaddaşında, indinin mədəniyyəti öz əllərində, gələcəyin mədəniyyəti isə, düşüncəsindədir. Bu cəhətləri ilə insan mədəniyyətin mənbəyi və mənsəbidir. Qeyd olunan və bu qəbildən olan digər problemlərin tədqiqi ilə məşğul olan rus filosofu və idrak nəzəriyyəçisi V.N.Porus da hesab edir ki, insanlar öz üzərlərində mədəniyyətin bir sərvət olaraq hakimiyyətini qəbul etdikcə mədəniyyət də yaşamaqda davam edəcəkdir [19, s.284].

**Şərq və Qərb mədəniyyətləri kontekstində mədəniyyət**

Məlumdur ki, fəlsəfi cəhətdən sistem olaraq bütövlükdə götürüldükdə ümumdünya mədəniyyəti müxtəlif yerli lokal mədəniyyətlərin toplumundan, yəni saysız-hesabsız sistemyaradıcı elementlərdən ibarətdir. Bu mənada, lokal mədəniyyətlərin vəhdəti birbaşa olaraq qlobal mədəniyyətin də formalaşmasını şərtləndirir. Fikrimizcə, olduqca metafizik məna kəsb edən qlobal mədəniyyət o halda, sözün tam mənasında "qlobal" kimi qəbul olunmalıdır ki, sonsuz sayda olan lokal mədəniyyətlər bu və ya digər dərəcədə bəzən birbaşa, bəzən isə, dolayısı ilə ona təsir etsin. Hər hansı bir formada və hər hansı bir özünəxas elementi ilə onda ərisin. Bir damla olaraq dünya mədəniyyəti adlı nəhəng ümmanın tərkibinə daxil olsun. Fəlsəfi cəhətdən yanaşdıqda bunu təsəvvür edərək düşüncədə canlandırmaq mümkündür. Eləcə də, dialektik anlamda bu proses öz təbii mahiyyətindən irəli gələrək həm də qaçılmazdır. Çünki zamandan asılı olmayaraq olmuş və olacaq mədəniyyətlərin məkanı da birdir. Həmçinin dünya adlı bu bəlli məkan olduqca geniş olsa da, qeyri-məhdud da deyil. Onun Şərqi və Qərbi bilinəndir. Sərhədləri məlumdur. Bu məntiqdən yanaşdıqda, Şərqin və Qərbin ən uzaq sərhədlərindəki mədəniyyətlər arasında tarix boyu formalaşan əlaqələr, bu mədəni əlaqələrin əsrlərlə toplanaraq getdikcə daha da möhkəmlənməsi faktının gerçəkliyi də məntiqi olaraq labüddür. İnsaniyyət tarixində olmuş və olacaq bütün mədəniyyətlər öz müsbət və mənfi tərəfləri ilə insaniyyət tarixində-dünya mədəniyyətində indiyədək qalmaqda olduğu kimi, bundan sonra da qalacaqdır. Bu məntiqdən irəli gələrək geniş dünyada nəzəri-praktik fəaliyyət, yəni insan faktoru (düşüncə miqrasiyası) olduqca, lokal mədəniyyətlər qlobal mədəniyyətə təsir edəcək və onda əriyəcəkdir. Deməli, lokal mədəniyyətlərin qlobal mədəniyyət ilə vəhdəti təkcə insan təfəkkürünün nəzəri mülahizəsi yox, həm də insanın praktiki fəaliyyəti ilə də əlaqəli olan tam təbii və qanunauyğun dinamik bir prosesdir. Bu prosesin, yəni lokal olan mədəniyyətlər ilə, qlobal olan mədəniyyətin əlaqəsi/əlaqələndirilməsi tam bir zərurətdir. Nəticə olaraq, insaniyyət tarixindəki istənilən dönəmlərdə formalaşmış bütün mədəniyyətlər bir-biri ilə daim əlaqəli olmuşdur. Bu əlaqələri birbaşa şərtləndirən faktorlar qismində isə, insan və təbiət kimi təbii amillər çıxış etmişdir.

Tanınmış sovet, eləcə də rus filosof, kulturoloq və mədəniyyət tarixçisi olan V.S.Bibler yazır ki, hər bir mədəniyyət öz sonsuz ehtiyyatları, sirləri və imkanlarını açan sistemdir [2, s.27]. Düşünürük ki, bu paradiqma mədəniyyət tarixinin bütün mərhələlərində aktual olmuşdur. Müasir dünyada isə, aktuallıqdan da irəli keçərək artıq zəmanənin zərurətinə çevrilmişdir. Həqiqətən də, bugünkü müasir texnologiyaların, media və internetin imkanlarını nəzərə aldıqda qlobal dünyada "ehtiyyatlar", "sirr" və "imkanlar"ın açılmadan və paylaşılmadan gizli qalması imkansızdır. Müasir dünyada mədəniyyətlər (qloballaşan hegemon mədəniyyətlər) nəhəng sistemlər olaraq, məhz öz daxili elementlərini, özlərinin törətdiyi məhsulları, istehsal etdikləri maddi və mənəvi nemətləri digərlərinininkindən daha yüksək keyfiyyətlərə malik kimi təqdim etməyə (ümumi şəkildə olanlarının üstünlüyünü sübut etməyə və ya qlobal kapitalizmin meyarları ilə daha yüksək dəyərə satmağa) çalışırlar. Böyük alman filosofu İmmanuel Kantın (1724-1804) məşhur ifadəsincə, mədəniyyətlərin "özündə şey" olaraq mövcudluğu əvvəlki əsrlərdə müasir texnologiyalarsız labüd olsa da, müasir dünyada internet əsrində bu, sadəcə mümkünsüzdür. Nəticə olaraq, müsir dünyada mədəniyyətlərin əldə etdiyi nailiyyətlərin (subyektiv yanaşdıqda mənfi və müsbət kimi dərk olunmasından asılı olmadan) bilinməməsi, gizli qalması qeyri-mümkündür. Müasir dünyada yeni mədəniyyətlərin istənilən sirli tərəfinin aşkar edilməsini bacaracaq qlobal kapitalizm deyilən amansız carçının mövcudluğu da nəzərə alınmalıdır.

**Şərq və Qərb mədəniyyətləri kontekstində Azərbaycan mədəniyyəti fenomeni**

Yuxarıda qeyd olunan fəlsəfi mühakimələrdən irəli gələrək, eləcə də girişdə vurğulandığı kimi, təbii coğrafi mövqeyinə əsasən Azərbaycan mədəniyyətinin təşəkkülü də Şərq və Qərb mədəniyyətlərinin (dünyanın müxtəlif bölgələrindəki fərqli sivilizasiyaların) təsiri altında baş vermişdir. Eramızdan əvvəllərdən başlayaraq Böyük İpək yolunun Azərbaycandan keçməsi bu məkanın mədəni sahədə inkişafına, mənəvi mədəniyyətin müxtəlif sahələrində nəzərəçarpacaq irəliləyişlərə və köklü dəyişikliklərə səbəb olmuşdur. İpək yolunun uzun bir zaman ərzin-

də Şərq və Qərbi, dünya mədəniyyətlərini birləşdirən əsas arteriyalardan biri olması da, dünya miqyasında mədəniyyətlərarası təsirlərə öz töhfəsini vermişdir. Əvvəldə qeyd etdiyimiz təbii amil faktoru kimi də qiymətləndirilməsi mümkün olan Böyük İpək yolu, Uzaq Şərq və Qərb mədəniyyətlərinin, bu mədəniyyətlərdən ehtiva ediləcək elementlərin Azərbaycana daşınmasında əsas ötürücü vasitə olmuşdur. Bu əlaqələrdə antik yunan və Roma mədəniyyətləri, fəlsəfi təlimləri Azərbaycana sirayət etdiyi kimi, qədim hind və İran mədəniyyətləri, dini-mistik dünyagörüşü sistemləri, zərdüştlük fəlsəfəsi də bilavasitə Azərbaycan vasitəsi ilə Qərb dünyasında mövcud olan sivilizasiyalara daxil ola bilmişdir. Şərq və Qərbin qədim sivilizasiyaları onların Azərbaycanın da təmsil olunduğu Yaxın və Orta Şərqdə kəsişməsi, bu proseslərdə mədəniyyətlərin, məntiq sistemlərinin dialoqu məsələləri Azərbaycanda fəlsəfə tarixinin inkişafında xidmətləri olmuş Əhməd Kərədi Zəkuyevin (1888-1968) tədqiqatlarında da geniş şəkildə öz əksini tapmışdır [26, s.83].

Qədim dövrlərdən başlayan bu əlaqələr orta əsrlərdə də inkişaf edən xətt üzrə davam etmişdir. Belə ki, Şirvanşahlar və Eldəgizlər dövlətləri zamanı Azərbaycan mədəniyyəti özünün yüksəliş dövrünə qədəm qoymuşdur. Azərbaycan Şərqin və müsəlman Şərqinin ən nümunəvi dövlətlərindən birinə çevrilmişdir. Azərbaycan mədəniyyətinin nəhəng simalarından olan Qətran Təbrizi (1012-1081), Xətib Təbrizi (1030-1109), Məhsəti Gəncəvi (1089-1160), Əbül-Üla Gəncəvi (1096-1159), Eynəlqüzat Miyanəci (1099-1131), Fələki Şirvani (1108-1146), Xaqani Şirvani (1126-1199), Mücirəddin Beyləqani (1130-1194), Nizami Gəncəvi (1141-1209), Əcəmi Naxçıvani (XII), Şihabəddin Yəhya Sührəvərdi (1154-1191), Siracəddin Urməvi (1198-1283), Rəziyyə Gəncəvi (XII-XIII), Mahmud Şəbüstəri (1288-1320) və digərlər tarixi şəxsiyyətlər-şair və filosoflar məhz bu dövrdə yaşayıb yaratmışdır. Bu mütəfəkkirlərin bir qisminin, xüsusi ilə də, Nizami Gəncəvi irsinin bu gün də Uzaq Şərqdən başlayaraq Qərbədək bütün dünyada tədqiqi kiçik məkanı əhatə edən böyük mədəniyyətimizin zənginliyinə bir daha sübutdur. Deyilənlərə misal olaraq 2013-cü ildə Böyük Britaniyada Oksford Universitetinin nəzdində yaradılmış elmi-tədqiqat ocağı olan "Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzi"ni (The Nizami Ganjavi Programme for the study of languages and cultures of Azerbaijan and the Caucasus) nümunə göstərmək olar. Mərkəzin Nizami Gəncəvi Proqramının əsas vəzifələri qismində; Azərbaycan Albaniyasının qədim paytaxtı və Qafqazda ilk müsəlman qarnizonlarından biri olan Bərdə şəhərində arxeoloji qazıntıların aparılması, Azərbaycan və Qafqaz tarixinə aid rus və Azərbaycan dillərində yazılmış mühüm əsərlərin ingilis dilinə tərcüməsi və ictimaiyyətə tanıdılması, Oksford Universitetinin və kənardan dəvət olunmuş alimlərin iştirakı ilə mühazirə və seminarların təşkili, Azərbaycanın və Qafqazın qədim dilləri və mədəniyyətin öyrənilməsinə yönəlmiş tədqiqatların, seminarların və xüsusi mühazirələrin nəticələrini işıqlandırmaq və beynəlxalq elmi ictimaiyyətə çatdırmaq məqsədi güdən saytın yaradılması və işlədilməsi, Şərqşünaslıq, tarix və arxeologiya istiqamətləri üzrə elmi araşdırmaların maliyyələşdirilməsi müəyyən edilmişdir.

Əvvəldə də əsaslandırıldığı kimi mədəniyyətlərin vəhdəti problemini məkan müstəvisinə daxil etdikdə, ənənəvi məkanlar-sivilizasiyalar kimi qəbul olunmuş Şərq və Qərb mədəniyyətlərinin (bu bölgünün olduqca şərti olmasını da nəzərə aldıqda) də, bir-birindən təcrid olunması qeyri-realdır. Eləcə də, nəzərə alsaq ki, Şərq və Qərb mədəniyyətləri dünya tarixi boyunca sinkretik formada bir-birlərinə öz sakral olan sirlərini agah etdikləri kimi, bəzi hallarda eklektik formada müəyyən gizli məqamları da qarşılıqlı şəkildə bir-birindən mənimsəyə bilmişlər. Mənimsədiklərini öz imkanları çərçivəsində daha da inkişaf etdirmişlər. Fikrimizcə, sinkretizm və eklektizm daim mədəniyyətlərin bir-biri ilə əlaqələnməsi prosesini gücləndirmiş, onlar arasındakı mənəvi keçidləri şərtləndirən, onlara zəmin hazırlayan əsas amillərdən olmuşdurlar. Bu proseslər (sırf fəlsəfi terminlər mənasında yox) ümumdünya mədəniyyətinin də inkişafını təmin edən əsas amillər qismində çıxış etmişdir. Düşünürük ki, təbii proseslər olan sinkretizm və çox zaman fəlsəfədə tənqid edilən eklektizm olmadan, ümumiyyətlə, mədəniyyətlərin də inkişafı mümkünsüzdür. Bu məntiqdən yanaşdıqda bir mədəniyyətdə digər mədəniyyətin hər hansı bir ünsürünün aşkar edilməsi qəbahət yox, fəzilət kimi qəbul olunmalıdır. Məhz bu amillər mədəniyyətlər arasında oxşarlıqları və eləcə də oxşarlıqlardan irəli gələn komparativistik təhlilləri də mümkün edir. Bu cəhətdən, görkəmli Azərbaycan-sovet filosofu, ictimai xadim, elm təşkilatçısı, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı Heydər Hüseynov (1908-1950) da yazır ki, məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar, XII əsrdə Azərbaycanda xeyli sonralar adətən "İntibah dövrü" adlandırılan Qərbi Avropa mədəniyyətinə bir çox cəhətdən bənzər mədəniyyət inkişaf edirdi [9, s.16].

Azərbaycanda fəlsəfə tarixi elminin banilərindən biri olan Heydər Hüseynovun da qeyd etdiyi kimi, XII əsrdə Azərbaycanın da daxil olduğu Yaxın və Orta Şərqdə, yəni islam dünyasında intibah baş vermişdir. Bu intibah nəticəsində Şərqin Qərblə mədəni əlaqələri ilə yanaşı, diplomatik və ticarət əlaqələri də xeyli dərəcədə inkişaf etmişdir. Qeyd etmək lazımdır ki, Yaxın və Orta Şərq mədəniyyətinin bir hissəsi olan orta əsr Azərbaycan mədəniyyətinin formalaşması və onun Qərb ilə əlaqələri həqiqətən də daim yüksək səviyyədə olmuşdur. Orta əsrlərdə Qərb səyyahları Azərbaycana səfərlər etmiş mədəniyyətimizi də özləri ilə birgə Qərbə aparmışdırlar. Məsələn, Uzaq Şərqə, xüsusən də Çinə səyahətlərdə olmuş məşhur italyan səyyahı Marko Polo (1254-1324) belə şəxsiyyətlərdən biri olmuşdur. İtaliyadan Çinə getmiş Marko Polo, səyahətləri zamanı Bakı neftinin Yaxın Şərq ölkələrinə aparılması ilə yanaşı, Şamaxı və Bərdə kimi qədim şəhərlərdə istehsal edilən ipək məmulatlarının gözəlliyini də xüsusi olaraq qeyd etmişdir. O, orta əsrlərdə böyük mədəniyyət mərkəzi olan Təbriz şəhərində də olmuş, bu şəhərdəki mədəni, iqtisadi, sosial həyatı təsvir etmişdir. Beləlikə, bu səyahətlər zamanı Qərb mədəniyyəti islam regionu olan Azərbaycandan da keçərək Çinədək irəliləmişdir.

XV əsrdə Əmir Teymur (1336-1405) imperiyasının paytaxtı Səmərqənddən dönməkdə olan ispan səyyahı və diplomatı Rui Gonsales de Klavixo (ö. 1412) da, Şamaxı şəhərində istehsal olunan ipəyin əldə edilməsi məqsədilə, İtaliya şəhər dövlətlərindən Genuya və Venetsiya tacirlərinin Azərbaycana gəlmələri barədə məlumatlar vermişdir. Daha sonrakı əsrlərdə də bu əlaqələr yüksələn xətt üzrə inkişaf etmişdir. Ağqoyunlu dövlətinin banisi Uzun Həsən (1423-1478) də Qərb ölkələri ilə sıx diplomatik əlaqələr qurmuşdur. Bunun nəticəsində İtaliya elçiləri və Venetsiya diplomatlarından Katerino Zeno, İosafat Barbaro, Paolo Onyibene, Ambrocco Kontarini Ağqoyunlu sarayına - Azərbaycana səyahətlər etmişdirlər. Avropa ölkələri ilə diplomatik əlaqələrin qurulması məqsədilə, Uzun Həsənin elçilərindən İshaq və Hacı Məhəmməd Venetsiyaya diplomatik nümayəndələr qismində göndərilmişdir. Bunun nəticəsində Şərqin müsəlman dünyasının mədəniyyəti Qərbə yol açmışdır. Ağqoyunlu dövlətinin Venetsiyadan savayı Polşa, Macarıstan, Habsburqlar imperiyası, Roma-Papalıq, Florensiya, Fransa, Burqundiya və Neapol krallığı ilə danışıqları çoxsaylı Azərbaycan tədqiqatçıları [13, s.264; 12, s.116; 16, s.197] ilə yanaşı, bəzi Qərb tədqiqatçıları tərəfindən də xüsusi olaraq vurğulanmışdır [24, s.88-89].

Ağqoyunlu dövlətinin süqutu və onun ərazisində Səfəvi dövlətinin formalaşması nəticəsində, o zamankı Şərqin ən qüdrətli dövlətlərindən biri olan Azərbaycanın, Qərb ilə əlaqələri yeni mərhələyə qədəm qoydu. Səfəvilər dövründə Qərb ölkələri, xüsusən də Böyük Britaniya ilə ipək ticarətinin təşkilində müəyyən imtiyazların alınması məqsədilə Entoni Cenkinson, Tomas Olkok, Artur Edvards, Tomas Benister, Ceffri Deket, Xristofer Berrou və digərlər tacir və iş adamları Səfəvi şahı I Təhmasibin (1514-1576) sarayına təşrif buyurdular. Təsadüfi deyil ki, istər Ağqoyunlu, istərsə də Səfəvilər dövründə Azərbaycanda xaricilərə qarşı tolerant münasibətlər Qərb yazarlarının da diqqətindən yayınmamışdır. Məsələn, Azərbaycanın digər mədəniyyətlərə açıq bir ölkə olduğunu qələmə alan alman şərqşünası Adam Oleari (1599-1671) də yazırdı ki, Azərbaycanda yerlilər və yabancılar tələb olunan gömrüyü dövlətə ödəməklə ölkəyə sərbəst gedib gələ bilirlər. Həm də ticarət və sənətkarlıqla da məşğul ola bilərlər [5, s.467].

Ümumiyyətlə, yuxarıda da qeyd olunduğu kimi fəlsəfi mənada mədəniyyət statik bir hadisə deyil. Mahiyyəti etibarı ilə mədəniyyət dinamik bir proses olduğundan onun özünə qapanaraq qalması, sırf özü ilə məhdudlaşması, törədiyi haşiyədən kənara sızmadan öz bətnindəcə inkişafı mümkünsüzdür. Mədəniyyətlərin diffuziyaedici, yəni bir mədəniyyətin digərinə təsiri, onun müxtəlif elementlərinin digər mədəniyyətlərə sirayət edərək keçməsi məsələsinə toxunan etnoloq və fəlsəfə tarixçisi Y.İ.Semyonov da yazır ki, mədəniyyət təkcə zamanca sosial tarixi orqanizmin daxilində məhdud şəkildə ötürülməklə kifayətlənmir. Əksinə məkanca da bir sosial tarixi orqanizmdən digərinə ötürülə bilir. Bunun nəticəsində fərqli cəmiyyətlər bir-birindən mədəniyyətin müxtəlif təzahürlərini mənimsəyir [21, s.53]. Bu mühakimə ilə tam razılaşsaq da, digər tərəfdən, tam əksinə, mədəniyyətin daimi dinamik vəziyyətdən statik hala keçməsi, əldə etdiyi nailiyyətləri onu təmsil edən düşüncələrə, mədəniyyət daşıyıcılarına ötürməsi də vacib prosesdir. Fikrimizcə, bu proses yerli mədəniyyətin, ictimai fikrin, milli fəlsəfənin formalaşmasında əsas faktordur. Bu cəhətdən, tanınmış politoloq və geosiyasi nəzəriyyələr üzrə mütəxəssis E.A.Pozdnyakov yazır ki, hər bir xalqın mədəniyyəti istər daxili, istərsə də xarici təsirlərə qarşı davamlı və dayanıqlı mənəvi sədd formalaşdırmaq iqtidarındadır [20, s.20]. Y.İ.Semyonov və E.A.Pozdnyakovun müəyyən anlamda, həm də bir-birinə zidd olan iki baxış bucağını ümumiləşdirsək, belə bir nəticəyə gəlirik ki, mədəniyyətin dinamik bir şəkildə digər

mədəniyyətlərdən hazır formada hansısa elementləri durmadan ehtiva etdiyi kimi, onun statik olaraq qalması, yenilənməməsi, mədəni transformasiyalara sədd çəkməsi, konservativ bir formada ənənələrə söykənməsi, keçmişlə yaşaması, sekulyarlaşmaya maneə olması, daşıyıcılarının böyük qisminin təfəkkür əngəllərindən irəli gələrək dövrünə qatıla bilməməsi, ümumilikdə dövrü geri salması da normal hal deyil. Düşünürük ki, hər bir mədəniyyət üçün bu iki paradiqma arasındakı orta mövqe, yəni artıq formalaşmış özülü-əsası qoruyaraq onu gərəkli əlavələr ilə zənginləşdirmək ən uyğun olan doğru yoldur. Geriyədönüşü inanılmaz olsa da, çətinliklərdən çıxaraq mövcudluğunu qorumuş sivilizasiyalar (məsələn, birinci Dünya müharibəsindən sonra Türkiyə, İkinci Dünya müharibəsindən sonra Almaniya və Yaponiya) deyilənlərə əyani misaldır. Bu mühüm məsələyə fəlsəfi cəhətdən yanaşdıqda orta mövqe deyərkən yerli, öz mədəniyyət, onun inkişafına maneə olan əngəllərin aradan qaldırılmasında göstərilən canfəşanlıqları da nəzərdə tutmalıyıq. Düşünürük ki, bu məntiqdən yanaşdıqda XIX əsr Azərbaycan mədəniyyətinin zənginləşməsi Şərq və Qərb mədəniyyətlərinin maddi və mənəvi elemetlərinin diffuziyası ilə bağlı olduğu qədər, həm də bu diffuziya məhsullarının milli adət və düşüncə süzgəcindən keçirilməsi, mədəniyyət daşıyıcılarına bu formada təqdim olunması ilə də bilavasitə əlaqədar olmuşdur. Şərq təfəkküründə sakrallaşmış bəzi ünsürlərin dövr keçdikcə köhnəldiyindən, onların Qərb elementləri ilə əvəz olunması və əksinə Qərbə nisbətdə daha üstün olan Şərq elementlərinin qorunub saxlanma mübarizəsi XIX əsr Azərbayan mədəniyyət tarixində də müşahidə olunmuşdur. Bu mübarizənin mübarizlərinə misal olaraq; Qasım bəy Zakir (1784-1857), Mirzə Şəfi Vazeh (1794-1852), Abbasqulu ağa Bakıxanov (1794-1847), Mirzə Kazım bəy (1802-1870), Mirzə Fətəli Axundov (1812-1878), Seyid Əzim Şirvani (1835-1888), Həsən bəy Zərdabi (1837-1907), Nəcəf bəy Vəzirov (1854-1926) və başqalarını misal göstərmək olar.

Fikrimizcə, Şərq və Qərb mədəniyyətlərinin üstünlüksüz vəhdəti məsələsi azərbaycanlı yazıçı, maarifçi, şair, filosof, ictimai xadim, Azərbaycan dramaturgiyası və Azərbaycan ədəbiyyatında ədəbi tənqidin banisi, Şərqdə "müsəlman Molyeri", "Şərq reformatoru" kimi də tanınan Mirzə Fətəli Axundovun "Kəmalüddövlə məktubları" adlı fəlsəfi traktatında polemik bir şəkildə yer almışdır. Gerçək Şərq simasını, xürafatdan təmizlənmiş həqiqi islam əqidəsini itirmədən Qərbin müsbət keyfiyyətləri ilə keyfiyyətlənmək problemi Mirzə Fətəli Axundov tərəfindən fəlsəfi incəliklərlə, olduqca dolğun bir şəkildə qələmə alınmışdır. Adı gedən əsərdə böyük mütəfəkkir iki düşüncə tərzinin müsbət və mənfi tərəflərini, polemikaya daxil olan obrazların (Şərq və Qərb steriotiplərinin) dili ilə olduqca gözəl bir formada təqdim etmişdir. Təsadüfi deyil ki, bu məsələyə diqqət yetirən ədəbiyyatşünas Hüseyn Baykara (Qara Hüseynov 1904-1984) da yazır ki, Mirzə Fətəli "Kəmalüddövlə məktubları"nda bir daşla iki quş vurmuşdur [15, s.26]. Fikrimizcə, fəlsəfi fikir tarixində Axundovun yaradıcılığı Qərb və Şərq dialoqlarının ən tutarlı mənbələrindəndir. Axundov irsinin tədqiqatçılarına görə, milli təfəkkürdə Şərq və Qərb dəyərlərinin sintezi ilə yanaşı [6, s.144], Şərq bədii və fəlsəfi dünyagörüşündən ayrılıb Avropa düşüncə tərzinə keçid Azərbaycanda məhz Mirzə Fətəli Axundovla başlayır [4, s.156]. Bu mənada M.F.Axundov həm də Azərbaycan və bütövlükdə türk dünyasında Qərbyönlü maarifçilik ordusunun təşəkkül tapmasında da mühüm rol oynamışdır [4, s.208].

Dünyagörüşü Qərb və Şərq düşüncələrinin vəhdətində formalaşmış ziyalılarımızdan biri də şübhəsiz ki, Azərbaycan şairi, yazıçısı, alimi, mütəfəkkiri və tərcüməçisi Abbasqulu ağa Bakıxanov olmuşdur. Bu mənada tənqidçi ədəbiyyatşünas Yaşar Qarayev də qeyd edir ki, Bakıxanov orta əsrlərdən yeni dövrə, Asiyadan Qərbə, sxolastik ifratlardan, ənənədən müasir mənada elmə keçidi hazırlayan ilk böyük maarifçi ədib və alimdir [22, s.17]. Azərbaycan mütəfəkkirlərinin Qərb və Şərq təfəkkür tərzləri arasında orta mövqe və ya nizamı təyin etmə cəhdləri, XIX əsrin sonu, XX əsrin əvvəllərində də davam etdi. Bu dövrün ən böyük simalarından biri olan Azərbaycan maarifçisi və naşiri Həsən bəy Zərdabi 1875-ci il iyul ayının 22-də milli mətbuatımızın əsası sayılan "Əkinçi" qəzetinin ilk sayını nəşr etməyə nail oldu. Tarixçi alim Cəmil Həsənli yazır ki, Həsən bəy zəmanənin tələbatını dərindən duyduğundan son dərəcə istedadlı və xalqın halına yanan gənc ziyalıları islahatçı islam mənəviyyatı, türk dili və qabaqcıl Qərb təfəkkürü ətrafında birləşdirdi [8, s.48].

Düşünürük ki, mədəniyyətlərin statik olaraq qalmadan, dinamik şəkildə qarşılıqı dialoqlara daxil olmalarında, mədəniyyətlərin tarixi şəraitdən irəli gələrək bir-birinə doğru hərəkətlənmələri də əsas amillərdəndir. Bu amil istənilən lokal mədəniyyətin tanınması/özünü tanıtması, dünya mədəniyyəti məkanına daxil olması, gerçəkləşməsi və dünya mədəniyyəti daxilində inkişaf etməsinə təminat verən faktordur. Bu cəhətdən, müasir dünyada da tanın-

maq üçün iddialı olan mədəniyyətlərin statik qalaraq dünya mədəniyyətinə inteqrasiyası olduqca çətindir. Bu qəbildən olan problemlərə diqqət yetirən tanınmış kulturoloq və sənətşünas D.S.Lixaçov da hesab edir ki, mədəniyyətlərarası dialoq hər şeydən əvvəl xüsusi bir proses olaraq öz mədəniyyətinin dərkidir. Bu dərketmə prosesi ancaq digər mədəniyyələrin də dərki ilə gerçəkləşir. Əks halda öz mədəniyyətini heç bir dünya mədəniyyəti ilə müqayisə etmədikdə o natamam xarakter daşıyacaqdır [18, s.81]. Düşünürük ki, bu fikir xüsusən müasir dövrdə, ümumiyyətlə, mədəniyyət problemi və mədəniyyətlərarası dialoqların da əsas kredosunu təşkil edir. Digər tərəfdən isə, öz mədəniyyətini, öz düşüncə və ya əmək məhsulunu tanıtmaq önəmli olduğu qədər, onu tanıtdıqdan sonra qorumaq, özünkü olaraq saxlamaq, hifz etmək də əsas məsələdir. Bu mədəniyyətin dayanıqlı və onun daşıyıcılarının fədakarlığını əks etdirən başlıca amildir. Bu cəhətdən, tanınmış amerikan filosofu, sosioloqu və praqmatizm cərəyanının da başlıca nümayəndələrindən biri olan Con Dyui (1859-1952) yazır ki, hər bir mədəniyyətin özünəməxsus üslub və özünə xas əlamətləri onun öz qüvvəsini də təyin edən amillərdir [3, s.39].

Bu iki fikirdəki əsas fəlsəfi məzmunu XX əsrin əvvəllərində formalaşan Azərbaycan mədəniyyətinə də şamil etmək mümkündür. Belə ki, qeyd olunan əsrin əvvəllərində qədimlərdən üzü bəri formalaşan zəngin dövlətçilik ənənələrinin yenidən bərpası, qədim tarixi kökə bağlılıq, islam dininin mənəvi-əxlaqi normalara biçilməsi, milli mənsubiyyətin yenidən və yeni formada dərki, müstəqillik bayrağı qaldırmış Qərb və Şərq xalqlarının sırasında bir toplum şəklində olma, milli müstəqillik məfkurəsini düşüncələrə yaymaq tendensiyası, Azərbaycan ideyasının zərurəti, hətta gender məsələləri də əsaslı şəkildə gündəmə gəlmiş oldu. Düşünürük ki, Azərbaycan mədəniyyətinin qeyd olunan mərhələdə sadalanan bu kimi çağırışların imtahanlarından keçmə yolunun tarixi də olduqca maraqlı və son dərəcə şanlıdır. Bu imtahana Azərbaycan problemini həll etmək üçün çıxan fikir aydınlarından; Məhəmməd ağa Şahtaxtinski (1846-1931), Əlimərdan bəy Topçubaşov (1863-1934), Əli bəy Hüseynzadə (1864-1940), Əhməd bəy Ağaoğlu (1869-1939), Fətəli xan Xoyski (1875-1920), Nəsib bəy Yusifbəyli (1881-1920), Məhəmməd Əmin Rəsulzadə (1884-1955), Üzeyir Hacıbəyov (1885-1948) və digərləri Şərqin ilk Şərq-müsəlman mahiyyətli, amma Qərb tipli dövlətini qurmaq ilə cavab verdilər.

Bu mənada azərbaycanlı dövlət və ictimai xadimi, siyasətçi və publisist, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banilərindən və Azərbaycan siyasi mühacirətinin liderlərindən biri olan Məhəmməd Əmin Rəsulzadə ADR-in söykəndiyi ideoloji-tarixi dəyərləri belə xülasə edirdi: "Bizim üçrəngli bayrağımız türk milli mədəniyyətinin, İslam sivilizasiyasının və müasir Avropanın demokratik əsaslarının rəmzidir. Bu bayraq endiriləməz!" [25, s.51]. Əli bəy Hüseynzadə isə, milli tərəqqidə avropalılığı Avropada bu və ya digər xalqın, dinin çərçivəsindən çıxıb, ümumbəşəri əhəmiyyət kəsb edən mədəniyyətlərinin əsaslarını İslam dininin qanunlarını nəzərə almaqla, Azərbaycanda tətbiq etməkdə görürdü [7, s.60]. Dünyagörüşü bilavasitə mütərəqqi Şərq və Qərb mədəniyyətlərinin təsiri altında formalaşan Əli bəy Hüseynzadə haqqında düşüncələrini qələmə alan Qafqaz və Azərbaycanşünas Tadeuş Svetoxovski (1934-2017) də yazır ki, Rusiyada təhsil aldığı müddətdə panslavyanizmdən təsirlənərək, 1889-cu ildə İstanbula gedən Əli bəy Hüseynzadə iki türk xalqını birləşdirməli olan pantürkizm ideyalarını inkişaf etdirmişdir [23, s.33]. Ə.Hüseynzadənin dünyagörüşü bütövlükdə Şərq və Qərb kontekstində, Azərbaycan, Rusiya və Türkiyə mühitində formalaşmışdır [15, s.57]. Professor X.Məmmədov vurğulayır ki, Azərbaycan milli istiqlal hərəkatının inkişafında bütün Yaxın və Orta Şərqdə, Mərkəzi Rusiya və Qərbi Avropada tanınmış görkəmli publisist, şərqşünas alim, ideoloq və ictimai-siyasi xadim olan Əhməd bəy Ağaoğlunun da xüsusi xidmətləri olmuşdur [15, s.59]. T.Əzizova görə, Ə.Ağayev Quranın kəlamlarını dərindən öyrənib, onlara əməl etməyi və Avropanın mədəni xalqlarının ən yaxşı ənənələrini mənimsəməyi, oradakı elmi və texniki nailiyyətlərlə yaxından tanış olmağı bütün müsəlman xalqlarına tövsiyə edirdi [7, s.60-61].

Yaşadığımız müasir dövrdə də mədəniyyətlərin bir-birinə doğru hərəkətlənməsi, onların orta bir nöqtədə (məkani olaraq) birləşməsi və ya qovuşmasını qaçılmaz edir. XXI əsrdə də orta nöqtə olmadan müasir mədəniyyətlərin təması və mübadiləsinin də baş verməsi mümkünsüzdür. Amma nəzərə almaq lazımdır ki, bu prosesdə mədəniyyətlərin tam olaraq sürüşməsi, yerlərini birdəfəlik tərk etmələri də yolverilməzdir. Belə ki mədəniyyətlərin hərəkəti, onların birdəfəlik olaraq öz məcralarından çıxması, başqa məkana daxil olması da demək deyil. Bu mənada, Şərq və Qərb mədəniyyətlərinin təması, dialoqlara daxil olmasında üçüncü orta və ya keçid məkanların da mövcudluğu vacibdir. Şərq və Qərb mədəniyyətləri, onların qarşılıqlı təması üçün belə orta məkanlar qismində müasir Azərbaycan Respublikasının

rolu xüsusidir. Digər tərəfdən, müasir dövrdə mədəniyyətlərarası dialoqlar üçün vacib şərtlərdən biri də fərqli mədəniyyətləri bir-birinə bağlayacaq fərqli mədəniyyətlərin də təsirləri altında formalaşmış belə məntəqələrin olmasıdır. Bu cəhətdən, akademik R.Mehdiyev də qeyd edir ki, Azərbaycan XXI əsrdə qloballaşan məkanlardakı sivilizasiyaların dialoq və təmas nöqtəsidir [14, s.180]. Düşünürük ki, bu amil dövlətimiz üçün böyük bir imkandır. Bu imkan geosiyasi arenada da Azərbaycan mədəniyyətinin tanınmasında mühüm rola malikdir. Müasir dünyada həyatın bütün sferalarında qlobal miqyaslı dəyişikliklər, müasir dünyanın informasiya əsrinə daxil olması, internetin əsas qloballaşdırıcı amilə çevrilməsi, bunlardan irəli gələrək dialoqların mütləq zərurəti (həmçinin tərəflərin dövrün tələblərindən irəli gələrək dialoqlara daxil olma məcburiyyəti), dünyada balansın qorunması, sosio-mədəniyyətin müasir təzahür formalarından olan turizmin inkişaf etdiyi və bütün bu qeyd olunanların müasir anlamda dərk olunan dövlətlərin, cəmiyyətlərin əsas iqtisadi göstəricilərini təyin edən amillər sırasına daxil olduğu bir vaxtda ölkəmizin təbii olaraq əlinə düşən bu tranzit-əlaqələndirmə imkanlarından maksimum dərəcədə yararlanması olduqca zəruridir. Bu imkanın əvvəldə də vurğulandığı kimi tarixi köklərə bağlı olmasını da nəzərə aldıqda qeyd olunan bu determinizm bir qədər də aydınlaşmış olur. Artıq qlobal kapitalizmin tüğyan etdiyi bir vaxtda Azərbaycan Qərb və Şərq üçün mədəniyyətlərin təmas nöqtəsindən əlavə, həm də ikili maraqlar çərçivəsində gərəkli tərəfdaş statusunu da qazanmağa başlayır. Azərbaycanın qlobal kapitalizmin həris olduğu neftə sahib olması da, ona olan diqqət və xüsusi marağı bir qədər də artırır. Bu qəbildən olan məsələlərə diqqət yetirən professor R.Aslanova da yazır ki, müasir dünyanın qlobal enerji layihələrinin gerçəkləşdiyi məkan, Şərqlə Qərb arasında nəqliyyat dəhlizi, qlobal təhlükəsizliyin təşkili üçün Azərbaycan Avropaya lazımdır [1, s.108].

## Nəticə

Qloballaşmış müasir dövr və qloballaşma prosesində dünyanın üzləşdiyi bir çox çətinliklər XXI əsrdə mədəniyyətlərarası dialoqları aktual etdiyindən, müstəqil respublika olan Azərbaycan da, bu dünyamiqyaslı proseslərdən törəyən və həll edilməsi olduqca vacib olan məsələlərdən kənarda qalmamışdır. Belə ki, müasir dövrdə də Qərb-Şərq qovuşmasında coğrafi mövqeyinin və bir məkan kimi strateji əhəmiyyətinin mühüm olması, müasir Azərbaycanı müəyyən mənada Qərb və Şərq arası dialoqlarının da mərkəzi etmişdir. Düşünürük ki, qədimlərdən bəri formalaşan Azərbaycan mədəniyyətinin mahiyyətcə ənənəvi şərqliliyi, eləcə də müasir Azərbaycanın müəyyən anlamda bir çox islam ölkələrinə nəzərən qərbliliyi, bu dialoqlarda və onların nəticələrinin dialoqlara daxil olmuş tərəfləri qane edəcək şəkildə yekunlaşmasında ən mühüm faktorlardandır. Fikrimizcə, Azərbaycanın üzləşdiyi və bu gün də bəlli "dialoqlar" səddini aşa bilmədiyi Dağlıq Qarabağ münaqişəsinin nizama salınması da, Azərbaycanın öz maddi və mənəvi potensialından daha çox, qlobal miqyaslı Şərq-Qərb mədəniyyətləri arası dialoqların-danışıqların nəticəsindən asılıdır. Yəni, Şərq və Qərb dialoqları üçün Azərbaycan nə dərəcədə önəmlidirsə, Azərbaycan üçün də Şərq və Qərb dialoqları bir o qədər önəmlidir.

**Açar sözlər:** *Azərbaycan, tarix, mədəniyyət, təsir, Şərq, Qərb, İpək yolu, dialoq*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Aslanova R. XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya. Bakı: Nurlan nəşriyyatı, 2007, 440 s.*

*2. Библер В.С. Школа диалога культур: Идеи. Опыт. Проблемы. Кемерово: АЛЕФ, 1993, 416 с.*

*3. Дьюи Д. Свобода и культура / Перевод Леонида Машковского. London: Overseas Publications Interchange LTD, 1968, 195 p.*

*4. Əhmədli R. Azərbaycan dövlətçilik fəlsəfəsi. Bakı: Nurlan, 2008, 360 s.*

*5. Əliyarlı S. Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı: Mütərcim, 2012, 560 s.*

*6. Əliyeva A. Azərbaycan ədəbiyyatında türkçülüyün təşəkkülü // Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri. Bakı: Ay-Ulduz, 1998, s.143-148.*

*7. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.*

*8. Həsənli C. Rusiya türklərinin lideri // Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri. Bakı: Ay-Ulduz, 1998, s.45-67.*

*9. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Şərq-Qərb, 2007, 400 s.*

*10. Игнатьева И.Ф. Туризм как культурный институт // Фундаментальные проблемы культурологии: В 4 т. Том III: Культурная динамика. Санкт-Петербург: Алетейя, 2008, с.209-215.*

*11. Гуревич А.Я. Избранные труды. Средневековый мир. Санкт-Петербург: Издательство Санкт-Петербургского университета, 2007, 560 с.*

*12. Mahmudov Y. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü (XV əsrin II yarısı). Bakı: Təhsil, 2007, 116 s.*

13. *Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами (II половина XV-начало XVII века). Баку: Издательство Бакинского университета, 1991, 264 с.*

14. *Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2005, 464 s.*

15. *Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri). Bakı: Elm, 2005, 249 s.*

16. *Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı: Çaşıoğlu, 2000, 197 s.*

17. *Ортега-и-Гассет Х. Эстетика. Философия культуры. Москва: Искусство, 1991, 588 с.*

18. *Полякова А.А. Развитие аксиологического потенциала личности в контексте диалога культур. Санкт-Петербург: Изд-во РГПУ им. А.И. Герцена, 2001, 211 с.*

19. *Порус В.Н. У края культуры. Философские очерки. Москва: Канон +, 2008, 464 с.*

20. *Поздняков Э.А. Философия политики. Москва: Весь Мир, 2014, 544 с.*

21. *Семенов Ю.И. Философия истории. Общая теория, основные проблемы, идеи и концепции от древности до наших дней. Москва: Современные тетради, 2003, 776 с.*

22. *Süleymanlı M. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı: Nafta-Press, 2011, 208 s.*

23. *Swietochowski T. Russian Azerbaijan, 1905-1920: The Shaping of a National Identity in a Muslim Community. New York: Cambridge University Press, 1985, 256 p.*

24. *Woods J.E. The Aqquyunlu: clan, confederation, empire. Salt Lake City: The University of Utah Press, 1999, 352 p.*

25. *Yıldız Ş. Azərbaycan Demokratik Respublikası 1918-1920: Dövlət quruculuğu, Hüquqi fəaliyyətlər, Qarabağ problemi. Bakı: Səda, 2004, 207 s.*

26. *Закуев А.К. Из истории арабоязычной логики средних веков. Баку: Элм, 1971, 83 с.*

**Профессор Гюльнара Гурбанова**
**Директор Института повышения квалификации руководящих кадров государственного управления при Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

**Влияние культур запада и востока на формирование Азербайджанской культуры**

**РЕЗЮМЕ**

В статье рассматривается проблема пересечение разных культур на азербайджанской земле и дается философский анализ, связанный с этой проблемой. Как известно в географическом контексте Азербайджан находится на стыке великих миров, и этот факт сильно повлиял на нашу культуру. В мировой истории культурные наследия Запада и Востока встречались именно здесь. Испокон веков Великий шёлковый путь проходил через Азербайджан, накапливая и унося культуру в другие страны. Накопленное веками богатое наследие помогло Азербайджану развиваться во всех культурных направлениях.

**Ключевые слова:** *Азербайджан, история, культура, влияние, Восток, Запад, Шелковый путь, диалог*

**Professor Gulnara Gurbanova**
**Director of the Senior Public Servants Professional development Institute of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**The influence of the cultures west and east on the formation of Azerbaijani culture**

**SUMMARY**

The article deals with the problem of the intersection (coexistence) of different cultures in Azerbaijan and provides philosophical analyze related to this problem. Asit is well known according to the geographical context, Azerbaijan is located at the crossroad of great worlds, and this fact greatly influenced our culture. Historically, the cultural heritage of the West and the East has merged here. Since time immemorial the Great Silk Road haspassed through Azerbaijan, accumulating and taking culture to other countries. The rich heritage accumulated over the centuries has helped Azerbaijan to develop in all cultural areas.

**Key words:** *Azerbaijan, history, culture, influence, East, West, Silk Road, dialogue*

УДК 32.019.51
DOI:10.30546/3006-0346.2024.4.82.10

# РОЛЬ СМИ В ФОРМИРОВАНИИ И РЕАЛИЗАЦИИ ИНФОРМАЦИОННОЙ ПОЛИТИКИ

**ХАЛИД НИЯЗОВ**
*Доктор политических наук, доцент*
*E-mail: xalid-555@mail.ru*

Место СМИ в политической системе К.Маркс определяет в качестве политического, но неофициального «третьего элемента», налаживающего связи между государством и обществом. По этой причине роль и функции СМИ всегда зависели от деятельности, следовательно, и от политической структуры общества. А правящий класс всегда пытался обеспечить контроль над СМИ. По поводу данной темы М.Паренти отмечает: «…совершенно ясно видна предпринимательская, защитная и правительственная направленность печати. Учитывая зависимость СМИ от состава и бизнес рекламы предпринимателей, возможности профсоюзов в объявлении потребностей и требований работников медиа достаточно ограничены» (4, 218).

Определение государственной информационной политики через категорию «власть» может показаться весьма интересным. В действительности, такой подход является логичным, поскольку власть характеризуется средствами и возможностями воздействия одного субъекта на деятельность и поведение других. Учитывая силу воздействия СМИ на мышление и поведение людей, их справедливо называют «четвертой властью». Как отмечает В.Д. Попов, «…государственная информационная политика – это способность и возможность субъектов политики воздействовать на сознание, психику людей, их поведение и деятельность с помощью информации в интересах государства и гражданского общества» [2, 38]. По мнению автора, в качестве субъекта этой политики могут выступать государство, государственные органы, политические партии, а также медиахолдинги гражданского общества, СМИ и др.

## СМИ как орудие демократии

Роль СМИ в политике, прежде всего, отражается в их функциях, которые можно классифицировать следующим образом: информирование граждан, предоставление им необходимой информации, политическое просвещение, политическая социализация, выражение различных общественных интересов, наличие артикуляционных возможностей, интеграция субъектов политики, формирование общественного мнения, критика недостатков.

В корне политической роли СМИ стоит требование «свободы слова», которое в современных условиях трансформируется в «информационную свободу». Понятие «свобода слова» было создано в период буржуазных революций против феодальных государств, являющихся основной преградой свободы. В данном случае пресса должна была защищать свою свободу, чтобы избежать посягательств правительства. Однако устранение государственной цензуры над печатью на фоне буржуазных революций привело к тому, что эта свобода оказалась в руках владельцев СМИ. По поводу данного вопроса М. Вебер пишет: «…для всех современных государств, имеет силу положение, что политическое влияние работника-журналиста все уменьшается, а политическое влияние владеющего прессой магната-капиталиста – все возрастает [1, 804]. Развитие технологии СМИ еще больше усложнило ситуацию. По мнению К.Манхейма, преобразование власти в диктатуру связано с существенными особенностями современных социальных технологий, которые активно развиваются в области формирования общественного мнения: «…В этом направлении действует механизированное массовое производство идей с помощью прессы и радио».

СМИ выступают в качестве учредителя политической системы, субъекта социального управления, политического института государства. Огромные возможности активного воздействия СМИ на политическое сознание и поведение граждан свидетельствует о важнейшей роли «четвертой власти» в современном обществе. Некоторые исследователи массовых коммуникаций говорят даже о грядущей эпохе «медиакратии» – власти СМИ, которые не столько отражают и интерпретируют действительность, сколько конструируют ее по своим правилам и усмотрению. В связи с этим, некоторые исследователи

говорят о гуманистическом воздействии СМИ на общество, а другие – об их разрушительном влиянии на людей и культуру. Противоречивое воздействие СМИ на общество может предотвратить государство. Государственный контроль в тоталитарных режимах выстроен на насилии, а в странах с либеральной идеологией и демократическими принципами все основано на гармонии интересов, взаимном контроле самого государства и средств массовой информации. СМИ формируются как фактор демократии.

Там, где отсутствует демократия бессмысленно говорить о публичности. С другой стороны, публичность и демократия не могут существовать без свободных независимых СМИ. Эта объективная реальность свидетельствует о том, что средства массовой информации являются одним из важных компонентов такой демократической системы, как парламент, исполнительные органы и независимый суд. Именно поэтому рассмотрение СМИ как «четвертой власти» является вполне понятным и целесообразным.

Следует признать, что сегодня в некоторых странах СМИ под прикрытием свободы слова и демократии избрали в качестве средства достижения своих целей деятельность, которая противоречит национальным интересам и жизненно важным интересам государства, принципам национальной и информационной безопасности. Хуже всего то, что в руках государства нет эффективного механизма по предотвращению такой антинациональной деятельности.

Роль средств массовой информации в формировании государственной информационной политики определяется ее политическими возможностями. Прежде всего, в любом государстве существует система общих ценностей, которая создает условия для совместного и мирного проживания людей. Достижение общих целей и ценностей, общественного мнения и консенсуса между различными общественными группами, а также установление диалога и связи относятся к обязанностям СМИ. Во-вторых, без участия СМИ невозможно проводить обсуждения и критику государственной политики, доносить общественное требование до правительства и, в целом, обеспечить участие общественности в разработке такой политики. В-третьих, СМИ передают общественности сведения об обязанностях, которые государство определило как перед ними, так и перед собой, а также СМИ превращаются в пропагандиста государственной политики и организатора участия граждан в общегосударственных делах. Наконец, СМИ несут моральную ответственность за формирование благоприятной психологической среды в государстве, способствуют воспитанию чувства чести и личного достоинства, внушению людям доверия к себе и государству. В этом отношении государство заинтересовано в поддержке СМИ и регулировании ее деятельности.

Французские социологи П.Бурдье и П.Шампань исследуют СМИ как мощный канал общественной активности. По мнению авторов, обращение граждан к национальным средствам массовой информации является одним из средств политической активности граждан, а также формирования гражданства. Наряду с этим, медиатизация политических процессов привела к тому, что большинство политических выступлений и заявлений были рассчитаны не на повышение политической активности и определение направлений политических процессов, а на тиражирование в медиа.

Общеизвестно, за последние годы пресса, радио, телевидение и Интернет стали неотъемлемой частью политических процессов. В данном контексте контроль над информационными потоками, а также управление ими являются одним из важнейших политических вопросов, поскольку контроль над СМИ означает вмешательство в политический процесс и владение рычагами, влияющих на их развитие.

Как и в развитых странах, в азербайджанском обществе СМИ оказывают решающее воздействие на информационное пространство. Начальный этап этого процесса обусловлен сбором и обработкой информации. Информация собирается по различным критериям. Как правило, приоритетом для потребителей информации являются ее привлекательность и неординарность, свежесть фактов и политические достижения. Информация анализируется в соответствии с целями и задачами СМИ, экономическими, политическими, идеологическими взглядами журналистов и владельцев медиа. Конечной целью является распространение информации и формирование общественного мнения.

Одним из ключевых элементов политического влияния СМИ является определение и обсуждение вопросов, находящихся в центре внимания общества и правительства. В данном случае основным моментом является превращение вопроса, представляющего наибольшую актуальность для общества, в предмет обсуждения. Так как практика показывает, что невозможно одновременно заниматься многочисленными проблемами и их обсуждением. В действительности, привлечение общественного мнения к актуальным вопросам общества является одной из основных проблем, которая всегда беспокоила политиков. Именно подобным методом СМИ как «четвертая власть» раскрывают реалии, являющиеся источником проблемы, публично осуждают и критикуют виновных.

Следует также учитывать, что, несмотря на то, что пресса называется четвертой ветвью правительства, однако «власть» журналистов носит символический характер. Безусловно, медиа обладают возможностями создать некоторые социальные соображения относительно желаемой модели общества и государства, а также путями ее достижения. Эта социальная привилегия расширяет власть СМИ в обществе, но параллельно превращает их в мишень постоянного влияния политики и экономики. Наряду с этим, и сами названные сегменты подвергаются частым влияниям СМИ. Естественно, ко всему этому следует подходить с призмы общественно-политического строя и реалий соответствующего периода. К примеру, в советском обществе, где главную ступень в иерархической лестнице занимала коммунистическая партия, СМИ выступали в лице представителей, пропагандистов и организаторов партии. Однако социальная и политическая структура, которая изменилась после распада СССР, серьезно повлияла на развитие средств массовой информации на постсоветском пространстве. Г.Г. Почепцов выделяет три периода информационной истории постсоветского периода:

- этап распада централизации. В этот период, несмотря на создание многочисленных новых СМИ, однако не уделяется должного внимания на подготовку материальных и интеллектуальных ресурсов для заполнения данного информационного потока;

- этап бизнеса или распродажи: в результате те или иные каналы, журналы и газеты первого периода становятся предметом вторичной купли-продажи;

- третий этап характеризуется началом сильной конкуренции между СМИ [6, 125].

Указанные этапы можно отнести к истории азербайджанских СМИ в постсоветский период. В последнее десятилетие прошлого века, после восстановления государственной независимости в довольно сложных исторических и общественно-политических условиях, в нашей стране были созданы многочисленные медиаструктуры. Первоначально сюда были отнесены газеты и журналы, а в последующем к ним присоединились телеканалы, радиостанции, информационные агентства и интернет-ресурсы. В отличие от советской эпохи, право частных лиц, организаций и предприятий на независимое

создание СМИ характеризовалось быстрым ростом медиасредств в нашей стране. Данная тенденция продолжается и по сей день. Одним из основных факторов, обуславливающих все вышеперечисленное, является политическая независимость СМИ. Подобное развитие сопровождается участием новых субъектов и рыночно-финансовых структур в финансировании средств массовой информации. Однако этот процесс произошел не сразу, он был тесно связан как с экономикой, так и с политикой. На следующем этапе была обнаружена неспособность подавляющего большинства средств массовой информации быть экономически независимыми, что и обусловило их зависимость от предпринимателей, предприятий и политических партий.

Большинство тех, кто инвестировал в медиа, выбрали для себя в качестве приоритетов достижение определенных политических целей. Все это, в конечном счете, подтверждает то, что освещение государственной политики в медиа напрямую зависит от наличия и финансирования средств массовой информации.

На современном этапе научно-технического прогресса в мире была создана новая информационная среда. Развитие современных средств связи и коммуникации, международных отношений абсолютно исключает какую-либо монополию на информацию. Всеобщая декларация прав человека и другие международные соглашения предусматривают неограниченное

распространение информации, что, в свою очередь, ведет к интеграции и сближению различных народов мира. В рамках данных условий отношения между политиками и журналистами радикально изменились. Так, СМИ больше не подвергаются однозначному и жесткому подчинению политике, напротив, в их деятельности на первый план выходят человеческие ценности, что является ключевой особенностью демократических обществ.

В результате изменения информационной сферы, как отмечает канадский ученый М.Маклюэн, мир стал «глобальной деревней», где всем все известно, поскольку любое событие, произошедшее в каком-либо уголке планеты, в тот же день становится известным во всех цивилизованных странах. Телевидение, спутниковые связи и интернет устраняют понятия «расстояние» и «границы» [3, 87].

Если обратиться к образному представлению, то можно заметить, что попытки тоталитарных режимов скрыть информацию и предотвратить обмен информацией напоминают сражение Дон Кихота с ветряными мельницами. Так, скрытие информации в эпоху скоростей и технологий является просто невозможным. По поводу этого вопроса Элвин Тоффлер пишет: «Мы сегодня живем в условиях таких сверхскоростей, что старинное правило «время-деньги» требует пересмотра. Сегодня каждый период времени стоит дороже, чем предыдущий [7, 125].

В условиях современного Азербайджана взаимоотношения между государством и СМИ создаются через устранение идеологических стереотипов. Это, в свою очередь, обуславливает скольжение данных отношений в правовом пространстве и, следовательно, требует четкой правовой обоснованности. Растущая роль информационной сферы является важным фактором в процессе формирования общества, активно влияющим на политические, экономические, оборонные и другие компоненты национальной безопасности.

Важны также шаги, предпринятые государством для осуществления регулятивной роли в области электронных медиа и создания передовой телекоммуникационной инфраструктуры. Без них современные СМИ просто не смогут существовать. Необходима поддержка государства в сфере технического обеспечения медиаструктур. Государство также несет ответственность за деятельность средств массовой информации, а по сути, за определение универсальных ценностных ориентаций для всего общества.

В системе азербайджанских СМИ быстро развивается Интернет и облегчается доступ к нему. Сегодня 80% населения являются пользователями Интернета. Роль Интернета в системе СМИ увеличивается, поскольку большую часть своего времени люди проводят в Интернете. Здесь нужно также учитывать, что информацию люди получают в основном в свободное время. До последнего времени источником такой информации выступало телевидение, а реальность нынешнего периода свидетельствует о том, что это место занял Интернет.

Однако следует также отметить, что в настоящее время влияние указанных технологий превращают СМИ в сферу бизнеса. Реальность свидетельствует о том, что подобная тенденция полностью соответствует требованиям нынешнего периода. Но данный подход содержит и «опасные» моменты. Прежде всего из-за того, что чрезмерная реализация рыночных отношений в сфере медиа в некоторых случаях приводит к искажению просветительских и информационных функций СМИ, уменьшению гуманистических вызовов, свойственных журналистике, и принятию таких стереотипов поведения, которые не соответствуют национально-моральным ценностям и менталитету народа.

По поводу этого вопроса Парцвания В.В. пишет: «Человек теряет точку опоры. Конкретное «я» движется к абстракции и рассеивается в общем «я». Возрастает слабость индивида, в результате чего в нем пробуждаются пессимистические чувства по поводу собственного существования. Совокупность общественных отношений не развивают человека как основную ценность и не принимают его за свою основную цель [5, 11].

Таким образом, можно сделать вывод, что, несмотря на важные преимущества глобализации и модернизации, этот процесс также создает определенные угрозы. В указанном контексте регулятивные функции государства выступают важным условием, поскольку в данном новом пространстве, наряду с тенденцией модернизации и развития, наибольшую значимость приоб-

ретает сохранение национальной идентичности и приверженности культурным и моральным ценностям. В таком случае миссия СМИ заключается в предотвращении вмешательства чужих элементов в общество.

**Еще один важный момент заключается в том, что, независимо от их позиции**

и принадлежности, СМИ должны освещать государственную политику в области национальной безопасности и интересов, придерживаясь при этом принципов защиты объективности и беспристрастности. Такой статус-кво также выступает важным аспектом успешной интеграции в мировое сообщество. Примечательно, что процессы модернизации и интеграции в глобальное информационное пространство в Азербайджане действуют в одинаковом с национальными интересами направлении.

В настоящее время средства массовой информации стали одним из важнейших компонентов современной политической системы Азербайджана. Их сущность, характер и функции во многом определяются социально-политической структурой общества. Поскольку Азербайджан является демократическим и правовым государством, средства массовой информации обеспечивают интересы общества, осуществляют невидимый контроль над деятельностью законодательных, исполнительных, судебных, общественных организаций и различных политических деятелей. Однако с целью защиты национальных интересов, предотвращения угроз государству и государственности, как и во многих развитых странах, используется политика по ограничению доступа к информации, возможностей и свобод СМИ. Данная ситуация выступает в качестве одного из рабочих моментов в деятельности СМИ. Вышеуказанные ограничения выполняются лишь в рамках законодательства. Так, в Азербайджане ограничение свободы информации осуществляется в рамках норм, закрепленных в Конституции АР. Также следует отметить, что и сами законы, регулирующие деятельность СМИ, должны быть открыты к проведению соответствующих реформ. Именно по этой причине данные законы изменяются, совершенствуются и приводятся в соответствие с требованиями современного периода. На фоне проведенной модернизации, государство целенаправленно ограничивает свою деятельность на рынке СМИ. Статистика также свидетельствует о том, что по сравнению с государственными медиасредствами доля участия на рынке негосударственных значительно выше. Одной из основных причин, обуславливающих это, является глубокая интеграция самих СМИ в рыночную экономику и рыночные структуры, что напрямую связано с взаимодействием между медиа и рекламным бизнесом. Созданием бизнес-модели, основанной на рекламе товаров массового потребления, СМИ также становятся одним из важнейших механизмов потребительской экономики. А это означает, что СМИ, которые более эффективно интегрируют в современные тенденции, действуют не только как важный политический, но и экономический институт.

СМИ реализуют не только информационный обмен, но и информационную политику. В результате того, что массовые информационно-коммуникационные средства сосредоточены в руках сильных государств и влиятельных кругов, их влияние на общественное мнение и политические институты расширяется. В современном периоде многое зависит от того, кому удалось установить монополию на информационное превосходство и информатизацию. В частности, информатизация, сосредоточенная в руках преступных и террористических группировок может привести к катастрофическим последствиям и стать реальной угрозой для безопасности людей.

Современные СМИ, благодаря внедрению ИКТ, очень легко вступают в мировое информационное пространство, доносят мировые новости до общественности и удовлетворяют потребности аудитории читателей. В современном периоде медиатехнологии играют роль универсального катализатора в установлении прозрачности в связях между государственными и общественными организациями, а также в развитии экономической, социальной, научной, образовательной и культурной сфер и жизненного образа людей. Общеизвестно, что медиатехнологии представляют выгоду в том случае, если в обществе спрос и предложение дополняют друг друга. Другими словами, широкомасштабное применение информационно-коммуникацион-

ных технологий обуславливает социальный заказ общества. С точки зрения медиа экономики в современном мире Интернет отражает заказ общества на новые информационные технологии. Цифровой формат, мультимедийность и интерактивность этого ресурса стали реальным событием в практике организации информационной работы на уровне новых требований.

Современные СМИ, играющие важную роль в осуществлении государственной информационной политики, оказывают значительное влияние на информационное общество. В свою очередь, влияние информационного общества на СМИ определяется:

- направленностью экономики от товарного производства к услугам. В этой ситуации требования перед журналистикой заключаются в управлении информационными и коммуникационными областями рынка.

- расширение базы знаний как основы технологических и социально-политических структур общества формирует потребность в общественных институтах, обеспечивающих распространение знаний, то есть в глобальных информационно-коммуникационных сетях, а также профессионалах, работающих в этой области. В таком случае журналистика играет роль поставщика знаний.

- формирование ведущих «университетов» (образование, наука) как системная генерация общественного фактора. В данных условиях прямая интерактивность в области журналистики обеспечит существенную защиту интеллектуальной собственности в будущем, что в некоторой степени уже происходит [8, 92].

Следует отметить, что ИКТ придают форме СМИ и сути информационной политики новые черты. Так, уже появились электронные типы средств массовой информации. Традиционные СМИ постепенно передают свое место электронным медиа. С этой точки зрения Запад также подчеркивает роль цифровых сетей, систем мобильной и спутниковой связи в технологической инфраструктуре информационного общества.

**Заключение**

Как становится очевидным, ускоренное развитие информационных технологий реализует процесс конвергенции. Посредством этой системы становится абсолютно возможным реализовывать идеи нового типа газет.

Современная политология рассматривает СМИ как средство оперативного информирования людей, социальных групп и государства о событиях, происходящих в мире, регионе, конкретной стране, а также как совокупность информационных вещательных каналов, выполняющих специфические социальные функции.

В политике особое значение представляет социальная информация, то есть сведения, связанные с интересами и деятельностью людей. Как и в развитых странах, в азербайджанском обществе СМИ оказывают решающее воздействие на информационное пространство. На сегодняшний день современный политический процесс просто невозможно представить без СМИ, которые непосредственно влияют на политические трансляции по радио и телевидению, политические новости в газетах, аудиторию зрителей и читателей. В демократическом обществе СМИ являются не только средством пропаганды, но и стоят в противоположной власти позиции. Однако им не всегда удается соблюдать и осуществлять этот принцип.

Арсенал манипуляции, которым владеют СМИ, достаточно велик, он оказывает активное влияние на политическое сознание и поведение граждан, что еще раз демонстрирует решающую роль «четвертой власти» в современном обществе. По этой причине правдивость предоставления обществу информации о сущности государственной информационной политики, ее целях и результатах во многом зависит от таких факторов, как точка зрения, позиция и объективность, сбалансированный подход СМИ к данной политике, и находятся ли они под влиянием какой-либо политической группы.

Государство и СМИ являются важными участниками политического процесса в качестве основных акторов политологического института и политической коммуникации. В политической сфере СМИ и связанные с ними новые электронные источники информации, компьютерные технологии, в том числе широко используемый Интернет, открыли новые возможности для реального участия населения в политическом процессе. Таким образом, СМИ активно участвуют в процессе модернизации, но в то же время под-

вергаются воздействию модернизации.

Растущая роль информационной сферы является важным фактором в процессе формирования общества, активно влияющим на политические, экономические, оборонные и другие компоненты национальной безопасности.

## ИСПОЛЬЗОВАННАЯ ЛИТЕРАТУРА:


1. *Вебер М. Избранные произведения / Пер. с нем.; сост., общ. ред. и послесл. Ю.Н. Давыдова; предисл. П.П. Гайденко; коммент. А.Ф. Филиппова. М.: Прогресс, 1990, с. 804, 808 с.*
2. *Информационная политика: учебник / под общ. ред. В.Д. Попова. М.: Изд-во РАГС, 2003, с. 38, 524 с.*
3. *Маклюэн М. Война и мир в глобальной деревне. М.: АСТ, Астрель, 2012, с.87, 224 с.*
4. *Паренти М. Демократия для немногих. Пер. с англ. и предисл. А. Маныкина. М.: Прогресс, 1990, с. 218, 504 с.*
5. *Парцвания В.В. Россия и Грузия: диалог и родство культур (сборник материалов симпозиума). Сборник статей, выпуск 1, под ред. Парцвания В.В., SPb, Санкт-Петербургское философское общество. 2003, 352 с.*
6. *Почепцов Г.Г. Информационные войны. М.: Reflbuk, 2000, 576 с.*
7. *Тоффлер Э. Революционное богатство. Москва, АСТ, 2007, с. 125, 576 с.*
8. *Бабаев З. Новая медиа в новом пространстве / Республиканская научно-практическая конференция «Азербайджанская журналистика в период глобализации: истоки и взгляд на перспективу» посв. 100-летию Насира Иманкулиева (21-22 декабря 2011г.). Баку. Восток-Запад, 2011, 171 с.*



**Khalid Q. Niyazov**
***Doctor of political sciences, associate professor***
***E-mail: xalid-555@mail.ru***


## РЕЗЮМЕ


Стратегическое значение информации в жизни людей и общества, в первую очередь, обусловлено эволюционными процессами, которые начались с развитием информационных и коммуникационных технологий с середины XX века. В частности, ускоренное развитие электронных СМИ, а также Интернета, ставшего за короткое время гиперинформационным пространством, усилили роль информации не только в системе общественных отношений, но и в самых различных сферах социально-экономической жизни (бизнесе, международных экономических и политических отношениях), науке, образовании и вопросах глобальной безопасности. Наряду с этим, был ускорен процесс перехода к информационному обществу.



**Ключевые слова:** *государственная информационная политика, СМИ, медиакратия, информационные технологии, свобода слова, информационное общество*


## The role of the media in the formation and implementation of information policy

## SUMMARY


The strategic importance of information in the lives of people and society is first of all, caused by evolutionary processes that began with the development of information and communication technologies from the middle of the 20th century. In particular, the accelerated development of electronic media, as well as the Internet, which in a short time has become a hyper-informational space, has strengthened the role of information not only in the system of social relations, but also in various spheres of social and economic life (business, international economic and political relations), science, education and global security issues. Along with this, the process of transition to the information society was accelerated.



**Key words:** *state information policy, media, mediacracy, information technology, freedom of speech, information society*

UOT 321(4/9)
DOI:10.30546/3006-0346.2024.4.82.16

# ŞƏRQİ AVROPA ÖLKƏLƏRİNDƏ PREZİDENTLİYİN XÜSUSİYYƏTLƏRİ

**NURƏDDİN İBRAHİMOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının baş müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: inn.az@mail.ru*

## Giriş

Müasir dünyada prezident idarəetmə forması kifayət qədər geniş yayılmış idarəetmə formasına çevrilmişdir, buna görə də Şərqi Avropa ölkələrində prezidentliyin xüsusiyyətləri maraq predmetini təşkil edir. Bu problematikanı Polşa, Rumıniya, Slovakiya, Bolqarıstan, Çexiya, Macarıstan və s. kimi nisbətən vahid siyasi sistemlər kontekstində öyrənmək olar. Bundan başqa, müasir dünyada prezidentlik problemi ona görə aktualdır ki, prezident, dövlət başçısı kimi, öz fəaliyyəti ilə geniş dövlət təyinatlı məsələləri əhatə etdiyinə görə xüsusi yer tutur. Bu institutun öyrənilməsi həmin ölkələrdə baş verən siyasi və konstitusiya dəyişikliklərinin mahiyyətini, orada formalaşan siyasi rejimlərin xüsusiyyətlərini daha yaxşı başa düşməyə, həmçinin keçid prosesini təkcə siyasi sistemin dəyişməsi kimi deyil, həm də milli xüsusiyyətləri və ənənələri mövcud modellərlə sintez etmək və yeni institusional mexanizmlər axtarmaq cəhdi kimi başa düşməyə imkan verir. Bütün bunlar Şərqi Avropa ölkələrində prezidentliyin xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş təqdim olunan məqalənin mövzusunun aktuallığını təsdiq edir.

## Şərqi Avropa ölkələrində prezidentlik institutunun yaranması və təkamülü

Yeni dövlətlər üçün idarəetmə formasının seçilməsi əhəmiyyətli dərəcədə institusional problemdir. P. V. Panovun təklif etdiyi tarixin "normativ dövrlərə" (institutlar sabit qaldıqda) və "kritik nöqtələrə" (bu müddət ərzində ciddi institusional dəyişikliklərin mümkünlüyü açılır) bölünməsi çox maraqlı görünür [8, s.59]. XX əsrdə Şərqi Avropa ölkələri üçün ən azı üç vacib kritik nöqtə ayrılır: 1910-1920-ci illərin Konstitusiya prosesi; 1940-cı illərin "xalq demokratiyaları"nın formalaşması; 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərindəki postkommunist transformasiya. Bundan əlavə, demokratiyaya ikinci (təkrar) keçidlərin və ayrı-ayrı ölkələrdə postmünaqişə tənzimləmə proseslərinin nəzərə alınması tövsiyə olunur. Şərqi Avropa ölkələrində normativ dövrlər nisbətən qısadır, hətta, demək olar ki, bu dövlətlərin institusional inkişaf yolu bir kritik nöqtədən digərinə keçir, tez-tez təsis olunan institutlar qismən formalaşır, yetirib lazımi funksionallığı əldə edə bilmirlər. Bu zaman XXI əsrin əvvəllərində, Avropaya inteqrasiya prosesi və onun siyasi institutların fəaliyyətinə təsirinin qiymətləndirilməsi xüsusi diqqətə layiqdir [14, s. 334].

Qeyd etmək lazımdır ki, qeyri-formal institutların leqallaşdırılması və ya formal institutların yaradılması kimi əsas mexanizmlərin seçimi təcrübəsi zəngin deyil. Qeyri-formal institutların leqallaşdırılması aktorlar tərəfindən bu qurumların mahiyyətinin, kifayət qədər legitimliyinin eyni mənada başa düşülməsini tələb edir [9]. Bir qayda olaraq, gündəlik praktikada artıq özünəməxsus adi hal almış qeyri-formal institutlar leqallaşdırılır. Buna görə də Şərqi Avropada kritik nöqtələrdə formal institutların təsis edilməsinin sadalanan mənbələrindən istifadə olunurdu, lakin həmişə selektiv şəkildə. Tez-tez burada formal institutlar seçkili yolla və nadir hallarda tam şəkildə tətbiq olunur. İrəliyə baxaraq deyək ki, müxtəlif səbəblərə görə "keçmişdən" idxal üstünlük təşkil edir.

Tarixə nəzər salsaq görərik ki, tarixən prezidentlik monarxiyaya qarşı qoyulurdu. Məsələn, 14 aprel 1849-cu ildə Layoş Koşut müstəqil Macarıstanın hökmdarı-prezidenti elan edildi. Bəlkə də bu, Şərqi Avropada ilk dəfə idi ki, prezidentlik institutu təkcə respublika layihəsi ilə deyil, həm də milli azadlıq ideyası ilə birbaşa əlaqələndirilirdi. Millətin birliyinin təcəssümü kimi, prezidentlik institutuna münasibət Şərqi Avropanın müstəsna bir xüsusiyyəti olmasa da, bir simvolik əhəmiyyətə malikdir. Eyni zamanda, demokratik prinsiplərin zəifliyi prezidentliyi monarxiyaya alternativlə əlaqələndirir. Buradan da monarxiya və prezident idarəçiliyinin rəqabəti irəli gələr. Macarıstanda Habsburq monarxiyasının ləğvindən sonra prezidentlik (1918-1919) vətəndaş müharibəsi alovunda itmiş, 1920-ci ildə monarxiyanın formal bərpası baş vermişdir. Macarıstandakı regent-

lik rejimi, idarəetmə formasının seçilməsi ilə bağlı milli diktaturaların institusional baxımdan çıxılmaz vəziyyətini göstərirdi. Tarixi ölçüdə prezident hakimiyyəti Sovetlər Respublikasına alternativ kimi çıxış edirdi. Belə ki, 1919-cu ildə tarixi Macarıstanın hüdudlarında burjua və sovet respublikaları, Çexoslovakiya isə Slovakiya sovet respublikası ilə rəqabət aparırdılar. 1918-ci ilin iyulunda yaradılan Çexoslovakiya Milli Komitəsi imperiya seçkilərinin nəticələrinin nisbi legitimliyinə söykənirdi. 28 oktyabr 1918-ci ildə yeni müstəqil dövlət yaradıldı və artıq 13 noyabr 1918-ci ildə Çexoslovakiyanın müvəqqəti Konstitusiyası qəbul edildi. Bu sənədin müddəalarına görə, Çexoslovakiya dövlətinin başçısı prezident idi. 21 noyabr 1918-ci ildə Milli Komitə əsasında formalaşmış Çexoslovakiyanın inqilabi Milli Məclisi T.G.Masariki dövlət başçısı seçdi [15, s. 53; 311].

Beləliklə, Şərqi Avropada institusional inkişafın kritik məqamlarında əsas rəqiblər respublika və monarxiya, prezidentlik və parlamentarizm, diktatura və demokratiya idi. 1920-ci illərin ikinci yarısında aydın oldu ki, respublika və prezidentlik institusional olaraq avtoritarizmə müqavimət göstərə bilmirlər. Polşada sanasiya rejimi (1926-1939) genişmiqyaslı repressiv aparatı ilə, Macarıstanda M.Hortinin "donanmasız admiral" diktaturası (1920-1944), Çexoslovakiyada müntəzəm baş verən siyasi dəyişikliklər, Avropada sağa dönüş və Şərqi Avropa monarxiyalarında faşistyönümlü diktaturaların qurulması prezident hakimiyyətinin obrazına təsir etmişdir. Dövlət başçısının Ali Baş Komandan kimi funksiyaları ön plana çıxmış, 1930-cu illərin ikinci yarısında xarici siyasət gündəmi Polşa və Çexoslovakiya prezidentlərinin əsas məşğuliyyətinə çevrilmişdir [1, s. 68].

Qeyd etmək yerinə düşər ki, "güclü şəxsiyyət – zəif prezident" formulu qeyri-adi şəxsiyyətin dövlət başçısı vəzifəsinə demokratik seçilməsini və onun siyasi həyatın əhəmiyyətli məsələləri üzrə müstəqil qərarlar qəbul etmək imkanından məhrum edilməsini nəzərdə tuturdu. Məhdudlaşdırıcılar kimi parlamentin palataları, hökumət, məhkəmələr, ordu, partiyalar çıxış edə bilərlər. Çexoslovakiya Konstitusiyasına 1933-cü ildə edilən dəyişikliklər və 1935-ci ildə Polşada yeni Konstitusiyanın qəbul edilməsi onu göstərirdi ki, dövlətin nüfuzunu gücləndirən "güclü" prezident prezidentli respublikaya keçidi qeyri-mümkün edən məhdudiyyətlərlə üzləşə bilər. 1930-cu illərin Konstitusiya novellaları prezident hakimiyyətinin gücləndirilməsi üçün bəzi imkanlar açdı, lakin onların əsas mənası xarici təhdidlər qarşısında cəmiyyətin siyasi konsolidasiyasında idi [9, s.135].

İkinci Dünya müharibəsinin başlaması ilə təkcə hökumətlər deyil, sürgündə olan prezidentlər də meydana çıxır. Çexoslovakiya üçün faşizmin məğlubiyyətindən sonra dövlətin bərpası ilə belə təcrübə dayandırılsa da, Polşa üçün bu təcrübə 1990-cı ilin dekabrına qədər davam etdi, siyasi sinif daxilində ölkənin sovetləşməsi ilə bağlı olan dərin siyasi mübahisələr müharibədən əvvəlki hakim strukturların bərpasına imkan vermədi. 1952-ci ilə qədər Polşada eyni vaxtda iki prezident var idi və bu vəziyyət prezidentliyi ləğv edən Polşa Xalq Respublikasının Konstitusiyası qəbul edilənə qədər davam etdi. Situasiya 1989-1990-cı illərdə Lex Valensanın birbaşa seçkilərdə Polşa dövlətinin başçısı seçilməsi ilə əlaqədar prezident postunun bərpasından sonra yenidən təkrarlandı [15, s. 121-137].

Müasir Slovakiya və Çex Respublikasını nəzərdən keçirsək, onların İkinci Dünya müharibəsi dövründəki marionet ərazi qurumlardan varislikdən imtina etdiklərini görə bilərik. Birinci Slovakiya Respublikasının Prezidenti (1939-1945) Josef Tiso Slovakiya Seyminin 1939-cu ilin iyulunda qəbul etdiyi Slovakiya Respublikası Konstitusiyasının müddəalarına əsasən dövlət başçısı seçilmiş, Konstitusiya 1938-ci ilin dekabrında Slovakiyanın öz "müstəqilliyini" elan etməsindən əvvəl formalaşmışdı. 1943-cü ildə Seymə yeni seçkilər keçirilməmiş, Prezident isə geniş Konstitusiya səlahiyyətlərinə malik idi. Lakin məhdud suverenlik şəraitində J.Tiso nasist Almaniyasının hərbiçiləri və rəhbərliyi ilə razılaşdırılmadan hərəkət edə bilməmişdir [1, s.67].

Qeyd olunanlardan göründüyü kimi, Şərqi Avropa ölkələrində monarxiya ləğv edildikdən sonra (1945-ci ilin noyabr - 1947-ci il dekabr) keçid hökumətləri formalaşmış, dövlət başçısının funksiyalarını isə kollegial orqanlar yerinə yetirirdilər. Yalnız Macarıstanda "Dövlət forması haqqında" qanunla 1946-cı ildə bir şəxs tərəfindən yerinə yetirilən prezident vəzifəsi təsis edilmişdir. Bu ölkədə dövlət başçısı parlament tərəfindən iki il müddətinə seçilirdi. Həmin vaxt Zoltan Tildi prezident seçildi. 1947-ci il parlament seçkilərindən sonra Macarıstanın sürətli sovetləşməsi baş verdi, bu proses 1949-cu ildə Xalq Respublikasını elan edən və prezidentliyi ləğv edən Konstitusiyanın qəbul edilməsi ilə başa çatmışdır. Müvafiq olaraq, oxşar siyasi proseslər Polşada inkişaf etdi, burada 1952-ci ildə

Xalq Respublikası Konstitusiyasının qəbul edilməsi ilə prezident postu ləğv edildi. İdeoloji cəhətdən dövlətin Konstitusiyası özünün əsas məqsədi kimi "böyük sosializm ideyalarının həyata keçirilməsi"ni elan edirdi [7, s.107].

Beləliklə, kommunist hakimiyyətinin siyasi təcrübəsi ali dövlət idarəçiliyi orqanlarını konstitusiya mahiyyətindən məhrum etmiş, çünki Konstitusiyaya bir partiyanın rəhbər rolu haqqında müddəa daxil edilmişdi. Yalnız Çexoslovakiyada konstitusiya hüququ prezident hakimiyyəti ənənəsini dəstəkləyirdi ki, bu da Xalq Demokratik Respublikasının bəyan edilməsi ilə eyni vaxtda 1948-ci il Konstitusiyasında təsbit edilmişdir. 11 iyul 1960-cı ildə Milli Məclis tərəfindən qəbul edilən və 1992-ci ilə qədər mövcud olan sosialist Çexoslovakiyasının ikinci Konstitusiyası kommunist partiyasının rəhbəredici rolunu təsbit edirdi. Burada həmin norma yalnız 1989-cu ildə ləğv edilmiş, 1948-ci il Konstitusiyası ilə müqayisədə səlahiyyətlər parlamentin xeyrinə yenidən bölüşdürülmüşdür [14, s.339]. Bununla belə, asimmetrik unitar dövlət quruluşu da dəyişikliklərə məruz qalmışdır.

**Şərqi Avropa ölkələrində postkommunist transformasiyalar şəraitində prezidentlik institutunun xüsusiyyətləri və inkişaf meyilləri**

Postkommunist Avropa sosializm quruculuğu, demokratik tranzit və dövlətçiliyin yenilənməsi təcrübəsi ilə əlaqəli tarixi taleyin ortaqlığına sahib olan geniş geosiyasi məkandır. Bu ölkələrdəki ictimai-siyasi proseslər müxtəlif intensivliklə baş verir və onların institusional dizaynının bu və ya digər obrazını müəyyənləşdirir. B.İ.Makarenko qeyd edir ki, "nəticədə Şərqi Avropada ya güclü baş nazirləri və kabinetləri olan, kifayət qədər güclü parlamentli “kansler respublikaları”, ya da çərçivəsində prezidentin vacib səlahiyyətləri olsa da, lakin onun icra hakimiyyətinin yeganə başçısı olmamasını nəzərdə tutan yarıprezidentli sistemlər formalaşmışdır [7, s.118].

Həmçinin institusional dizaynın oxşarlığına görə Şərqi Avropa ölkələrinin iki qrupunu da ayırmaq yerinə düşər:

- yarıprezidentli sistemlər (Polşa, Bolqarıstan, Rumıniya);
- nisbətən "güclü" prezidenti olan parlamentli sistemlər (Slovakiya, Çexiya).

Buna uyğun olaraq Polşada (1990), Bolqarıstanda (1992), Slovakiyada (1999) və Çexiyada (2013) dövlət başçısının birbaşa seçkilərinə keçid baş verdi. Bolqarıstanda prezident hakimiyyətinin konstruksiyası vitse-prezident vəzifəsinin olması ilə maraqlıdır. Bir tərəfdən, Bolqarıstanda vitse-prezident Dövlət Şurası sədrinin müavini vəzifəsinin varisidir, digər tərəfdən, 1990-cı ildə "dəyirmi masa"da əldə olunmuş kompromisin məhsuludur [13]. Özünün hibrid mənşəyinə və 1993-1997-ci illərdə vitse-prezident vəzifəsinin boş olmasına (Blaqa Dimitrovanın istefasından sonra) baxmayaraq, bu təsisat kəskin siyasi mübarizə şəraitində mövcudluğunu saxlaya bilmişdi. Buradan da vacib bir detalı başa düşmək olar ki, vitse-prezidentin məhdud səlahiyyətləri prezident hakimiyyəti institutunu kifayət qədər davamlı, elektoral mənada isə legitimlik baxımından faydalı edir.

Digər bir vacib amil odur ki, Şərqi Avropa ölkələri şablon institusional qərarlar nümayiş etdirmirlər. Onların hər birində hakimiyyət dövlət başçısı ilə bağlı institutlarının mövqelərini öyrənərkən, daha dəqiq qeyd olunan özünəməxsus idarəetmə forması mövcuddur. Yəni, regionun bütün ölkələrində icra hakimiyyətinin mərkəzini baş nazir rəhbərlik etdiyi hökumət təşkil edir. Avropanın əksər postkommunist ölkələrində baş nazirin rolu Almaniya və Avstriyada kanslerlərin roluna çox yaxındır. Belə bir müqayisənin nisbətən "güclü" prezidentli modelə də (Slovakiya, Çexiya) aid edilməsi düzgün olar [10, s.308].

Postkommunist Avropada idarəetmə formasının institusional seçimi təkcə demokratik tranzitin konyunkturası ilə deyil, həm də respublikaçılıqdan, parlamentli və yarıprezidentli idarəetmə nəzəriyyəsindən kənara çıxmağın mümkünsüzlüyü ilə məhdudlaşır. İlkin olaraq, konstitusiya hüququnun yenidən qurulması mexanizmi siyasi elitalar tərəfindən kifayət qədər səmərəli mexanizm kimi qəbul edilmirdi. Lakin Polşa və Macarıstan təcrübəsi demokratik hakimiyyət institutlarının münasibətləri təkmilləşdikcə, yenidənqurma modelinin postkommunist konstitusionalizmin inkişafı üçün məqbul variant olduğunu göstərdi. Bununla belə, bu model universallığa da iddia edə bilməz. Siyasi sistemin modernləşdirilməsi institutların formallaşması, institusionallaşması və sonrakı legitimləşdirilməsi prosesində əlavə investisiyalar tələb edir. Bu zaman institusional xarakterli problemlər yenidən yarana bilər [9, s. 143-144].

Yuxarıda göstərilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, postkommunist Avropada prezident

hakimiyyətinin durumunun qiymətləndirilməsi subyektiv amillərin nəzərə alınmasını tələb edir. İlk növbədə, prezidentlərin liderlik keyfiyyətləri, onların hakimiyyət iddialarının miqyası, habelə dövlət başçısının iştirakı ilə institusional və şəxsiyyətlərarası münaqişələrin həlli yolları təhlil edilir. Məlumdur ki, Vatslav Havel, Arpad Göntz, Lex Valensa kimi və bir neçə başqa siyasətçi şəxsi xarizması sayəsində dövlət başçısı olaraq öz ölkələrində prezidentlik hakimiyyətini genişləndirməyə çalışırdılar, parlamentlər isə öz növbəsində buna müqavimət göstərirdilər [2, s.142]. Qeyd edək ki, Yun Elster tərəfindən bu fenomen "institusional maraq" adlandırılırdı. Onun mahiyyəti aktorun həmin institutun özünün gələcəyini müəyyən institutla bağlayan imtiyazlı bir mövqeni möhkəmləndirməyə çalışmasından ibarətdir [12]. Aktorların institutlar uğrunda bu cür mübarizəsi ümumi rifaha yönümü itirir.

Şərqi Avropa ölkələrindəki prezidentliyi dünya ölkələri ilə müqayisə edərək, bölgədə fəaliyyət göstərən prezidentlik modellərinin digərlərindən əhəmiyyətli dərəcədə fərqləndiyini söyləmək olar. Bu region ölkələri arasında siyasi, milli və mədəni fərqlərin olmasına baxmayaraq, onlarda prezidentlik institutunun öyrənilməsi həmin ölkələrdə prezidentlərin səlahiyyətlərinin inkişafı və konstitusiya təsbitinin bəzi qanunauyğunluqlarının müəyyən edilməsinə imkan vermişdir. Belə ki, həmin ölkələrdə ayrılmış prezident və hökumət başçısı vəzifələri mövcud olmaqla, hökumət başçısının seçkiləri əsasən iki turlu sistem üzrə keçirilir, növbədənkənar seçkilər mexanizmi tətbiq edilib. A.Kınevin qeyd etdiyi kimi, Şərqi Avropa dövlətləri parlamentlərə hesabat verir, lakin bir sıra səlahiyyətlərini baş nazir yalnız prezidentlə birlikdə həyata keçirə bilər. Beləliklə də, bir sıra xüsusiyyətlərinə görə digərlərindən fərqlənən xüsusi Şərqi Avropa tipli prezident sistemlərindən söhbət gedir [6, s.15].

Postkommunist Avropanın əsas problemlərindən biri kimi bu günə qədər müxtəlif hakimiyyət institutlarının, ilk növbədə prezident, parlament və hökumətin qarşılıqlı əlaqəsi və effektivliyi məsələsi olaraq qalır. Təhlillər göstərir ki, Şərqi Avropada əksəriyyəti parlament sistemləridir, yalnız Polşanı yarıprezidentli sistemə aid etmək olar. Belə ki, Polşa Konstitusiyasına görə, prezident Polşa Respublikasının ali nümayəndəsi və dövlət hakimiyyətinin qarantıdır, Konstitusiyaya əməl olunmasına nəzarət edir, dövlətin suverenliyini və təhlükəsizliyini qoruyur (maddə 126). Prezident xalq tərəfindən beş il müddətinə ümumi, bərabər, birbaşa seçkilər və gizli səsvermə yolu ilə seçilir, təkrar olaraq bir dəfə yenidən seçilmək hüququ vardır (maddə 127), prezident seçkiləri Seymin Marşalı tərəfindən təyin olunur (maddə 128.). Hakimiyyət qolları ilə münasibətlərdə Prezident arbitr funksiyasını yerinə yetirir, qanunvericilik təşəbbüsü hüququ və veto hüququna malikdir [4].

Bəzi konstitusiyaçı - hüquqşünaslar Rumıniya və Bolqarıstanı yarıprezident sistemlərinə onların bir sıra spesifik xüsusiyyətlərini göstərərək aid edirlər. Məsələn, Rumıniya Konstitusiyasına görə, prezidentin rolu, birincisi, Rumıniya dövlətini təmsil etməsi və ölkənin milli müstəqilliyinin vəhdəti və ərazi bütövlüyünün qarantı olmasıdır; ikincisi, Konstitusiyaya riayət olunmasını və dövlət orqanlarının lazımi şəkildə işləməsini təmin etməsidir. Bu məqsədlə Prezident dövlət hakimiyyətinin qolları, həmçinin dövlət və cəmiyyət arasında vasitəçi funksiyasını həyata keçirir (maddə 80) [5 ].

Bolqarıstanın Konstitusiyasında isə Prezidentin statusu, səlahiyyətləri, seçilməsi qaydası dördüncü fəsildə tənzimlənir. Belə ki, 92-ci maddəyə görə, Prezident dövlət başçısıdır, o, millətin birliyini təcəssüm edir və Bolqarıstan Respublikasını beynəlxalq münasibətlərdə təmsil edir. Prezident seçicilər tərəfindən birbaşa qanunla müəyyən edilmiş qaydada beş il müddətinə seçilir. Prezidentə fəaliyyətində onunla eyni vaxtda və eyni siyahıda seçilən vitse-prezident kömək edir. Konstitusiyaya görə Prezident və vitse-prezident həmin vəzifəyə yalnız bir müddətə yenidən seçilə bilərlər (maddə 92-95) [3] .

S.Tkaçenko konkret dövlətdə prezidentlik institutunun xarakteristikasının həlledici dərəcədə prezidentin konstitusiya səlahiyyətlərinin həcmi və bu səlahiyyətlərin siyasi sahədə konkret hərəkətlərdə ifadə olunan təfsiri praktikası kimi iki amillərlə müəyyən edildiyini göstərir. Bu amillərin hər ikisinə prezident hakimiyyəti institutunun dövlətdəki digər hakimiyyət qolları ilə münasibətlərinin xarakteri, vətəndaş cəmiyyəti strukturları, biznes-icması və KİV-lə münasibətlər təcrübəsi, tarixi təcrübə və onun konkret tarixi şəraitdə nəzərə alınması da daxil olmaqla bir çox proseslər təsir göstərir. Bunun nəticəsində dövlətdəki siyasi rejimin xarakteri və buradakı prezidentlik institutunun yeri bu vəzifəni tutanın şəxsi keyfiyyətləri, onun təhsili, siyasi təcrübəsi, ünsiyyət vərdişləri, digər hakimiyyət institutlarının nümayəndələri ilə səmərəli qarşılıqlı əlaqə qurma

qabiliyyəti ilə müəyyən edilir [9, s.306-307].

Elmi tədqiqatlar göstərir ki, prezidentin seçici-vətəndaşlar arasında şəxsi populyarlığına və idarəetmənin effektivliyinə əlavə olaraq xeyli sayda digər şərtlərə də riayət etmək tələb olunur. Belə şərtlərə konkret prezidentin öz dəstəyi ilə siyasi qüvvələrin koalisiyasını formalaşdırmaq bacarığı daxildir. Bir faktı da nəzərə almaq lazımdır ki, belə koalisiya olmadan milli parlament gec-tez prezidentin siyasi rəqibinə çevriləcək və qarşıdurma həddindən artıq formalara çatarsa, yuxarıda göstərilən partiya koalisiyalarını formalaşdıra bilməməsi bütövlükdə dövlətin sabitliyini ciddi şəkildə təhdid edə bilər.

## Nəticə

Beləliklə, aparılan təhlillər göstərir ki, Şərqi Avropa ölkələrində ictimai-siyasi proseslər müxtəlif intensivliklə getməklə, onların institusional dizaynının bu və ya digər simasını müəyyən edir. Bu baxımdan Şərqi Avropada prezidentliyin bir sıra xüsusiyyətlərə malik olduğu qənaətinə gəlmək olar. Birincisi, bu regionda fəaliyyət göstərən prezidentlik modelləri dünyanın digər ölkələrindəki modellərdən fərqlənməklə, onunla səciyyələnir ki, bu regionun ölkələrində prezident və hökumət başçısı vəzifələri ayrılmışdır, dövlət başçısının seçkiləri əsasən iki turlu sistem üzrə keçirilir, növbədənkənar seçkilər mexanizmi tətbiq edilir. İkincisi, tarixən prezidentlik institutuna ikili münasibətin formalaşdığı ölkələrdə (bu ölkələrdə əvvəldən də hakimiyyət səlahiyyətlərinin parlamentin xeyrinə dəyişməsi müşahidə olunurdu) hazırda prezident səlahiyyətlərinin güclənməsi tendensiyaları özünü göstərir. Yaxud, əksinə, prezidentin səlahiyyətlərinin əvvəlcə güclü olduğu ölkələrdə indi parlamentin rolu artır (məsələn, Polşada). Üçüncüsü, postkommunist Avropada prezident hakimiyyətinin vəziyyətinin qiymətləndirilməsi subyektiv amillərin nəzərə alınmasını tələb edir və s. Bütün bunlar onu göstərir ki, söhbət xüsusi Şərqi Avropa tipli prezident sistemlərindən gedir.

**Açar sözlər:** *Şərqi Avropa ölkələri, prezidentlik institutu, prezidentlik hakimiyyəti, xüsusiyyətlər, parlament, seçkilər.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Бухарин Н.И. Разделение властей в странах Центральной и Юго-Восточной Европы // Власть, 2004, № 1, с. 66–74*

*2. Гаджиев Х.А. Эффективность президентской власти: критерии оценки // Вестник российской нации, 2018, № 1(59), с. 131–144*

*3. Конституция Республики Болгарии// https://legalns.com/download/books/cons/bulgaria.pdf.*

*4. Конституция Республики Польши // https://legalns.com/download/books/cons/poland.pdf*

*5. Конституция Республики Румынии // https://legalns.com/download/books/cons/romania.pdf*

*6. Кынев А.В. Институт президента в странах Центральной и Восточной Европы. Сравнительный анализ: Авт. дисс… к.п.н. - М.: МГУ, 2002. 40 с.*

*7. Макаренко Б.И. Посткоммунистические страны: некоторые итоги трансформации // Полития, 2008, № 3, с. 105–125. DOI: https://doi.org/10.30570/2078-5089- 2008-50-3-105-124*

*8. Панов П.В. Институционализм рационального выбора : потенциал и пределы возможностей // Институциональная политология: современный институционализм и политическая трансформация России / под ред. С.В. Патрушева. М.: ИСП РАН, 2006, с. 43–92.*

*9. Тарасов И.Н. Президентская власть в странах Центральной и Юго-восточной Европы: игры институциональных дизайнеров или поиск равновесия? // Political science (RU), 2019, N 4 2, с. 127-150*

*10. Ткаченко С.Л. Президентские республики в Восточной Европе - особенности становления после окончания холодной войны // Вестник СПбГУ. Международные отношения, 2018, Т. 11. Вып. 3, с. 305-318*

*11. Ханько Д. Н. Институт президентства в странах Восточной и Центральной Европы // Политические и социальные изменения в мире, Москва, 2006, с. 200-203*

*12. Элстер Ю. Роль институционального интереса в разработке восточноевропейских конституций // Конституционное право: восточноевропейское обозрение. – 1996. – № 2. – С. 33–35*

*13. Andreev S.A. Semi-Presidentialism in Bulgaria: The Cyclical Rise of Informed Powers and Informal Powers and Individual Political Ambitions in a Dual Perspective // Semi-Presidentialism in Central and Eastern Europe, Manchester: Manc-*

*hester univ. press, 2008, p. 32–50.*

*14. Krouwel A. Measuring presidentialism and parliamentarism: An Application to Central and East European Countries // Acta Politica, 2003, N 4 (38), P. 333–364. DOI: https://doi.org/10.1057/palgrave.ap.5500041*

*15. Mettenheim K. von. Presidential Institutions and Democratic Politics: Comparing Regional and National Contexts. Baltimore: Hopkins, 2011, 303 p.*

**Нураддин Ибрагимов**
**доктор философии по политическим наукам, старший преподаватель Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

**РЕЗЮМЕ**

В статье исследуются особенности президентства в странах Восточной Европы, в этом контексте сначала анализируются возникновение и эволюция института президентства в этих странах, в том числе в таких государствах, как Польша, Чехия, Болгария, Румыния, Венгрия и др. Затем изучаются особенности и тенденции развития президентства в Восточной Европе в условиях посткоммунистической трансформации. Делается такой общий вывод о том, что, во-первых, оценка состояния президентской власти в посткоммунистической Европе требует учета субъективных факторов; во-вторых, модели президентства, действующие в восточноевропейском регионе, отличаются от моделей в других странах и их изучение в странах этого региона, несмотря на политические, национальные и культурные различия между ними, позволило выявить закономерности развития и конституционного закрепления президентских полномочий в этих странах. Все это свидетельствует о том, что речь идет о президентских системах особого восточноевропейского типа.

**Ключевые слова:** *страны Восточной Европы, институт президентства, президентская власть, особенности, парламент, выборы*

**Nuraddin Ibragimov**
**Doctor of Philosophy in Political Sciences, Senior Lecturer at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**SUMMARY**

The article examines the peculiarities of the presidency in the countries of Eastern Europe, in this context, first analyzes the emergence and evolution of the institution of the presidency in these countries, including in such states as Poland, Czech Republic, Bulgaria, Romania, Hungary, Slovakia. After that, a large place is given to the study of the peculiarities and trends of the development of the presidency in Eastern Europe in the conditions of post-communist transformation. The general conclusion is that, firstly, the assessment of the state of presidential power in post-communist Europe requires taking into account subjective factors; Secondly, the models of the presidency operating in the Eastern European region differ from those in other countries, and their study in Eastern European countries, despite the political, national and cultural differences between them, allowed us to identify patterns of development and constitutional consolidation of presidential powers in these countries. All this indicates that we are talking about presidential systems of a special Eastern European type.

**Keywords:** *Eastern European countries, the institution of the presidency, presidential power, features, parliament, elections*

UOT 329
DOI:10.30546/3006-0346.2024.4.82.21

# HEYDƏR ƏLİYEVİN YARATDIĞI YENİ AZƏRBAYCAN PARTİYASI MÜSTƏQİL AZƏRBAYCANIN DÜNƏNİ, BU GÜNÜ VƏ GƏLƏCƏYİDİR

**GÜNAY ŞÜKÜROVA**
*Sumqayıt Dövlət Universiteti, doktorant*
*E-mail: sukurovag@list.ru*

Yeni Azərbaycan Partiyası siyasi səhnəyə XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə qədəm qoymuşdur. Bu illər ərzində tez-tez baş verən hakimiyyət dəyişiklikləri və daxili siyasi qarşıdurmanın dərinləşməsi sayəsində ölkədə böhranlı vəziyyət qorxulu həddə çatmış, dövlətçiliyin itirilməsi təhlükəsi yaranmışdı. AXC-Müsavat hakimiyyəti özünün səriştəsizliyi ucbatından yaratdığı sosial-iqtisadi, siyasi və mənəvi-psixoloji böhranın aradan qaldırılması yollarını axtarıb tapmaq əvəzinə sağlam təfəkkürə sığmayan əməllərə rəvac verməyə başladı. Cəbhə hakimiyyəti Azərbaycanda özünün zəngin dövlətçilik təcrübəsinə görə böyük nüfuzu olan Heydər Əliyevə qarşı siyasi repressiya yolunu tutdu.

Heydər Əliyev o dövrü belə xatırlayırdı: "Hakimiyyəti ələ keçirmək istəyən Xalq Cəbhəsi və Müsavat –onlar çox qorxu altında idilər ki, Heydər Əliyev birdən Bakıda zühur edə bilər... Pənah Hüseynov deyirdi ki, ...çox narahat idik..., çox diqqətlə nəzarət edirdik ki, əgər Heydər Əliyev təyyarədə olsaydı, biz o təyyarənin Bakıya enməsinə icazə verməyəcəydik. Həmin təyyarə ya Naxçıvana qayıtmalı, ya Gəncəyə enməli idi [2, səh 9].

Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda ona müraciət ünvanladılar.

Sonralar Heydər Əliyev özü bu barədə belə deyirdi: "Bax, bu səpgidə Yeni Azərbaycan Partiyasının yaradılması məsələsi qaldırıldı. Bu barədə çoxları gəlib mənə müraciət edirdi, günlərlə Naxçıvanda vaxt keçirirdilər, mənimlə danışıqlar aparırdılar, belə bir partiyanın yaradılması üçün təkliflər verirdilər.

... Bu təklifi qəbul etmək üçün o vaxtlar imkan və şərait yox idi.

... Lakin bu proseslər, eləcə də tək Bakıdan deyil, Azərbaycanın bir çox şəhərlərindən, rayonlarından mənə, Naxçıvana ardı-arası kəsilmədən gələn məktublar elə bir şəraitə gətirib çıxardı ki, mən Yeni Azərbaycan Partiyasının yaranmasına razılıq verdim.

...Xatirinizdədir, mənimlə uzun müddət danışıqlar aparandan sonra Sirus Təbrizli böyük bir müraciət hazırladı və 91 nəfər Azərbaycan ziyalısı imzaladı" [6].

Partiyanın təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirildi və Heydər Əliyev YAP-ın sədri seçildi. Konfransda Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndə iştirak edirdi. Beləliklə, Azərbaycanın ictimai-siyasi səhnəsinə cəmiyyətdəki qüvvələr nisbətini və bundan sonra ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv surətdə dəyişən partiya meydana çıxdı. Yeni Azərbaycan Partiyası qısa bir müddətə geniş şöhrət qazanaraq cəmiyyətin bütün təbəqə və kateqoriyalarından olan sağlam qüvvələri öz ətrafında birləşdirə bilmiş, ümumxalq partiyası olmaq istiqamətində uğurlu addımlar atmışdı.

YAP-ın təsis konfransında qəbul etdiyi Proqramda Azərbaycanın dövlət müstəqilliyini əldə etməsinə və bu hadisədən sonra ölkədə gedən proseslərə dəqiq və prinsipial qiymət verilmişdir.YAP özünün siyasi strategiyasının əsas istiqamətləri kimi " dövlət müstəqilliyinin" möhkəmləndirilməsi, respublikanın ərazi bütövlüyünün təmin edilməsi, Qarabağ probleminin həlli, öz vətəndaşlarına firavan həyat şəraiti yaratmaq" kimi çox məsul və mürəkkəb vəzifələri elan etmişdir.

Heydər Əliyev partiyanın Proqram və Nizamnaməsinin işlənib hazırlanmasına çox ciddi əhəmiyyət verirdi: " Naxçıvana ardı-arası kəsilmədən gələn məktublar elə bir şəraitə gətirib çıxardı ki, mən Yeni Azərbaycan Partiyasının rəhbər orqanlarının indi burada olan üzvlərindən, bizim həmfikirlərimiz və dostlarımızdan xahiş etdim ki, proqram, nizamnamə hazırlayıb gətirsinlər. Bir neçə layihə hazırlandı, onları gətirdilər.

Lakin indi mən deməliyəm ki, Yeni Azərbaycan Partiyasının Proqramının da, Nizamnaməsinin də yazılması və hazırlanması işləri ilə şəxsən məm özüm bilavasitə məşğul oldum. Mən o vaxta qədər

də belə bir partiyanın yaranmasının zəruriliyini qəbul edirdim. Amma özümün bu partiyada iştirakıma razı olduğum halda mən onun hansı əsaslarla yaradılması üçün lazım bildiyim fikirlərimi söylədim. Ona görə də partiyanın həm proqramının, həm də nizamnaməsinin yazılması ilə özüm məşğul oldum. Siz Proqram və Nizamnamə ilə də yaxşı tanışsınız, bilirsiniz ki, o Proqram və Nizamnamə bir dövlət yaradılması barədə sənədlərdir" [6].

Bütün siyasi partiyalar kimi Yeni Azərbaycan Partiyası da özünün Proqram və Nizamnaməsinə uyğun olaraq siyasi-ideoloji və təşkilati fəaliyyət istiqamətlərini müəyyənləşdirdi. YAP yaranarkən onun ölkənin siyasi sistemində aparıcı bir təşkilata çevriləcəyi, ətrafında toplaşmış intellektual potensialın xalqımızın ümummilli məsələlərinin həllində mühüm faktorlardan biri olacağı təkzibolunmaz həqiqət idi. Məhz bu qənaətə gəlmək bir çox səbəblərlə bağlı idi. Birinci, YAP-a Heydər Əliyevin rəhbərlik etməsi artıq partiyanın cəmiyyətdə siyasi nüfuzunu müəyyənləşdirirdi. İkinci, ölkəmizin böyük nüfuza və hörmətə malik olan yüksək intellekt sahibləri YAP-da toplaşmışdı. Üçüncü, partiya Azərbaycanın bütün regionlarını təmsil edən sosial bazaya əsaslanırdı.

1993-cü ildə YAP-ın sədri Heydər Əliyevin prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyulmuşdur. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, iqtidar partiyasına çevrilərək ölkənin siyasi həyatında tutduğu mövqeyini möhkəmləndirmiş, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirmişdir. Heydər Əliyev bu barədə deyirdi: "Bakıya gələndən sonra Ali Sovetin sədri, sonra prezident seçildim. Bu vaxt ayrı-ayrı partiyalarda bəzən elə fikir yarandı ki, bir dövlət başçısı kimi Heydər Əliyev yalnız Yeni Azərbaycan Partiyasını dəstəkləyəcəkdir, bu partiyaya yol açacaqdır və Yeni Azərbaycan Partiyası hakim partiya olacaqdır. Belə fikirlər Yeni Azərbaycan Partiyasının daxilində də çox olub. Ancaq siz bilirsiniz ki, mən bir-iki dəfə mətbuat konfranslarında bəyanat verdim ki, mən Azərbaycanın dövlət başçılığına Yeni Azərbaycan Partiyasının fəaliyyətinin nəticəsində yox, bütün Azərbaycan xalqının iradəsi ilə gəlmişəm" [6].

Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə YAP-ın inkişafının II mərhələsi başlayır. Həmin dövrdə YAP-ın qarşısında bir tərəfdən, müstəqil dövlət quruculuğu proseslərində yaxından iştirak etmək, digər tərəfdən iqtidar partiyası kimi cəmiyyətin siyasi sistemində özünün aparıcı mövqeyini qoruyub saxlamaq vəzifəsi dayanırdı.

YAP I qurultayında hesabat məruzəsində bu barədə deyilirdi: "Partiya dərhal səfərbər oldu və öz sədri ilə birlikdə Azərbaycanın xilası, onun dövlətçiliyinin qorunması və taleyüklü məsələlərin həlli sahəsində həyata keçirilən işlərə qoşuldu. Bu mərhələ həm müstəqil Azərbaycan dövlətinin, həm də Yeni Azərbaycan Partiyasının tarixində əbədi həkk olunmuş cahanşümul, taleyüklü məsələlərin həlli, dövlətçiliyinin qurtuluşu, xalqımızın tərəqqisinin başlanğıcı kimi yadda qalmışdır" [8 ].

1995-ci ilin sonlarında Yeni Azərbaycan Partiyasının artıq güclü siyasi təşkilat kimi formalaşması, parlament seçkilərində səslərin əksər çoxluğunu qazanması və ölkəmizin ictimai-siyasi həyatında iqtidar partiyası kimi aparıcı yer tutması əsl reallıq idi. Heydər Əliyevin siyasi baxışlarından və siyasi fəlsəfəsindən səmərəli şəkildə bəhrələnməsi partiyanın böyük qələbələr qazanmasını şərtləndirirdi.

1995-ci ildən YAP-ın I qurultayına qədərki dövr partiyanın inkişafının III mərhələsini təşkil edir. Həmin mərhələ də özünün xüsusi cəhətləri ilə seçilir. Burada YAP-ın qarşısında iqtidar partiyası kimi siyasi, iqtisadi, sosial və mədəni sahələrin inkişafı üzrə elan etdiyi prinsiplərin əsaslı şəkildə həyata keçirilməsini təmin etmək vəzifəsi dayanırdı. Azərbaycanda demokratik prinsiplərin möhkəmləndiyi, ölkəmizin dünya birliyinə sürətli inteqrasiyasının mövcud olduğu, azad iqtisadi münasibətlərin formalaşdığı bu dövr partiyanın həyatında da mühüm rol oynamışdır.

Yeni Azərbaycan Partiyasının I qurultayı 1999-cu il 20-21 dekabr tarixlərində Bakı şəhərində keçirilmişdir. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının 1995-1999-cu illərdəki fəaliyyətini yüksək qiymətləndirmişdir. O, partiyanın ildönümünə həsr edilmiş tədbirlərdə və YAP-ın I qurultayına hazırlıq üzrə Təşkilat Komitəsinin 1999-cu ilin sentyabr ayındakı iclasında çıxışı zamanı partiyanın fəaliyyətini yüksək qiymətləndirmiş, eyni zamanda bu sahədə mövcud olan çatışmazlıqları göstərərək, onun gələcək fəaliyyət istiqamətləri barəsində dəyərli tövsiyələr vermişdir. Bu qiymətləndirmə və tövsiyələr partiya işinin canlanması istiqamətində böyük stimul olmuşdur.

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiyanın yaradılmasının tarixi əhəmiyyə-

tini yüksək qiymətləndirərək demişdir: "Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə malik, ən böyük hörmətə malik olan siyasi partiyadır. Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır. Yeni Azərbaycan Partiyası qurultayının bu qədər məzmunlu, mənalı, mütəşəkkil və nikbin əhval-ruhiyyədə keçməsi partiyanın cəmiyyətimizdə hörmətini daha da yüksəklərə qaldırır və qaldıracaqdır, Yeni Azərbaycan Partiyasının ətrafında Azərbaycanın daha da çox vətəndaşları toplaşacaqdır" [1, səh 65-66].

Heydər Əliyevin xalqımızın taleyüklü məsələləri barəsində partiya qurultayındakı nitqi əslində ölkəmizdə fəaliyyət göstərən bütün ictimai-siyasi qüvvələr üçün dəyərli, proqram xarakterli çıxışdır. Onun çıxışından aydın olur ki, ümummilli strateji məsələlər ayrı-ayrılıqda həll edilmir və onlar bir-biri ilə sıx bağlıdır.

Azərbaycan dövlətinin taleyüklü məsələləri daim Heydər Əliyevin diqqət mərkəzində olmuş və istənilən tarixi şəraitdə bu görkəmli dövlət xadimi ümummilli problemlərə özünün prinsipial münasibətini bildirmişdir. 1999-cu ildə Azərbaycanın 91 nəfər tanınmış ziyalısının müraciətinə cavabında ölkəmizin bütün problemlərinə toxunulmuş və onların həlli yolları göstərilmişdir. Heydər Əliyev həmin müraciətdə Azərbaycanın müharibə vəziyyətindən çıxması və Dağlıq Qarabağ probleminin tezlikcə həll olunması, Azərbaycanın müstəqil dövlətçiliyinin möhkəmlənməsi, respublikamızın parçalanmasına yönəldilmiş meyllərin qarşısının alınması məsələlərini ön plana çəkmişdir [4].

YAP-ın I qurultayının tarixi əhəmiyyətini artıran mühüm amillərdən biri də siyasi varisliyin təmin olunması istiqamətində atılan addım oldu. Cənab İlham Əliyevin partiya sədrinin müavini postuna gətirilməsi haqqında qərar bu prosesə yeni ruh və müasirlik gətirdi. I qurultaydan sonra ölkədə yeni bir mərhələ başladı və cəmi bir il sonra-2000-ci ilin noyabr ayının 12-də keçirilən parlament seçkilərində cənab İlham Əliyevlə YAP-ın bəzi üzvləri parlamentdəki yerlərin çoxunu əldə etdilər. Bu isə I qurultayın qərarlarının praqmatik siyasi düşüncənin nəticəsi olduğunu söyləməyə əsas verdi. Cənab İlham Əliyevin sonradan partiya sədrinin birinci müavini seçilməsi ilk qurultayın qəbul etdiyi qərarların uğurlu nəticəsinin bariz göstəricisi idi.

Yeni Azərbaycan Partiyasının 2001-ci il noyabr ayının 21-də keçirilən II qurultayı da partiyanın tarixində ən əlamətdar hadisələrdən biri kimi xatırlanır. Həmin qurultayda partiyanın Sədri, ümumilli liderimiz Heydər Əliyev görülən işlərə yekun vuraraq deyirdi: "Biz bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda yeni bir sistem yaranıbdır. Dünya standartlarına yaxınlaşan, dünya standartlarına çatmağa çalışan hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Onu yaradan Azərbaycanın iqtidarıdır, onun prezidentidir, Yeni Azərbaycan Partiyasıdır". Qurultayda YAP-ın nizamnaməsində müəyyən dəyişikliklərin edilməsi qərara alınmışdır. Qurultay öz qətnaməsində yeni, müstəqil Azərbaycan uğrunda ideyasının faktiki olaraq gerçəkləşdiyini və müstəqilliyinin əbədiliyini, dönməzliyini, sarsılmazlığını təmin etmişdir.Yeni Azərbaycan Partiyası qurultaydan sonrakı dövr üçün irəli sürdüyü yeni strategiya ilə xalqın firavan həyatı və sosial rifahı ideyası uğrunda mübarizə aparmışdır. Qurultayda həmçinin, yeni dövr üçün partiyanın qarşısında duran başlıca vəzifələr müəyyən edilmişdir.Ulu öndərimizin həyata keçirdiyi islahatlara dəstək vermək, bu siyasətdə fəal iştirak etmək hər bir partiya üzvünün qarşısında başlıca vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir.

Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevin müstəqilliyin möhkəmləndirilməsi yolunda apardığı uğurlu siyasətin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Əslində, ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvvəfəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil Azərbaycanın dövlətçiliyi üçün qarantiya deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən ciddi səhvlər son nəticədə ölkədə qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycnın müstəqilliyi üçün ciddi təhlükə yaratmışdı. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə apardı və son nəticədə dövlətin milli təhlükəsizliyinin və

ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit, güclü silahlı qüvvələrin yaradılmasına nail oldu [5, səh.272].

Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olması, geniş və çoxşaxəli islahatların həyata keçirilməsi, Ümumilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl olaraq davam etdirilməsi yolunda YAP-ın özünəməxsus yeri və rolu vardır. Yarandığı vaxtdan YAP dövlətçilik mövqeyində dayanmış və bu gün partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu istiqamətdə fəaliyyətini qətiyyətlə davam etdirir. Partiyanın keçdiyi tarixi yoldan danışarkən YAP Sədri, Prezident İlham Əliyev demişdir. "Partiyanın çox böyük tarixi var, partiya Ulu Öndər Heydər Əliyevin tərəfindən çox çətin, ağır şəraitdə yaranmışdır. Ondan sonra partiyanın bütün fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət olmuşdur. Bizim partiyamız müxalifətdə yaranmışdır. Yəni biz ilk fəaliyyətimizi müxalifət partiya kimi olaraq başlamışıq. Ancaq buna baxmayaraq, Azərbaycanın qarşısında duran bütün çətin vəzifələrin həlli işində bizim partiyamız çox fəal iştirak etmişdir. Bu bir daha onu göstərir ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyini möhkəmləndirən və Azərbaycan dövlətçliyini ən uca tutan partiyadır" [7, səh. 260].

YAP daim yeniləşən, mütərəqqi fikirli gəncləri öz ətrafında birləşdirən siyasi qurumdur. Hazırda dövlətin gənclər siyasəti mühüm əhəmiyyət kəsb edən aktual problemdir.Çünki gənclik bizim sabahımızı, gələcəyimizi təmin edən qüvvədir. YAP-ın fəaliyyətində gənclərin yeri, mövqeyi yüksək qiymətləndirilir. Ona görə də ölkədə gənclər siyasətinin düzgün strategiya və taktikasının müəyyənləşdirilməsi prinsipial əhəmiyyət daşıyır. Bu gün tam əminliklə demək olar ki, partiyaya Azərbaycanın siyasi həyatında Heydər Əliyev məktəbinin yetirmələri, müstəqilliyimizin və demokratiyanın qarantı olan yeni təfəkkürlü gənclik gəlir.YAP-da yeni qüvvələrin və istedadlı gənclərin fəaliyyət göstərməsi, öz istedadlarını nümayiş etdirməsi üçün münbit zəmin yaradılmışdır. Yenilik duyğusunu, siyasi dəyərlərin zamanla həmahəng səslənməsini vaxtında qiymətləndirmək bacarığına malik gənc YAP-çılar hüquqi dövlət quruculuğu, sosial- yönümlü bazar iqtisadiyyatı, demokratik institutların təkmilləşdirilməsi və inkişafı kimi siyasi prinsiplərə üstünlük verirlər.

Yeni Azərbaycan Partiyası özünün qısa tarixində bütün çətinliklərə sinə gərərək qalib gəlmək bacarığını əyani surətdə sübut edib. Milli müstəqillik, milli dövlətçilik, vətənpərvərlik, tarixi və milli ənənələrə sədaqət ideyaları ətrafında birləşən YAP üzvləri yüksək fəallıq, ibrətamiz siyasi prinsipiallıq və mübarizlik nümayiş etdirməyə qadirdir. Yeni Azərbaycan Partiyasının proqram və məramnaməsində əsas prinsip-real tarixi mərhələnin tələblərinə uyğun olaraq sivilizasiyalı, hüquqi və demokratik dövlət qurmaq, xalqın milli mədəni, mənəvi irsinə, maarifçiliyə, ağıllı varisliyə əsaslanan ümumbəşəri dəyərlər təməlində yaradacağı təkamül yolunu inkişaf etdirmək və əsas mövqelər üzrə razılıq əldə etmək, bütün ictimai təşkilat və partiyalarla fəal əməkdaşlıq etmək aydın şəkildə öz əksini tapmışdır [3, səh 137].

Bu gün Azərbaycan regional və beynəlxalq münasibətlər sisteminə elə bir şəkildə ehtiva olunmuşdur ki, əhəmiyyət kəsb edən bütün proseslərə sirayət edə bilmək gücünə malikdir.Yeni Azərbaycan Partiyasının proqramında göstərilən hüquqi, demokratik, dünyəvi dövlətin qurulması üçün hüquqi bazanın hazırlanması Heydər Əliyevin adı ilə bağlıdır.

Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük bir fenomendir. Yeni Azərbaycan Partiyası ictimai-siyasi fəaliyyətində vətəndaş həmrəyliyinə, konstruktiv əməkdaşlığa həmişə üstünlük vermiş, ümumxalq, ümumdövlət mənafelərinə xidmət edən siyasi partiya və ictimai qurumlarla əlaqələrin genişlənməsinə çalışmışdır.

Yeni Azərbaycan Partiyası öz fəaliyyətilə sübut etmişdir ki, o, ölkəmizin taleyüklü problemlərinin həllində ən düzgün mövqe tutmağa, dövlətçiliyimizi və müstəqilliyimizi qorumağa xidmət göstərməyə qadir olan ən mütəşəkkil siyasi qüvvədir.

Bu gün xalqımızın və partiyamızın qarşısında yeni vəzifələr dayanır. Bu vəzifələrin ən başlıcası Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, onu bölgənin və dünyanın ən güclü, qüdrətli zəngin Azərbaycan uğrunda mübarizə olmalıdır.

Ulu Öndər Heydər Əliyevin "Dünənin, bu günün, gələcəyin partiyası" deyə həm keçmişini, həm bu gününü, həm də gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir.

Göründüyü kimi, yeni dövr dünya siyasətinin görkəmli liderlərindən biri kimi böyük imic qa-

zanmış cənab İlham Əliyevin rəhbərliyi ilə hazırda müstəqil Azərbaycan dövləti də, Yeni Azərbaycan Partiyası da xalqımızı yeni zirvələrə aparır.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Əli Həsənov, Aydın Mirzəzadə Yeni Azərbaycan Partiyası: yaranması və əsas fəaliyyət istiqamətləri.- Bakı, 2002, 200 s.*

*2. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı-2008, 504 səh.*

*3. İradə Hüseynova. Müstəqilliyimizin təminatçısı (Məqalələr, çıxışlar, müsahibələr, rəylər) Bakı, 504 s.*

*4. Heydər Əliyevin Aərbaycan ziyalılarının müraciətinə cavabı “ Səs qəzeti, 24 oktyabr 1992-ci il*

*5. Nizami Xudiyev: Xalq və dövlət naminə:YAP dünənin, bu günün , sabahın partiyasıdır, Elm və təhsil, Bakı-2014, 648 s.*

*6. YAP II ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsində Heydər Əliyevin nitqi. 19 noyabr 1994-cü il. “ Yeni Azərbaycan” qəzeti, 22 noyabr 1994*

*7. Yeni Azərbaycan Partiyası 15 il yüksəliş yolunda, Bakı – 2008,.699 s.*

*8. YAP I qurultayına hesabat məruzəsindən, 20 dekabr 1999-cu il. YAP-ın I qurultayının materialları. Stenoqrafik hesabat. Bakı, 2000-ci il*



**Şükürova Günay Bəhruz**
***Sumqayıt Dövlət Universiteti***


**HEYDƏR ƏLİYEVİN YARATDIĞI YENİ AZƏRBAYCAN PARTİYASI MÜSTƏQİL AZƏRBYCANIN DÜNƏNİ, BU GÜNÜ VƏ GƏLƏCƏYİDİR**


**XÜLASƏ**

Yeni Azərbaycan Partiyasının ölkənin siyasi sistemində aparıcı təşkilata çevrilməsi və fəaliyyəti öyrənilir. Eyni zamanda YAP-ın keçirilmiş birincə və ikinci qurultaylarında Heydər Əliyevin çıxışlarının əhəmiyyətinə xüsusi önəm verilir. Ölkənin ictimai siyasi həyatında iqtidar partiyası kimi aparıcı yer tutaraq siyasi, iqtisadi, sosial və mədəni sahələrin inkişafı üzrə elan etdiyi prinsiplərin əsaslı şəkildə həyata keçirilməsi kimi məsələlərə diqqət yetirilir.



**Açar sözlər:** *Partiya, ümumxalq, Naxçıvan, siyasi, qurultay, dövlət, Azərbaycan.*



**Shukurova Gunay Behruz**
***Sumgayit State University***


**The new Azerbaijan party created by Hayder Aliyev is the yesterday, today and future of independent Azerbaijan**


**SUMMARY**

The article highlights the creation of the New Azerbaijan Party and its period of activity. Also, the historical importance of congresses held during the period of activity of YAP was particularly emphasized. YAP has a unique place and role in establishing the state independence of Azerbaijan, implementing broad and multifaceted reforms, and consistently continuing the political line defined by the national leader Heydar Aliyev.



**Key words:** *party, nationwide, Nakhchivan, political, convention, state, Azerbaijan*



**Шукюрова Гюнай Бахруз**
***Сумгаитский государственный университет***


**Новая Азербайджанская партия, созданная Гайдером Алиевым, — это вчера, сегодня и будущее независимого Азербайджана**


**РЕЗЮМЕ**

В статье освещено создание партии «Ени Азербайджан» и период ее деятельности. Также особо подчеркивалось историческое значение съездов, проведенных в период деятельности ПЕА. ПЕА занимает уникальное место и роль в установлении государственной независимости Азербайджана, осуществлении широких и многогранных реформ, последовательном продолжении политической линии, определенной общенациональным лидером Гейдаром Алиевым.



**Ключевые слова:** *Партия, нация, Нахчыван, политический, собрание, государство, Азербайджан.*

UOT 32(092)
DOI:10.30546/3006-0346.2024.4.82.25

# DÖVLƏT MÜSTƏQİLLİYİMİZİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

**İBRAHİM BABAYEV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin "Humanitar fənlər" kafedrasının baş müəllimi*
*E-mail: babayevibrahim@inbox.ru*

Demokratik dövlət quruculuğunda ən mühüm və həm də başlıca olan məsələlərdən biri də lider amili məsələsidir.

Siyasət elminin banilərindən biri, siyasətə köhnə sxolastik metoddan fərqli olaraq, yeni–siyasi realizm metodunu gətirən N.Makiavelli (1469-1527) siyasətdə insanların maraqları, siyasi şərait və məqsəd aydınlığı, siyasi vasitələrin düzgün müəyyən edilməsi, siyasətdə nisbiliyin nəzərə alınması ilə bağlı olan problemlərlə yanaşı, lider amilini də önə çəkir. Onun "güclü lider-güclü dövlət" anlayışına görə, siyasi qərarların nə dərəcədə effektiv olması siyasi liderdən və onun idarəçilik məharətindən asılıdır.

Siyasi ədəbiyyatlarda liderliyin ümumiləşdirilən növləri bunlardır: avtoritar liderlik, bürokratik liderlik, xarizmatik liderlik, demokratik liderlik və ya iştirakçı liderlik, qarışmama və ya fəaliyyət azadlığı, insana yönəlik liderlik, xidmətedici liderlik, məqsədə yönəlik liderlik, işə yönəlik liderlik, kökündən dəyişdirici liderlik.

Liderliyin müxtəlif nəzəriyyələrinin nəzərdən keçirilməsi əsasında müstəqil Azərbaycanda milli-demokratik dövlət quruculuğunda lider amilinin nəzərdən keçirilməsi spesifikliyi ilə seçilir. Bu isə Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinin unikallığı ilə şərtlənir.

Heydər Əliyev fenomeni taleyin Azərbaycan xalqına bəxş etdiyi böyük xoşbəxtlikdir. Bu dahi şəxsiyyət Azərbaycan xalqı üçün, hər bir azərbaycanlı üçün böyük qürur və iftixar mənbəyidir. Xalqımız öz əvəzsiz liderinin qədrini həmişə yaxşı bilmiş, onu layiqincə qiymətləndirmiş və qiymətləndirməkdədir. 1991-ci ilin iyulunda Heydər Əliyev Kommunist Partiyasından istefa verdi. Bu barədə onun verdiyi bəyanatda ifadə olunan fikirlər gələcək müstəqilliyin postulatları kimi diqqət çəkir: "Mən Moskvanın israr etdiyi İttifaq müqaviləsinin əleyhinə çıxmışam. Hər hansı müstəqil dövlətin tərkibində bir neçə müstəqil dövlət ola bilməz. Bütün respublikalara iqtisadi və siyasi müstəqillik verilməli, onların hüquqları tanınmalıdır. Azərbaycan Kommunist Partiyasına hakimiyyətdən əl çəkməyi, demokratik cəmiyyətin qurulması, siyasi plüralizmin təmin edilməsi üçün lazımi şərtlərin təmin edilməsini tələb edirəm". Bu bəyanat verilərkən (19 iyul, 1991-ci il) Azərbaycanın dövlət suverenliyi barədə bəyannamə və dövlət müstəqilliyi barədə Konstitusiya Aktı hələ qəbul edilməmişdi.

1990-cı il iyulun ortalarından artıq xalq bir vaxtlar Meydan hərəkatına başçılıq edən Xalq Cəbhəsinin qeyri-ardıcıl mövqeyinə görə ondan uzaqlaşmağa başlamış, bütün ümidlərini dövlətçilik qüdrətinə, bacarığına və təcrübəsinə 70-ci illərdən yaxşı bələd olduqları Heydər Əliyevə bağlamışdılar. Naxçıvana gəldiyi ilk gündən əhali onun ətrafında sıx birləşdi. Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçilən Heydər Əliyev, "iqtidarın başı hakimiyyətdə möhkəmlənmək uğrunda mübarizəyə qatıldığı vaxt" xalqı azadlıq uğrunda axıradək mübarizə aparmağa çağırır, ona yol göstərirdi.

Dövlət müstəqilliyimizin elan olunmasından əvvəl, sovet hakimiyyətinin hələ mövcud olduğu dövrdə Heydər Əliyev Naxçıvanda üçrəngli Azərbaycan bayrağını ucaltmışdı. 1990-cı il iyulun 22-də görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətə qayıdışı ilə Naxçıvandan başlanan milli dirçəliş bütövlükdə Azərbaycanın siyasi mühitində milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olunmağa başlamışdı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanı müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. "17 noyabr 1990-cı il Azərbaycan dövlətçiliyinin, milli dövlət rəmzləri tariximizin dönüş nöqtələrindən biri kimi tarixi yaddaşımıza əbədi daxil olub. Bu tarixi gündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası keçirilib və çağdaş milli dövlətçilik tariximiz üçün çox əhəmiyyətli qərarlar qəbul edilib... Qədim Azərbaycan diyarı Naxçıvan Muxtar Respublikasının adı üstündən "Sovet Sosialist" sözləri əbədi olaraq atılıb, Naxçıvan ali qa-

nunvericilik orqanı “Ali Məclis” adlandırılıb. Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli milli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilib və müqəddəsliyə yüksəldilib. . . ”[1s. 20]. Həmin tarixi sessiyada qəbul edilən qərarda həmçinin Azərbaycan SSR-nin ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxılması, respublikanın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin – bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi [2, s. 66-67]. Naxçıvanda suverenliyimizin əsas atributlarından biri olaraq Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırdı və ölkəmizdə gedən ictimai-siyasi proseslərə, ümumiyyətlə milli qurtuluş hərəkatına, azadlıq mübarizəsinə güclü təkan verdi.

Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən cəsarətli və nümunəvi demokratik tədbirlərin təsiri altında və bütün demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxılmış, ölkənin “Azərbaycan Respublikası” adlandırılması, varislik əlaməti olaraq, Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verilmişdir [3, s. 257].

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi və hakimiyyətin iflic vəziyyətə düşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Bu gün, tarixə "Milli Qurtuluş Günü" kimi düşdü.

1993-cü il oktyabrın 3-də isə ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə respublikanı parçalanma və məhvolma təhlükəsi ilə üzləşdirən bütün proseslərin qarşısı alındı.

2014-cü il mayın 27-də Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda Prezident İlham Əliyev söylədiyi nitqində demişdir: “O illəri biz hamımız yaxşı xatırlayırıq. Azərbaycan üçün çox ağır, təhlükəli illər idi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bu tarixi şansdan o vaxtkı rəhbərlik istifadə edə bilməmişdir. Ölkədə xaos, böhran hökm sürürdü – iqtisadi böhran, siyasi böhran. Xüsusilə AXC-Musavat hakimiyyətinin yarıtmaz, xəyanətkar, faciəvi hakimiyyəti nəticəsində ölkəmiz uçuruma gedirdi. . . Əgər Heydər Əliyev o illərdə Azərbaycan rəhbərliyinə gəlməsəydi, ölkə tamamilə dağıla bilərdi.

Ona görə 1993-cü il əslində real müstəqilliyimizin ilk ili olmuşdur. . . 1993-2003-cü illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaqdır. Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin edən bir dövr kimi tarixdə qalacaqdır”[4].

Bir çox siyasətşünas alimlərin də qeyd etdikləri kimi, siyasi liderin cəmiyyətdəki rolu hər şeydən əvvəl öhdəsinə düşən missiyasını yerinə yetirmək bacarığı və məharəti ilə müəyyən edilir. Yuxarıda qeyd edilənlərdən də göründüyü kimi, zamanın ən çətin sınaq anlarında belə Heydər Əliyev öhdəsinə düşən tarixi missiyasını böyük məharətlə və bacarıqla yerinə yetirmiş, Azərbaycanı daxili və xarici səbəblərdən düçar olduğu fəlakətdən, müstəqilliyini itirmək və parçalanmaq təhlükəsindən xilas etmiş, onu inkişaf və tərəqqi yoluna çıxarmışdır.

“Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin 30 ildən artıq dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Onun yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini müəyyənləşdirmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş və dünya azərbaycanlılarının həmrəyliyi prosesinin ideya əsasını yaratmışdır”[5, s. 183].

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yol öz başlanğıcını əslində, 1969-cu ildən - məhz Heydər Əliyevin hakimiyyətə gəlişindən götürmüşdür. Heydər Əliyev o dövrdəki mövcud ideologiyanın tələbləri çərçivəsində Azərbaycanda milli ruhun məhv edilməsinə nəinki yol verməmiş, əksinə onu yüksəltmək yolunda bütün imkanlardan istifadə etməyi bacarmışdır.

Heydər Əliyevin milli müstəqilliyin və dövlətçiliyin möhkəmləndirilməsi amalı üzərində qurulan siyasi konsepsiyası özünün dərin optimizmi ilə olduqca önəmli və ibrətamizdir. Ulu Öndər müstəqilliyini bərpa edən Azərbaycan xalqına yaxın və uzaq gələcəyinə, gərgin şəraitdə yaşasa da belə, nikbinliklə baxmağı həmişə tövsiyə edib. 1994-cü

il 17 noyabrda Milli Dirçəliş Gününün ildönümü münasibətilə xalqa müraciətində Prezident Heydər Əliyev demişdir: "Tarix bizi ağır sınaqlara çəksə də, müstəqilliyə qovuşduğumuz az müddətdə milli demokratik dövlət quruculuğu, ictimai-siyasi və iqtisadi həyatın bir çox sahələrinin yenidən qurulması istiqamətində ciddi addımlar atılmışdır. " [6].

Azərbaycan xalqının Prezident Heydər Əliyev ətrafında həmişə sıx birləşməsinin, onunla həmrəy olmasının, ən çətin anlarda belə səsinə dərhal səs verməsinin əsasında, təbii ki, dövlət başçısının xalqın iradəsinə, mənafeyinə ədalət və sədaqətlə xidmət etməsi və bunun bütün dövlət məmurlarından tələb etməsinin gerçək nəticələri dururdu. Ulu Öndər çıxışlarında xüsusilə vurğulayırdı: "Vətənə, xalqa sədaqət və mənəvi saflıq, bunlar bizim müvəffəqiyyətimizin əsasıdır" [7, s. 126].

Milli qurtuluşun, müstəqilliyin qorunması və möhkəmləndirilməsinin, inkişaf və tərəqqinin ümdə şərtini, yolunu xalqın birliyində, ona düzgün siyasi rəhbərlikdə, iqtidarla xalqın vahid amalla həmrəyliyində görən Heydər Əliyev respublika prezidentliyinin ilk anlarından özünün çoxsaylı çıxış və müraciətlərində bununla bağlı istiqamətverici çağırışlar edir və bu sahədə olduqca önəmli olan konkret addımlar atır. 1993-cü il noyabrın 17-də siyasi partiyaların və ictimai təşkilatların rəhbərləri ilə görüşündə Heydər Əliyev demişdir: "Hamımız bir məqsədə - Azərbaycanın birliyini, bütövlüyünü, suverenliyini qorumaq məqsədinə xidmət etməliyik"[8]. 1995-ci il martın 15-də Heydər Əliyev artıq Azərbaycan Respublikasının prezidenti kimi televiziya və radio ilə xalqa müraciətində bir daha qətiyyətlə bəyan edir: "Mən dəfələrlə demişəm, bu gün, gərginlik yaranan vaxtda bir daha deyirəm: Azərbaycanın dövlətçiliyini son damla qanımadək qoruyacağam" [9, s. 805].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il mayın 27-də Respublika günü münasibətilə rəsmi qəbulda söylədiyi nitqində demişdir: "...Azərbaycan xalqının böyük xoşbəxtliyi ondan ibarət idi ki, xalqımız həlledici anlarda düzgün seçim etmişdir, müdriklik göstərmişdir və Ulu Öndərə üz tutub onu hakimiyyətə dəvət etmişdir. Əgər Heydər Əliyev o illərdə Azərbaycan rəhbərliyinə gəlməsəydi, ölkə tamamilə dağıla bilərdi.

Ona görə də 1993-cü il əslində real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı "[10].

Heydər Əliyev müdrik, çevik təşkilatçı, zamanın nəbzini tuta bilən nikbin və uzaqgörən rəhbər kimi önəmli böyük dövlətçilik fəaliyyəti ilə bir daha sübut etdi ki, vətənpərvərlik, milli təəssübkeşlik və əzmkarlıq güclü olanda az zaman müddətində çox uğura imza atmaq olar. "Və elə bu daxili əminliklə də Heydər Əliyev problemlər məngənəsində çapalayan Azərbaycan xalqının özünəinamını bərpa edərək milli ruhu məhv olmaq təhlükəsindən qorudu, dövlət idarəçiliyinə yeni ruh, müasirlik gətirdi xalqın bütün potensialını milli problemlərin həlli yönündə səfərbər etdi"[11].

Bu gün Heydər Əliyevin müəyyən etdiyi demokratiya və bazar iqtisadiyyatı yolu ilə hərtərəfli, davamlı və dinamik inkişaf edən, çiçəklənən, yeni-yeni uğurlar qazanan, dünya birliyində güclü nüfuza malik olan Azərbaycan Respublikasının müstəqilliyinin möhkəm təməl üzərində daha da qərarlaşması, qüdrətinin artması Ulu Öndərin dahiyanə uzaqgörənliyinin və əminliyinin bir daha həyati təsdiqi, parlaq təcəssümüdür.

Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanılmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi genişləndi. Ən əlamətdar hadisə isə Azərbaycanın Konstitusiyasının qəbulu idi.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin böyük dahiliklə müəyyən etdiyi, dövlətçiliyin bu gününə və gələcəyinə hesablanan strateji siyasi kursu bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi, müstəqilliyin daimi və əbədi olması prinsiplərinə söykənir. Məhz bu prinsiplərin uğurla həyata keçirilməsi nəticəsində yaranışının ilk illərində dağılmaq təhlükəsi ilə üzləşən müstəqil Azərbaycan Respublikası az bir zamanda güclü və qüdrətli bir dövlətə çevrilir. 1994-1995-ci illərdə Heydər Əliyevin təşəbbüskarlığı və rəhbərliyi ilə ilk dəfə olaraq ölkədə artıq real müstəqillik zəminində cəmiyyətin demokratiya və sərbəst bazar iqtisadiyyatı yolu ilə

inkişafı, onun siyasi sisteminin, ictimai quruluşunun yeni münasibətlər, prinsiplər əsasında transformasiyası istiqamətində böyük dəyişikliklərin praktiki olaraq fəal və ardıcıl surətdə həyata keçirilməsinə başlanılır.

Heydər Əliyev birmənalı şəkildə Azərbaycan insanına tövsiyə edirdi: "Hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq". Belə deyərkən O, bu zaman bütöv xalqın – azərbaycanlı super-etnosun harada və hansı vəziyyətdə olmasını, şəraiti fərqləndirmədən, ümumilikdə onlarda milli duyğuların canlanması işinə bir iradəlik, sürət, impuls verirdi [12, s. 10].

Məhz Heydər Əliyevin böyük siyasi iradəsi, qətiyyəti və diplomatik məharəti sayəsində apardığı məqsədyönlü xarici siyasətinin nəticəsində 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın nüfuzlu iri şirkətləri arasında "Əsrin müqaviləsi"nın imzalanması müstəqil Azərbaycan Respublikasının xarici siyasət sahəsində ilk böyük nailiyyəti demək idi. Bu, Azərbaycanda həm iqtisadi, həm siyasi sahədə dönüş yaratdı, Azərbaycanın iqtisadi dirçəlişində, dünya birliyində mövqeyinin möhkəmlənməsində mühüm rol oynadı və indinin özündə də oynamaqdadır.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Heydər Əliyev 1993-cü ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır.

Dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir.

2002-ci il oktyabrın 17-də Azərbaycanın dövlət müstəqilliyinin 11-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə Prezident Heydər Əliyev demişdir: " Azərbaycanın dövlət müstəqilliyinin 11-ci ili tamam olur. 11 il tarixi nöqteyi-nəzərdən çox az vaxtdır. Ancaq bu illərdə Azərbaycan xalqı böyük, əzab-əziyyətli və çox şərəfli yol keçmişdir. Azərbaycanın dövlət müstəqilliyi yaşamış, möhkəmlənmiş, inkişaf etmiş, Azərbaycan dünya birliyində, bütün beynəlxalq təşkilatlarda öz yerini tutmuş, Azərbaycanın bayrağı bütün qitələrdə, müxtəlif tədbirlərdə yüksəlmiş, Azərbaycanın himni dünyanın hər yerində səslənmişdir" [13].

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il sərəncamına əsasən 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub-saxlmaq hər bir azərbaycanlının şərəfli vəzifəsi olduğu bildirilir. [14].

Ümummilli Lider Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri həyatımızın şüarı olmaqla milli birliyin, bütün azərbaycanlıların həmrəyliyinin təməl daşına çevrilmişdir.

Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin uğurlu həlli şəxsən Heydər Əliyevin xidmətləridir.

1993-cü ildən sonrakı dövrdə Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan respublikasının qurulması, möhkəmləndirilməsi, Xalq Cümhuriyyətinin demokratik ənənələrinin yeni məzmunda - hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində davam etdirilmiş, bu istiqamətdə xeyli iş görülmüşdür. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə art-

ması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.

Heydər Əliyevin strateji kursu əsasında aparılan tarazlaşdırılmış daxili və xarici siyasəti nəticəsində Azərbaycan Respublikası dünya birliyinin tam-hüquqlu bir üzvü kimi bu gün beynəlxalq arenada söz sahibidir. Onun ədalətə, beynəlxalq hüquqa söykənən mövqeyi böyük əhəmiyyət daşıyır.

Heydər Əliyev siyasi zəkası ilə XX və XXI əsrlərin qovşağında siyasi xadimlər arasında özünəməxsus yerini tutmuş, böyük nüfuza malik olmuşdur. Bu baxımdan onun Qafqaz regionunda, bütövlüklə Şərqlə Qərbin sintezi, dialoqu kontekstində atdığı tarixi addımları səciyyələndirən nüfuzlu dövlət adamlarının bəzi fikirləri tədqiqatımızın praktik mənbələri kimi qəbul edilə bilər.

Heydər Əliyevi şəxsən yaxşı tanıyan, onun dövlətçilik bacarığına, diplomatik məharətinə bələd olan, onunla fikir mübadiləsi aparan xarici siyasi xadimlər etiraf etmişlər: "Bizim günlərdə hadisələr çox sürətlə cərəyan edir, qloballaşır. Təhlükəsizlik məsələləri xüsusilə gündəlikdə durur. Bu baxımdan Prezident Heydər Əliyev kimi təcrübəli siyasətçi ilə fikir mübadiləsindən çox şey əldə etmək mümkündür. Prezident Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Asiya ilə Avropa arasında əlaqələr, əməkdaşlıq körpüsü qurulur" [15].

Böyük Britaniyanın Baş naziri Toni Bleyer qeyd edir ki, Heydər Əliyevin Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

Almaniya Federativ Respublikasının federal kansleri olarkən Gerhard Şröder Heydər Əliyevin tarixi missiyasını belə səciyyələndirmişdi: "Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır" [16].

Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş isə Heydər Əliyevin yalnız öz ölkəsinin deyil, qlobal miqyaslı siyasətçi kimi xidmətlərini belə xarakterizə edib: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır" [16].

Azərbaycanın müstəqil dövlətçilik tarixinin təhlili göstərir ki, dahi lider Heydər Əliyevin dövlətçilik təlimində güclü dövlət modeli və atributları ilə paralel iqtisadi, siyasi, sosial və mənəvi kriteriyalar konseptual şəkildə ifadə olunub.

Yerli və xarici politoloqların qeyd etdikləri kimi Ulu Öndər Heydər Əliyevin dövlətçilik nəzəriyyəsi və praktikasına gətirdiyi ən böyük yeniliklərdən biri sosial-siyasi sistemləri öz daxili enerjisi hesabına dəyişdirmək, dağıdıb yenidən qurmağa vaxt və qüvvə sərf etmədən, proseslərin təbii gedişini istiqamətləndirmək taktikasıdır. Həmçinin burada ən əsas məsələ mürəkkəb proseslərə müxtəlif rakurslardan yanaşmaq qabiliyyətidir.

Heydər Əliyevin dövlətçilik nəzəriyyəsi belə bir mülahizəni təsdiq edir ki, idarəetmənin optimal modelini yaradan, cəmiyyətdəki konfliktləri həll edən, cəmiyyətin bütün resurslarını səfərbər edən, müxtəlif qüvvələrin və bütövlükdə cəmiyyətin siyasi tarazlığını yaradan bir lider hərtərəfli uğur qazana bilərdi. Məhz bu kimi amillərə görə Azərbaycan dövlətçiliyinin yaradılması və inkişafının Heydər Əliyev mərhələsi tarixi səciyyə daşıyır.

Analitik Robert Dal hesab edir ki, hakimiyyət ilk növbədə məsuliyyətlə bağlıdır. Bu məsuliyyətin məzmunu isə dövlət hakimiyyətinin xalq naminə istifadəsində ehtiva olunur [17].

Beləliklə, Heydər Əliyevin dövlətçilik kursu, siyasi strategiyası, yaratmış olduğu azərbaycançılıq ideologiyası Azərbaycan Respublikasının indiki və gələcək inkişafının, onun tərəqqisinin, dövlət müstəqilliyinin əbədi olmasının həyati yolu, sarsılmaz təməli, mötəbər təminatıdır. Azərbaycanın reallığı şəraitində uzunmüddətli çaşqınlıq və yanılmalardan sonra xalq Heydər Əliyevin simasında axtardığı ideal lideri seçib hakimiyyətə gətirdi, taleyini ona tapşırdı, gələcəyini təmin etdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın ən ağır vaxtında hakimiyyətə gəlişi ilə müstəqilliyin dönməz olmasını şərtləndirən bütün amillərin, xalqın

intellektual-mənəvi potensialının işlək mexanizmə çevrilməsini həyata keçirməklə tarixi bir missiyanı yerinə yetirdi. Bu missiyanın sayəsində Azərbaycanın özü–özünə qaytarıldı, xalqın özünütəsdiq əzmi yeni mərhələyə daxil oldu.

Sosial-siyasi kamillik, yüksək intellekt, mahir natiqlik, zəngin dövlətçilik təcrübəsi, iti təfəkkür tərzi, dərin təhlil bacarığı, müdriklik, peşəkarlıq, uzaqgörənlik, şəxsi nüfuz, qətiyyət və cəsarət kimi ali keyfiyyətlərə malik olan Heydər Əliyev 1993-2003-cü illərdə vaxtilə təhlükəli vəziyyətdən xilas etdiyi Azərbaycanı tərəqqi yoluna çıxardı, dünya dövlətlər birliyinə qovuşdurdu, ona etibarlı nüfuz və mövqe qazandırdı. Ulu Öndər Azərbaycanda ilk sivil liderlik fenomeni və dövlətçilik məktəbi yaratdı.

Bu məktəbin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixi uğurlar əldə etməkdədir. O, yeni reallıqlara adekvat siyasət apararaq ölkəmizin qüdrətli dövlətə çevrilməsini təmin etdi. Onun Ali Baş komandanlığı ilə işğal altında olan torpaqların azad olunması tarixi zəfər kimi suverenliyi bərpa etməklə dövlətçiliyimizi daha da möhkəmləndirdi.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Mərdanov M.C. , Quliyev Ə.Q. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: "Çaşıoğlu", – 2003, 272 s.*
2. *Qayıdış: 1990-1993. Tərtib edəni Ə. Həsənov. Bakı: "Azərbaycan" nəşriyyatı, – 1996, – 475 s.*
3. *Azərbaycan tarixi. /Prof. S. Qəndilov və prof. İ. Məmmədovun üm. red. ilə. Bakı: Çaşoğlu, – 2000, – 348 s.*
4. *"Azərbaycan mədəniyyəti və incəsənəti Heydər Əliyevin azərbaycançılıq ideologiyasının ideya-fəlsəfi əsası kimi" elmi-nəzəri konfransın materialları. Bakı, Proqress, 2013, 354 s.*
5. *"Azərbaycan" qəzeti, Bakı, 1993, 18 noyabr*
6. *"Azərbaycan" qəzeti, Bakı, 1994, 18 noyabr*
7. *"Azərbaycan" qəzeti, Bakı, 2002, 18 oktyabr*
8. *Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Bakı, 2004, Çasioğlu, 10 s.*
9. *Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. 15-ci kitab. Bakı, Azərnəşr, 2005, 528 s.*
10. *Qətiyyətin təntənəsi (sənədli xronika)./Tərtibçi Ş. Yaqubov. Bakı, Səhər, 1995, 848 s.*
11. *Mirzəyev H. Xalqı dövlətçilik ideallarına qovuşdurmuş rəhbər. «Azərbaycan» qəz., Bakı, 2010, 28 aprel*
12. *"Respublika" qəz., Bakı, 2008, 11 may*
13. *Respublika" qəz., Bakı, 2022, 30 sentyabr*
14. *President. az https://president. az Bakı, 29 sentyabr. 2022*
15. *Robert A. Dahl. //The Concept of Power. 1957, Yale, 215 p.*
16. *http://heydar-aliyev-foundation.org/uploads/files/ferman_az.pdf*
17. *http://www.heydar-aliyev.org/index_az.jsp*



## XÜLASƏ

Məqalədə Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə qazanılmış unikal nailiyyətlər təhlil edilir. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanın dövlət müstəqilliyi prosesi başlandı. Sovet İttifaqı süqut etdikdən sonra bütün postsovet ölkələri, o cümlədən respublikamız siyasi transformasiya mərhələsinə qədəm qoydu. Bu ölkələr qarşısında duran əsas vəzifə demokratik islahatları uğurla həyata keçirmək idi.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bu vəzifənin öhdəsindən uğurla gəldi. Müstəqil Azərbaycanda aparılan uğurlu demokratik islahatlar ölkədə liberal-demokratik mühitin yaradılmasında böyük rol oynamışdır. Ardıcıl və sistemli şəkildə həyata keçirilən siyasi və iqtisadi islahatlar ictimai həyatın bütün sahələrində ahəngdar inkişafla müəyyən olundu, milli maraqların təmin edilməsi üçün əlverişli imkanlar yaratdı.



**Açar sözlər:** *Heydər Əliyev, Ümummilli Lider, Azərbaycan Respublikası, demokratiya, dövlət quruculuğu.*



**Ибрагим Бабаев**


## ФЕНОМЕН ГАЙДЕРА АЛИЕВА В УКРЕПЛЕНИИ НАШЕЙ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ


**Резюме**

В статье анализируются уникальные достижения, достигнутые за время руководства общенационального лидера Гейдара Алиева. В 1993 году, с приходом к власти Гейдара Алиева, начался процесс государственной независимости Азербайджана. После распада Советского Союза все постсоветские страны, в том числе и наша республика, вступили в этап политической трансформации. Основной задачей, стоящей перед этими странами, было успешное проведение

демократических реформ.

Под руководством Гейдара Алиева Азербайджан успешно выполнил эту задачу. Успешные демократические реформы, проведенные в независимом Азербайджане, сыграли важную роль в создании либерально-демократической среды в стране. Последовательные и системные политические и экономические реформы определялись гармоничным развитием всех сфер общественной жизни, и создавали благоприятные возможности для обеспечения национальных интересов.

**Ключевые слова:** *Гейдар Алиев, общенациональный лидер, Азербайджанская Республика, демократия, государственное строительство.*

**Ibrahim Babayev**

**SUMMARY**

**THE PHENOMENON OF HAYDAR ALIYEV IN STRENGTHENING OUR STATE INDEPENDENCE**

**Summary**

The article analyzes the unique achievements achieved during the power of National leader Heydar Aliyev. In 1993, with Heydar Aliyev coming to power, the process of Azerbaijan's state independence began. After the collapse of the Soviet Union, all post-Soviet countries, including our republic, entered the stage of political transformation. The main task facing these countries was to successfully implement democratic reforms.

Under the leadership of Heydar Aliyev, Azerbaijan successfully fulfilled this task. Successful democratic reforms carried out in independent Azerbaijan played a major role in creating a liberal-democratic environment in the country. Consistent and systematic political and economic reforms were determined by harmonious development in all spheres of social life and created favorable opportunities for ensuring national interests.

**Keywords:** *Heydar Aliyev, National Leader, Republic of Azerbaijan, democracy, state building.*

УДК 32
DOI:10.30546/3006-0346.2024.4.82.27

# НОВЫЙ ЭТАП ФОРМИРОВАНИЯ ЭНЕРГЕТИЧЕСКОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ЕВРОПЕЙСКИМ СОЮЗОМ

**АФЕТ САФАРОВА**
*Доцент кафедры «Дипломатии и современных интеграционных процессов» Бакинского Государственного Университета, доктор философии по политическим наукам*

*E-mail: afa.sfrva.19@gmail.com*

## Введение

Недавние события, связанные с российско-украинской войной, вновь вызвали обеспокоенность по поводу энергетической безопасности Европы. Но как Европейский союз действует, чтобы обеспечить свое энергетическое будущее?

Европейское зеленое соглашение направлено на поддержку перехода ЕС к чистой энергетике путем декарбонизации его энергетической системы. В настоящее время на производство и использование энергии приходится более 75 процентов выбросов парниковых газов в ЕС [2]. Следовательно, быстрый переход на экологически чистую энергию будет сложной задачей, и зависимость Европы от природного газа будет занимать важное место в повестке дня.

Природный газ является важным энергетическим ресурсом для экономического развития Европы, и государства-члены ЕС сильно зависят от иностранных поставщиков энергии, включая Россию и страны Ближнего Востока и Африки. Важно подчеркнуть, что испытывающая нехватку энергоресурсов Европы зависела в первую очередь от российского природного газа, на долю которого в 2021 году приходилось около 45 процентов европейского импорта газа, и большая часть этой доли проходит через территорию Украины. Даже во время войны между двумя государствами около 109,5 млн кубометров российского газа в день проходило через Украину по пути в Европу (по состоянию на 4 марта 2022 года) [2]. Естественно, это означает, что эскалация отношений между Западом и Россией может ударить по энергетическому сектору Европы.

Это огромная проблема для Европы, и нынешний кризис поднял очень важные вопросы о том, как снизить зависимость от российского природного газа в ближайшем будущем. В связи с этим Европа начала искать альтернативные и надежные поставки природного газа. ЕС уже провел переговоры с энергетическими партнерами, такими как Катар, Соединенные Штаты, Нигерия, Египет и Азербайджан, об увеличении поставок природного газа. Эти страны обладают потенциалом для поддержки энергетической безопасности Европы путем увеличения поставок природного газа на континент.

## Проблемы обеспечения энергетической безопасности Европейского Союза

После санкций США в отношении российских энергоносителей в ответ на российское вторжение в Украину европейские потребители энергии столкнулись с высокими ценами на энергоносители. Цены на природный газ в северо-западной Европе подскочили до рекордно высокого уровня - более 300 евро за мегаватт-час. По оценкам исследовательской компании Rystad Energy было выявлено, что война между Украиной и Россией может сократить импорт природного газа в Европу на 155 миллиардов кубометров (млрд кубометров), что составляет около 30 процентов годовой потребности Западной Европы в природном газе [1]. По словам официальных лиц ЕС, около пятидесяти миллиардов кубометров в год будет поступать из новых источников сжиженного природного газа (СПГ), десять миллиардов кубометров будут поступать по трубопроводам от других поставщиков, а двадцать миллиардов кубометров - за счет новых ветроэнергетических мощностей, что снизит спрос на газовые электростанции [1].

Азербайджан зарекомендовал себя как надежный энергетический партнер Европы. Завершен важный межрегиональный энергетический проект "Южный газовый коридор" (ЮГК). На начальном этапе ЮГК должен был поставлять около миллиарда кубометров в Турцию и десять миллиардов кубометров в Европу. Однако проект также был построен с потенциальной пропускной способностью, которая может быть увеличена до тридцати одного миллиарда кубометров в рамках проекта расширения Южного Газового трубопровода и Трансанатолийского

газопровода, а также до двадцати миллиардов кубометров в Трансадриатическом трубопроводе, тем самым удвоив пропускную способность коридора. У Азербайджана есть потенциал увеличить поставки газа в Европу за счет использования своих запасов газа в Каспийском море, а также доступа к источникам природного газа из Туркменистана и Ирана.

Для обсуждения важных энергетических вопросов комиссар ЕС по энергетике Кадри Симсон и комиссар ЕС по вопросам добрососедства и расширения Оливер Вархели посетили Азербайджан для участия в восьмом министерском заседании Консультативного совета Южного газового коридора, которое состоялось 4 февраля 2022 года. Особый интерес вызвало пленарное заседание, на котором Азербайджан и ЕС обсудили стратегическое партнерство, увеличение доли азербайджанского газа, поступающего в Европу, и перспективы расширения Южного газового коридора на новые энергетические рынки, включая Западные Балканы, и особенно те, где это могло бы способствовать поэтапному отказу от угля. По словам министра энергетики Азербайджана Парвиза Шахбазова, “в 2021 году, а также в январе текущего года по Южному газовому коридору потребителям в Грузии, Турции и Европе было экспортировано более 18,5 миллиарда кубометров природного газа. За это время только европейским странам было поставлено примерно 8,9 миллиарда кубометров азербайджанского природного газа по долгосрочным контрактам, а также в рамках краткосрочных спотовых операций.” [4]

Стоит отметить, что Соединенные Штаты являются одними из крупнейших поставщиков СПГ на европейский рынок природного газа. В 2021 году Соединенные Штаты стали крупнейшим источником СПГ в Европе, на долю которых приходится 26 процентов всего СПГ, импортируемого государствами-членами ЕС и Соединенным Королевством. Более того, в январе 2022 года Соединенные Штаты поставляли более половины всего импортируемого в Европу СПГ [4].

Другим важным поставщиком СПГ в Европу является Катар. Катар является одним из крупнейших производителей СПГ и поставляет большую часть топлива, продаваемого в страны Восточной Азии. Европейский энергетический кризис вновь повысил важность поставок катарского СПГ в Европу. С этой целью эмир Катара шейх Тамим бен Хамад Аль Тани встретился с президентом США Джо Байденом в Белом доме, чтобы обсудить, среди прочего, их взаимные интересы в продвижении безопасности и процветания в Персидском заливе и на Ближнем Востоке в целом, обеспечении стабильности мировых поставок энергоносителей, поддержке народа Афганистана и укреплении коммерческого и инвестиционного сотрудничества. Экспорт СПГ из Катара в Европу в январе 2022 года был на 65,1 процента выше, чем в январе 2021 года [5]. Как упоминалось ранее, ЕС конкретно планирует увеличить долю СПГ на рынке природного газа. На самом деле, Катар может поддержать энергетическую безопасность ЕС в кратко- и среднесрочной перспективе. Однако ясно, что Катар в одиночку не сможет быстро компенсировать потерю всего российского газа в случае полного перебоя с поставками природного газа.

Учитывая это, источники сжиженного природного газа для Европы будут играть важную роль в процессе диверсификации энергетики. Планы государств-членов ЕС по строительству новых терминалов по сжижению природного газа снизят зависимость от российского природного газа и, следовательно, повысят энергетическую безопасность ЕС в долгосрочной перспективе. Война в Украине привела к тому, что даже Германии, которая исторически была энергетическим партнером России, пришлось строить терминалы для сжиженного природного газа, чтобы снизить свою газовую зависимость от России. Эти события ясно показывают, что российская агрессия против Украины, наконец, подтолкнула все государства-члены ЕС задуматься об устойчивых и надежных поставках энергии.

Очевидно, что, несмотря на войну в Украине, и Россия, и ЕС заинтересованы в продолжении энергетического сотрудничества, поскольку их отношения основаны на внутренней взаимозависимости. Европа зависит от российских источников энергии, а российская экономика, в свою очередь, в значительной степени зависит от доходов от энергоносителей. Однако, поскольку война стала поворотным моментом в традиционной энергетической карте Европы, такая ситуация не может продолжаться в будущем.

В результате Россия рассматривает Китай как важный энергетический рынок для увеличения своих продаж энергии в будущем. Долгосрочная стратегия России приведет к переходу с европейских энергетических рынков на азиатские.

**Развивающееся энергетическое партнерство между Азербайджаном и ЕС**

Азербайджан играет важную роль в обеспечении энергобезопасности Европы, и эта роль постепенно растет.

18 июля 2022 года Европейская комиссия подписала новый Меморандум о взаимопонимании о стратегическом партнерстве в области энергетики с Азербайджаном для увеличения импорта азербайджанского природного газа в Европу не менее чем на 20 миллиардов кубометров ежегодно к 2027 году [8]. «Сегодня мы открываем новую главу в энергетическом сотрудничестве с Азербайджаном, ключевым партнером в наших усилиях по отказу от российского ископаемого топлива», — заявила председатель Европейской комиссии Урсула фон дер Ляйен на пресс-конференции с президентом Азербайджана Ильхамом Алиевым в Баку [8]. «Вопросы энергетической безопасности сегодня важнее, чем когда-либо прежде», — сказал президент Ильхам Алиев, подчеркнув, что Азербайджан экспортировал в ЕС 8,1 млрд куб. в Европейский рынок. Комиссар ЕС по энергетике Кадри Симсон добавила, что в дальнейшем Азербайджан повысит поставки дополнительных 4 млрд кубометров газа в Европейский Союз (доведя общий объем до 12 млрд кубометров) [8]. По мнению Урсулы фон дер Ляйен, «это поможет компенсировать сокращение поставок российского газа и внесет значительный вклад в обеспечение безопасности поставок в Европу» [9].

Наряду с экспортом газа оба лидера выразили заинтересованность в развитии сотрудничества в области возобновляемых источников энергии и связи. Азербайджанские территории, освобожденные от армянской оккупации в 2020 году, значительно увеличили потенциал возобновляемой энергетики Азербайджана. Как заявил Президент Азербайджана Ильхам Алиев, «в освобожденных районах Карабаха и Восточного Зангезура потенциал солнечных и ветряных электростанций составляет 9200 мегаватт, а потенциал ветра в Каспийском море — 157 гигаватт» [10]. В соглашении сотрудничество в области возобновляемых источников энергии упоминается как ключевой элемент будущих отношений между ЕС и Азербайджаном. Урсула фон дер Ляйен, подтвердив этот потенциал, заявила: «Постепенно Азербайджан превратится из поставщика ископаемого топлива в очень надежного и заметного партнера Европейского Союза по возобновляемым источникам энергии» [9].

Обе стороны также обсудили углубление сотрудничества в сфере связи. На фоне сбоев в трансроссийских транспортных маршрутах, соединяющих Азию и Европу, ключевая роль Транскаспийского международного транспортного маршрута (ТМТК), или Среднего коридора, возрастает в геометрической прогрессии. В своем выступлении У. фон дер Ляйен подтвердила заинтересованность ЕС в налаживании связей с Центральной Азией и за ее пределами через этот транспортный коридор. Средний коридор может также стать альтернативным энергетическим маршрутом между Центральной Азией и Европой, если усилия по доставке туркменских и казахстанских углеводородных ресурсов на западную сторону Каспийского моря увенчаются успехом [1]. Недавно введенный Россией временный запрет на транзит казахстанской нефти через ее территорию в Европу подтвердил возросшую значимость инициатив ТМТК.

В целом новый этап энергетического сотрудничества между Баку и Брюсселем подтвердил интерес Европы к Южному Кавказу, значительно возросший с начала российско-украинской войны. В первую очередь это связано с тем, что ЕС переживает критический энергетический кризис, а Южный Кавказ представляется альтернативным поставщиком и воротами к огромному энергетическому потенциалу Центральной Азии. Азербайджан зарекомендовал себя как надежный партнер в этой области, последовательно экспортируя нефть и газ на европейский рынок в течение нескольких лет, несмотря на вызовы, создаваемые некоторыми внешними силами.

Азербайджанский газ играет решающую роль в энергетической безопасности некоторых стран Восточной Европы, спрос на газ которых относительно невелик, и поэтому азербайджанский газ может сыграть важную роль в снижении зависи-

мости от Кремля. Например, Болгария, причерноморская страна, в которую Россия прекратила поставки газа в ответ на отказ Софии платить за энергию в рублях, стремится увеличить импорт азербайджанского газа.

С этой целью премьер-министр Болгарии Кирилл Петков посетил Баку через три дня после подписания энергетического Меморандума между ЕС и Азербайджаном (21 июля 2022 года) [10]. В начале июля 2022 г. после церемонии открытия газового интерконнектора Греция-Болгария (IGB) министр энергетики Азербайджана Парвиз Шахбазов заявил: «Экспорт газа в Болгарию в январе-июне 2022 г. составил 160 млн куб. к концу года планируется увеличить его до 600 млн м3. С 1 июля Азербайджан ежедневно экспортирует в Болгарию 2,6 млн кубометров природного газа». IGB соединяет Болгарию с Южным газовым коридором [11]. Сербия, полностью зависящая от российского газа, является еще одной региональной страной, которая вела переговоры с Азербайджаном и начала импортировать азербайджанский газ в 2023 году [11].

Тот факт, что экспорт азербайджанского газа не может полностью заменить российский экспорт в ЕС, который до недавнего времени составлял более 150 миллиардов кубометров в год, пока помогает успокоить Москву. «Мы никогда не планировали замену российского газа. Это невозможно из-за несопоставимости объемов», — сказал президент Ильхам Алиев на конференции в апреле 2022 года, отвечая на вопрос о возможности такой конкуренции между Кремлем и Баку [10]. И.Алиев добавил, что «наша энергетическая политика никогда не вызывала вопросов в России. У нас никогда не было никаких вопросов или дискуссий в любой форме. Я уверен, что это не окажет негативного влияния на наши отношения с Россией» [10]. Однако по мере расширения роли Азербайджана в энергетической безопасности Европы эта ситуация, вероятно, изменится в будущем. Таким образом, сдвиг в отношениях между Баку и Москвой потребует проведения более осторожной внешней политики со стороны Азербайджана и более сильной поддержки со стороны ЕС в усилиях Баку по эффективному решению проблем, которые обязательно принесет это новое стратегическое партнерство в области энергетики.

**Роль энергосистемы Азербайджана и стран Центральной Азии в обеспечении энергетической безопасности ЕС**

1 мая 2024 года правительства Азербайджана, Узбекистана и Казахстана подписали меморандум о сотрудничестве по объединению энергосистем трёх стран. Министр экономики Азербайджана Микаил Джаббаров выразил уверенность в том, что стороны смогут обеспечить интеграцию энергосистем и эффективное использование возобновляемых источников энергии, а также сотрудничать в производстве зелёной энергии и экспорте её через Азербайджан в Европу.

Минэнерго Казахстана указало на перспективы соединения энергосистем трех стран – для этого планируется проложить высоковольтный кабель по дну Каспийского моря. Проект техзадания прокладки такого кабеля уже сформирован.

Министр энергетики Казахстана Алмасадам Саткалиев уточнил, что в рамках вышеуказанного техзадания «будет разработана предполагаемая бизнес-модель для развития международных трансмиссионных коридоров (финансирование, поток доходов и владение) и для продажи зелёной энергии в страны Европейского союза» [6].

Для реализации данного проекта потребуется продолжить строительство дорогостоящей инфраструктуры. Также представляется вовлечение в проект новых участников.

Азербайджан участвует в обоих проектах прокладки электрокабелей – и каспийском, и черноморском. Более 90% азербайджанского экспорта составляют нефть, газ и продукты их первичной переработки. По итогам 2023 года на долю нефтяного экспорта пришлось около 48% и 51% – в 2022 году [6]. Топливо минеральное, нефть и продукты их перегонки, битуминозные вещества, воски минеральные составили 91% прошлогоднего экспорта Азербайджана. Волатильность на рынках энергетических товаров создаёт дополнительные риски, которые официальному Баку совсем не нужны. Поэтому, исходя также и из политических соображений, аналитики искали и таки нашли новое экспортное направление. Они тем интереснее для ЕС, чем больше соответствует модной зелёной повестке.

Грузия с начала года резко (более чем на порядок) нарастила объёмы экспорта электроэнергии. Только за I квартал её экспорт электро-

энергии вырос в 14 раз. Причём основной объём выбрал Азербайджан и четверть – Армения, пытающаяся встроиться в общий энергетический рынок ЕАЭС.

Турция планирует к 2030 году закрыть пятую часть внутренних потребностей собственной ядерной энергетикой. Планировалось, что «Росатом» до 2026 года введёт в эксплуатацию все четыре энергоблока АЭС «Аккую» мощностью по 1200 МВт каждый, что позволит закрыть примерно десятую часть потребностей Турции в электроэнергии. Анкара ведёт переговоры с российской госкорпорацией о строительстве ещё одной АЭС на севере страны близ города Синоп мощностью 4,8 ГВт [6].

Вопрос интеграции энергосистем Азербайджана, Узбекистана и Казахстана сейчас лежит скорее в плоскости ценовой политики и поддержания стабильности национальных энергосистем. Приграничные районы часто целесообразно снабжать импортной электроэнергией, нежели генерируемой на национальных мощностях. Иногда это даже вопрос не цены, а состояния инфраструктуры, требующей больших и долгосрочных инвестиций.

Поэтому заявленное намерение экспорта в ЕС представляется хорошей перспективой, по крайней мере на начальном этапе реализации проекта соединения энергосистем трёх государств. Положительный эффект сразу проявится в удовлетворении дефицита на национальных рынках. Вопрос стоит даже шире – в повышении энергетической безопасности. Сейчас в этом более остальных заинтересован Казахстан.

Объединение энергетических систем Азербайджана, Узбекистана и Казахстана также может принести целый ряд иных выгод. Среди них – улучшение эффективности энергосектора. Развить успех помогут совместные программы по энергосбережению и повышению энергетической эффективности.

Практически сразу при проработке идеи объединения энергосистем, и это вполне закономерно, возник вопрос развития инфраструктуры объединения. Актуализировано строительство и модернизация сетей передачи энергии и других объектов.

Поэтому естественным практическим выходом станет активизация многостороннего сотрудничества с вовлечением правительств, госкомпаний и крупного частного бизнеса. Иностранные инвесторы, как это часто бывает, способны привнести новые технологии, обеспечить доступ к новейшему оборудованию и снять чувствительность ряда проблемных вопросов – от генерации до сбыта.

В целом объединение энергетических систем Азербайджана, Казахстана и Узбекистана может быть выгодным стратегическим шагом с перспективой выхода на энергорынок ЕС. Положительный эффект будет ощутимым, способствующим устойчивому экономическому и социальному развитию стран-участниц.

Сотрудничество Азербайджана с ЕС в развитии инфраструктуры "зеленой" энергетики

Азербайджан мог бы стать еще и экспортером водорода и энергии из возобновляемых источников в Евросоюз, особенно в морской ветроэнергетике. Брюссель поддерживает развертывание мощностей возобновляемой энергетики в Азербайджане в рамках программы EU4Energy, где предоставляет Баку ноу-хау, технологии и частные инвестиции [5].

Развитие возобновляемых источников энергии в Азербайджане, эффективное потребление энергии и управление выбросами метана позволили бы ему расходовать меньше природного газа на внутреннем рынке и таким образом высвобождать объемы для экспорта, в том числе и в ЕС. Об этом заявила во время официального визита в Баку в 3 февраля 2023 года, еврокомиссар по вопросам энергетики Кадри Симсон на совместной пресс-конференции с министром энергетики Азербайджана Парвизом Шахбазовым. Таким образом, было открыто новое направление по "зеленой" энергетике консультативного совета Южного газотранспортного коридора [5].

Соглашение о стратегическом партнерстве в области развития и доставки зеленой энергии между правительствами Азербайджана, Венгрии, Грузии и Румынии, которое предусматривает прокладку подводного электрокабеля через Черное море, было подписано в Бухаресте 17 декабря 2022 года. Подписи под документом поставили президент Азербайджана Ильхам Алиев, премьер-министр Венгрии Виктор Орбан, премьер-министр Грузии Ираклий Гарибашвили и премьер-министр Румынии Николае Чукэ. В це-

ремонии участвовали президент Румынии Клаус Йоханнис и председатель Еврокомиссии Урсула фон дер Ляйен. "Это соглашение обеспечивает рамки для долгосрочного сотрудничества между нашими странами в ряде очень важных отраслей, прежде всего в производстве, транспортировке и продаже энергии, затем - в развитии новой инфраструктуры, в том числе [прокладке] подводного кабеля через Черное море, в проектах, касающихся зеленого водорода и эффективности, - сказал Йоханнис. - Речь идет об амбициозном проекте, который показывает, что мы вместе можем внести серьезный вклад в укрепление европейской энергетической безопасности и содействовать долгосрочному росту сотрудничества в регионе". "Мы хотим также расширить связи морского транспорта между Констанцей и Грузией, - добавил он. - Эти усилия умножат взаимные соединения и с Азербайджаном, и дальше - с Центральной Азией" [7].

Как отметила в свою очередь Урсула фон дер Ляйен, с начала войны в Украине Евросоюз "решил отказаться от российского топлива и диверсифицировать источники среди таких надежных партнеров в области энергии". "ЕС сумел компенсировать сокращение поставок газа из России. Но мы говорим не только о новой геополитической ситуации. Речь также о создании будущего для нас в отношении источников чистой, доступной и надежной энергии, а это - различные виды возобновляемой энергии", - сказала глава Еврокомиссии [7].

### Заключение

Тесные отношения между ЕС и Азербайджаном сформировались на фоне поддержки структурой независимости, суверенитета и территориальной целостности нашей страны. Так, в отношениях ЕС со странами Восточного партнерства суверенитет и территориальная целостность всегда занимают важное место как основной элемент. В то же время следует особо отметить сотрудничество между сторонами в энергетической сфере. Европейский Союз также вносит вклад в обеспечение безопасности и сотрудничества на Южном Кавказе, приветствует процесс нормализации отношений между Азербайджаном и Арменией. С другой стороны, Европейский Союз также поддерживает разминирование освобожденных азербайджанских от оккупации территорий. Таким образом, сотрудничество между сторонами имеет большие перспективы, и этот фактор послужит дальнейшему укреплению позиций Азербайджана в международной плоскости

Южный Газовый Коридор и далее будет одним из немногих стабильных и конкурентоспособных источников трубопроводного газа для ЕС. Следовательно, есть возможность пригласить другие государства Каспийского региона воспользоваться этой экономической возможностью и объединить усилия с Азербайджаном, чтобы обеспечить себе новые рынки, поскольку в ближайшие десятилетия газ по-прежнему будет играть важную роль для Европейского Союза.

### ИСПОЛЬЗОВАННАЯ ЛИТЕРАТУРА:

*1. Азербайджан и ЕС подписали меморандум о сотрудничестве в энергосфере//https://az.sputniknews.ru/20220718/azerbaydzhan-i-evrokomissiya-podpisali-memorandum-o-sotrudnichestve-v-energosfere-444109730.html?ysclid=lwaicgbh3r165919635*

*2. Azerbaijan can help Europe bolster its energy security// https://aircenter.az/en/post/azerbaijan-can-help-europe-bolster-its-energy-security-892*

*3. Азербайджан играет важную роль в обеспечении энергобезопасности Европы, и эта роль постепенно растет//*

*https://1news.az/news/20220719104739777-Azerbaidzhan-igraet-vazhnuyu-rol-v-obespechenii-energobezopasnosti-Evropy-i-eta-rol-postepenno-rastet*

*4. Ксения Польская. ЕС расширяет энергетическое партнерство с Азербайджаном//*

*https://www.dw.com/ru/es-rassiraet-energetices-koe-partnerstvo-s-azerbajdzanom/a-64607336*

*5. Развивающееся энергетическое партнерство между Азербайджаном и ЕС // https://turan.az/ru/v-mire/razvivaiushheesia-energetices-koe-partnerstvo-mezdu-azerbaidzanom-i-es*

*6. Энергосистемы Азербайджана и стран ЦА объединяются для экспорта энергии в ЕС*

*https://www.ritmeurasia.ru/news--2024-05-17--energosistemy-azerbajdzhana-i-stran-ca-obedinjajutsja-dlja-eksporta-energii-v-es-73364?ysclid=lwaksuo0x234759525*

*7. Азербайджан присоединился к меморанду-*

*му о создании СП для передачи электроэнергии в Европу*

*https://az.sputniknews.ru/20230725/azerbaydzhan-prisoedinilsya-k-memorandumu-o-sozdanii-sp-dlya-peredachi-elektroenergii-v-evropu-457109908.html?ysclid=lwkgehm33837122922*

*8. ec.europa.eu , 18 июля*

*9. Pressure.az , 18 июля*

*10. President.az, 18 июля*

*11. caspianbarrel.org, 8 июля*

**Səfərova Afət Ağa Əli qızı**

***BDU-nun "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ AVROPA İTTİFAQI İLƏ ENERJİ ƏMƏKDAŞLIĞININ FORMALAŞMASININ YENİ MƏRHƏLƏSİ

### XÜLASƏ

Məqalədə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji əməkdaşlığının formalaşmasının yeni mərhələsi təhlil olunur. Rusiya-Ukrayna müharibəsindən sonra AI-nin enerji təhlükəsizliyinin təmin edilməsi və qaz idxalı üzrə alternativ mənbələrin axtarışı ilə bağlı mövcud vəziyyətin qiymətləndirilməsi verilmişdir. Bu istiqamətdə Azərbaycan ilə AI arasında yeni enerji əməkdaşlığı formalaşmağa başladı. Yeni "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sektorunda strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", həmçinin Transxəzər beynəlxalq nəqliyyat (TBNM) əsas rol oynayacağı Asiya və Avropanı birləşdirən rabitə sahəsində əməkdaşlığın dərinləşdirilməsi təhlil edilir. Azərbaycanın AI ilə əməkdaşlığının formalaşmasında layihələrdən biri də "yaşıl" energetika infrastrukturunun inkişafının perspektivləri və həyata keçirilməsi ilə izah olunur.

**Açar sözlər:** *Azərbaycan Respublikası, Avropa İttifaqı, enerji təhlükəsizliyi, "yaşıl" enerji, Transkaspi beynəlxalq nəqliyyat dəhlizi.*

**Safarova Afet Agha Ali qizi**

***PH(D) of political science, senior lecturer of the chair of «Diplomacy and modern integration processes»***

## A NEW STAGE IN THE FORMATION OF ENERGY COOPERATION BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE EUROPEAN UNION

### SUMMARY

The article analyzes a new stage in the formation of energy cooperation between Azerbaijan and the European Union. An assessment is given of the current situation to ensure the energy security of the EU, related after the Russian-Ukrainian war and the search for alternative sources for gas imports. In this direction, the formation of a new energy cooperation between Azerbaijan and the EU began. A new "Memorandum of Understanding and Strategic Partnership in the Field of Energy with Azerbaijan to Increase the Import of Azerbaijani Natural Gas to Europe" is being analyzed, as well as deepening cooperation in the field of communications connecting Asia and Europe, in which the Trans-Caspian International Transport Route (TİTR) will play a key role. One of the projects in the formation of cooperation between Azerbaijan and the EU is also the prospects and implementation of the development of green energy infrastructure.

**Keywords:** *Azerbaijan Republic, European Union, energy security, green energy, Trans-Caspian international transport corridor.*

UOT 32
DOI:10.30546/3006-0346.2024.4.82.32

# "SOYUQ MÜHARİBƏ" İLLƏRİNDƏ ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINA MANE OLAN FAKTORLAR

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universiteti,*
*Beynəlxalq münasibətlər kafedrası.*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*
*E-mail: ekonika22@yahoo.com*

Tibet və ya rəsmi adı ilə Tibet Muxtar Vilayəti Çinin qərbində yerləşən yüksək yaşayış və dağlıq ərazilərə malik inzibati vahiddir. ABŞ-Çin əlaqələrində vaxtaşırı gərginliklər yaradan bu muxtar zonanın statusu və gələcəyi ilə bağlı problemlər hələ də öz həllini tapmamışdır. Çin tarixçilərinə görə, bölgə əsrlərdir Çinin hegemonluğunda olub və onun 1950-ci ildə buranı işğal etməsi ilə bu ərazini tərkibinə qatmışdır. İngilis və Çin tarixşünaslığında bölgənin tarix boyu Çinin suverenliyi altında olması ilə bağlı ziddiyyətli məqamlar var. 1912-ci ildə Sun Yatsen müstəqil respublikanı elan edəndə Çinin xanlar, mancurlar, monqollar, xueylər, tibetlilər kimi etnik qrupları özündə birləşdirən vahid siyasi məkan olduğunu elan etmiş, hazırlanmış konstitusiyada Tibetin Çinin bir parçası olduğu açıq şəkildə göstərilmişdir. Həmin dövrdə İngiltərə, ABŞ, Hindistan bir yandan Tibetin Çinə məxsus olduğunu qəbul etsələr də, digər yandan onun müstəqil dövlət olduğuna işarə edirdilər. 1949-cu ildə vətəndaş müharibəsini kommunistlər qazandıqdan sonra ÇXR quruldu və Tibet onun tərkib hissəsi kimi qəbul edildi. Tibetin azad edilməsi məqsədilə buraya ordu yeridildi və 1950-ci ildə tamamilə işğal edilərək Çinin tərkibinə qatıldı. İşğaldan sonra 1951-ci ildə imzalanan "17 maddə razılaşması"na əsasən (Seventeen point agreement for the peaceful liberation of Tibet) Tibet Çin hakimiyyətini və onun tərkib hissəsi olduğunu qəbul etdi [ 1, s. 5]. Razılaşma əldə olunduqdan sonra M.Tszedun Tibetdə sosialist quruculuq işlərinə başladı, ancaq bu, yerlilər tərəfindən xoş qarşılanmadı. Bununla yanaşı, ABŞ Tibetdəki gerillaları silahlandırır və onlara hərbi təlimlər keçirdi. M.Tszedun isə Dalay Lamaya söz verərək növbəti altı il ərzində sosialist islahatların aparılmayacağını bildirdi. 1959-cu ildə Tibetdə baş verən üsyanlara qarşı Çin hökuməti silahlı müdaxilə yolunu seçdikdə XIV Dalay Lama təqribən 80 min tərəfdarı ilə Hindistana qaçdı. Hindistan Dalay Lamanın siyasi sığınacaq almasına və burada qeyri-məhdud müddətə qalmasına icazə verdi. Onun Hindistanda da tərəfdarı az deyildi. Burada siyasi fəaliyyətini davam etdirən Dalay Lama "17 maddə razılaşması"nı tanımadıqlarını və Tibetin müstəqilliyi və tibetlilərin haqları uğrunda mübarizəyə davam edəcəklərini bildirdi [1, s.6]. Çin də öz növbəsində razılaşmanı ləğv etmiş və Tibetdəki monastrları bağlamışdı. Üsyanlardan təqribən iki ay sonra Çin "Tibet problemi haqqında" (Concerning the question of Tibet) adlı bir kitab yayımlamağa başladı. Burada Tibetin uzun müddət heç vaxt müstəqil olmadığı, Çin sülalələri tərəfindən idarə olunduğunu isbat edən tarixi faktlar göstərilmişdir. Buna cavab olaraq, Dalay Lama BMT Təhlükəsizlik Şurasına məktub göndərərək Tibetin Çin tərəfindən 1950-ci ildəki işğalına qədər müstəqil bir dövlət olduğunu, 1912-ci ildə Tibet öz müstəqilliyini elan etdikdə Çin hökumətinin heç bir müdaxiləsinin olmadığını diqqətə çatdırmışdır [2, s.171].

1966-cı ildə başlayan mədəni inqilab Tibetin daxili həyatına da mənfi təsir göstərdi. Bu vaxt Tibetdəki dini ayin və fəaliyyətlərə qadağa qoyulmuş, monastr sistemi ləğv edilmişdi. 1978-ci ildə D.Syaopinin islahatları ilə Tibetdə fərqli bir siyasət izlənilmiş, dini və mədəni fəaliyyətlər yenidən bərpa olmuşdur. Tibetin inkişafı üçün infrastruktur yaradılmışdır. 1987-ci ildə başlayan müstəqillik hərəkatından iki il sonra hərbi vəziyyətin elan olunması ilə dini, etnik və mədəni azadlıqlara qarşı yenidən sərt siyasət izlənilməyə başlandı.

1990-cı illərdə ABŞ ictimaiyyətində aparılan kampaniyalar Tibet mövzusunu Konqresin gündəminə gətirmişdir. ABŞ Prezidenti B.Klinton Çin lideri T.Tsemini Dalay Lama ilə dialoq qurmağa israr etmişdir. 1997-ci ildə ABŞ Dövlət Departamentinin nəzdində D.Lama ilə dialoqu dəstəkləyən Tibet siyasəti üzrə Koordinasiya Mərkəzi yaradıldı [3, s.9]. 1998-ci ildə T.Tsemin D.Lama ilə birbaşa əlaqə kanallarının qurulduğunu açıqlasa da, bu proses daxili siyasətə mənfi təsir göstərdiyindən ləğv edildi. 2000-ci illərin əvvəlində ABŞ Çin-Tibet əlaqələrini rəsmiləşdirən institutun yaradılması üçün ilk addımı atdı. ABŞ-ın Tibet siyasəti ilə əlaqədar qanun qəbul olunmuş və Dalay Lamanın səfəri üçün vaxt müəyyən edilmişdir. Həmin dövrdə T.Tsemin hakimiyyət-

dən gedərək öz yerini Xu Tszintaoya verdi. Yeni dövlət başçısı vaxtilə Tibetdəki partiya təmsilçilərindən biri olduğu üçün problem ilə daha yaxından maraqlanmışdır. Xunun iqtidarı dövründə ABŞ-la bəzi gərginliklər meydana gəlmişdir. 2007-ci ildə ABŞ Dalay Lamanı təltif edərək ona şərəf medalı verdi. Digər bir hadisə 2008-ci il Pekin Olimpiadasından bir az əvvəl Tibetdə çıxan separatçı meyillər və buna paralel Çinin xəbərdarlığına məhəl qoymadan ABŞ prezidentinin D.Lama ilə görüşməsi olmuşdur [2, s.173].

Tibet məsələsində ABŞ-Çin münasibətlərini gərginləşdirən ən mühüm məqam ABŞ rəsmilərinin Dalay Lama ilə görüşləri hesab olunur. D.Lamanın rəsmi internet səhifəsində onun 1979-cu ildən ABŞ-la mütəmadi olaraq əlaqədə olduğu göstərilir [4]. Bu informasiyalar uzun müddət gizli tutulsa da, ziyarətlərin baş tutması faktı 2007-ci ildən məlum olmağa başladı. Məqsəd əvvəlki görüşmələri aşağı səviyyələrdə tərtib etməklə Çinin diqqətini bu məsələyə çəkməmək və onun təzyiqləri ilə üzləşməmək idi. Lakin 2007-ci ildə bu ənənə pozuldu. D.Lama ABŞ-da yüksək səviyyəli tədbirlə qarşılandı və Konqresin qızıl medalına layiq görüldü. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Pekinin bu vəziyyətdən narahat olduğunu və görüşmələrin ikili əlaqələrə zərər verəcəyini diqqətə çatdırdı. Tədbirdə D.Lama Tibetin müstəqillik yox, muxtariyyət istədiyini təkrarlayarkən prezident Buş bu tədbirin ABŞ-Çin əlaqələrinə ciddi təsir göstərməyəcəyinə inandığını dilə gətirdi. 2008-ci ildə Xu Tszintao Prezident Buşla telefonda söhbət apardı və Tibetdə baş verən separatçı meyillərin sülh niyyətli deyil, əksinə şiddət və zorakılıq ehtiva etdiyini söylədi. O bildirdi ki, Çinin Tibet siyasəti açıq və konkret şəkildə ifadə edilmişdir. Dalay Lama Tibetin müstəqilliyi fikrindən imtina edər, Tibet və Tayvanın Çinin tərkib hissəsi olduğunu qəbul edərsə, onunla uzlaşma mümkün olacaqdır [2, s.177]. D.Lama həmin ildə ABŞ-a yenə səfər etmiş, lakin rəsmilərlə əlaqəyə keçməmiş, ruhani mövzularda nitq söyləmişdir. 2009-cu ildə, yəni, Barak Obamanın vəzifəsini icra etməyə başladığı tarixdə Dalay Lama bəzi siyasilərlə və QHT nümayəndələri ilə görüşmək üçün Vaşinqtona gəlmişdir. Növbəti ay Çinə səfəri planlaşdırılan B.Obama Çinlə əlaqələri pisləşdirməmək üçün D. Lama ilə görüşməmişdir. Obama bu davranışına görə müxalifləri tərəfindən iqtisadi maraqları insan haqlarından üstün tutan mənfəətcil biri kimi göstərilmişdir. Ağ Ev isə açıqlama vermişdir ki, Çinlə əlaqələrin bu səbəbdən pozulması Tibet məsələsi ilə bağlı uzlaşmanı da çətinə salacaqdır [2, s.177-178]. 2010-cu ildə Çinin xəbərdarlığına baxmayaraq Prezident B.Obama XIV Dalay Lama ilə Ağ Evdə görüş həyata keçirdi [5]. O, Tibet xalqının haqlarını, dil, din və mədəni özünəməxsusluğunu dəstəklədiyini ifadə etmişdir. Obama D.Lama ilə Oval Ofisdə görüşməyərək onu siyasi yox, dini fiqur kimi göstərməyə çalışırdı. Çin bu görüşü beynəlxalq hüququn pozulması kimi qiymətləndirdi. 2011-ci ildə də belə bir görüş təkrarlanmış, Çin yenə görüşün ikitərəfli əlaqələrə zərər verdiyini və bunun Çinin daxili işlərinə qarışmaq olduğunu ifadə etmişdir. Bu görüşdən sonra, 2014-cü ilə qədər hər hansı bir yaxınlaşma olmadı. 2014-cü ilin fevralında yenidən görüş təyin edildi. Bu görüşdə B.Obama Tibet xalqının hüquqlarını müdafiə etdiyini, lakin Tibetin Çinin ayrılmaz hissəsi olduğunu qeyd etdi [2, s.178].

Koreya yarımadası Yaponiya İkinci Dünya müharibəsində məğlub olana qədər onun tərkibində olmuşdur. Daha sonra 38-ci pararel sərhəd qoyularaq iki dövlətə ayrılmışdır. 1950-ci ildə şimalın cənuba hücumu ilə Koreya müharibəsi başladı. 1953-cü ildə atəşkəs müqaviləsi imzalansa da, bu müharibə ABŞ və Çin arasında düşmən münasibətlərin yaranmasına səbəb olmuşdur. “Soyuq müharibə” illərində Ş.Koreya ilə Çin arasında dostluq və əməkdaşlıq münasibətləri güclənmişdi. 1992-ci ildə Çinin Cənubi Koreyanı tanıması və diplomatik əlaqələr qurması ilə əsrin sonlarına yaxın Ş.Koreya ilə əlaqələr soyudu. 2003-cü ildə isə Ş.Koreyanın nüvə siyasəti ətrafında müzakirələr qızışmağa başladı.

Ş.Koreyanın nüvə silahına yiyələnmə niyyətləri 1990-cı illərin əvvəlində özünü göstərməyə başladı. 1985-ci ildə Nüvə silahlarının yayılmaması haqda müqaviləyə (NSYHM) qoşulduqdan sonra SSRİ və ABŞ arasında müzakirələr başlamış, C.Koreyanın nüvə silahları təhdid təşkil etməyəcək miqdarda azaldılmışdı. Bunun nəticəsi olaraq, 1991-ci ildə KXDR və KR arasında silahlanmanın azaldılması ilə bağlı müqavilə imzalanmışdır. 1993-cü ildə KXDR-in NSYHM-dən çıxma iddiaları ilə regionda vəziyyət gərginləşdi və 2003-cü ildə müqavilədən çıxması yeni bir prosesin başlanğıcını qoydu [6, s. 81].

2000-ci illərdə də ABŞ-Çin münasibətlərində Ş. Koreya amili özünü nüvə qalmaqallarında və bunun əlaqələrə dolayı yolla təsirində göstərir. ABŞ prezidenti C.Buşun şər oxu hesab etdiyi üç ölkə içərisində Ş.Koreya da vardı. Buşun ifadəsi ilə desək,

buraya dünyanı təhdid edən üç ölkə - İran, İraq və Ş.Koreya daxildir. Onun sərt siyasətinin nəticəsi olaraq bu ölkəyə sanksiyalar tətbiq olundu, neft satışı azaldıldı. Cavab olaraq Ş.Koreya da Beynəlxalq Atom Enerji Agentliyinin (BAEA) onun nüvə fəaliyyətlərinə nəzarət edən əməkdaşlarını ölkədən qovdu. Bununla kifayətlənməyərək 2003-cü ilin yanvarında NSYHM-dən çıxdığını bildirdi. Bir ay sonra okeanda raket sınaqları həyata keçirməyə başladı. Müqavilədən çıxdıqdan sonra bu məsələyə sülhyönümlü həll yolunun tapılması üçün ABŞ, Çin, Yaponiya, Rusiya, Şimali və Cənubi Koreya altıtərəfli görüşmələrə başladı. Çinin ev sahibliyi etdiyi 2003-2008-ci il görüşləri müəyyən nəticə əldə etsə də, Ş.Koreyanın nüvə proqramından imtina etməsinə nail ola bilmədi. Müzakirələrdə ən həlledici məqamlardan biri Ş.Koreyanın ABŞ-ın sanksiyalarını dayandırması qarşılığında proqramdan imtina edəcəyini deməsi idi. Lakin bu proses razılıqla nəticələnmədi. 2006-cı ildə o, ilk nüvə sınağını həyata keçirdi [6, s.84]. Bu prosesə reaksiya verən ölkələr arasında Çin də vardı. O da Ş.Koreyanın nüvə fəaliyyətindən narahatlıq duyurdu və bu barədə rəsmi açıqlama verərək fəaliyyətlərin dayandırılmasını tələb etmişdir. BMT Təhlükəsizlik Şurası sınaqları qınamış və onun beynəlxalq sülh və təhlükəsizliyə ciddi hədə olduğunu qeyd edərək iqtisadi sanksiyalar tətbiq etmişdir. Daimi üzvlər olan Rusiya və Çinin də burada razılığı var idi. 2007-ci ildə imzalanan Pekin müqaviləsinin şərtlərinə görə Ş.Koreya nüvə stansiyalarından birini bağlamalı, BAEA mütəxəssislərini yenidən ölkəyə çağırmalı, bütün nüvə fəaliyyətini dayandıraraq ABŞ və Yaponiya ilə diplomatik əlaqələr qurmalı idi [7]. Bu şərtlərin böyük bir qismi ölkə tərəfindən yerinə yetirildi. Nəticədə ABŞ sanksiyaları azaltdı. 2008-ci ildə nüvə fəaliyyətini yenidən bərpa edən ölkə beynəlxalq mütəxəssislərin girişini əngəllədi. 2009-cu ildə ikinci nüvə sınağını həyata keçirərək regionda şok təsiri yaratdı. İkinci sınaq Çinlə münasibətlərdə durğunluğa səbəb oldu. Çin onun ən böyük ticarət ortağı olduğundan Ş.Koreyanın riskli addımları əlaqələri təhlükəyə ata bilərdi. İkinci sınaqdan sonra ABŞ Çindən sanksiyaların artırılmasını tələb etsə də, Çin Ş.Koreyaya münasibətdə daha yumşaq davranmışdır. Çinin bu ölkəyə çox təzyiq göstərməməsinin əsas səbəbləri bunlardır: o düşünürdü ki, nüvə böhranları ABŞ və Ş.Koreya arasında olan ikitərəfli münaqişədir; həmçinin siyasi böhranın da olduğu bu ölkəyə sanksiyalar artırılarsa, sərhəddə miqrasiya problemi yaranacaq və bu, Çin üçün sərfəli görünmür. Çin bu məsələdə incə diplomatiya izləyərək birinci sınaqda BMT sanksiyalarına dəstək vermişdi, çünki onun nüvə fəaliyyətlərindən regionun təhlükəsizliyi baxımından Çin də narahat idi, ikinci sınaqda isə sanksiyaları minimal səviyyədə tutmuşdur. Bununla o, Ş.Koreyanın daxilində hər hansı siyasi və ya iqtisadi motivli böhranın olmasını istəmirdi. Belə olacağı təqdirdə bunun mənfi nəticələri Çinə və regiona təsir edəcəkdi. Çin bu məsələdə ortada qalaraq balanslaşdırıcı rol oynayırdı.

2012-ci ildə münasibətləri yumşaltmağa çalışan Ş.Koreya beynəlxalq mütəxəssisləri ölkəyə dəvət etdi və həmin ildə uzunmənzilli raketlərini sınaqdan keçirərək yenidən BMT sanksiyalarına məruz qaldı. Buna qarşılıq olaraq, 2013-cü ilin fevralında üçüncü nüvə sınağı həyata keçirildi. Bu sınaq əvvəlkilərdən daha böyük seysmik dalğalanma yaratdı [7].

Donald Trampın prezident seçilməsi ilə Ş.Koreya və onun nüvə sınaqları probleminə yeni baxışlar meydana gəldi. Tramp sərt bir tərzdə Ş.Koreyadan nüvə fəaliyyətlərini dayandırmasını və ona qarşı sanksiyaların kəskinləşməsini tələb edirdi. O, Çini də sanksiyaları artırmağa çağırır və Ş.Koreya məsələsini Çin həll edə bilmədiyi halda özünün həll edəcəyini qeyd edirdi [8]. Çin lideri Si Tsinpin 2017-ci ilin aprelində Floridada keçirilən görüşdə həmkarı ilə bir araya gələrək bu məsələ ətrafında müzakirə aparmışdır. Həmin ərəfədə Ş.Koreya ballistik raket texnologiyasını sınaqdan keçirməklə bu görüşməyə mesaj göndərdi. Görüşdə problemlə bağlı konkret nəticə əldə edilmədi. Tramp iddia edirdi ki, bu problem bir çox ABŞ prezidentinin gündəmini məşğul etsə də, o, öz dövründə həllini tapacaq. 2017-ci ilin noyabrında, Trampın Çinə səfərində də Ş.Koreya müzakirə olunan məsələlər arasında idi. Çin lideri Si Tsinpinin Ş.Koreyaya münasibətdə konkret fikirləri var idi ki, o, Obama ilə görüşlərdə də bu fikirləri müdafiə edirdi. Tramp məsələyə sərt mövqedən yanaşsa da, Çin tərəfi daima diplomatik müzakirəyə, sülh prinsiplərinin qorunmasına önəm verirdi. Bununla yanaşı o, sanksiyaların tətbiq olunmasında da BMT TŞ-nin fəaliyyətində yaxından iştirak edirdi. Tramp isə Ş.Koreya ilə region ölkələrinin, xüsusilə müttəfiqlərinin bütün əlaqələrini kəsməsini tələb edir, məsələnin həllini tapmamasının Çin kimi böyük dövlət üçün utancverici olduğunu qeyd edirdi. O daha da irəli gedərək hərbi müdaxilə variantına

diqqət çəkməyə, Çin bu məsələdə aktiv rol oynamasına çalışırdı. Çin isə Ş.Koreya ilə əlaqələri pozmaq və regionda təhlükəsizliyə xələl gəlməsini istəmirdi. Yəni, Çin ABŞ-Ş.Koreya arasında olan gərgin əlaqələrdə balanslaşdırıcı rol oynamaqdadır. Bir yandan ABŞ-ın əhatələmə siyasəti ilə, digər yandan Ş.Koreyanın nüvə sınaqları ilə üz-üzə qalan Çin regionda stabilliyin pozulmaması üçün əlindən gələni etməkdədir.

2018-ci ilin fevral ayında C.Koreyada keçirilən Qış Olimpiadasında Şimali və Cənubi Koreya idmançılarının bir araya gələrək Birləşmiş Koreyanın bayrağını asmaları diplomatik münasibətlərin qurulmasına təkan verdi. Bu yaxınlaşma Ş.Koreyanın ABŞ və digər ölkələrlə müzakirəyə açıq olduğuna işarə verə bilərdi. Bir müddət sonra liderlərin görüşəcəyi və vasitəçi ölkə axtarılması ilə bağlı fikirlər ortaya atıldı [9].

ABŞ-Çin əlaqələrinə dolayı yollarla təsir edən nüvə qalmaqalları Ş.Koreya ilə məhdudlaşmır. 1998-ci ildə gərgin əlaqələrə malik Hindistan və Pakistanın nüvə silahına sahib olması ilə aralarında nüvə rəqabəti başladı. ABŞ Pakistanın nüvə fəaliyyətlərinə qarşı çıxır, Hindistana isə dəstək verirdi. Çinin Hindistanla yaşadığı sərhəd münaqişələri, onun hərbi varlığının artması və ABŞ-ın Hindistana dəstək verməsi isə Çinin Pakistanın nüvə siyasətinə dəstək verməsini şərtləndirirdi. 1990-cı illərdə Pakistanın nüvə fəaliyyətinə ləvazimat yardımı edən Çin ABŞ-nin reaksiyaları ilə üzləşdi. 2001-ci ildə Əfqanstan məsələsində Pakistanın ABŞ-a dəstək verməsi münasibətləri yaxınlaşdırdı. Bununla belə, Pakistan NSYHM-ə qoşulmadı. Hindistan da bu müqaviləyə qoşulmayan ölkələr arasındadır.

Belə nüvə böhranlarından biri də İranın nüvə proqramının müzakirələrə səbəb olması ilə aktuallıq qazanmışdır. 1970-ci illərdən NSYHM-ə qoşulan İran beynəlxalq mütəxəssisləri ölkəyə dəvət edərək nüvə fəaliyyətinin nəzarətinə icazə vermişdi. 2002-ci ildə BAEA İranın müqavilənin şərtlərini pozmasına dair açıqlama vermiş və əldə etdiyi sübutları BMT Təhlükəsizlik Şurasına göndərmişdir. İran nüvə fəaliyyətlərinin sülh məqsədləri çərçivəsində olduğunu bəyan etsə də, müzakirələr razılaşma ilə nəticələnmədi və İrana sanksiyalar tətbiq olundu. Onun aktiv nüvə fəaliyyətləri həyata keçirməsində ABŞ-nin Əfqanıstan və İraq müdaxilələrinin rolunu qeyd etmək yerinə düşərdi. Bu ölkələr İranın qonşularıdır və ABŞ-nin buradakı hərbi-siyasi varlığı onu narahat etməkdədir. ABŞ-a qarşı münasibəti və Çinlə enerji və iqtisadi sahələrdə əməkdaşlığı onun Çinlə yaxınlaşmasını qaçılmaz edirdi. Bu mənada ABŞ-ın İraq siyasətində onlar eyni mövqedən çıxış edirdilər. Çin-İran yaxınlığı İrana qarşı sanksiyaların tətbiqində də özünü göstərirdi. Belə ki, sanksiyaların genişliyinə görə Çin ən axırıncı sırada gəlirdi.

**Nəticə**

Qeyd etməliyik ki, "soyuq müharibə" illərindən başlamış ABŞ-ÇXR arasındakı əlaqələr təkcə yuxarıda göstərilən amilləri əks etdirmir. Uzun zaman keçməsinə baxmayaraq, günümüzə qədər bu əlaqələrin spektri daha da genişlənmiş, məsələlərə müxtəlif yanaşmalar sərgilənmiş, həlli çətin olan problemlərin çözülməsində hər iki dövlət soyuqqanlı şəkildə davranmışlar. Həm də burada müasir dövrümüzün geosiyasi və geostrateji vəziyyəti, dünya nizamının yenidən qurulması və ən əsası, dünyada sülh, təhlükəsizlik və əmin-amanlığın qorunub saxlanması məsələlərini nəzərə alsaq, tamamilə, ciddi mənzərə yaranır. Məhz buna görə də, hər iki dövlət və dünya ictimaiyyəti bu məsələlərin beynəlxalq hüquq və normalar çərçivəsində həll olunmasında daha maraqlı görsənirlər.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Sperling E.M. The Tibet-China Conflict: History and Polemics // East-West Center Washington. Washington: Pacific, 2004, 134 p.*

*2. Pekcan C.R. Çinin uluslararası sisteme bakışı ve ABD'ye yönelik dış politikası. İstanbul: Çanakkale, 2015, 236 s.*

*3. Rabgey T.Y., Wangchuk T.S. Sino-Tibetan Dialogue in the Post-Mao Era: Lessons and Prospects // East-West Center Washington. Washington: Pacific, 2004, 28 p.*

*4. http://www.dalailama.com/biography/travels/visits-yearly-breakdown*

*5.https://www.theguardian.com/world/2011/jul/16/barack-obamadalai-lama-white-house*

*6.Rüzgar S.A. Askeri, ekonomik ve siyasal boyutlarıyla Çin-ABD ilişkilerinin dönüşümü. Kayseri: Altınlar, 2017, 107 s.*

*7.https://www.setav.org/abd-cin-kuzey-kore-ucgeni/*

*8.https://www.reuters.com/article/us-northkorea-missiles-trump-xi/trump-expected-to-pressure-chinas-xi-to-rein-in-north-korea-officials-idUSKBN1CP2SG*

9. *http://www.bilgesam.org/incele/5725/-trump-doneminde-cin-abd-iliskileri/*

## XÜLASƏ

Məqalədə "soyuq müharibə" bitdikdən sonra ABŞ və ÇXR arasında əlaqələrin inkişafında ziddiyyətli məqamların, xüsusilə, Tayvan məsələsinin araşdırılması haqqında məlumat verilir. Bu problem uzun illər ərzində iki dövlət arasında daim gərginlik yaratmış, zamanın inkişafından asılı olaraq həll olunması istiqamətində müxtəlif fikirlər formalaşmış, birgə səylər göstərilmiş və ümumi razılıqlar əldə olunmuşdur ki, bütün bunlar geniş şəkildə burada əks olunmuşdur.

**Açar sözlər:** *ABŞ, ÇXR, BMT, Tibet, Şimali Koreya, Hindistan, mədəni inqilab, "soyuq müharibə", nüvə, sanksiya.*

**ХАЙЯМ ИСМАИЛЗАДЕ**
***Бакинский Государственный Университет,***
***Кафедра международных отношений,***
***Доктор философских наук, и.о. доцента***
***Ekonika22@yahoo.com***

### Факторы, препятствующие развитию отношений США и КНР в период «холодной войны»

## РЕЗЮМЕ

В статье представлена информация по исследованию ряда факторов, которые препятствовали развитию отношений США и КНР в период «холодной войны», особенно проблемы Тибета и Северной Кореи. При этом здесь широко отражены общие сведения об особенностях возникновения этих факторов, решениях и совместных шагах, предпринимаемых в направлении динамики развития, мерах, реализуемых через международные организации и другие влиятельные государства.

**Ключевые слова:** *США, КНР, ООН, Тибет, Северная Корея, Индия, культурная революция, холодная война, ядерное оружие, санкции.*

**KHAYYAM ISMAYILZADEH**
***Baku State University,***
***Department of International Relations,***
***Doctor of Philosophy in Political Science, Acting Associate Professor***
***E-mail: ekonika22@yahoo.com***

### Factors hindering the development of US-PRC relations during the Cold War

## SUMMARY

The article provides information on the investigation of a number of factors that hindered the development of US-PRC relations during the Cold War, especially the issue of Tibet and North Korea. At the same time, general information about the characteristics of the emergence of these factors, solutions and joint steps taken in the direction of development dynamics, measures implemented through international organizations and other influential states, all of which are widely reflected here.

**Key words:** *USA, PRC, UN, Tibet, North Korea, India, cultural revolution, cold war, nuclear, sanctions.*

UOT 327
DOI: 10.30546/3006-0346.2024.4.82.35

# POSTKOLONİAL MİQRASİYA VƏ MİLLİ İDENTİKLİK

**NƏRGİZ NAĞIYEVA**
*Bakı Dövlət Universiteti.*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: nargiz_nagiyeva@mail.ru*
*ORCİD İD: 0009-0001-1205-5864*

## Giriş

XVI əsrdən başlayaraq Avropada milli dövlətin yaranması, müstəmləkəçilik və sənayeləşmə miqrasiyanın sürətlə artmasına səbəb oldu. Bu səbəbdən Avropa müstəmləkəçiliyi bir çox köç növlərinin inkişafı ilə nəticələndi. Bunlardan biri də Avropadan əvvəlcə Afrika və Asiyaya, sonra Amerika və Okeaniyaya köçdür. Avropalılar bu ərazilərə müvəqqəti və ya daimi olaraq din xadimi, həkim, fermer, tacir və hərbiçi kimi köç edirdilər. Bu işçi mühacirlərin dəniz qəzaları, müharibələr və tropik xəstəliklər səbəbindən ölüm nisbəti kifayət qədər yüksək olsa da, müstəmləkələrdə verilən imkanlar bu insanların Avropada yaşadıqları yoxsulluqdan xilas olmaq üçün yeganə şans idi. Avropanın İntibahdan sonrakı müstəmləkə ekspansiyası müasir kapitalist iqtisadi mübadilə sisteminin inkişafına əhəmiyyətli töhfə verdi [1, 81-106]. Bu sistem əsasən dominant ölkələrin iqtisadiyyatlarının inkişafı üçün zəruri xammal və işçi qüvvəsi tələbatını ödəyən koloniyalara əsaslanır.

Bəzi Avropa dövlətləri imperiya ekspansiyası çərçivəsində öz müstəmləkələrini iqtisadi cəhətdən özündən asılı vəziyyətə salmaq üçün miqrasiya alətindən istifadə edirdilər. Müstəmləkə dövrünün əsas miqrasiya növlərindən biri XVII əsrin sonu - XIX əsrin ortaları arasında Yeni Dünyanın faydalı qazıntı mədənlərində və plantasiyalarında məhsul istehsalına əsaslanan qul sistemi idi. Qullar tərəfindən şəkər, tütün, qəhvə, pambıq və qızıl istehsalı İngiltərə və Fransanın iqtisadi və siyasi gücü üçün çox vacibdir. 1770-ci ildə Amerika qitəsində 2,5 milyon qul Avropada ticarətin ümumi dəyərinin üçdə birini istehsal edirdi. Odur ki, müstəmləkə əməyi əvvəlcə afrikalı qulların məcburi köçü ilə təmin edilmiş, sonra isə müstəmləkə əməyi fenomeni xüsusilə imperiya dövründə, müstəmləkə imperiyaları daxilində uzun məsafələrə köçmüş müqavilələli işçilərin istifadəsi ilə inkişaf etmişdir [13, 49-53].

## Miqrasiya və neokolonializm

Qananın keçmiş prezidenti Kvame Nkrumah “Neokolonializm” [9, 9-10] adlı əsərində yazır ki, İkinci Dünya müharibəsindən sonra yeni beynəlxalq qaydalar formalaşıb və müstəmləkəçilik münasibətlərində nəzarət dəyişikliyi baş verib. K.Nkrumah bildirib ki, bu prosesdə Şimal və Cənub arasında aydın və formalaşdırılmış nəzarət əvəzinə, Amerika və Avropa da daxil olmaqla Afrika və Qərb dövlətləri arasında daha incə və daha az əhəmiyyətli görünən yeni neokolonial nəzarət mövcuddur.

K.Nkrumahın təbirincə desək, nəhəng maliyyə təşkilatları yeni müasir müstəmləkəçiliyi qondarma müstəqil dövlətlərin nəzarəti üzərində qurur. Bu maliyyə təşkilatları, ümumiyyətlə, konkret kapitalist dövləti vasitəsilə onun adından işləyir və bununla da özlərinin iqtisadi əlaqələrini inkişaf etdirdikləri imperialist dövlətləri ilə yaradırlar. Afrika qitəsində müəyyən siyasi proseslər nəticəsində kiçik və ya böyük dövlətlər yaranmağa başlamış, bu ölkələr iqtisadi müstəqilliklərini əldə etməkdə çətinlik çəkmiş və daha çox xarici maraqların üstünlük təşkil etməsi ilə nəticələnmişdir. Reallıqda iqtisadi sistem və ona bağlı siyasi sistem kənardan idarə olunur və ona görə də müstəqillik saxtakarlıqdan başqa bir şey olmur [9, 9-10].

K.Nkrumah vurğulayır ki, müstəmləkəçilik kimi neokolonializm də kapitalist ölkələrinin sosial mürəkkəbliklərinin ixracıdır və xüsusilə Qərb dövlətlərinin tələbləri əslində müstəqil dövlətdə görünən sinfi mübarizəni beynəlxalq əmək bölgüsünə çevirir. Beynəlxalq əmək bölgüsü postkolonial məkanın əsas müəyyənedici xüsusiyyətlərindən biridir. Neokolonializm inkişaf etməkdə olan yenicə müstəqillik əldə etmiş ölkələrin boynunda bir yükdür və ondan qurtula bilmədikcə, bu yük onları boğacaq. K.Nkrumah üçün neokolonializm imperializmin qüdrətinin əlaməti deyil, onun son çirkin nəfəsidir. Bunun qarşısını almaq sosializm və panafrikanizmlə mümkündür. [18]

K.Nkrumahın dediyi kimi, aydın oldu ki, siyasi hakimiyyət ələ keçirilsə də, iqtisadiyyata nəzarət etmək mümkün olmadı. Buna görə də neokolonializm köhnə imperiya güclərinin iqtisadi hegemonluğu qoruduğunu və bu mənada postkolonial dövlətin öz keçmiş ağalarından asılılığını, köhnə ağaların isə

müstəmləkəçilik münasibətlərini davam etdirdiyini iddia edir. Beynəlxalq nəzarət iqtisadi vasitələrlə, xüsusilə Ümumdünya Ticarət Təşkilatı, Dünya Bankı və ya Beynəlxalq Valyuta Fondu kimi maliyyə təşkilatlarının nəzarəti altında, kapital və texnologiyaya çıxış yolu ilə həyata keçirilir [18].

K.Nkrumah "Neokolonializm" adlı əsərində iqtisadi artımı təmin etmək üçün yeni müstəqillik əldə etmiş Afrika dövlətlərinin yerli iqtisadiyyatlarının beynəlxalq konsorsiumlarla əhatə olunaraq inkişaf çərçivəsində borc sisteminə inteqrasiya olunduğunu misallarla izah edib. K.Nkrumah bu əsərində neo-müstəmləkəçiliyin maliyyə və sənaye konsorsiumları, yardım təşkilatları və maliyyə yardım şuraları kimi vasitələrlə işğalını davam etdirdiyini bildirir.

K.Nkrumahın bu nəzəriyyə ilə bağlı yanaşmalarına görə, yeni neokolonializmin məqsədi iqtisadi hegemonluğu təmin etməkdir və bu məqsədlə təkcə iqtisadi sahədən deyil, həm də din, təhsil və mədəniyyət vasitəsilə təsir etmək üsulundan istifadə olunur.

Digər tərəfdən, inkişaf etməkdə olan ölkələrdə Avropa dillərinin davamlı istifadəsi neokolonializmin və Üçüncü Dünyadakı müstəmləkə mirasının ən vacib aspektləridir. Nigeriya, Qana, Hindistan, Pakistan və fransızdilli Afrika kimi inkişaf etməkdə olan ölkələrdə vahid yerli milli dil yoxdur və metropol dilindən idarəetmədə, bəzən də təhsildə istifadə etmək meyli var.

Neokolonializm nəzəriyyəsinə istinadla, mərkəzlə (metropol) periferiya (müstəmləkə) ölkələri arasında qurulan asılılıq münasibətlərinin və bunun nəticəsində periferiya ölkələrinin inkişafının qarşısının alınmasının ən təbii nəticələrindən biri də periferiyadan mərkəzə miqrasiya fenomeninin artmasıdır.

1960-cı illərin sonu və 1970-ci illərdə Avstraliya, Yeni Kaledoniya, Yeni Zelandiya, Solomon Adaları, Vanatu və Yeni Qvineyanın daxil olduğu Şimali Amerika və Avstraliyada dəyişən miqrasiya siyasətləri ilə paralel olaraq inkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə miqrasiya məsələsi artmışdır. Bundan əlavə, Avropa immiqrantların, xüsusən də keçmiş müstəmləkələrin əsas məkanına çevrilmişdir [11,3]. Bundan əlavə, Avropa miqrantların, xüsusən də keçmiş müstəmləkələrin əsas məkanına çevrilmişdir. Bu məqamda miqrasiya ilə bağlı araşdırmalar göstərdi ki, miqrantlar transmilli birliyin qurulması prosesində mərkəzlə (metropol dövlətlə) sosial, siyasi və ən əsası da iqtisadi əlaqələri qoruyub saxlamışlar. Digər tərəfdən, qəbul edən ölkələr də miqrasiya çərçivəsində mərkəzlə əlaqələrini davam etdirmişlər. Bu əlaqələr çərçivəsində qəbul edən ölkələr, ümumiyyətlə keçmiş müstəmləkələri olan mərkəzlərdən miqrasiyaya nəzarət etmək üçün özləri tərəfindən müəyyən edilmiş xüsusi struktur vasitəsilə ikitərəfli əlaqələr formatını inkişaf etdirmişlər. Bu səbəbdən neokolonial nəzəriyyə çərçivəsində miqrasiya məsələsi mənbə, qəbul edən və tranzit ölkələrdəki inkişaf əsasında araşdırıla bilər.

Amerika imperiyasının inkişafında miqrasiyanın rolu ilə bağlı ilk şərhlərdən biri 1893-cü ildə "The Significance of the Frontier in American History" adlı Amerika tarixinə dair məqaləsində Frederik Cekson Turnerdən gəlir [6]. Turner bu məqaləsində Amerikanın inkişafını Amerikada sərbəst məkanın olması kimi təyin etmiş və insanların yeni mühitə köçünün Amerikanın inkişafına səbəb olduğunu bildirmişdir [11, 3- 68].

Amerika nümunəsindən göründüyü kimi, miqrasiya həm metropol ölkənin, həm də qəbul edən ölkənin miqrant qəbulu meyarlarında hədəflər nəzərə alınmaqla inkişaf əsasında baş verir. Əslində, Amerika və Meksika arasındakı miqrasiya münasibəti timsalında miqrasiya Amerika iqtisadiyyatı üçün zərurət və meksikalılar üçün zənginləşmə faktoru olmaqla yanaşı, Meksika üçün ümumi yoxsullaşma amilidir. Hər il orta hesabla 400.000 meksikalı yaşamaq üçün Amerikaya köç edir və Birləşmiş Millətlər Təşkilatının 2000-2005-ci illər üzrə qiymətləndirməsinə görə, bu, Meksikanı dünyanın ilk miqrasiya mənbəyi edir. 2003-cü ildə Meksikada doğulan və ABŞ-da yaşayan 15 və daha yuxarı yaşda olan insanların 34,9%-nin orta və ya daha yüksək təhsili var. Bütün Meksika mənşəli əhali nəzərə alındıqda bu nisbət 49% təşkil edir. Əksinə, 2000-ci ildə Meksikada orta məktəbdən yuxarı orta təhsil səviyyəsi 27,8% təşkil etmişdir ki, bu da onu göstərir ki, ümumilikdə ölkədən gedən ixtisaslı işçilərin sayı ölkədə qalanlardan çoxdur. Miqrasiya qiymətli iqtisadi resursların itirilməsi və potensial sərvətlərin ixracı ilə nəticələnir. İstehsal və təlim xərcləri bütün meksikalılar tərəfindən ödənilən işçi qüvvəsinin ixracı, sərvətin qəbul edən ölkəyə ötürülməsini vurğulayır. Bundan əlavə, ABŞ-da yaşayan miqrantlar maaşlarının böyük bir hissəsini orada xərcləyərək Amerika iqtisadiyyatına fayda gətirirlər. Maliyyə baxımından meksikalı miqrantların iqtisadiyyata verdiyi töhfələr

və müqabilində aldıqları faydalar dövlət xidmətlərindən artıqdır və buna görə də Amerika işçilərinin sosial təminatına töhfə verir [12, 36-40].

Qeyd olunanlara əsaslanaraq, neokolonial nəzəriyyə, marksist nəzəriyyəçilərə istinad edərək periferiyadan mərkəzə miqrasiya nəticəsində periferik ölkələrin vəziyyətini tədqiqat predmeti kimi nəzərdən keçirir.

Göründüyü kimi, müstəmləkəçilik və miqrasiya anlayışları arasında sıx əlaqə vardır. Müstəmləkə dövrü koloniyalardan gələn qullar və müqavilələli işçilər, eləcə də metropoldan gələn köçkünlər dünyadakı insanların yeni hərəkətlərini asanlaşdırdı. Postkolonial dövr insanların əvvəllər müstəmləkə olmuş periferiyalardan metropola, xüsusən də Böyük Britaniya, Fransa, Hollandiya və digər ölkələrə köçməsinə səbəb oldu.

**Postkolonial miqrasiya**

İkinci Dünya müharibəsindən sonra Avropa imperiyalarının dağılmasından sonra böyük miqrant axını keçmiş metropoliya ölkələrinə doğru hərəkət etdi. Bu hərəkətlər çox mühüm və dramatik idi, həm də zaman (əsasən müharibədən sonrakı ilk onilliklər) və məkan (Avropa və onun keçmiş koloniyaları) baxımından məhdud idi. Avropada Osmanlı və Avstriya-Macarıstan imperiyalarının sonu, 1945-ci ildən sonra Alman Reyxinin dağıdılması və Sovet İttifaqının (Rusiya İmperiyasının varisi) dağılması əhalinin kütləvi hərəkətinə səbəb oldu. Çox fərqli siyasi kontekstdə 1947-ci ildə keçmiş Britaniya hakimiyyətinin Hindistana və Pakistana bölünməsi nəticəsində insanların kütləvi hərəkəti də post-müstəmləkə miqrasiya hərəkatıdır. Məsələni mürəkkəbləşdirmək üçün, əgər insanların bu post-müstəmləkəçilik hərəkatları həqiqətən də siyasi dəyişikliklərlə idarə olunurdusa, o zaman post-müstəmləkəçilik miqrasiyası ilə əmək və ya “xeyriyyə” immiqrasiyası arasında sərhədi çəkmək çətindir. Dekolonizasiya başa çatdıqdan çox sonra və məhdudlaşdırıcı siyasətlərə baxmayaraq, xüsusilə Böyük Britaniya və Fransa keçmiş müstəmləkələrindən çoxlu sayda miqrantı cəlb etməyə davam etdilər. Digər tərəfdən, bəzi müstəsna hallarda, əsasən Karib hövzəsində, dekolonizasiya suverenliyin ötürülməsi yolu ilə deyil, daha çox metropol ölkə ilə gələcək inteqrasiyanın hansısa modeli vasitəsilə əldə edilmişdir. Bu, Fransanın xaricdəki departamentləri, Hollandiyanın Antil adaları və Britaniyanın bəzi qalan xarici əraziləri, habelə ABŞ-nin keçmiş müstəmləkələri olan Puerto-Riko və ABŞ Virciniya adaları üçün belədir. Bütün bu hallarda konstitusiya bağlarının qorunub saxlanması metropola miqrasiya üçün stimul olacaq. Yenə də bu hallarda “post-müstəmləkə” miqrasiyası ilə əmək miqrasiyası arasında fərq qoymaq çətindir. Amerikanın timsalında, qeyri-rəsmi keçmiş imperiyadan - Kubadan Latın Amerikasının qalan hissəsi vasitəsilə Filippinə kütləvi miqrasiyanı “postkolonial” kimi qəbul etsək, mənzərə daha da bulanıqlaşır. Post-müstəmləkədən sonrakı mühacirlərin böyük axını təkcə Avropaya xas deyil və post-müstəmləkədən sonrakı miqrantın dəqiq tərifi yoxdur. “Avropanın Görünməz Miqrantları” jurnalının redaktoru Andrea L. Smit tədqiqatında hesab edir ki, 1945-1990-cı illər arasında Qərbi və Cənubi Avropa (keçmiş) xarici ərazilərdən beş ilə yeddi milyon arasında miqrant qəbul edib [3].

Bununla belə, Nikol Koenin bu kitabda yazdığı kimi, 1945-ci ildən sonra "evə qayıdan" post-imperiya yapon mühacirlərinin sayı da 6,5 milyon idi. Puerto-Rikodan ABŞ-a miqrasiya ilə bağlı müzakirəsində Xorxe Duany vurğulayır ki, Karib dənizinə qoşulan bu ərazidən indiki miqrantların sayı hazırda dörd milyona yaxındır, lakin Kubanın keçmiş protektoratı və Filippinin müharibədən əvvəlki koloniyasından gələn miqrantları əlavə etməklə bu rəqəmi asanlıqla ikiqat artırmaq olar. 1990-cı illərin ortalarına qədər Sovet İttifaqının dağılması onun keçmiş republikalarında təxminən doqquz milyon qaçqın yaratmışdı. [10, 4]

Bu miqrasiyaları qəbul edən ölkələr üçün dərhal demoqrafik dəyişikliklər oldu. Sovet İttifaqının dağılması kütləvi miqrasiya hərəkatına səbəb oldu və Asiyadan geri çəkildikdən sonra Yaponiyanın əhalisi 7,5 faiz artdı. Daha az dramatik, lakin hələ də demoqrafik baxımdan əhəmiyyətli olan Fransa, Böyük Britaniya və Hollandiyaya mühacirət idi, burada əhali artımı 3-4 faiz arasında idi, Qərbi Almaniya və Portuqaliya üçün isə müvafiq olaraq 8,1 və 7,5 faiz olardı [3, 5]. Hazırda birinci və ya ikinci nəsil post-müstəmləkə miqrantları Britaniya və Fransanın ümumi əhalisinin 7-8 faizini təşkil edir. Avropalıların ən yüksək nisbəti 10 faizlə Portuqaliyadadır, Hollandiyada isə bu rəqəm nisbətən aşağıdır, 6 faizdən bir qədər çoxdur. Qeyri-sənaye cənubunda miqrantların böyük əksəriyyəti keçmiş müstəmləkələrdən gəlmişdi. Bu qaydanın əsas istisnası Hollandiyadır, burada postkolonial miqrasiya axını ilə işçi qəbulu arasında təəccüblü dərəcədə az üst-üstə düşür.

Amerika Birləşmiş Ştatları və daha az dərəcədə Fransa istisna olmaqla, bu cəmiyyətlərin heç biri özlərini ciddi şəkildə miqrasiya ölkələri hesab etmirdilər. İkinci Dünya müharibəsindən sonra Qərbi Avropanın müstəmləkəçi dövlətləri olan Yaponiya və Rusiya demək olar ki, bir gecədə ekspansionist ölkələrdən öz sərhədləri ilə məhdudlaşan və böyük mühacir qruplarını cəlb edən cəmiyyətlərə çevrildilər. Bu, Avropanın müstəmləkəçi dövləti kimi rolu tez-tez unudulan Almaniyaya da eyni dərəcədə aiddir. Əlbəttə, alman dövləti I Dünya müharibəsində məğlub olduqdan sonra xaricdəki mülklərini vermək məcburiyyətində qaldı, lakin bu keçid Almaniyaya müstəmləkəçilikdən sonrakı əhəmiyyətli miqrasiyaya səbəb olmadı. Bununla belə, onun ərazisinin azaldılması və faşist rejiminin son məğlubiyyəti, əsrlər əvvəl Balkanlarda və Rusiyada məskunlaşmış almanların nəsilləri olan almanların və Volksdeutschenin (etnik almanlar) kütləvi şəkildə “repatriasiyasına” (vətənə qayıtma) səbəb oldu.

Müstəmləkəçilik təkcə iqtisadi missiya ilə genişlənmə prosesi deyil, həm də “Qərb mədəniyyətinin universallaşması” və ya “Üçüncü Dünyanın müasirləşməsi” kimi mədəni ölçüləri olan bir prosesdir. Bu mənada, E. Səid (1978) daha çox “başqalarına” şərh vermək, onların baxışlarına nəzarət etmək, izah etmək, müəyyən etmək və üzərində dayanmaq yolu ilə Orientalizmi Qərbin hökmranlığı kimi müzakirə etmişdir. E. Səidin yanaşması belə təsvir edir ki, koloniyalar yoxa çıxsa belə, müstəmləkələşdirilmiş və istismar olunanlar arasındakı münasibət güc və hökmranlığa əsaslanan hegemoniyadır.

Milli kimlik məsələsi postkolonial dövrlərdə və ədəbiyyatda ən mübahisəli məsələlərdəndir və onun böhranı bütün postkolonial cəmiyyətlərdə mövcud olduğu üçün onu mühüm hesab etmək olar. Post-müstəmləkə dövrünün şərtləri və yenicə azad olmuş xalqların və ölkələrin özünüdərk axtarışında və formalaşmasında üzləşdiyi problemli şərtlərlə əlaqədar böhran yaranmışdır. İkinci Dünya müharibəsindən sonra müstəmləkəçilik altında olan xalqların dekolonizasiyası və azad edilməsi, yerdəyişməsi aktı sosial və fərdi kimliklərin yenidən qurulması istiqamətində əlamətdar hərəkətə səbəb oldu. Bu dövr həm də həyatın, mədəniyyətin, iqtisadiyyatın, incəsənətin və s. bütün səviyyələrində müstəmləkəçi qüvvələr tərəfindən itirilən şəxsiyyətin bərpasını tələb edən dekolonizasiya uğrunda mübarizə ilə yadda qaldı. Edvard Səid iddia edir ki, tarixi həqiqət budur ki, millətçilik xalqın bərpasıdır. Şəxsiyyətin bəyan edilməsi, səfərbər edilmiş siyasi qüvvə kimi yeni mədəni təcrübələrin ortaya çıxması qeyri-Avropa dünyasında Qərb gücünə qarşı mübarizəni başlatdı və daha sonra qaldırdı [15, 218]. Oksford İngilis Lüğətinə görə; şəxsiyyət “bir şəxsin və ya əşyanın kim və ya nə olması faktı” kimi müəyyən edilir, lakin postkolonial kontekstdə şəxsiyyətin müəyyən edilməsi çətin olan mürəkkəb bir anlayışdır. Müstəmləkəçilikdən sonrakı şəraitdə bir şəxsin, qrupun və ya millətin bir bildiriş kimi eyniləşdirilməsi asanlıqla "başqası" ilə əlaqələndirilir, bu da onların "başqasının" varlığı ilə özlərini "biz" kimi tanıması deməkdir. Özgəlik postkolonial dövrdə kimliyin tanınmasının bir xüsusiyyətidir ki, bu da onun ikili olduğunu bildirir: “Həm şəxsiyyət, həm də fərqlilik, belə ki, fərqli olan hər şey, fərqli və istisna edilən hər şey dialektik şəkildə yaranır və dəyərləri özündə ehtiva edir və müstəmləkəçi mədəniyyətin mənası, hətta müəyyən etmək qabiliyyətini inkar etsə belə” [3, 4]. Üstəlik, bu ikili başqalıq münasibəti həmin dövrdə şəxsiyyətin bir növ dislokasiyası yaratmış və ierarxik vəziyyət yaratmışdır. Post-müstəmləkə dövlətlərində formalaşan milli kimlik “heç vaxt sabit olmayan, hərəkət və suverenlik səbəbindən ətraf mühitə və mədəniyyətə bağlı olaraq böyük ölçüdə dəyişən, şəxsiyyət çaşqınlığına səbəb olan kimi görünür” [7, 144–153]. S. Hull təsdiq etdiyi kimi, şəxsiyyət sabit bir anlayış olmadığına görə, “şəxsiyyət bir növ həll olunmamış məkan və ya bu məkanda, bir-biri ilə kəsişən çoxsaylı diskurslar arasında həll olunmamış sual kimi ortaya çıxır”. Məsələn, Karib dənizi regionunda şəxsiyyət böhranı “müstəmləkəçilik, köləlik və miqrasiya kimi mübahisəli və bir-biri ilə əlaqəli proseslərdədir. Karib hövzəsi cəmiyyəti müstəmləkə zülmü, istismarı və marginallaşması mirası daşıyır” [7, 144–153].

Postkolonializmin mübahisəli məsələlərindən biri də şəxsiyyət və mədəniyyət məsələsidir. Müasir dünyada miqrantların sayının artması, hibrid millətlərin meydana çıxması və fərqli mədəni müxtəlifliyə malik ölkələrin formalaşması ilə kimlik məsələsi gündəmə gəlib. Cons Bromeier və Donal Carbaugh özlərinin “Narrative and İdentity” [4] kitabında iddia edirlər ki, şəxsiyyət anlayışları müxtəlif fənlərdə və müxtəlif nəzəri perspektivlərdən öyrənilmiş geniş bir intellektual narahatlıq sahəsini təmsil edir. Şəxsiyyət məsələsinin qaldırılması təkcə ədəbiyyatda deyil, həyatın bütün sferasında, xüsusilə

də müstəmləkəçiliyin təsiri ilə əsas mövzuya çevrildi. Özünə və başqasına münasibətdə, "Şəxsiyyət bir növ həll edilməmiş məkan və ya bu məkanda, çoxlu kəsişən diskurslar arasında həll olunmamış sual kimi ortaya çıxır" [7]. Frans Fanon müstəmləkəçiliyin nəticələri və miqrasiya təcrübəsinin formalaşdırdığı dəyişikliyə dair nəzəri arqumentində "Avropadan keçmək üçün "ağ maskalar" taxmaq, əyilmək məcburiyyəti təcrübəsini araşdırır." [5] Digər postkolonial nəzəriyyəçi Homi Bhabha özünün "Mədəniyyətin yeri" əsərində M.Fukonun gücünə və biliyinə əsaslanan Edvard Səidin ikili müxalifətindən keçərək öz nəzəriyyəsini inkişaf etdirmiş və hibridlik anlayışını təqdim etmişdir. Bhabha üçün hibrid kimlik "hər hansı bir əsaslı mədəni kimliyin etibarlılığına və həqiqiliyinə meydan oxuyan həm metropol, həm də müstəmləkəçi elementlərin bir-birinə qarışması"ndan irəli gəlir.

Postkolonial ədəbiyyat və ədəbi tənqid bir çox ölkələrin müstəqillik qazanması və ya müstəqillik uğrunda mübarizəsi zamanı və ondan sonra meydana çıxdı. Hər ikisinin məşğul olduğu ən çox mövzular irq, cins, etnik mənsubiyyət, kimlik və mədəniyyətdir. Terri İqlton bildirir ki, post-müstəmləkəçilik nəzəriyyəsi multikulturalizmin və dekolonizasiyanın yeganə məhsulu deyil, o, həm də Üçüncü Dünyada inqilabi millətçilikdən tarixi keçidi əks etdirir [3]. Maraqlıdır ki, 1950-ci illərdən başlayaraq bir çox tanınmış yazıçı və nəzəriyyəçi Britaniya və ya Amerikadan gəlməmiş, lakin onlar Sam Selvon, Salman Rüşdi, V. S. Naypol, Edvard Səid, Homi Bhabha, Gayatry Spivak, Derek Valcott, Chinua Acebe, Vole Soynika və s. kimi keçmiş Britaniya koloniyalarından gəlmişlər.

Bill Ashcroft "The Empire Writes Back" kitabında iddia edir ki, ədəbiyyat müstəmləkəçilikdən sonrakı dövrün qavrayışlarının ifadə olunduğu və müstəmləkələşdirilmiş xalqların gündəlik reallıqlarının güclü şəkildə şifrələndiyi və bu qədər dərindən təsirli olduğu ən mühüm yollardan birini təklif edir. [2] Postkolonial dövrdə yazılan ədəbi əsərlərdəki əsas mövzular bir vaxtlar müstəmləkə olmuş xalqların yaşadığı parçalanma və şəxsiyyət böhranı və onun mühüm təsirləri olmuşdur. Naypol, Salman Rüşdi və Sam Selvon və başqaları immiqrantların dilemmasını, mühacirlərin şəxsiyyət axtarışını təsvir etdilər. V.S Naypolun "Mimik adamlar" [8] və Sam Selvonun "Tənha Londonlular" [17] əsərlərində immiqrantların təhlükə altında olan şəxsiyyətlərinin yaradılması və müqaviməti uğrunda necə mübarizə apardıqları aydın şəkildə təqdim olunur. Başqa bir perspektivdə və Britaniya imperiya gücü ilə əlaqədar olaraq bir çox postkolonial romanlarda Tayeb Salihin "Şimala köç mövsümü" [16] imperiya gücünün, gözləntilərinin simvolu kimi Londonda baş verən hadisələrin də mühüm məkana çevrilməsidir.

## Nəticə

Postkolonial tədqiqatlarda müzakirə olunan mövzuların diapazonu olduqca genişdir - ənənəvi, dövlət-siyasi - gender, ədəbi-mədəni mövzulara qədər. Postkolonial diskursda iştirak edən tədqiqatçıların, eləcə də problem sahələrinin sayının ildən-ilə artması xarakterikdir. 1995-ci ildə nəşr olunan postkolonial tədqiqatlara dair fundamental antologiyada əsas mövzular "Universalizm və müxtəliflik", "Postmodernizm və postkolonializm", "Təmsilçilik", "Gender", "Dil" və s. kimi müəyyən edilmişdir. Bu müxtəlif və heterojen fenomen XX əsrin II yarısında Qərb ölkələrində multikultural cəmiyyətin yaranmasına səbəb oldu.

**Açar sözlər:** *postkolonializm, neokolonializm, miqrasiya, müstəmləkə, milli kimlik.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Ashcroft B. Alternative modernities: globalization and the post-colonial. Ariel, 2009, 40(1), p.81-106.*

*2. Ashcroft Bill, Gareth Griffiths, and Helen Tiffin. The Empire Writes Back: Theory and Practice in Postcolonial Literatures. London: Routledge, Print.1989. –256 p.*

*3. Bosma, U, Lucassen, J., & Oostindie, G. J. Introduction. Postcolonial Migrations and Identity Politics: Towards a Comparative Perspective. (pp. 1-22). New York: Berghahn. 2012 Retrieved from https://hdl.handle.net/1887/31832)*

*4. Cons Bromeier, Donal Carbaugh. "Narrative and İdentity" Amsterdam, 2001. 307 pp.*

*5. Франц Фанон. Черная кожа, белые маски/ пер. с франц.-М. 2022 -224 с.*

*6. Frederick Jackson Turner, " The Significance of the Frontier in American History". Penguin Books Limited, 2008. -128 pp.*

*7. Hull Stuart. " Ethneticity: Identity and Difference".1989. Radical America 23, No, 4. (2000). Old and New Ethnicities, in Les Back and John So-*

*lomos (eds), Theories of Race and Racism, London: Routledge, pp. 144–53.*

*8. Naipaul V.S. The Mimic Men. London: Andre Deutsch, 1967. -301 p.*

*9. Nkrumah Kwame, Emperyelizmin Son Aşaması Yeni Sömürgecilik, Çev. A. Sarıca, Gerçek Yayınevi, İstanbul, 1996, p. 9, 10. -100 pp.*

*10. Pilkington Hilary. Migration, Displacement and Identity in Post-Soviet Russia 1997.Routledge. 4., -252 pp.*

*11. Ronald Skeldon, "International Migration as a Tool in Development Policy: A Passing Phase?", Population and Development Review, Cilt 34, Sayı 1, Mart 2008, p. 3. 68.*

*12. Raul Delgado Wise, Mariana Ortega Brena, "Migration and Imperialism: The Mexican Workforce in the Context of NAFTA", Latin American Perspectives, Cilt 33, Sayı 2, Mart 2006, p. 36, 37, 40.*

*13. Stephen Castles, Mark J. Miller, The Age of Migration International Population Movements in the Modern World, 2. bs., Palgrave Press, New York, 1998, p. 49, 50, 53;*

*14. Stephen Castles, "International Migration at the Beginning of the Twenty First Century: Global Trends and Issues", UNESCO Papers, Blackwell Publishers, Oxford, ISSJ/165, 2000, -273 pp.*

*15. Said Edward. Culture and Imperialism. London: Chatto and Windus.1993. -440 pp.*

*16. Salih Tayeb. Season of Migration to the North, translated by Denys Johnson- Davies. Pengin, England. 1969. 184 pp.*

*17. Selvon, Sam. The Lonely Londoners, Penguin, England. 1967. 142 pp.*

*18. Young, J. C. R. Postcolonialism: A Very Short Introduction, New York, 2003: Oxford University Press. -s.s.180*

**NARGIZ NAGIYEVA**
***Associate professor of Baku State University, Doctor of Philosophy in Political Science***

**Postcolonial migration and national identity**
**SUMMARY**

International migration is a multifaceted process that is influenced by various factors and reasons. Conflict, instability, economic imbalances, globalization, demographic changes, labor supply and demand, new means of communication and the growing effects of climate change are forcing much of the world's population to seek refuge, build a better future or pursue a personal dream abroad, near or far, pushing to having to cross international borders to make this happen. Migration is not only the geographical movement of one or more groups of people over a period of time, but also a process of transformation involving social, cultural and economic diversity, as well as social change. Within the framework of postcolonial theory, the problem of migration is considered on the basis of the development of countries of origin, receiving and transit countries.

**Key words:** *postcolonialism, neocolonialism, migration, colony, national identity.*

**НАРГИЗ НАГИЕВА**
***Доцент Бакинского Государственного Университета, доктор философии по политическим наукам***

**Постколониальная миграция и национальная идентичность**
**РЕЗЮМЕ**

Международная миграция – это многогранный процесс, на который влияют различные факторы и причины. Конфликты, нестабильность, экономические дисбалансы, глобализация, демографические изменения, спрос и предложение рабочей силы, новые средства коммуникации и растущие последствия изменения климата заставляют большую часть населения мира искать убежища, строить лучшее будущее или стремиться к личной мечте за границей, близкой или далекой, подталкивают к тому, чтобы пересечь международные границы, чтобы это произошло. Миграция – это не только географическое перемещение одной или нескольких групп людей в течение определенного периода времени, но и процесс трансформации, включающий социальное, культурное и экономическое разнообразие, а также социальные изменения. В рамках постколониальной теории проблема миграции рассматривается на основе развития стран происхождения, принимающих и транзитных стран.

**Ключевые слова:** *постколониализм, неоколониализм, колония, миграция, национальная идентификация.*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.4.82.39

# ÇAĞDAŞ DÜNYADA KONFESSİONAL FAKTORLU MÜNAQİŞƏLƏRİN GEOSİYASİ CƏHƏTDƏN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ POTENSİALLARI

**MƏLƏK CƏFƏRLİ**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Beynəlxalq münasibətlər ixtisası üzrə doktorant*

*E-mail: rzaeva.m15@gmail.com*
*Orcid id: 0000-0002-7232-8465*

İstənilən ölkənin daxili və xarici siyasəti iqtisadi, sosial, demoqrafik, dini komponentlər nəzərə alınmaqla qurulur. Dövlətin daxilinin xarici ilə qarşılıqlı əlaqəsi, birinin digərinə təsiri özünü münaqişələr kontekstində də göstərir. Bu səbəbdəndir ki, ayrı-ayrı dövlətlərin daxilində olduğu kimi, xarici siyasətində də konfessional amil mühüm rol oynayır. Elmi ədəbiyyatlarda "din" və "konfessiya", "dini" və "konfessional" kateqoriyalarının bir-birinin əvəzinə istifadə ənənəsi inkişaf etmişdir. Semantik mənada ekvivalent anlayışlar olsalar da, psixolinqvistik və etnopolitik baxımdan bu kateqoriyalar müxtəlif məzmuna malikdirlər. Müasir təriflərinə əsasən, "din" – dünyagörüşü, eyni zamanda fövqəltəbii tanrılara və tanrının varlığına inama əsaslanan uyğun davranış və spesifik hərəkətlər (kult) toplusudur. "Konfessiya" isə latınca "confessio" sözündən olub, dini etiqad, məzhəb mənasını verir [4].

Müasir böhran şəraitində yaranan qarşıdurmalarda konfessional (dini) amilin mahiyyəti, rolu və əhəmiyyəti bu gün dünyanın ən aktual problemlərindən biridir. Elmi ədəbiyyatlarda, bu qaçılmaz aktuallığın əsas səbəblərindən biri kimi, dinin siyasi və ictimati həyatı dərk etmək vasitəsinə çevrildiyi vurğulanır [1]. Dövrümüzdəki siyasi qarşıdurmalardakı dini amil mühüm rol oynamağa davam edir. Bu baxımdan ən çox münaqişəli bölgələr Yaxın Şərq və Afrikadır.

Harvard professoru S.Hantinqtonun dünya siyasətinin yeni bir mərhələyə qədəm qoyduğu barədə kulturoloji nəzəriyyəsi bütün dünyada müzakirə olunur. Belə ki, onun fikrinə əsasən, artıq müasir dünyada qarşıdurmaların mənbəyi ideoloji və iqtisadi olmaqdan çıxmışdır. Bəşəriyyəti ayıran ən vacib sərhədlər və qarşıdurmaların əsas mənbələri sivilizasiya tərəfindən təyin olunmağa başlanmışdır. Sivilizasiyaların toqquşması dünya siyasətində hakim amilə çevrilmişdir. S.Hantinqton baxımından sivilizasiyanın əsas müəyyənedici xüsusiyyəti dindir. Din amili mədəni fərqləri qabarıq şəkildə üzə çıxaran güclü komponentdir. Konfessional amil dinin ictimai bir qurum kimi ictimai həyatın digər, dini olmayan tərəflərinə təsirini təyin edən bir termindir [16,s.13].

S.A.Lantsov münaqişələrdə dini amilin rolu ilə bağlı bir sıra cəhətləri vurğulayır və qeyd edir ki, ilk növbədə bu baxımdan dövlətin poli-konfessional mahiyyəti əhəmiyyətlidir.[7] Bu amilin ən parlaq nümunəsi Livandakı vəziyyətdir. Livan, konfessional tərkibi baxımından bənzərsiz bir ölkədir, iyirmidən çox dini qrupa ev sahibliyi edir, onların əsas hissəsi müsəlmanların payına düşür. Livan ərəblərinin təxminən 25 faizi xristianlardır. 1943-cü ildə, Livan müstəqil bir respublika olduqda, razılaşdırılmamış Milli Pakt imzalandı və bununla dini icmaya mənsubiyyətinə görə rəhbər vəzifələrin bölüşdürülməsi sistemi nəzərdə tutuldu, belə ki, respublikanın prezidenti xristian, baş nazir isə sünni-müsəlman və parlamentin sədri şiə-müsəlman idi. Bu vəziyyət hələ də Livanda həm daxili, həm də xarici qeyri-sabitliyə səbəb olur.

İkinci amil isə dövlət quruculuğunun xüsusiyyətləridir. Asiya və Afrika ölkələrinin əksəriyyəti uzun müddət Avropanın müstəmləkə və ya yarı-müstəmləkə asılılığında idilər və daha sonradan suverenlik əldə etdilər. Çox vaxt yeni dövlətlər metropollar tərəfindən tarixən formalaşmış icmalar, əsasən, din də daxil olmaqla nəzərə alınmadan yaradılmış və sərhədlər siyasi, həmçinin hərbi konyunkturadan asılı olaraq çəkilmişdir. Nəticə olaraq, eyni dinə etiqad edənlər parçalanmışlar. Belə bir vəziyyət, məsələn, etnik və dini baxımdan fərqlənən və müəyyən dərəcədə müstəqilliyini qoruyan xalqları və əraziləri əhatə edən Efiopiyada inkişaf etmişdir. Beləliklə, bu vəziyyət dini zəmində çox sayda qarşıdurmaya səbəb olur və fərqli xarakterli münaqişələri daha da artırır.

Bu gün dünyanın ayrı-ayrı ölkələrində, regionlarında tarixdə uzun müddət davam edib sona çatan və bəzilərinin isə həlli tam dalana dirənmiş çoxlu sayda dini münaqişələr mövcuddur: Yaxın və Orta şərqdə - İraqda, Suriyada, Yəməndə və s. şiələr və sünnilər arasında çoxəsrlik münaqişə; Şimali İrlandiyada katoliklərlə protestantlar arasında münaqişə; Fələstin-

də ərəblərlə yəhudilər arasında münaqişə; Çində Tibet buddistləri ilə etnik çinlilər arasında münaqişə; Balkan yarımadasında pravoslav əqidəli serblərlə katolik əqidəli xorvatlar arasında münaqişə; Afrika ölkələrində - Sudanda, Çadda, Nigeriyada, Nigerdə və s. müsəlmanlarla xristianlar və yerli din mənsubları arasında münaqişə; Hindistan subkontinentində hinduistlərlə müsəlmanlar arasında münaqişə; Çində Sintsyan muxtar əyalətində müsəlman uyğurlarla etnik çinlilər arasında münaqişə və s. mövcuddur. Bu sadalananlara həmrəy dinçilərin hüquqlarının pozulması ilə mübarizə bəhanəsi ilə bəzi dövlətlərin başqalarının işlərinə qarışmasını daxil etmək də mümkündür. Buna misal olaraq 1980-1988-ci illərdə başlayan İran-İraq qarşıdurmasıdır. Bu qarşıdurmanın səbəbi bölgədəki hökmranlıq rəqabəti ilə yanaşı iqtisadi maraqlar - Fars körfəzi bölgəsindəki neft yataqları uğrunda mübarizə idi. Ancaq sünnilər və şiələr arasındakı qarşıdurma rəsmi səbəblərdən biri olaraq göstərildi. Digər bir nümunə Yuqoslaviyadakı hadisələrdir: silah embarqosu tətbiq olunmasına baxmayaraq, Bosniya və Herseqovina müsəlmanları digər müsəlman dövlətlərdən hərbi yardım aldılar və bu münaqişənin həllini çətinləşdirdi.

Konfessional faktorlu qarşıdurmaların səbəbləri, tarixi, ərazi, siyasi, sosial-mədəni və digər xüsusiyyətlərin regional ziddiyyətlər kompleksi kimi də təqdim edilə bilər ki, bu da müəyyən şərtlər daxilində kütləvi zorakılıq tətbiq olunmaqla konfessional bir qarşıdurma şəklində reallaşa bilər. Tarixi ziddiyyətlər ümumiyyətlə dini şüura kök salmış, formaya qərəzli və məzmuna görə aqressiv tarixi düşmənçilik haqqında fikirlər şəklində meydana çıxır. Ərazi ziddiyyətləri, adətən, dinə bağlı ərazilər olaraq davamlı iddialar şəklində, bir dinə etiraz edən bölünmüş xalqların problemi və ya əvvəllər deportasiya edilmiş dini qrupların ərazi bərpası məsələsi kimi meydana çıxır. Siyasi ziddiyyətlər, adətən, etnik milliyətçilik prinsiplərinə əsaslanan dövlətlərdə suveren dövlətçiliyin olmaması və ya yalnız özlərinə xas dini inancına malik olan milli muxtariyyətlərin və etnik azlıqların statusunun siyasi və hüquqi cəhətdən aşağı olması kimi görünür. İqtisadi ziddiyyətlər, əsas etibarilə, dini qrupların resurslara və mülklərə sahib olmaq üçün təbii hüquqları uğrunda mübarizəsi şəklində olur. Sosial-mədəni ziddiyyətlər, ümumiyyətlə, ərazilərin qeyri-bərabər sosial-iqtisadi inkişafı, müxtəlif dini qrupların mənbələrə və bazarlarda bərabər olmayan sərbəstlik dərəcəsi, irqi, etnik və ya dini zəmində ayrı-seçkiliklə, mədəni və sivilizasiya fərqləri ziddiyyətlər şəklində meydana çıxır. [16]

Münaqişənin təməlində duran səbəblərə əsasən, konfessional faktorlu bir sıra konfliktlər ayırd edilir. Siyasi muxtariyyət və ya dini icmaların tamamilə ayrılması tələbinə əsaslanan qarşıdurmaları bura aid etmək olar. Muxtar və ya separatçı hərəkatlar ortaq bir dil, mənşə, tarix və mədəniyyətə sahib bir xalq və ya etnik qrup əsasında meydana gəlir. Digər xarakterik cəhət, kiçik etnik qrupların dini hərəkatlarından yaranan qarşıdurmalardır. Sonuncular coğrafi baxımdan bir millətin özü və ya ayrı-ayrı hissələridir, bəzi mədəni xüsusiyyətləri qoruyur və ən əsası əhalinin əksəriyyətinin dini inanclarını bölüşmürlər. Belə bir qarşıdurmaya nümunə olaraq Hindistan hökuməti ilə “saflar diyarı” yaratmaq uğrunda mübarizə aparan Pəncab Sihizm dini mənsubları arasındakı qarşıdurma göstərilir.

Miqrasiya prosesləri, dövlət sərhədlərindəki dəyişikliklər və sərhədlərin yenidən müəyyənləşdirilməsi nəticəsində parçalanmış vəziyyətdə olan qrupların irredentist istəklərindən qaynaqlanan qarşıdurmalar da bura daxildir. Bir neçə dövlətin ərazisində yaşayan insanların birləşməsini hədəfləyən siyasi və ya ictimai hərəkatlar şəklində qurulurlar. Bu cür xalqlar, bir qayda olaraq, dövlətdə dini olmayan bir cəmiyyəti təmsil edirlər. Bu tip bir münaqişə vəziyyəti, məsələn, İraq, İran, Türkiyə və Suriyadakı kürdlərin vəziyyətidir.

Dini və icma səbəblərindəki ziddiyyətlərə əsaslanan qarşıdurmaları da göstərmək olar. Belə konfliktlər həm məzhəb baxımından homogen, həm də çoxkonfessional vəziyyətlərdə yer alır. Konfessiya baxımından homogen dövlətlərdə fərqli inanc və məzhəb tərəfdarları dini əksəriyyət nümayəndələri tərəfindən hüquqlarının pozulmasından qorxurlar. Məsələn, İraq şiələri, mədəni və siyasi muxtariyyət tələbləri irəli sürmüşdür. Poli-konfessional dövlətlərdə din, etiqadlı toplum qarşısında konfessiya qrupunu birləşdirməyə kömək edir. Məsələn, Hindistanda münaqişələr bunlardır.

İstənilən dinin mütləqləşdirilməsi, ümumiləşdirilməsi əsasında yaranan ziddiyyətlər əsasında saf şəklində bu cür qarşıdurmalar mövcud deyil, həmişə siyasi amillərlə, siyasətçilərin, təşkilatların və hətta dövlət qruplarının milli sərhədləri və etnik fərqləri olmayan dinə əsaslanan həmrəylik ideyası çıxışları ilə əlaqələndirilir. İslamın ənənəvi yayılması ölkələrində bu cür qarşıdurmalar tez-tez müsəlman din

qardaşları tərəfindən və 80-ci illərdə müxtəlif növ hərəkatlar şəklində təhrik olunurdu. İran liderləri oxşar fikirlərə güvənərək bölgədə və müsəlman dünyasında hegemonluq uğrunda mübarizə aparırlar.

Konfessional əsasda yaranan siyasi münaqişələr irrasionaldır. Dini şüarlar əhalinin səfərbərliyini təmin edir, bu və ya digər hərəkatın metod və məqsədlərinə haqq qazandırmaq üçün istifadə olunur. Çox vaxt, xüsusən üçüncü dünya ölkələrində, sosial-iqtisadi və ya siyasi gerçəkliklərdən narazılıq daha yüksək ədalətə çatmaq üçün dini iğtişaşlar şəklində ifadə edilir. Bu hallarda din mühafizəkarlıq, liberalizm və ya sosializm kimi müasir ideologiyalara alternativ olaraq çıxış edə bilər. Dini etiqad milli mədəniyyətin üzvi bir hissəsi ola bilər. Tez-tez ənənəvi cəmiyyətlərin qərbləşməsinə töhfə verən qloballaşma prosesləri orada müqavimətə səbəb olur, orijinal bir mədəniyyətin qorunmasını təmin etməli olan millətçiliyin təzahürünü gücləndirir. Belə hallarda din millətçi proqramların vacib bir hissəsinə çevrilir.

Sosial inkişafın bu xüsusiyyətləri dini amilin getdikcə daxili və beynəlxalq münaqişələrdə mühüm rol oynamasına gətirib çıxarır. Qeyd etmək lazımdır ki, dünya dinləri - buddizm, xristianlıq və islam klassik versiyalarında tolerantlığa və xeyriyyəçiliyə əsaslanır, müxaliflərə qarşı birbaşa mübarizə aparmırlar. Dini amil yalnız inkişaf etməkdə olan dövlətlərin iştirakı ilə baş verən qarşıdurmalar üçün xarakterik deyil, həmçinin son illərdə müxtəlif islamçı qrupların ümumi layihəsinin həyata keçirilmə funksiyalarını öz üzərinə götürərək xüsusilə fəal olmuşdur. İslamçılara görə, "İslam layihəsi" cəmiyyətin sosial-iqtisadi və siyasi geriliyini aradan qaldırmalı, İslam dövləti bütün vətəndaşları üçün ədaləti təmin etməlidir. Qloballaşma, qərbləşmə meyli, yüksək informasiya texnologiyaları ənənəvi dini strukturları müasir texniki vasitələrlə birləşdirdi və müasir sivilizasiyanın nailiyyətlərini islamın dəyərləri ilə birləşdirən geniş miqyaslı qlobal ütopiyanın həyata keçirilməsinə mümkün cəhdlər göstərdi.

Misal üçün, keçmiş Sovet ittifaqı və post-Yuqoslaviya ərazisində dini amilin güclənməsinin və bu əsasda çoxsaylı qarşıdurmaların yaranmasının səbəbləri siyasi rejimlərdə, iqtisadi sistemdə və milli dövlət quruluşunda baş verən dəyişikliklər idi. Post-sovet məkanında islamın fəallaşması prosesi milli kimlik axtarışının bir hissəsinə çevrildi. Müsəlman anklavlarında milli dirçəliş islamın dirçəlişi və onun siyasiləşməsi ilə birlikdə baş verdi. İslam yalnız bir din deyil, həm də bir həyat tərzidir; ənənələri özünə sığışdırır, müəyyən davranış qaydalarına tabe edir. Müsəlmanların özlərini identifikasiya etmələri, onların milli şəxsiyyətlərinin ən vacib hissəsidir. İslam amilinin intensivləşməsinə keçid dövrünün ümumi iqtisadi və sosial problemləri kömək etdi, belə ki, yaşayış səviyyəsinin aşağı düşməsi, əhalinin marginallaşması, işsizliyin artması və depressiya zonalarının meydana çıxması, sosial-iqtisadi problemlər kompleksi islamın siyasiləşməsinə və radikallaşmasına səbəb oldu. Korrupsiya, yerli idarəetmə quruluşundakı öz "klanlarına" güvənmək, əhalinin əhəmiyyətli bir hissəsi üçün daralan sosial məkandan kənara çıxmaq fürsəti bağladı. Beynəlxalq İslam fondları və ayrı-ayrı islamçı rejimlər islam amilinin güclənməsinə öz töhfələrini verirlər. Dünyəviləşmə və dinin siyasətdən ayrılması, qarşısı alınan islam ənənəsi bəzi müsəlmanların yeni radikal fikirlərə, müsəlman ədəbiyyatının axınına və xaricdə təhsil alma fürsətinə xüsusi həssaslıq yaratdı. Şərqdəki müsəlman dövlətlərində uzun müddət dünyada həmrəy dinçilər üzərində təsirlərini genişləndirməkdə maraqlı olan radikal müsəlman qrupları mövcuddur. Güclü bir dünyəvi siyasi tarazlığın olmaması halında İslam özünü ideoloji və mənəvi həyatın, eləcə də ictimai münasibətlərin tənzimləyicisi kimi göstərməyə çalışır.

Bənzər hərəkatlar təkcə islamda deyil, həm də qərbi xristianlıq, yəhudilik, buddizm, hinduizmdə inkişaf etmişdir. Əksər ölkələrdə və təriqətlərdə fundamentalizm savadlı gənclər, orta siniflərdən, liberal peşələr liqasından və yüksək səviyyəli mütəxəssislərdən və iş adamları tərəfindən dəstəklənir. Amerikalı din alimi G.Veigelin qeyd etdiyi kimi, sekulyarizasiya 20-ci əsrin sonlarında hökm sürən ictimai fenomenlərdən biridir. Dinin dirçəlişi və ya başqa bir ilahiyyatçı J.Kepelin ifadəsi ilə "tanrının intiqamı", milli sərhədləri aşan bir topluluğun müəyyənləşdirilməsinə və iştirakına, sivilizasiyaların birləşdirilməsinə zəmin yaradır. [6]

Hazırda dünya ümumilikdə siyasi münaqişələrdə və dövlətlərarası qarşıdurmalarda dini komponentin güclənməsinin şahidi olur. Əyani olaraq müasir dövrün həll olunmamış bir sıra münaqişələrində, xüsusilə Fələstin-İsrail qarşıdurmasının nümunəsində aydın görmək mümkündür. Nəticədə, konfessional amilin münaqişəyə göstərdiyi təsirin konstruktiv yanaşmadan uzaq olduğu göz qabağındadır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Бровко О. Д. Религиозный фактор политических конфликтов. [elektron resurs]*

*URL: https://rusnauka.com/15_APSN_2010/Politologia/68138.doc.htm*

*2. Дьяконова М.А. Конфессиональный фактор во внешней политике государства. Вестник Нижегородского университета им. Лобачевского, 2013, № 6. 364–368 с.*

*3. Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı, "Adiloğlu" nəşriyyatı - 2009. 258 s.*

*4. Кенан АЛЛАХВЕРДИЕВ. Этноконфессиональный фактор национальной безопасности государств Кавказа. [elektron resurs]*

*URL: https://ca-c.org.ru/c-g-online/2008/journal_rus/c-g-3/02.shtml*

*5. Qənbərov A. "Dövlət-din münasibətləri: fərqli modellər və siyasətlər." Bakı İslam Universiteti. Dövlət və Din - № 02 (49) Mart - Aprel 2017*

*6. Гуревич П.С. Религиоведение: учебник для бакалавров. Москва, Юрайт - 2019. 573 с.*

*7. Ланцов С. Политическая конфликтология. Питер - 2008. 319 с.*

*8. Лучшева Л.В. Религиозные отношения и религиозный конфликт. Вестник экономики, права и социологии, 2017, № 4. 283-286 с.*

*9. Нуруллаев А.А., Нуруллаев Ал.А. Религия и политика. Учебное пособие. Москва, КМК – 2006. 330 с.*

*10. Суханов В.А. Влияние религии на политические процессы в Израиле. Центра партнёрства цивилизаций, Москва.*

*11. Silvestri S., Mayall J. The Role of Religion in Conflict and Peacebuilding. The British Academy 2015. 87 p.*

*12. Тишков В.А., Шнирельман В.А. Этничность и религия в современных конфликтах. М: Наука, 2012. – 651с.*

*13. Вирсавииа М. Палестино-Израильский конфликт: в поисках современной академической интерпретации. Tallinn - 2015. 53 с.*

*14. Воскресенский А.Д. Конфликты на Востоке: Этнические и конфессиональные: учеб. Пособие для студентов вузов / М: Аспект пресс. 2008. 512 с.*

*15. Яковлев А.Ю. Межконфессиональные конфликты в Индии: индусы против мусульман. Государственный университет управления; Исламоведение. 2013. № 4. 62-68 с.*

*16. Зеленков М.Ю. Религиозные конфликты: проблемы и пути их решения в начале XXI века. Воронеж. ВГУ, 2007. 244 с.*

*17. Звягельская И. Религиозный фактор в палестино-израильском конфликте. Религия и конфликт. - М.: РОССПЭН, 2007, с. 153-174.*



## XÜLASƏ

Məqalənin mövzusu müasir dünyada yaşanan müxtəlif sosial, siyasi və dini münaqişələri dərk etmək üçün olduqca vacib əhəmiyyət kəsb edir. Konfessional faktorlar bir çox münaqişələrə səbəb olan əsas dini, etnik və ya mədəni fərqlərdir. Bu gün, xüsusilə, Yaxın Şərq, Asiya və Afrika kimi regionlarda konfliktlərin əsasında məhz etno-konfessional faktorlar dayanır. Bu cür münaqişələr yüksək geosiyasi dəyərə malikdir, çünki çox vaxt regional və beynəlxalq ölçülərə yayıla bilir. Bir regionda dini və ya etnik qruplar arasında münaqişə qonşu ölkələrə və hətta qlobal güclərə də təsir edir. Buna görə də, münaqişəli amillərin dəqiq qiymətləndirilməsi və anlaşılması sülhə nail olmaq və münaqişələri həll etmək üçün vacibdir. Lakin bu cür münaqişələrin potensialı çox vaxt dərin tarixi, mədəni və sosial köklərə malikdir. Buna görə də münaqişənin həlli üçün vahid yanaşma kifayət deyil və çoxsaylı səbəbləri nəzərə alan hərtərəfli strategiya tələb olunur. Diplomatiya, humanitar yardım, iqtisadi inkişaf və barışıq kimi müxtəlif vasitələrdən istifadə münaqişə potensialının azaldılması və sülh proseslərinin dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Nəticədə, müasir dünyada konfessional faktorlu münaqişələrin geosiyasi cəhətdən və konfliktlərin potensialından qiymətləndirilməsi mövzusu bugünkü mürəkkəb və dinamik siyasi şəraitdə mühüm tədqiqat və təhlil sahəsidir. Bu məsələnin yaxşı başa düşülməsi sülhü təşviq etmək və münaqişələri həll etmək səylərinə töhfə verə bilər.


**Açar sözlər:** *din, münaqişə, konfessiya, sivilizasiya, geosiyasət, Yaxın Şərq.*

**Malak Jafarli**
*Azerbaijan University of Architecture and Construction, lecturer*
*rzaeva.m15@gmail.com*

**Geopolitical assessment and potentials of conflicts with confessional factors in the modern world**

**SUMMARY**

The subject of the article is very important to understand the various social, political and religious conflicts experienced in the modern world. Confessional factors are the main religious, ethnic or cultural differences that cause many conflicts. Today, especially in regions such as the Middle East, Asia and Africa, ethno-confessional factors are the basis of conflicts. Such conflicts have a high geopolitical value, as they can often spill over into regional and international dimensions. Conflict between religious or ethnic groups in a region can affect neighboring countries and even global powers. Therefore, an accurate assessment and understanding of conflict factors is essential to achieve peace and resolve conflicts. However, the potential for such conflicts often has deep historical, cultural and social roots. Therefore, a single approach to conflict resolution is not sufficient, and a comprehensive strategy that takes into account multiple causes is required. The use of various tools such as diplomacy, humanitarian aid, economic development and reconciliation are important in terms of reducing the potential for conflict and supporting peace processes. As a result, the topic of evaluating conflicts with confessional factors in the modern world from a geopolitical point of view and the potential of conflicts is an important area of research and analysis in today's complex and dynamic political conditions. A better understanding of this issue can contribute to peace-promoting and conflict-resolving efforts.

**Keywords:** *religion, conflict, confession, civilization, geopolitics, Middle East.*

**Малак Джафарли**
***Азербайджанский Университет Архитектуры и Строительства, преподаватель***
***rzaeva.m15@gmail.com***

**Геополитическая оценка и потенциалы конфликтов с конфессиональными факторами в современном мире**

**РЕЗЮМЕ**

Тема статьи очень важна для понимания различных социальных, политических и религиозных конфликтов, происходящих в современном мире. Конфессиональные факторы являются основными религиозными, этническими или культурными различиями, вызывающими множество конфликтов. Сегодня, особенно в таких регионах, как Ближний Восток, Азия и Африка, в основе конфликтов лежат этноконфессиональные факторы. Такие конфликты имеют высокую геополитическую ценность, поскольку часто могут перерасти в региональные и международные измерения. Конфликт между религиозными или этническими группами в регионе может затронуть соседние страны и даже мировые державы. Поэтому точная оценка и понимание факторов конфликта имеют важное значение для достижения мира и разрешения конфликтов. Однако потенциал таких конфликтов часто имеет глубокие исторические, культурные и социальные корни. Поэтому единого подхода к разрешению конфликтов недостаточно, необходима комплексная стратегия, учитывающая множество причин. Использование различных инструментов, таких как дипломатия, гуманитарная помощь, экономическое развитие и примирение, важно с точки зрения снижения вероятности конфликта и поддержки мирных процессов. В результате тема оценки конфликтов с конфессиональными факторами в современном мире с геополитической точки зрения и потенциала конфликтов является важным направлением исследования и анализа в современных сложных и динамичных политических условиях. Лучшее понимание этого вопроса может способствовать усилиям по укреплению мира и разрешению конфликтов.

**Ключевые слова:** *религия, конфликт, конфессия, цивилизация, геополитика, Ближний Восток.*

UOT 327; 930.22
DOI: 10.30546/3006-0346.2024.4.82.42

# ÇİN XARİCİ SİYASƏTİNDƏ "AĞILLI GÜC" STRATEGİYASI

**KƏNAN ƏHMƏDOV**
*Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının doktorantı*

*E-mail: kanan.ahmadov@gmail.com*

**ANAR QƏDİROV**
*Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasının doktorantı*

*E-mail: qaanar14213@sabah.edu.az*

XXI əsrdə güclərin aktorlar arasında bölüşdürülməsinin dəyişməsi səbəbindən qlobal sistem yenidən formalaşır. 1970-ci illərdən başlayan və 1990-cı illərdə vüsət alan bu transformasiya prosesi dövlət idarəçiliyi, iqtisadi model, inkişaf konsepsiyaları və davamlılığı kimi "qurulmuş" anlayışlarda qavrayışın dəyişməsi ilə müşayiət olunur. Bu dəyişikliyi və transformasiyanı formalaşdıran amillərdən biri də Çin Xalq Respublikasının qlobal siyasi, iqtisadi və hərbi sistem daxilində statusunda sürətli və müsbət irəliləyişdir. Çinin tərəqqisi ədəbiyyatda "Çinin yüksəlişi" kimi konseptuallaşdırılıb və bu yüksəliş 1990-cı illərdə iqtisadi ölçülərə, 2000-ci illərdə siyasi ölçülərə və 2010-cu ildən sonra mədəni ölçülərə vurğu edilərək araşdırılıb.

Çinin yüksəlişini mümkün edən amillər və ya bu yüksəlişin qlobal nizama mümkün təsirləri Anglo-Amerikan perspektivinin hakim olduğu nəzəri yanaşmalar çərçivəsində müzakirə edilmişdir. Bu perspektivə görə, Çinin yüksəlişi Qərb dəyərlərinə söykənən mövcud beynəlxalq nizama "təhdid" kimi şərh edilib. Bununla belə, iqtisadi və siyasi yüksəlişinin davamlılığını təmin etmək üçün Pekinə qlobal sistemlə daha çox inteqrasiya lazımdır. Bu səbəbdən Çinin yüksəlişinin təhlükə kimi qəbul edilməsinin qarşısını almaq Çinin xarici siyasətinin əsas məqsədlərindən birinə çevrilib. Bu məqsədə çatmaq üçün edilən səylər Çinin xarici siyasətində yumşaq güc elementlərinin ağırlıq qazanmasına səbəb oldu. Bu kontekstdə Çinlə bağlı araşdırmalar daha çox Çinin "yumşaq gücü"nə yönəlib və ekspertlər Çini Qərb mərkəzli konseptuallaşdırma vasitəsilə anlamağa çalışıblar [2, s.81]. Çinin "yumşaq gücü"nə dair araşdırmalar Afrika və Latın Amerikası kimi inkişaf etməmiş bölgələrə xarici yardım, Çin mədəniyyətini və dilini populyarlaşdırmaq üçün qurulan Konfutsi institutları, Pekin Olimpiadaları və Şanxay Ümumdünya Sərgisi kimi platformalarda ev sahibliyi etmək, "The China Daily" və "China Central Television" kimi beynəlxalq çap və vizual media yayım səylərinə diqqət yetirirdi.

Çinin güc qabiliyyətini sərt elementlər baxımından təhlil edən araşdırmalar, onun sabit iqtisadi artım performansını, xarici bölgələrdə valyuta ehtiyatlarını və xarici investisiyaları, hərbi büdcəni artırmağı, silah texnologiyasını və hücum qabiliyyətini artırdığını vurğulayır. Bütün bu elementlərlə yanaşı, XXI əsrin ən mühüm texnoloji gücü kimi ortaya çıxan Çinin beynəlxalq münasibətlərdə "güc" anlayışının süni intellekt, bio-genetika, kosmik texnologiyalar və robototexnika kimi yeni elementlərinə sürətlə uyğunlaşan bir ölkəyə çevrildiyi qəbul edilir. Bu inkişaflar Çinin bütün güc elementlərindən birlikdə istifadə etmək imkanını nəzərdən keçirməyi zəruri edib.

"Ağıllı güc" anlayışı baxımından Çinlə bağlı araşdırmalar "sərt güc" və "yumşaq güc" mövzuları ilə müqayisədə nisbətən az olsa da, 2008-ci ildən sonra ədəbiyyatda birbaşa mövzuya toxunan tədqiqatlar artmışdır [9]. Sözügedən işlər araşdırıldığında, Çinin Cənub-Şərqi və Şərqi Asiyada hərbi çəkindirmə və təhlükəsizlik zəmanəti təklif edən ölkə olmaq səyləri, Yaxın Şərq və Afrikaya investisiyaları və bu regionlardakı münaqişələrin həlli üçün vasitəçilik fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) və Birləşmiş Millətlər Təşkilatı (BMT) kimi regional və beynəlxalq təşkilatlarda siyasətlərə önəm verildiyi ortaya çıxır[4, s.361].

In the system of organizing international cultural relations of the Republic of Azerbaijan, apart from state and government institutions, international organizations, public-social institutions, and personal activities of individual people have a great place. The activity of individual people is of great importance in the organization of international cultural relations. Historically, in the process of development of international cultural relations, the activity of individual people has appeared as the main direction. In modern times, the role of state and government bodies and international organizations is greater than that of individuals in the development of international cultural relations. The international cultural relations of the Republic of Azerbaijan are carried out by the relevant departments of the Presidential Office, embassies and consulates, the Ministry of Culture of the Republic of Azerbaijan, the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan, and the State Committee on Work with Diaspora. Cooperation with international organizations is manifested in cultural relations with UNESCO, ICESCO, TURKSOY, CIS Council for Cultural Cooperation, GUAM and other institutions. In the process of cooperation with international organizations, Islamic World Educational, Scientific and Cultural Organization - ICESKO attracts special attention.



**Keywords:** *ICESKO, TURKSOY, goodwill ambassador, culture, worldheritage, international humanitarian forum, Year of Shusha.*



**РЕЗЮМЕ**

В системе организации международных культурных связей Азербайджанской Республики, помимо государственных и правительственных учреждений, большое место занимают международные организации, общественные учреждения, а также личная деятельность отдельных людей. Большое значение в организации международных культурных связей имеет деятельность отдельных людей. Исторически в процессе развития международных культурных связей главным направлением выступала деятельность отдельных людей. В современное время роль государственных и правительственных органов и международных организаций в развитии международных культурных связей превышает роль отдельных лиц. Международные культурные связи Азербайджанской Республики осуществляют соответствующие подразделения Аппарата Президента, посольства и консульства, Министерство культуры Азербайджанской Республики, Министерство иностранных дел Азербайджанской Республики, а также Государственный комитет по работе с диаспорой Азербайджана. Сотрудничество с международными организациями проявляется в культурных связях с ЮНЕСКО, ИСЕСКО, ТУРКСОЙ, Советом по культурному сотрудничеству СНГ, ГУАМ и другими институтами. В процессе сотрудничества с международными организациями особое внимание привлекает Всемирная исламская организация образования, науки и культуры – ICESKO.



**Ключевые слова:** *ИСЕСКО, ТЮРКСОЙ, посол доброй воли, культура, всемирное наследие, международный гуманитарный форум, Год Шуши.*



**XÜLASƏ**

Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrinin təşkili sistemində dövlət və hökumət qurumlarından başqa, beynəlxalq təşkilatlar, ictimai-sosial institutlar, ayrı-ayrı insanların şəxsi fəaliyyətinin böyük yeri var. Beynəlxalq mədəni əlaqələrin təşkilində ayrı-ayrı insanların fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Tarixən beynəlxalq mədəni əlaqələrin inkişaf prosesində ayrı-ayrı insanların fəaliyyəti əsas istiqamət kimi təzahür etmişdir. Müasir dövrdə beynəlxalq mədəni əlaqələrin inkişafında ayrı-ayrı şəxslərin fəaliyyətindən daha çox dövlət və hökumət orqanları və beynəlxalq təşkilatların rolu daha böyükdür. Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələri dövlət və hökumət xəttilə Prezident Aparatının müvafiq şöbələri, səfirlik və konsulluqlar, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Xaricdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilməkdədir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq YUNESKO, İSESKO, Türksoy, MDB-nin Mədəni Əməkdaşlıq Şurası, GUAM və digər qurumlarla mədəni əlaqələrdə təzahürünü tapmaqdadır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq prosesində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İSESKO xüsusi diqqət cəlb etməkdədir.



**Açar sözlər:** *İSESKO, TÜRKSOY, xoşməramlı səfir, mədəniyyət, dünya irsi, beynəlxalq humanitar forum, Şuşa ili.*

UOT 327:312
DOI:10.30546/3006-0346.2024.4.82.46

# TÜRKİYƏNİN SURİYA SİYASƏTİNDƏ MİQRANT PROBLEMİ

**RƏŞAD ALIYEV**
*Bakı Avrasiya Universitetinin doktorantı*
*E-mail:alievr@yahoo.com*

## Giriş

Türkiyənin Suriya böhranı istiqamətində yürütdüyü siyasətinin ən mühüm fazalarından birini Suriyalı miqrantlar problemi təşkil edir. Suriya böhranında Türkiyənin regional xarici siyasət atributlarını narahat edən ən mühüm amillərdən biri də, Suriyada münaqişələrin başlanmasından dərhal sonra yaranan yerli sakinlərin qonşu ölkəyə miqrasiyası problemi olmuşdur. Münaqişənin ilk günlərindən Türkiyə Suriyada böhranın başlamasının nəticələri ilə üzləşdi - qaçqın axını Türkiyəyə çatdı. Məhz bu amil Ankaranın B.Əsədin böhranın həlli üçün siyasi tədbirlər görməsinə çağırışlarında əsas oldu. Lakin böhran davam edərkən Türkiyə hakimiyyəti qaçqınların qəbulu üçün müvafiq proqram hazırlamağa və onların ölkədə yaşaması üçün lazımi şərait yaratmağa məcbur oldu. Eyni zamanda, hakimiyyət suriyalılara qarşı müsbət münasibət nümayiş etdirərək onları "qonaq", "qardaş" adlandırdı, Əsəd rejimindən qaçanların öz razılıqları olmadan vətənə qaytarılmayacağını açıq şəkildə bəyan etdi. Qaçqınlara dövlət təhlükəsizliyi məsələləri kontekstində baxılmadı, əksinə, onların Türkiyədə qalmaları üçün əsas şəraitin yaradılması diqqət mərkəzində idi [ 1, s. 131].

## Suriya böhranında miqrant probleminin mahiyyəti

Suriyalı qaçqınlar problemi Suriya böhranının Türkiyə üçün ən ağır nəticələrindən birinə çevrildi. 2014-cü ilin noyabr ayının sonunda onların sayı, prezident Ərdoğanın verdiyi məlumata görə, 1 milyon 600 min nəfər təşkil etmişdi və onların yerləşdirilməsi ilə bağlı Türkiyə büdcəsinin xərcləri 5 milyard dollara çatdı ki, bunun da yalnız 200 milyon dolları xaricdən yardım olmuşdu. BMT-nin suriyalı qaçqınlara ərzaq yardımı proqramı, ianə öhdəliklərinin yerinə yetirilməməsi bəhanəsi ilə dondurulmuşdu [5, s. 182].

Türkiyə rəhbərliyinin Suriya ilə bağlı yanlış siyasətinin ciddi nəticələrindən birinə çevrilən qaçqın problemi beynəlxalq rezonans doğurmuşdu. 2014-cü ilin noyabr ayının sonunda "Fridrix Nyuman" Fondunun və Avropa Liberal Forumunun təşkilatçılığı ilə İstanbulda "Qaçqın böhranı" adlı "dəyirmi masa" keçirilmiş, türkiyəli və xarici ekspertlərin iştirakı ilə bu problemin müxtəlif aspektləri müzakirə edilmişdir. Bu görüşdə əsas çıxış Hacətəpə Universitetinin (Türkiyə) professoru Murat Ərdoğanın əhatəli sorğunun məlumatlarına əsaslanan hesabatı olmuşdu. Bu məlumatlara görə, qaçqınların yalnız 13%-i düşərgələrdə yaşamış, əksəriyyəti isə 72 vilayət üzrə ölkə daxilində səpələnmişdir. İstanbulda onların sayı 330 min nəfəri keçmişdir. Qaçqınların gəlişi, ilk növbədə, uşaqların yerləşdirilməsi və təhsili ilə bağlı ciddi sosial-iqtisadi problemlər yaradırdı (qaçqınların 53%-i 18 yaşdan kiçikdir).

M.Ərdoğanın sözlərinə görə, Suriyada müharibə başa çatdıqdan sonra qaçqınların əhəmiyyətli hissəsi Türkiyədə qalmağa üstünlük verəcək və bu, Suriyanın strukturunda ciddi dəyişikliklərə səbəb olacaq. Türkiyə əhalisi buna görə də təcili olaraq "inteqrasiya strategiyası"nı müəyyənləşdirməlidir. Türkiyə-Amerika münasibətlərini Türkiyə ilə Suriyada Əsəd rejimi arasında yuxarıda qeyd olunan qarşıdurma fonunda nəzərə alsaq, ABŞ-nin "Türkiyəni yarı yolda tərk etdiyi" ifadəsi ilə razılaşmamaq çətindir. Həqiqətən də "Ərəb baharı" hadisələri Suriyaya keçərkən, ABŞ Türkiyəni Əsədlə əlaqələri kəsməyə və Suriya müxalifətinə dəstək verməyə dəvət etmişdi. Amma əvvəlcə Türkiyədə Əsədə şans verilməli olduğu fikri hakim idi və onu islahatlar aparmağa razı salmağa çalışırdılar. Amma təxminən 8 aya yaxın davam edən bu səylər heç bir nəticə verməyincə Türkiyə Əsəd rejimi ilə əlaqələri kəsərək müxalifəti dəstəkləməyə başladı. Lakin Obama administrasiyası Əsədi devirmək üçün heç bir real addım atmadan mövqeyini dəyişdi. Başqa sözlə, ekspertlərin fikrincə, ABŞ əvvəlcə Türkiyəni onun tutduğu mövqeyə doğru sürüklədi, yəni, Əsədin getməsinin zəruriliyi tezisini müdafiə etdi, sonra isə onu tək buraxdı.

Belə görünür ki, böhranın ilkin mərhələsində Türkiyə hakimiyyət orqanları gələcək qaçqın axınının miqyasını tam qiymətləndirə bilməmişdilər. Bunu 2012-ci ildə Türkiyə rəhbərliyinin Türkiyənin ümumilikdə 100 mindən çox suriyalı qaçqını qəbul edə bilməsi ilə bağlı bəyanatları sübut edir.

Halbuki 2019-cu ildə Suriyadan olan 3,6 milyon

qaçqın Türkiyədə artıq qeydə alınmışdı. Üstəlik, onlar nəinki sərhədyanı vilayətlərdə cəmləşmişdilər, hətta bütün ölkə ərazisində yaşayırdılar [ 8]. Daxili siyasi baxımdan qaçqınlar məsələsi yerli əhalinin narazılığına səbəb olurdu. Narazılıq dalğası xüsusilə R.T.Ərdoğanın suriyalı qaçqınlara vətəndaşlıq verilməsi təklifindən sonra gücləndi. Bu qərara Türkiyə müxalifəti etiraz etdi və Ərdoğanın seçkilər zamanı ona bir neçə milyon səs əlavə edəcək öz dəstək bazasını genişləndirəcəyindən qorxdu [ 9].

Bu gün Türkiyə qəbul edilən qaçqınların sayına görə dünyanın ən böyük ölkəsinə çevrilmişdir, onlar üçün ölkə ərazisində 25 xüsusi düşərgə yaradılmışdır [11]. Qaçqınlar Türkiyə əhalisinin 3%-dən azını təşkil etsələr də, bu İordaniya (8%) və Livan (21%) ilə müqayisədə xeyli azdır, lakin cənub-şərq vilayətlərində (Hatay, Kilis, Qaziantep, Şanlıurfa və Mardin) onların payı çox yüksəkdir.

Bu, potensial olaraq Suriya və İraqla həmsərhəd bölgələrdə sabitlik və təhlükəsizliyə təhlükə yaradır, daxili problemlərin mövcudluğunu, bu sahədə təcrübənin azlığını nəzərə alaraq Türkiyənin bu qədər sayda xarici vətəndaşı öz ərazisində qəbul etməyə nə dərəcədə hazır olduğunu düşünmək aktual görünür. Qaçqın axınının ölkənin miqrasiya siyasətinə təsiri də nəzərə alınmalıdır. İmmiqrantları qəbul edən ölkənin imkanları qiymətləndirilərkən, bir qayda olaraq, əcnəbi vətəndaşların öz ərazisinə daxil olması, qalma və statusunu tənzimləyən həm institusional, həm də hüquqi baza, habelə onların qəbul edən cəmiyyətə inteqrasiyası üçün həyata keçirilən tədbirlər kompleksi nəzərə alınır.

Türkiyədə məşğulluqda və qanuna riayət olunmada vətəndaş mənsubiyyəti ayrı-seçkilik faktoru kimi deyil, yalnız dil, irq, cins və din kimi nəzərə alınır. Sosial təminat, ev sahibliyi və səhiyyə xidməti ümumiyyətlə mümkün ayrı-seçkilik sahələri kimi nəzərə alınmayan sahələrdir. Rəsmi baxımdan mülki, cinayət və inzibati məhkəmələr bu cür bütün işlərə açıqdır. İndiyə qədər, prosessual olaraq, Türkiyə hüquqşünaslığı, əksər ölkələrdə artıq tərk edilmiş təcavüzün sübut yükünü iddiaçının çiyninə yükləyir. Eyni zamanda, ayrı-seçkiliyin potensial qurbanları öz hüquqlarını təkbaşına, qeyri-hökumət təşkilatlarının iştirakı olmadan, yəni ixtisaslaşmış strukturun köməyi olmadan bəyan etməlidirlər ki, bu da Aİ-nin mövqeyindən ümumiyyətlə qəbuledilməzdir, qaçqınlar tez-tez qeydiyyatı olmayan şəxslər üçün Türkiyə əmək bazarının bağlanması ilə üzləşirlər. Bu, bir qayda olaraq, onları az maaşlı işlərə getməyə məcbur edir. Bir vaxtlar hakim Ədalət və İnkişaf Partiyasının (AKP) rəhbərliyi hətta qanunvericiliyə düzəlişlərə baxılacağına dair vədlər də vermişdi, lakin bu, yalnız ən çox qaçqının olduğu vilayətlərə, ilk növbədə ölkənin cənub-şərqinə şamil edildi. Məsələn, Kilisdə qaçqınlar əhalinin 59 faizini, Qaziantepdə 10,5 faizini, Şanlıurfada 10 faizini, Hatayda 9 faizini, Mardində isə 6 faizini təşkil edir. Bununla belə, Türkiyənin cənub-şərqində işsizlik nisbəti 14,5%-ə çataraq ölkədə ən yüksək göstəricidir və buna görə də qaçqınlar üçün məhdud iş icazəsi belə yerli əhali arasında mənfi rəylərə səbəb ola bilər. Beləliklə, Türkiyə miqrant uşaqların məktəblərə girişini məhdudlaşdırır və çətin ki, hər hansı məqsədyönlü dəstək və mədəniyyətlərarası qarşılıqlı əlaqə təmin edilir.

Hətta qanuni miqrantların və qaçqınların uşaqları da həmişə təhsil hüquqlarından istifadə edə bilmirlər. Türkiyədə aztəminatlı ailələrə dəstək üçün mövcud proqramlar, prinsipcə, bütün sakinlərə şamil edilir, lakin mühacirlər türk dilini zəif bildikləri üçün onlardan nadir hallarda yararlanırlar. Eyni zamanda, Təhsil Nazirliyindən bu sahədə dəyişikliklərlə bağlı milli siyasət yoxdur. Belə ki, qaçqın uşaqlara yalnız bəzi vilayətlərdə xüsusi inzibati qərar nəticəsində ibtidai məktəbə getmək şansı verilə bilər. Bununla belə, miqrantların məktəbə başlamazdan əvvəl öyrənmə və dil bacarıqlarının qiymətləndirilməsi üçün standart meyarlar mövcud deyil və məktəblər miqrant uşaqların xüsusi ehtiyaclarına uyğun olaraq ünvanlı maliyyə və peşəkar dəstək almırlar. Bundan əlavə, mühacir icmalarının özləri dövlət tərəfindən uşaqlarına öz milli dillərini və mədəniyyətlərini öyrətmək üçün səy göstərmirlər, lakin bu vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş bir sıra tədbirlər son vaxtlar, qaçqınların ən böyük payına sahib olan, beş cənub-şərq əyalətində həyata keçirilir. Yerli rəsmilər əmək bazarına çıxışı yaxşılaşdırmaq səyləri ilə yanaşı, qaçqınları uzun müddət qalmağa hazırlayır və bir çox cənub-şərq əyalətlərində suriyalı qaçqınlar üçün məktəblər açır. Bundan əlavə, Qaziantep Universitetinin Türk və Xarici Dillər Mərkəzi on iki qaçqın düşərgəsində türk dili kursları təşkil edir. Nəhayət, İstanbulda qaçqınlar üçün yeddi məktəb açılmışdır və 2013-cü ilin noyabrında İzmirdə də analoji qərar qəbul edilmişdir. Bundan əlavə, hökumət yalnız türk dilini bildiyini sübut etməli olan 600 suriyalı tələbəyə təqaüd vermək qərarına gəldi [5, s.184].

**Aİ ilə Türkiyə arasında Suriya miqrantları problemi**

Türkiyə, həmçinin, Avropa İttifaqı (Aİ) ilə münasibətlərdə qaçqın məsələsindən fəal istifadə etdi. Türkiyə İttifaqa təzyiq vasitəsi kimi suriyalıların karvanlarını oraya göndərməklə hədələyirdi [10]. 2016-cı ildə Türkiyə Aİ ilə qaçqınlar haqqında saziş imzaladı və bu müqaviləyə əsasən, maliyyə yardımına cavab olaraq Ankara qaçqınlar üçün Avropa ilə sərhədləri bağlamalı və geri götürməli idi. Aİ razılaşmadan və qaçqın axınının əhəmiyyətli dərəcədə azalmasından məmnun qaldı.

Bununla belə, Türkiyə rəhbərliyi Avropanın bu qədər qaçqını saxlamaq yükünü Türkiyə ilə bölüşməməsindən narazılığını bildirdi. Tez-tez belə bir fikir səsləndirilirdi ki, Aİ maliyyə öhdəliklərini yerinə yetirmir, vəd etdiyi pulu Ankaraya köçürmür. 2020-ci ildə Türkiyə sərhədlərinin açıldığını və qaçqın axınının Avropaya istiqamətini tamamilə açıqladı. Beləliklə, Ankara danışıqlardakı mövqeyini yaxşılaşdırmaq üçün [2, s.57] və tərəfdaşların diqqətini Türkiyə silahlı qüvvələri ilə Suriya hökumət qüvvələri arasında toqquşmaların baş verdiyi "Bahar Qalxanı" əməliyyatından yayındırmaq üçün Brüsselə və Avropa dövlətlərinə təzyiq göstərdi. 2022-ci ildə Türkiyə ilə Yunanıstan arasında artan gərginlikdən sonra Ankara 100 min qaçqından ibarət "İşıq konvoyu"nun Yunanıstan sərhədini keçərək Avropaya yollanacağını açıqladı [6]. Beləliklə, qaçqınlar avropalı tərəfdaşları qorxutmaq üçün təsirli bir vasitəyə çevrildilər.

Suriyalı qaçqınlarla bağlı məsələ Avropada qaçqın böhranı adlanandan bəri dəfələrlə mübahisələrə səbəb olmuşdur. Birləşmiş Ştatlar və bir çox Avropa ölkələri immiqrasiyaya qarşı milli reaksiyaya əhəmiyyət versə də, Türkiyə hökuməti fərqli yanaşmanı təşviq etməyə çalışmışdır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyadan qaçan milyonlarla qaçqının üzünə ölkəsinin sərhədlərini açıb, həmvətənlərini "Ələvi şiə zülmündən" qaçıb Türkiyəyə sığınanlara "mərhəmət" göstərməyə çağırmışdı.

Bununla belə, suriyalı qaçqınlar "müvəqqəti qonaq" sayıldıqları Türkiyə cəmiyyətinə inteqrasiya edə bilməmişlər. 1961-ci ildən, Qaçqınların Statusu ilə bağlı Cenevrə Konvensiyasını qəbul etdiyi, lakin Türkiyənin qonşu olduğu coğrafi bölgənin qeyri-sabitliyi səbəbindən yalnız Avropadan gələn qaçqınları qəbul edəcəyini bildirdiyi bir anomaliya var. Beləliklə, qeyri-Avropalı sığınacaq axtaran şəxslərə yalnız müvəqqəti sığınacaq verilir. Bununla belə, türk politoloqu Umut Korkut iddia edir ki, Türkiyə hökuməti suriyalı qaçqınlara digər millətlərdən olan qaçqınlara nisbətən üstünlüklər vermək üçün müvəqqəti müdafiə prinsipindən istifadə edibdir, çünki birincilər "hakimiyyətdə olan İslamçı Ədalət və İnkişaf Partiyası üçün dini, etnik və siyasi baxımdan əlverişlidir. Nəticədə, bir tərəfdən Türkiyə bütün suriyalılar üçün açıq sərhəd siyasətini qəbul etsə də, digər tərəfdən bu siyasət daimi yaşayış və vətəndaşlıq hüququnu istisna edir [3].

Türkiyə iqtisadiyyatı tənəzzül, yüksək inflyasiya və lirənin devalvasiyası kimi problemlərlə getdikcə daha çox üzləşdikcə, qaçqınlara qarşı kin-küdurət gücləndi, bu da millətçi reaksiyaya səbəb oldu və hökuməti daxili siyasətinə yenidən baxmağa məcbur etdi. Rəy sorğuları AKP-nin 2019-cu il yerli seçkilərdə məğlubiyyətinə səbəb olan açıq sərhəd siyasətindən yaranan anti-Suriya əhvali-ruhiyyəsinin və narahatlığın artdığını göstərir. O vaxtdan bəri sosial mediada nifrət nitqi və qaçqın tərəfdarları ilə millətçi qruplar arasında qarşıdurmalar eksponent olaraq artmışdır. Bu anti-Suriya dalğasına cavab olaraq Ərdoğan özünün "mərhəmətli islamçılığı"nı "Öncə Türkiyə" yanaşması ilə əvəz etdi. O, ictimai çıxışlarında qaçqınların Suriyaya qaytarılmasının zəruriliyini vurğulamağa, sənədsiz miqrantlara və qeyri-qanuni qaçqınlara qarşı sərt tədbirlər görməyə və onların köçürülməsi planlarını ictimailəşdirməyə başladı. Bu tədbirlər ölkənin qaçqın problemini effektiv həll edə bilməsə də, qaçqınlara qarşı incikliyin artmaqda davam etdiyi bir şəraitdə inteqrasiyanın təşviqi və əlavə iqtisadi və siyasi resursların ayrılması siyasi baxımdan Ərdoğan üçün çox risklidir.

AKP rəhbərliyinin qaçqınlara kömək etmək səyləri, xüsusən də bir çox Aİ hökumətlərinin qaçqınları qəbul etməkdən imtina etməsi nəticəsində yaranan "Qala Avropa" imici ilə müqayisədə beynəlxalq səviyyədə tanınmasına və "yumşaq güc"ün artmasına səbəb olmuşdur. Bununla belə, 2016-cı ildən etibarən beynəlxalq siyasətdə, xüsusən də Aİ ilə bağlı "qaçqın kartı"nın oynanması tendensiyası artmaqda davam edirdi. Qaçqın dalğaları Aİ-də iğtişaşlara səbəb olduqdan və bir çox Avropa ölkələrində artan populizmdə günahlandırıldıqdan sonra, Ankara və Brüssel 2015-ci ilin sonunda miqrasiya axınlarının tənzimlənməsi və qeyri-qanuni miqrasiyanın azaldılması üçün birgə fəaliyyət planı barədə razılığa gəldilər. Bunun müqabilində Aİ Türkiyənin

İttifaqa daxil olmasına yenidən baxmağı öhdəyə götürdü. Aİ, 2016-cı ilin oktyabr ayına qədər vizaların ləğvinə yönəlmiş vizasız dialoqu davam etdirməyi öhdəsinə götürməklə və Türkiyənin vəziyyətini yaxşılaşdırmaq üçün Türkiyədəki suriyalılara ilkin 3 milyard avro ayırmağı öhdəsinə götürdü). Əslində, Aİ və Türkiyə arasında miqrasiya sazişi Aİ-nin miqrasiya və sığınacaq strategiyasına rəhbərlik etməyə davam edən qaçqın böhranı qarşısında "xariciləşdirmə strategiyasını" möhkəmləndirdi. Bununla belə, Brüsselə artan gərginlik, xüsusən də Türkiyənin maliyyələşdirmə və üzvlük prosesi ilə bağlı - "pozulmuş AB vədləri" adlandırılan sözlərə görə, Türkiyə daha sərt yanaşmaya başladı, hətta "qaçqınları silaha çevirməyə" qədər gedib çıxardı. 2016-cı ildə Ərdoğan AB yardımının məbləği ilə bağlı mübahisədə "Avropanı miqrantlarla doldurmaqla" hədələmişdi. 2019-cu ildə Türkiyənin Suriya kürd silahlılarına qarşı hərbi əməliyyatı ilə bağlı artan beynəlxalq tənqidlərin ortasında Ərdoğan bəyan etdi: "Hey, Avropa Birliyi! Özünüzü tutun. Əgər siz bizim əməliyyatımızı işğal elan etməyə çalışsanız, biz ən sadə şeyi edəcəyik: qapıları açıb sizə 3,6 milyon qaçqını göndərəcəyik" [3].

Aİ ilə Türkiyə arasında daha da çətin münasibətlər fonunda bu tendensiyanın hələ də davam edəcəyi ehtimal edilir. Türkiyənin Aİ-yə qəbul prosesini çoxları ümidsizcə ölü kimi qiymətləndirir. Bu arada, Aİ-nin maliyyə yardımının köçürülməsi başa çatdıqdan sonra Aİ ilə Türkiyə arasında razılaşmanın müddəti bir-iki ilə başa çatır. Bununla belə, sövdələşmənin yenidən müzakirəsi üzvlük danışıqlarının bərpasını və ya heç olmasa gömrük ittifaqının yenilənməsini tələb edəcəkdir.

## Nəticə

Minlərlə suriyalı – miqrant və qaçqın – Türkiyədə müxtəlif boşluqları dolduran və yeni ixrac bazarları inkişaf etdirən müəssisələr açmışdır. Bununla belə, onların iqtisadi və siyasi problemləri getdikcə artır. Çoxları Türkiyənin Suriyada əməliyyat keçirəcəyi təqdirdə deportasiya olunacağından ehtiyatlanır [7].

Beləliklə, hazırda suriyalı qaçqınların Türkiyənin ümumi əhalisinin tərkibindəki payı 1%-dən bir qədər çox olsa da, Suriya ilə sərhədə bitişik ərazilərdə bu rəqəm 10%-dir [4]. Qaçqınlar arasında əksəriyyətin sünnilər olması vəziyyəti daha da ağırlaşdırır: Hatay vilayətində ən böyük azlıqlardan biri Ələvilərdir ki, onların arasında Əsəd rejiminə dəstək olduqca yayğındır. Qaziantep və Kilis vilayətlərində çox böyük bir kürd icması, Mardin vilayətində isə Suriya Pravoslav Kilsəsinin üzvləri olan asurilər icması vardır. Sünnilərin genişmiqyaslı axını bu kövrək millətlərarası tarazlığı pozur və bu, münaqişələrə səbəb ola bilər. Ümumiyyətlə, potensial problemlərin əsas mənbəyi Türkiyə cəmiyyətinin əhəmiyyətli hissəsinin suriyalı qaçqınların qəbul etdikləri cəmiyyətə inteqrasiyası zərurəti ilə razılaşmamasıdır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Аватков В. А., Крылов Д. С., Сыртмач М. М., Якимова Д. А. Сирийский кризис беженцев: проблемы вынужденного перемещения на Ближнем Востоке // Свободная мысль. 2018. № 6 (1672). с. 129–140.*

*2. Аватков В. А., Якимова Д. А. Отношения Германии и Турции на фоне миграционного кризиса // Современная Европа. 2020. № 3. с. 57-63.*

*3. Амбросетти Э. Т. Сирийские беженцы в Турции: эволюция внутреннего и международного нарратива. // https:/ /ru. valdaiclub.com/a/highlights/siriyskie-bezhentsy-v-turtsii/.*

*4. Каково это, быть беженцем? Опыт сирийских переселенцев в Турции. // https://sputnikipogrom.com/economics/16004/pogrom-economics-30*

*5. Кривов С. В., Старкин С. В. Миграционная политика Турции в контексте проблемы беженцев: история и современность. «Эхо веков», № 4, 2020, с. 180-188*

*6. «Конвой света» из 100 тысяч мигрантов собирается штурмовать границу Греции // Федеральное Агентство Новостей (ФАН). 24.09.2022. // https://riafan.ru/23660791-_konvoi_sveta_iz_100_tisyach_migrantov_ sobiraetsya _ shturmovat_ granitsu_gretsii*

*7. Сирийцы адаптируются к неспокойной турецкой среде. //https://dzen.ru/a/Ys02AkwDs2-ttabF*

*8. Makovsky A. Turkey's Refugee Dilemma: Tiptoeing Toward Integration. Center for American Progress Report. 13 March 2019. – Washington D. C.: Center for American Progress, 2019. // https://www.americanprogress. Org /article/turkeys-refugee-dilemma*

*9. Özer V. Erdoğan details dual citizenship for Syrians // Hürriyet Daıly News. 11.06.2016. URL: https://www.hurriyetdailynews.com/erdogan-deta-*

*ils-dual-citizenship-for-syrians-101428*

*10. Turkey's Erdogan threatens to send Syrian refugees to Europe // Reuters. 10.10.2019. URL: https://www.reuters.com/article/us-syria-security-turkey-europe/turkeys-erdogan-threatens-to-sendsyrian-refugees-to-europe-idUSKBN1WP1ED*

*11. UN High Commissioner for Refugees. Written text of speech to the UN Security Council, 26 February 2015. Online. Available at: http:/ / www.unhcr.org/print/54ef6679l*

**Проблема мигрантов в сирийской политике Турции**

**РЕЗЮМЕ**

Гражданская война в Сирии заставила большое количество беженцев отправиться в соседние страны: Иорданию, Ирак, Ливан и Турцию. В настоящее время, по данным ООН, их число достигает почти 6 миллионов человек. Учитывая продолжающуюся нестабильность, очевидно, что большинство из них останутся здесь надолго, что делает актуальным определение готовности принимающих стран принять такое большое количество мигрантов. Большинство из них обосновались в Турции, в приграничных районах юго-востока страны, в этнически и религиозно разнообразных районах. Это стало проблемой для поддержания стабильности и устойчивого развития всего турецкого общества. Поэтому правительство Турции активно проводит внешнюю политику с европейскими и другими странами мира относительно проблем сирийских беженцев.

**Ключевые слова:** *сирийский кризис, беженцы, миграционная проблема, Евросоюз, Турция.*

**The problem of migrants in the Syrian policy of Turkey**

**SUMMARY**

The civil war in Syria caused a large number of refugees to go to neighboring countries: Jordan, Iraq, Lebanon and Turkey. Currently, according to the UN, their number reaches almost 6 million people. Given the ongoing instability, it is clear that most of them will stay here for a long time, which makes it urgent to determine the readiness of host countries to accommodate such a large number of migrants. Most of them settled in Turkey, in the border regions in the southeast of the country, in ethnically and religiously diverse areas. This has become a problem to maintain the stability and sustainable development of the entire Turkish society. Therefore, the Turkish government is actively pursuing a foreign policy with European and other world countries regarding the problems of Syrian refugees.

**Keywords:** *Syrian crisis, refugees, migration problem, European Union, Turkey.*

**XÜLASƏ**

Suriyadakı vətəndaş müharibəsi çoxlu sayda qaçqının qonşu ölkələrə: İordaniya, İraq, Livan və Türkiyəyə üz tutmasına səbəb oldu. Hazırda onların sayı, BMT-nin məlumatına görə, demək olar ki, 6 milyon nəfərə çatır. Davam edən qeyri-sabit vəziyyəti nəzərə alaraq, onların əksəriyyətinin burada uzun müddət qalacağı məlum oldu ki, bu da ev sahibi ölkələrin bu qədər sayda miqrantı yerləşdirməyə hazır olma dərəcəsini müəyyən etməyi aktual edir. Onların ən çoxu Türkiyədə, ölkənin cənub-şərqindəki sərhədyanı bölgələrində, etnik və dini cəhətdən müxtəlif olan ərazilərdə məskunlaşmışlar. Bu isə bütün türk cəmiyyətinin sabitliyini və davamlı inkişafını qorumaq üçün problemə çevrildi. Ona görə də Türkiyə hökuməti Suriya qaçqınlarının problemləri ilə bağlı Avropa və digər dünya dövlətləri ilə fəal xarici siyasət həyata keçirirlər.

**Açar sözlər:** *Suriya böhranı, qaçqınlar, miqrasiya problemi, Avropa İttifaqı, Türkiyə.*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.4.82.48

# BEYNƏLXALQ İNTEQRASİYA PROSESİNİN AZƏRBAYCANA TƏSİRİ

**İLAHƏ ƏLİZADƏ**
*Bakı Dövlət Universiteti, doktorant*
*E-mail: ibrahimova.ilaha@gmail.com*

## 1. İnteqrasiya anlayışı və nəzəriyyələri

İnteqrasiya, tarixin əvvəlindən bəri mövcud olan, lakin qloballaşma prosesi ilə son illərdə daha da güclənən və beynəlxalq münasibətlərin vacib gündəliyinə çevirilən bir prosesdir. Çünki inteqrasiya milli dövlətlərin sərhədlərini aşan, milli iqtisadiyyatları, mədəniyyətləri, texnologiyaları və idarəetmə sistemlərini birləşdirən və qarşılıqlı asılılıq yaratmaqdadır.

Azərbaycan dilinə inteqrasiya olaraq tərcümə edilən latınca "integutio" kəliməsi fərqli hissələrin xüsusiyyətlərini itirmədən yeni bir bütünlük meydana gətirməsi deməkdir. İnteqrasiya, ümumi məqsədlərə daha asanlıqla çatmaq üçün birdən çox oxşar funksiya və strukturu birləşdirən, bir bütün olaraq hərəkət etmək qabiliyyəti və potensialı olan dövlətlərin, insan cəmiyyətlərinin, ictimai birliklərin və s. birlikdə davam etdirdikləri həmrəylik prosesidir. İctimai, siyasi, iqtisadi, elmi-texniki və sair subyektlərini ehtiva edən inteqrasiyanı beynəlxalq münasibətlərdə vahidlərin uyğunlaşdırılması və bütünləşdirilməsi, ortaq siyasi hakimiyyət və idarəetmə çərçivəsində ümumi siyasətlərin inkişaf etdirilərək tətbiq edilməsi kimi təsvir etmək olar.

İnteqrasiya anlayışının ilk olaraq nə vaxt ortaya çıxdığı ilə bağlı müxtəlif fikirlər ortaya atılmışdır. Bu mövzuda fərqli fərziyyələr olsa da bunları əsasən üç ana qrupda toplamaq mümkündür: Birinci fərziyyəyə görə, inteqrasiya tarixin başlangıcından bəri olan, lakin son illərdə daha da sürətlənən bir prosesdir. İkinci fərziyyəyə görə, qloballaşma, modernləşmə və kapitalizmin inkişafının zamanı ilə eyni vaxta rast gəlsə də son dövrdə daha da artış göstərmişdir və nəhayət, üçüncü fərziyyəyə görə, müdaxiləçi kapitalist nizamının ləğvi ilə ortaya çıxmışdır.

Dünyada ilk inteqrasiya hərəkəti 1834-cü ildə Alman dövlətləri arasındakı Zollverein gömrük ittifaqı ilə başlamışdır [1, s.12]. Birinci Dünya müharibəsindən sonra 1920-ci ildə qurulan Millətlər Liqası ilk genişmiqyaslı, ictimai-iqtisadi beynəlxalq təşkilatdır. Ölkələr arasında yarana biləcək problemləri sülh yolu ilə həll etməyi hədəfləyən Beynəlxalq Daimi Ədalət Məhkəməsi (PCIJ) və bundan sonra qurulan Beynəlxalq Əmək Təşkilatı (ILO) bugünkü Birləşmiş Millətlər Təşkilatının əsasını təşkil edir.

1929-cu ildə dünya iqtisadi böhranının başlamasından sonra istehsalın sürətlə aşağı düşməsi, işsizliyin artması və ölkələrin milli gəlir və məşğulluq səviyyələrində enişlərin qarşısını almaq üçün müdaxiləçi dövlət siyasəti həyata keçirildi. Bu çərçivədə ölkələr devalvasiya, yüksək tariflər, idxala kəmiyyət məhdudiyyəti, valyuta nəzarəti və ixrac subsidiyaları kimi idxalı məhdudlaşdıran və ixracı artıran siyasət tətbiq etməyə başladılar, lakin bütün bunlar ölkələr arasında ticarət müharibələrinə səbəb oldu və böhranın yayılmasında mühüm rol oynadı.

İkinci Dünya müharibəsinin sonunda, liberal beynəlxalq iqtisadi nizam qurmaq istəyən ölkələr 1944-cü ildə Bretton Vuds konfransında Beynəlxalq Valyuta Fondu (IMF) və Dünya Bankı (WB) qurulduqdan sonra 1945-ci ildə ölkələr arasındakı qarşıdurmanı aradan qaldırmaq və təhlükə yarada biləcək yeni bir müharibənin qarşısını almaq məqsədi ilə Birləşmiş Millətlər Təşkilatı təsis edildi. 1947-ci ildə isə dünya ticarətinin liberallaşdırılmasını və genişlənməsini təmin etmək üçün bir sıra ölkələr Beynəlxalq Ticarət Təşkilatı (ITO) yaratmaq qərarına gəldilər. Lakin ITO-nun yaradılması cəhdi nəticəsiz qalınca 30 oktyabr 1947-ci ildə qərb ölkələri Tariflər və Ticarət üzrə Baş Sazişi (GATT) imzaladılar.

1957-ci ildə Roma Müqaviləsi və altı ölkənin iştirakı ilə Avropa İqtisadi Birliyinin qurulması dünyanın bir çox bölgəsində regional iqtisadi inteqrasiya prosesini sürətləndirdi. İnteqrasiya hərəkətlərini daha sonra sərbəst ticarət zonasının təsis edilməsini nəzərdə tutan Latın Amerikasında Azad Ticarət Birliyi (LAFTA), Avropa Azad Ticarət Birliyi (EFTA), Şimali Atlantika Azad Ticarət Birliyi (NAFTA) kimi beynəlxalq iqtisadi inteqrasiya təşkilatları izlədi.

İnteqrasiya həm rəqabət, həm də ölkələr arasında əməkdaşlığa imkan yaradan kompleks strukturdur. Dövlətlər arasındakı inteqrasiyanın üç əsas prosesi var: iqtisadi, siyasi və mədəni inteqrasiya prosesləri. Bütün proseslərin ümumi məqsəd və vəzifələrini Karl Deutsch aşağıdakı kimi təsnif etmişdir [2, s.404]:

1) Sülhü qorumaq;
2) Daha çox məqsədyönlü imkanlara çatmaq;
3) Konkret tapşırıqları yerinə yetirmək;
4) Yeni bir imic və şəxsiyyət qazanmaq.

"İnteqrasiyanı dünyada baş verən digər dövlətlərarası sosial-iqdisadi və siyasi proseslərdən fərqlən-

dirən bir neçə mühüm faktör mövcuddur. Əvvəla, inteqrasiya qarşılıqlı iqdisadi asılılığın və əlaqələrin dövlətlər tərəfindən birgə idarəçiliyini, bütün regionun tələblərinə cavab verən vahid təsərrüfat sisteminin yaranmasını nəzərdə tutur; ikincisi, inteqrasiya nəticəsində bütün pul, xidmət, ticarət, mallar, istehsal münasibətləri və əmək resursları milli sədlərdən azad edilir; üçüncüsü, vahid regiondaxili bazar formalaşır və nəhayət, dördüncüsü, əməyin effektivliyi, əhalinin yaşayış şəraiti yüksəlir, istehsal münasibətləri və xidmət inkişaf edir" [3, s.166].

Bu gün böyük əhəmiyyət kəsb edən inteqrasiya prosesi inteqrasiya nəzəriyyələrinin əhəmiyyətini artırmışdır. İnteqrasiya anlayışı fərqli nəzəriyyə və yanaşmalar çərçivəsində araşdırılsa da, əsas diqqəti cəlb edən mövzu suverenlik məsələsidir. "Əslində beynəlxalq təşkilatlarda və ya çoxtərəfli iqtisadi əməkdaşlıq müqavilələrində (GATT və ÜTT) üzv ölkələr iqtisadi üstünlük əldə etmək üçün öz milli suverenliyini məhdudlaşdırırlar. Lakin, bununla belə, bu sövdələşmələrin həyata keçirilməsində, əsas olaraq üzv dövlətin öz razılığı ilə müəyyən məsələlərdə suverenlik hüququnu əməkdaşlıq kontekstində məhdudlaşdıracağı bir vəziyyət yaranır. Bir sözlə, ev sahibi olan ölkə digər səbəblərdən iqtisadi mənafelərini və ya milli maraqlarını qorumaq məqsədilə sövdələşməni həyata keçirməyə bilər. Beləliklə, zərər gördüyünü iddia edən ölkə qarşılıqlılıq və ya strateji milli maraqlar zəminində digər ölkəyə verdiyi güzəştdən imtina edər" [4, s.4-5].

Ölkələrin suverenliyi "əməkdaşlıq" ilə "inteqrasiya" anlayışı arasındakı fərqdə də özünü göstərir. Dövlətlərarası əməkdaşlıq dedikdə, milli dövlətlərin suverenliyi çərçivəsindəki əməkdaşlıq nəzərdə tutulur. Buna qarşı inteqrasiya milli dövlətlərin suverenliklərinin bir hissəsini inteqrasiya olan ölkələrə verilməsi nəzərdə tutulur [5, s.457-458]. Ancaq inteqrasiya ilə suverenliyin hansı dərəcədə hakimiyyətə veriləbiləcəyi və hansı hallarda dövlətlərin maraqları ilə üst-üstə düşdüyünə cavab axtarmaq üçün müxtəlif fikirlər fərqli nəzəriyyələr kontekstində izah edilmişdir. Federalizm, funksionalizm, neofunksionalizm, hökumətlərarası əməkdaşlıq (inter-governmentalism), konstruktivizm kimi nəzəriyyələrin hər biri inteqrasiya məsələsinə fərqli perspektivlər irəli sürür.

Federalizm nəzəriyyəsinə görə, suveren dövlətlərin öz maraqlarını anarxik bir quruluşa yönəltməsidirsə, sülh yalnız ən azı müəyyən dərəcədə dövlətlərin öz suverenliyini daha yüksək bir federal orqana təhvil verdiyi təqdirdə əldə edilə bilər. Funksionalizmə görə, cəmiyyətin rifahı və insan ehtiyaclarını qarşılamaq prioritet məsələlərdir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq yaxşılaşdırılsa, bu, bütün beynəlxalq sistemə yayılacaq və beləliklə, dövlətlərin milli suverenliyi üçün davamlı bir sülh əldə edilə bilər. Neo-funksionalizmə görə, dünyada müharibələrin əsas səbəbi siyasi və iqtisadi qeyri-sabitlikdir. İqtisadi və sosial rifah sülhün vacib şərtidir. Beynəlxalq ticarətin artması ilə beynəlxalq əməkdaşlıq güclənəcək, nəticədə beynəlxalq təşkilatlar ortaya çıxacaq və beləliklə, ortaq maraqlara əsaslanan təşkilatların inkişafı müharibə ehtimalını zəiflədəcəkdir. Klassik realizmin Avropa inteqrasiyasına uyğunlaşdırılmış forması olan hökumətlərarası əməkdaşlıq nəzəriyyəsinə görə, Avropaya inteqrasiya və millətlərin bütövlüyü və suverenliyinin qorunması iki fərqli hadisə deyil, lakin bir-birini tamamlayır və dövlətlərin ümumi problemləri həll etmək üçün bir-birlərinə ehtiyacı var. Konstruktivizm nəzəriyyəsinin əsasını insanların ortaq dəyərləri və dünyanın ictimai bir struktur olduğu, beynəlxalq siyasi quruluşlarının ictimai olduğu vurğulanır.

**2. İnteqrasiya formaları və zəruriyyəti**

İnteqrasiya formaları qarşıya qoyulmuş məqsədlərə, əməkdaşlığın intensivliyinə, asılılıq dərəcəsinə, mənfəətin bölüşdürülmə dərəcəsinə və əməkdaşlıq edən bölmələrin sosial və siyasi homogenliyinə görə fərqlənir. "Amerika iqtisadçısı C.Saksa görə, dünya siyasi sisteminin müasir dəyişiklikləri kontekstində ciddi inteqrasiyaya meyilli olan dövlətlər qarşısında bir sıra tələblər qoyulmaqdadır. Bunlar siyasi mülkiyyətin, azad beynəlxalq ticarətin, valyutanın sərbəst dövriyyəsinin, korporativ mülkiyyətin mövcudluqlarının təmin edilməsindən və xarici investisiyalar üçün münbit şəraitin yaradılmasından və beynəlxalq iqtisadi təşkilatlara üzv olmaqdan ibarətdir" [6, s.59].

Ölkələrin iqtisadi inteqrasiyada iştirakına imkan yaradan səbəblər inkişaf səviyyələrinə görə dəyişir. İnkişaf etməkdə olan ölkələr iqtisadi resurslarını birləşdirərək sənayeləşmə sürətini artırmağı hədəfləsələr də, inkişaf etmiş ölkələr inteqrasiya yolu ilə daxili bazarlarını genişləndirməyi hədəfləyirlər.

"Bu gün dünyada bir çox iqtisadi inteqrasiya hərəkətləri olsa da, inteqrasiya hərəkətləri üç əsas mərkəzdə toplanmışdır. Qərbi Avropadan başlayaraq bütün Avropanı əhatə edən Avropa İttifaqı (Aİ), ABŞ-nin üstünlük təşkil etdiyi Asiya-Sakit okeandan ABŞ-a və Çin və Rusiyaya qədər genişlənən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı təşkilatı (APEC) və Şimali Amerikanı əhatə edən Şimali Amerika Azad Ticarət Assosiasiyası (NAFTA)-dır.

Bunların ortaq nöqtəsi, inkişaf etmiş ölkələr arasında qurulan birliklər və ya inkişaf etmiş ölkələrin rəhbərlik etməsidir" [1, s.12].

İqtisadi inteqrasiyaya əsasən iki və ya daha çox ölkə arasındakı ticarətə maneə törədən müxtəlif məhdudiyyətlərin ləğvi kimi baxıla bilər. İqtisadi inteqrasiyanın müxtəlif formaları arasında güzəştli ticarət sazişləri, azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar, pul birliyi, daxili və xarici kapitalın qoyulmasını təşviq etmək, daha geniş bazarlara çıxış yolu ilə rəqabət qabiliyyətlərini artırmaq, maliyyə bazarlarının inteqrasiyası, xarici texnologiya və investisiyalara sabit çıxışı təmin etmək və milli iqtisadi müstəqilliyin tamamilə məhv olduğu tam iqtisadi inteqrasiyanı saymaq olar. Bu mənada iqtisadi inteqrasiya qloballaşmanın təkanverici qüvvələrindən biridir. Beləliklə, qloballaşma tendensiyası ilə birlikdə ölkələr bu tendensiyanın yaratdığı gərgin rəqabətdən qorunmaq və dünya ilə inteqrasiya prosesini sürətləndirmək üçün müxtəlif dövrlərdə iqtisadi və siyasi inteqrasiya prosesinə qoşulmaq məcburiyyətində qaldılar.

### 3. Azərbaycanın beynəlxalq inteqrasiya yolunda atdığı addımlar

"Bu gün dünya yeni "inteqrasiya dalğasını" yaşayır. XXI yüzilliyin əvvəli inteqrasiya fenomeninin mahiyyətinə, suveren dövlətlərin inkişafına onun təsirinin öyrənilməsinə son dərəcə artan ictimai və elmi maraqla səciyyələnir. Azərbaycanda da yaxın və uzaq əhatədə gedən sürətli inteqrasiya proseslərinin dərin təhlilinə, ölkəmizin milli təhlükəsizliyinə və perspektivlərinə, yeni geosiyasi reallıqda başlıca inkişaf vektorlarının seçiminə, Avropa və MDB ölkələri ilə dəyişən şəraitdə qarşılıqlı münasibətin və əməkdaşlığın optimal formatının müəyyənləşməsinə olan zərurət bu proseslərin elmi əsaslandırılmış konsepsiyasının olmasını tələb edir. "Böyük Avropa"nın 2001-ci ildən tərkib hissəsi olan Azərbaycanda inteqrasiyanın milli strategiyasını - demokratik və hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatının formalaşdırılması, ümumi şəkildə deyilsə, ölkəmizlə Avropa arasında ümumi dəyərlərin, təmas nöqtələrinin müəyyənləşdirilməsi təşkil edir. Buraya həmçinin Avropa və dünya ilə ümumi - iqtisadi, siyasi, elmi, informasiya, mədəniyyət, daxili və xarici təhlükəsizlik məkanlarının formalaşdırılması da bilavasitə daxildir" [7, s.9].

Müasir beynəlxalq inteqrasiya proseslərində iştirakın qlobal, regional və subregional təşkilat, qurum, struktur, layihə və s. iştirak etmə kimi müxtəlif istiqamətləri, vasitələri və formaları vardır. Məhz buna görə, Azərbaycan təkcə regionda deyil, eyni zamanda qlobal və subregional səviyyədə müxtəlif təşkilat və birliklər ilə inteqrasiyaya mühüm yer ayırır.

"Azərbaycan bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi və dünya inteqrasiya prosesinə sıx cəlb olunmasında beynəlxalq təşkilatların rolundan istifadə etmək məqsədi ilə qısa müddət ərzində Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Konfransı Təşkilatı (İKT), Türk Dövlətləri Birliyi, Müstəqil Dövlətlər Birliyi (MDB), Beynəlxalq Valyuta Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Bərpa və İnkişaf Bankı və İslam İnkişaf Bankının üzvü oldu, Parlamentlərarası İttifaq, Avropa Birliyi, Avropa Şurası, Avropa Parlamenti, NATO və b. beynəlxalq və regional qurumlarla qarşılıqlı faydalı əlaqələr yaratdı" [3, s.359].

Azərbaycan beynəlxalq birliyə inteqrasiya olmaq məqsədilə müstəqilliyin ilk illərində, yəni 1992-ci ildə qlobal təşkilat olan BMT-yə üzv olmuşdur. Azərbaycanın BMT-yə üzv olması BMT Təhlükəsizlik Şurasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələrini qəbul etməsinə imkan yaratmışdır. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir, işğalçı ölkənin qüvvələrinin zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılması, atəşkəsin əldə edilməsi və münaqişənin danışıqlar yolu ilə həll olunması tələb olunur. Bununla yanaşı, BMT Baş Assambleyası (BA) Azərbaycanda humanitar vəziyyətin ciddi şəkildə pisləşməsi, qaçqın və məcburi köçkünlərin sayının 1 milyonu keçməsi nəticəsində "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" Qətnamə qəbul etmişdir.

1992-ci ilin noyabr ayından etibarən BMT sistemi içində fəaliyyət göstərən Azərbaycan BMT-yə daxil olan qurumlar ilə əməkdaşlıq əlaqələrini davam etdirərək müxtəlif layhələr həyata keçirir və müxtəlif səviyyələrdə işgüzar münasibətlər yaradır: Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD), Beynəlxalq Əmək Təşkilatı (ILO), Beynəlxalq Valyuta Fondu (IMF), Beynəlxalq Miqrasiya Təşkilatı (IOM), Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsi (OCHA), Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı (UNESCO), Birləşmiş Millətlər Təşkilatının Uşaq

Fondu (UNICEF), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı (UNOHCHR), Dünya Bankı (WB), Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA), Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), Birləşmiş Millətlər Təşkilatının Qadınları (UNWOMEN), Birləşmiş Millətlər Təşkilatının İctimai İnformasiya Departamenti (UNDPI) və Dünya Səhiyyə Təşkilatı (WHO).

Azərbaycanın beynəlxalq sistemə inteqrasiya olmasında bir digər qlobal təşkilat olan İslam Konfransı Təşkilatı (İKT) ilə inkişaf etdirdiyi əlaqələr də mühüm yer tutur. 1991-ci ilin dekabr ayında "BMT-dən sonra ikinci böyük beynəlxalq təşkilat olan İKT-yə üzv seçilən Azərbaycan başda İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) və İKT-yə üzv dövlətlərin İqtisadi Əməkdaşlıq Daimi Komitəsi (İSEDAK) olmaq üzrə İKT-nin müxtəlif təşkilatları sıx əməkdaşlıq edir. İKT çərçivəsində əməkdaşlıq sahəsində Bakıda da bir neçə beynəlxalq tədbir keçirilmişdir" [8, s.92-95]. Məlum olduğu kimi, nüfuzlu siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi Azərbaycanın beynəlxalq inteqrasiya prosesində uğurla iştirak etməsindən xəbər verir. Belə ki, beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi dünyada tanındığını göstərir və daha çox tanınması və adından söz etdirməsinə də şərait yaradır.

Azərbaycanın xarici siyasətinin prioritet hədəflərindən birini regional bir təşkilat olan Avropa İttifaqı (Aİ) ilə siyasi, iqtisadi və humanitar sahələrdə tərəfdaşlığın inkişafı və gücləndirilməsi təşkil edir. Avropa məkanına daha sıx inteqrasiyanın zəruriliyi mövqeyindən çıxış edən Azərbaycan Aİ ilə çoxşaheli qarşılıqlı əlaqələr yaratmışdır. Aİ təcrübəsi böyük maraq kəsb edir və bu baxımdan Avropa standartlarının tətbiq edilməsi Azərbaycanın inkişafı istiqamətində bir çox məqsədlərə nail olmaq üçün əhəmiyyətlidir. Azərbaycanın Aİ ilə münasibətləri TACİS, TRACECA və s. kimi müxtəlif proqramlar çərçivəsində inkişaf etdirilir. 1996-cı ildə Azərbaycan ilə Aİ arasında Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hüquqi çərçivəsini təşkil edən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) imzalanmışdır. 2004-cü ildə Aİ-nin şərq istiqamətində genişləndirilməsilə Azərbaycan Cənubi Qafqaz ölkəsi olaraq, "Genişləndirilmiş Avropa" təşəbbüsü çərçivəsində Aİ-nin "Yeni qonşuluq siyasəti"nə daxil edilmişdir. Bu isə ölkəmizin Aİ ilə əməkdaşlığı daha da inkişaf etdirərək yeni keyfiyyət mərhələsinə qaldırması üçün zəmin yaradır. Bundan əlavə, Azərbaycan Aİ ilə Şərq Tərəfdaşlığı (ŞT) çərçivəsində də əməkdaşlıq edir. Çoxtərəfli ölçüdə isə ŞT-nın "Demokratiya, yaxşı idarəçilik və sabitlik" adlı birinci platforması çərçivəsində Azərbaycan ekspertləri məhkəmə sisteminin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə və digər tematik panellərdə fəal iştirak edir, həmçinin müxtəlif layihə və proqramlara qatılır.

Azərbaycan ilə Avropa qitəsinin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatı olan Avropa Şurası (AŞ) arasındaki əlaqələr 1992-ci ildə başlamışdır. 28 iyun 1996-cı il tarixdə Avropa Şurası Parlament Assambleyası (AŞPA) Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusu vermiş, ardından isə 17 yanvar 2001-ci ildə tamhüquqlu üzv olması barədə qərar qəbul etmişdir. Azərbaycan üzv olduğu Avropa Şurası ilə əməkdaşlıqda öz milli qanunvericiliyinin yüksək beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər görür. Belə ki, Azərbaycan milli qanunvericiliklərin demokratikləşdirilməsinə köməklik göstərən AŞ-nin Venesiya Komissiyası ilə sıx əlaqələr qurmuş və AŞ çərçivəsində qəbul edilmiş onlarca beynəlxalq müqavilə imzalamışdır.

Avropa qitəsinin bütün ölkələrini əhatə edən yeganə təşkilatı - ATƏT-ə 1992-ci ildə üzv olan Azərbaycan eyni ildə əvvəlki adıyla Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Helsinki Yekun Aktına, 1993-cü ildə Paris Xartiyasına və 1999-cu ildə isə Avropa Təhlükəsizliyi Xartiyasına qoşulmuşdur. Regional təhlükəsizliyin təmin edilməsində, Avropanın təhlükəsizlik sisteminə inteqrasiya olunmasında, beynəlxalq əməkdaşlığın inkişafında, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunda Qərbin sınaqdan keçmiş qabaqcıl təcrübəsindən bəhrələnərək, onun səmərəli surətdə tətbiq olunmasında ATƏT ilə əməkdaşlıq edən Azərbaycan özünün strateji inkişaf yolunu bu təşkilat ilə əlaqələrini daha da dərinləşdirməklə davam etdirir [3, s.373-380].

Azərbaycanın Avro-Atlantika məkanında təhlükəsizliyinin başlıca elementlərindən olan NATO ilə münasibətlərini 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla Avro-Atlantika Tərəfdaşlıq Şurasında öz yerini tutmuşdur. O dövrdən etibarən Azərbaycanın alyansla əməkdaşlığı uğurla inkişaf etməkdədir. Planlaşdırma və analiz prosesi və Fərdi Tərəfdaşlıq Proqramı çərçivəsində fəaliyyət, eləcə də Azərbaycan hərbçilərinin NATO-nun başçılığı ilə Kosovodakı sülhməramlı əməliyyatlarda iştirakını buna bariz nümunə kimi göstərmək olar.

1993-cü ilin 24 sentyabr ayından etibarən Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvü olan Azərbaycan bu təşkilat çərçivəsində öz müstəqilliyini möhkəmləndirmək və mehriban qonşuluq zonası yaratmaq məqsədi güdür. Azərbaycan MDB iştirakçı-dövlətləri ilə əməkdaşlığın ikitərəfli əsasda davam etdirilməsinə üstünlük verir və siyasi, iqtisadi və humanitar sahələrdə öz milli marağını kəsb edən məsələlər üzrə MDB-nin sahəvi əməkdaşlıq orqanlarından yalnız 30-da, digər orqanların isə 11-də iştirak edərək əməkdaşlığını davam etdirir.

1997-ci ildə MDB ölkələri olan Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova tərəfindən yaradılan GUAM 1999-cu ildə Özbəkistanın daxil olması ilə isə GÖUAM-a çevrilmiş, trans-regional təşkilatdır. Azərbaycan bu təşkilat vasitəsilə həm özü, həm də digər iştirakçı dövlətlər üçün vacib əhəmiyyət kəsb edən məsələlərdə səylərin birləşdirilməsi məqsədi güdür. Bu, siyasi məsələlər, münaqişələrin sülh yolu ilə həll edilməsində və separatizmlə mübarizədə qarşılıqlı fəaliyyət, sülhü təminetmə sahəsində əməkdaşlıq, səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin inkişafında əməkdaşlıq, Avropa və trans-Atlantika qurumları ilə əməkdaşlıq və qarşılıqlı fəaliyyət, iqtisadi əməkdaşlıq kimi istiqamətləri əhatə edərək, üzv ölkələrin və bütövlükdə bölgənin tərəqqisinə öz töhfəsini verir.

Azərbaycan türkdilli dövlətlər arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsi məqsədilə 3 oktyabr 2009-cu il tarixində Naxçıvanda keçirilmiş Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) da üzvüdür. Dörd təsisçi ölkələrdən biri olan Azərbaycan yarandığı ilk tarixdən etibarən bu təşkilatla sıx əməkdaşlıq edir. Azərbaycan TDƏŞ-lə yanaşı bu qurumun əlaqəli orqan və təşkilatları olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası ilə də sıx əməkdaşlıq edir və üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi sahəsində aktiv rol oynayır.

1992-ci ilin 25 iyun tarixindən etibarən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) təsisçi üzvü olan Azərbaycan bu çərçivədə bir sıra prioritet sahələr, o cümlədən ticarət, gömrük, nəqliyyat, enerji, ətraf mühit, informasiya və kommunikasiya texnologiyaları, elm və texnologiyalar və sair sahələr üzrə qarşılıqlı maraqlar əsasında əməkdaşlığını inkişaf etdirir.

Azərbaycan ərəb dövlətlərinin beynəlxalq təşkilatı olan Ərəb Dövlətləri Liqası (ƏDL) ilə də səmərəli fəaliyyətlərini davam etdirməkdədir. 13 may 2014-cü il tarixində imzalanan "ƏDL – Orta Asiya və Azərbaycan Respublikası arasında Əməkdaşlıq Memorandumu" çərçivəsində Ərəb Dövlətləri, Orta Asiya və Azərbaycan arasında siyasi, iqtisadi, ticari, maliyyə, texniki, sosial və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə müvafiq əməkdaşlıq mexanizmlərinin yaradılması nəzərdə tutulmuşdur.

Beləliklə, "Azərbaycan xarici aləmlə əlaqələrini milli maraqlara müvafiq olaraq intensivləşdirmiş, dünya siyasətinə təsir gücü olan böyük dövlətlərlə, beynəlxalq və regional qurumlarla partnyorluq münasibətləri yaratmış, ölkənin xarici alyanslarda, hökumətlərarası və qeyri-hökumət təşkilatlarında iştirakını təmin etmişdir. Son illərdə beynəlxalq qlobal proseslərdə beynəlxalq terrorizmə, narkoticarətə qarşı mübarizədə, transmilli enerji layihələrində, dünya siyasətinin demokratik transformasiyasında, regional inteqrasiya və s. fəal iştirakı onun beynəlxalq aləmdəki rolunu və təsir gücünü xeyli yüksəltmişdir" [3, s.209-211].

## Nəticə

Qloballaşma prosesi ilə birlikdə beynəlxalq sistemin transformasiyası yeni və fərqli siyasətlərin tətbiq edilməsi ehtiyacını yaratdı. Dünyanın amerikalı tənqidçi Marshall McLuhan "qlobal kənd" anlayışı ilə "qlobal kənd" halını almasıyla bir tərəfdən qlobal problemlərlə başa çıxmaq, digər tərəfdən də siyasi, iqtisadi, ictimai, elmi-texniki kimi müxtəlif sahələrdə birgə hərəkət etmə zəruriyyəti yeni axtarışlar ortaya çıxardı. Qloballaşma nəticəsində sadalanan bu səbəblərdən ötrü ölkələrin bir-birlərindən asılı vəziyyətə düşmələri daxili və xarici siyasətini yenidən nəzərdən keçirmək və reformlar tətbiq etmək, bu dinamik prosesdə öz mövqelərini yenidən müəyyənləşdirmək və strategiyalarını müvafiq olaraq yenidən təyin etmək məcburiyyəti ilə üzləşmələrinə səbəb oldu. Bu isə ölkələrin bir-biriləri ilə müxtəlif sahələrdə inteqrasiya adı altında birgə hərəkət etməsi ilə nəticələndi.

Qlobal, regional və subregional formalarda müxtəlif inteqrasiyaların böyük əhəmiyyət kəsb etdiyi müasir dövrdə Azərbaycan beynəlxalq proseslərə uyğun olaraq özünəməxsus inteqrasiya strategiyasını tətbiq edərək tərəfdaşlarla müxtəlif sahələrdə münasibət qurmağa davam edir. Avropa, Asiya, Şərq

və Qərb vektorları üzrə inteqrasiya siyasəti aparan Azərbaycan regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən beynəlxalq arenada əməkdaşlığı genişləndirərək və dərinləşdirərək müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən BMT, ATƏT, AŞ, İKT, MDB və çoxlu sayda digər təşkilatlara üzv olmuşdur. Azərbaycan eyni zamanda nüfuzlu beynəlxalq təşkilatlarla, iqtisadi birliklərlə əməkdaşlığını genişləndirmək üçün qanunvericiliyin, standartların beynəlxalq tələblərə cavab verməsi üçün islahatları tədricən artıran siyasət aparır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *İncekara A., Savrul M. Küreselleşme, Büyüme ve Ekonomik Entegrasyonlar: Türkiye Açısından Bir Değerlendirme. İstanbul Üniversitesi İktisat Fakültesi Mecmuası. Yıl 2011. Cilt 61. Sayı 2. s.3-22.*
2. *Arı T. Uluslararası İlişkiler Teorileri. İstanbul. Alfa Yayıncılık. 2002. 615 s.*
3. *Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı. "Azərbaycan" nəşriyyatı. 2005. 631 s.*
4. *Pelkmans J. European Integration: Methods and Economic Analysis. Pearson Education Ltd. NewYork 2001. s. 1-17.*
5. *Цыганков П.А. Теория международных отношений. Учебник. 2-е изд., испр. и доп. М.: Гардарики. 557 стр.*
6. *Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya sistemində yeri və rolu. Bakı. Aypara-3. 2009. 328 s.*
7. *Aslanova R. İnteqrasiya və biz. Azərbaycan. 2009. 13 fevral. s.9. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_fevral2009/69130.htm.*
8. *Musa İ.M. Azərbaycanın xarici siyasəti: III hissə: Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. 2011. 776 s.*


## XÜLASƏ


Sovet İttifaqının dağılması ilə "Soyuq müharibə" dövrünün durğunluğu dinamik bir struktura yol açdı. Qloballaşma prosesinin də sürətləndirdiyi bu transformasiya yeni təhlükələr və risklər ilə yanaşı, yeni fürsətlər da yaratdı. Bu proses nəticəsində dövlətlər öz milli mənafeləri istiqamətində müxtəlif beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq ilə müşayiət olunan siyasi, iqtisadi və sosial inteqrasiya üçün səy göstərməyə başladılar.



**Açar sözlər:** *Azərbaycan, inteqrasiya, iqdisadiyyat, təhlükəsizlik.*



**PhD student, Alizade Ilaha Arif gizi**
***Baku State University***
***e-mail: ibrahimova.ilaha@gmail.com***


## INFLUENCE OF INTERNATIONAL INTEGRATION PROCESS TO AZERBAIJAN

## SUMMARY


With the collapse of the Soviet Union, the stagnation of the Cold War era led to a dynamic structure. This transformation, which was also accelerated by the process of globalization, along with new opportunities and threats also created new risks. As a result of this process, the states, in order to achieve their national interests, began to strive for political, economic and social integration, which is accompanied by cooperation with various international and regional organizations.



**Keywords:** *integration, economics, security, Azerbaijan.*



**Аспирант Ализаде Илаха Ариф гызы**
***Бакинский государственный университет,***
***эл. почта: ibrahimova.ilaha@gmail.com***


## ВЛИЯНИЕ МЕЖДУНАРОДНОГО ИНТЕГРАЦИОННОГО ПРОЦЕССА НА АЗЕРБАЙДЖАН

## РЕЗЮМЕ


С распадом Советского Союза застой эпохи холодной войны уступила свое место динамичной структуре. Эта трансформация, которая также была ускорена процессом глобализации, наряду с новыми возможностями и угрозами создала также новые риски. В результате данного процесса государства в целях своих национальных интересов начали стремиться к политической, экономической и социальной интеграции, который сопровождается сотрудничеством с различными международными и региональными организациями.



**Ключевые слова:** *интеграция, экономика, безопасность, Азербайджан.*

UOT 327:312
DOI:10.30546/3006-0346.2024.4.82.50

# RUSİYA-UKRAYNA MÜHARİBƏSİNİN AVROPADA MİQRASİYA PROSESİNƏ TƏSİRİ

**FƏXRİ QURBANZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı*

*Email: fexri.qurbanzade@gmail.com*

2022-ci ilin fevral ayında Rusiyanın Ukraynaya müdaxiləsi, Ukrayna ərazisini geniş miqyaslı işğala başlaması iqtisadi, sosial və siyasi sferada ciddi böhran yaradaraq bir sıra problemlərin yaranmasına gətirib çıxardı. Rusiyanın Ukraynaya raket hücumları kütləvi insan itkisinə, evlərin və iş yerlərinin, infrastrukturun ciddi şəkildə dağılması ilə nəticələnərək əhalinin su, elektrik, istilik, səhiyyə, təhsil və sosial təminatlardan istifadəsinə maneə yaratdı. Bu problemlər Avropa regionunda İkinci Dünya müharibəsindən sonra ən böyük miqrasiya axınına səbəb oldu. Müharibə nəticəsində Ukrayna əhalisinin üçdə biri öz yaşayış yerini dəyişmək məcburiyyətində qaldı. Belə ki, təxminən 4 milyon insan Ukrayna daxilində öz yaşayış yerini dəyişərək məcburi köçkünə çevrilib, 6 milyondan artıq ukraynalı isə təkcə Avropada deyil, ABŞ və Kanada kimi ölkələrdə sığınacaq tapıb. Müharibənin başlamasından iki ildən çox vaxt keçməsinə baxmayaraq hələ də 10 milyondan çox ukraynalı öz evlərinə qayıda bilmir.

Qeyd edək ki, miqrasiya insanın bir yerdən başqa yerə hərəkəti kimi başa düşülür. Bu prosesin iştirakçısı isə miqrant hesab olunur. Lakin, miqrant dedikdə daha çox öz istəyi ilə yaşayış yerini dəyişən fərdlər nəzərdə tutulur. Əgər şəxs ölkə daxilində öz yaşayış yerini dəyişmək məcburiyyətində qalırsa o "məcburi köçkün", 1951-ci il Qaçqınların statusu haqqında Cenevrə Konvensiyasında qeyd olunan səbəblərdən dolayı yaşayış yerini tərk edərək başqa ölkəyə sığınırsa, "qaçqın" hesab olunur, bu səbəbdən Rusiya-Ukrayna müharibəsi nəticəsində insanlar öz yaşayış yerini tərk etmək məcburiyyətində qaldıqları üçün onları miqrant deyil, qaçqın və məcburi köçkün kimi nəzərdən keçirmək daha doğrudur.

Onu da qeyd edək ki, Ukraynada qaçqın və məcburi köçkün problemi 2022-ci il fevral işğalından əvvəl yaranmışdır. Belə ki, 2014-cü ildə Rusiyanın Krımı işğal etməsi, həmçinin, Donbas regiounda Donetsk və Luqansk vilayətlərinin öz müstəqilliyini elan etməsi nəticəsində müharibənin baş verməsi artıq Ukraynada iki milyondan artıq insanın öz yaşayış yerini dəyişməsi ilə nəticələnmişdir. Bu dövr ərzində təxminən 1 milyondan artıq insan Rusiyaya miqrasiya etmiş, 1.6 milyondan artıq insan isə Ukrayna daxilində məcburi köçkünə çevrilmişdir [1].

Hal-hazırda Ukraynada təxminən 14,6 milyon insanın humanitar yardıma ehtiyacı var ki bu da ölkə əhalisinin 40 %-ni təşkil edir [2]. Xüsusilə, yaşlı insanlar və münaqişə ərazilərindən qaça bilməyən əlillər həssas qrupa daxildir. Müharibədən qaçan insanların təxminən 90 faizini isə qadınlar və uşaqlar təşkil edir ki, onlar da gender əsaslı zorakılıq, cinsi istismar və sui-istifadə halları ilə qarşı qarşıyadırlar. Bu da məsələnin nə qədər vacib olduğunu bir daha göstərir.

Rusiya işğalının səbəb olduğu miqrasiya prosesi Ukrayna ilə birbaşa sərhəd olan ölkələrdən daha da qərbə, xüsusilə Almaniyaya və Ukrayna diasporunun güclü olduğu ABŞ və Kanadaya doğru istiqamətlənərək daha mürəkkəb bir vəziyyət almışdır. Hal-hazırda Avropanın bütün ölkələrində ukraynalı qaçqınlar mövcuddur. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına əsasən hazırda Avropada 6.5 milyon ukraynalı qaçqın var [3]. Bunun da 4.2 milyonu Avropa İttifaqı ölkələrinin payına düşür. Ən çox Ukraynalı qaçqının olduğu ölkələr Rusiya, Almaniya, Polşa, Çexiya və Birləşmiş Krallıqdır [4].

Qaçqınların ölkələr üzrə paylanması da son bir ildə əhəmiyyətli dərəcədə dəyişib. Müharibənin başlanğıcında ukraynalı qaçqınların təxminən 60%-i sərhəd ölkə olan Polşaya sığınmışdır. Lakin, onların böyük bir qisminin Ukraynanın qərbindəki daha təhlükəsiz bölgələrə qayıtması və Avropa İttifaqının ukraynalı qaçqınlar üçün xüsusi proqram qəbul etməsi nəticəsində Qərbi Avropa ölkələrinə köçməsi ilə əlaqədar Polşanın müvəqqəti sığınacaq verdiyi 1,6 milyondan çox qaçqından yalnız 960 mini orada qalıb. Buna görə də ukraynalı qaçqınların sayına görə birinci yerdə hazırda Rusiya dayanır [5].

Ukraynalıların Polşadan kütləvi şəkildə Almaniyaya və bəzi digər Qərbi Avropa ölkələrinə axın etməsinin bir neçə səbəbi var. İlk növbədə, sığınacaq yeri üçün Almaniya və digər Qərbi Avropa ölkələrinin seçilməsində daha yüksək maaş, sosial təminat və tibbi xidmətin yüksək səviyyədə olması

əsas rol oynayır. Burada ukraynalı qaçqınların öz dost və qohumlarının dəstək və tövsiyələri ilə qərbə köçməyə təşviq edilməsini də qeyd etmək lazımdır. Bundan əlavə, Almaniya hökumətinin qaçqınlar üçün dil kurları təşkil etməsi onların cəmiyyətə daha tez və asan inteqrasiya olmasına və daha tez iş tapmalarına səbəb olur ki, bu da onların seçiminə təsir göstərir [6]. Müqayisə üçün Polşada bu cür kurslar təşkil edilmir. Rəsmi statistikaya görə, hazırda Almaniyada 1,1 milyona yaxın ukraynalı qaçqın mövcuddur [7].

Adambaşına düşən ukraynalı qaçqın sayına görə Avropa İttifaqı ölkələri içərisində Estoniya (hər min nəfərə 37 qaçqın) və Çexiya (hər min nəfərə 25 qaçqın) ilk yerlərdədir. Avropa İttifaqı sərhədlərindən kənarda yerləşən ölkələr arasında isə Moldova və Monteneqro ilk yerlərdə dayanır. Moldovada əhalinin hər 20 nəfərindən biri, Monteneqroda isə hər 10 nəfərdən biri ukraynalı qaçqındır [8]. Qərbi Avropa ölkələri içərisində əhalinin ümumi sayında qaçqınların nisbətinə görə birinci yerdə isə Almaniya deyil, İrlandiya dayanır. Cəmi 5 milyon əhalisi olan İrlandiyada artıq 100 mindən artıq ukraynalı qaçqın var və bu say artmaqda davam edir. Bu problem xüsusi ilə İrlandiyada mənzil bazarında uzun müddətdir davam edən böhranı daha da gücləndirir [9].

Qeyd edək ki, müharibə başladıqdan qısa müddət sonra 4 mart 2022-ci ildə Avropa İttifaqı tərəfindən ukraynalı qaçqınlara yerləşdikləri ölkələrdə təhsil, işləmək və sosial xidmətlərdən istifadə etmək imkanı verən "müvəqqəti müdafiə mexanizmi" tətbiq edilmişdir. Müvəqqəti müdafiə mexanizmi Ukrayna vətəndaşları və onların ailə üzvləri, Ukraynada beynəlxalq müdafiə statusu olan qeyri-Ukrayna vətəndaşları və vətəndaşlığı olmayan şəxslər (məsələn, qaçqınlar və s.) və onların ailə üzvləri, öz mənşə ölkələrinə qayıda bilməyən daimi yaşayış icazəsi olan qeyri-Ukrayna vətəndaşları, həmçinin, müharibə başlamamışdan az müddət əvvəl Ukraynanı tərk edən Ukrayna vətəndaşları və müharibədən əvvəl tətil və ya iş üçün Avropa İttifaqı ərazisində olan Ukrayna vətəndaşlarına verilməsi nəzərdə tutulub. Həmçinin qeyd edək ki, "müvəqqəti müdafiə mexanizmi" ukraynalı qaçqınların Avropa İttifaqı ölkələrinə qaçqın statusu üçün müraciət etmək hüquqlarını məhdudlaşdırmır. Eyni zamanda, ukraynalı qaçqınların Avropa İttifaqı ölkələrində sərbəst hərəkətinə imkan yaradır. Müvəqqəti müdafiə mexanizmi ilk növbədə bir il müddətinə verilsə də, hazırda 4 mart 2026-cı il tarixinə kimi uzadılıb [10].

Ukraynalı qaçqınların böyük bir qismi isə okeanın o biri tərəfində ABŞ və Kanada kimi ölkələrdə sığınacaq tapıb. 2022-ci ilin fevralından bəri 400 mindən artıq ukraynalı ABŞ və Kanadaya köçüb. Bu ölkələrin hər ikisində ukraynalı qaçqınlar üçün xüsusi viza rejimi tətbiq edilib. Kanadaya getmək istəyən ukraynalılar Kanada-Ukrayna Fövqəladə Səyahət Səlahiyyəti (CUAET) proqramı vasitəsilə gedə bilərlər [11]. Bu proqram onlara digər imtiyazlarla yanaşı iş və təhsil icazəsi əldə etməyə də imkan verir. İndiyə kimi, Kanada hakimiyyəti 1,2 milyona yaxın müraciəti qeydə alıb. Bu müraciətlərin isə demək olar ki, üçdə ikisi artıq təsdiqlənib, lakin giriş icazəsindən yararlananların sayı xeyli azdır. Son məlumatlara görə, bu proqram çərçivəsində Kanadaya 210.000-dən çox insan daxil olub [12].

ABŞ tərəfindən ölkəyə gələn təxminən 270.000 ukraynalının əksəriyyətinə "Müvəqqəti Qoruma Statusu" və ya "Ukrayna üçün Birlik" proqramları çərçivəsində xüsusi humanitar viza verilib. İki il müddətinə verilən bu növ vizanın əsas prinsipi artıq ABŞ-da qanuni yaşayan şəxslər və ya ailələr tərəfindən təminatdır. Qohumlar, müraciət edənlərin dostları və ya ölkədə olan könüllülər bu sponsorluq rolunu öz üzərinə götürə bilərlər. Lakin bu proqramla ABŞ-a gələn ukraynalıların daimi yaşayış və vətəndaşlıq almaq icazələri yoxdur [11].

Ukraynalıların Kanada və ABŞ-a miqrasiya etməsindəki yüksək marağı qismən onların həmin ölkələrə tarixən mövcud olmuş zəngin miqrasiya ənənəsi ilə izah oluna bilər. On doqquzuncu əsrdən etibarən həm ABŞ, həm də Kandada da güclü Ukrayna diasporu mövcuddur.

Ən çox ukraynalı qaçqının olduğu Rusiyada qaçqınların sayı ilə bağlı məlumatlar qeyri-müəyyən olaraq qalır. Rəsmi rus mənbələri müharibənin başlamasından sonra ildə 5, bəzən hətta 7 milyondan çox qaçqının gəlməsini bildirir. Lakin məlumdur ki, bu rəqəmlər həqiqəti əks etdirmir və kəskin şəkildə şişirdilir. BMT -nin Qaçqınlar üzrə Ali Komissarlığına görə Rusiyadakı ukraynalı qaçqınların sayı 1.2 milyon nəfərdir [4]. Bu qaçqınlar əsasən Ukrayna ilə həmsərhəd olan Voronej və Rostov vilayətlərindən başlayaraq, yeddi min kilometr uzaqlıqdakı Çukotkaya qədər Rusiyanın bütün 85 regionu üzrə bölüşdürülüb. Həmçinin, qeyd etmək lazımdır ki, Rusiyada olan

ukraynalı qaçqınların bir hissəsi məcbur şəkildə Rusiyaya deportasiya edilib. Rusiya isə bunu humanitar evuakasiya adlandırır.

Bundan əlavə Rusiyada olan ukraynalı qaçqınların böyük əksəriyyətinin öz istəyi ilə Rusiyaya miqrasiya etmişdir ki, bunun da əsas səbəbi, Rusiya ilə olan bağlılıq (ailə üzvlərinin orada yaşaması), dil yaxınlığı və onun adaptasiyada oynadığı müsbət roldur [14]. Bunlar əsasən etnik rus olan Ukrayna vətəndaşlarıdır.

Məcburi köçkünlər Ukrayna qaçqın böhranının tez-tez nəzərdən qaçırılan, lakin ayrılmaz bir aspektidir. Beynəlxalq Miqrasiya təşkilatının ən son hesabatına görə, 2023-cü ilin oktyabrına kimi məcburi köçkünlərin sayı təxminən 3,7 milyon nəfər təşkil edib. Ukrayna hakimiyyətinin hesablamalarına görə, 24 fevral 2022-ci ilə qədər artıq məcburi köçkün düşmüş şəxslər də daxil olmaqla, ölkədə təxminən 4,9 milyon məcburi köçkün var. Köçkünlərin demək olar ki, yarısı Xarkov və Donetsk vilayətlərindəndir. Daxili qaçqınların ölkə üzrə paylanması da zamanla əhəmiyyətli dərəcədə dəyişib. Belə ki, müharibənin ilk aylarında insanların əksəriyyəti ölkənin qərbində sığınacaq axtarırdısa, indi üçdə birindən çoxu ölkənin müharibədən zərər çəkmiş şərq hissəsində qalır [15].

Məcburi köçkünlərin ən çox məskunlaşdığı bölgələr isə Dnepropetrovsk, Xarkov oblastları və Kiyev şəhəridir. Məcburi köçkünlərin təxminən beşdə biri paytaxt Kiyevdə və Kiyev oblastında müvəqqəti sığınacaqlarda qalır. Həmçinin qeyd etmək lazımdır ki, məcburi köşkünlərin 39%-i öz yaşayış yerini iki dəfədən artıq dəyişib. Eyni zamanda, son dövrlərdə Ukraynaya qayıdan qaçqınlar müharibə baş verən bölgələrə qayıda bilmədikləri üçün ölkə daxilində yenidən məcburi köçkünə çevrilib. Bu isə məcburi köçkünlərin 9%-ni (319 min) təşkil edir. Bunların da əksəriyyəti Macarıstan, Polşa və Ruminiyadan qayıdan insanlardır. Məcburi köçkünlərin böyük hissəsini qadınlar və yaşı 60-dan artıq olan insanlar təşkil edir [15].

Həmçinin, ukraynalı qaçqın böhranı Avropa ölkələrində mənzil çatışmazlığı sosial, tibbi xidmətlərin həddən artıq yüklənməsi kimi problemlərin yaranmasına gətirib çıxarmışdır. Bundan əlavə, ukraynalı qaçqın böhranı Avropada mövcud qaçqın problemlərindən sadəcə biridir. Belə ki ukraynalıların kütləvi gəlişi Suriya, Əfqanıstan, Sudan və Venesuela kimi qeyri Avropa ölkələrindən rekord sayda qaçqının gəlməsi ilə eyni vaxtda baş verir. Bu isə problemləri daha da kəskinləşdirir.

Qeyd etmək lazımdır ki, 2022-ci ilin fevralında müharibə başladıqdan sonra qısa müddət ərzində təxminən 17 milyon insan Ukraynanı tərk etsə də, indiki dövrdə onların təxminən 60%-i qayıdıb. Lakin, 6 milyon ukraynalı isə hələ də ölkədən kənardadır. Beynəlxalq Miqrasiya Təşkilatı (IOM) geri qayıdanların faktiki sayını təxminən 4,6 milyon nəfər hesab edir. Ukraynalı qaçqınlar arasında keçirilən rəy sorğuları göstərir ki, qaçqınların əksəriyyəti Ukraynaya qayıtmaq niyyətindədir. Bununla belə, iş, mənzil və təhlükəsizlik kimi üç əsas şərtin yerinə yetiriləcəyi təqdirdə kütləvi qayıdışın mümkün olacağını nəzərə almaq lazımdır.

Qaçqınların Ukraynaya geri qayıtmalarının əsas səbəbləri isə Ukraynada ailələrinin olması, vətən həsrəti (darıxma hissi), uşaqlarının Ukraynada təhsil almasını istəmələri və Ukraynanın yenidən qurulmasında iştirak etmək arzusudur. Həmçinin, Ukraynada daşınmaz əmlakın olması, dostlarının və yaxın çevrəsinin Ukraynaya qayıtması da geri qayıtmağa təsir edən amillərdir. Bundan əlavə, subay olanların Ukraynaya qayıtma ehtimalı daha çox, həyat yoldaşı ilə birlikdə miqrasiya edənlərin və övladı olmayanların xaricdə qalma ehtimalı isə daha yüksəkdir [16].

Eyni zamanda qaçqınların olduğu ölkələrdəki cəmiyyətə inteqrasiya etməkdə yaşadığı çətinlik, həmçinin dövlət dəstəyi ilə yaşamağın yetərsiz hiss etdirməsi də geri qayıtmağa təsir göstərən psixoloji faktorlardandır. Bundan əlavə, qaçqınların getdiyi ölkələrdə daimi yaşayış yerinin olması, ümumi rifahın və sosial təminatın daha yüksək olması onların geri qayıtma ehtimalını daha da azaldır. Buna əks olaraq aşağı gəlirli ölkələrdə olan, müvəqqəti yaşayış yerlərində qalan qaçqınların geri qayıtma istəyi daha çoxdur [16]. 2022-ci ildən əvvəl mühacirət etməyi planlaşdıran, Ukraynanı tərk etdikdən sonra bir daha Ukraynaya getməmiş olan və qaçqın statusu olan insanlar üçün də (bəzi ölkələrdə insanlar qaçqın müdafiəsini itirə bilər) geri qayıtmaq ehtimalı aşağıdır.

Ümumi statistikaya nəzər salsaq, ukraynalı qaçqınların 64 %-i nə vaxtsa qayıdacağını, 13%-i belə bir planının olmamasını, digərləri isə qərarsız olduğunu bildirir.

Beləliklə, ukraynalı qaçqınların bir hissəsi artıq Ukraynaya qayıdıb və ölkədə daimi qalmağı planlaşdırır. Hələ də xaricdə olanlar isə təhlükəsizlik

təmin edilərsə, geri qayıtmaq istədiklərini bildirir. Bu cür istəklərin arxasında duran amilləri təhlil etdikdə aydın olur ki, ukraynalıların geri qayıtmaq istəyi təkcə öz şəxsi səbəbləri deyil, həm də Ukraynanın yenidən qurulmasında iştirak etmək və uşaqların Ukraynada təhsil alması kimi öz milli kimliklərinin qorunub saxlanması istəyi böyük rol oynayır. Burada qeyd etmək lazımdır ki, antikorrupsiya və məhkəmə islahatlarının aparılması ukraynalıların geri qayıtması üçün prioritet rol oynayır. Belə ki, korrupsiyanın Ukraynanın yenidən qurulmasına maneə olacağı qorxusu Rusiyanın Ukraynaya raket hücumlarını davam etdirəcəyi qorxusundan daha böyükdür. Buna görə də, Ukrayna hökumətinin korrupsiya ilə mübarizə əzmi, çox güman ki, Ukraynada insanların həyatını yaxşılaşdırmaqla yanaşı, qaçqınların Ukraynaya qayıtma ehtimalını da artıracaq.

Həmçinin, xaricdə yaşayan ukraynalılar "Ukrayna məsələsi"ndə olduqca həssasdırlar. Ona görə də, Ukrayna hökuməti qaçqınları itki kimi yox, qiymətli resurs hesab etməlidir. Eyni zamanda, ukraynalı qaçqınlar kifayət qədər aktivdirlər, onların 40 faizdən çoxu Ukraynaya dəstək mitinqlərində, könüllü layihələrdə iştirak edir, 70 faizdən çoxu isə Ukrayna təşkilatlarına ianə verir, fərdi və ya kollektiv aksiyalar keçirir (məsələn, yerli çevrəni Ukraynadakı vəziyyət haqqında məlumatlandırmaq, Ukraynaya dəstək mitinqlərinə və ya fleşmoblara qoşulmaq və s.). Bu isə Ukraynaya davamlı dəstəyi təmin etmək üçün vacibdir. Bundan əlavə, qaçqınların geri qaytarılması Ukraynanın yenidən qurulması üçün həyati əhəmiyyət kəsb edir, çünki bir çoxları öz ölkələrinin yenidən qurulması üçün vacib olan əsas bacarıq və resursları özləri ilə gətirəcəklər. Belə ki, ukraynalı qaçqınların 70 faizindən çoxu xaricdəki təcrübələrinin yenidənqurma üçün faydalı olacağına inanır, 50 faizdən çoxu isə xaricdə əldə etdikləri yeni bacarıqların Ukraynanın yenidən qurulması zamanı tətbiq oluna biləcəyini qeyd edir [17].

Qeyd edək ki, Ukraynanın qələbə qazanması, qaçqınların da geri qayıtması ilə nəticələnəcək ki, bu da təkcə Ukraynanın yenidən qurulmasına və inkişafına səbəb olmayacaq, həm də qlobal demokratiyanı təşviq və tətbiq edəcək. Eyni zamanda, qaçqınların geri qayıtması ev sahibi ölkələrin yaşadığı iqtisadi, sosial və siyasi təzyiqləri – həddindən artıq yüklənmiş dövlət xidmətləri, artan iş rəqabəti və sosial təminatda yaşanan təzyiqləri aradan qaldırmağa kömək edə bilər. Lakin, ukraynalı qaçqınların böyük əksəriyyətinin geri qayıtmasına baxmayaraq bu problem hələ də aktual olaraq qalır. Çünki, müharibə hələ davam edir və onun hələ nə qədər davam edəcəyi də qeyri-müəyyəndir. Bununla belə, bütün qaçqınların geri dönəcəyini gözləmək də real deyil. Getdikləri ölkədəki yaşayış şəraiti və imkanları Ukraynadakından daha yaxşı olan insanların daimi orada qalacağını da deyə bilərik.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. "Ukraine conflict: UN says million people have fled" - https://www.bbc.com/news/world-europe-29029060*

*2. "Two years of war in Ukraine"- https://unric.org/en/two-years-of-war-in-ukraine-about-40-of-the-ukrainian-population-will-need-humanitarian-aid-by-2024/*

*3. "About the Crisis in Ukraine" - https://www.unrefugees.org/emergencies/ukraine/*

*4. "Number of Ukrainian refugees 2024, by country" - https://www.statista.com/statistics/1312584/ukrainian-refugees-by-country/*

*5. "Russia becomes the country with the most Ukrainian refugees" - https://www.deseret.com/u-s-world/2022/7/20/23271533/why-are-ukrainian-refugees-living-in-russia-putin-war-crime-poland-war-in-ukraine-filtration-camps/*

*6. "Ukrainians leaving Poland for Germany as Europe cries out for workers" - https://www.euronews.com/business/2023/09/12/ukrainians-leaving-poland-for-germany-as-europe-cries-out-for-workers*

*7. "Flüchtlinge aus der Ukraine" - https://mediendienst-integration.de/migration/flucht-asyl/ukrainische-fluechtlinge.html*

*8. "Ukrainian refugee crisis: the current situation" - https://reliefweb.int/report/ukraine/ukrainian-refugee-crisis-current-situation-encs*

*9. "Ireland mulling cuts in supports for asylum seekers, Ukrainian refugees" - https://www.reuters.com/world/europe/ireland-mulling-cuts-supports-asylum-seekers-ukrainian-refugees-2024-05-13/*

*10. "How the EU helps refugees from Ukraine" - https://www.consilium.europa.eu/en/policies/eu-response-ukraine-invasion/refugee-inflow-from-ukraine/*

*11. "Temporary Protected Immigration Status –*

*Comparing the United States and Canada Visa Programs for Ukrainians" – https://canadianlawgroup.com/blog-temporary-protected-status-for-ukraine-immigrants-in-the-usa-and-canada/*

*12. "Thousands Of Ukrainians To Come To Canada In The First Few Months Of 2024" - https://www.immigration.ca/thousands-of-ukrainians-to-come-to-canada-in-the-first-few-months-of-2024/*

*13. "US AND CANADA OPTIONS FOR UKRAINIANS AND OTHER WAYS TO HELP" - https://resources.pcamna.org/resource/us-and-canada-options-for-ukrainians-and-other-ways-to-help/*

*14. "After 1.5 Years of War, Ukrainian Refugees in Russia Grapple With Assimilation Question" -https://www.themoscowtimes.com/2023/08/01/after-15-years-of-war-ukrainian-refugees-in-russia-grapple-with-assimilation-question-a82010*

*15. International Organisation for Migration, "UKRAINE INTERNAL DISPLACEMENT REPORT", December 2023, p 13.*

*16. "What do we know about Ukrainian refugees returning home since the full scale invasion?" - https://reliefweb.int/report/poland/what-do-we-know-about-ukrainian-refugees-returning-home-full-scale-invasion-longitudinal-survey-ukrainian-refugees-round-18-late-octoberearly-november-2023-enuk*

*17. "Ukrainian Refugees: Who Returns and Why?" - https://freepolicybriefs.org/2024/01/29/ukrainian-refugees-returns/*

## RUSİYA-UKRAYNA MÜHARİBƏSİNİN AVROPADA MİQRASİYA PROSESİNƏ TƏSİRİ

### XÜLASƏ

Müasir dövrdə miqrasiya prosesləri və onun yaratdığı problemlər olduqca aktualdır. Miqrasiya prosesi baş verdiyi ölkənin eləcə də regionun iqtisadi, siyasi, sosial sferalarına öz təsirini göstərir. Son dövrlərin ən aktual məsələsi hesab olunan Rusiya-Ukrayna müharibəsi və onun Avropa regionunda yaratdığı qaçqın problemi araşdırılması ən vacib məsələlərdən biridir. Qeyd edək ki, 2022-ci ilin fevralından etibarən milyonlarla ukraynalının öz yaşayış yerini tərk etməsinə səbəb olan bu müharibə hələ də davam etməkdədir. Bu problem təkcə Ukraynada deyil, eyni zamanda qaçqınları qəbul edən ölkələrdə bir sıra problemlərin kəskinləşməsinə səbəb olub.

Bu baxımdan məqalədə, ukraynalı qaçqın problemi mövcus statistik göstəricilərə əsasən təhlil olunmuş, onların ölkələr üzrə bölgüsü verilmiş, əsas miqrasiya istiqamətlərinin səbəbləri göstərilmişdir. Eyni zamanda ukraynalı qaçqınların geri qayıtma imkanları, onların olduqları ölkələrdəki mövcud vəziyyətləri göstərilmişdir.

**Açar sözlər:** *Rusiya-Ukrayna müharibəsi, qaçqın, məcburi köçkün, miqrant, sığınacaq*

## THE IMPACT OF THE RUSSIAN-UKRAINIAN WAR ON THE MIGRATION PROCESS IN EUROPE

### SUMMARY

In modern times, migration processes and the problems caused by it are very actual. The migration process has impact on the economic, political and social spheres of the country where it takes place, as well as the region. The Russia-Ukraine war, which is considered the most urgent issue of recent times, and the refugee problem in the European region caused by it, is one of the most important issues. It should be noted that since February 2022, this war, which caused millions of Ukrainians to leave their place of residence, is still going on. This problem has led to aggravation of a number of problems not only in Ukraine, but also in countries receiving refugees.

From this point of view, in the article, the Ukrainian refugee problem is analyzed based on the available statistical indicators, their distribution by countries is given, and the reasons for the main migration directions are indicated. At the same time, the possibilities of return of Ukrainian refugees and their current situation in the countries where they are are shown.

***Keywords:*** *Russian-Ukrainian war, refugee, internally displaced person, migrant, asylum.*

UOT 327; 930.22
DOI: 10.30546/3006-0346.2024.4.82.51

# THE FUTURE OF THE EUROPEANIZATION PROCESS IN UKRAINE AFTER THE WAR IN UKRAINE

**MAHAMMAD AKHUNDOV**
*Khazar University, master student*
*E-mail: mahammad.axundov2022@khazar.org*

## Introduction

The European Union was established in 1951 under the name “European Coal and Steel Community” in order to increase cooperation between European countries. The legal base of the European Union was established through the Rome (1957), Maastricht (1993), and Lisbon (2009) treaties, which have undergone evolution since the time of its creation. The objectives of the European Union are diverse, including ensuring security in the world and within European borders, increasing the welfare of European citizens, creating a common internal market, and promoting and spreading “common values”. For this purpose, the European Union enters into various forms of relations both between member states and with non-member states. These relations can lead to the “Europeanization” of these countries in various forms. Historically, Ukraine has entered into relations with the European Union in various forms, until 2004 it was in the format of bilateral relations. With the launch of the European Neighborhood Policy in 2004, relations between Ukraine and the European Union began to develop from this framework. With the launch of the Eastern Partnership initiative in 2009, relations were carried out within the framework of this platform. The start of the Russia-Ukraine war in 2022 shook the European security architecture and revealed various new political realities. For this reason, this article will look at the historical development of relations between the European Union and Ukraine, as well as the impact of the Russia-Ukraine war that started in 2022 on these relations. The objectives of the research are diverse, the research aims to find out what political successes Ukraine has achieved within the framework of the European Neighborhood Policy and also to determine how the Europeanization of Ukraine evolved both before and after the war.

The research design of the article was chosen as qualitative. Many academic sources and articles were important for the study of the theoretical foundations of Europeanization, and also allowed to analyze the historical Europeanization path of Ukraine. A number of official documents of the European Union made it possible to analyze the relations of the European Union with Ukraine, as well as to analyze the Europeanization processes of Ukraine.

## Theoretical Framework

Europeanization has been associated with different perspectives in the academic literature. Ukraine’s Europeanization path can be linked to two perspectives: top-down and top-out perspectives. The top-down perspective explains how the European Union affects and shapes political institutions and political outcomes in member states or candidate states. The key point here is that the member or candidate countries adopt the European Union policy and move towards respective domestic changes – changes in national laws, changes in national policies, amendments on constitutions, adopting comprehensive reform policies or plans [1, p. 110].

After the “Big-Bang” enlargement process of the European Union, the European Union did not take a positive approach to the next enlargement processes, therefore, from this period onwards, the Europeanization processes were also explained by the application, “export” of the European Union’s own rules and values in relation to the states that do not have the prospect of membership in the near future [10, p. 61]. This perspective has found its place in the academic literature as “top-out Europeanization”. Top-out Europeanization “seeks to conceptualize, explain, and evaluate the impact of EU policies and rules on the domestic structures, laws, and behavior of non-member countries”. Although this type of Europeanization is theoretically global, and states in other regions are also likely to be subject to this type of Europeanization, in practice this perspective emerged more in peripheries to the political borders of Europe (including the Eastern Partnership countries) [8, p. 386].

## Europeanization path of Ukraine within common European Neighborhood Policy framework (2004-2009)

The European Neighborhood Policy was offici-

ally launched in 2004 after a series of discussions and meetings in 2003. The European Neighborhood policy was emerged in response to the Big-Bang enlargement process that took place between 2004 and 2007 in order to lay new foundations for the relations of the European Union with the neighboring countries of the newly created European political borders [9, p. 45]. The strategy paper published by the European Union in 2004 contains the main aspects of the European Neighborhood policy and provides a broad interpretation of this policy. Through the European Neighborhood Policy, the European Union intends to strengthen the political institutions of the partner countries and also the opportunities for political dialogue, it includes "foreign and security policy issues including regional and international issues, conflict prevention and crisis management and common security threats [2, p. 13].

In Ukraine, the European Union has started to promote political reforms since the beginning of the 2000s. Right after being elected, President-elect Yushchenko made important statements about European integration, stated that the perspective of Ukraine's membership in the European Union is the main strategic goal, and promised to carry out relevant reforms [15, p. 200]. In order to be able to coordinate the European integration policy and carry out relevant reforms, the process of creating a number of relevant state bodies and institutions in Ukraine began in 2004, and the State Department for Legal Approximation (SDLA) under the Ministry of Justice was established in the same year. One of the directions of importance for Ukraine during this period on the way to European integration was the economic sphere, relevant reforms in this sphere and the strengthening of the Ministry of Economy responsible for it. Especially during 2005-2006, the Ministry of Economy set World Trade Organization membership as the main priority, because World Trade Organization membership was considered one of the main prerequisites for economic integration into Europe. Towards the end of 2006, Ukraine's implementation of the main domestic reforms required for World Trade Organization membership in the economic field is considered one of the most important achievements of the Action Plan for that period [15, p. 203-204].

After the EU-Ukraine meeting held in January 2007, it was decided to start negotiations on the preparation and adoption of a new enhanced association agreement that will replace the PCA agreement. Taking into account the fact that similar association agreements adopted in Central Europe in the 1990s were a preliminary mechanism for the European Union to start membership negotiations with Central European countries within the framework of the Big Bang enlargement, Ukrainian political circles realized the importance of this new agreement in terms of membership prospects for Ukraine [12, p. 309].

**Europeanization path of Ukraine within Eastern Partnership framework (2009-2022)**

On May 7, 2009, the creation of the Eastern Partnership initiative was officially announced at the Prague summit in order to increase the European Union's cooperation with the countries on its newly formed political borders. There have been various mechanisms of European Union cooperation with partner countries within the framework of the Eastern Partnership. These included replacing the partnership agreements concluded with partner countries in the 90s with new and comprehensive agreements (Association Agreements), including partner countries in the Deep and Comprehensive Free Trade Areas (DCFTA) in order to strengthen economic cooperation, implementing visa liberalization through relevant visa negotiations with partner countries.

One of the first steps taken by Ukraine on the path to Europeanization for this period was the adoption of the Association Agenda in November 2009 in preparation for signing the relevant Association Agreement with the European Union. The Association Agenda was supposed to facilitate rapprochement between Ukraine and the European Union in the political and economic spheres. The important factor that stands out here is that within the framework of this agenda, Ukraine had to start implementing and applying the acquis chapters of the European Union [13, p. 55].

The Eastern Partnership summit held in Vilnius in November 2013 was expected to be a turning point in Ukraine-EU relations. Ukraine was expected to sign the Association Agreement with the European Union at this summit. However, a week before the summit, the Ukrainian government officially announced that it would refuse to sign the agreement. The government of Ukraine argued that it took this step in terms of security issues, including the development of relations with Russia and the CIS count-

ries [14, p. 40]. After the the change of power in the country, the most important of the steps taken by Ukraine towards Europeanization was the conclusion of the political part of the Association Agreement on March 21, 2014, and the economic part of the agreement (DCFTA) on June 27, 2014. In May of the same year, Ukraine also entered the final phase of the visa liberalization process. The presidential and parliamentary elections held in the country in May and October 2014 were evaluated by the European Union as successful in terms of the application of democratic election traditions. However, there were a number of difficulties in terms of Ukraine's internal reforms during this period: the Ukrainian economy was shaken due to the wars with Russia, and due to the strengthening of relations with the European Union, Russia activated economic leverages and created additional difficulties for the Ukrainian economy [7, pp. 12-13].

Despite the indicated difficulties, since 2014, Ukraine has started internal reforms in many areas of the country. In the same year, the European Agenda for Reform was created. This package of reforms was important in terms of the democratization of the country and the adaptation of internal structures and laws to European standards. In that year, Ukraine started a number of reforms in the field of public administration, including de-bureaucratization reforms [14, pp. 44-45]. The positive effects of the DCFTA signed between Ukraine and the European Union on the Ukrainian economy and the Ukrainian-European Union cooperation began to be felt from the first years of its signing. Since 2017, the volume of Ukrainian exports to the European Union has managed to exceed the volume before the 2014 war (2013), and in 2018 it exceeded the volume of 2017 by 12%. One of the most critical successes achieved within the framework of the DCFTA during this period was that in 2017, approximately 100 new Ukrainian companies were able to gain access to the European Union market. Looking at economic successes in general, it should be noted that, according to the analysis of the Ukrainian Centre for European Policy, the economy was the area in which Ukrainian legislation was most adapted to the European Union acquis in 2014-2018, as the reduction of technical barriers in the field of trade and taxation during this period , protection of consumer rights and issues covering many other economic spheres were successfully adapted to the European Union acquis [16, p. 32-33].

One of the most successful steps taken during this period on the Europeanization of Ukraine was the making of relevant additions ("European integration clauses") to the country's constitution in 2019. The additions to the constitution declare Ukraine's European integration policy as an irrevocable and unchangeable policy of the country, emphasize that changes and improvements will be made in accordance with European standards in the legislation, and note the close cooperation of the judicial system of Ukraine with the relevant judicial institutions of the European Union in the judicial field. The most important point in these constitutional changes was the designation of the country's membership in the European Union and NATO as a priority direction [11, p. 25].

### Impact of the war in Ukraine on Europeanization processes of Ukraine

One of the most noticeable effects of the war was that the European Union took its relations with the three EaP countries - Ukraine, Moldova and Georgia - to a new level. Thus, by the decision adopted by the European Council on June 23, 2022, Ukraine and Moldova received the status of candidate for membership, while Georgia was provided with the prospect of membership [5]. On June 17, 2022, the European Union announced that it had given Ukraine the relevant candidacy status on the condition of reforms in 7 areas. The 7 areas indicated in the document published by the European Commission on June 17 were as following: 1) judicial reforms; 2) establishing the High Qualification Commission of Judges with the selection of relevant candidates; 3) strengthening the fight against corruption, including the appointment for a new Director of the National Anti-Corruption Bureau of Ukraine; 4) Law enforcement sector reform; 5) implement the Anti-Oligarch law and decrease the influence of oligarchs in the country's political, economic and public life; 6) improvement of the legislation in order to reduce the influence of personal interests in the field of media; 7) carrying out relevant reforms in the legislation on national minorities [3, pp. 20-21].

On November 8, 2023, the European Commission presented a report on the level of Ukraine's implementation of reforms and improvements in the 7 areas mentioned. Regarding the first direction, Ukraine made relevant legislative amendments for

the election of Constitutional Court judges during December 2022 – July 2023 [4, p. 9]. Regarding the second direction, the High Council of Justice began to operate in Ukraine from 2023 [4, p. 9]. Regarding the third direction, Ukraine adopted the State Anti-Corruption Program in March 2023 [4, p. 10]. Regarding the fourth direction, Ukraine adopted a law on beneficial ownership in September 2022, the legislation on financial investigations was improved [4, p. 10]. Regarding the fifth area, the legislation on the Anti-Monopoly Committee in Ukraine has been improved [4, p. 11]. Regarding the sixth field, the media law was adopted in Ukraine in December 2022, and relevant amendments were made to the law in May 2023 [4, p. 11]. Regarding the last area, the law on national minorities was adopted in Ukraine in December 2022, and the law was amended in September 2023 [4, p. 11].

The successes achieved in the mentioned areas prompted the reactivation of the European Union conditionality mechanism, on December 14-15, the European Union officially announced the start of open accession negotiations with Ukraine and Moldova, and Georgia officially received the status of a candidate country for membership [6].

## Conclusion

The conducted research revealed a number of results related to the Europeanization processes of Ukraine. Ukraine, created a number of European integration-oriented institutions during the 2004-2009 period. During this period, main Europeanization elements and successes of Ukraine were related to economic reforms and membership perspective to World Trade Organization. Between 2009 and 2022, Ukraine signed the Association Agreement with the European Union, signed the DCFTA, and was able to conclude visa liberalization negotiations. Positive effects of DCFTA on Ukraine were observed during this period, relevant statistical data confirmed this fact. In the period of 2022-2023, Ukraine took important steps in terms of Euro Integration and implemented judicial reforms and reforms in other areas as well. Reforms expected by the European Union have been implemented in the field of media. 4 of the 7 reforms were fully implemented and 3 were partially implemented. We determined that Ukraine has surpassed the previous periods that lasted longer in terms of the number and quality of reforms implemented in a short period (2022-2023). Finally, we found out that new reality – European Union membership candidacy status gave great incentives to Ukraine. With this incentives, Ukraine's Europeanization path shifted from top-out perspective to top-down Europeanization. Regarding the Eastern Partnership initiative, considering the fact that Eastern Partnership initiative was created for integration of countries with lack of membership perspective, it's clearly obvious that with new reality (membership perspective) relevance of Eastern Partnership initiative decreased for Ukraine comparing before the war period.

## References:

*1. Borzel, T. A., & Panke, D. (2019). Europeanization. In: Cini, M., & Borragan N. P. S. (Eds.). European Union Politics (pp. 115-126). Oxford University Press. https://doi.org/10.1093/hepl/9780198806530.003.0008*

*2. European Commission. (2004). European Neighborhood Policy Strategy Paper. https://neighbourhood-enlargement.ec.europa.eu/document/download/a3b48fcf-a838-45cf-837a-3468b6a-df1b2_en?filename=2004_communication_from_the_commission_-_european_neighbourhood_policy_-_strategy_paper.pdf*

*3. European Commission. (2022). Commission Opinion on Ukraine's application for membership of the European Union. https://neighbourhood-enlargement.ec.europa.eu/document/download/c8316380-6cb6-4ffd-8a84-d2874003b288_en?filename=Ukraine%20Opinion%20and%20Annex.pdf*

*4. European Commission. (2023). Ukraine 2023 Report. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=SWD:2023:699:FIN*

*5. European Council (2022, June 23). European Council conclusions on Ukraine, the membership applications of Ukraine, the Republic of Moldova and Georgia, Western Balkans and external relations, 23 June 2022 [Press Release]. https://www.consilium.europa.eu/en/press/press-releases/2022/06/23/european-council-conclusions-on-ukraine-the-membership-applications-of-ukraine-the-republic-of-moldova-and-georgia-western-balkans-and-external-relations-23-june-2022/*

*6. European Council. (2023, December 15). European Council conclusions, 14 and 15 December 2023 [Press Release]. https://www.consilium.*

*europa.eu/en/press/press-releases/2023/12/15/european-council-conclusions-14-and-15-december-2023/*

*7. Gromadzki, G. (2015). The Eastern Partnership after Five Years: Time for Deep Rethinking. http://www.europarl.europa.eu/RegData/etudes/STUD/2015/536438/EXPO_STU(2015)536438_EN.pdf*

*8. Magen, A. (2006). The shadow of enlargement: Can the European Neighbourhood Policy achieve compliance? The Columbia Journal of European Law, 12(2), 384-427.*

*9. Moller, A. (Ed.). (2011, August). Crossing borders: rethinking the European Union's neighborhood policies (DGAP-Analyse Working Paper No. 2).*

*10. Mustafayev, E. (2022). Changing Theoretical Perspectives on Europeanization. Scientific Works of NU, 1(24), 56-62.*

*11. Petrov, R. (2023). The EU–Ukraine Association Agreement as a General Framework of Contemporary EU–Ukraine Relations. In: Richter, H. (Ed.). Competition and Intellectual Property Law in Ukraine, (pp. 15–35). Springer. https://doi.org/10.1007/978-3-662-66101-7_2*

*12. Sasse, G. (2008). The European Neighbourhood Policy: Conditionality Revisited for the EU's Eastern Neighbours. Europe-Asia Studies, 60(2), 295–316. https://doi.org/10.1080/09668130701820150*

*13. Stegniy, O. (2011). Ukraine and the Eastern Partnership: "Lost in Translation"? Journal of Communist Studies and Transition Politics, 27(1), 50–72. https://doi.org/10.1080/13523279.2011.544383*

*14. Stretea, A. (2023). EU's Enlargement Towards the Eastern Partnership. The Integration of Ukraine in the midst of the Crisis. Online Journal Modelling the New Europe, 41, 28-59.*

*15. Wolczuk, K. (2009). Implementation without Coordination: The Impact of EU Conditionality on Ukraine under the European Neighbourhood Policy. Europe-Asia Studies, 61(2), 187–211. https://doi.org/10.1080/09668130802630839*

*16. Zarembo K., & Litra L. (2019) Ukraine: New Engines for the Partnership. In: Secrieru, S., & Saari, S. (Eds.). The Eastern Partnership a Decade on: Looking Back, Thinking Ahead. EU Institute for Security Studies (pp. 28-42). Chaillot Papers.*

**Mahammad Akhundov**
***Khazar University, master student***
***E-mail: mahammad.axundov2022@khazar.org***

**The future of the Europeanization process in Ukraine after the war in Ukraine**

**SUMMARY**

This article analyzes the main political aspects of the Europeanization path followed by Ukraine by entering into mutual relations with the European Union, and examines the source of the political courses followed by Ukraine in their relations with the European Union since 2004. It also includes a discussion of the impact of the 2022 Russia-Ukraine war on the changes on the Europeanization processes Ukraine. The Europeanization processes of Ukraine were analyzed by dividing them into periods. This includes the period of the European Neighborhood Policy covering the years 2004-2009, the period of the Eastern Partnership from 2009 to the present, and finally the period after the start of the Russia-Ukraine war, which is of critical importance within the period of the Eastern Partnership. As a result, this article helps to understand more deeply the political results achieved by Ukraine in European Union relations during the indicated periods. The results obtained from the analysis also help to present the current level of political relevance of the Eastern Partnership initiative for Ukraine.

**Keywords:** *European Union, Europeanization, Eastern Partnership, Ukraine-EU relations*

**Məhəmməd Axundov**
***Xəzər Universiteti, magistrant***
***E-mail: mahammad.axundov2022@khazar.org***

**Ukrayna müharibəsindən sonra Ukraynada Avropalaşma prosesinin gələcəyi**

**XÜLASƏ**

Bu məqalədə Ukraynanın Avropa İttifaqı ilə qarşılıqlı əlaqələrə girərək izlədiyi avropalaşma yolunun əsas siyasi aspektləri təhlil edilir və 2004-cü ildən Ukraynanın Avropa İttifaqı ilə münasibətlərində tutduğu siyasi kursların mənbəyi araşdırılır. 2022-ci il Rusiya-Ukrayna müharibəsinin Ukraynanın avropalaşma proseslərindəki dəyişikliklərə təsirinin

Азербайджан является одной из первых стран, присоединившихся к инициативе «Один пояс, один путь». 10 декабря 2015 года Председатель КНР Си Цзиньпин провел в Пекине переговоры с Президентом Азербайджана Ильхамом Алиевым. Главы государств двух стран совместно подписали декларацию о развитии и углублении дружественных отношений и сотрудничестве, а также меморандум о взаимопонимании и совместном продвижении «Экономического Пояса Шелкового пути». Были подписаны документы о двустороннем сотрудничестве в области экономики, торговли, юстиции, гражданской авиации, образования, транспорта и энергетики. Согласно соглашению о культуре, стороны готовы укреплять и расширять сотрудничество в сфере образования, культуры, науки и техники, охраны окружающей среды, туризма, кинематографии, телевидения и других сферах. Стороны придают большое значение обмену и развитию двустороннего сотрудничества в сфере образования и будут использовать культурные ценности «Великого Шелкового пути», а также проводить совместные культурные мероприятия. Стороны будут развивать сотрудничество в области охраны окружающей среды как на двустороннем уровне, так и в региональном и международном формате. Стороны активизируют сотрудничество в сфере туризма и создадут необходимые условия для увеличения потока туристов. Стороны поддерживают обмен и сотрудничество в сфере радио, кино и телевидения и будут способствовать совместному выпуску произведений, отражающих историю, культуру и социальное развитие двух стран, принимать участие в радио и кино фестивалях обеих стран [12].

### Образование

Широкие перспективы имеет азербайджано-китайское сотрудничество в области образования. Расширение образовательных и культурных обменов между странами играет важную роль в укреплении дружеских связей между азербайджанским и китайским народами. Растёт обмен студентами, обучающихся в двух странах, что способствует познанию истории и культуры двух народов а также разработке передовых технологий. В мае 2022 года китайское агентство Синьхуа представило расширенное интервью с азербайджанским учёным-китаеведом Рафиком Аббасовым. По его словам, новый импульс развития азербайджано-китайского сотрудничества в образовательной сфере, произошёл в связи с активным участием Азербайджана в реализации китайской инициативы «Один пояс, один путь» по созданию евразийского транспортно-экономического коридора, а также обеспечению гуманитарного обмена и межкультурного диалога стран Шелкового пути. Он отметил, что большое значение для развития азербайджано-китайского сотрудничества в области образования имеет подписание между двумя государствами соответствующих договоров и соглашений. "Сегодня, когда Азербайджан и Китай постоян-

но расширяют стратегическое политическое и экономическое сотрудничество, когда в нашей стране работают десятки китайских компаний, расширяется туристический обмен, растёт интерес к китайскому языку среди азербайджанской молодежи и студенчества, как и потребность в квалифицированных переводчиках китайского языка. В настоящее время в Китае получают образование около 500 представителей азербайджанской молодежи. Ежегодно в вузах Азербайджана успешно завершают образование более 50 студентов на уровне бакалавров и магистров по специальности "Китаеведение и китайский язык". Одновременно, на основе межгосударственного соглашения Министерство образования Азербайджана ежегодно отправляет на учебу в Китай до 50 студентов, а по линии Института Конфуция более 10 студентов проходят в китайских вузах годичное обучение китайскому языку. Преподаватели китайского языка успешно оканчивают, регулярно организуемые Китаем, курсы повышения квалификации. Азербайджанская молодежь все чаще отправляется на учебу в Китай на основе стипендий мэров отдельных китайских городов и известных университетов Китая"—сказал Р. Аббасов [23].

К концу 2023 года в мире насчитывалось 498 Институтов Конфуция в 160 странах и регионах мира [5]. Знакомство с культурой народа, путём изучения языка, одна из главных целей преподавания китайского языка в Институте Конфуция. Изучение культуры может улучшить изучение языка, а изучение языка может улучшить культурное взаимопонимание [2, с.93]. В настоящее время в Азербайджане действуют два Института Конфуция Институт Конфуция при Бакинском государственном университете и Институт Конфуция при Азербайджанском университете языков. Они являются мостом дружбы между Китаем и Азербайджаном. В стране растёт интерес к китайской культуре и китайскому языку [16]. Кроме того, в Баку созданы центры обучения китайскому языку и курсы китайского языка. Институт Конфуция при Бакинском государственном университете был открыт 22 апреля 2011 года. Бакинский государственный университет и Аньхойский университет Китая являются филиалы. 24-го июня 2016 г. в Азербайджанском университете языков в Баку открылся Институт Конфуция [19]. Его китайским филиалом является Университет Хучжоу.

Институт Конфуция ежегодно проводит конкурсы по китайскому языку, победителям предоставляется возможность поехать в Китай, чтобы ближе познакомиться с китайской культурой и принять участие в международных конкурсах по китайскому языку. В то же время Институт Конфуция ежегодно проводит различные виды мероприятий по культурному обмену. В феврале 2022 г. Институт Конфуция Азербайджанского университета языков (АУЯ) провел в Бакинском детском саду «Индиго» познавательно-развлекательное мероприятие «Путешествие в Китай с веселой пандой». В ходе мероприятия прозвучали китайская музыка и песни, были проведены веселые детские игры [20]. В феврале 2024 года Институт Конфуция организовал в Азербайджанском национальном музее ковра ряд китайских культурных мероприятий и конкурсов «Праздник счастливой весны». Присутствующим было представлено китайское народное творчество - вырезание из бумаги, сцены боевого искусства Ушу, китайская модель каллиграфии, национальная одежда и т.д. [4] Большой интерес у преподавателей Института Конфуция вызвала организованная музеем демонстрация древнего азербайджанского искусства ковроткачества. В Институте Конфуция при Азербайджанском Государственном Университете стало традицией ежегодно участвовать в мероприятиях по обмену чайной культурой.

После выдвинутой председателем КНР Си Цзиньпином инициативы «Один пояс, один путь» и после визита президента Азербайджана Ильхама Алиева в Китай, министерство образования Китая приняло решение, что официальные государственные языки стран, с которыми у Китая налажены дипломатические отношения, будут преподаваться в стране в качестве специальности. Работу по открытию специальности «Азербайджанский язык» начал осуществлять Пекинский университет иностранных языков. В 2016 году была создана кафедра Азербайджанского языка под руководством Агшина Алиева. 2017 году азербайджанский язык начал преподаваться в университете в качестве третьего языка на основе свободного выбора студентов. А в 2018 году была создана специальность «Азер-

байджанский язык». Тогда же был объявлен прием студентов на основе общереспубликанских экзаменов. В 2022 году первые 9 выпускников Пекинского университета иностранных языков завершили образование по специальности «Азербайджанский язык» [22].

**Наука и искусство**

Культурное сотрудничество способствует научному и техническому обмену. 31 мая 2016 года было подписано Соглашение о технико-экономическом сотрудничестве между КНР и Азербайджанской Республикой [19].

С 2017 г. компания Huawei Technologies Azerbaijan совместно с Министерством транспорта, связи и высоких технологий занимается внедрением в Баку проекта «Умный город», поставляя телекоммуникационное оборудование для операторов связи [1, с.87].

Азербайджан присоединился к совместному российско-китайскому проекту строительства Международной научной лунной станции (МНЛС). С 2 по 6 октября 2023 г. в Баку проходил 74 международный конгресс астронавтики. Космические агентства Китая и Азербайджана подписали соглашение о сотрудничестве по проекту МНЛС. Обе стороны договорились об "укреплении кооперации в областях демонстрации, внедрения, эксплуатации и применения положений программы, что подразумевает установку научных приборов, обеспечение обучения персонала и проведение научных и технологических экспериментов" [15]. Подписание совместного заявления является важной вехой в аэрокосмическом сотрудничестве Китая и Азербайджана и имеет большое значение для содействия научно-техническому прогрессу, экономическому и социальному развитию, а также укрепления отношений дружественного сотрудничества между двумя странами [7].

В рамках инициативы «Один пояс, один путь» постоянно укрепляются обмены в сфере искусства между Китаем и Азербайджаном. 10-го мая 2017 года в Национальной консерватории Китая состоялась концертная программа, посвященная годовщине со дня рождения Национального Лидера Гейдара Алиева и 25-летию установления дипломатических отношений между Азербайджаном и Китаем [19]. В ноябре 2019 года в Пекине, при поддержке Фонда Гейдара Алиева и посольства Азербайджана в Китае, была организована концертная программа «Вечер азербайджанской музыки» [16]. В январе 2020 года состоялся гала-концерт на весеннем фестивале, организованном центральным радио и телевидением Китая. Танцевальная программа «Карнавал Одного пояса, одного пути» собрала танцоров из четырех стран на одной сцене, в том числе, танцевальную труппу из Азербайджана. 4 июля 2023 года в рамках 12-го Международного музыкального фестиваля «Шелковый путь», проходящего в Шеки (Азербайджан), танцоры и музыканты из Ляншань-Ийского автономного округа Китая подарили любителям музыки красивые мелодии. Публика тепло встретила артистов и долго аплодировала им [6].

Центральное телевидение Китая на канале CCTV осуществляет масштабный проект серии документальных фильмов «Дом издалека». Эти фильмы рассказывают о странах, находящихся на Великом Шёлковом пути. Производственная группа взяла на себя миссию соединить Китай и мир. Дать всему миру истинное понимание инициативы «Один пояс, один путь». Большой интерес у зрителей вызвал фильм, снятый в 2018 г. «Дом издалека-Азербайджан». Фильм состоит из 7 серий под названиями: «Эхо Шелкового пути на тысячелетнем торговом маршруте»; «Страна огней»; «Теплый маршрут Шелкового пути»; «Частная торговля на новом Шелковом пути»; «Идиллическая жизнь под горами Малого Кавказа»; «Эксклав–Нахичевань»; «Прогулки по Нахичевану» [9].

**Туризм**

Общеизвестно, что туризм даёт возможность познакомиться с культурой других стран, обогащает человека духовно, способствует развитию личности позволяет совмещать отдых с познанием нового. Туризм является носителем культурных обменов. С помощью туризма имидж страны может быть донесен до мира и вызвать интерес к той или иной стране. С каждым годом растёт интерес китайских туристов к Азербайджану.

"В целях расширения контактов между людьми, содействия туристическим визитам и деловым связям", с 1 февраля 2016 года Азербайджан ввел упрощенный визовый режим для 10 стран, вклю-

чая Китай. В Министерстве культуры и туризма Азербайджана считают, что, поскольку Азербайджан расположен на Шелковом пути, это решение увеличит количество туристов из стран Дальнего Востока, в том числе из Китая [11]. 3 июля 2016 года был открыт рейс Баку-Урумчи-Гуанчжоу авиакомпании China Southern Airlines [19].

15 ноября 2023 г. в Пекине, Государственным агентством по туризму Азербайджана и China Tourism Group, был подписан Меморандум о взаимопонимании по стратегическому партнерству в сфере туризма. С 9-13 ноября в китайских городах Шанхай, Гуанчжоу и Чэнду была проведена серия презентационных мероприятий, организованных Азербайджанским бюро по туризму [14]. В период с января по октябрь 2023 года число китайских путешественников составило 20 469 человек, что свидетельствует об особом интересе китайцев к Азербайджану [18]. 20 декабря 2023 года Национальный авиаперевозчик Азербайджана AZAL приступил к регулярным рейсам по маршруту Баку-Пекин-Баку. В Азербайджане, имеющем богатое культурное наследие, живописную природу, древнюю и современную архитектуру, в последние годы активно развивается туристическая индустрия, проделана значительная работа по улучшению туристических услуг, в результате чего страна стала популярным туристическим направлением для путешественников из разных уголков мира, в том числе и Китая [17].

16 мая 2024 года Бюро по туризму Азербайджана заняло первое место в категории «Потенциальное туристическое направление» на конкурсе «Chinese Tourist Welcome Award 2024», организованном «Китайским научно-исследовательским институтом выездного туризма». Следует отметить, что число граждан Китая, посетивших Азербайджан в 2023 году, увеличилось более чем в 6 раз по сравнению с 2022 годом [13].

Развитие туристической индустрии способствует пониманию культуры и истории обеих стран и сближению их народов.

### Литературные издания

С древних времён до наших дней, книги являются важным носителем знаний и обмена цивилизациями. Книги отражают время, формируют всесторонние представления об эпохе. Посредством книги открываются двери в мир, познаётся язык, культура, обычаи и традиции другой страны. Люди лучше узнают друг друга. К примеру, в Китае на китайский язык переведены и изданы стихи древнего азербайджанского поэта Низами. Большое символическое значение имеет тот факт, что в здании секретариата Шанхайской организации сотрудничества установлен бюст гениального азербайджанского поэта Низами Гянджеви, подаренный ШОС Фондом Гейдара Алиева [16].

15 сентября 2015 года был подписан Меморандум о сотрудничестве между национальными библиотеками Азербайджана и Китая [19]. С того времени написано и переведено много научных статей, совместно изданы книги и словари. 3 июня 2016 года в Академии Управления при Президенте Азербайджанской Республики состоялась презентация книги «Си Цзиньпин о государственном управлении» [19]. Эта книга была переведена на 24 языка. Она помогает читателям понять сложность управления такой большой страной, как Китай.

28 апреля 2017 года в посольстве Азербайджана в Пекине состоялась презентация книги «Китаби-Деде-Горгуд» - на китайском языке. Перевод эпоса этого величественного памятника искусства, отражающего историческое прошлое азербайджанского народа, был осуществлён доцентом Пекинского университета иностранных языков Лю Чжао.

В 2018 году Шанхайским издательством иностранных языков издан «Азербайджанско-англо-китайский иллюстрированный словарь». В августе 2021 года вышел в свет первый набор учебных пособий Агшина Алиева по китайской культуре на азербайджанском языке - «Çin mədəniyyəti Azərbaycan dilində».

10 мая 2024 года в Пекине состоялась церемония презентации учебника «Азербайджанский язык» («Azərbaycan dili»), организованная издательством Иностранные языки (Китай) и посольством Азербайджанской Республики в Китае. На церемонии присутствовали представители нескольких посольств, преподаватели Пекинского университета иностранных языков и другие официальные лица [3].

10 мая 2024 года в Баку, в день 101-й годовщины со дня рождения Гейдара Алиева состоялась

презентация книги доцента Азербайджанского Университета Языков Рафика Аббасова «Азербайджан-Китай (1993-2003)» («Azərbaycan-Çin (1993-2003)») [10]. Книга повествует о роли Гейдара Алиева в развитии дружественных отношений и сотрудничестве между Китаем и Азербайджаном.

В марте 2022 года состоялось эксклюзивное интервью посла КНР в Азербайджанской Республике Го Минь информационному агентству «SES»: «В последние годы постоянное углубление обменов и сотрудничества между Китаем и Азербайджаном в сфере культуры приносит плодотворные результаты. Компетентные органы культуры, литературные и художественные организации двух стран поддерживают тесные контакты и осуществляют широкое сотрудничество в области популяризации традиционной культуры, культурных и образовательных обменов, а также защиты культурного наследия посредством различных форм, таких как взаимные визиты, культурные мероприятия и научные семинары. Китайское народное общество дружбы с заграницей, Фонд Сун Цинлин, Китайское научное общество народной дипломатии, Китайская ассоциация общественной дипломатии, Китайский комитет ШОС по добрососедству, дружбе и сотрудничеству и другие китайские организации установили с Фондом Гейдара Алиева и Международным центром Низами Гянджеви добрые отношения сотрудничества и сформировали механизмы регулярного взаимодействия. Они совместно продвигают двусторонние рабочие визиты, научные конференции, встречи молодежных групп по обмену и диалогу и различные культурные мероприятия, эффективно содействуют культурному взаимодействию между двумя странами. Китай высоко оценивает сложившееся положение культурного сотрудничества между странами и полон уверенности в перспективах его дальнейшего развития» [24].

Инициатива «Один пояс, один путь» открыла возможности во многих областях, включая бизнес, культуру, образование, туризм, здравоохранение и. т. д., для сотрудничества между странами, расположенными вдоль маршрута, Культура играет связующую роль в развитии внешних отношений. Всестороннее использование исторической возможности инициативы «Один пояс, один путь» и осуществление культурных обменов и сотрудничества – это необходимость экономической глобализации. В настоящее время и в перспективе между Китаем и Азербайджаном существует большой потенциал для культурных обменов и развития. Взаимные культурные обмены и взаимопонимание способствует более стабильному и дружественному развитию отношений между двумя странами.

**ЛИТЕРАТУРА**


*1. Тасиц К. И. Развитие отношений Китая с республиками Южного Кавказа в контексте инициативы "Пояс и путь". Проблемы Национальной Стратегии. № 5 (56), 2019.с.80-96.*

*2.* 邓亚男.跨文化传播视角下的中华文化核心内涵研究[J]. 武汉:今古文创. *2024(4), p.91-93.*

*3.*《阿塞拜疆语速成》新书首发式在北京举行 *(cicg.org.cn) http://www.cicg.org.cn/m/2024-05/13/content_42788140.html(дата обращения:20.05.2024.)*

*4.*庆祝孔子学院二十岁生日系列文化活动—阿塞拜疆语言大学孔子学院举办了“欢乐春节”文化活动 *(zjhu.edu.cn) http://wsc.zjhu.edu.cn/2024/0202/c1118a210291/page.htm(дата обращения:03.04.2024.)*

*5.* 全球网络-中国国际中文教育基金会 *(cief.org.cn) https://www.cief.org.cn/qq#:~:text=%E6%88%AA%E8%87%B32023%E5%B9%B4%E5%BA%95,773%E6%89%80%E5%AD%94%E5%AD%90%E8%AF%BE%E5%A0%82(дата обращения:10.05.2024.)*

*6.* “丝绸之路”音乐节期间举办中国歌舞团音乐会 - 阿通社报道 *(azertag.az) https://azertag.az/chn/xeber/china-2686030, 07.07.2023(дата обращения:15.01.2024.)*

*7.*我国牵头，阿塞拜疆加入国际月球科研站计划 *(baidu.com) https://baijiahao.baidu.com/s?id=1779261742853427410(дата обращения:12.04.2024.)*

*8.* 我国已与*152*个国家、*32*个国际组织签署共建“一带一路”合作文件_部门动态_中国政府网 *(www.gov.cn) (дата обращения:10.05.2024.)*

*9.* 央视中文国际频道《远方的家》特别节目《一带一路》*8*月*29*日开播 *(cctv.com) https://tv.cctv.com/2016/08/26/ARTI8uYzYgqM9sORH4yx8iW9160826.shtml(дата обращения:11.05.2024.)*

*10. ADU-da “Azərbaycan-Çin (1993-2023)” kitabının təqdimatı olub https://adu.edu.az/az/*

*xeberler/xeberler/8449.html 10 may, 2024.(дата обращения:20.05.2024.)*

*11. Azərbaycan çinli turistlərdən nə qədər gəlir götürəcək? - BBC News Azərbaycanca https://www.bbc.com/azeri/azerbaijan/2016/02/160208_china_azerbaijan_tourism (дата обращения:11.02.2024.)*

*12. Azərbaycan Respublikası və Çin Xalq Respublikasının dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında (china-embassy.gov.cn) http://az.china-embassy.gov.cn/eng/sbjw/202011/t20201118_1112331.htm(дата обращения:10.04.2024.)*

*13. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi - Azərbaycanın turizm imkanları Çində sərgilənir (tourism.gov.az) https://www.tourism.gov.az/az/news/azerbaycanin-turizm-imkanlari-chinde-sergilenir(дата обращения:25.05.2024.)*

*14. Azərbaycan və çinli tərəfdaşlar arasında turizm üzrə əməkdaşlığa dair memorandumlar imzalanıb - AZƏRTAC (azertag.az) .16.11.2023. https://azertag.az/xeber/azerbaycan_ve_chinli_terefdaslar_arasinda_turizm_uzre_emekdasliga_dair_memorandumlar_imzalanib-2825167(дата обращения:12.05.2024.)*

*15. Азербайджан присоединился к строительству научной лунной станции Report.az https://report.az/ru/ikt/azerbajdzhan-prisoedinilsya-k-stroitelstvu-nauchnoj-lunnoj-stancii/ 9 октября 2023 г.(дата обращения:12.04.2024.)*

*16. Азербайджано-китайские связи – дружба, начавшаяся с исторического Шелкового пути (xalqqazeti.az) 29.03.2024 https://Xalqqazeti.Az/Ru/Siyaset/172574-Azerbaydjano-Kitayskie-Svyazi-Drujba-Natchavshayasya(дата обращения:11.05.2024.)*

*17. AZAL начал полеты из Баку в Пекин ВИДЕО - АЗЕРТАДЖ (azertag.az) 20.12.2023.(дата обращения:12.04.2024.)*

*18. AZAL, Азербайджанское Бюро по туризму и China Tourism Group подписали меморандум о взаимопонимании | Report.az https://report.az/ru/turizm/azal-azerbajdzhanskoe-byuro-po-turizmu-i-china-tourism-group-podpisali-memorandum-o-vzaimoponimanii/ 16 ноября 2023 г.(дата обращения:12.05.2024.)*

*19. ДВУСТОРОННИЕ ОТНОШЕНИЯ (mfa.gov.az) https://beijing.mfa.gov.az/ru/content/3/bilateral-relations(дата обращения:13.05.2024. )*

*20. Институт Конфуция Университета Языков провел познавательно-развлекательное мероприятие для детей - АЗЕРТАДЖ (azertag.az) 21.02.2022. https://azertag.az/ru/xeber/Institut_Konfuciya_Universiteta_yazykov_provel_poznavatelno_razvlekatelnoe_meropriyatie_dlya_detei-2021708(дата обращения:11.03.2024.)*

*21. Концепция сотрудничества на море в рамках инициативы «Один пояс и один путь» 201706200155054.pdf (yidaiyilu.gov.cn) (дата обращения:20.02.2024.)*

*22. Максутов Т. Впервые в мире: Агшин Алиев о том, как в Пекине готовят специалистов азербайджанского языка - ФОТО | 1news.az | Новости*

*https://1news.az/news/20220131093339953-Vpervye-v-mire-Agshin-Aliev-o-tom-kak-v-Pekine-gotovyat-spetsialistov-azerbaidzhanskogo-yazyka-FOTO(дата обращения:15.05.2024.)*

*23. Эксклюзив: За 30 лет, прошедших со дня установления дипломатических отношений, сотрудничество между Азербайджаном и Китаем в области образования непрерывно укреплялось -- азербайджанский ученый-китаист_Russian.news.cn https://russian.news.cn/20220504/e049bc2a038247dc9b94dd1eb47f1ccb/c.html(дата обращения:20.02.2024.)*

*24. Эксклюзивное интервью посла КНР в Азербайджанской Республике Го Минь информационному агентству «SES» (china-embassy.gov.cn)*

*http://az.china-embassy.gov.cn/rus/sgxw/202203/t20220309_10650224.htm(дата обращения:22.04.2024.)*

**Wang Jibao**
***Bakı Dövlət Universitetinin***
***"Qafqaz xalqlarının tarixi"***
***Kafedrasının doktorantı***

## “BIR KƏMƏR, BIR YOL” TƏŞƏBBÜSÜ ÇƏRÇİVƏSİNDƏ ÇİN VƏ AZƏRBAYCAN ARASINDA MƏDƏNİ MÜBADİLƏ

**XÜLASƏ**

Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsünə qoşulan ilk ölkələrdən biridir. 2015-ci ildən “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində Çin və Azərbaycan arasında mədəni mübadilə yeni səviyyəyə yüksəlib. Hər iki ölkə arasında tələbə mübadiləsi aparılır, Konfutsi İnstitutu azərbaycanlı gənclərə Çin dilini

öyrədir və onları Çin mədəniyyəti ilə tanış edir. “Bir kəmər, bir yol” təşəbbüsü bir çox sahələrdə, o cümlədən biznes, mədəniyyət, təhsil, elm, turizm, səhiyyə və s. ÇXR və Azərbaycan Respublikası arasında əməkdaşlığa imkanlar açır.

**Açar sözlər:** *Çin, Azərbaycan, “Bir kəmər, bir yol” təşəbbüsü, mədəni mübadilə.*

**Wang Jibao**
***Doctoral student of Baku State University of the Department “History of the Peoples of the Caucasus”***

**CULTURAL EXCHANGES BETWEEN CHINA AND AZERBAIJAN UNDER THE BELT AND ROAD INITIATIVE**

**SUMMARY**

Azerbaijan is one of the first countries to join the Belt and Road Initiative. Since 2015, cultural exchanges between China and Azerbaijan have reached a new level under the Belt and Road Initiative. There are student exchanges between the two countries. The Confucius Institute teaches the Chinese language and introduces Chinese culture to Azerbaijani youth. The Belt and Road Initiative has opened up opportunities for cooperation between China and Azerbaijan in many fields, including economy, culture, education, science, tourism, health, etc.

**Keywords:** *China, Azerbaijan, the Belt and Road Initiative, cultural exchange.*

**РЕЗЮМЕ**

Азербайджан является одной из первых стран, присоединившихся к инициативе «Один пояс, один путь». С 2015 года в рамках инициативы «Один пояс, один путь» культурные обмены между Китаем и Азербайджаном вышли на новый уровень. Осуществляется обмен студентами обеими странами, Институт Конфуция обучает китайскому языку и знакомит с китайской культурой азербайджанскую молодёжь. Инициатива «Один пояс, один путь» открыла возможности во многих областях, включая бизнес, культуру, образование, науку, туризм, здравоохранение и. т. д., для сотрудничества КНР и Азербайджанской Республики.

**Ключевые слова:** *Китай, Азербайджан, инициатива «Один пояс, один путь», культурный обмен.*

UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2024.4.82.60

# SASANİLƏRİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT

LEYLA YƏHYAYEVA

*BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının II kurs magistrantı*

*E-mail: yahyayeva.leyla@inbox.ru*

Sasanilər sülaləsi hakimiyyətə gəldiyi zaman Azərbaycanda mürəkkəb siyasi vəziyyət yaranmışdır. Məlumdur ki, 224-cü ildə Parfiyanı məğlub edən I Ərdəşir Papakan (224-242) bütün İran üzərində hakimiyyəti ələ keçirdi. Parfiya hökmdarı döyüş meydanında öldü və Arşakilər sülaləsinin varlığına son qoyuldu. Ərdəşir bu qələbəsini Nəqşi-Rüstəmdəki divar rəsmlərində göstərmişdi. Sasanilər dövləti yarandıqdan qısa müddət sonra işğalçılıq siyasətinə başladı. Sasani dövrünün yaranması prosesinin bir çox təfərrüatları mənbələrdə, ümumiyyətlə, işıqlandırılmasa da ,siyasi hadisələrin gedişi bərpa oluna bilər [9,s.16]. Rəvayətə görə bu sülalənin əsası Sasan tərəfindən qoyulmuşdur. Lakin Sasanın doğulduğu yer və onun kim olması dəqiq məlum deyildir. IX əsrdə yaşamış ərəb tarixçisi Təbəriyə görə Sasan fars bölgəsində yer alan İstəxr şəhərində Anahida məbədinin rahibi (mobed və ya mog ) idi [ 6,s.33]. Sasanı mənşəcə parfiyalı hesab edən mənbələr də var. Sasanilərin babaları və Ərdəşir Papakanın atası olan Sasan, İstəxrdə Hirbadi – Ateşgedeyi -Anahida ünvanıyla xidmət edirdilər [7,s.27]. Pəhləvi dilində yazılmış Karname-i Erdeşir-i Babekan yazısında bəhs edilmişdir. Bu əsərdə Sasanın Əhəməni nəslindən olduğu bildirilmiş və Papakın yanında çobanlıq etmişdir. Papak Sasanın onunla eyni soydan gəldiyini bildikdən sonra qızını ona ərə vermişdir. Lakin bu fikir bir qədər qərəzli görünür. İran mifologiyasını və tarixini özündə əks etdirən Firdovsinin "Şahnamə" poemasında parfiyalıları "iranlı olmayan əcnəbi" adlandırırdılar [6,s. 31]. Bunun səbəbi, görünür ki, parfiya şahlarının ellinizmə meyil etməsi ilə əlaqəli ola bilər. Buna görə də Sasanı dövlətinin yaranması İran mədəniyyətinin ellinistik ünsürlərdən azad olması və özünə qayıdış olaraq izah edilmişdir [6,s. 33]. Sasani dövlətinin adı antik qaynaqlarda midiyalı, fars və ya parfiyalı olaraq tanınmışdır. Sasanilər isə özlərini "Aryan ölkəsi" yəni Eranşehr adlandırmışdılar. Sasani dövləti anlayışı isə orta əsrlərdə yaranmışdır.

Bəzi tarixçilər hesab edir ki, bu dövləti Parfiya –Sasani konfederasiyası hesab etmək olar. Hətta bu parfiya nəsillərindən olan ailələr uzun müddət Sasani dövlətinin müxtəlif ərazilərini idarə etmişlər. Persidada, Elimaidada, Atropotenada, Hirkanda, Albaniyada və Gürcüstanda kiçik arşaki sülalələri yarandı [10,s.130]. Arşakilər sülaləsi Albaniyanı Sasanilərin hakimiyyəti dövründə də idarə etmişlər. II Sapur əbədi müharibələrlə məşğul olmuş, fars silahlarının dəhşətini hər tərəfə yaymış və sələflərindən daha əzəmətli hökmranlıq edilmişdi [12,s.254]. Sasanilərin bu siyasəti Roma dövləti ilə müharibələrə gətirib çıxardı. Atropatena təxminən eramızın 227 -cı ilində işğal olundu. Həmin dövrdən İranın şimal –qərbi Azərbaycan adlandırılmışdır [1,s.116]. Sasani idarəetmə aparatını qoruyub saxlayan ərəblər Azərbaycan adını da saxlamışlar [1,s 117]. Atropatena mühüm ticarət yollarının üzərində yerləşdiyi üçün imperiyanın iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda Zərdüşt ayinlərinin yerinə yetirildiyi əsas yerlərdən biri idi. Sasaniların dövründə Muğan və Gilan da Atropatenanın tərkibinə daxil idi. Sasanilər Atropatenaya xüsusi əhəmiyyət verirdilər. Artıq Albaniyada xristianlıq cəmiyyətdə özünə yer tapa bilmişdir.Cənubi Qafqaz regionunda cəmiyyətdə baş verən sinfi ziddiyyətlər onların Roma və Sasani, daha sonra Bizansa meyil etməsinə səbəb olurdu. Padşahları devrilmiş ermənilər də Sasani hakimiyyətindən narazı qalmışdılar [11,s.179]. Ermənilər Sasani kimi güclü dövlətin qurulmasını istəmirdilər. Hələ Parfiya zamanında İran və Roma dövlətləri arasında ixtilafların ən təməl səbəbi iqtisadi səbəblər idi [7,s.30 ]. Tarixi İpək yolu Roma ərazisindən keçərək, Şərq istiqamətində Çinə qədər davam edirdi. Bu yol Atropatena və Albaniyadan da keçirdi. Bu əraziləri ələ keçirmək üçün savaşmışlar. 232-ci ildə Roma Sasanilərə qalib gəlmək üçün Fərat çayından keçmişdir. Burada Roma ordusu Azərbaycana doğru hərəkət etmişdir. Roma ordusu ermənilərlə ittifaqa girib Azərbaycanı ələ keçirmişdi [7,s.41]. Lakin romalılar döyüşdə ağır itki verdiklərindən sülh bağlamağa məcbur olmuşlar. Nəticədə Parfiya dövründəki sərhədlər bərpa olunmuşdur. Roma imperatoru Konstantin 313-cü ildə xristianlığı rəsmi dövlət dini olaraq qəbul etdi. Bu

vaxtdan etibarən Roma imperiyası özünü xristian dünyasının himayəçisi kimi aparmağa başladı. Sasanilərin xristian əhalisi xüsusilə ermənilər Sasanilərə qarşı çıxdılar. Artıq Sasani xristianları Romaya özlərinin xilaskarı kimi baxırdılar. Bu dövr Albaniya siyasi tarixi mənbələrin azlığı ucbatından öyrənilə bilməmişdir. Şimal tayfaların basqınları Albaniyaya da təsir etdi. Həmin tayfalar Dərbənd keçidindən keçərək ölkədə məskunlaşmışlar. Xüsusilə hunların axını IV əsrdə daha da çoxalır. Sonralar erməni qaynaqlarına görə hunlar Albaniyanın şimalında –Çola şəhərində maskutlar ilə qarışıb onlarla birgə yaşayırdılar [5,s.179]. Dərbənd keçidi ilə Beşbarmaq dağı arasında Masaha hun dövləti mövcud olmuşdur. Onun hökmdarı Arşaki nəslindən olan Sanatruk idi. Masaha Hun dövlətində yaşayan əhali irandilli alanların turkdilli hunların və qafqazdilli tayfaların qarışığından ibarət olmuşdur [5,s.180]. Masaha hunlarının adı Sasanilərə qarşı üsyan ilə əlaqəli olaraq çəkilir.

Albaniyanın xarici siyasəti ilə bağlı məlumatlar yalnız Favstos Buzand, Moisey Xorenli və Musa Kalankatlıda vardır. Mənbələrin məlumatına görə, III Trdatın 16 vilayətin hökmdarını çağırmış və bunların içərisində Uti vilayətinin hökmdarı da var idi. Aqafangelə görə, IIII Trdatın zamanında Albaniya və Ermənistan sərhəddində yerləşən Uti Ermənistanın tərkibində olmuşdur [11,s.171]. IV əsrin əvvəllərində Paytakaranda Sanatruk və ya Sanasen hakimiyyətdə idi. VII əsr alban tarixçisi Musa Kalankatlı Paytakaranı alban vilayəti kimi göstərir. Bəzi erməni mənbələri göstərir ki, Sanatrur III Trdata qohumdur. Musa Kalankatlı isə onu III Trdatla qohum hesab etmir. Ermənistanı tabe etməyə çalışan II Şapurun dəstəyi ilə Sanatürk 337-ci ildə Ermənistanın mərkəzi Valarşapatı tutur. Romalıların köməyi ilə ermənilər Sanatürkü məğlub edə bilir. Favstos Buzandın dediyinə görə Sanatruk Xosrovun qohumu idi və III Trdatın taxtına olan iddiaları səbəbindən Sasanilərdən alınan dəstəklə ermənilər üzərinə hücum etmişdi. Sanatruku türk mənşəli olduğunu iddia edən müəlliflər də var. Cəsur Vaçaqanın da Arsaklar sülaləsindən olduğu məlumdur. O da dəqiq məlumdur ki, Albaniya – Aran dövləti eyni ərazidə özündən əvvəl mövcud olmuş Maskut (Massaget) xanlığının yerində peyda olmuşdu [2,s.7]. Musa Kalankatlı Sanatrukun yürüşündən danışarkən bildirir ki, Sanatruk 30 minlik ordu ilə Ermənistana hücum edir. O,Sanatruku Paytakaranı idarə edən hökmdar kimi tanıyır. Moisey Xorenlidən fərqli olaraq 20 min deyil, 30 min olduğunu göstərir [11,s.175]. Bir çox iddialara görə Albaniyada Arşakilərin hakimiyyəti Sanatrukdan başlayir. Lakin Sanatruk Paytakaranı idarə etdiyi bir zamanda Albaniyada Urnayr hakimiyyətdə olmuşdur. Musa Kalankatlı da hökmdar siyahısında bu sülalənin ilk hökmdarı I Cəsur Vaçaqan olduğunu göstərir.

Mənbələrdə Maskut çarlığı kimi göstərilən ərazi Aqafangel tərəfindən masaha kimi xatırlanır .Görünür ki, bu ad Orta Asiya toplumu olan massagetlərin etnik adına aid edilməlidir [3,s.176]. Albaniyada Arşakilər sülaləsi I əsrdən VI əsrədək “alban mütləqiyyəti ləğv olunana və ölkə canişinlərinə verilənədək” davam etdi [2,s.54]. Lakin alban arşakiləri Şimali Azərbaycan ərazisinə bütövlükdə idarə etmirdilər. “Alban tarixi” əsəri bu dövr siyasi vəziyyəti bərpa etmək üçün əsas yerli mənbədir. Onun məlumatlarından belə nəticə çıxır ki, Aran sülaləsindən sonra ölkəni Arşakilər idarə etməyə başladı. Arşakilər Parfiya mənşəli olmuşdular. İranda Parfiya –Arşakilər sülaləsi onlardan asılı olan bölgələrin idarəçiliyini öz adamları olan Arşakilərin nümayəndələrinə verdi. Alban Arşakiləri haqqında əldə etdiyimiz məlumatların əsas mənbələri Musa Kalankatlı, Favstos Buzand, Yelişe, Aqafanqel, Kirakos Gəncəli və Mxitar Ayrivanetsinin əsərləri habelə “Müqəddəslərin həyatı” və “Çarıntir”dir [10,s.161]. Arşakilərin Albaniyada hökmranlığı dövrünün başlanğıcı və bu sülalə hökmdarları haqqında müxtəlif fikirlər mövcuddur. Bir çox tarixçilər Albaniyada massaget Arşakiləri hökmranlıq etmiş və ilk nümayəndə Sanatruk olmuşdur. C.T.Yeremyan Arşakilərin alban budağı olduğunu inkar edir, N.Akinyan və B.A.Ulubabyan Arşaki hökmdarlarının siyahısını uydurma sayırdı [10 ,s.161].

Erkən orta əsrlər tarixində Azərbaycanın siyasi və mədəni həyatında mühüm rol oynayan tayfalardan biri hunlardır. Erməni tarixçisi Yelişe bu tayfa haqqında məlumat verir və onları haylandur adlandırır. Yelişenin hekayəsində haylandurlar ilk dəfə Sasani şahı III Yezdəgerdin Kuşanlara qarşı yürüşündən sonra çəkilir. Haylandurların adını sonuncu dəfə Yelişe Albaniyada üsyanın yatırılması ilə bağlı çəkib. II Vaçenin üsyanı zamanı Sasanilər hunlardan kömək almışdılar[8,s.23]. Haylandurlardan sonra Sabir adlı hun tayfalarının dəstələri Azərbaycana gəlir. Tədricən Azərbaycanda yaşayan tayfalarla sosial-mədəni və siyasi əlaqələr qurmuşlar.

Onoqurlararın Albaniya ərazisində (461-462 ) olduğu dövrdə,şimal-qərb Xəzər bölgəsinin çöllərində avarlardan qaçaraq Volqanın o tayından Sabir tayfası peyda oldu [8,s.30]. Sabirlər özlərinə hərbi siyasi ittifaqı təxminən V əsrdə qurmuşlar. Mənbələrin məlumatına əsasən bu birliyin sərhədlərinə Qafqaz mülkləri –Albaniya və İberiyanın birləşdiyi Qafqaz dağları boyunca uzanan ərazilər daxil idi. 503-cü ildə Sabir hunları Sasani qarnizonunu dağıdaraq Qafqazın şərq qollarının dağ keçidlərindən keçərək Albaniyaya daxil oldular.

"Hüdud-əl aləm"in, Fələki, Xəqani və başqa müəlliflərin verdiyi məlumata görə Girdman qalası və şəhəri Şirvan ərazisindədir [4,s.32]. Ziya Bünyadov Girdman vilayətinin Azərbaycanın qərbində olduğunu bildirirdi. Musa Kalankatuklu bildirirdi ki, Mehranilər sülaləsi İran mənşəli olmuşdur. Sasanilər tərəfindən bu ərazi onlara bağışlanmışdı.Mehranilər təxminən iki əsr Albaniyanın böyük knyazı-işxanı adını daşımışlar [10,s.186]. Bununla belə, tarixçilər, Mehranilərin Sasani mənşəli olması anlayışını şübhə altına alır, onların əsl mənşəyinin Pəhləv Mehran qəbiləsindən olması tərəfdarıdırlar. Mehranın Ərdəşirin əleyhdarı və I Hörmüzün babası Mihrakdan törədiyini irəli sürən Firdovsinin "Şahnamə"-sində bildirilir. Mətn ilə bağlı Təbəri və Dinəvəri hesablarında Reyin qeyd edilməsi son dərəcə əhəmiyyətlidir və bu, tayfanın imperiyanın şimal-qərb hissəsindən, çox güman ki, Gürgandan olduğunu təsdiqləyir. Qafqazın həm İran, həm də Bizans üçün strateji əhəmiyyəti Hun tayfalarının ora gəlişi ilə aydın oldu. Təhlükə, ilk növbədə, İmperiya ilə əməkdaşlıq edərək Qafqaz aşırımından keçidi bağlayacaq bir qala tikmək istəyən İran şahları tərəfindən dərk edildi. Roma qərbdə çətinlik çəkdiyi üçün Qafqaz aşırımının təhlükəsizliyini təmin etmək yükü İranın üzərinə düşürdü. Görünür, imperiyanın Qafqazın müdafiəsi xərclərində iştirakı haqqında söhbətlər mənbələr Perozun hakimiyyəti dövründə Ambazukun komandanlıq etdiyi hunların şəhərin müvəqqəti işğalını təsdiqləyir. Kavadın hakimiyyəti dövründə işğalçı tayfaların yaratdığı potensial hərbi təhlükə Dərbənd divarının tikintisinə səbəb oldu. Kavad, işğalçı tayfaları Şimali Qafqazdan qovduqdan sonra II Yəzdigərd tərəfindən artıq tikilmiş əvvəlki tikililər üzərində inşa edərək divarın tikintisinə başladı. Divarın inşası post-islam mənbələrinin qeyd etdiyi kimi, onun müdafiəsinin İran qarnizonları ilə təchiz edilməsini zəruri etdi. İranlı köçkünlərin Qafqaza gəlişi Beyləqan, Şərvan və s. kimi yerlərin adlarını izah edərdi ki, bu da gələnlərin İranın şimal bölgələrindən, xüsusən Gilandan gəldiklərinin göstəricisidir. Mehranilər sülaləsi Sasanilərin vassalı kimi Albaniyanı idarə edirdilər. Sasanilərin apardığı müharibələrdə öz ordusu ilə iştirak edirdilər.Bu dövrdə Mehranilərın ən mühüm nümayəndələri Varaz Qriqor və Cavanşir olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abdulla Fazili. Ullusunu tanımayan tanrısını tanımaz. Atropatena e.ə IV-VII əsrlərdə. Bakı 1992. 620 s.*

*2. Azərbaycan tarixi II cild Bakı, Elm nəşriyyatı 2007. 608 s.*

*3. Bəxtiyar Tuncay . Qafqaz albanlarının dili və ədəbiyyatı. Qanun nəşriyyatı 2010. 368 s.*

*4. Cəbiyev Q.C. Girdman tarixi. Şərq-Qərb nəşriyyatı 2010.510 s.*

*5. Əliyarlı.S. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər.*

*6. Sivrioğlu T.U.Perslerin ardından İran. Sasaniler dönemi. İstanbul ,Arkeoloji ve Sanat yayınları.2023. 685 s.*

*7. Zerrinkub A ve Ruzbeh Zerrinkub. Ali Hüseyn Toğanın tercümesinde. Sasanilerin siyasi tarihi. İstanbul 2019.*

*8. Джафаров Юсиф. Гунны и Азербайджан. Баку, Азернешр 1993.*

*9. Касумова С. Ю. Азербайджан В III—VII вв. (Этно - культурная и 10.Мамедова Ф. Политическая история и историческая география кавказской албании (III в. до н. э. — VIII в. н. э.) Баку ,Элм 1986. 808 s оциально - экономическая история). Баку ,Элм 1993 198 s*

*11. Тревер К.В. Очеркипо истории и культуре кавказкой албании ( IV в.до н.э.- VII в. н.э) Москва 1959*

*12. Rawlinson G. Seventh great oriental Monarchy of the geography history and antiquities of the Sasanian or New Persian empire. 503 s.*



**Leyla Yəhyayeva**
**Sasanilərin hakimiyyəti illərində Azərbaycanda siyasi vəziyyət**
**XÜLASƏ**

Bu dövrdə siyasi vəziyyətin tədqiqi Azərbaycan tarixinin digər problemlərini aydınlaşdırmağa imkan verir.

Sasanilərin hakimiyyəti dövründə Albaniya və Atropatenanın iqtisadi-mədəni həyatı, cəmiyyətin daxilində gedən inteqrasiya prosesi, siyasi vəziyyətin öyrənilməsi əhəmiyyətlidir. Lakin III-VII əsrlərdə mənbələrin məhdudluğu, mürəkkəbliyinə görə az tədqiq olunmuşdur. Sasanilərin hakimiyyətdən sonrakı dövrdə Azərbaycan xalqının yaranması bunu sübut edir ki, bu dövrdə cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında mühüm dəyişikliklər baş vermişdir. Siyasi vəziyyətin tədqiqi, müxtəlif tayfalardan olan etnosların bir-biri ilə əlaqələri və sosial sistemin fərdləri olmaq üçün müəyyən sosial normalara əməl etməsi –xalqın yaranmasına səbəb oldu.Türkdilli tayfaların axınının güclənməsi bu dövrdə cəmiyyətdə gedən dəyişikliyə səbəb olmuş və cəmiyyətə yeni mədəni ünsürlər gətirmişdir.

**Açar sözlər:** *Sasanilər, Albaniya, Atropatena, maskutlar,hunlar, alban çarları.*

**Leyla Yahyayeva**
**Political situation in Azerbaijan during the Sassanid rule**

**SUMMARY**

The study of the political situation in this period allows to clarify other problems of the history of Azerbaijan.

It is important to study the economic and cultural life of Albania and Atropatena, the process of integration within the society, and the political situation during the reign of the Sassanids. However, due to the limitations and complexity of sources in the III-VII centuries, it was little studied. The emergence of the Azerbaijani nation in the period after the rule of the Sassanids proves that important changes took place in the socio-economic and cultural life of the society during this period. The study of the political situation, the relations of ethnic groups from different tribes with each other and the observance of certain social norms in order to become members of the social system led to the creation of the nation.

**Key words:** *The Sasanian,Albania,Atropatena, maskuts, the huns , the albanian rulers.*

**Лейла Яхьяева**
**Политическая ситуация в Азербайджане во время правления Сасанидов**

**РЕЗЮМЕ**

Изучение политической ситуации в этот период позволяет прояснить и другие проблемы истории Азербайджана.

Важно изучить экономическую и культурную жизнь Албании и Атропатены, процесс интеграции внутри общества и политическую ситуацию во время правления Сасанидов. Однако из-за ограниченности и сложности источников в III-VII веках он был мало изучен. Возникновение азербайджанской нации в период после правления Сасанидов доказывает, что в этот период в социально-экономической и культурной жизни общества произошли важные изменения. Изучение политической ситуации, взаимоотношений этносов разных племен друг с другом и соблюдение определенных социальных норм с целью стать членами социальной системы привели к созданию нации.

**Ключевые слова:** *Сасаниды, Албания, Атропатена, маскуты, гунны, албанские правители.*

UOT94 "19/..."
DOI: 10.30546/3006-0346.2024.4.82.62

# "KÖNÜLLÜ ORDU"NUN DAĞLI RESPUBLİKASINA TƏCAVÜZÜNƏ QARŞI AXC-NİN DİPLOMATİK MÜBARİZƏSİ

**LEYLA HƏSƏNOVA**
*AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Beynəlxalq münasibətlər tarixi" ixtisası üzrə doktorantı*
*E-mail: ley.hasan@gmail.com*

*ORCID: https://orcid.org/0009-0008-3605-4533*

## Giriş

Qeyd etmək lazımdır ki, hələ 1918-ci ilin 11 may tarixində Dağlı Respublikası elan olunandan iki gün sonra Almaniya onunla müqavilə bağlamışdı [18, s.76]. Tezliklə, Osmanlı dövləti də Dağlı Respublikasını tanıdı və onunla danışıqlar aparmağa başladı. Osmanlının bu addımları ilə əlaqəli RSFSR-in xarici İşlər Naziri Q.Çiçerin Osmanlı dövlətinin Moskvadakı səfiri Qalib Kemal bəyə etiraz notası təqdim etmişdi. Notada deyilirdi ki, Dağıstan Rusiyanın ayrılmaz hissəsidir və Sovet Rusiyası elan olunan Dağlı respublikasını tanımır və heç vaxt tanımayacaqdır [3, s.233]. Ancaq Sovet Rusiyasının etirazını əsassız sayan Osmanlı dövləti bu Şimali Qafqaz respublikası ilə müqavilə imzaladı.

Xüsusən, Dağlı Respublikası üçün Şimali Qafqazda və Donda yaranan respublikalarla – 1918-ci ilin yanvarın 8-də Krasnodarda yaradılan Kuban Xalq Respublikası və mayın 18-də mərkəzi Novoçerkask olmaqla elan olunan Böyük Don Ordusu-Don Respublikası ilə münasibətlər strateji əhəmiyyət daşıyırdı. Çünki bu respublikaların varlığı və stabil inkişafı eyni zamanda Dağlı Respublikasının da mövcudluğunun qarantı idi. 1918-ci ilin sonuna general Denikinin "Könüllü Ordu"sunun bolşeviklərlə uğur qazanması, həm də Kuban və Don Respublikalarının müttəfiqləri Almaniyanın və Osmanlı dövlətlərinin I Dünya müharibəsində məğlubiyyəti bu respublikalar üzərində Denikin hakimiyyətinin güclənməsinə gətirdi.1919-cu ilin fevralın əvvəllərində Don Respublikası tamamən "Könüllü ordu"dan asılı vəziyyətə düşdü, Kuban respublikası üzərində Denikinin nəzarəti bərqərar oldu. Bu iki respublikanın müstəqilliyinin general Denikin tərəfindən məhdudlaşdırılması Dağlı Respublikası üçün yaxşı heç nə vəd etmirdi: Denikin Dağlı Respublikasını tanımırdı və onu işğal etməyə hazırlaşırdı.

## 1. "Könüllü ordu"nun Dağlı Respublikasına təcavüzünün səbəbləri və başlanması

1919-cu il yanvarın əvvəllərində bölşevizmə qarşı olan bütün qüvvələr tərəfindən general A. İ. Denikin Cənubi Rusiya Silahlı Qüvvələrinin [CRSQ] və Don ordusunun Baş komandanı kimi qəbul edildi [1, s.1292]. 1919-cu ilin yanvarından Denikinin "Könüllü ordu"su Dağlı Respublikasının qərb ərazilərini işğala başladı. Denikin 1919-cu ilin yanvarında Dağlı Respublikasının qərb ərazilərini ələ keçirərək burada Terek-Dağıstan diyarının yaradıldığını elan etdi və diyarın idarəçiliyi general-leytenant V.P.Lyaxova həvalə edildi [11, s.59].

AXC hökuməti Denikin işğalını dayandırmaq üçün Dağlı Respublikasına həm maliyyə, həm də diplomatik baxımdan bacardığı yardımı edirdi. Bununla əlaqəli 1919-cu ilin yanvarın 9-da AXC ilə Dağlı respublikası arasında daha bir müqavilə bağlandı. Müqavilələri Azərbaycan tərəfdən ərzaq naziri K.N. Lizqar, Dağlı respublikası tərəfdən isə bu respublikanın Azərbaycandakı nümayəndəsi Əlixan Qantəmir imzalamışdılar [17, s.111].

1919-cu ilin martın əvvəllərində "Könüllü ordu" Çeçenistana soxuldu və Çeçenistanın düzəngah ərazilərini ələ keçirdi. Denikinin ələ keçirdiyi çeçen ərazilərinin idarəçiliyi general İrisxan Əliyevə həvalə edildi. Dağlı xalqları işğalla barışmadılar və "Könüllü ordu"ya qarşı mübarizəyə qalxdılar. Denikinə qarşı mübarizədə Dağlı Respublikasına dəstək məqsədi ilə 1919-cu ilin fevralın 23-də AXC ilə Dağlı Respublikası arasında 3 maddədən ibarət daha bir müqavilə bağlandı. Bu müqaviləyə əsasən AXC Dağlı Respublikasına daha 10 milyon manat faizsiz kredit verməyi öhdəsinə götürdü və bu vəsaitin 5 milyonu dərhal ödənildi [4, v.2].

1919-cu ilin baharında Denikin ordusunun Dağlı respublikası ərazilərinin qərb hissəsini ələ keçirməsi Azərbaycanda narahatlığı son həddə çatdırmışdı və AXC bu istiqamətdə diplomatik fəallığını bir az da artırdı. İlk öncə, Ə.Haqverdiyev Dağlı Respublikasında AXC-nin nümayəndəsi təyin olundu və o, 1919-cu il 25 fevral tarixdə öz diplomatik fəaliyyətini yerinə yetirmək üçün Dağlı respublikasının paytaxtı Temur – xan - Şuraya yola düşdü [19, v.1].

1919-cu ilin martın əvvəllərində Dağlı Respublikasının qərb hissəsi "Könüllü ordu"nun nəzarətində idi. Denikin Dağlı Respublikası hökumətindən hakimiyyətdən və respublikanı idarə etməkdən imtina et-

məyi, ordunu buraxmağı tələb edirdi. Eyni zamanda, "Könüllü ordu" yerli dağlı xalqlarından öz tərkibinə qatmaq üçün hərbi dəstələr yaratmağa, onun hakimiyyətini tanımayan aullarda əhalinin əlində olan ərzaq və ev heyvanlarını məhv etməyə başladı [10, s.143].

1919-cu ilin aprelin əvvəllərində Denikin Dağlı respublikasının İttifaq Şurasını görüşə dəvət etdi. Dağlı respublikasında elə düşünürdülər ki, Denikin onları danışıqlara çağırır və Şura sədri R.X.Kaplanovdan, Nəqliyyat Naziri Temirxanovdan və şəriət idarəsinin rəhbəri Nəcməddin Əfəndi Qotsinskindən ibarət nümayəndə heyəti Qroznıya yollandı. Qroznıya həmçinin ingilis komandanlığının nümayəndəsi Raulenson da gəlmişdi. Həm Rauelsonun, həm də Denikinin Dağlı Respublikası nümayəndələri ilə ayrı-ayrılıqda görüşləri oldu [6, v.14]. Kaplanovun Ə.Haqverdiyevə məktubundan da göründüyü kimi, Denikin onlarla danışıqlar aparmağa deyil, Dağlı Respublikasını tanımadığını söyləmək üçün çağırmışdı [6, v.14].

Beləliklə, 1919-cu ilin yazında "Könüllü ordu"-nun Dağlı Respublikasının içərilərinə doğru hücumları davam edirdi. Aprelin 10-da Çeçenistanın düzəngah əraziləri "Könüllü ordu" tərəfindən işğal olundu. Çeçenistanın dağlıq ərazilərində və İnquşetiyada isə Denikinə qarşı silahlı dəstələr yaradılmışdı və mübarizə davam etdirilirdi. Çeçenlər və inquşlar Hərbi – Gürcüstan yolu vasitəsi ilə Gürcüstandan da dəstək gələcəyinə ümid edirdilər. Kaplanovun verdiyi məlumata görə, Denikinin qüvvələrinin sayı o qədər də çox deyildi, əgər çeçen və inquş əhalisi düzgün təşkil olunsa və silahlandırılsa, "Könüllü ordu" hissələrinin öhdəsindən gəlməyə qadir idilər. Lakin əhalidən təşkil olunan dəstələrin özbaşınalığı, nizam-intizama tabe olmaması onları bir mütəşəkkil qüvvə kimi formalaşdırmağa imkan vermirdi. Hətta bu haqda danışarkən çeçen-inquş dəstələrinin komandanı olan türk zabiti təəssüf hissindən göz yaşlarını saxlaya bilməmişdi [6, v.14 arxası]. Dağlı Respublikasında yeganə daimi və nizam-intizamlı hərbi qüvvə vardırsa, o da Dağıstan atlı alayı idi ki, onun da zabit heyətinin əksəriyyəti çar ordusunun yetirməsi idi və altdan-altdan Denikinə rəğbət bəsləyirdilər.

Çeçenistanın işğalından sonra Denikin Dağıstanı tutmağı hədəfləmişdi. Dağıstanın xalq kütlələri bu ağır günlərində iki şəxsin ətrafında birləşməyə başladılar – bunlardan biri Uzun Hacı Qunibskiy, o biri isə Əli Hacı Levaşinskiy idi. Bu iki dini liderin Çeçenistana yardım üçün əhalini səfərbər etməsi Dağlı Respublikasının hökumətini və Parlamentini hərəkət etməyə vadar etdi. 1919-cu il aprelin 11-də Parlamentin iclası keçirildi və respublikada yaranmış vəziyyət çox çılğın şəkildə müzakirə olundu və qərara alındı ki, 12 apreldən iclasların keçirilməsi 2 həftəliyə təxirə salınsın və bütün deputatlar əhalini orduya səfərbər etmək üçün kənd yerlərinə yollansınlar [6, v.14 arxası].

Vəziyyəti mürəkkəbləşdirən amillərdən biri də Şimali Qafqaz siyasi elitasının biri-birinə etimad etməməsi idi. Uzun Hacının Dağlı hökumətinə münasibəti birmənalı deyildi: o, hökuməti Azərbaycandan alınan pulların mənimsənilməsində təqsirləndirirdi və alınan kreditin xərclənməsinin hesabatını tələb edirdi. Yəni, Uzun Hacı bir növ özünü hökumətdən üstün hesab edir, Dağıstan və Çeçenistanda nə vaxtsa, Şamilin oynadığı rolu oynamağa çalışırdı.

Dağlı respublikası rəhbərliyi ağır siyasi vəziyyətdən çıxmaq üçün Yekaterinodardakı ingilis nümayəndəsi Briqqs və "Könüllü ordu" komandanı general Denikinlə danışıqlar aparmağa cəhd etdi, ancaq bu cəhdlər nəticəsiz qaldı.

## 2. "Könüllü ordu"nun Şimali Qafqazda təcavüzünə qarşı AXC-nin diplomatik addımları

"Könüllü ordu"nun Dağlı Respublikasının böyük hissəsini ələ keçirməsi ilə bağlı AXC hökumət başçısı və xarici işlər naziri Fətəli xan Xoyski Bakıdakı Antanta qoşunları komandanı general V.M.Tomsona nota təqdim etdi. Notada göstərilirdi ki, Denikin ordusunun Dağlı Respublikasına qarşı təcavüzü Azərbaycana dost olan Qafqazın dağlı xalqlarının "öz müqəddəratını təyinetmə hüquqlarının tapdalanmasıdır" [6, v.14 arxası]. Sənəddə Azərbaycan hökumətinin "Könüllü ordu"nun Dağlı Respublikasına qarşı hərbi təcavüzünə etiraz bidirilir və general Tomsondan xahiş olunurdu ki, Denikin ordusunun Dağlı Respublikasına qarşı təcavüzünün qarşısının alınmasında ən qətiyyətli ölçü götürsün [6, v.14 arxası].

Temur – xan- Şurada səfir fəaliyyətinə başlayan Ə. Haqverdiyev 1919-cu il martın 28-də AXC-nin xarici işlər naziri Məmmədyusif Cəfərova məlumat göndərdi. Məlumatda martın 26-da Denikinin kazak birləşmələrinin Çeçenistana növbəti hücumu haqqında danışılırdı.Sənəddən görünür ki, Dağlı Respublikası rəsmiləri müdafiəni düzgün qura bilməmişlər, Dağıstan alayı ilə çeçenlər arasında anlaşılmazlıq olmuş, nəticədə Dağıstan alayı Çeçenistanı tərk edib Temir - xan - Şuraya qayıtmışdı [7, v.7].Çeçen nümayəndələri Temir – xan – Şuraya gələrək Ə.Haqverdiyevlə görüşmüş, çerkeslərin, kabardinlərin, osetinlərin "Könüllü ordu" ilə birgə hərəkət etdiyini, inquşların denikinçilərə təslim olduğunu söyləmişlər.Çeçen nümayəndələrin sözlərindən belə anlaşılırdı ki, Da-

ğıstan Çeçenistana yardım etməsə, o halda çeçenlər Denikin ordusuna nəinki təslim olacaq, eyni zamanda Denikin ordusu ilə brləşərək "etibarsız Dağıstan" üzərinə hərəkətə keçəcəklər [5, v.1], Bu sənəddən görünür ki, Dağlı Respublikasında Denikinə qarşı mübarizədə vahid cəbhə yarada bilməmişdilər. Denikin müxtəlif üsullarla, hətta aeroplanla əhali arasında müraciət vərəqələri yayaraq Dağlı əhalinin bir qismini öz tərəfinə çəkə bilmişdi [5, v.1].

Ə.Haqverdiyev 1919-cu il 31 martda Dağlı Respublikasının hökumətinin sədri tərəfindən qəbul edildi. Elə həmin gün AXC səfiri Dağlı Respublikasının Hərbi Şurasının üzvləri tərəfindən alqışla qarşılandı [7, v.7].

Ə.Haqverdiyevin yazdıgına görə Dağlı respublikasının Hərbi Şurasında ziyalı insanlar az idi. Onların böyük əksəriyyətini mollalar və yaxud var - dövlətinə və geniş qohumluq əlaqələrinə malik şəxslər təşkil edirdilər. Aralarında siyasi xadimlər demək olar ki, yox idi. Dağlı Respublikasında siyasi partiyalar yox idi, yalnız ayrı-ayrı xalqlara - inquş, çeçen, kumık və s. aid milli fraksiyalar fəaliyyət göstərirdi. İttifaq Şurasının tərkibinin formalaşması təsadüfi xarakter daşıyırdı. Çeçenistana və Terek vilayətinə qarşı Denikin təcavüzü ilə bağlı və maliyyə çatışmazlığı ucbatından demokratik seçkilərin keçirilməsi mümkünsüz sayılırdı [7, v.7].Şura üzvlərindən bir çoxları Terek vilayətini artıq itirilmiş sayırdılar və Dağlı İttifaqının çox yaşamasına inanmırdılar. Ancaq Dağıstan vilayəti təbii sərvətlərinə görə kasıb olduğundan onun müstəqil yaşamasına inananlar az idi və bir çox dairələrdə nüfuzlu Azərbaycanla birləşməyə meyil nəzərə çarpırdı. Bu fikri Ə.Haqverdiyevə hətta Dağlı respublikasının müdafiə naziri general Xəlilov da söyləmişdi. Xalqın ümidi yeni hökumətə və hökumət başçısı P. Kotsevə idi: əhali onu saf, vicdanlı vətənpərvər kimi tanıyır və inanırdılar ki, o, ölkəni ağır vəziyyətdən çıxara bilər [7, v.7 arxası].

Denikin təcavüzünə qarşı mübarizə məqsədi ilə 1919-cu ilin martın sonralarında Temir – xan – Şurada "Qafqaz dağlılarının müstəqilliyi və birliyi liqası" yaradıldı. Ziyalı gənclər tərəfindən yaradılan bu təşkilat şəhərdə mitinqlər, yığıncaqlar keçirirdi və təşkilatın əsas məqsədi kənd yerlərində müstəqillik ideyalarını yaymaq, vətənin müafiəsi üçün könüllü dəstələr yaratmaqdan ibarət idi. Ə.Haqverdiyev bu "Liqa"nın təsis yığıncağında iştirak etmiş, AXC-nin XİN M. Cəfərova məlumatında göstərirdi ki, adıçəkilən "Liqa" bu gün Dağıstanda həqiqi nüfuza malik bir təşkilatdır və bu təşkilat respublikanın müdafiə qabiliyyətinin güclənməsində konkret rol onaya bilər. Ə.Haqverdiyev hesab edirdi ki, AXC hökuməti adı çəkilən "Liqa"-ya hərtərəfli dəstək olmalıdır, çünki, onun fəaliyyəti AXC-nin dövlət maraqlarına cavab verir [7, v.7].

Dağlı respublikasının daimi qoşun hissələri 700 atlısı olan Dağıstan alayından ibarət idi və bəzi fikirlərə görə sıralarında Denikin tərəfdarları çoxluq təşkil edirdi. Bu səbəbdən Ə.Haqverdiyev Azərbaycan hökumətinə Dağıstan alayına bel bağlamamağı, Dağlı respublikasının müdafiəsində əsasən xalq kütlələrinə və gənclərin yaratdığı "Liqa"ya diqqət yetirməyi məsləhət görürdü [7,v.8]. Ə.Haqverdiyev həmçinin Dağıstanda yaşayan Azərbaycanlı əhalinin də qayğısına qalır və onlara maliyyə yardımı göstərilməsini xahiş edirdi. O, səfir kimi, Dağlı Respublikasında Azərbaycana xidmət üçün casus şəbəkəsinin də yaradılmasının vacibliyini vurğulayır və bu məqsədlə 20000 rubl vəsaitin ayrılmasını xahiş edirdi [7, v.8].

Beləliklə, 1919-cu ilin aprelin əvvəllərində Denikin ordusu Dağlı Respublikasının çox hissəsini işğal etdi və respublikada ağır böhran daha da dərinləşməyə başladı. AXC hökuməti hər vasitə ilə çalışırdı ki, Dağlı respublikasının müstəqilliyinə xələl gəlməsin. Bu məqsədlə, aprelin 6-da AXC hökuməti Dağlı Respublikasına hərbi yardım göstərilməsi haqqında qərar qəbul etdi. Könüllülərdən ibarət hərbi dəstələr yaradılır və Dağlı Respublikasına göndərilirdi. Bundan savayı, tibbi yardım məqsədi ilə sanitar briqadaların da formalaşdırılmasına başlanıldı [2, s.248].

### 3.General Denikinin Dağlı Respublikasını tam işğal etməsi və AXC-nin etirazları

1919-cu ilin mayın ortalarına Kotsev hökumətinin üzvləri istefa haqqında ərizə yazdılar ki, onlar Kotsevin siyasəti ilə razı deyillər və onunla bir yerdə işləyə bilməzlər. Hökumət böhranı Dağıstan alayının zabitlərini fəallaşdırdı. Onlar Çeçenistanın keçmiş qubernatoru və Dağıstan atlı alayının komandanı podpolkovnik Cəfərovu hərbi diktator elan etmək istiqamətində iş aparırdılar. Hətta podpolkovnik Cəfərov zabit yığıncağına çağrılmış və ona təklif olunmuşdur ki, gecikdirmədən özünü hərbi diktator elan etsin. Cəfərov bu təklifə qəti şəkildə rədd cavabı vermişdi [8, v.29]. Cəfərovun diktatorluqdan imtina etməsindən sonra 3 nəfərdən - general Xəlilov, podpolkovnik Cəfərov və Şeyx Uzun Hacıdan ibarət direktoriyanın yaradılması qərara alındı. Ancaq bu variant da alınmadığından parlamentin əli ilə çevriliş etmək qərara alındı. 1919-cu ilin 12 may tarixində Kotsev hökumətinin üzvlərinin kollektiv istefası qəbul edildi və parlamentin yeni kabinet yaratmaq haqqında köhnə hökumət üzvlərinə müraciəti cavabsız qaldı-onlar hamısı yeni hökumətə

girməkdən imtina etdilər. Denikinə pərəstiş edən Dağıstan alayının zabitləri həmən hökumətin formalaşmasını tələb edir, əks təqdirdə hakimiyyəti öz əllərinə almaqla hədələyirdilər [8, v.29 arxası].

Mayın 13-də general Xəlilov zabitlərin təzyiyi ilə Baş nazir vəzifəsinə namizədliyini irəli sürdü və yekdilliklə hökumət başçısı seçildi. General Xəlilovun hökuməti aşağıdakı tərkibdən ibarət idi: Baş nazir, hərb naziri və daxili işlər naziri-general Xəlilov, onun mülki işlər üzrə müavini – polkovnik Musalayev, hərbi işlər üzrə müavini – polkovnik Haci Murad, Xalq təsərrüfatı naziri – bütün siyasi rejimlərlə işləmək bacarıgı olan Əli Həsənov, Nəqliyyat və poçt naziri – Mollaçı – xan, Ədliyyə, təhsil və xarici işlər nazirliklərinin bir nəfərə həvalə edilməsi nəzərdə tutulurdu ki, hələlik uyğun namizəd tapılmamışdır. Alınan məlmatlara görə bu vəzifəyə Kotsevin təyin olunması gözlənilirdi. Beləliklə, hakimiyyət əsasən hərbçilərin əlində cəmləşdiyindən Ə.Haqverdiyev bu hökumət dəyişikliyini hərbi çevriliş adlandırırdı [8, v.30].

1919-cu il 7 iyun tarixində AXC-nın Dağlı Respublikasında diplomatik nümayəndəsi Ə.Haqverdiyev xarici işlər naziri Məmmədyusif Cəfərova məxfi məlumat göndərdi. Məlumatda bildirirdi ki, “Könüllü ordu” Dağıstana daxil olmuşdur və “Terek – Dağıstan diyarının Baş komandanı” general Erdeli Temir-xan-Şuraya gəlmişdir. Dağıstan fraksiyası Dağlı respublikası parlamentinin qərarı ilə xüsusi Dağıstan idarəçiliyi elan olunmuş və general Xəlilov bu hökumətin başçısı təyin edilmişdir.

Tezliklə, Terek-Dağıstan diyarının baş komandanı general Lyaxovu general Erdeli əvəz etdi və Erdelinin əmrinə əsasən D.Dratsenkovun rəhbərlik etdiyi silahlı dəstələr 1919-cu il mayın 8-də Petrovsku (Maxaçqala) və mayın 10-da Dərbəndi ələ keçirdilər. General Xəlilovun hökumət başçısı təyin olunduğunu eşidən denikinçilər onu təbrik edərək Petrovska dəvət etdilər [9, v.44]. 1919-cu ilin iyununda general Xəlilov Petrovska gəldi, burada böyük təntənə ilə qarşılandı. General Erdeli ilə görüşdükdən sonra ayın 3-də Erdeli ilə birlikdə Temir xan Şuraya qayıtdı. Şurada general Erdelini çarı qarşılayan kimi qarşıladılar: duz-çörəklə, fəxri qarovulla, orkestrlə, rus əhalisi ona ikona bağışladı. Elə həmin gün şəhər klubunda onun şərəfinə nahar verildi ki, bura AXC səfiri Ə.Haqverdiyev dəvət olunmadı. Bu naharda yadda qalan ən vacib məqam general Xəlilovun söylədiyi sağlıq oldu – general “böyük, vahid və bölünməz Rusiya” şərəfinə badə qaldırdı. Naharda çıxışı zamanı general Erdeli Azərbaycana da toxundu. O, bəyan etdi ki, könüllülərin Azərbaycanın sərhədlərini pozmaq kimi planları yoxdur, yalnız onlar Qızıl Burun – Zaqatala xəttinədək gələcəklər. Əgər Azərbaycan buna imkan verməzsə, bu Azərbaycanın Denikinə müharibə elan etməsi kimi qiymətləndiriləcəkdir [9, v.44 arxası].

Petrovsk ələ keçirildikdən sonra bu şəhərlə Rostov arasında birbaşa dəmiryolu əlaqəsi yaradıldı ki, bu da Dağıstana daha çox “könüllülərin” gəlişinə imkan yaradırdı. Bu səbəbdən, Ə.Haqverdiyev Azərbaycan hökumətinə tövsiyə edirdi ki, elə başlanğıcdan “könüllülərin Dağlı Respublikasından çıxarılmasına çalışmaq lazımdır [9, v.45].

Azərbaycan Milli Məclisində Dağlı Respublikasından səfir Ə.Haqverdiyevin verdiyi məlumatları şübhə altına alanlar da var idi. Məsələn, səfirin 24 may 1919-cu il tarixində Dağlı Respublikasının hökumətinin ləğv edilməsi haqqında məlumatının həqiqi olmaması barədə 28 may tarixdə “Azərbaycan” qəzetində yazı da dərc olunmuşdu və Ə.Haqverdiyev dərc edilən qərəzli və əsassız yazıya öz narazılığını bildirmişdi [9, v.45 arxası].

Cənubi Qafqaz respublikalarının konfransında iştirak edən Azərbaycan hökumət nümayəndələri 9 iyun 1919-cu il tarixdə Tiflisdə iclas keçirdilər. F.Xoyskinin sədrlik etdiyi iclasda bir əsas məsələ qoyulmuşdu: konfransda “Könüllü ordu”nun Şimali Qafqazda hücumları ilə əlaqədar məsələ müzakirə olunarsa, Azərbaycan nümayəndə heyəti hansı mövqeni tutmalıdır? [14, v.134].

Müzakirələrdən sonra iclas aşağıdakı məzmunda qətnamə qəbul etdi: “Könüllü Ordu”nun Dağlı Respublikasına qarşı hücumu, xüsusən də Dağıstanın bu ordu tərəfindən ələ keçirilməsi, Şimali Qafqazın azadlıqsevər xalqlarının zor gücünə kölə edilməsi – bu təkcə öz müqəddəratını təyin etmiş Şimali Qafqaz xalqlarının hüquqlarının tapdanması deyil, eyni zamanda Cənubi Qafqaz Respublikalarının müstəqilliyinə birbaşa təhlükədir. Nəzərə almaq lazımdır ki, general Denikinin şəxsində “Könüllü Ordu” Cənubi Qafqaz Respublikalarını işğal etmək niyyətlərini, onların ərazilərində inqilabaqədərki qaydaları və “Vahid Rusiya”nın yenidən bərpa etmək məqsədlərini gizlətmirlər [14, v.135].

Konfrans Paris Sülh konfransı və bitərəf ölkələr qarşısında general Denikinin təcavüzkar cəhdlərinə və öz müqəddəratını təyin etmiş Qafqaz xalqlarının hüquqlarının tapdanmasına qarşı qəti şəkildə etiraz edir və konfrans bütün Cənubi Qafqaz respublikalarının onlara qarşı yönələn təhlükənin dəf edilməsi və onların azadlıq və müstəqilliyini müdafiə etmək üçün hərbi-diplomatik səylərinin birləşdirilməsi haqqında qərar qəbul etdi [14, v.134-135].

1919-cu ilin iyunun 11-də Cənubi Qafqazdakı Britaniya qüvvələrinin komandanı general-mayor Q.N. Kori Azərbaycan hökumətinin Nazirlər Şurasının sədri N.Usubbəyova məlumat göndərdi. Məlumatda çox vacib bir məsələ - Şimali Qafqazda "Könüllü Ordu"nun ələ keçirdiyi ərazilərlə Qafqaz Respublikaları arasında demarkasiya xəttinin təsdiq olunmasından bəhs olunurdu [16, s.226]. Sənəddə göstərilirdi ki, general Denikinlə Qafqaz ştatları arasında demarkasiya xətti aşağıdakı qaydada təsdiq edilir: Bzıb çayının ağzından bu çay üzrə şimala, Suxum sərhəddinədək; oradan Suxumi, Kutaisi, Tiflis və Dağıstan vilayətləri üzrə şərqə Petrovsk-Dağıstan dəmir yolundan 5 mil cənubda yerləşən nöqtəyədək, oradan paralel olaraq cənubi-şərqə, dəmiryolundan 5 mil cənuba, Xəzər dənizi sahilindəki nöqtəyədək, Petrovskdan 5 mil cənuba. General Denikinə tapşırılmışdır ki, öz qoşunlarının bu xəttdən cənuba keçməsinə imkan verməsin. Qafqaz dövlətləri də öz növbəsində bu xəttdən şimala keçməməlidirlər [16, s.226].

General Korinin məlumatında, həmçinin bildirilirdi ki, Qafqaz dövlətləri bolşevik qüvvələrini təmin etməkdən çəkinməlidirlər. Bu şərtlərə əməl etməyənlər Böyük Britaniyanın xoş münasibətindən məhrum olunacaq və Böyük Britaniya hökuməti belə olan halda general Denikinin qoşunlarının bu xəttdən şimalda qalmasını təkid etmək imkanlarından məhrum olacaqdır [16, s.226]. Yəni, general Kori Cənubi Qafqaz Respublikalarını Denikinlə təhdid edirdi.

1919-cu il iyulun 3-də Ə.Haqverdiyev Dağıstanın müvəqqəti başçısı, general M.Xəlilova məktub göndərdi [12, v.59]. Məktubda deyilirdi ki, Terek - Dağıstan diyarının baş rəisi, general Erdeli 1919-cu ilin 30 iyun tarixində göndərdiyi teleqramda Ə.Haqverdiyevin Tenmir-xan Şurada qalmağımı yolverilməz sayır və ondan Azərbaycana getməi tələb edir. Ə. Haqverdiyevin fikrincə, Denikinin Bakıda nümayəndəsi olduğu kimi, Azərbaycan Respublikasının da "Könüllü Ordu"nun ələ keçirdiyi ərazilərdə təmsil olunmaq hüququ vardır. Buna görə, general Erdelinin Temir-xan Şuradakı Azərbaycanın diplomatik nümayəndəsinə düşmən münasibəti başa düşülən və qəbul edilən deyildir [12, v.59].

Bakıda qərarlaşan müttəfiq qoşunlarının komandanı D.Şatelvorq Azərbaycan Nazirlər Şurasının sədri N.Usubbəyova məktubunda yazırdı ki, "Könüllü ordu" komandanlığından demarkasiya xətti ilə bağlı sənədin surətini aldığını və Denikinin ələ keçirdiyi ərazilərin cənub hüdudları ilə Britaniya hökumətinin təyin etdiyi cənub demarkasiya xəttinin üst-üstə düşmədiyini və bu haqda Britaniya hökumətinə xəbər verildiyini bildirdi [13, v.15].

Denikinin Şimali Qafqazda işğalları ilə əlaqədar Azərbaycan, Şimali Qafqaz və Gürcüstan nümayəndələri 23 iyul 1919-cu il tarixdə Paris sülh konfransında Konfransın sədri Y.B.Klemansoya birgə müraciət təqdim etdilər [15, v.65].

Qafqaz respublikaları nümayəndələri konkret və açıq şəkildə öz hökumətlərinin mövqelərini bildirirdilər ki, "Öz müstəqilliyini elan etmiş Qafqaz xalqları onu çoxsaylı qurbanlar hesabına müdafiə etmişlər, müstəqil olmaq və müstəqil qalmaq arzusunu tam şəkildə dəstəkləyirlər və Qafqaz respublikaları bir də heç vaxt Rusiyaya birləşməyə razılıq keçməyəcəklər" [15, v.65 arxası].

Qafqaz respublikalarının Paris konfrsansındakı nümayəndə heyətləri öz hökumətləri adından "Könüllü Ordu"nun Qafqaz respublikalarına qarşı təcavüzkar hərəkətlərinə və gələcəkdə başqa respblikalara qarşı törədilə biləcək təcavüzkarlığına qarşı etiraz bildirdilər. Qafqaz nümayəndələri Antanta Şurasından xahiş edirdilər ki, "Könüllü Ordu"dan Qafqaz respublikalarının hüquqlarına hörmətlə yanaşmağı və tutdugu Qafqaz ərazilərini tərk etməsini tələb etsin [15, v.66].

## Nəticə

Beləliklə, problemi araşdırdıqdan sonra belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Xalq Cümhuriyyəti Dağlı Respublikasına Rusiyadakı düşmən qüvvələrdən müdafiə zolağı kimi baxırdı və bu respublikanın təhlükəsizliyini öz işi sayırdı. Bu səbəbdən, "Könüllü ordu"nun Dağlı Respublikasına qarşı təcavüzü və onu tam işğal etməsi 1919-cu ilin yayından başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət fəaliyyətinin istiqamətində dəyişikliyə səbəb oldu: bu dövrdən başlayaraq Azərbaycan Cümhuriyyəti bütün beynəlxalq müstəvilərdə Denikinin işğal etdiyi Dağlı respublikasının müstəqilliyinin bərpasına yönəlik fəaliyyətini aktivləşdirdi. Azərbaycanın haqq səsi böyük dövlətlər tərəfindən eşidilmədi, çünki onlar hələ də köhnə Rusiyanın bərpasına ümid edir, Azərbaycan Xalq Cümhuriyyəti, Dağli respublikası kimi Rusiya imperiyasının ucqarlarında yaranan gənc müstəqil dövlətləri tanımaq istəmirdilər.

**Açar sözlər:** *Dağlı Respublikası, Azərbaycan Xalq Cümhuriyyəti, Denikin, "Könüllü ordu", Haqverdiyev.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Ağasiyev, İ., Məmmədzadə, S. [2023]. Don Cümhuriyəti və Güney Rusiya Silahlı Qüvvələrinin Azərbaycan Xalq Cümhuriyəti ilə münasibətləri*

[1918-1920]. Akademik Tarih ve Düşünce Dergisi, 10 [5], 1287-1300.

2. Göyüşov A. 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi.Bakı, "Araz", 2000, s.248.

3. Mustafa Görüryılmaz. Qafqaz İslam Ordusu və ermənilər [1918]. Bakı,"Qismət", 2009, 408 s.

4. Договор между Азербайджанской Республикой и Республикой Союза горских народов Кавказа. Баку, 23 февраля 1919 года // ГААР, ф.970, оп.1, д.55, л.2.

5. Донесение дипломатического представителя Азербайджана в Горской Республике А.Ахвердова министру иностранных дел М. Ю. Джафарову. Темир-хан-Шура. 28 марта 1919 г.// ГААР, ф.970, оп.1, д.59, л.1.

6. Донесение дипломатического представителя Азербайджана в Горской Республике. А. Ахвердова министру иностранных дел М. Ю. Джафарову, Темир-Хан-Шура, 15 апреля 1919 г. // ГААР, ф.970, оп. 1, д.59, л.14.

7. Донесение дипломатического представителя Азербайджана в Горской Республике А. Ахвердова министру иностранных дел М.Ю.Джафарову. 4 апреля 1919 г. // ГААР, ф.970, оп.1, д.59, л.7.

8. Донесение дипломатического представителя Азербайджана в Горской Республике А. Ахвердова министру иностранных дел М.Ю.Джафарову о смене правительства в республике.№8 19 мая 1919 г.// ГААР, ф.970, оп.1, д.59, л.29-30.

9. Донесение дипломатического представителя Азербайджана в Горской Республике А. Ахвердова министру иностранных дел М. Ю. Джафарову. Темир-Хан-Шура 7 июня 1919 г. // ГААР, ф.970, оп.1, д. 48, л.44-45.

10. Нота председателя Совета Министров и министра иностранных дел Ф.Х.Хойскогокомандующему союзными войсками в Баку генерал-майору В.М.Томсону 6 марта 1919 г.// Азербайджанская Демократическая Республика. Внешняя политика. [Документы и материалы] - Баку, издательство "Азербайджан", 1998, с.143.

11. Орешкин С.А. Ингушетия под «Белой властью»: особенности государственного строительства в 1919-начале 1920 г. // Вестник РУДН, серия «История России», 2015, № 2, с.57-65.

12. Отношение дипломатического представителя Азербайджана в Горской Республике А. Ахвердова временному правителю Дагестана генерал-майору М. Халилову о вынужденном выезде из пределов страны по предложению главноначальствующего Терско-Дагестанского края ген. Эрдели Темир-Хан-Шура 3 июля 1919 г. // ГААР, ф.970, оп.1, д. 48, л. 59.

13. Отношение командующего союзными войсками в Баку ген. Д. Шательворга председателю Совета Министров Н. Ю. Усуббекову о несоответствии южной демаркационной линии декларации британского правительства. 7 июля 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.15.

14. Протокол заседания делегации азербайджанского правительства на конференции Закавказских республик по поводу выработки позиции при обсуждении вопроса о наступлении Добровольческой армии на Северном Кавказе. Тифлис. 9 июня 1919 г. // ГААР, ф.894, оп.10, д.112, л.134-135.

15. Совместное заявление азербайджанской, северо-кавказской и грузинской делегаций на Парижской мирной конференции председателю конференции Ж. Б. Клемансо. Париж. 23 июля 1919 г.// ГААР, ф.970, оп.1., д.143, л.65-66.

16. Сообщение командующего британскими силами в Закавказье генерал-майора Г.Н.Кори председателю Совета Министров Н. Ю. Усуббекову об установлении демаркационной линии между территорией, занятой Добровольческой армией, и республиками Кавказа. 11 июня 1919 г. // Азербайджанская Демократическая Республика. Внешняя политика. [Документы и материалы] - Баку, издательство "Азербайджан", 1998, с.226.

17. Сообщение газ. "Азербайджан" о заключении между правительством Азербайджанской Республики и правительством Республики Союза Горских Народов Северного Кавказа договора о поставке пшеницы в Азербайджан. 9 января 1919 г. // Азербайджанская Демократическая Республика. Внешняя политика. [Документы и материалы] - Баку, издательство "Азербайджан", 1998, с.111.

18. Союз объединенных горцев Северного Кавказа и Дагестана [1917-1918 гг.] и Горская Республика [1918-1920 гг.]. Документы и материалы. Составители Какагасанов Г.И., Каймаразова Л.Г., отв.ред. Член корр. РАН Османов А.И., Изд.2-е, исп. и доп. Махачкала, 2013, s.76.

19. Удостоверение дипломатического представителя Азербайджана в Горской Республике А. Ахвердова, выданное Министерством иностранных дел 25 февраля 1919 г. // ГААР, ф.970, оп.1, д.46, л.1.

**Diplomatic struggle of the Azerbaijan Democratic Republic against the aggression of the "Volunteer Army" to the Mountainous Republic**

**SUMMARY**

The article examines one of the most interesting problems in the history of relations between the Azerbaijan Democratic Republic and the Mountainous Republic. In the article, the author writes about the military aggression of the "Volunteer Army" against the Mountainous Republic and notes that the Azerbaijan Democratic Republic could not provide military assistance to the Mountainous Republic at this difficult time. However, Azerbaijan fought against this occupation with diplomatic methods.

The Mountainous Republic declared its independence in May 1918. After that, this young republic worked to protect its independence and fought against the "Volunteer Army" headed by Denikin.

From the beginning of 1919, the "Volunteer Army" launched a large-scale attack against the Mountainous Republic. In a short period of time, half of the territory of the Mountainous Republic was occupied. The situation of the Mountainous Republic was very critical.

From February 1919, Azerbaijan increased financial assistance to the Mountainous Republic, expanded its diplomatic activity for the defense of this republic. The Republic of Azerbaijan made appeals to various heads of state and their high representatives, the League of Nations, and condemned Denikin's military aggression against the Mountainous Republic.

Azerbaijan's diplomatic activity in this direction continued after May 1919, that is, after the "Volunteer Army" occupied the Mountainous Republic. Unfortunately, the world's leading countries did not respond positively to these attempts of Azerbaijan. They supported General Denikin and his chauvinistic plans, and the Mountainous Republic completely lost its independence.

**Keywords:** *Mountainous Republic, Azerbaijan People's Republic, Denikin, "Volunteer Army", Hagverdiyev.*

**Агрессия «Добровольческой армии» против Горской республики и дипломатическая борьба АДР**

**РЕЗЮМЕ**

В статье исследуется одна из самых интересных проблем в истории отношений между Азербайджанской Демократической Республикой и Горской Республикой. В статье автор пишет о военной агрессии «Добровольческой армии» против Горской Республики и отмечает, что в это трудное время Азербайджанская Демократическая Республика не смогла оказать военную помощь Горской Республике. Однако Азербайджан боролся против этой оккупации дипломатическими методами. Горская республика провозгласила свою независимость в мае 1918 года. После этого эта молодая республика занималась укреплением своей независимости, боролась против агрессии «Добровольческой армии», которой командовал Деникин. С начала 1919 года «Добровольческая армия» развернула широкомасштабное наступление на Горскую республику. За короткое время половина территории Горской республики была оккупирована.Положение Горской республики было очень критическим.С февраля 1919 года Азербайджан увеличил финансовую помощь Горской республике, расширил свою дипломатическую деятельность по защите этой республики. Азербайджанская Республика обращается к главам великих государств и их полномочным представителям в Лиге Наций, и осуждал военную агрессию Деникина против Горской республики. Дипломатическая деятельность Азербайджана в этом направлении продолжалась и после мая 1919 года, то есть и после полной оккупации Горской республики «Добровольческой армией». К сожалению, ведущие страны мира отреагировали на все попытки Азербайджана по защите Горской республики негативно: они поддерживали генерала Деникина и его шовинистические планы, и Горская республика полностью потеряла свою независимость.

**Ключевые слова:** *Горская Республика, Азербайджанская Демократическая Республика, Деникин, «Добровольческая армия», Хагвердиев.*

UOT: 332.1: 620.91
DOI:10.30546/3006-0346.2024.4.82.64

# QARABAĞ İQTİSADİ RAYONUNDA YAŞIL ENERJİ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN AKTUAL ASPEKTLƏRİ

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru, UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri*

*E-mail: shafa.aliyev@sdu.edu.az*
*ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563*
*E-mail: garabagh.iam@unec.edu.az*

XXI əsrdə ekoloji problemlərin həlli vasitələrindən biri kimi dünyada “yaşıl enerji” paradiqması ön plana çıxmaqdadır. Bu sənaye insan fəaliyyətinin müxtəlif sahələrində alternativ enerji mənbələrindən (günəş, su, külək və s.) istifadəni nəzərdə tutur. Hazırda resursların mühafizəsi və ekologiya mövzusu geniş müzakirə olmaqla müxtəlif alimlərin əsərlərində öz əksini tapmışdır. “Yaşıl enerji” termini təkcə elmi ictimaiyyətdə deyil, həm də mediada geniş yayılmaqdadır. Bu mövzu beynəlxalq, milli proqram və konfranslarda yer alması ilə intensiv şəkildə maksimum aktuallıq səviyyəsinə qalxmışdır. Hesab edirik ki, davamlı inkişaf indiki şəraitdə yeni (gələcək) nəslin inkişafını pozmamaq üçün gələcək dünyanın necə qurulacağına dair irəli sürülmüş konsepsiyadır. Dünya davamlı inkişaf üçün iqlim və ekoloji risklərə, alətlərin və infrastrukturun modifikasiyasına getdikcə daha çox diqqət yetirir. Bu konsepsiyada yaşıl iqtisadiyyatın istifadəsi arzuolunan iqtisadi nəticənin əldə oluna biləcəyi unikal üsul və vasitələri özündə cəmləşdirən alətdir.

Qeyd edək ki, ilk dəfə “yaşıl enerji” termini ABŞ-da 1978-ci ildə bərpa olunan enerji mənbələrinin istifadəsini və inkişafını təşviq edən qanunun imzalanması ilə formalaşmağa və geniş yayılmağa başlamışdır. Yaşıl enerji ətraf mühiti (zərərli emissiyalar, istixana qazları) çirkləndirməyən enerji istehsal texnologiyaları mənasını verən bir termindir. Dünya əhalisinin artması elektrik enerjisi istehlakının artmasına səbəb olur. Hər il əhali texnologiyaya getdikcə daha çox güvənirlər, onlarsız bir günü belə təsəvvür edə bilmirlər. Bununla belə, texnologiyaların inkişafı hələ də dayanmır, onlar yığcam olur və elektrik enerjisinin keyfiyyətinə çox tələbkar olurlar. Nəticə etibarı ilə elektrik enerjisi istehlakı daha çox olur və artmaqda davam edir. Bu problemin əsas mümkün həlli yaşıl enerji mənbələrinin əldə edilməsidir [1].

Digər tərəfdən, yaşıl enerji bütövlükdə cəmiyyətin maraqlarına ən tam cavab verən enerji növüdür. Bu, ilk öncə, karbon birləşmələrinin aşağı emissiyaları ilə xarakterizə olunur. Yaşıl enerjinin ön plana çıxdığı ölkə iqtisadiyyatında çoxlu sayda özəl və dövlət investisiyaları müxtəlif fəaliyyətlərə yönəldilir ki, onların da əsas məqsədi ilk növbədə bunlarla əlaqəlidir: təbii ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması; bioloji müxtəlifliyin azalmasına birbaşa təsir edən mənfi amillərin azaldılması; atmosferə zərərli maddələrin emissiyasının azaldılması, bu da son nəticədə bütün təbiətin qlobal çirklənməsinə gətirib çıxarır; təbii kapitalın qismən bərpası [2]. Sivilizasiya inkişaf etdikcə və dünya əhalisi artdıqca, istehsal gücləri çoxaldıqca daha çox yanacaq resurslarına tələbat yaranmaqdadır və bunlar müasir dövrün ən mürəkkəb problemlərindən hesab olunur. Belə ki, hazırda istifadə olunan yanacaq resurslarının əsas mənbələri – tükənən mənbələrdir və dünyada bu resurslar həm də qeyri-bərabər bölünmüşdür. Dünyanın əksər ölkələri mühüm enerji resurlarına çıxışdan məhrumdurlar və enerji uğrunda mübarizə getdikcə daha çox qlobal xarakter almaqdadır [3].

Təsadüfi deyildir ki, qlobal çağırışlar şəraitində enerji təhlükəsizliyi və enerji təminatı problemləri başlıca yer tutur. Bəs bu problemlərin həlli varmı? Yaxud, son dövrlərdə intensiv şəkildə dövriyyədə olan “yaşıl” iqtisadiyyat elementləri, o cümlədən, yaşıl enerji bu problemləri həll etməyə qadirdirmi? Dünya ölkələrində və beynəlxalq təşkilatlar səviyyəsində baxılan qlobal problemlərin nə dərəcədə mürəkkəb olduğunun şahidiyik. Məsələn, iqlim dəyişiklikləri ilə bağlı problemlər hər il mürəkkəb xarakter almaqdadır, yaxud enerji resurslarının mübadiləsinin səmərəli şəkildə təşkil edilməsi, o cümlədən yaşıl enerjinin fəal olaraq dünya bazarlarına çıxarılması problemlərinin həll olunması prioritetlik təşkil etməkdədir.

Təqdirəlayiq haldır ki, Avropanın enerji təhlükəsizliyində ildən-ilə strateji partnyor statusunu möhkəmləndirən Azərbaycan özünün karbohidrogen resurslarını enerji təminatında problemlər yaşayan

Avropa ölkələrinə çıxarmaq üçün önəmli addımlar atmaqdadır. Eyni zamanda, təbii qaz xammalı ilə yanaşı, digər alternativ enerji resurslarının istehsal edilməsi və yüksək tələbata malik olan Avropa bazarına çıxarılması məsələləri də ciddi önəm kəsb edir. "Yaşıl" iqtisadiyyatın güclənməsi və "yaşıl enerji"nin istehsalının artırılması bir çox problemlərin həllində, o cümlədən, ekoloji problemlərin və resurs çatışmazlığınını həllində vacib rol oynayır. Bunlarla yanaşı, insan fəaliyyətinin və müdaxiləsinin ətraf mühitə mənfi təsirlərini azaltmağa imkan yaradır. Atmosferin çirklənməsini azaldır və təbiət, həm də insanlar üçün daha zərərsiz enerji resurslarının mənbələri formalaşır. Azərbaycanla Avropa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən 2027-ci ilədək Avropaya təbii qaz ixracatı 2 dəfə artırılacaq və 20 milyard kubmetr səviyyəsində olacaqdır. Azərbaycan təkcə yerin təkindən çıxarılan təbii qazla kifayətlənməyərək, özünün "yaşıl enerji" potensialını obyektiv olaraq qiymətləndirməkdədir və bununla bağlı davamlı işlər görür. Xəzər dənizinin Azərbaycana aid olan hissəsində küləkdən əldə olunan "yaşıl enerji" potensialı 157 qiqavat həcmindədir. Bundan əlavə, ölkəmizin quru ərazilərində əlavə olaraq 27 qiqavat "yaşıl enerji" imkanları vardır. Birləşmiş Ərəb Əmirliklərin "Masdar" şirkəti ilə imzalanmış razılaşmaya əsasən ölkəmizdə külək və günəş enerjisi hasilatı 2027-ci ilə kimi 4 qiqavat, 2037-ci ilədək isə 6 qiqavat səviyyəsində olacaqdır. Artıq Azərbaycandan Avropaya, yəni Gürcüstandan keçməklə, Rumıniyaya sualtı kabel xəttinin çəkilməsi üçün müqavilə imzalanıb və həmin xəttin nəql gücü 4 qiqavat səviyyəsindədir. Digər əlamətdar hadisə isə Avstraliyanın "Fortescue Future Industries" şirkəti ilə imzalanmış Anlaşma Memorandumuna görə Azərbaycanda yaşıl enerji istehsalının 12 qiqavatadək artırılması üçün məqsədli investisiyalar yönəldiləcəkdir. Ümumilikdə, bu günə qədər imzalanmış saziş və memorandumlardan çıxış etsək, Azərbaycanda 25 qiqavatlıq yaşıl enerjinin istehsalı və dünya bazarlarına çıxarılması yaxın perspektivdə reallaşa bilər. Beləliklə, Azərbaycanda yaşıl enerjinin istehsalı və ixrac imkanları əhəmiyyətli səviyyədə artacaq və ölkəmiz etibarlı enerji təminatı tərəfdaşı kimi öz rəqabətqabiliyyətini və imicini daha da yüksəldəcəkdir. Qarabağda iqtisadiyyat quruculuğu hazırda intensiv şəkildə getməkdədir. Digər tərəfdən, məlumdur ki, Qarabağ iqtisadiyyatının inkişafı üçün ciddi resurslar vardır [4].

Qeyd edək ki, Azərbaycan işğaldan azad olunmuş əraziləri öz maliyyə gücü və iqtisadi qüdrəti hesabına bərpa edən və dirçəldən nadir ölkələrdən biri kimi artıq tarixə düşmüşdür [5]. Hesab edirik ki, Qarabağda "Yaşıl Enerji Zonası"nın təşkilində əsas məqsəd bərpa olunan enerji mənbələrinin yaradılması və ümumilikdə, ölkəmizdə karbon qazı emissiyalarının azaldılması istiqamətində məqsədli tədbirlərin görülməsidir. Qeyd etmək lazımdır ki, dövlət başçısının 3 may 2021-ci il tarixli sərəncamı ilə işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması tədbirləri nəzərdə tutulub. Bu ərazilərdə kompleks və sistemli şəkildə reallaşdırılan enerji layihələri yaxın perspektivdə Azərbaycanda nümunəvi və səmərəli "yaşıl enerji" məkanının yaradılmasında strateji əhəmiyyət kəsb edəcəkdir. Bu amillər həm də ölkəmizin qeyri-neft sektoru sahələrinin inkişafına önəmli təkan verəcəkdir və nəzərə almaq lazımdır ki, dövlətimiz tərəfindən bu sahələrdə stimullaşdırıcı vergi mexanizmləri də işlənilmiş və tətbiq olunmuşdur [6]. Professor V.Ə.Qasımlı və bir qrup tədqiqatçılar bu fikirdədirlər ki: Azərbaycanda qəbul edilən "yaşıl enerji" yanaşmasının mahiyyəti bundan ibarətdir ki, bir tərəfdən enerji getdikcə daha çox bərpa olunan mənbələrdən alınacaq, digər tərəfdən isə bizim enerjiyə etdiyimiz qənaət, həmin miqdarda enerjini istehsal etməkdən daha səmərəlidir. "Yaşıl artım" konsepsiyasının tərkib hissəsi kimi, Azərbaycanda Qarabağ və Şərqi Zəngəzur bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı siyasət həyata keçirilir [7]. Başqa önəmli bir məsələ Azərbaycanın "yaşıl enerji" və "yaşıl iqtisadiyyat" prinsipləri əsasında yeni sosial-iqtisadi inkişaf modelinə keçməsi üçün başladığı tarixi işləri qeyd etmək lazımdır. Bu amillər həm də ölkəmizin iqtisadi təhlükəsizliyini gücləndirməklə bərabər, onun mühüm tərkib hissəsi olan enerji təhlükəsizliyinin əhəmiyyətli səviyyədə artırılmasına əlavə potensial formalaşdırır [8].

Qeyd edək ki, 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə əsas istiqamətlərdən biri - "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"-nin formalaşdırılmasıdır. Bunlar nəzərə alınmaqla, 2024-cü il dövlət başçısının Sərəncamına əsasən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Başqa bir tarixi və önəmli məsələ - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının növbəti Tərəflər Konfransının Sessiyasının (COP-29) 2024-cü ilin noyabrında Azərbaycanda keçirilmə-

sidir. Azərbaycan belə bir beynəlxalq nüfuzlu tədbirə ev sahibliyi etməklə bərabər, həm də özünün beynəlxalq imicini və rəqabətqabiliyyətini əhəmiyyətli səviyyədə artıracaqdır. Bu həm də yaşıl energetikanın inkişafına əlavə təkan verəcəkdir və yaşıl energetikanın inkişafı isə dövlətin təhlükəsizlik sistemində strateji əhəmiyyət kəsb edir [9].

Qarabağ iqtisadi rayonunda "ağıllı" texnologiyalar əsasında müasir şəhərlər və kəndlərin tikilməsi, Böyük Qayıdışla bağlı I Dövlət Proqramının intensiv olaraq həyata keçirilməsi və bunlarla bərabər "yaşıl enerji" zonasının yaradılması regionun inkişafına multiplikativ təsir göstərməkdədir. Analoji inkişaf prosesləri ölkəmizdə regional inkişafın yeni mütərəqqi və müasir modelini formalaşdırmaqdadır [10].

Qeyd edək ki, dünya səviyyəsində ekoloji problemlər kəskin xarakter almaqdadır. İqlim dəyişikliklərinin yaratdığı problemlər mühüm ərzaq məhsulları ilə təminatı çətinləşdirir. Torpaq sahələri su altında qalır və ya quraqlıq səbəbindən dövriyyədən çıxır. Bunlarla yanaşı, davamlı inkişafı təmin etmək üçün resurslara qənaət etmək lazımdır və gələck nəslin tələbatı diqqətdə saxlanılmalıdır. Bunun üçün "yaşıl enerji" sahələrinin inkişaf etdirilməsi və yaşıl iqtisadiyyat prinsiplərinin bərqərar olmasıdır. Belə bir şəraitdə, Azərbaycan özünün neft və qaz resurslarını dünya ölkələri, ilk növbədə, Avropa Birliyi ölkələri ilə bölüşdürməklə yanaşı, bərpa olunan enerji mənbələrinin yaradılmasına strateji önəm verir. Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycanda quruda bərpa olunan enerji potensialı 135 QVt, dənizdə isə 157 QVt-dır. Həmçinin külək enerjisi potensialı 3000 MVt, günəş enerjisi imkanları 23000 MVt-dır. Digər tərəfdən, hazırda ölkəmizdə istehsal olunan 8,3 min MVt elektrik enerjisinin 1,7 mini su elektrik stansiyalarının gücü hesabınadır. Bu isə 20 % pay deməkdir. İşğaldan azad olunmuş ərazilərdə su elektrik stansiyaları şəbəkəsinin genişləndirilməsi "yaşıl enerji"nin payını artırmağa imkan verəcəkdir. Hazırda işğaldan azad olunmuş ərazilərdə 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə tədbirlər planı icra olunmaqdadır. Bu amillər kontekstində, nəzərə almaq lazımdır ki, Azərbaycanın daxili su ehtiyatlarının təqribən 25 %-i işğaldan azad edilmiş ərazilərdədir. Buna görə də su ehtiyatlarından səmərəli istifadə edilməsində yeni imkanlar formalaşmışdır.

Böyük Qarabağ Zəfərindən sonra işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və sosial-iqtisadi inkişaf üçün fundamental əsasların formalaşdırılması prosesləri sürətlənməkdədir. Bu istiqamətdə konseptual yanaşmalar və prioritetlər demək olar ki, əsasən müəyyənləşdirilmişdir. Dövlət başçısının ardıcıl olaraq işğaldan azad olunmuş ərazilərə səfərlər etməsi və aparılan dirçəliş tədbirləri ilə yerindəcə tanış olması, ümumilikdə yeni yaradılan Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafına güclü təkan və əlavə stimullar verir. Uğurla reallaşdırılan layihələr sırasında energetika infrastrukturunun yaradılması və işğaldan azad olunmuş ərazilərin fasiləsiz, həm də etibarlı şəkildə elektrik enerjisi ilə təmin edilməsi diqqət çəkir. Qısa müddət ərzində Şükürbəyli – Şuşa (75 km), Şükürbəyli – Zəngilan (110 km), Xındırıstan – Ağdam (35 km) istiqamətlərində 110 kVt elektrik enerjisi xətlərinin çəkilişi başa çatdırılmışdır.

Qeyd edək ki, Qarabağ regionunda hələ sovetlər birliyi dönəmində güclü elektrik enerjisi şəbəkəsi formalaşmışdır və burada 10 elektrik şəbəkəsi fəaliyyət göstərirdi. Mənfur düşmən işğal zamanı bu infrastrukturu tamamilə dağıtmış və ya talan etmişdir. Hazırkı reallıqda regionun güclü enerji mənbələrinin olması və böyük potensialı ilə diqqət çəkməsi bunu deməyə əsas verir ki, tezliklə Qarabağda daha müasir texnologiyalara söykənmiş yeni energetika infrastrukturu və şəbəkəsi yaradılmaqdadır. Bunun üçün resurs imkanlarına nəzər salsaq görərik ki, Tərtər, Bazarçay, Həkəri və s. çayların bazasında su elektrik stansiyalarının şəbəkəsinin yaradılması perspektivi vardır. Artıq bu istiqamətdə işlər intensivləşməkdədir və əvvəldən fəaliyyət göstərən bəzi su elektrik stansiyalarının işi bərpa olunmuşdur. Belə ki, Suqovuşanda bərpa edilən 20 MVt gücündə su - elektrik stansiyası istismara verilmişdir ("Suqovuşan-1" və "Suqovuşan-2") və s.

Qeyd olunanlara əlavə olaraq, bu fikirdəyik ki, yaxın perspektivdə Qarabağ iqtisadi rayonunda yaşıl enerji infrastrukturunun daha intensiv şəkildə inkişaf etdirilməsi təmin olunacaqdır.

## YEKUN

Beləliklə, Qarabağ iqtisadi rayonunun yaşıl enerji resurslarından səmərəli və məhsuldar istifadə edilməsi üçün bir qrup məsələlər xüsusi diqqət mərkəzində saxlanılmalıdır:

- İlk növbədə, regionun yaşıl enerji potensialı daha dərindən araşdırılmalı, ehtiyatlar obyektiv olaraq qiymətləndirilməlidir;

- İqtisadi rayonda "yaşıl enerji" infrastrukturunun yaradılması proseslərinin sürətləndirilməsinə zərurət vardır, bu amil məskunlaşma, yeni iş yerlərinin yaradılması və Böyük Qayıdışın reallaşdırılmasında ciddi önəm kəsb edir;

- Qarabağ Universitetində regionun "yaşıl enerji" resurslarından səmərəli istifadənin təmin edilməsi üzrə məqsədli elmi tədqiqatlara başlanılması;

- Qarabağ iqtisadi rayonunda "yaşıl enerji" infrastrukturunun intensivləşdirilməsi məqsədilə bu sahədə dünyada daha çox inkişaf etmiş ölkələrin və şirkətlərin təcrübəsindən istifadə edilməsi təmin olunmalı, bunlarla bağlı kompleks tədbirlər görülməlidir və s.

**Açar sözlər:** *Qarabağ, Qarabağ iqtisadi rayonu, "yaşıl enerji", Qarabağın "yaşıl enerji" imkanları, "yaşıl enerji" infrastrukturu, "yaşıl enerji"nin inkişaf etdirilməsi istiqamətləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Садуба, Т. Р. Солнечная энергия как источник электрической энергии / Т. Р. Садуба // Аллея науки. – 2018. – Т. 2, № 8(24). – С. 700-704.*

*2. Прудников И. А., Ротарь А. М. Зеленая энергетика и ее роль в системе обеспечения безопасности государства. Путеводитель предпринимателя. 2021, Том 15, № 1, с.84-90.*

*3. Ташкеева, Е. Е. Возобновляемые источники энергии в рамках концепции "зеленой" экономики / Е. Е. Ташкеева // Modern Science. – 2020. – № 6-3. – С. 156-159.*

*4. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.*

*5. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // Geostrategiya jurnalı, – 2021. № 04 (64), – s.67-72.*

*6. Shafa Aliyev, Mayis Gulaliyev, Shahin Hurshudov, Afet Hasanova, Fariz Salahov. Effects of Taxes on the Development of the Non-Oil Industry Sector: The Case of Azerbaijan. // WSEAS Transactions on Business and Economics. 2023. vol. 20. pp. 2400-2412. https://wseas.com/journals/bae/2023/e205107-2355.pdf*

*7. Qasımlı V.Ə., Hüseyn, R.Z., Hüseynov R.F., Həsənov R.B., Cəfərov C.R., Bayramova A.B. Yaşıl iqtisadiyyat. Bakı: "Azprint" nəşriyyatı, 2022, 280 s.*

*8. Aliyev S., Gulaliyev, M., Purhani, S., Mehdiyeva, G., & Mustafayev, E. Comparative Assessment of Energy Security Level: The Case of the South Caucasus Countries. // International Journal of Energy Economics and Policy. 2024. №14(1). pp.651-662. - https://doi.org/10.32479/ijeep.14984.*

*9. Прудников И.А., Ротарь А.М. Зеленая энергетика и ее роль в системе обеспечения безопасности государства. Путеводитель предпринимателя. 2021, Том 15 № 1, с.84-90.*

*10. Shafa Aliyev, Farid Babayev, Galib Gafarli, Ummuhabiba Galandarova, Tahmina Balajayeva. Economic security of regions: A prerequisite for diversifying the Azerbaijan economy// Journal of Eastern European and Central Asian Research. September. Vol. 10 No. 5 (2023). pp. 827-840. - http://dx.doi.org/10.15549/jeecar.v10i5.1480.*

**ШАФА АЛИЕВ,**
***Профессор Сумгаитского Государственного Университета, д.э.н.***
***Руководитель Центра Исследования Экономики Карабаха UNEC.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

## РЕЗЮМЕ

Актуальные аспекты эффективного использования ресурсов зелёной энергетики в Карабахском экономическом районе

В статье рассматриваются актуальные аспекты эффективного использования ресурсов зелёной энергетики в Карабахском экономическом районе в нынешних условиях. Раскрыта сущность проблем формирования потенциала и инфраструктуры зелёной энергетики. Даны процессы эволюции развития зелёной энергетики в качестве одного из стратегически важных источников расширения энергетического потенциала и усиления безопасности. Обоснована необходимость интенсификации развития инфраструктуры зелёной энергетики в Карабахском экономическом районе путём эффективного использования существующих ресурсов. Подготовлен ряд предложений по актуальности и развитию системы зелёной энергетики в Карабахском экономическом районе с учётом активизации применения новейших технологий.

**Ключевые слова:** *Карабах, Карабахский экономический район, зелёная энергия, возможности зелёной энергетики Карабаха, инфраструктура зелёной энергетики, направления развития зелёной энергетики.*

**SHAFA ALIYEV,**
***Professor at Sumgait State University.***
***Head of the UNEC Centre for***
***Karabakh Economic Research.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

**SUMMARY**

**Actual aspects of effective usage of green energy resources in Karabakh economic region**

Actual aspects of effective usage of green energy resources in the Karabakh economic region in the current conditions are given in the article. The essence of problems of formation of potential and infrastructure of green energy is revealed. The processes of evolution of green energy development as one of the strategically important sources of expansion of energy potential and strengthening of security are given. The necessity of intensification of development of green energy infrastructure in Karabakh economic region by means of effective use of existing resources is substantiated. A number of proposals on the relevance and development of the green energy system in the Karabakh economic region taking into account the intensification of the application of the latest technologies are prepared.

**Keywords:** *Karabakh, Karabakh economic region, green energy, opportunities of green energy in Karabakh, green energy infrastructure, directions of green energy development.*

UOT 33
DOI:10.30546/3006-0346.2024.4.82.66

# AZƏRBAYCANDA PENSİYA TƏMİNATI SİSTEMİNİN İNKİŞAFININ ƏSAS XÜSUSİYYƏTLƏRİ: PERPSEKTİV-NƏZƏRİ BAXIŞ

**EMİN ƏLİRZAYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*İqtisad üzrə fəlsəfə doktoru*
*E-mail: alirzayev@gmail.com*

## Giriş

Sosial dövlət modelində əhalinin sosial müdafiəsinin təşkili və təmin edilməsində ən əhəmiyyətli idarəetmə mexanizmi - pensiya təminatı hesab olunur.

Pensiya təminatını dövlətin sosial müdafiə funksiyalarının və ya vəzifəsinin yerinə yetirilməsində dövlət sosial sığorta sisteminin tərkib hissəsi olaraq bu sistemin qurulması (təsis edilməsi) məqsədinə uğun olaraq fəaliyyətinin, bir növ, son məhsulu kimi də qəbul etmək olar.

Pensiya təminatı - dövlət sosial sığorta sisteminin mahiyyətcə əsasını təşkil edən məcburi dövlət sosial sığortası üzrə toplanılan fondlar (sosial sığorta haqları) hesabına ödənilən sosial müavinətlərlə təminata paralel olaraq, məcburi dövlət sosial sığortasının həyata keçirilməsinin ən başlıca məqsədini təşkil edir.

Pensiyanın sosial müdafiə məqsədli təminat forması olaraq məcburi dövlət sosial sığortası üzrə fəaliyyətin üzərində qurulması, təşkili ilə bağlı münasibətlərin asılılığı və əlaqəliliyi pensiya təminatının sistem mahiyyətini formalaşdırır.

Sosial-iqtisadi inkişafa uyğun olaraq getdikcə cəmiyyətin dəyişən tələblərinə uyğun inkişaf xüsusiyyətləri alması gözlənilən pensiya təminatı sistemini əhatə edən çoxmüstəvili və çoxçeşidli problemlər qarşısında bu təminat mexanizminin sosial və iqtisadi əhəmiyyətliliyinin saxlanılması tələb olunur. Bu da onun təkmilləşdirilməsi ilə bağlı səylər göstərilməsini sosial müdafiə sisteminin təkmilləşdirilməsi obyekti olaraq davamlı elmi tədqiqi zərurətini ortaya çıxarır.

Qlobal iqtisadi məkanın tərkib hissəsi olaraq Azərbaycan Respublikasında dövlət modelinin fəaliyyətində, həmçinin sosial rifahın təmin olunmasında sosial müdafiənin əhəmiyyətli rolu nəzərə alınaraq dəyişən daxili struktur-idarəetmə, ətraf mühit amilləri və şərtləri baxımından sosial müdafiənin rolunun daha da gücləndirilməsi və sosial ehtiyacların davamlı təmin olunması məqsədilə sosial müdafiənin daha çox diqqətdə olan və tədqiqat marağı cəlb edən sahəsi olaraq qəbul edilməsinə baxmayaraq, bu sahə üzrə problemlərin davamlı araşdırılması və daha da təkmilləşdirilməsi məqsədilə uyğun həll mexanizmlərinin axtarılıb tapılması üçün milli səviyyədə elmi tədqiqi aktual məsələlərdən hesab edilir.

## Material və metodlar

Məqalənin işlənilməsində təhlillərin aparılması, ilk növbədə, seçilən problemin məzmunundan irəli gəlməklə pensiya sistemlərinin idarə olunması ilə bağlı mövcud milli iqtisadi-normativ baza və beynəlxalq nəzəriyyə əsasında müəyyən edilmiş istiqamətlər və tələblərdən çıxışa əsaslanır. Fikirlərin irəli sürülməsində elmi-nəzəri tədqiqat metodlarından əsasən empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarına, eyni zamanda qoyulan problemlər üzrə suallara aydınlıq gətirilməsi məqsədilə statistik məlumatlardan, göstəricilərdən və digər verilənlərdən istifadəyə, zəruri hallarda statistik yanaşma metodologiyalarına əsaslanılmışdır.

## Müzakirə

Pensiya təminatının inkişafına tarixi formalaşmanın xarakterik olması onun daimi inkişafı xüsusiyyətləri kəsb etməsi ilə əlaqədardır.

Əsas mahiyyəti etibarilə sosial-iqtisadi kateqoriya olan pensiya (və ya pensiya təminatı) cəmiyyət tərəfindən sosial müdafiənin ən qabarıq, diqqət mərkəzində və müzakirə mövzusu olan fenomenası, yaxud kateqoriyası kimi maraq dairəsində olmasına baxmayaraq, tətbiq şəraitində real təminat forması olaraq insanın (fərdin) real maddi ehtiyaclarının ödənilməsi mənbəyi rolunda çıxış etməklə bilavasitə həyat səviyyəsi və rifahı təmin etməsinə təsiri və rolu baxımından elmi müstəvidə əsasən iqtisad elminin tədqiqat obyekti olaraq elmi əhəmiyyət kəsb edir.

Müasir dünyada pensiya – mahiyyətcə sosial müdafiə sistemi çərçivəsində xüsusi təminat forması olaraq milli səviyyələrdə qanunvericiliklərlə nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığortası üzrə sığortaolunanların (bundan sonra – sığortaolunan) onlara əmək pensiyası təyin olunanadək olan dövrdə ödənilmiş əməkhaqqı və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə

əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara (sığortaolunanlara) ödənilən aylıq pul ödənişi kimi başa düşülür. Pensiya – əsasən sosial sığortalanma forması kimi sığortaolunanlar tərəfindən ödənilən sığorta haqları əsasında formalaşdıran fondlar hesabına əsasən fərdlərə aylıq maliyyələşdirilmələri nəzərdə tutmaqla, sosial sığorta qanunvericiliyinə əsasən sosial sığorta hadisələrindən biri olaraq qiymətləndirilən - pensiya yaşına çatma (və ya uyğun şərtlərlə pensiya hüququ əldə etmə) baş verdikdə sığortaolunan tərəfə (fərdə) ödənilən sosial ödəniş növü kimi qəbul edilir.

Hazırda “pensiya” anlayışı altında əsasən dövlət tərəfindən müvafiq qanunlar və normativ sənədlər əsasında, bir qayda olaraq, əmək fəaliyyəti ilə məşğul olub əldə olunan gəlir əsasında müvafiq dövlət vergiləri ilə yanaşı, ödənilən sosial sığorta haqları müqabilində əmək qabiliyyətli hesab edilməyən yaş dövrünə çatdıqda, həmçinin digər işləyən şəxslər tərəfindən ödənilmiş sığorta haqları hesabına akkumlyasiya edilmiş fondlardan ayrı-ayrı şəxslərə aylıq, birdəfəlik və digər müxtəlif əsaslarda fəaliyyət imkanlarının itirilməsi və bununla əlaqədar gəlir əldə edilməsi imkanlarının məhdudlaşması nəzərə alınaraq həmin şəxslərin normal həyat fəaliyyətinin davam etdirilməsi və sosial inklüzivliyinin təmin olunması məqsədilə bir qayda olaraq, vəzifə və ya öhdəlik olaraq dövlət tərəfindən qurulan və idarə edilən xüsusi bir təminat sistemi başa düşülsə də, xronoloji baxımdan sosial münasibətlərin və ehtiyacların zamanla dəyişkənliyə uğraması fonunda pensiya təminatı sisteminin reformasiyası baş vermişdir. Bu təminat forması həmçinin kommersiya marağı cəlb olunmaqla daha sonradan qeyri-dövlət (özəl) institutları (subyektləri) tərəfindən də həyata keçirilməyə başlanılmışdır [1, s. 4-14].

Pensiya təminatı tarixi inkişaf prosesi nəticəsində müasir formasını almışdır.

Eramızdan əvvəl 13-cü ildə Roma imperatoru Augustus (Gaius Octavius) veteran legionerlərin 16 il legionda və dörd il hərbi ehtiyatda olduqdan sonra pensiya almasına istiqamətlənmiş bir pensiya planı yaratmışdır. Bu, Roma sərhəd kampaniyalarından qayıdan veteranları mükafatlandırmaq və onları sakitləşdirmək üçün nəzərdə tutulmuş əsl pensiya planı olmaqla, Roma sərhədindən qayıdan veteranları mükafatlandırmaq və sakitləşdirmək üçün nəzərdə tutulmuşdur. Pensiya təminatı da digər sosial müdafiə alətləri və mexanizmləri kimi əsasən Qərb mənşəli olmaqla sənaye istehsalının inkişafı dövründə istehsal və əmək münasibətlərinin inkişafı nəticəsi olaraq daha çox 18-ci əsrdə ortaya çıxmağa başlamışdır. Ümumilikdə isə tarixin müxtəlif dövrlərdə pensiyaya bənzər müxtəlif müavinət formaları ilə sosial müdafiə xarakterli təminat formalarının tətbiq olunmasına baxmayaraq, onun pensiya mahiyyətində tətbiqi həmin vaxt hərbçi personala münasibətdə başlanılmış və 20-ci əsrdə isə mülki əhali kontingenti ilə də bağlı pensiya təminatı xarakterli addımların atılması ilə genişlənmişdir [2](Şəkil 1.):




**Şəkil 1. Pensiya təminatının əhatə dairəsinin genişlənməsinin əsas tarixi inkişaf mərhələləri** ***(Müəllif tərəfindən tərtib edilmişdir)***

Qeyd edildiyi kimi, pensiya təminatı xarakterli ilkin sosial təminat formalarının, həmçinin tarixdə istehsalın təmərküzləşməsi dövründə müxtəlif işəgötürənlər tərəfindən onların müəssisələrində çalışan işçilər üçün yaradılmış təminat forması kimi təqdim edilməsinə baxmayaraq, sosial müdafiə mexanizmi kimi pensiya təminatının sistem olaraq formalaşması dövlətçiliyin inkişafı və pensiya sisteminin dövlətin sosial funksiyalarının idarəetmə fəlsəfəsinin mühüm tərkib hissəsi olaraq qəbul edilməsi ilə əlaqədar olmuşdur.

Bu baxımdan, əslində özəl (qeyri-dövlət) pensiya təminatının tarixini dövlət pensiya təminatından daha qədim olduğunu da hesab etmək olar.

Müasir dövrdə pensiya təminatı nəzəriyyəsi baxımımından pensiya təminatı növlərinin sistemliliyinin formalaşması (əlilliyə görə, yaşa görə, ailə başçısını itirməyə görə) dərhal baş verməmiş, yaşa görə pensiya təminatının yaradılması sonrakı inkişaf mərhələlərində baş vermişdir.

Hazırkı dövrdə beynəlxalq səviyyədə pensiya təminatı cəmiyyətin daha asan idarə edilməsi baxımından təbii olaraq dövlətin bilavasitə marağında olmaqla, bu sahədə də idarəetmə dövlətin sosial-iqtisadi siyasətinin əsas tərkib hissələrindən biri kimi, dövlət sosial sığorta sistemi çərçivəsində konkret

qanun və normalara söykənməklə sistemli şəkildə idarə olunmaqdadır.

Pensiya təminatının dünyada, xüsusən Qərbi Avropa məkanında uzunmüddətli tətbiqi təcrübəsinin də təsiri altında pensiya təminatı, bir növ, dövlətin öz vətəndaşlarına yönəlmiş əsas sosial məhsulu olaraq dərk edilməyə başlanılmışdır.

Bu və bununla bağlı məqamlar isə pensiya təminatının beynəlxalq, o cümlədən milli səviyyədə ölkələrin sosial-iqtisadi rifahı vəziyyətinin və sosial müdafiə səviyyəsinin əsas qiymətləndirilməsi obyektlərindən biri kimi formalaşmasını şərtləndirmişdir.

Müasir pensiya təminatının müasir beynəlxalq standartları üzrə ümumi meyarlar sosial-iqtisadi, insan və əmək hüquqlarının müdafiəsinin təmin edilməsi istiqamətində fəaliyyət göstərməklə Birinci Dünya Müharibəsindən sonra dünyada davamlı sülhə nail olunmasının sosial ədalətə əsaslanılmaqla mümkün olmasına inama söykənərək 1919-cu ildə yaradılmış Beynəlxalq Əmək Təşkilatının (BƏT) 1952-ci ildə qəbul edilmiş 102 saylı konvensiyası ilə müəyyən edilmişdir [3].

Bu məqsədlə beynəlxalq aləmdə müxtəlif maliyyə təşkilatları (Dünya Bankı, BMT və s.) tərəfindən müxtəlif əməkdaşlıq proqramları çərçivəsində ölkələrin sosial-iqtisadi inkişafı ilə bağlı milli layihələrin icrası məqsədilə milli səviyyədə vəziyyətin öyrənilməsi üçün aparılan tədqiqatlarda müxtəlif indikatorlardan və müqayisələrdən istifadə edərək pensiya təminatı sisteminin qiymətləndirilməsi aparılır. Bu məqsədlə aparılan işin nəticəsi olaraq ərsəyə gətirilməklə dərc edilən və müxtəlif formalarda yayımlanılan hesabatlar və ya məlumatlar ekspertlər səviyyəsində tədqiqatlarda istifadə olunmaqla yanaşı, milli səviyyələrdə pensiya təminatının inkişafı ilə bağlı dövlət proqramları və siyasət strategiyalarının formalaşdırılması üçün də istiqamətləndirici əhəmiyyət kəsb edir.

Qeyd edilməlidir ki, pensiya təminatı ilə bağlı ümumi və əsasən bənzər nəzəri əsasların formalaşması zamanla baş versə də, milli səviyyələrdə ölkə sərhədləri daxilində cəmiyyət həyatında baş verən sosial, sosial-iqtisadi, demoqrafik, siyasi və tarixi-mədəni proseslərə dövlətin maraqları baxımından təsir göstərilməsi prioriteti nəzərə alınmaqla pensiya təminatı ilə bağlı eyni zamanda bir çox hallarda ümumi standart baxışlardan fərqlənilə bilən lokal qərarların verilməsi və fərqlənən təcrübənin tətbiqi müşahidə edilməkdədir.

Belə hesab etmək olar ki, pensiya təminatının əhatəliliyi və maliyyə imkanları böyük ölçüdə ölkələrin iqtisadi inkişaf dərəcəsi ilə mütənasibdir [4].

Bu isə o deməkdir ki, müasir şəraitdə pensiya təminatı ilə bağlı qərarların verilməsinin tam şəkildə dövlətlərin öz maraqları çərçivəsində olduğunu hesab etmək olar. Lakin beynəlxalq inteqrasiya şəraitində əhali (vətəndaş) ehtiyaclarının müasir tələblərə uyğun və daha rasional qarşılanması hesabına pensiya sisteminin uzunmüddətli idarə edilməsinə nail olmaqla, həmçinin eyni vaxtda dövlət institutunun təhlükəsiz və axıcı idarə olunmasını təmin etmə baxımından bu sahədə beynəlxalq səviyyədə işlənilən modern strategiyaların və lokal səviyyələrdə tətbiq olunan ayrı-ayrı halların (təcrübələrin) öyrənilməsi ölkələrdə pensiya təminatı sisteminin həmin standartlara uyğunlaşdırılması meylini formalaşdırmaqla, bu sahədə dövlət siyasətlərinin işlənilməsinin də formalaşan standartlar üzrə reallaşdırılmasına təsir göstərmiş olur.

Məsələn, BƏT-in himayəsi ilə 1927-ci ildə yaradılmış dünyanın pensiya təminatı ilə bağlı təcrübə mübadiləsi üçün beynəlxalq platforma olan Beynəlxalq Sosial Təminat Assosiasiyası (ISSA) hazırda dünyanın 160 ölkəsinin milli pensiya təminatı operatorlarının (qurumlarının) görüşdürülməsi üçün vahid platforma olaraq fəaliyyət göstərməkdədir [5], [6].

Müasir dünyada pensiya təminatı artıq qlobal fenomenə çevrilmiş və əhalinin sosial müdafiə əhəmiyyətli gəlirlərinin əsas hissəsini təşkil edən bir istiqamət olaraq qlobal səviyyədə başlıca (baza) sosial problem olaraq qəbul edilən yoxsulluqla mübarizədə əsas idarəetmə və ya sosial müdafiə mexanizmi olaraq qəbul edilir.

Modern pensiya təminatını ümumiləşdirilmiş şəkildə, fərdin əmək fəaliyyəti göstərdiyi dövrdə əldə etdiyi gəlirlərdən dövlət pensiya təminatı sistemi çərçivəsində qanunvericiliklə müvafiq sığortaçı qurum, qeyri-dövlət pensiya təminatı çərçivəsində isə sığortaçılarla razılaşdırılmaqla sığorta haqlarının ödənilməsi və qarşı tərəfdən isə aylıq ödəmələrin (pensiyanın) alınması şərtləri toplusunu (aylıq sığorta haqqı normativi, aylıq ödəniş məbləği, aylıq əldə olunacaq məbləğ (annuitet) və digər hallar) özündə əks etdirən pensiya planları üzrə formalaşdırılan pensiya fondları hesabına pensiya təminatının sistemli əsasda qurulması və idarə edilməsi, o cümlədən benefisiarların ödəmələrlə (pensiya məbləğləri ilə) aylıq, birdəfəlik və s. əsaslarda təmin edilməsi sistemi kimi ifadə etmək olar.

**Pensiya təminatı mahiyyətcə proseslərin əlaqəsi baxımından sistem mahiyyəti daşımaqla pensiya təminatı sistemi kimi nəzərə alınmaqla təhlil edilməlidir.** Bu baxımdan pensiya təminatı sisteminin müasir strukturunu sxematik olaraq aşağıdakı şəkildə təsvir etmək olar (Şəkil 2.):




**Şəkil 2. Sosial sığorta münasibətləri (dövlət sosial sığorta sistemi) çərçivəsində pensiya təminatı sistemində proseslərin sxematik təsviri**

***(Müəllif tərəfindən müxtəlif mənbələrdən ([7], [8], [9] və [10, s. 397]) də istifadə olunmaqla tərtib edilmişdir)***

Şəkil 2-dən də göründüyü kimi, qeyd etdiyimiz fikirləri daha da möhkəmləndirməklə pensiya təminatını yalnız dövlət maliyyəsi ilə əlaqələndirmək və təkcə dövlət tərəfindən təmin edilən proses olaraq təqdim etmək də doğru deyildir. Nəzərə aldıqda ki, pensiya təminatı ilə bağlı dövlətin əsas məqsədi - əslində mahiyyəti etibarilə əhalinin kifayət qədər geniş, eyni zamanda sosial baxımdan həssas seqmentinin sığorta prinsipləri əsasında yaranan mümkün imkanlar daxilində iqtisadi dəstəklənilməsini və ya gəlirliliyini təmin etmək hesabına yoxsulluqla mübarizənin həyata keçirilməsilə həyat səviyyəsinin qorunması və bununla dövlət institutunun etibarlı fəaliyyətinin təmin edilməsidir, bu baxımdan əsasən əməkhaqqı və məcburi dövlət sosial sığortasına cəlb edilən digər gəlirlərdən müəyyən edilmiş normativlər əsasında tutulmalar hesabına formalaşan fondlar hesabına dövlət sosial sığorta sistemi çərçivəsində cari maliyyələşdirilməsi həyata keçirilən dövlət pensiya təminatının da əhalinin pensiya təminatının yaxşılaşdırılması baxımından imkanları istər-istəməz məhdudluq kəsb etməkdədir.

Məhz bu məqam özlüyündə də yeni (əlavə) imkanlar olaraq qeyri-dövlət pensiya təminatının da əhəmiyyətini ön plana çıxarmaqla və vətəndaş üçün əlavə sığortalanma imkanlarına giriş yolu açaraq pensiya ilə əlaqədar (və ya pensiya) tipli) hallarda gəlirlərini artırmağa və əmək fəaliyyəti göstərilən dövrdə əldə olunan əməkhaqqı (gəlirlərlə) göstəricisinə nisbətdə daha yüksək ümumi pensiya təminatı formalaşdırılmasına şərait yaradır.

Pensiya təminatı sahəsində bügunədək formalaşmış təcrübə onu göstərir ki, yalnız dövlət pensiya təminatı prinsipilə ölkədə pensiya təminatının maliyyə imkanlarının genişləndirilməsi məhdud imkanlarla bağlıdır. Belə ki, dövlət pensiya təminatı öz məqsədinə uyğun olaraq, yalnız əsasən muzdlu gəlirlərdən, eləcə də qismən sahibkarlıq və s. digər gəlirlərdən qanunvericiliklə konkret müəyyən olunmuş sığorta haqqı normativləri əsasında tutulan haqlar hesabına formalaşan fondlar hesabına həmrəylik prinsipi əsasında (“pay-as-you-go (PAYG)”) cari və gələcək pensiyaların maliyyələşdirilməsini nəzərdə tutur ki, bu da sistemdən ödənilən pensiyaların birbaşa surətdə ölkədə əsasən əməkhaqqı fondunun artımı, onun ÜDM-də payı kimi göstəricilərdən asılı olmaqla milli iqtisadiyyatın inkişaf səviyyəsinin, həmçinin təkcə bir aspektdən təzahürü olduğunu göstərməklə, pensiya təminatının, eyni zamanda məhdud imkanlarla əlaqədar olduğunu da ortaya qoymaqdadır. Bununla belə, qeyri-dövlət pensiya təminatı fəaliyyəti ilə məşğul olunması məqsədilə institusional olaraq yaradılan imkanlar da pensiya təminatının 2-ci və 3-cü pilləsi sayılan - dövlət sosial sığorta sistemində əmək pensiyalarının yığım hissəsinin aktivləşdirilməsi (istər könüllü, istərsə də ödənilən məcburi dövlət sosial sığorta haqlarının bir hissəsinin məcburi əsasda yığıma yönləndirilməsi prinsipi əsasında), eləcə də sığortaçı və sığortaolunan (benefisiar, fərd və ya şəxs) arasında sərbəst seçim əsasında razılaşdırılmış pensiya planları üzrə müəyyən edilən şərtlərə əsaslanan əlavə təminat formalarının fəaliyyət göstərməsi heç də (bütün hallarda) dövlət sosial sığorta sisteminin idarəemə və təsir imkanları daxilində olmamaqdadır. Bu təminat formalarının inkişafı ölkədə investisiya mühiti və imkanları, maliyyə bazarının inkişafı səviyyəsi ilə bağlıdır. Belə ki, pensiya təminatının şərti yığım sisteminə əsaslanan 1-ci pilləsindən fərqli olaraq, qeyd edilən hər iki təminat pilləsi bilavasitə ayrılan vəsaitlərin investisiya edilməsini tələb edir ki, dövlət sosial sığorta sistemi çərçivəsində məcburi əsasda toplanılan sosial sığorta haqlarının bir hissəsinin məcburi

əsaslarla yığım hissəsinə yönəldilərək investisiyaya cəlb edilməsi beynəlxalq təcrübədə tətbiq edilsə də o qədər də uğurlu təcrübə formalaşmamış, daha çox bir növ, sahibkarlıq fəlsəfəsilə idarə olunan 3-cü pillənin tətbiqinin genişlənməsi daha çox baş vermişdir. Bunun səbəbləri arasında 2-ci pillə üzrə vəsaitlərin investisiya obyektinin seçilməsi, həmin vəsaitlərin idarə olunması ilə bağlı risklərin (maliyyə böhranları, inflyasiya və s.) qarşılanmasının və ya bölüşdürülməsinin sığortaçı (dövlət pensiya təminatı həyata keçirən qurum və ya autsorsinq edilən qurum (subyekt)) üçün daha kompleks xarakter daşımasıdır.

Belə ki, 2-ci pensiya pilləsinin tətbiqi ilə 1990-cı illərin sonu 2000-ci illərin əvvəllərində bağlı Mərkəzi və Şərqi Avropa regionunda geniş yayılmış beynəlxalq təcrübə əmək pensiyasının yığım hissəsinə vəsaitlərin 1-ci pillə çərçivəsində ödənilən məcburi dövlət sosial sığorta haqlarının bir hissəsinin məcburi əsasda ayrılaraq investisiyayönümlü istifadəsinə ehtiyatlı yanaşılmasını tələb etməsi də irəli sürülən fikirlər arasındadır [11].

Azərbaycanda da dövlət sığorta sistemi çərçivəsində həyata keçirilməklə həmrəylik prinsipinə əsaslanan mövcud pensiya təminatında (1-ci pillə pensiya təminatı) pensiyanın hesablanılmasının iqtisadi-riyazi ifadədə aşağıdakı formula ilə mahiyyət məqsədilə təqdim edə biləcəyimiz ümumi şərti təsviri qeyd edilənləri möhkəmləndirməyə imkan verir:

$$P_m = C_p / T_p \quad (1)$$

Burada – Pm – aylıq pensiya məbləği, Cp – sığorta haqqı ödəyicisinin (sığortaolunanın) dövlət sosial sığorta sistemində ona açılmış fərdi şəxsi hesabında topladığı məcburi dövlət sosial sığorta haqlarının cəmi məbləği və ya başqa sözlə, formalaşan pensiya kapitalı, Tp – gözlənilən pensiya ödənişi müddətinin aylarının sayıdır.

Təbiidir ki, əslində hər bir ölkədə pensiya təminatı sistemlərində pensiyaların və onların növlərinə görə hesablanılmaların yerli pensiya siyasətinin xüsusiyyətləri və məqamları nəzərə alınmaqla özünəməxsus və daha detallı kalkulyasiya metodlarının istifadə olunması xarakterikdir.

Bu şərti-riyazi təsvirdən də ilk növbədə belə bir fikri də özlüyündə irəli çıxarmaq olur ki, pensiya məbləğləri və onun yüksəkliyi fərdi hesabda pensiya hesablanılması üçün əsas kimi götürülən pensiya kapitalı məbləği ilə yanaşı, həmçinin gözlənilən pensiya ödənişi müddəti aylarının sayından asılıdır: Əlbəttə ki, pensiya təminatına təsir edən amillər baxımından bu fikirdə dolayı əlaqəlilik mövcud olsa da, pensiya təminatı üçün pensiya ödənişi aylarının sayı parametri demoqrafik proseslər nəzərə alınmaqla idarəetmə göstəricisi kimi müəyyən olunmaqla pensiya yaşına çatmış və həmin yaşdan sonra orta hesabla həyatda qaldığı illərin sayına bərabər götürülməklə uzunmüddətli statik hesab olunan indikatorlardan hesab edildiyindən pensiya təminatına birbaşa təsirli faktorlar qismində qiymətləndirilmir.

Qeyd edilənlərdən də anlaşıla bilir ki, 1-ci pillə pensiya təminatı hesabına pensiyalar üzrə daha qısa müddətdə yüksək əvəzetmə əmsalının formalaşdırılması ekonometrik baxımdan da mümkün hesab edilə bilməz.

Əhalinin sosial cəhətdən həssas, eləcə də struktur baxımından əhəmiyyətli kateqoriyası kimi pensiyaçıların gəlirləri qismində həyat səviyyəsinin saxlanılması və yüksəldilməsi nöqteyi-nəzərdən beynəlxaq tələblər nəzərə alınaraq Azərbaycanda sığorta prinsipinə daha çox uyğunluğu baxımından yaşa görə əmək pensiyası növünə münasibətdə əvvəlki illərdə təyin olunmuş aylıq pensiyaların orta məbləği göstəricilərinin həmin illər üzrə illik orta aylıq nominal əməkhaqqı göstəricilərinə nisbətdə əvəzetmə əmsalı göstəricilərini hesablasaq, əsaslı pensiya islahatlarının keçirildiyi 2017-ci ildən sonrakı dövrdə alınan nəticələrin orta hesabla yalnız 42 faiz ətrafında dəyişdiyini qeyd etmək olar (cədvəl 1.):

**Cədvəl 1. Azərbaycanda son illərdə pensiyalar üzrə əvəzetmə əmsalı göstəriciləri**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Təyin olunmuş yaşa görə aylıq pensiyaların orta məbləği | 197.6 | 213.8 | 233.7 | 249.3 | 291.5 | 331.4 | 360.9 | 400.5 |
| Orta aylıq nominal əməkhaqqı | 498.6 | 528.2 | 544.1 | 634.8 | 707.3 | 732.1 | 839.4 | 933.8 |
| Əvəzetmə əmsalı | 39.6 | 40.5 | 43.0 | 39.3 | 41.2 | 45.3 | 43.0 | 42.9 |

***Qeyd:*** *Əmsal göstəriciləri AR Dövlət Statistika Komitəsinin açıqladığı göstəricilər əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Nəzərə aldıqda ki, Azərbaycanda mövcud olmuş qanunvericiliyə uyğun olaraq pensiya gəlirləri vergi və sosial sığortaya cəlb edilməmişdir, bu gəlirlərdən beynəlxalq təcrübədə vergi və sosial sığorta məqsədilə tutulmaların aparılması praktikası da tətbiq olun-

masına baxmayaraq, qabaqcıl iqtisadiyyata malik və inkişaf etməkdə olan bir çox ölkələrdə orta muzda işləyənin pensiya dövrünə qədərki gəlirlərinin hansı nisbəti səviyyəsində pensiya gəlirləri əldə etdiyini göstərən xalis gəlir yanaşmasında hesablanan əvəzetmə əmsalları yuxarıdakı göstəricilərdən kifayət qədər yuxarıdır (Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT və ya (ing.) OECD) statistikasında məcburi dövlət sosial sığorta sxemi üzrə orta əvəzetmə göstəriciləri xalis yanaşmada 62 faiz təşkil etməkdədir) [12, s. 144].

Pensiya təminatının inkişafının pensiya məbləğlərinin digər makroiqtisadi həyat səviyyəsi göstəriciləri ilə münasibətdə artımı ilə kəmiyyət, eyni zamanda təminatın özünün proses olaraq yeni institutsional səviyyəyə qaldırılması ilə ölçməklə keyfiyyət baxımından inkişaf etdiyini qəbul edərsək, pensiya təminatının inkişana təsir göstərən amilləri və onların təsiri imkanlarını aşağıdakı sxematik təsvirlə icmallaşdıra bilərik (Şəkil 3.):




**Şəkil 3. Pensiya təminatının inkişafının bağlı olduğu başlıca amillər**
***(Müəllif tərəfindən hazırlanmışdır)***

İşləmə mexanizmləri baxımından pensiya sisteminin təkmil əsaslarda qurulması və idarəedilməsini pensiya təminatının birbaşa inkişafı kimi qiymətləndirmək olmaz.

Pensiya təminatının real inkişafı onun kəmiyyət metodları ilə tədqiqi zamanı bir sıra həyat səviyyəsinin ölçülməsində istifadə olunan digər - yaşayış minimumu, orta aylıq nominal əməkhaqqı, minimum əməkhaqqı kimi makro göstəricilərlə müqayisəsində görünür. Bu isə bu baxımdan pensiya təminatı sisteminin inkişafının subyektiv təsirlər və ya yalnız bu sistemin idarə edilməsi imkanları daxilində olmadığına və pensiya təminatının özünü pensiya məbləğlərinin birbaşa artımında göstərməklə təkcə inzibati qərarlarla yaxşılaşıdırla bilinməyəcəyini göstərməklə, eyni zamanda onun bütövlükdə inkişafının pensiya sistemindən kənar amillərlə də bağlı olduğuna işarə edir.

Qlobal miqyasda son illərdə getdikcə sürətlənməkdə olan sosial-demoqrafik proseslərin nəticələrindən biri kimi, əhali yaşlanması problemi dünya pensiya sistemlərinin gələcəyi üçün prioritet məsələ olan – onların maliyyə dayanıqlılığı problemini daha da kəskinləşdirməklə pensiya sistemləri üzərində daxili maliyyə təzyiqi formalaşdırır və pensiya yaşının artırılmasına istiqamətlənmiş idarəetmə metodlarına əla atılmasına meyli artırmaqla sosial gərginliyin də artmasına yollar açır. Əhali yaşlanması problemi daha çox qısamüddətli yanaşmada özünü birpilləli pensiya sistemlərində aktiv sığortaedən və pensiyaçı sayları nisbəti əmsalının dəyişməsində göstərir, uzunmüddətli perspektivdə isə pensiya sistemlərinin büdcələrində kəsir formalaşmasında göstərir.

Azərbaycanda pensiya təminatının inkişafının əsas makro dəyərləndirmə meyarı kimi – onun keyfiyyətcə inkişafını iqtisadiyyatın ümumi xərclərində pensiya xərclərinin həcmi, dinamikası, pensiya xərclərinin ÜDM-də payı və onun dinamikası ilə əlaqələndirmək daha məqsədəuyğun hesab edilir. Bu çərçivədə ümumi dinamika mahiyyətində ($Cp_n$ – "n" ilində, $Cp_{n-1}$ isə ondan əvvəlki ildə pensiya xərcləri olmaqla) əsasən aşağıdakı şərtin saxlanılması təmin olunmalı hesab edilir:

$$\frac{Cp_n}{Cp_{n-1}} \geq 0 \quad (2)$$

Azərbaycanda mövcud iqtisadi münasibətlər sistemində iqtisadi kateqoriya olaraq pensiya xərcləri icmal büdcə xərclərinin, o cümlədən dövlət büdcəsi xərclərində sosial müdafiə xərclərinin tərkibi olaraq qimətləndirilməklə, onun dinamikası da dövlətin iqtisadi inkişaf imkanları ilə bağlı olduğundan maliyyə əsası birbaşa surətdə qeyri-dövlət mənbələrindən və əməkhaqqı fondunun dinamikasından asılıdır.

İstehlak qiymətləri indeksinin artımının idarəetmə elementi olaraq nəzərə alınması əsasən əməkhaqqı fondundan tutulmaqla dövlət pensiya təminatı sistemi çərçivəsində fərdi şəxsi hesablarda virtual olaraq toplanılan (*əslində isə həmrəylik prinsipilə cari pensiyaların maliyyələşdirilməsinə yönəldilərək pensiya sistemi üçün pensiya xərclərinə və gələcək pensiyaçılar qarşısında isə öhdəliyə çevrilən vəsaitlər*) və pensiya təyinatında istifadə olunmamış pensiya kapitallarının iqtisadi dəyərinin və ödənişi davam edən pensiyaların real alıcılıq qabi-

liyyətinin saxlanılması nöqteyi-nəzərdən pensiya təminatının kəmiyyətcə genişlənməsini şərtləndirməklə onun inkişafını da təmin etmiş olur.

Məşğulluq probleminin həlli dövlət sosial sığorta sistemi çərçivəsində məcburi dövlət sosial sığorta haqqı yığımını və potensialını artırmaqla dövlət pensiya təminatı sisteminin maliyyə əsaslarını, həmçinin əlavə sosial sığorta, habelə qeyri-dövlət pensiya fondlarına yönəldilmək üçün maliyyə imkanlarını formalaşdırmaqla yanaşı, məşğul əhali seqmentinin əhatə dairəsinin genişlənməsi istiqamətində pensiya alan pensiyaçıların da məşğulluqla əhatə edilməsinə şərait yaradır ki, bu hal da pensiyaçı kateqoriyasından şəxslərin əmək bazarını tərk etməyərək sosial sığorta ödəyicisi qismində qalmaqla özlərinin rifah hallarının yaxşılaşdırılması ilə dövlətin sosial yükünün azaldılmasına, həmçinin də sığorta-pensiya (pensiya təminatı sistemi) üçün əlavə maliyyələşmə mənbəyi yaratmaqla bütövlükdə pensiya sisteminin maliyyə dayanıqlılığına müsbət təsir göstərmiş olur.

Pensiya təminatı sisteminin idarə edilməsi üçün operativlik prinsipinin nəzərə alınması mühüm əhəmiyyətlidir. Pensiya sistemi - onu əhatə edən və təsir imkanları daşıyan ətraf amillərin təsirlərinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və proqnozlaşdırılması əsasında idarə olunan idarəetmə sistemlərindən hesab olunur: Sistemdə hərəkətsizlik, adaptiv yanaşmanın tətbiq olunmaması – iqtisadiyyatın ümumi mahiyyəti və prinsipinə uyğun olduğu kimi, mövcud maliyyə və maddi-texniki imkanların əhalinin sosial müdafiə sistemi çərçivəsində sosial-iqtisadi ehtiyacların maksimum dərəcədə ödənilməsinə yönəldilə bilməməsi ilə nəticələnə bilir. Bu, xüsusən də pensiya sisteminin idarə olunması üçün təkmil, günün ehtiyacları və tələbləri nəzərə alınaraq müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı lazımi siyasi iradənin olmaması, ətalətlilik göstərilməsi və ya beynəlxalq təcrübədən də öyrənilmiş dərslər nəzərə alınmaqla qurulan və tətbiq edilən islahat səriştəsinin olmaması vəziyyətində özünü daha qabarıq büruzə verir. Bu baxımdan da pensiya təminatı sisteminin təkmilləşdirilməsi, o cümlədən pensiya təminatının yaxşılaşdırılması üçün, ilk növbədə, onu əhatə edən amillərin təsiri imkanlarının kompleks qiymətləndirilməsi ilə müasir əhali ehtiyaclarını və gözləntilərini nəzərə almaqla pensiya təminatına imkan verən qanunvericilik bazasının işlənilməsinin mütəmadi diqqət mərkəzində saxlanılması və bu istiqamətdə hüquqi quruculuğun davamlılığının təmin edilməsi ilk növbədə prioritet əhəmiyyətlidir.

Pensiya təminatı sisteminin informasiya-kommunikasiya texnologiyalarının və innovativ metodların tətbiqi şəraitində təşkili və idarə olunmasının prioritet hesab edildiyi hazırkı mərhələdə, təbii olaraq, sistemin benefisiarlarından da istər-istəməz bu texnologiyalar və bu sahədə əhaliyə xidmət göstərilməsindəki yeniliklər barədə məlumatlı olmaları gözlənilir, yaxud tələb olunur ki, bu istiqamət də pensiya sisteminin texnoloji aspektdən təkmilləşdirilməsi ilə bağlı aparılan işin nəticəliliyinə birbaşa təsir göstərən amillərdən hesab edilməkdədir. Bununla əlaqədar bu istiqamətdə həyata keçirilən islahatların effektivliyinin monitorinqi aparılmaqla vətəndaş məmnunluğu səviyyəsinin müəyyən edilməsi və onun səviyyəsinin yüksək həddə saxlanılmasının, bu məqsədlə isə pensiya təminatı ilə bağlı bütün şikayət və müraciətlərə ən yüksək həssaslıqla yanaşılması və onların qanunamüvafiq həllinin nəzarətdə saxlanılması pensiya sisteminin təkmilləşdirilməsinin aktual problem və ya amillərindəndir.

Pensiya təminatının inkişafında iqtisadi və təşkilati əsaslı amillərlə yanaşı, ona təsir göstərən ən başlıca kənar amil olaraq pensiya sistemi ilə bağlı demoqrafik proseslər özünü göstərir. Demoqrafik proseslərin qloballaşdığı hazırkı sosial-iqtisadi inkişaf mərhələsində iqtisadi inkişafa paralel olaraq, xüsusən iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə sosial stereotiplərin dəyişməsi, o cümlədən gec evlənmə, gec ana olma, boşanma hallarının artması, urbanizasiya prosesinin intensivləşməsi, eləcə də məşğulluq formalarındakı dəyişmələr, səhiyyənin, elmin, təhsilin səviyyəsinin yüksəlməsilə, bir növ, qanunauyğun şəkildə uşaq doğumunun azalması, eyni zamanda orta ömür müddətinin artması ilə əhalinin ümumi sayında yaşlı əhalinin payının artması baş verir ki (inkişaf etmiş ölkələrdə artıq bu proses xeyli müddətdir ki, başlamışdır), bu da yığım potensialının zəifləməsi səbəbindən müasir pensiya sistemləri qarşısında tipik maliyyə çətinliklərinin ortaya çıxması və pensiya sistemlərinin maliyyə dayanıqlılığının saxlanılması nöqteyi-nəzərdən perspektiv baxımından mübarizə mexanizmlərinin axtarılıb tapılmasına ehtiyacın artması ilə nəticələnir. Belə ki, qeyd edilən proseslərin qarşılıqlı əlaqədə təsirinin sosial nəticəsi olaraq doğumun azalması ilə ölkə əhalisinin tərkibində iqtisadi fəal əhalinin sayı və payında azalma, eyni vaxtda yaşlı və əmək qabiliyyətli olmayan əhalinin sayı və payında artım baş verməsi dövlət sosial sığorta siste-

mində məcburi dövlət sosial sığorta haqqı üzrə yığım potensialının aşağı düşməsinə və cari pensiya xərclərinin artımına təsir göstərməklə pensiya sisteminin maliyyə dayanıqlılığına birbaşa mənfi təsir göstərir. Bu proseslərin təsirinin göstəricisi olaraq bir pensiyaçıya düşən aktiv sığortaolunanların (sosial sığorta haqqı ödəyicisi olan) sayı əmsalının azalma yönündə davamlı dəyişməsi baş verir ki, bu pensiya təminatının davamlılığının təmin edilməsi baxımından onun uzunmüddətli maliyyə dayanıqlılığının təmin edilməsi üçün əsas göstəricilərdən hesab edilir.

Bir çox hallarda pensiya sistemlərində minimum pensiya kateqoriyasının tətbiqi pensiya sisteminə pensiyaçı hərəkəti axınının və bununla bağlı olaraq pensiya sisteminin pensiya xərclərinin tənzimlənilməsi mexanizmlərindən biri kimi də istifadə oluna bilir. Bununla belə, heç də bütün hallarda onun tətbiqinin məqsədi – bu tənzimlənilmə məramı olmamaqla, daha çox – müəyyən edilən həmin minimum pensiya səviyyəsindən aşağı hesablanılmış pensiya məbləğlərinin artırılaraq minimum pensiya məbləğinə çatdırılmasına, yaxud hesablanıla biləcək potensial pensiya məbləğlərinin artımına nail olmaqla pensiya sistemində orta pensiya məbləği səviyyəsinin yüksəldilməsinə nail olunması və yuxarıda qeyd etdiyimiz əhalinin sosial rifah və həyat səviyyəsinin ölçülməsində istifadə olunan indikatorlara münasibətdə pensiya sisteminin inkişafı səviyyəsinin yüksəldilməsinə inzibati-idarəetmə rıçaqları vasitəsilə təsir göstərilməsi olur ki, bu da istənilən halda pensiya yaşına çatmış, lakin minimum pensiya məbləğində pensiya təyinatına imkan verməyən pensiya kapitalına malik şəxsləri sosial müdafiə sistemi çərçivəsində pensiya təminatı sisteminin deyil, bu halda yaşa görə sosial müavinətlərlə təminatın benefisiarına çevrilməsi ilə nəticələnir.

Əlbəttə, sosial müdafiə sistemi çərçivəsində sistemə sosial müavinətlərin məbləğlərinin daha aşağı olması xasdır ki, bu baxımdan fərdi şəxsi hesablarda toplanılmış sığorta kapitalına bağlı minimum pensiya məbləğinin tətbiqi praktikası pensiya sisteminin statistik göstəricilər bazasında inkişafına əyani təsiri qəbuledilən olsa belə, onun tətbiqi fərdin həyat səviyyəsi ilə də bağlı potensial təsir imkanlarına malik mexanizm olaraq eyni zamanda həssas effektə malikdir. Bu baxımdan da, hesab etmək olar ki, pensiya təminatı sistemində minimum pensiya kateqoriyasının tətbiqi onun müəyyən edilən (artırılan) məbləği və vaxtaşırı olaraq artırılması vaxtı aralığı müddəti baxımından, həmçinin əhalinin həyat səviyyəsinin saxlanılması prioritetliyi nəzərə alınaraq əsaslı hesablamalar aparılmaqla həyata keçirilməlidir.

Qeyd edilənlər minimum pensiyanın kateqoriya olaraq pensiya təminatı sisteminin idarə edilməsində və təkmilləşdirilməsində sosial-iqtisadi mahiyyətini və yerini açmağa imkan versə də, pensiyaçıların ümumi say tərkibində minimum pensiya alanların payının çox olması, yaxud minimum pensiya məbləğinin pensiyanın orta aylıq məbləği göstəricisinə yaxınlığı pensiya sistemində idarəetmənin, o cümlədən pensiya artımının daha çox inzibati metodlar hesabına minimum pensiya mexanizmi üzərindən hərəkət edilməsinə üstünlük verilməsilə aparıldığını göstərir ki, bu da pensiya məbləğlərinin sonrakı dinamik artımı baxımından da ümidverci hal hesab edilmir. Belə ki, bu halın tətbiqi minimal pensiya məbləğində pensiyanın təyin edilməsi üçün, təbiidir ki, minimal olaraq tələb edilən sosial sığorta stajı və ya sığorta-pensiya kapitalı ilə bağlıdır ki, minimum pensiya artımının tətbiqi həmçinin avtomatik olaraq kapital məbləği artımına tələbi zəruri etməklə bir çox hallarda pensiya sisteminə daxil olan pensiyaçı sayına məhdudlaşdırıcı təsir göstərir. Bu hal da, yuxarıda qeyd etdiyimiz kimi, qəbul ediləndir ki, əhalinin ümumi həyat səviyyəsinə təsir göstərə bilməklə, əhalinin dövlət sosial sığorta sisteminə qarşı inamsızlığına və nəticədə məcburi dövlət sosial sığortasından hətta yayınması meyilinin çoxalmasına gətirib çıxarmaqla sosial gərginliklərə, idarəetmədən narazılıqların yaranmasına səbəb ola bilər.

Pensiya sistemində pensiyanın növlərə ayrılmaqla təminatın həyata keçririlməsi dünya praktikasında həyata keçirilməkdədir. Bunun əsas səbəbini isə pensiya sistemlərində benefisiarlara edilən sosial ödənişlərin tam mütləq mənada sığorta prinsipinin gözlənilməsi ilə həyata keçirilməməsi - pensiyaların sığorta haqqı ödənişləri hesabına kumulyativ formalaşan pensiya kapitalları əsasında hesablanılan sığorta hissəsinə əlavə olaraq müəyyən hallarda sığorta əsası olmayan güzəştlərin və əlavələrin də aylıq pensiya məbləğləri şəklində müəyyən edilməsi ilə əlaqələndirmək mümkündür. Belə ki, istənilən cəmiyyətdə yaşa görə pensiyaların məbləği və bu növ pensiyaçıların sayını əhalinin demoqrafik yaş strukturundan asılı olaraq təbii demoqrafik amillərə bağlı olaraq, bir qayda olaraq, pensiya təyinatı üçün toplanılmış pensiya kapitalı əsasında pensiya təyinatına imkan verən kifayət qədər uzunmüddətli sığorta stajına (sı-

ğorta haqqı ödənişi keçmişinə) malik fərdlərin (şəxslərin) pensiya təminatını əks etdirdiyinə görə əsasən əlavələrin və güzəştlərin tətbiq edilməsinin zərurətə çevrilməməsi ilə əlaqələndirmək olar. Hərçənd ki, pensiyanın digər iki növünün - əlilliyə və ailə başçısını itirməyə görə pensiyaların təyin olunması isə əhalinin həyat və sağlamlığı ilə bağlı baş verən sosial-tibbi əsaslı, idarə edilə bilinməyən sosial proseslərlə əlaqədar və sığorta prinsipinin təmin olunması baxımından sığorta keçmişindəki qeyri-adekvatlılıq xüsusiyyətinə malik olmaqla təyin olunan aylıq pensiyaların məbləğinin daha çox burada sığorta əsası olmamaqla tətbiq edilən əlavə və güzəştlərin məbləğinin aylıq pensiya məbləğində əhəmiyyətli paya malik olması xüsusiyyəti ilə bağlıdır. Bu səbəblərdəndir ki, yaşa görə pensiyaçıların sayı və bu növ üzrə orta pensiya məbləğləri ümumi ölkə əhalisinin və pensiyaçıların ümumi sayında kifayət qədər uzunmüddətli statik pay göstəriciləri ilə müşayiət olunur.

Qeyd olunan bu məqamlar isə pensiya sisteminin inkişafı nöqteyi-nəzərdən müşahidələrin, təhlillərin, proqnozlaşdırılmanın aparılması baxımından pensiyanın növlərə bölünməklə statistik kalkulyasiyanın aparılmasını, həmin növlər üzrə göstəricilərin ayrılıqda və ümumi pensiya göstəricilərinin tərkibində təhlilini zəruri edir ki, əlilliyə və ailə başçısını itirməyə görə pensiyaların orta məbləğlərinin müəyyən edilməsi və bununla əlaqədar digər təhlillərin aparılması da pensiya təminatı sisteminin idarə olunması, o cümlədən pensiya sistemi ilə əlaqəli demoqrafik proses və dəyişkənliklərin, birbaşa surətdə pensiya sisteminin idarə olunması ilə bağlı təşkilati-inzibati əsaslı problemlərin, qanunvericilik əsaslı boşluqların diaqnoz edilərək müəyyən edilməsi və çevik operativ qərarların hazırlanılmasına keçidə imkan verməsi baxımından mühüm əhəmiyyət kəsb etməkdədir.

Hazırda pensiya təminatı sisteminin inkişafı ilə bağlı qlobal tendensiyaların bir istiqaməti də təminat prosesinin təşkili və idarə olunmasının informasiya-kommunikasiya texnologiyalarının (İKT-nin) tətbiqinin köməyilə benefisiara istiqamətlənmiş innovativ əsaslarla aparılmasının getdikcə daha geniş vüsət almasıdır. Bu istiqamətlərdə təkmilləşdirilmələrin aparılması milli səviyyələrdə müasir sosial müdafiə siyasətlərinin işlənilməsinin tərkib hissələri kimi qəbul edilir.

**Nəticə və təkliflər**

Mövzu çərçivəsində müzakirə edilən məsələlərə münasibətdə müasir şəraitdə pensiya təminatının inkişafının (o cümlədən real vəziyyətdə hələ ki, məcburi dövlət sosial sığortasına əsaslanmaqla həmrəylik prinispilə fəaliyyət göstərilən, üçpilləli pensiya təminatı sisteminin konseptual olaraq nəzərdə tutulduğu Azərbaycan Respublikası kontekstində) aşağıdakı prioritet aspektlərini qeyd etmək lazımdır:

**1. Pensiya təminatının inkişafının maliyyə aspektləri:**

- pensiya sisteminin idarə olunmasında tənzimləmələr istənilən halda pensiya təminatının əhatə dairəsinin və maliyyə-xərc miqyasının genişləndirilməsinin başlıca şərti olaraq çıxış etməklə bütün mümkün mexanizmlərdən istifadə etməklə onun maliyyə-resurs bazasının artırılmasına, eyni zamanda sosial müdafiənin cari və potensial maliyyə resurslarından səmərəli və qənaətlə istifadə olunmasına imkan verən təşəbbüslərin səfərbər olunmasına yönəldilməlidir;

- Azərbaycanda da pensiya təminatı sisteminin icbari əsaslarla söykənməklə fəaliyyət göstərən 1-ci pilləsi çərçivəsində maliyyə imkanlarının genişləndirilməsi ümumi iqtisadi inkişaf nəticələri, şəffaflıq, inzibati idarəetmə kimi pensiya sistemindən kənar proseslərlə əlaqədar olmaqla, maliyyə resurslarının cəlbi birbaşa nəticə mahiyyətli proseslər olmadığından, əhalinin pensiya gəlirlərinin artımına mümkün yaxın perspektivdə nail olunması üçün əlavə pensiya təminatı mahiyyətli institutların (1-ci və 3-cü pensiya təminatı pillələri ilə bağlı) vaxt itirmədən təşəkkülü üçün dövlət tərəfindən bütün imkanların yaradılması məqsədəmüvafiq və zəruri əhəmiyyətlidir;

- Bu çərçivədə həmçinin Azərbaycanda cari vəziyyətdə fəaliyyət göstərən yeganə pensiya təminatı pilləsi kimi, 1-ci pensiya pilləsində sığorta əsası olmayan xərclərin minimuma endirilməsi vacib əhəmiyyətlidir;

- 2-ci və 3-cü pensiya təminatı pillələrinin inkişafı əhalidə formalaşan (əlavə) maliyyə resurslarının cəlbi imkanları ilə bağlı olduğundan bu istiqamətlərdə əhali iştirakının perpsektivi ölkədə mahiyyət baxımından əhali baxışı nöqteyi-nəzərdən, ilk növbədə, bu məqsədə yaxın və hazırda mövcud olan təminat forması kimi görünə biləcək - həyat sığortası, yaxud bank depozit dərəcələri ilə müqayisədə əlverişli olması şərtləri ilə əlaqədardır;

- Azərbaycan reallığında maksimum ehtiyatlılıqla yanaşılmaqla belə 2-ci pillənin könüllü əsaslarla tət-

biqi ilə bağlı işlər görülməsi perspektiv baxımından əhəmiyyətlidir, 3-cü pillənin isə dövlət sosial sığorta sistemindən kənar fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla sərbəst inkişafı ilə bağlı daha erkən addımlar atılması daha məqsədəmüvafiqdir.

**2. Pensiya təminatının inkişafının qanunvericilik aspektləri:**

- pensiya təminatı ilə bağlı qanunvericilik bazası sistemdə sosial müdafiənin prinsiplərinin maksimum dərəcədə gözlənilməsinə imkan verən istiqamətlərdə mütəmadi olaraq təkmilləşdirilməlidir;
- pensiya təminatı ilə bağlı qanunvericilik bazası sığortaolunanlar üçün sosial diskriminasiyadan uzalaşılmasına imkan verən, daha çox yaxın və sadə meyarlar üzərində qurulmalıdır.

**3. Pensiya təminatının inkişafının innovativ aspektləri:**

- pensiya təminatının yaxşılaşdırılması pensiya xərclərinə ayrılan maliyyə resurslarının artırılması və normativ bazanın dəyişən sosial-iqtisadi şərtlərə uyğunlaşdırılması ilə yanaşı, vətəndaş məmnunluğuna gətirib çıxaran, asan və yenilikçi üsullarla təyinat və təminat proseslərinə imkan verən həll mexanizmlərinin tətbiqi, xüsusən İKT-yə əsaslanan proaktiv təyinat proseslərinin və vahid pəncərə modeli üzərində xidmətlərin təşkilinin müvəffəqiyyətli aparılması təcrübəsindən birbaşa asılıdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Steven S.A.The promise of private pensions: The First Hundred Years // Cambridge MA: Harvard. – 1997.- 344 p.*
2. *[Electronic resourse] / The University of Pennsylvania, Pension Research Council. URL: https://pensionresearchcouncil.wharton.upenn.edu/wp-content/uploads/2020/01/03Chap3.pdf [Müraciət tarixi: 13.06.2024].*
3. *[Electronic resourse] / International Labour Organization. URL: https://www.ilo.org/global/about-the-ilo/history/lang--en/index.htm [Müraciət tarixi:12 06 2024].*
4. *Beknazarov Z., Rustamov D. A review of existing pension services in developed and developing countries //E3S Web of Conferences: Ural Environmental Science Forum “Sustainable Development of Industrial Region” (UESF-2021), 2021. – 258. URL: https://doi.org/10.1051/e3sconf/202125805040*
5. *Guinand, C. The creation of the ISSA and the ILO // - International Social Security Review, - 2008, 61, - p. 91-96. URL: https://onlinelibrary.wiley.com/doi/epdf/10.1111/j.1468-246X.2007.00304.x*
6. *[Electronic resourse] / The International Social Security Association (ISSA). URL: https://www.issa.int/about/the-issa [Müraciət tarixi: 17.06.2024].*
7. *"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının 18 fevral 1997-ci il tarixli 250-IQ nömrəli Qanunu. URL: https://e-qanun.az/framework/3813 [Müraciət tarixi: 10.06.2024].*
8. *"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli 54-IIIQ nömrəli Qanunu. URL: https://e-qanun.az/framework/11566 [Müraciət tarixi: 10.06.2024].*
9. *"Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının 27 fevral 2001-ci il tarixli 221-IIQ nömrəli Qanunu. URL: https://e-qanun.az/framework/2842 [Müraciət tarixi: 10.06.2024]*
10. *Bovenberg, L., The Future of Multipillar Pensions / L. Bovenberg, Van Ewijk Casper, E. Westerhout, - Cambridge: Cambridge University Press, - 2012, - 436 p.*
11. *Fultz, E, Hirose, K. Second-pillar pensions in Central and Eastern Europe: Payment constraints and exit options // - International Social Security Review, 2019. 72, 2, - p. 3-22. https://doi.org/10.1111/issr.12201*
12. *Pensions at a Glance 2021: OECD and G20 Indicators / OECD. – Paris: OECD Publishing, - 2021. -224 p. URL: https://doi.org/10.1787/ca401ebd-en*


## ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ РАЗВИТИЯ ПЕНСИОННОЙ СИСТЕМЫ В АЗЕРБАЙДЖАНЕ: ПЕРСПЕКТИВНО-ТЕОРЕТИЧЕСКИЙ ВЗГЛЯД


**Резюме**

В статье в качестве механизма улучшения социальной защиты в Азербайджанской Республике проводится системный анализ концептуальных основ организации и развития пенсионного обеспечения и аспектов опережающего развития в рамках системы государственного социального страхования, в том числе актуальные вопросы, считающиеся важными для улучшения обеспе-

чения на примере страхово-пенсионной системы Азербайджана.

**Цель исследования** - способствовать укреплению теоретико-экономической основы управления и совершенствованию системы государственного социального страхования путем раскрытия объема направлений и элементов основного (основного) объекта регулирования в условиях управления. системы на этапе современного развития пенсионной системы как основной движущей силы социальной защиты.

**Прикладное значение**. Статья направлена на формирование концептуального видения научных исследований, а также на принятие более прогрессивных, рассчитанных на перспективу решений на уровне управления, путем выявления основных факторов, способных повлиять на эффективное использование финансовых ресурсов по рассмотренным направлениям.

**Объектом исследования** работы является регулирование системы социальной защиты, конечной целью которой является повышение социального благосостояния населения в Азербайджане.

**Методы исследования**. Исходя из содержания выбранной проблемы, в анализе использовались эмпирико-теоретическое осмысление и исследование, анализ и синтез, индуктивный и дедуктивный подход, сравнение, теоретическое моделирование, методы абстрагирования, а также информация из других различных источников.

**Оригинальность и научная новизна** исследования заключается в общеэкономическом обосновании важности рассмотрения пенсионного обеспечения как основного драйвера социальной защиты и систематизации основных факторов, влияющих на систему в целях совершенствования и регулирования современного уровня развития социальной защиты в контексте Азербайджанской Республики, на основе опыта в этой области.

**Результаты исследовательской работы**. Анализируемые в рамках работы проблемы служат укреплению концептуального видения для принятия социально-экономически эффективных решений в сфере социальной защиты.

**Ключевые слова:** *социальное государство, социальное обеспечение, социальная защита, страхово-пенсионная система, пенсионное обеспечение, пенсия, система солидарности.*

***Классификационные коды JEL: A10, E60, E70, H00; H53; H55; I30; I31; I32; I38***

## THE MAIN CHARACTERISTICS OF THE DEVELOPMENT OF THE PENSION SYSTEM IN AZERBAIJAN: PERSPECTIVE-THEORETICAL VIEW

### Summary

In the article, as a mechanism for improving social protection in the Republic of Azerbaijan, a systematic analysis of the conceptual bases of the organization and development of pension provision and priority development aspects within the framework of the state social insurance system is carried out, including the actual issues considered important for the improvement of provision in the example of the insurance-pension system of Azerbaijan.

**The purpose of the study** is to contribute to the strengthening of the theoretical and economic basis of the management and improvement of the state social insurance system by providing the scope of the directions and elements of the basic (main) regulatory object in terms of system management at the stage of the modern development of the pension system as the main driving force of social protection.

**Applied importance**. The article is aimed at the formation of a conceptual vision for scientific research, as well as for making more progressive decisions calculated on the perspective at the management level, by identifying the main factors that can affect the effective use of financial resources in the directions considered a priority.

**The research object** of the work is the regulation of the social protection system, the ultimate goal of which is to improve the social welfare of the population in Azerbaijan.

**Research methods**. Based on the content of the selected problem, empirical-theoretical understanding and research, analysis and synthesis, inductive and deductive approach, comparison, theoretical modeling, abstraction methods, and information from other various sources were used in the analysis.

**The originality and scientific novelty** of the research is the general economic basis of the importance of considering pension provision as the main driver of social protection and the systematization of the main factors affecting the system in order to improve and regulate the current development level of social

protection in the context of the Republic of Azerbaijan, based on experience in the field.

**The results of the research work.** The problems analyzed within the framework of the work serve to strengthen the conceptual vision for making socio-economically effective decisions in the field of social protection.

**Key words:** *social state, social welfare, social protection, insurance-pension system, pension provision, pension, solidarity system.*

***JEL Classification Codes: A10, E60, E70, H00; H53; H55; I30; I31; I32; I38***

## XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasında sosial müdafiənin təkmilləşdirilməsi mexanizmi olaraq, dövlət sosial sığorta sistemi çərçivəsində pensiya təminatının təşkili və inkişafının konseptual əsaslarının və prioritet inkişaf aspektlərinin sistemləşdirilmiş təhlili aparılır, o cümlədən Azərbaycanın sığorta-pensiya sistemi timsalında təminatın yaxşılaşdırılması üçün əhəmiyyətli hesab edilən aktual məsələlər önə çəkilir.

**Tədqiqatın məqsədi** - sosial müdafiənin əsas hərəkətverici həlqəsi kimi, pensiya təminatı sisteminin müasir inkişafı mərhələsində sistemin idarə edilməsi baxımından baza (əsas) tənzimləmə obyektinin istiqamət və elementlərinin əhatə dairəsinin verilməsilə, dövlət sosial sığorta sisteminin idarə olunması və təkmilləşdirilməsinin nəzəri-iqtisadi bazasının gücləndirilməsinə töhfə verilməsidir.

**Tətbiqi əhəmiyyəti**. Məqalə - prioritet hesab edilən istiqamətlər üzrə maliyyə resurslarından səmərəli istifadə edilməsinə təsir göstərə bilən əsas amillərin müəyyən edilməsilə elmi tədqiqat, eləcə də idarəetmə səviyyəsində perspektivə hesablanmış daha mütərəqqi qərarların verilməsi üçün konseptual baxışın formalaşdırılmasına yönəldilmişdir.

**İşin tədqiqat obyektini** - son hədəfi Azərbaycanda əhalinin sosial rifahının yüksəldilməsi olan sosial müdafiə sisteminin tənzimlənməsi təşkil edir.

**Tədqiqat metodları**. Təhlillərin aparılmasında seçilən problemin məzmunundan irəli gəlməklə empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarına əsaslanılmış, digər müxtəlif mənbələr üzrə informasiyalardan istifadə edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – müəllif tərəfindən sahə üzrə iş təcrübəsindən də çıxış edilməklə pensiya təminatının sosial müdafiənin əsas hərəkətvericisi kimi nəzərə alınması əhəmiyyətinin ümumi iqtisadi əsaslarının və Azərbaycanda Respublikası kontekstində sosial müdafiənin hazırkı inkişafı səviyyəsində təkmilləşdirilmə və tənzimləmə məqsədilə sistemə təsir göstərən başlıca amillərin sistemləşdirilməklə prioritet istiqamətlərinin və təsirlərinin verilməsidir.

**Tədqiqat işinin nəticələri**. İş çərçivəsində təhlil edilən problemlər sosial müdafiə sahəsində perspektivə hesablanmış sosial-iqtisadi cəhətdən effektiv qərarların verilməsi üçün konseptual baxışın möhkəmləndirilməsinə xidmət edir.

**Açar sozlər:** *sosial dövlət, sosial rifah, sosial müdafiə, sığorta-pensiya sistemi, pensiya təminatı, pensiya, həmrəylik sistemi.*

***JEL: A10, E60, E70, H00; H53; H55; I30; I31; I32; I38***

UOT: 033
DOI:10.30546/3006-0346.2024.4.82.68

# AQRAR BAZAR İNFRASTRUKTURLARININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏHALİNİN ƏRZAQ TƏMİNATININ YAXŞILAŞDIRILMASINDA ROLU

**AZƏR QURBANZADƏ**
*Azərbaycan Kooperasiya Universitetinin "Beynəlxalq ticarət və logistika" kafedrasının dosenti, i.ü.f.d.*
*E-mail: azercooperation@hotmail.com*
*ORCİD: 0000-0003-2032-7927*

Aqrar bazar infrastrukturları aqrar məhsulların reallaşdırılmasında əhəmiyyətli rol oynayır. Əmtəə-pul münasibətlərinin inkişafı fonunda aqrar bazar infrastrukturları bazar iqtisadiyyatının formalaşdırılmasında mühüm elementlərdən biri olmaqla, iqtisadiyyatın bütün sahələrində məhsulların istehsalçılardan istehlakçılara çatdırılmasına qədərki bütün mərhələlərində mühüm struktur elementlərindən biri sayılır. Bu proseslərin baş verə biləcək zərərli təsirlərinin aradan qaldırılması sahədə xidmət sektorunun inkişaf etdirilməsindən bilavasitə asılıdır. Bu baxımdan bazar infrastrukturlarının inkişaf etdirilməsinə, xüsusilə qloballaşma şəraitində mühüm əhəmiyyət verilir. Qeyd etmək lazımdır ki, bazar infrastrukturlarının inkişafı ilə bağlı proseslər hələ XX əsrin təxminən ortalarına doğru təsadüf etmişdir. İnfrastruktur termini latın ifadəsində "infra-aşağı", "struktura-quruluş" sözündən olub, mənası iqtisadiyyatın əsas sahələrində xüsusi sahibkarlığın inkişafına əlverişli şərait yaradılması ilə bağlı zəruri şərtlərin müəyyənləşdirilməsini özündə əks etdirir və eyni zamanda əhalinin ehtiyaclarının ödənilməsinə də xidmət edir [11, s.478]. Ümumiyyətlə, infrastruktur sisteminin özünəməxsus spesifikası ondan ibarətdir ki, bu sistem bütövlükdə xidmət sektorunu özündə birləşdirir. İstər əhalinin tələbatının ödənilməsinə və istərsə də sahənin ehtiyaclarının qarşılanmasına xidmət edir. Beləliklə, infrastruktur sistemi, əslində, iqtisadiyyatın digər struktur elementlərindən fərqli olaraq, nəinki iqtisadi səmərəliliyə, eyni zamanda sosial və ekoloji səmərəliliyə də xidmət edir [12, s.288]. Müəllifin fikirlərindən belə qənaətə gəlmək olar ki, cəmiyyətdə məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə hər bir sahənin özünəməxsus spesifik xüsusiyyətləri nəzərə alınmaqla müvafiq infrastruktur sistemləri də formalaşır. Lakin bununla yanaşı, kənd təsərrüfatının özünəməxsus spesifik xüsusiyyələri də mövcuddur. Bu spesifik xüsusiyyətlərə, bir qayda olaraq, torpağın əsas istehsal vasitəsi kimi çıxış etməsini, eləcə də kənd təsərrüfatında istehsal vasitələrinin daha çox canlı orqanizmlərlə, o cümlədən bitki və heyvan orqanizmləri ilə bilavasitə bağlı olmasını şamil etmək olar [10, s.7-8]. Beləliklə, qeyd edilənlərdən bu nəticəyə gəlmək mümkündür ki, aqrar bazar infrastrukturlarının formalaşmasının zəruriliyi, əslində, aqrar əmtəə istehsalçılarının bu və ya digər xidmətlərə olan ehtiyacların qarşılanması, eləcə də əhalinin ərzaq təminatının yaxşılaşdırılması ilə daha sıx bağlıdır. Aqrar bazar infrastrukturları kənd təsərrüfatı məhsullarının istehsalçılardan istehlakçılara çatdırılmasına qədərki bütün mərhələlərdə rast gəlinən problemlərin həllini özündə əks etdirir. Ölkəmizin iqtisadçı alimlərindən əməkdar kənd təsərrüfatı işçisi, i.e.d. professor İslam İbrahimovun problemə yanaşmasında isə kifayət qədər inteqrasiya olunmuş fikirlər və inteqrasiya olunmuş mənafelər öz əksini tapır. Belə ki, professor İbrahimov problemə aqrar bazar infrastrukturlarının həm iqtisadi və həm də istehsal yönümlü infrastrukturlarının və eləcə də xidmət sektorunun inteqrasiyası aspektində yanaşır. İbrahimovun fikrincə, kənd təsərrüfatına aqro-kimyəvi xidmətlərin göstərilməsi, kənd təsərrüfatında meliorasiya xidməti, tikinti xidmətlərinin həyata keçirilməsi, aqrolizinq xidməti və eləcə də aqrolizinqin özünəməxsus spesifik xüsusiyyətləri və ən nəhayət, ətraf mühitin mühafizəsinə yönəldilmiş fəaliyyətin təşkili və digər bu kimi amillər aqrar bazar infrastrukturların mühüm səciyyəvi xüsusiyyətləri kimi qeyd edilir [5].

Rus iqtisadçılarından Elmira Krılatıx hesab edir ki, aqrar ərzaq kompleksinin tərkibinə daxil olan kənd təsərrüfatı sektoru kənd təsərrüfatı məhsullarının istehsalı, saxlanması, daşınması, satışı, kənd əhalisinə sosial-mədəni xidmətlərin göstərilməsi, bu sistemin informasiya və elmi təminatını özündə birləşdirir və vahid sistem olaraq səciyyələnir [6, s.24]. Beləliklə, aqrar ərzaq kompleksinin təkcə bir tərkib elementini təşkil edən kənd təsərrüfatı kifayət qədər çoxfunksiyalı olduğundan təbii ki, kənd təsərrüfatına xidmət edən aqrar bazar infrastrukturları da kifayət qədər çoxfunksiyalı xarakterə malikdir. Bunun üçün isə idarəetmə sistemində və istehsallı innovasiyalı texnologiyaların tətbiqinə ehtiyac duyulur. İnnovativ texnologiyaların tətbiqindəki prob-

lemlər, ilk növbədə, praktiki tətbiqə malik olan ixtisaslı kadrların çatışmazlığı ilə səciyyələnir. Buna səbəb isə istər əməkhaqqının səviyyəsinin aşağı olması və istərsə də aqrar təhsil sistemlərinin yetərli olması ilə bağlıdır [7, s.72-80].

Yuxarıda qeyd etdiyimiz kimi aqrar sahə, o cümlədən sahənin mühüm tərkib hissəsini özündə əks etdirən kənd təsərrüfatı məhsullarının istehsalı prosesi özünəməxsus səciyyəvi xüsusiyyətlərə malik olduğundan, aqrar bazar infrastrukturlarının da özünəməxsus səciyyəvi cəhətləri mövcuddur. Başqa sözlə desək, aqrar bazar infrastrukturlarının digər bazar infrastrukturları ilə eyniləşdirmək, fikrimizcə, doğru olmazdı. Bu baxımdan, bir sıra iqtisadçılar aqrar bazar infrastrukturlarının səciyyəvi cəhəti kimi kənd təsərrüfatının spesifik xüsusiyyətlərini, eyni zamanda sahədə mövsümi proseslərin üstünlük təşkil etməsini ön plana çəkirlər. Bundan əlavə, hazır ərzaq məhsullarının istehlakı prosesinin də əhəmiyyətli rol oynaması başlıca amil kimi səciyyələnir. Bu zaman aqrar ərzaq məhsullarına olan ehtiyacların bir sıra hallarda cəmiyyət üzvlərinin birbaşa istehlakında mühüm rol oynaması ön plana çəkilir. Kənd təsərrüfatı məhsullarının digər spesifik xüsusiyyətləri təbii iqlim şəraiti və məhsulun uzun müddət daşınma prosesinə adekvat reaksiya göstərməməsi və s. bütün bunlar aqrar ərzaq bazarında infrastruktur sisteminin səciyyəvi cəhəti kimi çıxış edir [8, s.73].

Aqrar bazar infrastrukturlarının yuxarıda adıçəkilən spesifik xüsusiyyətləri, ilk növbədə, kənd təsərrüfatı və onun təbii iqlim şəraitindən asılılığı amilindən irəli gəlir. Lakin bütün bunlarla yanaşı, aqrar bazar infrastrukturlarının özünəməxsus spesifik xüsusiyyətləri də vardır. Bu, ilk növbədə, onunla bağlıdır ki, infrastrukturdan müxtəlif formalı obyektlərin, o cümlədən ixtisaslaşdırılmış kənd təsərrüfatı bazarlarının, topdansatış kənd təsərrüfarı ərzaq bazarlarının, kənd təsərrüfatının kooperativ bazarlarının, yarmarkaların olması səbəbindən müxtəlif gəlir səviyyəsinə malik müştərilərin məmnunluğunun təmin edilməsi əsas amillərdən biridir və bu aqrar bazar infrastrukturlarının mühüm səciyyəvi cəhəti kimi seçilir. Aqrar bazar infrastrukturlarının ikinci mühüm spesifik xüsusiyyəti əmtəə istehsalçılarına qısa müddətdə məhsul satmağa imkan verən zəmanətli satış anbarlarının olması ilə bağlıdır. Ən nəhayət üçüncü amil isə kənd təsərrüfatı ərzaq məhsullarının aşağı qiymətlə satışının mümkünlüyüdür. Bundan əlavə, innovativ informasiya texnologiyalarının mövcudluğu, kənd təsərrüfatı məhsullarının istehsalı və satışında yeni formaların tətbiqi, logistika mərkəzlərinin yaradılması və s. aqrar bazar infrastrukturlarının mühüm səciyyəvi cəhətlərindən biridir. Bu sahədə, doğrudur, sonuncu spesifik xüsusiyyətin təzahürü ilə bağlı müəyyən çətinliklər mövcuddur və bu da əsas etibari ilə kadrların çatışmazlığı və informasiya texnologiyalarının tətbiqi sahəsində problemlərin olması ilə səciyyələnir [9, s.172]. Məhz yuxarıda adıçəkilən spesifik xüsusiyyətlər, son nəticədə, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsinə, daha doğrusu əhalinin ərzaq təminatına öz təsirini göstərir. Əhalinin ərzaq təminatı bu və ya digər ərzaq məhsullarının faktiki mövcudluğu və eyni zamanda əhalinin alıcılıq qabiliyyətinin mövcud imkanları ilə bağlı olsa da, lakin logistik proseslərdən də əhəmiyyətli dərəcədə asılıdır. Əhalinin ərzaq təminatında logistik proseslər, məhz məhsulların istehlakçılara çatdırılması ilə sıx əlaqədardır.

**Aqrar bazar infrastrukturlarının təkmilləşdirilməsi ilə əhalinin ərzaq təminatının yaxşılaşdırılması arasında əlaqə.** Aqrar bazar infrastrukturları əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında əhəmiyyətli rol oynadığından, eləcə də ərzaq bazarında qiymətlərin səviyyəsinin yüksəlməsinin, yəni tarazlığın pozulmasının qarşısının alınmasında əhəmiyyətli rol oynadığından bu əlaqəyə xüsusi diqqət yetirilməsi, fikrimizcə, daha məqsədəuyğun olardı. Bu baxımdan, soyuducu anbar komplekslərinin qurulması, onların temperatur dəyişikliyinə effektiv reaksiya göstərməsi və məhsulların saxlanılaraq mövsümdən sonrakı proseslərdə bazar qiymətlərinə reallaşdırılması vacib şərtlərdən biridir və bütün bunlar bazar infrastrukturlarının təkmilləşdirilməsini tələb edir. Doğrudur, son illər Azərbaycan Respublikasında bazar infrastrukturlarının mühüm tərkib hissəsi kimi soyuducu anbarların tikilməsinə xüsusi diqqət yetirilmişdir. Təkcə sahibkarların marağına görə deyil, öz tələbatından artıq məhsul istehsal edən, onu daxili və xarici bazarlara ixrac etmək istəyən bütün istehsalçılar üçün də bu soyuducu anbarların cəlbedici, əlçatan olması baxımından saxlama qiymətlərinin münasib olması mühüm əhəmiyyət daşıyır. Soyuducu anbar komplekslərində məhsul saxlanması üçün icarə haqqı rayonlar üzrə 1 kiloqram üçün 5-20 qəpik arasında dəyişir. Soyuducu anbar kompleksləri enerji tutumludur, böyük həcmdə elektrik enerjisi istehlak edirlər. Elektrik enerjisi qiymətlərinin kommersiya qurumları üçün

xeyli baha olması, nəticədə icarə qiymətlərinin yüksək olmasına gətirib çıxarır. Soyuducu anbarlar kənd təsərrüfatına xidmət göstərməsinə baxmayaraq, bu sahədə xidmət göstərən subyektlər aqrar sahə kimi bir sıra vergilərdən azad deyillər. Qeyd edilənlər nəzərə alınaraq soyuducu anbarlara elektrik enerjisinin güzəştli qiymətlərlə satılması və onlar üçün vergi yükünün azaldılması məsələlərinə baxılması məqsədəuyğun olardı. Bu məsələlərin həlli son nəticədə istehsalçıların öz məhsullarını anbarlarda saxlamaq maraqlarının yüksəldilməsinə səbəb olacaqdır [4, s.77]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı, onu da əlavə etmək olar ki, aqrar bazar infrastrukturlarının təkmilləşdirilməsində "yaşıl enerji" resurslarından istifadə edilməsi mühüm əhəmiyyət kəsb edə bilər. Bu baxımdan, işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud "yaşıl enerji" potensialından səmərəli istifadə edilməsi və bu potensialın aqrar bazar infrastrukturlarının inkişaf etdirilməsinə yönəldilməsi, regionun kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşması baxımından yanaşaraq aqrar bazar infrastrukturlarının daha ucuz maya dəyərinə başa gəlməsinə gətirib çıxara bilər.

Aqrar bazar infrastrukturlarının fəaliyyətinin təkmilləşdirilməsi, həmçinin məhsul yığımında itkilərin qarşısının alınması və onların səmərəli toplanması baxımından da mühüm əhəmiyyətə malikdir. Bu baxımdan i.e.d. professor Eldar Quliyevin belə bir fikri ilə razılaşmaq mümkündür ki, "…hər il dünyada istehsal olunan qida məhsullarının 30-40%-i itkilərə məruz qalır, yəni dünya qida bazarlarına çıxarılmır və son istehlakçılara çatdırılmır". Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının mütəxəssislərinin apardığı araşdırmalara görə, hər il dünyada "istehsal-istehlak" zənciri üzrə qida məhsullarının 3/1-i itirilir. Bu isə 1,3 milyard ton qida deməkdir və həmin qidanın məbləği 1 trilyon ABŞ dollarından çox təşkil edir. "…Əgər dünya dövlətləri və beynəlxalq təşkilatlar "istehsal-istehlak" zənciri üzrə hazırkı illik itki səviyyəsinin 20% azaldılmasına nail ola bilsələr, o halda dünyada aclıqdan əziyyət çəkənlərin problemini həll etmək mümkün olardı, yəni dünyada aclıq problemi həll edilərdi" [2, s.41-42].

Yuxarıda qeyd etdiyimiz kimi son illər dövlət tərəfindən həyata keçirilən silsilə xarakterli tədbirlər, o cümlədən regionların sosial-iqtisadi inkişafı, dövlət proqramları və strateji yol xəritələrində aqrar bazar infrastrukturlarının əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında və ərzaq məhsullarının xarici bazarlara ixracındakı rolu nəzərə alaraq bu məsələlərə də xüsusi diqqət yetirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanında qeyd edilir ki, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalçılarının ixrac bazarlarına çıxış imkanlarının genişləndirilməsi üçün geniş əhatəli tədbirlərin görülməsi strateji yol xəritəsi çərçivəsində müəyyən edilmiş prioritet istiqamətlərdən biridir. İlk növbədə ixrac imkanlarının genişləndirilməsi baxımından zəruri şərtlərdən biri, məhz bazar infrastrukturunun inkişafı ilə bağlıdır ki, bu baxımdan ölkədə kənd təsərrüfatı və ərzaq məhsulları üzrə bazar infrastrukturlarının inkişafı tədbirləri ixraca da stimullaşdırıcı təsir göstərəcəkdir. Eyni zamanda ənənəvi ixrac bazarlarına daha geniş miqyasda daxil olmaqla yanaşı, xüsusilə də yeni ixrac bazarlarına çıxış imkanlarının yaradılması istiqamətində kompleks dəstəkləyici tədbirlərə ehtiyac vardır [1, s.56]. Strateji yol xəritəsində də qeyd edildiyi kimi ərzaq bazar infrastrukturları daxili bazarın yerli ərzaq məhsulları ilə təminatını həyata keçirməklə yanaşı, həm də ixrac bazarlarına yönəlmiş mühüm istiqamətlərdən biridir.

Son illər regionlarda tikilib istifadəyə verilmiş aqrar emal komplekslərinin təcrübəsi göstərir ki, ərzaq təhlükəsizliyi çərçivəsində ixrac yönümlü qida məhsullarının istehsalına, sertifikatlaşdırılmasına və dünya bazarlarına çıxarılmasına, yeni texnologiya ilə işləyən Ağcabədidə "Atena" süd emalı şirkəti, Ağsuda "Azgranata MMC", Qazaxda "Azərsun Holding" şirkətinin meyvə-konserv zavodu, Ağstafa "Aqroservis MMC" kimi Avropa ölkələrində istehsal olunmuş müasir zavod komplekslər lazımdır. Bu komplekslərin tikilib başa gəlməsinə 50-60 milyon manatdan çox investisiya tələb olunur. Regionlarda fəaliyyət göstərən sahibkarların maliyyə imkanları məhduddur. Kommersiya bank qurumları üçün yüksək məbləğdə kreditlərin verilməsi risklidir. Bunu nəzərə alaraq, kənd təsərrüfatı və aqrar sənaye obyektlərinin maliyyələşmə mənbələri arasında əməkdaşlıq qaydasında dövlət büdcəsinin xarici investorlar, sahibkarlığa kömək milli fondunun, milli sərmayədarların, sahibkarların öz vəsaitlərindən istifadə olunması da istisna deyil [3, s.221]. Qeyd etmək lazımdır ki, aqrar bazar infrastrukturlarının

təkmilləşdirilməsinə əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması baxımından yanaşdıqda, xüsusilə tez xarab olan məhsulların, o cümlədən meyvə, tərəvəz, üzüm və digər məhsulların saxlanılması əhalinin ərzaq təminatı baxımından mühüm əhəmiyyət kəsb edir.

## YEKUN

Beləliklə, aqrar bazar infrastrukturları kənd təsərrüfatı və emal sənayesinin inkişafında əhəmiyyətli rol oynamaqla, ərzaq məhsullarının əhalinin bilavasitə istehlakına yönəldilməsinə xidmət edir. Aqrar bazar infrastrukturlarının inkişaf etdirilməsi regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində əhəmiyyətli vasitələrdən biridir. Aqrar bazar infrastrukturlarının inkişafı həm də ölkənin investisiya cəlbediciliyinin yaxşılaşdırılmasında da əhəmiyyətli rola malikdir. Bütün bunlar həm də mühüm strateji əhəmiyyət kəsb edir. Aqrar bazar infrastrukturlarının təkmilləşdirilməsinin strateji əhəmiyyət kəsb etməsi onunla bağlıdır ki, regionlarda logistik proseslərin sürətli inkişafı və digər infrastruktur xidmətlərinin müasir standartlara uyğunlaşdırılması xarici investorların regionlara cəlb edilməsində də mühüm əhəmiyyətə malikdir ki, bu da eyni zamanda qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından rast gələn problemlərin həllində əhəmiyyətli vasitələrdən biri sayıla bilər.

**Açar sözlər:** *aqrar bazar infrastrukturları, aqrar sahə, kənd təsərrüfatı, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi, kənd təsərrüfatının çoxfunksiyalılığı, kənd təsərrüfatının rəqabət qabiliyyəti.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri, 06 dekabr 2016-cı il, 96 s, s. 56.*

*2. E.A. Quliyev. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri(Monoqrafiya). Bakı, 2020, 464 s, s. 41,42.*

*3. N. Eyvazova Aqrar sahənin sosial-iqtisadi inkişafında məqsədli proqramların rolu. Akademik tarih və düşünce dergisi. 2017, №4(11), 217-224 s, s. 221.*

*4. M.Ə. Məmmədova. Aqrobiznes sferasında bazar infrastrukturunun inkişaf amilləri // Kənd təsərrüfatının iqtisadiyyatı — 2020, №3(33), 71-79 s., s. 77.*

*5. İ.H. İbrahimov Aqrar sahənin iqtisadiyyatı(-Monoqrafiya).Bakı, 2016, 655 s.*

*6. Крылатых Э.Н. Многофункциональность агропродо вольственного сектора: теоретическая концепция, практи ческая реализация / Э.Н. Крылатых // Экономика региона. - 2011.-№ 3-4.- С. 21-35, с. 24.*

*7. Stukach V. Adapting to the obligations of WTO members in the sphere of food aid to the population: the creation of spe- cific regional infrastructure in Russia: монография / V. Stukach, N Starovoitova // Munich Personal RePEc Archive.2017.- С. 196) (Stukach V.F. Regional infrastructure internal food aid/ VF. Stukach, E.A. Uchakova // International research journal Issue: Regional Infrastructure internal food aid. 2015- No 8(39). P. 72-80).*

*8. Аварский Н.Д., Пролыгина Н.А. Теория и методология инфраструктуры товародвижения на агропродовольственном рынке // АПК: Экономика, управление, 2015. - № 1., с. 73-79.*

*9. Васильева Е.В., Горбунов С.И., Ткачев С.И., Петрова И.В., Барковская Н.А., Казакова Л.В., Пшенцова А.И., Минеева Л.Н. Тенденции развития инфраструктуры агропродовольственного рынка в условиях импортозамещения. / Монография. Саратов: ООО «Амирит», 2016.–172 с*

*10. Аграрная экономика(учебник). Под общей редакцией М.Н. Малыша. Санкт-Петербург. 2002, 687 с, с. 7-8.*

*11. Самуельсон П. Экономика: вводный курс / П.Самуэльсон. М., 1993. – 478 с.*

*12. Шарипов А. Ю. Инфраструктура народного хозяйства / А. Ю. Шарипов М. 2009. – 288 с.*

**АЗЕР ГУРБАНЗАДЕ**

***Доцент кафедры «Международная торговля и логистика» Азербайджанского Университета Кооперации,***

***Доктор философии по экономике***

***E-mail: azercooperation@hotmail.com***

## РОЛЬ СОВЕРШЕНСТВОВАНИЯ ИНФРАСТРУКТУРЫ СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО РЫНКА В УЛУЧШЕНИИ ПРОДОВОЛЬСТВЕННОГО ОБЕСПЕЧЕНИЯ НАСЕЛЕНИЯ

## РЕЗЮМЕ

Инфраструктура сельскохозяйственного рынка играет важную роль в реализации сельско-

хозяйственной продукции. На фоне развития товарно-денежных отношений аграрная рыночная инфраструктура является одним из важных элементов формирования рыночной экономики и считается одним из важных структурных элементов на всех этапах доставки продукции от производителей к потребителям. во всех сферах экономики. В связи с этим улучшение продовольственного обеспечения населения в значительной степени зависит от формирования инфраструктуры агрорынка и ее эффективного функционирования. Хотя роль инфраструктуры аграрного рынка в улучшении продовольственного обеспечения населения носит скорее логистический характер, в то же время инфраструктуры аграрного рынка выполняют также экономические и социальные функции в обеспечении продовольствием.

**Ключевые слова:** *инфраструктура аграрного рынка, аграрная территория, сельское хозяйство, удовлетворение спроса населения на продукты питания, многофункциональность сельского хозяйства, конкурентоспособность сельского хозяйства.*

**AZER GURBANZADE**
***Ass.professor of the "International trade and logistics" department Azerbaijan Cooperation University, Doctor of Philosophy in Economics***
***E-mail: azercooperation@hotmail.com***

## THE ROLE OF IMPROVING THE AGRICULTURAL MARKET INFRASTRUCTURES IN IMPROVING THE FOOD SUPPLY OF THE POPULATION

### SUMMARY

Agricultural market infrastructures play an important role in the realization of agricultural products. Against the background of the development of commodity-money relations, agrarian market infrastructures are one of the important elements in the formation of a market economy, and are considered one of the important structural elements in all stages of the delivery of products from producers to consumers in all areas of the economy. In this regard, improving the food supply of the population depends significantly on the formation of agricultural market infrastructures and its efficient operation. Although the role of agricultural market infrastructures in improving the food supply of the population is more logistical, at the same time, agricultural market infrastructures also perform economic and social functions in food supply.

**Key words:** *agrarian market infrastructures, agrarian area, agriculture, meeting the population's demand for food products, multifunctionality of agriculture, competitiveness of agriculture.*

UOT: 631.145:004
DOI:10.30546/3006-0346.2024.4.82.69

# AQRAR SEKTORDA "AĞILLI" TEXNOLOGİYALARIN TƏTBİQİNİN ƏHƏMİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**GÜLSÜM BƏDİRZADƏ**
*Azərbaycan Kooperasiya Universitetinin "Kompüter mühəndisliyi və informasiya texnologiyaları" kafedrasının baş müəllimi, i.ü.f.d.,*

*E-mail: gulya_xaliqova@mail.ru*

Qeyd edək ki, rəqəmsal texnologiyaların istifadəsi intensiv iqtisadi artıma töhfə verir və ölkənin rəqabət qabiliyyətinin artırılması üçün vacibdir. Aqrar sferanın rəqəmsal transformasiyasının əsas vəzifəsi rəqəmsal texnologiyaların kənd təsərrüfatı istehsalına və sənayenin idarə edilməsi təcrübəsinə tətbiqindən ibarətdir. Müasir rəqəmsal texnologiyalardan istifadə insanların istehsal prosesindən tədricən kənarlaşdırılmasına gətirib çıxarır. Demək olar ki, bir çox qabaqcıl texnologiyaların yaranması insanların həyatını kökündən dəyişir, bir sıra köhnə peşələr itir, yeni peşələr meydana çıxır və ümumən dünya iqtisadiyyatı rəqəmsallaşmaya doğru gedir.

Dünyanın rəqəmsallaşması bütün sahələrdə böyük dəyişikliklərə səbəb olur və nəticədə çoxlu yeni şirkətlər meydana çıxır [1, s.364]. Aqrar sektorun davamlı inkişafı rəqəmsal texnologiyaların tətbiqi və səmərəli istifadəsi ilə mümkündür. Bu, xarakterik xüsusiyyəti yüksək məhsuldarlıq və ətraf mühitdəki dəyişikliklərə uyğunlaşma qabiliyyəti olacaq sistemlər yaratmağa imkan verəcək və bütün bunlar ərzaq təhlükəsizliyinin yaxşılaşdırılmasına kömək edəcək [2, s.92]. Aqrar sektorun rəqəmsallaşdırılması yolu ilə həll olunan vəzifələr: əmək məhsuldarlığının artırılması; fermer təsərrüfatları və istehlakçılar üçün kənd təsərrüfatı bazarlarının şəffaflığının artırılması üçün şəraitin yaradılması; müəssisənin ölçüsünü nəzərə almaqla kənd təsərrüfatı məhsullarının təşviqi üçün onlayn ticarət platformalarının və sistemlərinin tətbiqi; rəqəmsal iqtisadiyyata keçid üçün normativ-texniki tələblərə dəyişiklik edilməsi məqsədilə normativ sənədlərin və təkliflərin formalaşdırılması prosesi üçün platformanın yaradılması və s.

Hesab edirik ki, rəqəmsal kənd təsərrüfatının inkişafı məqsədilə torpağın münbitliyi və əkinlərin vəziyyəti haqqında məlumatların əldə edilməsi prosesini asanlaşdırmaq üçün alət və avadanlıqların çeşidini genişləndirmək lazımdır. Rəqəmsal texnologiyalarının əsas vəzifəsi resursların idarə edilməsini optimallaşdırmaq, itkiləri azaltmaq və istehsalın səmərəliliyini artırmaq üçün istehsal dövrünün bütün mərhələlərinin avtomatlaşdırılmasıdır. Aqrar sektorda rəqəmsallaşma pərakəndə satış zəncirlərini, topdansatış şirkətlərini, logistikanı, kənd təsərrüfatı istehsalçılarını və onların təchizatçılarını adaptiv idarəetmə ilə vahid proses çərçivəsində əhatə edən kompleks avtomatlaşdırılmış istehsal və təchizat zəncirləri yaratmağa imkan verir [3, s.12]. Aqrar sektorda rəqəmsal texnologiyaların tətbiqinin əsas üstünlüklərinə aşağıdakılar daxildir: kənd təsərrüfatı istehsalçılarının geniş spektri üçün əlavə dəyər yaradılmasına faydalı təsir göstərən məlumat mübadiləsinə çıxış imkanlarının artırılması; ərzaq məhsulları üçün səmərəli bazarların yaradılması, sahədən istehlakçıya məhsulun çatdırılması zamanı itkilərin, tranzaksiya xərclərinin azaldılması, informasiyanın əlçatanlığının, bazar şəffaflığının artırılması; vasitəçilər zəncirində əlaqələrin azaldılması və daha çox məlumat əldə edilməsi baxımından şaquli və üfüqi inteqrasiyanın təkmilləşdirilməsi; qərar qəbulunda qeyri-müəyyənlik risklərinin azaldılması, iqlim dəyişikliyinə, təbii fəlakətlərə və s. qarşı hazırlığın artırılması və s.

Fikrimizcə, müasir dövrdə ərzaq təhlükəsizliyinin təminatında da rəqəmsal texnologiyalar önəmli rollardan birini oynayır. Belə ki, bu tip texnologiyalar aqrar sahə istehsalçılarını məhsulların qiymətləri, hava proqnozları və digər faydalı məlumatlarla təmin edir, habelə həmin istehsalçıların yeni kənd təsərrüfatı texnologiyaları, xəstəliklər və yeniliklər barədə maarifləndirilməsində aktiv şəkildə iştirak edir. Bu cür xidmətlərin auditoriyasının kifayət qədər geniş olduğunu dünya təcrübəsindən də görmək mümkündür. Rəqəmsal texnologiyaların tətbiqləri vasitəsilə təklif edilən xidmətlər nisbətən ucuz və sürətli olmaqla aqrar sferada məhsuldarlığın artırılması, lazımi məsləhətlərin verilməsi və ərzaq təhlükəsizliyinin birbaşa təmin edilməsi baxımından önəmlidir [4, s.21]. İqtisadiyyatın rəqəmsallaşması ilə aqrar sektorda "ağıllı" texnologiyaların tətbiqi də genişlənir. Ən yaxşı aqrar sektor "ağıllı" texnologiyalardan istifadə edərək kənd təsərrüfatı torpaqlarının məqsədyönlü idarə edilməsidir. "Ağıllı" kənd təsərrüfatı mürəkkəb kənd təsərrüfatı sistemlərinin

optimallaşdırılması üçün informasiya texnologiyalarının istifadəsidir [5, s.121]. ETT-nin yüksək inkişaf tempinin baş verdiyi və qeyri-sabitliyin hökm sürdüyü müasir dünyada heyvandarlıq və bitkiçilikdə “ağıllı” texnologiyaların tətbiqi yolu ilə aqrar sahədə konkret üstünlüklərin formalaşdırılmasına xüsusi diqqət yetirilməsi tələb olunur. Aqrar sektoru transformasiya etmək və onu “ağıllı” texnologiyalardan istifadəyə əsaslanan innovativ inkişaf yoluna yönəltmək lazımdır.

Hazırda ABŞ, Kanada və Qərbi Avropada fermerlərin təxminən 50%-dən çoxu ağıllı” texnologiyalardan istifadə etməklə bitki və ya heyvanların vəziyyətinə nəzarət edir, məlumatları sinxronlaşdırır və sonrakı təhlil və qərarların qəbulu üçün onları saxlayır. ABŞ, Kanada və Avstraliya kimi inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, “ağıllı” texnologiyalar bu ənənəvi sənayeni kökündən dəyişəcək. Hazırda aqrar sektorun rəqəmsallaşdırılması strategiyalarının milli səviyyədə reallaşdırılmasında liderlər Qərbi Avropa və Şimali Amerikanın inkişaf etmiş ölkələridir [6, s.88]. “Ağıllı” əkinçilik istehsalın səmərəliliyini və kənd təsərrüfatı məhsullarının keyfiyyətini artırmaq üçün qabaqcıl informasiya texnologiyalarının mövcud kənd təsərrüfatı üsullarına daxil edilməsidir. Bunlardan bir neçəsinin xüsusiyyətlərini ümumiləşdirmişik: 1) Ağıllı əkinçilik sensorları. Belə texnologiyalar fermerlərə real vaxt rejimində ətraf mühit və tarlalardakı ən kiçik dəyişiklikləri belə izləməyə imkan verir. 2) Kameralarla təchiz edilmiş peyk və pilotsuz aparatlar. Fermerlər bu tip texnologiyaların köməyi ilə mütəmadi olaraq yeni xəritələr hazırlaya və sahəyə getmədən ona uzaqdan nəzarəti reallaşdıra bilərlər. 3) Böyük verilənlər. Onlar fəaliyyətin planlaşdırılması, dəqiq proqnozların verilməsi və daha səmərəli biznes modellərinin hazırlanması proseslərinin tərkib hissələrindən hesab olunur. Böyük verilənlər hesabına “ağıllı” əkinçilikdə uzunmüddətli qərarlar qəbul etmək imkanı yaranır. 4) Əşyaların interneti. Belə texnologiyalar bütün alət və vasitələri vahid sistemdə birləşdirməyə imkan verir. Bütün cihazlar və proqram təminatı müəyyən edilmiş nümunələr əsasında əlaqə saxlaya və xüsusi hərəkətləri yerinə yetirə bilər. 5) Böyük sensorlar, dronlar, proqramlar və digər proqram və aparat şəbəkəsini idarə etmək asan deyil. “Ağıllı” əkinçilikdə bu problemin mövcud məlumat mənbələrini vahid sistemdə birləşdirən əşyaların interneti texnologiyasından istifadə etməklə həll mümkündür. Fermerlər qeyd etdiyimiz texnologiyalardan istifadə etməklə sahəyə getmədən real vaxt rejimində bütün məlumat və avadanlıqlara baxa və idarə edə bilərlər.

Qeyd edək ki, “ağıllı” heyvandarlıq bu sahədə məlumatların toplanması üçün əşyaların interneti texnologiyalarından istifadəni nəzərdə tutan kənd təsərrüfatının bir sahəsidir. “Ağıllı” heyvandarlıq təhlükəsiz və yüksək keyfiyyətli qida məhsullarının yaradılmasına öz töhfəsini verir. Heyvanların yeri və sağlamlıq vəziyyəti haqqında məlumat əldə etmək üçün müxtəlif növ sensorlardan istifadə edilə bilər - bu məlumatlar heyvanlar arasında xəstəliklərin yayılması barədə xəbərdarlıq edə və heyvanların ölümünü minimuma endirə bilər [2, s.94]. “Ağıllı istixana” qapalı sistemlərdə bitki yetişdirməyə qadir olan proqram və aparat həlləri və robotlaşdırılmış intellektual texnologiyalar toplusudur. Bu texnologiya istehsal xərclərini azaltmağa, məhsul istehsalının sabit artımını təmin etməyə, həmçinin ümumilikdə məhsuldarlığı artırmağa imkan verəcəkdir [7, s.56]. “Ağıllı istixanalar”dan istifadə gübrələrdən, kimyəvi maddələrdən, sudan səmərəli istifadə etməyə, o cümlədən əkinlərə qulluq etmək üçün tələb olunan kadrların sayını optimallaşdırmağa və insan amilindən yaranan itkiləri azaltmağa imkan verir. “Ağıllı” istixanalar qorunan torpaqda bitkilərin yetişdirilməsi prosesinə istənilən əl müdaxiləsini minimuma endirməyə, iqlim, işıq səviyyəsinə və atmosfer təzyiqinə avtomatik nəzarəti təşkil etməyə imkan verir. Mütəxəssislərin fikrincə, “ağıllı istixanalar” üçün qlobal bazarın bütün istixana təsərrüfatlarının 3%-dən çox olmamasına baxmayaraq, onların sayı hər il 9% artır. “Ağıllı” istixanalar bütün suvarma prosesini idarə etməyə və mikroiqlimi tənzimləməyə imkan verir. Bundan əlavə, bu sistemlər məhsuldarlığa və bütün sistemlərin iş keyfiyyətinə nəzarət edə bilir ki, bu da məhsuldarlığı 20-40% artırmağa, habelə istehsal olunan məhsulun keyfiyyətini artırmağa və xərcləri azaltmağa imkan verir.

Fikrimizcə, “ağıllı” bağ - bağ aqrobiosenozunun vəziyyəti haqqında məlumatları avtomatik təhlil edən, idarəetmə qərarları qəbul edən və robot avadanlıqlardan istifadəni nəzərdə tutan intellektual sistemdir. “Ağıllı” bağ sistemi bağın aqrobiosenozunun vəziyyəti haqqında məlumatları təhlil edir, həmçinin idarəetmə qərarlarını qəbul edir. Bağın və ətraf mühitin vəziyyətindəki dəyişikliklərə nəzarət edilir. “Ağıllı” bağda kənd təsərrüfatı istehsalının hər mər-

hələsində və bütün növ avadanlıqlarda sensorlar tətbiq oluna bilər. Onlar işıq səviyyələri, torpaq şəraiti, alaq otları, bitki zərərvericiləri və xəstəliklərinin yayılması və tanınması, məhsulun səviyyəsi, suvarma, havanın keyfiyyəti və hava şəraiti haqqında məlumat toplamağa imkan verir. Bu halda "ağıllı" bağ imkan verir: 1) torpaqların, bitkilərin və ətraf mühitin vəziyyəti haqqında məlumatların toplanması, emalı və istifadəsi üçün rəqəmsal texnologiyaların tətbiqi yolu ilə məhsul istehsalının sabit artımının təmin edilməsi; 2) idarəetmə qərarlarının qəbulu və tarla torpaqlarının və əkinlərinin monitorinqi üçün yerli rəqabətədavamlı texnologiyaların yaradılması və tətbiq edilməsi; 3) əkinçilikdə məhdudlaşdırıcı amillərin azaldılması üçün robotlaşdırılmış vasitələrin tətbiqi; 4) növbəli əkin sahələri və homogen iş sahələri kontekstində geoməkan məlumatlarının çoxfaktorlu təhlili əsasında məhsulun məhsuldarlığının qiymətləndirilməsi və planlaşdırılması üsulları da daxil olmaqla, dəqiq əkinçilik texnologiyalarının inkişaf etdirilməsi və mənimsənilməsi.

Bunlarla bərabər, "ağıllı" bağ texnologiyalarının tətbiqinin məqsədlərini vermişik: 1) bitkiçilikdə istehsal proseslərinin monitorinqi və idarə edilməsi üçün rəqəmsal Big Data texnologiyalarının tətbiqi; 2) bulud texnologiyaları və əşyaların interneti texnologiyalarından istifadə etməklə torpaqların, bitkilərin və ətraf mühitin vəziyyəti haqqında ultra yüksək detallı məlumatların toplanması, təhlili və ötürülməsi vasitələrinin hazırlanması; 3) məhdudlaşdırıcı amillərin bitki məhsuldarlığına təsirini azaldan robot texnologiyalarının inkişafı; 4) eroziyaya qarşı tədbirlərin layihələndirilməsi, dəqiq kənd təsərrüfatının tətbiqi üçün tələb olunan miqyasda işlərin görülməsi üçün rəqəmsal topoqrafik-geodeziya əsaslarının hazırlanması; 5) torpaq, geobotanik, aqrokimyəvi, torpaq eroziyası, torpaq idarəçiliyi və digər növ tədqiqatlar üzrə məlumatların yenilənməsi və s. Müasir istənilən kənd təsərrüfatı müəssisəsi məhsul vahidinin maya dəyərini azaltmaq və istifadə olunan resurslar vahidinə görə əmək məhsuldarlığını artırmaq üçün daim çalışır. Burada dəqiq əkinçiliyin rolu ön plana çıxır. Dəqiq əkinçilik dedikdə, kompüter və peyk texnologiyalarının istifadəsinə əsaslanmaqla əkinlərin məhsuldarlığını idarəetmə sistemi başa düşülür [8, s.6].

Hazırda Azərbaycanda aqrar sektorda "ağıllı" texnologiyaların tətbiqinin genişləndirilməsi əsas prioritetlərdəndir. Ölkəmizdə artıq əşyaların internetinin aqrar sektorda istifadə olunma perspektivləri vardır. Əşyaların interneti müxtəlif maşın və avadanlıqlar arasında qarşılıqlı əlaqə və məlumat mübadiləsi sistemidir ki, bu da idarəetmə proseslərini avtomatlaşdırmağa və həmin proseslərdə insanın iştirakını xeyli dərəcədə azaltmaq imkanı yaradır [9, s.42].

Son illərdə Azərbaycanda "ağıllı" texnologiyaların tətbiqinə marağın artmasına baxmayaraq, aqrar sektorda həmin texnologiyaların tətbiqi prosesinə aşağıdakı amillər mane olur:

- kənd təsərrüfatı işçilərinin İT savadlılığının və müasir texnologiyalar haqqında məlumatlılığının aşağı olması;
- "ağıllı" texnologiyalar əsasında fəaliyyət göstərən innovativ məhsulların (ağıllı sensorlar, avtonom avtomobillər, dronlar və s.) istifadəsi üçün bir çox kənd yerlərində yüksəksürətli internetin olmaması;
- iqtisadiyyatın aqrar sektorunda kadr çatışmazlığı;
- kənd təsərrüfatı istehsalının yeni "aqrar" texnologiyalarının sınaqdan keçirilməsi üçün müstəqil platformaların yetərli olmaması;
- "ağıllı" texnologiyaların əldə edilməsi və tətbiqi üçün subsidiyaların əldə edilməsində çətinliklər;
- kənd təsərrüfatı sektorunda bir çox təşkilatların təhlil və praktiki tətbiq üçün istifadə oluna bilən böyük həcmdə məlumatların (böyük verilənlərin) toplanması və saxlanması imkanlarının olmaması.

Azərbaycanın aqrar sektorunda "ağıllı" texnologiyalardan kifayət qədər istifadə edilməməsinin səbəbləri arasında bir sıra müəssisələrin, xüsusilə də kiçik və orta müəssisələrin maliyyə vəziyyətinin aşağı səviyyədə olması, bu sahədə sahibkarlıq təşəbbüsünün zəif inkişaf etməsi və kifayət qədər dövlət dəstəyinin olmamasını qeyd etmək olar. Sənaye aşağı gəlirli, bəzən gəlirsiz kimi tanınır və lazımi avadanlıqların alınması üçün kifayət qədər vəsait yoxdur. İqtisadiyyatın rəqəmsal aqrar sektorunun formalaşması daha çox ölkədəki investisiya mühitindən və sənayeyə investisiyaların artırılmasından asılıdır. Aqrar sektor investorlar üçün cəlbedici bir iş deyil, bu, birbaşa təbii risklərdən və becərmə, yığım və saxlama zamanı böyük məhsul itkilərindən asılı olan uzun istehsal dövrü ilə bağlıdır.

Rəqəmsal aqrar sektorun innovativ texnologiyalar üzrə peşə təhsili sistemində konservativ kənd təsərrüfatı texnologiyalarının və biotexnologiyaların kənd təsərrüfatı istehsalında biliklərin ötürülməsi və

yayılması üçün kompleks tədbirləri təmin edən yeni proqramlar və təlim standartları hazırlanmalı və reallaşdırılmalıdır. "Ağıllı" kənd təsərrüfatı texnologiyalarından istifadə fermerlərə əsaslandırılmış qərarlar qəbul etməyə kömək edir. Fermerlər və ətraf mühit üçün kənd təsərrüfatı proseslərini rəqəmsal texnologiyalar konsepsiyasına uyğunlaşdırmaq vacibdir, çünki innovativ proseslər effektivdir və fermerlərə davamlı fayda gətirir. Kənd təsərrüfatı fərdi, lakin bir-birindən asılı proseslər kompleksidir. Məhsulun keyfiyyətini təmin etmək üçün kənd təsərrüfatı işləri səmərəli vaxt çərçivəsində təşkil edilməlidir. Kənd təsərrüfatında "ağıllı" texnologiyalardan daha yaxşı istifadə ərzağa tələbatı artıra, tələbatın artması isə istehsalın sabitliyini təmin edə bilər.

Aqrar sferada "ağıllı" texnologiyalardan səmərəli istifadənin təmin edilməsi məsələlərinə kompleks və sistemli şəkildə yanaşılmalı, həmin sahənin qarşısında duran ən önəmli vəzifələrə adekvat olan nəzarət və idarəetmə sistemləri hazırlanmalı, əsaslı layihələr bloku yaradılmalıdır. "Ağıllı" texnologiyaların tətbiqi üçün funksional və çevik hüquqi, maliyyə və iqtisadi-təşkilati mexanizmlər və onların iqtisadi səmərəliliyinin artırılması tədbirləri olmalı, onların hər birinin praktiklik səviyyəsi qiymətləndirilməli, həmin texnologiyalardan istifadə sahəsində mərkəzlə regionlar arasındakı fərqlər minimuma endirilməli, daha təsirli fəaliyyət vasitələrindən istifadə edilməlidir və s. [10, s.14].

## YEKUN

Beləliklə, "ağıllı" texnologiyalar sistemin rahatlığı ondan ibarətdir ki, məhsul yığımından sonra da onun fəaliyyəti emal, qablaşdırma, təmizləmə, çeşidləmə, çatdırılma və digər dəyər zəncirləri sahələrində davam edir və bu proseslərlə bağlı bir qrup məsələləri və fikirləri ümumiləşdirmişik:

- "Ağıllı" texnologiyalar yüksək məhsuldarlığa və keyfiyyətə nail olmaqda, su sərfiyyatını və məhsul xərclərini azaltmaqda, məhsuldarlığın planlaşdırılmasında və proqnozlaşdırılmasında önəmli rol oynayır;
- "Ağıllı" texnologiyaların tətbiqi gənc nəslin marağına səbəb olur ki, bu da, sənayedə yeni iş yerləri yaradılmasına imkan verir;
- Rəqəmsal aqrar sektorun təşkili və istifadəsi məsələsi də var ki, bu da sənayeni dərindən bilən, müasir texniki və texnoloji biliklərə malik ixtisaslı kadrlara tələbat yaradır. İlk öncə, aqrar sektora yeni peşəkarlar - proqramçılar, əşyaların İnterneti üzrə mühəndislər, İT mütəxəssisləri lazımdır;
- Göstərilən təkliflərin reallaşdırılması aqrar sektorda "ağıllı" texnologiyalardan istifadə proseslərinin intensivləşdirilməsinə imkan verəcək ki, bu da bütövlükdə yerli aqrar-sənaye istehsalının səmərəliliyinin, rəqabət qabiliyyətinin və dayanıqlığının artmasına töhfə verə bilər;
- Bu qeyd olunanlarla bərabər, aqrar sektor istənilən ölkənin iqtisadiyyatının inkişafında önəmli rol oynayır, lakin "ağıllı" texnologiyaların optimal səviyyəsinə nail olmaq üçün kifayət qədər bilik səviyyəsi və təcrübəsi olan kadrlar, habelə dövlət dəstəyi tələb olunur və s.

**Açar sözlər:** *aqrar sahə, "ağıllı" texnologiyalar, aqrar sahənin rəqəmsallaşması, aqrar sektorda İKT-nin rolu, "ağıllı" texnologiyaların əhəmiyyəti, "ağıllı" texnologiyalarının əhəmiyyətinin qiymətləndirilməsi.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Qulmatova, B. A. The role of digital technologies in agriculture / B. A. Qulmatova, D. A. Buranova // Theoretical & Applied Science. – 2022. – No. 4(108). – P. 362-365.*

*2. Асланова, Г. Н. Технологии цифрового сельского хозяйства / Г.Н.Асланова // Цифровая трансформация в науке, образовании и производстве: сборник научных трудов Всероссийской научно-практической конференции, Махачкала, 21–23 декабря 2022. – С. 92-95.*

*3. Власенкова, Т. А. Цифровизация как основа эффективного ведения сельского хозяйства / Т. А. Власенкова, Ю. Ю. Козырева // Менеджмент в АПК. – 2021. – № 2. – С. 11-16.*

*4. Mənsimzadə İ.A. İnformasiya texnologiyalarından istifadə əsasında kənd təsərrüfatında biznesin inkişaf istiqamətləri. iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avt-tı. Bakı, 2017, 27 s.*

*5. Бекболатова, З. С. Значение и роль цифровизации сельского хозяйства в экономике / З. С. Бекболатова // Экономика 2020: Актуальные вопросы и современные АСПЕКТЫ : сборник статей II Международной научно-практической конференции, Пенза, 17 апреля 2020 года. – Пенза: "Наука и Просвещение" (ИП Гуляев Г.Ю.), 2020. – С. 120-122.*

*6. Борисевич, И. С. «Умные» технологии для аграрного сектора / И.С. Борисевич, Е. М. Бородинская // Цифровая экономика: проблемы и перспективы развития: Сборник научных статей 3-й Межрегиональной научно-практической конференции, Курск, 11 ноября 2021. – С. 87-90.*

*7. Степаненко, В. Е. Внедрение информационных технологий в сельском хозяйстве / В. Е. Степаненко // Вестник АГАТУ. 2023. № 2(10). – С. 54-61.*

*8. Fətəliyev K. Dəqiq əkinçilik: iş prinsipi və perspektivlər. Kənd həyatı. - 2019. - 6 dekabr. - №6. s.6-7.*

*9. Musayev M., Sadiqov Ə. Aqrar sahədə müasir informasiya texnologiyalarının rolu. UNEC Elmi Xəbərləri, İl 10, Cild 10, 2022, s. 36-43.*

*10. Bədirzadə G.S. Aqrar sahədə informasiya-kommunikasiya texnologiyalarının iqtisadi səmərəliliyinin artırılması istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Gəncə, 2022, 30 s.*

**ГЮЛЬСУМ БЕДИРЗАДЕ**
***Доктор философии по экономике, старший преподаватель кафедры «Компьютерная инженерия и информационные технологии» Азербайджанского Университета Кооперации***
***E-mail: gulya_xaliqova@mail.ru***

## ОЦЕНКА ВАЖНОСТИ ПРИМЕНЕНИЯ «УМНЫХ» ТЕХНОЛОГИЙ В АГРАРНОМ СЕКТОРЕ

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы оценки важности применения «умных» технологий в аграрном секторе в современных условиях. Раскрыта сущность приоритетов и проблем развития аграрного сектора в нынешнем сложном периоде. Обоснована важность активизации применения «умных» технологий в аграрном секторе с учётом глобальных вызовов и трансформаций. Рассмотрены вопросы применения высоких технологий в различных сферах животноводства и растениеводства. Отмечена необходимость интенсификации применения таких цифровых механизмов как «умная ферма», «умное поле», «умное хозяйство» и пр. Даны рекомендации и предложения по объективной и комплексной оценке важности применения «умных» технологий в аграрной сфере.

**Ключевые слова:** *аграрная сфера, «умные» технологии, цифровизация аграрной сферы, роль ИКТ в аграрном секторе, важность «умных» технологий, оценка важности технологий.*

**GULSUM BEDIRZADE**
***Doctor of Philosophy in Economics, Senior Lecturer of the "Computer Engineering and Information Technologies" Department of Azerbaijan Cooperation University***
***E-mail: gulya_xaliqova@mail.ru***

## ASSESSING THE IMPORTANCE OF APPLYING “SMART” TECHNOLOGIES IN THE AGRICULTURAL SECTOR

### SUMMARY

Issues of assessing the importance of the application of "smart" technologies in the agricultural sector in modern conditions are considered in the article. The essence of priorities and problems of the agrarian sector development in the current difficult period is revealed. The importance of activation of application of "smart" technologies in the agricultural sector in view of global challenges and transformations is substantiated. The issues of application of high technologies in various spheres of animal husbandry and crop production are considered. The necessity of intensification of application of such digital mechanisms as "smart farm", "smart field", "smart farm", etc. is noted. Recommendations and proposals for objective and comprehensive assessment of the importance of the application of "smart" technologies in the agrarian sphere are given.

**Key words:** *agrarian sphere, "smart" technologies, digitalization of the agrarian sphere, the role of ICT in the agricultural sector, the importance of "smart" technologies, assessment of the importance of technologies.*

UOT: 033
DOI:10.30546/3006-0346.2024.4.82.70

# QİDA MƏHSULLARI İSTEHSALÇILARININ STİMULLAŞDIRILMASININ İQTİSADİ PROBLEMLƏRİ

**NOVRUZ RƏHİMOV**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*
*E-mail: novruzrehimov@gmail.com*

Qlobal rəqabət mühitində və eləcə də dünya iqtisadiyyatının qloballaşması şəraitində inkişaf etmiş ölkələr daha çox mülayim güc vasitələrindən istifadəyə üstünlük verirlər. Bu isə daha çox onunla bağlıdır ki, bu və ya digər ölkələr qlobal bazarları ələ keçirir və eyni zamanda maliyyə resurslarından istifadə etməklə bu və ya digər ölkənin iqtisadiyyatını ələ keçirirlər. İ.e.d. A.Abbasovun fikrincə, XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən sosialist düşərgəsinin süqutu fonunda transmilli korporasiyalar post-sovet və post-sosialist məkanı ölkələrinə doğru genişlənməyə başladı ki, bu da həmin ölkələrin bazarlarında möhkəmlənməyə yönəldilmişdir. XX əsrin sonlarında iqtisadi inkişaf siyasətinin konseptual əsasları "sərt gücdən" istifadə etmədən iqtisadi baxımdan "mülayim güc" hesabına bu və ya digər ölkənin iqtisadiyyatının və bazarının tam mənada ələ keçirilməsi ilə bağlı idi [6, s. 107]. Müəllif fikirlərindən çıxış edərək belə qənaətə gəlmək olar ki, inkişaf etmiş ölkələrin "mülayim güc" hesabına bazarların ələ keçirilməsinə yönəldilmiş fəaliyyətin neytrallaşdırılmasında həmin ölkələrin iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi ən başlıca istiqamətlərdən biri hesab oluna bilər. Qida sənayesində fəaliyyət göstərən təsərrüfat subyektlərinin davamlı inkişafının təmin edilməsi də mühüm strateji əhəmiyyət kəsb edir. Dəyişən xarici və daxili mühitdə davamlı potensiala malik olan şirkət ümumi fəaliyyət səmərəliliyini qoruyur, işçilər, təşkilatlar və dövlət qarşısında bütün öhdəlikləri yerinə yetirir, kifayət qədər gəlir əldə edir və müəssisənin missiyasına və məqsədinə uyğun olaraq müvafiq xərclər həyata keçirir [12]. Məlum olduğu kimi qloballaşma prosesləri kifayət qədər dəyişən bir şəraiti özündə əks etdirir. Bu baxımdan, qida sənayesi müəssisələrinin, daha doğrusu qida məhsulları istehsalçılarının qloballaşan mühitdə dəyişən şəraitə uyğunlaşdırılması, məhz davamlı inkişafın başlıca şərtlərindən biridir. Qida sənayesi müəssisələrinin maksimum dəyişən şəraitdə dayanıqlığını artırmaq üçün sənayenin vəziyyətini, bazarda rəqabəti, məhsula tələbi və alıcıların ödəmə qabiliyyətini nəzərə almaq vacibdir. Strateji rəqabətə davamlı maliyyə, marketinq, investisiya, təşkilati, hüquqi və idarəetmə davamlılığı qida sənayesi müəssisələrinin davamlı inkişafının və onların rəqabət qabiliyyətinin yüksəldilməsinin başlıca şərtlərindən biri hesab edilir [13, s.71].

Qloballaşma proseslərinin inkişafı qida sənayesi sektorunda klasterial inkişafın zəruriliyini obyektiv zərurətə çevirir. Klasterləşmə nəzəriyyəsinin əsasını qoyanlar bu sahənin inkişafına xeyli əvvəl başlasalar da, klasterial yanaşma ideyası son 10 illiklərdə xüsusilə diqqət çəkməyə başlayıb. İqtisadiyyatın inkişafında klasterial yanaşmanın əsas məqsədi iqtisadi inkişafı, müəssisələrin və onların məhsullarının (xidmətlərin), rəqabət qabiliyyətinin təmin edilməsinə yönəldilmiş mexanizmin yaradılmasıdır. Klaster assosiasiyaları məsələsi Porter E.M., Harold W, Diana H, Charts K. A., Belgado M. və s. kimi tədqiqatçıların işlərində öz əksini tapmışdır [14.; 7, s. 72].

Ölkəmizdə, xüsusilə də post-sovet məkanı ölkələrində klasterial inkişafla bağlı proseslər yeni-yeni tədqiq edilməsinə baxmayaraq, artıq bu proseslər dünyanın inkişaf etmiş ölkələrində demək olar ki, uzun illərdir ki, sınaqdan çıxarılmışdır. Məsələn, İtaliyanın aqrar qida klasteri məhsulun əkini və toplanması, emalı, paylanması və pərakəndə satışı da daxil olmaqla kənd təsərrüfatı və qida sənayesinin bir çox istiqamətlərini əhatə edən ölkənin ən önəmli iqtisadi sektorlarından biridir. Təkcə onu qeyd etmək kifayətdir ki, Made in İtaly markası adı altında istehsal olunmuş qida məhsulları dünyada böyük prestijə malikdir. 2022-ci ildə İtaliya ümumi dəyəri 42 milyard avrodan artıq olan kənd təsərrüfatı məhsulları ixrac etmişdir [15, s. 14]. Sübhan Namazov, Orxan Vətənxah və başqaları hesab edirlər ki, digər Avropa İttifaqı ölkələrindən fərqli olaraq, Litvanın klaster təcrübəsi daha az olsa da, o Azərbaycan üçün olduqca yaxşı nümunə sayıla bilər. Belə ki, keçmiş Sovetlər İttifaqının tərkibinə daxil olmuş və yalnız 2004-cü ildə Avropa İttifaqına tamhüquqlu üzv olmuş Litva klasterlərin yaradılması və inkişafı istiqamətində son 20 ildə kifayət qədər ciddi nailiyyətlər əldə edə bilsə də, bu ona heç də asan başa gəlməyib [8, s. 59]. Beləliklə, yuxarıda adıçəkilən müəlliflərin fikirlərindən belə qənaətə gəlmək olar ki, aqrar

sahədə, o cümlədən qida sənayesində klasterial inkişafın təmin edilməsi sahənin davamlı inkişafında əhəmiyyətli vasitələrdən biri hesab olunur. İ.e.d. E.Ə. İbrahimovun belə fikri ilə razılaşmaq mümkündür ki, qeyri-neft sektorunun prioritetlərinə bir sıra xidmət sahələri – kənd təsərrüfatı və emal sənayesi aid edilir. Kənd təsərrüfatının inkişafı yalnız davamlı inkişaf baxımından deyil, ümumilikdə cəmiyyətin normal yaşayışı, yeyinti sənayesinin xammal bazası, ərzaq təhlükəsizliyi və s. baxımından da zəruridir. Ona görə də cəmiyyətin ərzaq təminatı və ölkənin ərzaq təhlükəsizliyinin əsas ağırlığı bu sahənin üzərinə düşür [9, s. 95]. Odur ki, müəllifin qeyd etdiklərindən tamamilə haqlı olaraq belə nəticəyə gəlmək olar ki, qida sənayesi istehsalçılarının stimullaşdırılmasında sahənin davamlı inkişaf meyillərinə uyğun meyarlar və çağırışlar nəzərə alınmalıdır. Başqa sözlə desək, qida sənayesi istehsalçılarının stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ekstensiv amillərin deyil, ən başlıcası intensiv amillərin dəstəklənməsinə yönəldilməlidir.

İnkişafda dayanıqlılıq prinsipinin reallaşdırılması baxımından yanaşdıqda, göstərilən vəziyyətin, ilk növbədə, atmosferə zərərli qazların atılmasını çoxaltmaqla ətraf mühitə əlverişsiz təsir yükünün də artmasına gətirib çıxardığını nəzərə almaq lazımdır. Post-transformasiya intensivləşmə prosesində kənd təsərrüfatı istehsalında kimyəvi maddələrdən istifadənin artıq göstərildiyi kimi sürətlə artımı baş vermişdir. Torpaqlarda deqradasiyanın nisbətən yüksək, qidalı maddələrin aşağı səviyyədə olduğu bir şəraitdə bitkiçilik məhsullarının əsas növlərinin məhsuldarlığının yüksəldilməsi məqsədilə mineral gübrələrdən istifadənin genişlənməsinə ehtiyac yaranmışdır. Eyni zamanda bu xətt davam edərkən inkişafda uzunmüddətli dövr baxımından dayanıqlılığın təmin edilməsi vəzifəsinin reallaşdırılmasına da diqqət yetirilməsinə ehtiyac yaranır [10, s. 13]. Odur ki, müəlliflərin fikirlərindən çıxış etməklə belə qənaətə gəlmək olar ki, doğrudan, davamlı inkişaf, əslində, 3 fundamental prinsipə əsaslanır. Bunlardan biri iqtisadi, digəri sosial, üçüncüsü isə ekoloji fundamentlərdir. Məhz bu fundamentlərin qarşılıqlı əlaqəsinin təmin edilməsi halında sahənin davamlı inkişafına nail olmaq mümkündür. İqtisadçı alim Azər Qurbanzadənin belə bir fikri ilə razılaşırıq ki, süd istehsalı və keyfiyyətinin yüksəldilməsi zərurəti onunla əlaqədardır ki, respublikamızda hər nəfərə düşən süd və süd məhsulları istehlakı son 20 ildə 250 kiloqramdan yuxarı olmayıb. Xarici ölkələrdə (ABŞ, Niderland, Fransa və s.) hər nəfərə 500-1000 kiloqram süd istehsal olunur. İstehsal olunan südün istifadə istiqamətləri də müxtəlifdir. Böyük Britaniyada südün 52%-i üzlü süd məhsulları kimi, 30%-i yağ üçün istifadə edilir. Azərbaycanda südün 45%-i üzlü süd məhsulları kimi, 21%-i yağ, 30%-i pendir, 3,6%-i dondurma alınmasına sərf olunur. Bir sıra xarici ölkələrdə (Fransa, Finlandiya, İtaliya, Polşa və s.) südün keyfiyyəti onun qalığı ilə yanaşı zülalı ilə də qiymətləndirilir. Polşada birinci növ süddə zülal 2,9%-dən, Ruminiyada 3,2%, Almaniya 3,3%-dən aşağı olmamalıdır. Bu onunla əlaqədardır ki, süddə zülal çox olduqca 1 kiloqram pendir, şor və digər süd məhsullarının istehsalı üçün az süd tələb olunur [11, s. 176,177].

Yuxarıda qeyd etdiyimiz kimi qida sənayesində istehsalın stimullaşdırılması prosesi kənd təsərrüfatı ilə emal sənayesi müəssisələrinin inteqrasiya fonunda baş verməlidir. Qeyd etmək lazımdır ki, 2000-ci illərin əvvəllərindən etibarən kənd təsərrüfatının subsidiyalaşdırılmasına başlansa da, lakin emal müəssisələrinin xərclərinin kompensasiya edilməsinə istiqamətlənmiş tədbirlərə demək olar ki, rast gəlinmir. 2007-2022-ci illərdə kənd təsərrüfatına və aqrar sahəyə yönəldilən subsidiyaların və güzəştlərin həcmi nominal ifadədə təqribən 9,8 dəfə artaraq 450 milyon manata çatmışdır. Kənd təsərrüfatına yönəldilən subsidiya və güzəştlərin həcmi şəkil 1-də öz əksini tapmışdır.

2020-2022-ci illərdə subsidiya ödənilən sahələr, təqribən 1,3 milyon hektar təşkil etmişdir. Subsidiyaya verilən sahələrin, təqribən 60%-ində taxıl məhsulları əkilmiş, ödənilmiş subsidiyaların 60%-i bu məhsulların payına düşmüşdür. Subsidiya ödənilən sahələrin, təqribən 8%-nə malik olan meyvə bağlarına görə ödənişlər cəmi əkin subsidiyalarının, təqribən 13%-ni təşkil etmişdir [1, s. 205].




**Şəkil 1: Kənd təsərrüfatına yönəldilən subsidiyaların həcminin dinamikası, 2007-2022-ci illər milyon manatla. Mənbə: [1, s. 205].**

Təhlillərdən belə qənaətə gəlmək olar ki, subsidiyaların ödənişi daha çox əkin sahəsinə görə həyata keçirilir. Təbii ki, bu da kənd təsərrüfatında ekstensiv inkişafın stimullaşdırılmasına gətirib çıxarır. Bu baxımdan 2007-2018-ci illərdə kənd təsərrüfatında giriş resurslarının əsas növlərinin, istifadə olunan torpaq sahələrinin və məhsul istehsalının artımı diaqram 1-də öz əksini tapmışdır.




**Diaqram 1: 2007-2018-ci illərdə kənd təsərrüfatında giriş resurslarının əsas növlərinin, istifadə olunan torpaq sahələrinin və məhsul istehsalının artımı (dəfə)**

***Mənbə: "Azərbaycanın kənd təsərrüfatı 2019". Statistik məcmuə. Bakı, 644 s.***

Diaqram 1-dən göründüyü kimi, belə qənaətə gəlmək olar ki, respublikamızda qida sənayesində fəaliyyət göstərən istehsalçıların inteqrasiyaya girdiyi kənd təsərrüfatında istehsalın intensivləşdirilməsində başlıca faktor mineral gübrələrin daha çox tətbiqi əsas götürülməkdədir. Bu isə ona gətirib çıxarır ki, kənd təsərrüfatında məhsul istehsalının intensivləşdirilməsi, məhz mineral gübrələrin tətbiqi hesabına həyata keçirilir və bu da istehsal edilən məhsulun ekoloji cəhətdən təmiz olmasını şübhə altına almaqdadır.

Qida istehsalçılarının stimullaşdırılmasında ən mühüm istiqamətlərdən biri onların zərərlərinin kompensasiya olunması və eyni zamanda onlara güzəştli kreditlərin verilməsi ilə bağlıdır. Bundan əlavə qida istehsalçılarının stimullaşdırılmasında ən mühüm istiqamətlərdən biri də məqsədli investisiyalar hesabına onların istehsal vasitələrinin modernləşdirilməsidir. Bu modernləşmə prinsip etibari ilə istehsal edilən məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsində də önəmli amillərdən biri kimi çıxış edə bilər [16, s. 46]. Beləliklə, qeyd edilənlərdən bu nəticəyə gəlmək olar ki, əslində, qida istehsalçılarının rəqabət qabiliyyətinin yüksəldilməsi, məhz istehsalın modernləşdirilməsi ilə sıx əlaqədardır və bu zaman modernləşmə prosesinə yönəldilmiş investisiyalar, məhz rəqiblərin istehsal etdikləri məhsulla müqayisədə daha az xərc hesabına həyata keçirilməsini təmin edir və bu da istehlakçıların alıcılıq qabiliyyətinə uyğun məhsul istehsalının həyata keçirilməsi deməkdir. Beləliklə, qida istehsalçılarının stimullaşdırılması zamanı əsas hədəf həm istehlakçıların alıcılıq qabiliyyətinə uyğun məhsul istehsal edilməsi və onların daha az xərclə həyata keçirilməsi hesab oluna bilər. Müasir şəraitdə qida istehsalçılarının stimullaşdırılması onların dəyişən qlobal çağırışlara effektiv reaksiya göstərməsinə də istiqamətlənməlidir. Bu baxımdan, informasiya texnologiyalarının iqtisadiyyatda yayılması, mövcud rəqabət üstünlüklərindən daha səmərəli istifadə etməyə, ikincisi, yenilərinin yaradılmasını təmin etməyə imkan verir. İntensiv yenilənən məhsulların müasir istehsalının rəqabət qabiliyyətinin bu xüsusiyyəti zaman resurslarından da səmərəli istifadə edilməsi deməkdir.

Azərbaycan Respublikası Prezidentinin 18 noyabr 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası qanunu qüvvəyə minmişdir. Qanunun 10-cu maddəsində yeyinti məhsulları istehsalının stimullaşdırılması bilavasitə öz əksini tapmışdır. Həmin maddədə qeyd edilir ki, əhalinin yeyinti məhsullarına olan tələbatının və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasında yeyinti məhsullarının istehsalı sahəsində məqsədli investisiya, qiymət, kredit siyasəti həyata keçirilir [2]. Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası prezidentinin 11 aprel 2017-ci il tarixli sərəncamında qeyd edilir ki, ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emal prosesində intensiv metodların geniş tətbiqi, istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rol olan aqro-parkların yaradılması istiqamətində mühüm addımlar atılmışdır [3]. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üzrə Dövlət Proqramında qeyd edilir ki, ölkənin daxili tələbat və yüksək artım potensialına malik ixrac imkanları növbəti illərdə sə-

naye istehsalının strukturunun təkmilləşdirilməsində xüsusi rol oynayacaqdır. Sənayenin diversifikasiyası bir sıra ənənəvi istehsal sahələri ilə yanaşı, ənənəvi olmayan yeni istehsal sahələrinin qurulmasını tələb edir [4]. Adıçəkilən Dövlət proqramları qida məhsullarının istehsalının artırılmasında da önəmli rol oynayır və bilavasitə emal sənayesinin stimullaşdırılmasına da öz təsirini göstərir. Emal sənayesinin sahələri arasında (neft məhsulları istisna olmaqla) illik istehsal həcmi ümumi sənayesinin 1%-i bundan daha çox olan bir neçə sahə var ki bunlara da qida məhsullarının istehsalı (7%-dən bir qədər çox), tikinti materialları istehsalı (1,6%), kimya sənayesi (1,3%), metallurgiya sənayesi (1,2%), maşın və avadanlıqların quraşdırılması və təmiri (1,1%) [5, s. 12]. Hesab etmək olar ki, emal sənayesinin inkişafı ilə bağlı son illər dövlət səviyyəsində bir sıra zəruri tədbirlərin həyata keçirilməsinə baxmayaraq qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən müəssisələrin sayı məhduddur.

## YEKUN

Qida məhsullarının istehsalı əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Qida istehsalçıları kənd təsərrüfatı ilə emal sənayesi müəssisələrinin fəaliyyətindən daha çox asılı olurlar. Qida istehsalının stimullaşdırılması obyektiv zərurətdən irəli gəlir. Bu baxımdan qlobal çağırışlar nəzərə alınmaqla qida məhsullarının istehsalçılarının stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsinə istiqamətlənmiş təkliflərin, tövsiyələrin işlənib hazırlanması tədqiqatın məqsədini təşkil edir.

**Açar sözlər:** *qida istehsaçıları, qida sənayesi, qida istehsalçılarının stimullaşdırılması, subsidiyalaşdırma, güzəştli kreditləşdirmə sistemi, rəqabət qabiliyyətli qida sənayesi.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycanda aqrar sahənin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu. Bakı, 2023, 260 s.*

*2. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası qanunu, 18 noyabr 1999-cu il.*

*3. "Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı, 11 aprel 2017-ci il.*

*4. Azərbaycan Respublikasında sənayenin qurulmasına dair 2015-2020-ci illər üzrə Dövlət Proqramı" 26 dekabr 2014-cü il.*

*5. Azərbaycan sənayesinin struktur problemləri: səbəbləri və həlli yollarına aid araşdırma sənədi. Bakı, 2021, 31 s.*

*6. A.F. Abbasov İqtisadi inkişafın müasir meyilləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər (Monoqrafiya), Bakı, 2024, 576 s.*

*7. X.Y.Quliyeva Ərzaq təhlükəsizliyinin təmin edilməsində aqrar əsaslı klasterlərin rolu // Agricultural Economics Kənd təsərrüfatının iqtisadiyyatı - Экономика сельского хозяйства - 2022, № 1 (39), 71-77 s.*

*8. S.N. Namazov, O.M. Vətənxah, M. H. Paşayeva, A.B. Hacıyev, Azərbaycanda aqrar klasterlərin formalaşdırılması üçün Avropa təcrübəsi. Proceedings, 2024 (1), 55-62 s.*

*9. E.Ə. İbrahimov. Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafının strateji istiqamətləri. Monoqrafiya. Bakı, 2023, 368 s.*

*10. H.A. Xəlilov, F.F. Fikrətzadə. Kənd təsərrüfatında dayanıqlı intensivləşdirmə: post-transformasiya reintensivləşdirmə şəraitində imkanlar // Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 3 (33), 7-26 s.*

*11. A.A. Qurbanzadə. Dayanıqlı ərzaq təminatının iqtisadi əsasları(Monoqrafiya), Bakı, 2013, 232 s.*

*12. Ялексеев С.Б., Тумаков Е.А. Механизм формирования и выбора стратегий конкурентной устойчивости предприятия // Научно-технические ведомости Санкт-Петербургского государственного Политехнического Университета. Экономические науки. 2017. №4. С. 9-18*

*13. Шаталова А.Н., Чеботарь А.В. Особенности формирования стратегии устойчивого развития предприятий пищевой промышленности // Научный журнал НИУ ИТМО. Серия Экономика и экологический менеджмент, 2020, №2, 65-73 s.*

*14. Michael E. Porter. Clusters and Economic Policy: Aligning Public Policy with the New Economics of Competition. Harvard Business School, ISC White Paper November 2007 Rev. 10/27/09. Harold (Hal) Wolman and Diana Hincapie. Clusters and Cluster-Based Development Policy. Economic Development Quarterly 2015, Vol. 29 (2) 135-149.*

*15. Toccaceli, D. Agricultural districts in the Italian regions: looking toward 2020. Agric Econ 3, 1 (2015). https://doi.org/10.1186/s40100-014-0019-9*

*16. Яшева, Г. А. Конкурентоспособность предприятий легкой промышленности: оценка и направления повышения / Г. А. Яшева, Н. Л.*

Прокофьева, В. В. Квасникова. Витебск: ВГТУ, 2003. 302 с.

**НОВРУЗ РАГИМОВ**
***Докторант Азербайджанского Университета Кооперации***
***E-mail: novruzrehimov@gmail.com***

## ЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ СТИМУЛИРОВАНИЯ ПРОИЗВОДИТЕЛЕЙ ПРОДУКТОВ ПИТАНИЯ

**Резюме**

Производство продуктов питания играет важную роль в удовлетворении спроса населения на продукты питания. Производители продуктов питания в большей степени зависят от деятельности предприятий сельского хозяйства и перерабатывающей промышленности. Стимулирование производства продуктов питания является объективной необходимостью. В связи с этим целью исследования является разработка предложений и рекомендаций, направленных на совершенствование экономического механизма стимулирования производителей продуктов питания с учетом глобальных вызовов.

**Ключевые слова:** *производители продуктов питания, пищевая промышленность, стимулирование производителей продуктов питания, субсидирование, система льготного кредитования, конкурентоспособная пищевая промышленность.*

**NOVRUZ RAHIMOV**
***PhD student of Azerbaijan Cooperation University***
***E-mail: novruzrehimov@gmail.com***

## ECONOMIC PROBLEMS OF STIMULATING FOOD PRODUCERS

**SUMMARY**

The production of food products plays an important role in meeting the population's demand for food products. Food producers are more dependent on the activities of agricultural and processing industry enterprises. Stimulation of food production is an objective necessity. In this regard, the purpose of the study is to develop proposals and recommendations aimed at improving the economic mechanism of stimulating food producers, taking into account global challenges.

**Keywords:** *food producers, food industry, stimulation of food producers, subsidization, preferential credit system, competitive food industry*

UOT: 338.364
DOI:10.30546/3006-0346.2024.4.82.71

# QEYRİ-NEFTQAZ SEKTORU SAHƏLƏRİNDƏ RƏQƏMSAL İQTİSADİYYAT MEXANİZMLƏRİNİN TƏTBİQİ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**EMİN MƏHƏRRƏMOV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
*E-mail: eminmag1999@gmail.com*

XX əsrin sonlarında informasiya-kommunikasiya məkanında inqilabla müşayiət olunan, həmçinin dünya iqtisadiyyatının qloballaşma proseslərinin sürətlənməsinə təsir göstərən, rəqəmsal texnologiyaların fəal şəkildə tətbiqinə əsaslanan rəqəmsal iqtisadiyyatın inkişaf mərhələsi formalaşmışdır. Rəqəmsallaşma bəşəriyyətin rəqəmsal xidmətlərə keçididir, bütün dünyada qlobal bir tendensiyadır. Demək olar ki, bütün dünya rəqəmsal transformasiyaya can atır. ABŞ-da bu istiqamət "Sənaye İnternet Konsorsiumu", Rusiyada "rəqəmsal iqtisadiyyat", Almaniyada "Sənaye 4.0" adlanır. Bunlar müxtəlif adlar altında istifadə olunsa da, faktiki olaraq eyni prosesi xarakterizə edir, əşyaların interneti Big Data, süni intellekt və s. kimi rəqəmsal texnologiyaların istifadəsi ilə iqtisadiyyatın transformasiyasına gətirib çıxarır.

ABŞ rəqəmsal iqtisadiyyat sahəsində uğur qazanmış ilk ölkələrdən biridir. ABŞ rəqəmsal iqtisadiyyat sahəsində dünya liderlərindən biridir, yüksək differensiallaşdırılmış rəqəmsal texnologiyalardan, elektron əməliyyatlardan və genişzolaqlı internetdən istifadə etməklə fəaliyyət göstərir. ABŞ-da 2009-cu ildə "Bulud Strategiyası" təsdiq edilmişdir ki, onun əsas məqsədi dövlət və özəl sektorlarda xərcləri azaltmaq və idarəetmənin səmərəliliyini artırmaq idi. 2015-ci ildən ölkədə Rəqəmsal İqtisadiyyat Gündəliyi adlı Dövlət Proqramı fəaliyyət göstərir. Onun reallaşdırılmasına cavabdeh olan aparıcı agentlik ABŞ Ticarət Departamentidir. ABŞ-nin innovasiyaları stimullaşdırmaq və rəqəmsal iqtisadiyyatı inkişaf etdirmək prioritetləri: informasiyanın sərbəst hərəkətinin təmin edilməsi; internetdə inklüziv və mərkəzləşdirilməmiş idarəetmənin təşkili; genişzolaqlı internetə qoşulma imkanlarının artırılması; əqli mülkiyyətin qorunması; kibertəhlükəsizliyin gücləndirilməsi; şəffaflıq və effektiv idarəetmə [1, s.221]. 2022-ci ildə ABŞ rəqəmsal rəqabətədavamlı ölkələr arasında ikinci yerdə qərarlaşıb (bax şəkil 1). Biznes, ünsiyyətdən əlavə, internet vasitəsilə bütün əməliyyatları həyata keçirmək, çıxarışlar almaq, vergiləri ödəmək və hesabat göndərmək imkanına malikdir.

2022-ci ildə Danimarka dünyanın ən rəqəmsal rəqabətədavamlı ölkəsi hesab olunmaqla birinci yerdə qərarlaşıb. Rəqəmsal rəqabətqabiliyyətlilik reytinqləri ölkənin rəqəmsal texnologiyaların tətbiqi və bu texnologiyaların müəssisələrdə və dövlət təşkilatlarında tətbiqi imkanlarının təhlilinə yönəlib [2, s.18].




**Şəkil 1. 2022-ci ildə dünyanın rəqəmsal rəqabətqabiliyyətlilik indeksi üzrə ilk onluqdakı ölkələr [3].**

Rəqəmsal iqtisadiyyat Sinqapur iqtisadiyyatının əhəmiyyətli hissəsini təşkil edir və 10 əsas sektorla təmsil olunur. Sinqapurun rəqəmsal iqtisadiyyatının fəaliyyətini və inkişafını təmin edən və bu sahədə lider mövqeyini qoruyan mühüm aspekt ölkənin rəqəmsal iqtisadiyyatda bir növ informasiya qovşağı rolunu oynamağa imkan verən bütün Cənub-Şərqi Asiya regionunda transsərhəd informasiya axınlarının dəstəklənməsində fəal iştirakıdır. Sinqapur modeli əsasən rəqəmsal xidmətlər sektorunun aktiv inkişafına əsaslanır - demək olar ki, bütün dövlət xidmətləri əhaliyə onlayn rejimdə təqdim olunur, bunun üçün vətəndaşların unikal rəqəmsal identifikasiyası - SingPass istifadə olunur, məlumatın təhlükəsizliyi iki səviyyəli yoxlama ilə təmin edilir. Mobil proqramlar könüllüləri təcili yardıma ehtiyacı olan insanların olduğu yerlərə yönəldir və şübhəli obyektlər barədə polisi xəbərdar etməyə kömək edir. Dövlət aztəminatlı və ahıl insanlara pulsuz internetlə təminat verməklə də dəstək göstərir. Sinqapur rəqəmsal texnologiyanı hər evə və biznesə gətirən rəqəmsal infrastrukturun inkişafında mühüm irə-

liləyiş əldə edib. Son illər Sinqapurda rəqəmsal infrastrukturun inkişafına 4G fiber-optik şəbəkələrin tətbiqi böyük köməklik göstərib, bunun sayəsində informasiyanın ötürülmə sürəti görünməmiş şəkildə artıb. Qismən sürətli internet hesabına Sinqapurda ev təsərrüfatları da fəaliyyətlərini tədricən rəqəmsal məkana keçirirlər. Xüsusilə, onlayn alış-veriş və onlayn maliyyə əməliyyatları ilə məşğul olan ev təsərrüfatlarının payı xeyli artıb. İstehsal sektorunda Sinqapur şirkətləri rəqəmsal aktivlərə investisiyalarını artırırlar ki, bu da onların rəqəmsal imkanlarını genişləndirir. Rəqəmsal aktivlərə investisiyalarla paralel olaraq, Sinqapur şirkətləri gündəlik iş fəaliyyətlərində rəqəmsal alətlərdən getdikcə daha çox istifadə edirlər [4, s.347]. Rəqəmsal iqtisadiyyatda əsas təhlükəsizlik məsələləri arasında yeni təhdidlərin biznesə, bütövlükdə iqtisadiyyata və daha geniş mənada ictimai həyata təsiri var: 1) kibercinayətkarlığın artması; 2) bütün səviyyələrdə rəqəmsal infrastrukturun texnoloji zəifliyi; 3) rəqəmsal texnologiyalardan bu və ya digər dərəcədə istifadə edən bütün sənaye sahələrinin bir neçə transmilli oyunçudan artan texnoloji asılılığı [5, s.59].

Rəqəmsal iqtisadiyyatın inkişafında aparıcı ölkələrdən biri də Çindir. Bu baxımdan biz bu ölkənin təcrübəsinin daha ətraflı öyrənilməsini zəruri hesab edirik. Çin nəinki nəhəng insan resurslarına, habelə böyük həcmdə maliyyə resurslarına malik ölkədir. Çin rəqəmsal iqtisadiyyatın planlı inkişaf yolu strategiyasını seçmişdir və bu strategiya aşağıdakı komponentləri əhatə edir: 1. Logistika və istehsalın qlobal rəqəmsallaşması. 2. Normativ hüquqi bazanın hazırlanması. 3. Rəqəmsal platformaların yaradılması, idarəetmə sistemlərinin rəqəmsallaşdırılması. 4. Rəqəmsal platformaların və ekosistemlərin vahid məkana inteqrasiyası. Çin hazırda rəqəmsal iqtisadiyyatın inkişaf səviyyəsinə görə dünyada önəmli yerlərdən birini tutur və ən böyük istehsal bazasına malik olmaqla, rəqəmsal sahədə elmi və texnoloji nailiyyətlərin tətbiqi və təcrübədə istifadəsi üçün böyük potensiala malikdir. Habelə, Çin yüksək texnologiyaların və bütövlükdə rəqəmsal iqtisadiyyatın inkişafı baxımından artım dövrünü yaşayır.

Çin bütün əyalətlərində rəqəmsal texnologiyaları fəal şəkildə təşviq edir. Son 10 il ərzində hər bir regionda rəqəmsal iqtisadiyyatın davamlı və səmərəli inkişafını təşviq etməyə yönəlmiş tamamilə yeni siyasətlər tətbiq olunur. Ümumilikdə, 2015-ci ildən etibarən Çinin müxtəlif əyalətlərində rəqəmsal iqtisadiyyatın inkişafını tənzimləyən 40-dan çox proqram xarakterli sənədlər hazırlanmışdır. Bu əyalətlər artıq rəqəmsal layihələrin reallaşdırılmasına maliyyə dəstəyi göstərir və ölkənin iqtisadi inkişafı üçün rəqəmsallaşma proseslərinə diqqəti artırırlar. Qəbul edilmiş həmin sənədlərdə bu sahə ilə bağlı ən çoxu Fujian Əyalət Hökuməti tərəfindən hazırlanmışdır. Digər əyalətlər bu məsələyə yalnız 2018-2019-cu illərdə diqqət yetirməyə başlasalar da, Fujiandakı ilk sənəd artıq 2015-ci ildə dərc edilib, əsasən rəqəmsal infrastrukturun qurulması, əyalət hökumətləri arasında məlumat mübadiləsi və rəqəmsal iqtisadiyyatın davamlı inkişafı və böyüməsini təşviq etmək üçün informasiya resurslarının inkişafı və istifadəsini nəzərdə tutur [6, s.45]. Beləliklə, Çin rəqəmsal iqtisadiyyat hesabına inkişafa can atır, çünki rəqəmsal texnologiyalar təkcə real iqtisadiyyatda əməliyyat xərclərini əhəmiyyətli dərəcədə azaltmır, habelə əmək bölgüsünü, eləcə də istehsalın koordinasiyasını stimullaşdırır. Biznes, hökumət və texnologiya getdikcə daha çox çarpaz inteqrasiya tendensiyası nümayiş etdirir ki, bu da rəqəmsallaşmanın sürətlənməsinə kömək edir [7, s.136].

Son illər Çində sosial xidmətlər sahəsində rəqəmsal transformasiyanın sürətlənməsi müşahidə olunur. Bu gün Çində internet və sosial xidmət sisteminin inteqrasiyası böyük ölçüdə dərinləşmiş və müxtəlif sosial dairələrdə geniş diqqəti cəlb etmişdir. Dövlət idarələri tərəfindən bu sahədə bir sıra iri layihələrin yüksək keyfiyyətlə reallaşdırılması sayəsində əsas sosial xidmət növlərinin rəqəmsal transformasiyası davamlı olaraq inkişaf edir. Məlumdur ki, Çinin iqtisadiyyatına COVID-19 pandemiyası böyük təsir göstərmişdir. Turizm, iaşə və nəqliyyat kimi ənənəvi sənayelər tənəzzülə uğramış və emal sənaye müəssisələrinin fəaliyyətinin dayandırılması idxal və ixracda xeyli dərəcədə qeyri-müəyyənlik yaradıb. Lakin bunlara baxmayaraq rəqəmsal iqtisadiyyat belə şəraitdə dayanıqlılıq nümayiş etdirmiş və ölkə iqtisadiyyatını sabitləşdirmək üçün yeni gücə çevrilmişdir. Çin milli inteqrasiya olunmuş hökumət platformalarını və rəqəmsal idarəetmə imkanlarını genişləndirir [8, s.130-131].

Yaponiya rəqəmsal iqtisadiyyatın inkişafı ilə bağlı öz strategiyalarını reallaşdırır və ölkədə rəqəmsallaşma ilə əlaqəli belə strategiya "Cəmiyyət 5.0" adlanır. Bu cəmiyyət hiperkosmosun yüksək texnologiyalı inteqrasiyasına əsaslanan konsepsiyaya əsaslanır. "Cəmiyyət 5.0" böyük məlumat texno-

logiyalarından, əşyaların internetindən və kiber-fiziki texnologiyalardan gündəlik istifadə ilə super intellektli cəmiyyətin yaradılmasını nəzərdə tutur. Bu, bütün insanlar üçün bərabər imkanlar və onların hər birinin potensialının reallaşdırılmasını təmin etməlidir. "Cəmiyyət 5.0"-in əsas məqsədi hər kəsin özünü rahat hiss edəcəyi bir qrup yaratmaqdır. Cəmiyyət üçün ən vacib cəhət həm də hər kəs üçün bərabər imkanların yaradılması, eyni zamanda istənilən insanın potensialının reallaşması üçün şəraitin yaradılmasıdır [9, s.222]. "Cəmiyyət 5.0" strategiyası özünü informasiya texnologiyalarının tətbiqi üçün ən humanist və həyat qabiliyyətli sistem kimi göstərir, çünki bu strategiya həm qabaqcıl rəqəmsal texnologiyaların tətbiqini, həm də işçilərin daimi təlimini və onlarla işləyərkən səriştələrinin artırılmasını nəzərdə tutur. Pandemiya zamanı bu strategiya COVID-19-a yoluxma şansını, uzaqdan işləyən işçilərin problemlərini, həmçinin yaşlı insanlar arasında rəqəmsal cihazlarla işləyərkən yaranan stressi azalda bilmişdir [10, s.78].

Rəqəmsal iqtisadiyyatın inkişafı sahəsində Böyük Britaniya təcrübəsinin tədqiqi də önəmlidir. Böyük Britaniyada 2000-ci ildən etibarən internet rabitəsindən istifadə edən əhalinin xüsusi çəkisi sürətlə artır. Rəqəmsal iqtisadiyyat üçün infrastruktur bazanın olması və onun inkişafının stimullaşdırılmasından gözlənilən faydalar Böyük Britaniyanın proqram sənədlərində öz əksini tapıb. Böyük Britaniyanın rəqəmsal inkişaf strategiyası ölkənin qlobal kiberməkanın formalaşmasında dünya lideri olmaq istəyini ortaya qoyur [11, s.134]. Hazırda Böyük Britaniyada rəqəmsal iqtisadiyyatın təhlükəsiz inkişafının yaradılmasına, kibertəhlükələrin qarşısının alınmasına və ən dinamik inkişaf edənlərdən biri kimi İT sənayesinin inkişafına dəstək verməyə yönəlmiş tənzimləmələr sistemi mövcuddur. Hökumətin tənzimləmə sistemi Böyük Britaniyanın Milli Kibertəhlükəsizlik, Rəqəmsal İqtisadiyyat, Elm və Texnologiya sahəsində Müvəqqəti Kibertəhlükəsizlik və Gələcəyin keçilməz informasiya təhlükəsizliyi Strategiyalarını hazırlayıb. Böyük Britaniya Milli Kibertəhlükəsizlik Mərkəzi yaradılıb və uğurla fəaliyyət göstərir.

2030-cu ilə qədər Almaniya tamamilə "internetləşdirilmiş istehsala" keçməyi planlaşdırır, texnologiyaya illik investisiyaları 40 milyard avroya qədər artırmağı nəzərdə tutur. Ölkədə parlament yanında rəqəmsal cəmiyyətin tənzimlənməsinin əsas prinsiplərinin formalaşdırılmasına cavabdeh olan və əsas nazirliklərin nümayəndələrindən ibarət komitə yaradılıb. Komitə öz fəaliyyətində İqtisadiyyat və Energetika Nazirliyinin digər dövlət nazirlikləri ilə birgə hazırladığı "Rəqəmsal Gündəlik" proqram sənədinə əsaslanır. Habelə, Federal Nəqliyyat və Rəqəmsal İnfrastruktur Nazirliyi ölkənin rəqəmsal inkişafını təmin edən infrastrukturun inkişafına cavabdehdir.

Türkiyədə rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsi ölkənin qarşısında duran prioritet vəzifələrdəndir. Türkiyəni dünyanın 10 ən yaxşı qlobal iqtisadiyyatdan birinə çevirmək məqsədilə ölkədə bir çox sahələrdə, o cümlədən, səhiyyə, texnologiya, enerji, nəqliyyat və digər sahələrdə rəqəmsal infrastruktur layihələri hazırlanmış və reallaşdırılmışdır. Məsələn, 2016-cı ilin aprel ayında ölkədə 3G texnologiyasından 10 dəfədən artıq sürətli olan 4,5 G və daha sonra isə 5G texnologiyasına keçid istiqamətində görülən tədbirləri, 2021-ci ilin II rübündə "Türksat 5G"-nin, Milli Nəqliyyat, E-Hökumət və digər portalların istifadəyə verilməsini buna nümunə göstərmək olar [12, s.66].

Səudiyyə Ərəbistanında hökumətin rəqəmsallaşdırılmasının inkişafı 2030-cu ilə qədər Milli İnkişaf Strategiyasının məqsədlərinə daxildir. Bu gün ölkədə artıq əsas alətlər: dövlət xidmətləri sahəsində onlayn xidmətlər, elektron satınalmalar, onlayn təhsil və onlayn tibb, elektron əmək birjası, milli ödəniş sistemi tətbiq edilib. Səudiyyə Ərəbistanında bir sıra dövlət qurumlarının əməkdaşlığı nəticəsində 2005-ci ildə kralın fərmanı ilə dövlətin rəqəmsallaşdırılması proqramı (Elektron Hökumət Proqramı - Yesser) qəbul edilib. Proqramın reallaşdırılması üçün Rabitə Nazirliyi, Maliyyə Nazirliyi və aidiyyəti komissiya və qurumların rəhbər şəxslərindən ibarət öz idarəetmə və nəzarət komitələrinə malik "Yesser" ixtisaslaşmış təşkilati bölmə yaradılmışdır. "Yesser" proqramının rəhbərliyi ekspert icması ilə birlikdə əsas məqsədləri müəyyən edən rəqəmsal dövlətin inkişafı üzrə ümumi plan hazırlayıb. Həmin planı reallaşdırmaq məqsədilə krallığın dövlət idarələrinin hər biri bu departament daxilində fəaliyyətlərin təfərrüatlarına cavabdeh olan öz rəqəmsallaşdırma komitəsini yaratmışdır. Rəqəmsal iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi üzrə müxtəlif ölkələrin təcrübəsi göstərir ki, müəyyən şəraitdə müəyyən şəkildə nəticə verən tədbirlərin görülməsi faydalı ola bilər. Hesab edirik ki, ölkədə rəqəmsal inkişaf proqramları hazırlanarkən və reallaşdırılarkən qabaqcıl

təcrübəni nəzərə almaq və tətbiq etmək lazımdır. Tədqiq etdiyimiz ölkələrin təcrübəsindən görünür ki, rəqəmsal iqtisadiyyatın formalaşmasında və inkişafının stimullaşdırılmasında dövlət həlledici rol oynayır. Bu, rəqəmsal hökumət, dövlət-özəl əməkdaşlıq, istehlakçılara rəqəmsal dövlət xidmətlərinin göstərilməsi, innovativ şirkətlərə ünvanlı dövlət dəstəyinin göstərilməsi və dövlət satınalmalarının prioritetlərində özünü büruzə verir.

## YEKUN

Beləliklə, bir sıra aparıcı ölkələrin təcrübəsini götürsək, o zaman rəqəmsal iqtisadiyyatın inkişafı üzrə bir sıra tədbirlər reallaşdırmaq lazımdır:

- mobil və stasionar genişzolaqlı rabitə sistemlərini ölkə daxilində yaymaqla ölkənin istənilən yerindən olan istifadəçilər üçün bərabər çıxış imkanları yaratmaq;
- bələdiyyə və dövlət xidmətlərinin elektron formatda göstərilməsini tam şəkildə reallaşdırmaq;
- rəqəmsal infrastrukturdan istifadə sahəsində səriştələrə yiyələnmək üçün vətəndaşların sistemli hazırlanmasını və yenidən hazırlanmasını təşkil etmək;
- səlahiyyətlərinə kibertəhlükəsizliyin təmin edilməsi də daxil olacaq vahid orqan yaratmaq;
- kibercinayətkarlığa qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsini davam etdirmək, kibercinayətkarlıqla mübarizə haqqında vahid qanunun hazırlanması və qəbulunu təmin etmək;
- peşəkar və rəsmi məlumatların ölkələrarası mübadiləsinin genişləndirilməsinə təşəbbüs göstərmək;
- rəqəmsal infrastrukturun, o cümlədən süni intellektin tətbiqinin inkişafını təmin etmək.

Bu tədbirlər iqtisadiyyatın rəqəmsallaşma səviyyəsini yüksəldəcək, rəqəmsal mühitdə münasibətlərin iştirakçılarının fəaliyyətinin tənzimlənməsini təkmilləşdirəcək və hər kəs üçün "rəqəmsal üstünlüklərə" bərabər çıxışı təmin edəcək. Lakin bu fəaliyyətlərin reallaşdırılması maliyyə resursları və nisbətən uzun müddət tələb edir və s.

**Açar sözlər:** *rəqəmsal iqtisadiyyat, qeyri-neft-qaz sektoru, beynəlxalq təcrübə, dünya ölkələrində rəqəmsal iqtisadiyyat, qeyri-neftqaz sektorunda rəqəmsallaşma, rəqəmsal mexanizmlərin tətbiqi problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. Джелилова, Л.Д. Развитие цифровой экономики в зарубежных странах / Л. Д. Джелилова, У.А. Кириллова // Национальные экономические системы в контексте трансформации глобального экономического пространства: Сборник научных трудов/ Под общей редакцией З.О. Адамановой. – Симферополь: Общество с ограниченной ответственностью «Издательство Типография «Ариал», 2023. – С. 220-223.

2. Пьянкова, С.Г. Цифровизация экономики: российский и зарубежный опыт / С.Г. Пьянкова, О.Т. Ергунова, И.А. Митрофанова// Региональная экономика. Юг России. – 2018. – № 3. – С. 16-25

3. IMD World Digital Competitiveness Ranking 2022. https://imd.cld.bz/Digital-Ranking-2022/28/.

4. Ставропольский, Ю.В. Цифровая экономика Сингапура / Ю. В. Ставропольский, А.Э. Муталимов // Социальная реальность виртуального пространства: материалы I Международной научно-практической конференции, Иркутск, 20–23 сентября 2019. – С. 345-347.

5. Цверианашвили, И.А. Особенности развития цифровой экономики Сингапура / И.А. Цверианашвили // Вестник Коми республиканской академии государственной службы и управления. Теория и практика управления. – 2021. – № 2(32). – С. 57-61.

6. Романова, Е.А. Цифровая экономика: опыт развития в Китае / Е.А. Романова // Контентус. – 2021. – № 2(103). – С. 39-47.

7. Мэн, Ц. Цифровизация экономики Китая: состояние, перспективы / Ц. Мэн // Вестник Белорусского государственного экономического университета. – 2023. – № 3(158). – С. 130-138.

8. Hacıyeva A.F. Rəqəmsal iqtisadiyyatın inkişaf etmiş ölkələr arasında müqayisəsi. Gəncə: ADAU-nun Elmi əsərləri, 2024, s.129-134.

9. Скапенко, В.М. Цифровизация Японии: актуальные тенденции и перспективы развития / В.М. Скапенко, В.Д. Филиппова, С.В. Грицунова // Юность и знания - гарантия успеха - 2019. – С. 221-225.

10. Литвинова, Л.В. Цифровизация экономики в современной Японии / Л. В. Литвинова, М.А. Кузнецов, Е.С. Наумова // Международный журнал гуманитарных и естественных наук. – 2022. – № 4-4(67). – С. 77-80.

11. Волков, К.А. Опыт построения цифровой

экономики в США и Великобритании / К.А. Волков // Риск: Ресурсы, Информация, Снабжение, Конкуренция. – 2019. – № 1. – С. 132-135

12. Qasımlı V., Talıbova M., Quliyeva G., Müseyibov A., Mirzəyev F., Qədəşov A., Əhmədova G. Rəqəmsal iqtisadiyyat. Bakı: ”Azprint”nəşriyyatı, 2023, 262 s.

**РЕЗЮМЕ**

**Международный опыт по применению механизмов цифровой экономики в сферах ненефтегазового сектора**

В статье рассматривается международный опыт по применению механизмов цифровой экономики в сферах ненефтегазового сектора в нынешних условиях. Изучен и обобщен опыт ряда стран мира в сфере эффективной организации и развития цифровой экономики. Рассмотрен передовой опыт ряда стран по применению механизмов цифровой экономики в разных отраслях ненефтегазовых секторов. Обоснована необходимость и важность активизации применения цифровых механизмов и инструментов в разных сферах экономики с учетом современных технологий. Подготовлен ряд рекомендаций и даны предложения по перспективам применения механизмов цифровой экономики в ненефтегазовом секторе Азербайджана.

**Ключевые слова:** *цифровая экономика, ненефтегазовый сектор, международный опыт, цифровая экономика в странах мира, цифровизация ненефтегазового сектора, проблемы применения цифровых механизмов.*

**SUMMARY**

**International experience in the application of digital economy mechanisms in the non-oil-gas sectors**

International experience in the application of digital economy mechanisms in the non-oil and gas sector in the current conditions is given in the article. The experience of a number of countries in the sphere of effective organization and development of digital economy is studied. The best practices of a number of countries in the application of digital economy mechanisms in different branches of non-oil-gas sectors are considered. The necessity and importance of intensifying the application of digital mechanisms and tools in different spheres of the economy taking into account modern technologies is substantiated. A number of recommendations and proposals on the prospects of application of digital economy mechanisms in the non-oil-gas sector of Azerbaijan are prepared.

**Key words:** *digital economy, non-oil-gas sector, international experience, digital economy in the countries of the world, digitalization of the non-oil and gas sector, problems with application of digital mechanisms.*

UOT: 338.012:339.13.012.42
DOI:10.30546/3006-0346.2024.4.82.74

# AZƏRBAYCANIN MİLLİ ENERJİ SEKTORUNDA LİBERAL BAZAR MODELİNİN FORMALAŞDIRILMASI PERSPEKTİVLƏRİ

NİCAT ƏBDÜRƏHMANOV
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*
*E-mail: nicatabd@gmail.com*

Qeyd edək ki, enerji sektoru istənilən ölkənin iqtisadiyyatında əsas rol oynayır, müxtəlif sənaye sahələrini, nəqliyyat sistemini, vətəndaşların gündəlik tələbatını enerji ilə təmin edir. Enerji sektoru bütün sahələrin əlverişli fəaliyyətinin təmin edilməsində, sosial sferanın fəaliyyətinin keyfiyyətinin və əhalinin həyat şəraitinin yüksəldilməsində önəmli rol oynayır. Dövlətin inkişaf səviyyəsi və tempi onun imkanlarından xeyli dərəcədə asılıdır. Enerji sektoru öz fəaliyyəti dövründə iqtisadiyyatın çoxsaylı sahələri ilə qarşılıqlı əlaqədə olur və onların bəziləri ilə rəqabət aparır.

Bunlarla bərabər, enerji problemləri əsasən müxtəlif dövlətlərin, beynəlxalq təşkilatların iqtisadi və siyasi maraqlarını formalaşdırır, mövcud müasir dünya iqtisadi düzəninin məzmunu, siyasi sabitliyin əldə edilməsi və beynəlxalq təhlükəsizliklə bağlı müzakirələrin və fikir ayrılıqlarının məzmununu müəyyənləşdirir. Dövlət sərhədləri daxilində mövcud olan və inkişaf edən enerji sektoru müəyyən resursları istehlak edən, sənaye, məişət və digər istehlakçılar tərəfindən istehlak edilən istilik və elektrik enerjisini istehsal edən bir kompleksdir. Beləliklə, enerji innovativ inkişafın amilinə çevrilir, xüsusən də istilik və elektrik enerjisinin yeni texnoloji generasiyasının formalaşmasına, elektrik enerjisinin enerji səmərəliliyinin artırılmasına səbəb olur. Həmçinin elektrik enerjisi sənayesində iqtisadiyyat çərçivəsində elektrik enerjisinin pərakəndə satışının təşkili məsələsinə baxılır. Buraya istehlak edilmiş elektrik enerjisinin hesablanması, istehlakın sayğaclaşdırılması və ödənişi, eləcə də istehlakçılara enerji istehlakından səmərəli istifadə etməyə və ona nəzarət etməyə imkan verən innovativ texnologiyaların hazırlanması və tətbiqi kimi aspektlər daxildir [1, s.52]. O, ölkənin enerji təhlükəsizliyini təmin etmək, təchizat mənbələrini və marşrutlarını şaxələndirmək, enerji infrastrukturunun etibarlılığını təmin etmək üçün strateji planlar hazırlayır. Dövlətin enerji sektorunun inkişafında oynadığı rola baxmayaraq, bu sektorda liberal bazar modelinin formalaşdırılması ilə bağlı problemlər mövcuddur [2, s.175].

Enerji sektorunda liberal bazar münasibətlərinin formalaşma tarixini bu sənayedə qiymətqoyma prosesinin tarixi kimi qəbul etmək olar. Belə ki, müxtəlif ölkələrdə bu tarix enerji sektorunun yaradılması, onun dövlət idarəçiliyi ilə bağlı müvafiq strukturun formalaşması, daha sonra isə qismən liberallaşma ilə xarakterizə olunur. Məsələn, bəzi ölkələrdə elektrik enerjisi istehsalı, ümumiyyətlə, dövlət inhisarında deyildi. Sonralar elektrik enerjisinin əhəmiyyətinin və ona olan tələbatın kəskin artmasını görən ölkələr həmin sektoru tam nəzarətə götürmək qərarını verdilər. Özəl idarəetmədən təbii inhisara və yenidən özəl idarəetməyə keçid elektrik enerjisi sektorunun idarə edilməsinin qısa tarixidir. Bu tarixlə sinxron olaraq qiymətlərin müəyyənləşdirilməsi mexanizmləri və üsulları da dəyişdi. Məsələn, Böyük Britaniyada elektrik şəbəkəsi 1881-ci ildə yaradılmış və məhdud sayda ev təsərrüfatlarını elektrik enerjisi ilə təmin etmişdir. O vaxt vahid elektrik şəbəkəsi yox idi və ilk belə şəbəkə yalnız 1926-cı ildə dövlət idarəsi kimi yaradıldı. Bu idarə dövlət elektrik şəbəkəsinin yaradılması, elektrik enerjisinin paylanması və ötürülməsi və vahid texnoloji standartların müəyyənləşdirilməsinə cavabdeh idi. Bu sektor II Dünya müharibəsindən sonra tamamilə dövlətin nəzarətində idi. 1990-cı illərdən başlayaraq Böyük Britaniyanın elektrik enerjisi sektorunda şaquli inteqrasiyanın ləğvinə başlanıldı. Həmin sektorun istehsal mərhələsi özəlləşdirilməyə və istehsal olunan elektrik enerjisinin mərkəzləşdirilmiş hərraclarda satışına başlanıldı. Belə hərracda məhsulun alınması və istehlakçılara çatdırılması funksiyalarını ölkənin müxtəlif regionlardakı şirkətlər reallaşdırıb. Yalnız dövlət nəzarətində qalan mərhələ istehsal və paylama mərhələləri arasındakı ən önəmli mərhələ olan elektrik enerjisinin ötürülməsi mərhələsi dövlət nəzarətində qaldı [3, s.75].

Norveçdə elektrik enerjisi sektorunun liberallaşmanın ən yüksək səviyyəsinə həmin sənayedə islahatlar aparılarkən nail olunub. Amma bu sektorun liberallaşdırılması proqramı hazırlanarkən özəlləşdirmə məsələlərinə belə baxılmayıb. ABŞ-da sənaye, demək olar ki, tamamilə özəlləşdirilib və şirkətlərin fəaliyyətinin tənzimlənməsi dövlət səviyyəsində re-

allaşdırılır. Buna baxmayaraq, bir çox ştatlarda tamhüquqlu liberal bazar yaradılmayıb. Aİ ölkələrinin əksəriyyətində elektrik enerjisi sektoru ya dövlət (İtaliya, İrlandiya, Yunanıstan, Fransa, Danimarka) və ya qarışıq mülkiyyət (Almaniya, Portuqaliya, Avstriya, Hollandiya, Finlandiya, İsveç) əsasında fəaliyyət göstərir. Böyük Britaniya, Belçika və İspaniyada isə elektrik enerjisi sektoru özəlləşdirilib. Əksər ölkələr islahatlar apararkən Norveçin maksimum liberallaşma təcrübəsini rəhbər tuturlar.

İnkişaf etmiş ölkələrdə enerji sektorunun liberallaşdırılması prosesi ən çox onların iqtisadiyyatlarının ümumi tənzimlənməsi fonunda baş verir və enerji şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəliliyinin artırılması zərurəti ilə əlaqələndirilir. Bir çox inkişaf etməkdə olan ölkələrdə elektroenergetika sənayesinin islahatı sənayenin özünün səmərəli inkişafını təmin etməklə deyil, bütün milli iqtisadiyyatın səmərəliliyini artırmaq ehtiyacı ilə əlaqələndirilir.

Azərbaycanın enerji sektoruna gəlincə, həmin sektor əvvəllər Çar Rusiyasının, 1920-1991-ci illərdə isə keçmiş SSRİ-nin elektroenergetika sənayesinin tərkib hissəsi olub. Keçmiş SSRİ dövründə digər sənaye sahələrində olduğu kimi, elektrik enerjisi sənayesi də tam şəkildə milliləşdirilmişdir. Azərbaycan müstəqil respublika olduqdan sonra da bu sektor, demək olar dövlət nəzarətindədir, həmin sahə məhsullarının qiymətləri dövlət tərəfindən tənzimlənir.

Hazırda Azərbaycan özünün enerji sektorunu liberal bazar modeli əsasında qurmaq üçün beynəlxalq təcrübəni mənimsəməyə çalışır. Rəqabətə əsaslanan liberal bazar modelinin Azərbaycanın enerji sektorunda tətbiqi üzrə beynəlxalq təcrübənin öyrənilməsi, bu sahədə islahatların aparılması məqsədilə ölkəmizin Energetika Nazirliyi bəzi ölkələrin müvafiq strukturları və ekspertləri ilə görüşlər keçirir. Həmin görüşlərdə Avropa, Cənubi Amerika, Mərkəzi Asiya və digər regionlardan olan ölkələrin enerji sektorunda aparılan islahatlar, bərpa olunan enerji mənbələrinin liberallaşdırılmış bazarlarda payının genişləndirilməsi, həmin sektorun inkişafına özəl investorların cəlb edilməsi üzrə beynəlxalq təcrübələrə dair nümunələrə baxış keçirilib [4].

Hazırkı mərhələdə Azərbaycanda enerji sektorunun liberallaşdırılması zərurəti əsas etibarı ilə bunlarla izah oluna bilər: 1) topdan və pərakəndə satış bazarlarının yaradılması, rəqabətin stimullaşdırılması; 2) enerji şəbəkələrə çıxışın genişləndirilməsi; 3) enerji sektorunun effektiv idarəetmə mexanizminin yaradılması və s. Digər tərəfdən, 2019-cu ilin əvvəlində ölkə Prezidenti İ.Əliyev tərəfindən enerji sektorunda islahatların sürətləndirilməsi ilə bağlı müvafiq Sərəncam imzalanıb. Bu Sərəncamla Azərbaycanda energetika sektorunun uzunmüddətli inkişafını nəzərdə tutan strategiya layihəsi təsdiq edilmiş, həmin strategiyada elektrik enerjisi sektorunda rəqabətə əsaslanan liberal bazar modelinə mərhələli şəkildə keçid, o cümlədən enerji səmərəliliyinin artırılması, bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi, bu sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi kimi məsələlərin həlli ilə bağlı təkliflər yer alıb [5].

Azərbaycanda enerji sektorunun liberal bazar modeli əsasında formalaşdırılmasında digər bir strateji əhəmiyyətli sənəd ölkənin 2022-2026-cı il üzrə sosial-iqtisadi inkişafını nəzərdə tutan və 2022-ci ilin 22 iyul tarixində ölkə Prezidenti tərəfindən təsdiq edilən strategiyadır. Həmin strategiyada əsas fəaliyyət istiqamətlərindən biri məhz enerji sektorunun liberallaşdırılması ilə bağlıdır ki, burada əsas məqsəd həmin sektorun liberal bazar prinsipləri əsasında inkişaf etdirilməsidir [6]. Enerji sektorunda liberal bazar modelinin formalaşdırılması enerji səmərəliliyinin artırılmasına təsir göstərə bilər. Enerji sektorunun liberallaşdırılması bazar mexanizmlərindən və güclərindən daha çox istifadə etməyə yönəlmiş ümumi istiqamətləndirmə siyasətinin tərkib hissəsidir. Bura hökumətin müdaxiləsinin azaldılması və səmərəli bazar strukturlarının yaradılmasına diqqətin artırılması daxildir. Bu, enerji səmərəliliyi siyasətlərinə və alətlərin seçiminə yenidən baxılmasını tələb edir.

Enerji səmərəli texnologiyaları və metodları tətbiq etməklə müəssisələr öz əməliyyatlarını optimallaşdıra, tullantıları və karbon qazı emissiyalarını azalda bilərlər. Bu, onların enerji xərclərini azaltmaqla yanaşı, bazarda rəqabət qabiliyyətini də artırır. Binaların, sənaye avadanlıqlarının modernləşdirilməsi və bərpa olunan enerji sistemlərinin tətbiqi ixtisaslı işçi qüvvəsi tələb edir ki, bu da əhali üçün məşğulluq imkanları yaradır. Enerji səmərəliliyi ilə idarə olunan yaşıl iqtisadiyyatın genişləndirilməsi tikinti, istehsal və mühəndislik kimi müxtəlif sektorlarda iş yerləri təmin edə bilər [7, s.291].

Müasir dövrdə Azərbaycanda enerji sektorunda tənzimlənən qiymətlərdən istifadə olunur. Tənzimlənən qiymətlərdən liberal bazar qiymətinə keçid olarsa, bunun nəticəsi qiymət artımına və istehlakçı profisitinin azalmasına gətirib çıxaracaq. Odur ki,

enerji sektorunun özəlləşdirilərkən bununla paralel olaraq az gəlirli ev təsərrüfatlarının və əhalinin sosial həsas qruplarının qiymət artımı səbəbindən üzləşə biləcəkləri itkilərin ödənilməsi siyasəti reallaşdırılmalıdır [8, s.17-18]. Eyni zamanda, enerji sektorunun bəzi hissələrinin özəlləşdirilməsi buraya özəl investisiyaların cəlb olunmasına kömək edə bilər.

Müxtəlif ölkələrin təcrübəsindən enerji sektorunun fəaliyyətinin düşünülmüş şəkildə liberallaşdırılmasının bu sektora investisiya axınına səbəb ola biləcəyini görmək olar. Enerji sektoruna investisiyaların cəlb edilməsi mexanizmləri bir çox subyektiv və obyektiv amillərdən asılıdır. Bu amillər içərisində əsas rolu elektrik enerjisi qiymətlərinin səviyyəsi və proqnozu oynayır. Enerji sektorunda münasibətlərin liberallaşdırılması istehlakçılar və investorlar arasında riskləri bölüşdürməyə və qəbul edilmiş investisiya qərarlarının keyfiyyətini yüksəltməyə imkan verir [9, s.73]. Enerji sektorunun liberallaşdırılması prosesləri onun ölkənin sosial-iqtisadi inkişafının əsas göstəricilərinə təsir edir. İstehlak tələbinin strukturunda dəyişikliklər baş verir, istehsalın aşağı səmərəliliyi və nəticədə məhsulların rəqabət qabiliyyətinin azalması baş verir [10, s.27].

Son dövrlərdə Azərbaycanın enerji sektoru ölkənin əsas makroiqtisadi göstəricilərindən biri olan ÜDM-ə də təsir göstərir ki, bunu da görmək üçün ilk öncə, həmin sektordan əldə edilən gəlirlərin dinamikasına diqqət yetirək (şəkil 1).




**Şəkil 1. Azərbaycanın energetika sektorunda istehsal olunan məhsulların həcmi, %-lə (Mənbə: ARDSK).**

Şəkil 1-dən yanaşsaq, ölkənin energetika sektorunda istehsal olunan məhsulun həcmində demək olar ki, tədqiq olunan dövlərin bir çoxunda özündən əvvəlki dövrlərlə müqayisədə artım müşahidə olunub. Yalnız 2019 və 2020-ci illərdə həmin sektor üzrə özündən əvvəlki illərlə müqayisədə azalma olub. 2022-ci ildə energetika sektorunda istehsal həcmi daha çox olub ki, bu da 2015-ci ilə görə 3 dəfə, 2020-ci ilə görə 2.5 dəfə, 2021-ci ilə görə isə 30% çoxdur [11]. Bu artım ölkənin ÜDM-in həcmində də özünü göstərib. 2022-ci ildə ölkənin ÜDMİ-in 133972,7 milyon AZN olub ki, bunun da 71657 milyon AZN-i və ya 53,5%-i energetika sektorunda daxilolmaların payına düşür (bax: şəkil 2).




**Şəkil 2. Azərbaycanın energetika sektorunda istehsal olunan məhsulların həcminin ÜDM-də xüsusi çəkisi, %-lə (Mənbə: ARDSK).**

Müasir şəraitdə enerji sektoru Azərbaycanın iqtisadi sisteminin fundamental əsaslarından biri olaraq qalır. Azərbaycanın milli enerji sektorunun fasiləsiz fəaliyyətinin və onun xarici oyunçuların təsirindən müstəqilliyinin təmin edilməsi bu gün dövlətin qarşısında duran əsas vəzifələrdəndir. Fikrimizcə, müxtəlif ölkələrdə tətbiq olunan enerji sektorunun səmərəli təşkili modelinin seçilməsi və onun fəaliyyətinin səmərəliliyi sənayedə struktur islahatlarının aparılmasının əsas məqsədləri və şərtləri ilə müəyyənləşdirilir.

Qlobal transformasiyalar şəraitində Azərbaycanın enerji sektorunun inkişafı üçün əsas problemlər istehsalın enerji tutumunun azaldılması, ölkənin vahid enerji sisteminin inkişafının davamlılığının təmin edilməsi, enerji sisteminin istifadə dərəcəsinin artırılması, enerji sistemi parkının sürətlə yenilənməsi və enerji sisteminin ekoloji parametrlərinin beynəlxalq standartlara uyğunlaşdırılması, bu sektorda liberal bazar münasibətlərinə tam keçid və enerji qiymətlərinin liberallaşdırılmasıdır.

## YEKUN

Beləliklə, liberal bazar prinsipləri əsasında pərakəndə satış proseslərinin optimallaşdırılması da əsas şərtlərdəndir ki, bu da xərcləri azaltmağa, xidmət keyfiyyətini yaxşılaşdırmağa və bütövlükdə elektrik enerjisi sektorunun rəqabət qabiliyyətini artırmağa kömək edər. Bunlarla bağlı bir qrup məsələləri ümumiləşdirmişik və müəyyən amillərin nəzərə alınması vacibdir:

– Elektrik enerjisi sənayesində iqtisadiyyatın mühüm aspekti yeni enerji texnologiyalarının hazırlan-

ması və tətbiqidir.

– Buraya bərpa olunan enerji, enerji saxlama və enerji səmərəliliyi texnologiyaları kimi yeni enerji istehsalı növlərinin tədqiqatı, inkişafı və kommersiyalaşdırılması daxildir.

– Yeni texnologiyaların optimal şəkildə tətbiqi ekoloji yükü azalda, enerji təhlükəsizliyini yaxşılaşdıra və ənənəvi enerji mənbələrindən asılılığı azalda bilər.

– İstehsal, ötürmə, pərakəndə satış proseslərinin optimallaşdırılması və yeni texnologiyaların tətbiqi enerji təhlükəsizliyini təmin edə, xərcləri azaltmağa, səmərəliliyi artırmağa və cəmiyyətin xeyrinə enerji sektorunun daha da inkişafını stimullaşdıra bilər və s.

**Açar sözlər:** *Azərbaycan, milli enerji sektoru, liberal bazar modeli, bazar iqtisadiyyatı münasibətləri, enerji sektorunun liberallaşdırılması problemləri, enerji sektorunun liberallaşdırılması perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

- Sukuk və digər İslam maliyyə alətlərinin tətbiqi ilə bağlı hüquqi çərçivənin yaradılması və stimullaşdırılması;
- Maliyyə derivativləri ilə bağlı hüquqi çərçivənin yaradılması;
- Sekyuritizasiyanın tənzimləyici və nəzarətedici çərçivəsinin yaradılması;
- Qısa mövqe (qiymətli kağızların qiymətinin

düşəcəyini güman edərək borc kimi alınaraq satılması mexanizmi) ilə bağlı hüquqi çərçivənin yaradılması.

Xüsusi tənzimləmə rejimi ilə bağlı müraciət edən şəxslərin (banklar, kredit təşkilatları və s.) fəaliyyətlərinin risk qrupuna daxil edilməmələri üçün potensial bazarın araşdırılması tələbi də Strategiyada öz əksini tapmışdır. Belə ki, xüsusi tənzimləmə rejimi çərçivəsində hədəf məhsullarla (İslam bankçılığı, rəqəmsal maliyyələşmə və s.) bağlı bazar potensialının və tələbin araşdırılması nəzərdə tutulmuşdur. Hüquqi tənzimləmənin hazırlanması ilə bağlı aşağıdakı istiqamətlər ələ alınmışdır:

- Hazırkı qanunvericiliyin alternativ maliyyə alətlərinə uyğunlaşdırılması;
- Alternativ maliyyə mexanizmi üçün tənzimləyici siyasətin yaradılması və inteqrasiyası;
- Hüquqi və tənzimləyici mexanizmin qəbul edilməsini istiqamətləndirmək və nəzəri-metodoloji əsasını təmin etmək məqsədilə dövlət orqanları və maliyyə qurumları ilə əməkdaşlığın edilməsi.

Maliyyə derivativlərinin, İslam maliyyəsinin, rəqəmsal yeniliklərin tətbiqini ehtiva edən xüsusi tənzimləmə rejiminin tətbiqi üzrə bir sıra sekulyar ölkələrin təcrübəsindən də yararlanmaq olar. Həmin ölkələrdən biri kimi Qazaxıstanda İslam maliyyəsi üzrə hüquqi çərçivənin yaradılması istiqamətində ciddi addımlar 2000-ci illərin əvvəllərində başlandı. Belə ki, 2009-cu ilin fevralında Qazaxıstan hökuməti müxtəlif qanunvericilik aktlarına düzəliş etmək üçün qanun qəbul etmişdir. Əsas düzəlişlər isə İslam bankçılığı üçün hüquqi və nəzarət çərçivəsinin yaradılması məqsədilə “Bank işi haqqında” Qanuna (The Law of Banking), “Qiymətli kağızlar haqqında” Qanuna (The Law on the Securities Market və “İnvestisiya fondları haqqında” Qanuna (The Law on Investment Funds) olmuşdur. Xüsusi tənzimləmə rejimi çərçivəsində real şəraitdə tətbiqi mümkün olan məhsullarla bağlı hüquqi çərçivədə həmçinin o da nəzərdə tutulmuşdur ki, Vergi Məcəlləsinə də İslam maliyyə məhsullarının ənənəvi maliyyə ilə bərabərləşdirilməsi üçün bəzi xüsusi düzəlişlərə ehtiyac var idi [11]. Hüquqi çərçivənin yaradılmasının ardınca 2010-cu ildə Al-Hilal Bank fəaliyyətə başlamış, 2017-ci ildə isə Zaman Bank öz lisenziyasını ənənəvi bankçılıqdan İslam bankçılığına dəyişdirərək ölkədə 2-ci İslam bankı statusunu aldı. Bu proseslər zamanı tənzimləyici qismində 3 qurum – AFR (Qazaxıstan Respublikasının Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyi), Qazaxıstan Milli Bankı və Astana Maliyyə Xidmətləri Palatası (Astana Financial Services Authority) çıxış etmişdir [12].

Qazaxıstanda ənənəvi banklarla yanaşı yerli İslam bankları və xarici İslam banklarının filialları fəaliyyət göstərə bilər. İslam bankları AFR tərəfindən ayrıca tənzimlənməyə tabedir. Ümumiyyətlə, onlara kreditlər üzrə faiz hesablamaq və əmanətlər üzrə zəmanətli faizlər ödəmək qadağandır. Eyni zamanda İslam banklarına tütün, alkoqol, silah, oyun və AAOIFI standartları ilə təsbitini tapmış və milli iqtisadiyyatlarda mövcud olan şəriət şuralarının (Sharia Council) qadağan etdiyi bəzi digər fəaliyyətlərlə bağlı bizneslərə investisiya qoymaq qadağandır.

Ölkəmizdə olduğu kimi Qazaxıstanda da ümumilikdə tənzimləmə rejiminin tətbiqi aşağıdakıları əhatə etmişdir:

- İslam bankçılığı və maliyyələşməsi;
- Xarici bank filialları;
- Mikromaliyyə institutları;
- Fintek təşkilatları;
- Ödəniş sistemlərinin təkmilləşdirilməsi [12].

## Nəticə

Mərkəzi Bankın “Xüsusi tənzimləmə rejiminin tətbiqi Qaydası” haqqında Qərarı, Azərbaycanda İslam maliyyəsinin inkişafına əhəmiyyətli təsir göstərməkdədir. Tədqiqatımızda göstərilmiş xüsusi tənzimləmə rejiminin tətbiqinin effektiv olması üçün bir sıra problemlərin həlli vacib sayılmalıdır. Ümumilikdə, həmin problemləri və riskləri aşağıdakı kimi sadalaya bilərik:

- İnnovativ və alternativ maliyyə məhsulları, o cümlədən İslam maliyyə alətləri barədə maliyyə ekosisteminin məlumatının az olması, ya da olmaması;
- Kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran qurumlarla sahibkarlar arasında əməkdaşlığın zəif olması;
- İslam maliyyə alətlərindən istifadə üzrə beynəlxalq təcrübənin ölkəmizdə aşağı səviyyədə araşdırılması;
- Xüsusi tənzimləmə rejimi çərçivəsində müraciət edən şəxslərin innovativ məhsulları test rejimində tətbiq etmələri zamanı nəzarət mexanizminin zəif olması;
- Maliyyə institutları tərəfindən innovativ məh-

sulların tətbiqi zamanı sahibkarların bu məhsullara tələbatının real vəziyyətlə uyğunsuzluğu;

- Əgər xüsusi tənzimləmə rejimində innovativ məhsulun tətbiqi özünü doğruldarsa, hazırda hüquqi çərçivənin olmaması da, gələcəkdə İslam maliyyə alətlərinin tətbiqi prosesini ləngidə bilər.

Qeyd edilən fundamental problemlərin köklü həlli, əlbəttə ki, mümkün deyildir. Ən başlıcası ona görə ki, tədqiqatın predmetində innovativ məhsul dayanır və ölkəmizdə onun tətbiqi hələlik nəzəriyyədən o tərəfə keçə bilmir. Sözsüz ki, zaman keçdikcə innovativ məhsulların tətbiqi imkanları genişləndiriləcək və təkmilləşdirmələr aparılacaqdır. Lakin sadalanan problem və risklərin həlli yollarını aşağıdakı kimi qeyd edə bilərik:

1. İnnovativ məhsul olaraq İslam maliyyə məhsulları barədə maarifləndirmə işləri aşağıdakı vasitələrlə icra edilə bilər:

a) İslam maliyyə məhsulları ilə bağlı kütləvi nəşrlər vasitəsilə;

b) Təlimlər, seminarlar və kursların təşkil edilməsi vasitəsilə;

c) Konfrans və simpoziumların həyata keçirilməsi ilə;

d) Xüsusi tənzimləmə rejimi keçmiş və innovativ məhsullar təklif olunan ölkələrdə təcrübə mübadiləsi aparılması yolu ilə.

2. Həmçinin, İslam maliyyəsinin digər ölkələrdəki tətbiqi təcrübələri də Azərbaycanda bu sahənin inkişafına töhfə verə bilər. Qazaxıstan örnəyini ələ alsaq, görərik ki, İslam maliyyələşmə mexanizminin tənzimlənməsində Agentlik fəaliyyəti praktikası rəhbər tutulur. Gələcəkdə ölkəmizin bank qanunvericiliyində dəyişikliklər olduğu təqdirdə maliyyə tənzimləyici qurumların nəzdində agentliyin yaradılması məsələsinə də baxıla bilər.

3. Sahibkarların gələcəkdə təklif oluna biləcək maliyyə məhsullarına tələbatlarının dərin sorğular vasitəsilə daha dəqiq araşdırılması alternativ və innovativ məhsulların tətbiqində daha düzgün qərarlar verilməsinə yardımçı olacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. 2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası: [Elektron resurs]// https://www.cbar.az/pages/strategy?language=az&fbclid=IwZXh0bgNhZW0CMTAAAR3U7LZaanOtRJkQD2eI4E0ard7Hm0BsVThkaQ7bIN5VQbRRtlCnXIfpNLU_aem_AUIRhcCZEBtVMAY35hwITPsCnRcmKl-TI5CjkebjYpca2Fia8Bn83r1vq7sCriEz6J4oqaYmL3kKEvxdIUoD_DIx*

*2. "Xüsusi tənzimləmə rejiminin tətbiqi Qaydası"nın təsdiq edilməsi barədə https://e-qanun.az/framework/56351*

*3. Atakişiyev R. B. İslam maliyyə sistemi və alətləri (kitab). Bakı, 2021. 130 s.*

*4. ICD – LSEG Islamic Finance Development Report 2023*
*https://solutions.lseg.com/IslamicFinance_ICD_LSEG*

*5. Dr. Muhammad Hanif. Fundamentals of Islamic Finance (book). Islamabad, Pakistan, 2020. 65 p.*

*6. Prof. Dr. Abdulaziz B. Ticaret ve Faiz, Süleymaniye Vakfi Yayınları. 2016. yayın № 08. 340 s.*

*7. KOBİA, İqtisadi Resursların Öyrənilməsi İB. "Azərbaycanda alternativ maliyyə və İslam bankçılığı üzrə ehtiyacların qiymətləndirilməsi" layihəsi çərçivəsində aparılmış sorğunun hesabatı. Bakı, 2022. 100 s.*

*8. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında"*
*https://e-qanun.az/framework/5530*

*9. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu*
*https://e-qanun.az/framework/5825*

*10. 2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası https://www.cbar.az/pages/strategy?language=az&fbclid=IwZXh0bgNhZW0CMTAAAR3U7LZaanOtRJkQD2eI4E0ard7Hm0BsVThkaQ7bIN5VQbRRtlCnXIfpNLU_aem_AUIRhcCZEBtVMAY35hwITPsCnRcmKl-TI5CjkebjYpca2Fia8Bn83r1vq7sCriEz6J4oqaYmL3kKEvxdIUoD_DIx*

*11. Islamic Finance in Kazakhstan https://eurobak.kz/islamic-finance-in-kazakhstan/*

*12. A general introduction to the banking regulatory regime in Kazakhstan https://www.lexology.com/library/detail.aspx?g=8f908053-3f89-4aca-8a30-6b3af5bb7bd6*

## XÜLASƏ

Ölkəmizdə innovativ maliyyə mexanizminin tətbiq edilməsi istiqamətində ixtisaslaşmış qurumların fəaliyyəti maliyyə sektorunda inklüzivliyin təmin edilməsi və maliyyələşmə mexanizminin diversifikasiyası məqsədilə son zamanlar geniş şəkildə özünü göstərir. Belə ki, son bir neçə ildə İslam maliyyə

alətləri də daxil olmaqla müxtəlif alternativ maliyyə alətləri (vençur, mələk maliyyəsi, fyuçers, forvard və s.) barədə hüquqi bazanın yaradılması və ya mövcud qanunvericiliyin təkmilləşdirilməsi üzrə dövlət proqramlarının qəbul edilməsi buna bariz nümunədir Bu məqalə Mərkəzi Bankın "Xüsusi tənzimləmə rejiminin tətbiqi Qaydası" barədə Qərarının Azərbaycanda İslam maliyyəsinin inkişafına olan təsirini araşdırır. Məqalədə bu Qərarın İslam maliyyə məhsullarının və xidmətlərinin formalaşmasına necə kömək etdiyi, tənzimləmə rejiminin sektorun inkişafına verdiyi dəstək və qarşılaşdığı çətinliklər, mövcud hüquqi bazanın sektora təsiri geniş şəkildə təhlil olunur.

**Açar sözlər:** *innovativ, strategiya, alternativ maliyyə, İslam maliyyəsi, ixtisaslaşmış qurumlar.*

**Mashallah Roman Safarov**
***Ph.D. student, Baku State University***
***masallah.safarov.roman@bsu.edu.az***
***ORCID: 0000-0001-5718-9754***

## THE ROLE OF THE "SPECIAL REGULATORY REGIME IMPLEMENTATION RULE" IN THE DEVELOPMENT OF ISLAMIC FINANCE IN AZERBAIJAN

### SUMMARY

In our country, specialized institutions' activities in applying an innovative financial mechanism have recently been widely manifested to ensure inclusion in the financial sector and diversify the financing mechanism. Thus, in the last few years, the creation of a legal framework for various alternative financial instruments (venture, angel finance, futures, forward, etc.) including Islamic financial instruments, or the adoption of state programs for improving existing legislation is a clear example. This article examines the impact of the Central Bank's Decision on the "Regulation on the Application of the Special Regulatory Regime" on the development of Islamic finance in Azerbaijan. In the article, how this Decision helps the formation of Islamic financial products and services, the support provided by the regulatory regime to the development of the sector and the challenges it faces, and the impact of the existing legal framework on the industry is widely analyzed.

**Keywords:** *innovative, strategy, alternative finance, Islamic finance, specialized institutions.*

**Машаллах Роман оглы Сафаров**
***Бакинский Государственный Университет, докторант***
***masallah.safarov.roman@bsu.edu.az***
***ORCID: 0000-0001-5718-9754***

## РОЛЬ «ПРАВИЛА ВНЕДРЕНИЯ СПЕЦИАЛЬНОГО РЕЖИМА РЕГУЛИРОВАНИЯ» В РАЗВИТИИ ИСЛАМСКИХ ФИНАНСОВ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В нашей стране в последнее время широко проявляется деятельность специализированных учреждений в направлении применения инновационного финансового механизма с целью обеспечения инклюзивности в финансовом секторе и диверсификации механизма финансирования. Таким образом, в последние несколько лет очевидным является создание правовой базы для различных альтернативных финансовых инструментов, в том числе исламских финансовых инструментов (венчурное, ангельское финансирование, фьючерсы, форварды и т.д.) или принятие государственных программ по совершенствованию существующего законодательства. Пример этого Исследуется влияние Решения Банка о «Положении о применении специального режима регулирования» на развитие исламских финансов в Азербайджане. В статье широко анализируется, как это Решение помогает формированию исламских финансовых продуктов и услуг, поддержка, оказываемая регуляторным режимом развитию сектора и проблемы, с которыми он сталкивается, а также влияние существующей правовой базы на сектор.

**Ключевые слова:** *инновационные, стратегия, альтернативные финансы, исламские финансы, специализированные институты.*

UOT 336; 336.11
DOI:10.30546/3006-0346.2024.4.82.87

# MALİYYƏ BAZARLARINA TƏSİR EDƏN FUNDAMENTAL AMİLLƏR

**TƏBRİZ ƏLİYEV**
*UNEC, doktorant*
*E-mail: tabriz.aliyev@yahoo.com*

Son illər Azərbaycan maliyyə bazarlarının inkişafına təkan vermək üçün müxtəlif islahatlar və yeniliklər həyata keçirib. Ölkənin iqtisadi strukturunun neft və təbii qaz sektoruna söykənməsi də maliyyə bazarlarının inkişafında müəyyənedici amil olmuşdur.

İqtisadiyyatın əsas məqsədlərindən biri də cəmiyyətlərin rifahını yüksəltməkdir. İqtisadi artımın maliyyələşdirilməsi üçün zəruri olan resursların formalaşmasında və bölüşdürülməsində fəal rol oynayan maliyyə sistemi bu tədqiqatın əsas mövzusunu təşkil edir.

İqtisadi qloballaşmanın əlamətlərindən biri də ölkələr daxilində və ölkələr arasında maliyyə bazarlarının artan inteqrasiyasıdır [1, səh 42].

Bununla belə, maliyyə bazarlarını daha da dərinləşdirmək və şaxələndirmək üçün hələ çox iş görülməlidir. Xüsusilə, bazar likvidliyinin artırılması, investorların inamının təmin edilməsi və maliyyə məhsullarının müxtəlifliyinin artırılması istiqamətində addımlar atılmalıdır. Azərbaycanda maliyyə bazarları regional və qlobal iqtisadi şəraitdən asılı olaraq inkişaf etməkdə davam edir. Ölkənin neft və təbii qaz sərvətləri maliyyə bazarlarının inkişafı üçün mühüm təkan olub və olmaqda davam edir.

İnkişaf etmiş bazar iqtisadiyyatının ayrılmaz hissəsi olan maliyyə bazarları sərbəst pul vəsaitlərinin kapital axınlarının çevrilməsini təmin edirlər. Təxminən 70-ci illərə qədər maliyyə bazarlarının təhlili sistemində mövcud olan “fundamental” və “texniki təhlil” məktəbləri çıxış edirlər ki, onların da hər birinin özünəməxsus mövqeyi olub. Ötən əsrin 70-ci illərinin ortalarından başlayaraq onların hər ikisi komponent və bir sıra nəzəriyyələrin elementlərindən çıxış etmişdir. Əsasən də “effektiv bazar” modeli və “təsadüfi seçim” konsepsiyasına əsaslanırlar. Hazırda onu da qeyd etməliyik ki, onlar hələ də maliyyə bazarlarının təhlilində vacib rol oynayır. Bununla belə, “Fundamental məktəbin” tərəfdarları səhmin gələcək qiymətinin proqnozlaşdırılmasında əsasən balansların, hesabatların və müxtəlif statistik materialların öyrənilməsinə diqqət yetirir. Bundan fərqli olaraq “Texniki təhlil” məktəbinin tərəfdarları isə hər şeyin birja məzənnələrində əks olunduğunu hesab edirlər [2,səh18].

Maliyyə bazarlarının fəaliyyəti və onun dinamikasına təsir dən amillər problemi iqtisad elminin klassiklərinin və xarici ölkələrin bir çox görkəmli alimlərinin əsərlərində müxtəlif səpgilərdən tədqiq edilərək öyrənilmişdir. Bu alimlərin arasında K. C.Arou, İ.T.Balabanov, Q.A.Birman, V.V.Bulatov, A.Ş.Kovalevoy, N.V.Kolçinoy, A.A.Kilyaçkov, R.Levin, R.S.Merton, A.S.Şapkin və başqalarının adlarını xüsusi qeyd etmək lazımdır. Azərbaycanın iqtisadçı alimlərindən Ə.X.Nuriyev, A.B. Abbasov, Ş.Ə.Axundov, T.N.Əliyev, Q.N.Manafov, V.M.Niftullayev, K.R.Paşayev, K.A.Şahbazov, A.S.Səmədov və başqaları ölkə iqtisadiyyatının, o cümlədən biznesin iqtisadi problemlərinə dair dəyərli tədqiqatlar aparmış və sanballı monoqrafiyalar çap etdirmişlər. Maliyyənin aktual problemləri Ş.H.Hacıyev, D.A.Bağırov, B.X.Anaşov, A.F,-Musayev, M.X.Meybuliayev, S.M.Məmmədov, M.X.Həsənli, M.M. Sadıqov, A.Ş.Şəkərəliyev və digərlərinin əsərlərində geniş tədqiq olunmuşdur. Lakin ölkədə maliyyə bazarının inkişafı və onun dinamikasına təsir edən məsələlər kifayət qədər öyrənilməyib [2, səh 4].

Maliyyə bazarlarının dinamikasına təsir edən amillərin tənzimlənməsi və davamlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir. Çünki ölkədə maliyyə vasitəçilərinin inkişafı yığım vəsaitlərinin səfərbər edilməsinə və bu vəsaitlərin investisiya qoyuluşlarının maliyyələşdirilməsinə istiqmətləndirməyə əlverişli şərait yaradır.

Maliyyə bazarlarında əsas risk faktorları alqı-satqı olunan maliyyə alətlərinin qiymətini müəyyən edən bazar parametrləridir. Bunlara xarici valyuta məzənnələri, əmtəələrin və səhmlərin qiyməti və təbii ki, faiz dərəcələri daxildir. Bu fundamental risklərdəki təhlükələr onların əsasında duran maliyyə alətlərinin qiymətlərində dalğalanmalara səbəb olur. Onlar maliyyə alətlərinə xas olan bazar riskini təşkil edir və buna görə də risk faktorları adlanır. Maliyyə alətinin risk faktorları bazar parametrləridir (faiz dərəcələri, xarici valyuta məzənnələri, əmtəə

və səhm qiymətləri), onların dəyişməsi ilə maliyyə alətinin qiymətində dəyişiklik yaradır.

Maliyyə bazarları aktivlərin qiymətlərində əhəmiyyətli dəyişikliklərə səbəb ola biləcək müxtəlif amillərin təsiri altında olan mürəkkəb sistemlərdir. Bu amilləri iki böyük kateqoriyaya bölmək olar: daxili və xarici amillər. Daxili amillərə maliyyə göstəriciləri, idarəetmə keyfiyyəti və rəqabət mövqeyi kimi şirkətə xas amillər daxildir, xarici amillər isə bütövlükdə bazara təsir edən daha geniş iqtisadi və siyasi amillərdir [3, səh 12].

**1. İqtisadi göstəricilər:** ÜDM artımı, inflyasiya, faiz dərəcələri və istehlakçıların inamı kimi iqtisadi göstəricilər maliyyə bazarlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Məsələn, güclü ÜDM artım tempi səhm qiymətlərinin yüksəlməsinə, yüksək inflyasiya isə faiz dərəcələrinin artmasına səbəb ola bilər ki, bu da istiqraz bazarına mənfi təsir göstərə bilər. İnvestorlar iqtisadiyyatın sağlamlığını anlamaq və məlumatlı investisiya qərarları qəbul etmək üçün iqtisadi göstəriciləri yaxından izləməlidirlər.

**2. Hökumət siyasətləri:** Vergi siyasəti, ticarət siyasəti və pul siyasəti kimi hökumət siyasətləri də maliyyə bazarlarına təsir göstərə bilər. Məsələn, korporativ vergilərin azaldılması korporativ gəlirləri artıraraq səhm qiymətlərinin yüksəlməsinə, faiz dərəcələrinin artması isə istiqrazların qiymətlərinin aşağı düşməsinə səbəb ola bilər. İnvestorlar məlumatlı investisiya qərarları qəbul etmək üçün hökumət siyasətləri və onların bazara təsiri haqqında məlumatlı olmalıdırlar.

**3. Qlobal hadisələr:** Siyasi qeyri-sabitlik, təbii fəlakətlər və pandemiyalar kimi qlobal hadisələr maliyyə bazarlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Məsələn, COVID-19 pandemiyası qlobal iqtisadi yavaşlamaya səbəb olub, səhm qiymətlərinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb olub. İnvestorlar qlobal hadisələrin maliyyə bazarlarına potensial təsirini nəzərə almalı və portfellərini müvafiq qaydada tənzimləməlidirlər.

**4. Bazar əhvali-ruhiyyəsi:** İnvestorların ümumi əhvali-ruhiyyəsinə istinad edən bazar əhvali-ruhiyyəsi maliyyə bazarlarına da təsir edə bilər. Məsələn, investorlar iqtisadiyyatın gələcəyinə nikbin baxırlarsa, səhmlərə daha çox sərmayə qoymağa hazır ola bilərlər ki, bu da səhm qiymətlərinin yüksəlməsinə səbəb ola bilər. Əksinə, əgər investorlar pessimist olsalar, onlar öz səhmlərini sata bilərlər, bu da səhm qiymətlərinin aşağı düşməsinə səbəb ola bilər. İnvestorlar investisiya qərarları qəbul edərkən bazar əhvali-ruhiyyəsini nəzərə almalıdırlar.

**5. Şirkətə xas amillər:** Maliyyə göstəriciləri, idarəetmə keyfiyyəti və rəqabətli mövqe kimi şirkətə xas amillər də maliyyə bazarlarına təsir göstərə bilər. Məsələn, əgər şirkət güclü gəlirlər barədə məlumat verirsə, onun səhmlərinin qiyməti arta bilər, zəif qazanc isə səhmlərin qiymətlərinin aşağı düşməsinə səbəb ola bilər. İnvestorlar investisiya qərarları qəbul edərkən şirkətə xas amilləri nəzərə almalıdırlar.

Maliyyə bazarları müxtəlif amillərin təsiri altında olan mürəkkəb sistemlərdir. İnvestorlar investisiya qərarları verərkən bu amilləri nəzərə almalı və əsaslandırılmış qərarlar qəbul etmək üçün son iqtisadi və siyasi hadisələrdən xəbərdar olmalıdırlar. Maliyyə bazarlarına təsir edən müxtəlif amilləri başa düşməklə, investorlar gəlirli investisiyalar etmək şanslarını artıra bilərlər [3, səh 18].

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün müxtəlif inkişaf modelləri irəli sürülmüş və kapitalın yığılması artımın əsas amili kimi göstərilmişdir. Onun bir hissəsi yeni investisiyalara yönəldilsə, daha çox kapital yığılacaq və bu da məhsuldarlığı artıracaq. Lakin inkişaf etməmiş ölkələrdə resurs problemi olduğundan, inkişaf nəzəriyyəsi "yoxsulluq" dövrünə çevrilir.

Azərbaycan da inkişaf etməkdə olan ölkələr sırasındadır. Belə ki , Azərbaycanın maliyyə bazarı 1991-ci ildə müstəqillik əldə etdikdən sonra mühüm irəliləyişlər əldə edib.

Azərbaycan müstəqilliyini 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra əldə edib. Sovet İttifaqı dövründə iqtisadiyyat mərkəzləşdirilmiş qaydada planlaşdırılıb və dövlətin nəzarəti altında idi. Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadi islahatlar aparmaqla bazar iqtisadiyyatına keçidə başladı. Bu dövrdə bir çox çətinliklərlə qarşılaşdı, lakin zaman keçdikcə islahatlar öz bəhrəsini verməyə başladı. Bu islahatlara özəlləşdirmə, xarici investisiyaların təşviqi, azad ticarət siyasətinin qəbulu və bazar mexanizmlərinin yaradılması daxildir. Xüsusilə neft və təbii qaz sektoruna qoyulan investisiyalar Azərbaycan iqtisadiyyatının yüksəlişində mühüm rol oynayıb. Bu prosesdə Azərbaycan Qərblə münasibətlərini gücləndirdi və enerji resurslarını ixrac etməyə başladı.

Bu dövrdə iqtisadiyyat mərkəzi planlaşdırmadan azad bazar iqtisadiyyatına keçid dövrünə qədəm qoydu.

İlk islahatlar 1992-ci ildə Mərkəzi Bank (Azərbaycan Milli Bankı) yaradılması ilə başlanıldı. Bu, islahat müasir bank sisteminin əsaslarının qoyulmasına kömək etdi. 1990-cı illərin sonlarına doğru özəlləşdirmə proqramlarına başlanıldı və dövlətin iqtisadiyyat üzərində hökmranlığı azaldı.

2000-ci illərdə Azərbaycanda baş verən iqtisadi inkişaf və modernləşmə daha çox neft və təbii qaz gəlirlərinə əsaslanırdı. Bu dövrdə Azərbaycan enerji sektoruna böyük investisiyalar və Qərblə enerji əməkdaşlığı sayəsində iqtisadi artımını sürətləndirdi. Onun əsas gəlir mənbələrinə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Cənubi Qafqaz təbii qaz kəməri kimi mühüm layihələr daxildir.

Bu dövrdə Azərbaycanın neft və təbii qaz ixracından əldə etdiyi gəlirlər ölkənin iqtisadi yüksəlişinin təmin edilməsinə, o cümlədən infrastrukturun inkişafına, sosial proqramların həyata keçirilməsinə, şəhərin abadlaşdırılmasına sərf edilmişdir. Lakin bu, Azərbaycan iqtisadiyyatının daha çox enerji sektorundan asılı olmasına gətirib çıxardı. Bu qeyri-sabitlik həm də naftanın dəyərinin dəyişməsi və enerji resurslarının məhdud olması nəticəsində yarana biləcək iqtisadi risklərə səbəb oldu.

2010-cu illəri Azərbaycan üçün Diversifikasiya və Böhranların İdarə Edilməsi dövrü adlandırmaq olar. Neftin qiymətinin dəyişməsi Azərbaycan hökumətini iqtisadiyyatı şaxələndirməyə və qeyri-enerji sektorlarında artımı təşviq etməyə məcbur edib. Bu dövrdə kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və digər sahələrə investisiyalar mühüm əhəmiyyət kəsb etdi. Bu diversifikasiya səyləri Azərbaycan iqtisadiyyatının daha dayanıqlı olmasını təmin etmək məqsədi daşıyırdı. Enerji qiymətlərindəki dalğalanmalardan daha az asılı olan iqtisadiyyat yaratmaq üçün atılan addımlar uzunmüddətli perspektivdə ölkənin iqtisadi sabitliyini gücləndirmək məqsədi daşıyırdı.

2015-ci ildə qlobal valyuta **böhranı** və neftin qiymətinin kəskin ucuzlaşması Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərib. Neft gəlirlərinin azalması və yerli valyuta olan manatın devalvasiyası iqtisadi qeyri-sabitliyə və maliyyə çətinliklərinə səbəb oldu. Lakin bu böhran Azərbaycan hökumətinin maliyyə islahatlarını sürətləndirməsinə və iqtisadiyyatın daha dayanıqlı olması üçün addımlar atmasına səbəb oldu. Bu maliyyə islahatları Azərbaycan iqtisadiyyatını böhranlara daha davamlı etmək və onu dayanıqlı inkişaf yoluna çıxarmaq məqsədi daşıyırdı. Bundan əlavə, bu dövrdə iqtisadi şaxələndirmə səyləri daha çox əhəmiyyət kəsb etmişdir. Bu yolla Azərbaycan gələcək iqtisadi dalğalanmalara qarşı daha yaxşı hazır olmağı qarşısına məqsəd qoymuşdu [4, səh 73].

2020-ci illərdə Azərbaycan rəqəmsallaşma və regional əməkdaşlıq sayəsində rəqəmsal iqtisadiyyata keçidini sürətləndirdi. Bu prosesdə rəqəmsal texnologiyaların qəbulu və rəqəmsal infrastrukturun inkişafı prioritet istiqamətə çevrildi. Bundan əlavə, regional əməkdaşlıq və inteqrasiya layihələri Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayıb. Bu strategiyalar sayəsində Azərbaycan rəqəmsal iqtisadiyyata keçidini sürətləndirərək iqtisadi artım və davamlı inkişaf məqsədlərinə nail olmaq üçün mühüm addımlar atıb. Rəqəmsallaşma və regional əməkdaşlıq Azərbaycanın gələcək iqtisadi uğurunda mühüm rol oynayacaq.

2023-cü ildə Azərbaycanın maliyyə bazarında mühüm irəliləyişlər olub. Bu dövrdə dövlət və aidiyyəti qurumlar tərəfindən maliyyə sisteminin gücləndirilməsi, bazarın səmərəliliyinin artırılması və xarici investisiyaların təşviqi məqsədilə müxtəlif islahatlar və yeniliklər həyata keçirilib. Bu hadisələr Azərbaycan maliyyə bazarının müasirləşməsini və beynəlxalq standartlara uyğunlaşmasını sürətləndirdi. 2023-cü ildə tətbiq edilən bu yeniliklər ölkənin maliyyə sisteminin daha effektiv, təhlükəsiz və cəlbedici olmasına töhfə verib. İqtisadi diversifikasiya səyləri, rəqəmsallaşma və regional əməkdaşlıqlar gələcəkdə bazarı formalaşdıracaq mühüm amillər kimi önə çıxır. Bu inkişaf iqtisadi artım, maliyyə islahatları və xarici investisiyaların artması ilə dəstəklənib.

Azərbaycan maliyyə bazarlarını daha da inkişaf etdirmək üçün müxtəlif strategiyalar həyata keçirir. Bu strategiyalara maliyyə texnologiyalarının mənimsənilməsi, investisiya mühitinin yaxşılaşdırılması və regional maliyyə mərkəzinə çevrilməsi daxildir. Azərbaycanın geosiyasi mövqeyi və təbii sərvətləri bu məqsədlərə çatmaqda mühüm üstünlüklər təklif edir. 2023-cü ildə baş verən proseslər nəticəsində Azərbaycanın maliyyə bazarı əhəmiyyətli irəliləyişlər əldə edib və gələcəkdə böyük inkişaf potensialına malikdir. Hökumətin və özəl sektorun birgə səyləri maliyyə sisteminin daha da möhkəmlənməsinə və şaxələndirilməsinə səbəb olmuşdur. Bu əməkdaşlıq və islahatlar ölkənin maliyyə bazarının davamlı artımına və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına imkan verəcək. Xarici investorların Azərbaycanın maliyyə bazarına

marağı artacaq. Hökumətin verdiyi güzəştlər, vergi güzəştləri və hüquqi təminatlar xarici kapitalın ölkəyə axınını sürətləndirəcək. Fintech sektoru və rəqəmsal bank xidmətləri maliyyə sisteminin modernləşdirilməsində mühüm rol oynayacaq. Yeni texnologiyaların tətbiqi maliyyə xidmətlərinə çıxışı artıracaq və əməliyyat xərclərini azaldacaq. Fond bazarı və digər kapital bazarları yeni maliyyə məhsullarının tətbiqi və likvidliyin artması ilə daha da dərinləşməklə yanaşı yerli və xarici investorların diqqətini cəlb etməyə davam edəcək.

Azərbaycanın regional və beynəlxalq əməkdaşlığı maliyyə bazarlarının inteqrasiyasına və xarici ticarətin inkişafına dəstək verəcək [5, səh 3]. Bu əməkdaşlıqlar ölkənin maliyyə sistemini daha da gücləndirəcək. Bu amillər bir araya gəldikdə, Azərbaycanın maliyyə bazarı gələcəkdə də əhəmiyyətli inkişaflar göstərməyə davam edəcək. Hökumətin və özəl sektorun birgə səyləri maliyyə sisteminin daha çoxşaxəli, möhkəm və dayanıqlı olmasını təmin edəcək və beləliklə, ölkənin iqtisadi artımına və çiçəklənməsinə töhfə verəcək.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Əliyev Mirzə Famil oğlu Maliyyə bazarının təhlili və proqnozlaşdırılması, Bakı, 2018.*

*2. Əsgərli Arslan Mustafa oğlu Maliyyə bazarının dinamikasına təsir göstərən amillər, Bakı 2018*

*3. "Dünya borc kapitalı bazarı: strukturu və müasir inkişaf meyilləri" Qasımova Günay Rasim, Bakı, 2020.*

*4. Dos. Dr. Vidadi Zeynalov Qlobal Maliyyə Böhranı və Antiböhran Tədbirlər: Təhlil və Qiymətləndirmə, Bakı, 2012.*

*5. Səlimli Orxan Sarvan oğlu "Müasir şəraitdə iqtisadiyyatın infrastruktur kompleksləri və onların fəaliyyətinin hüquqi təminatı" Bakı, 2017.*



**TABRIZ ALIYEV**
**UNEC**


## FUNDAMENTAL FACTORS AFFECTING FINANCIAL MARKETS


## SUMMARY

Financial markets are complex and interactive systems that are constantly shaped by the dynamics of the world economy. The factors affecting these markets generally consist of economic, political, social and psychological elements. The factors affecting financial markets are complex and multidimensional. Economic indicators, political processes, social dynamics and psychological factors determine the direction of markets. The interaction of these factors creates an environment of constant change and uncertainty in financial markets. By carefully monitoring and analyzing these factors, investors can make more informed investment decisions.

In this article, the main factors affecting the financial markets will be examined in detail.



**Keywords:** *Financial market, market economy, economic indicators*



**ТЕБРИЗ АЛИЕВ**
**UNEC**


## ФУНДАМЕНТАЛЬНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФИНАНСОВЫЕ РЫНКИ


## РЕЗЮМЕ

Финансовые рынки — это сложные и интерактивные системы, которые постоянно формируются под воздействием динамики мировой экономики. Факторы, влияющие на эти рынки, обычно состоят из экономических, политических, социальных и психологических элементов. Факторы, влияющие на финансовые рынки, сложны и многоаспектны. Экономические показатели, политические процессы, социальная динамика и психологические факторы определяют направление рынков. Взаимодействие этих факторов создает среду постоянных изменений и неопределенности на финансовых рынках. Тщательно отслеживая и анализируя эти факторы, инвесторы могут принимать более обоснованные инвестиционные решения.

В данной статье будут подробно рассмотрены основные факторы, влияющие на финансовые рынки.



**Ключевые слова:** *финансовый рынок, рыночная экономика, экономические показатели.*

UOT 33:005
DOI:10.30546/3006-0346.2024.4.82.89

# RƏHBƏR LİDERİN NÜFUZU VƏ QƏRAR QƏBUL EDİLMƏSİNDƏ ONLARIN ROLU

**SƏBA MƏMMƏDOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Qida Sənayesi Kolleci “İqtisadiyyat və menecment” kafedrasının müəllimi*

*E-mail: memmedli1945@mail.ru*

## Giriş

Müasir təşkilatlarda və cəmiyyətlərdə rəhbər liderlərin rolu və təsiri böyük əhəmiyyət kəsb edir. Rəhbər liderlər yalnız təşkilatların məqsədlərinə çatmasına kömək etmir, eyni zamanda təşkilatın mədəniyyətini, dəyərlərini və ümumi fəaliyyətini müəyyənləşdirir.

Liderlik insanların davranışlarını, qərarlarını yönləndirən və təsir edən kompleks bir prosesdir. Liderlərin nüfuzu onların qərarlarının qəbul edilməsi və tətbiqi prosesində mühüm rol oynayır. Bundan əlavə, liderlərin nüfuzlu olması onların təşkilat daxilində və xaricində necə qəbul edildiyini və etibar səviyyələrini əks etdirir. Bu nüfuz liderin qərarlarının uğurla həyata keçirilməsi üçün əsas amillərdən biridir.

Rəhbər şəxs təşkilatın maliyyə faydalarını artırmaq üçün bir qrup insanı vəzifələrini səmərəli şəkildə yerinə yetirməyə ruhlandıran və istiqamətləndirən bir insandır. Ali təhsili olmayan bir şəxs güclü liderlik xüsusiyyətlərinə sahib ola bilsə də, yalançı və ya saxtakar bir şəxs təsirli bir lider ola bilməz.

## Əsas mövzu

Nüfuz rəhbər liderin etibarının və təsir gücünün göstəricisidir və bu, onun qərarlarının qəbul edilməsi, tətbiqi prosesində mühüm rol oynayır. Liderlərin şəxsiyyət xüsusiyyətləri onların nüfuzunun formalaşmasında əsas rol oynayır. Etik dəyərlərə sadiqlik, dürüstlük, empatiya və qərarlılıq kimi xüsusiyyətlər liderin etibarını artırır və onun komandası ilə güclü əlaqələr qurmasına kömək edir. Bu xüsusiyyətlər, liderin qərar qəbul etmə prosesində daha təsirli olmasını təmin edir, çünki komanda üzvləri ona inanır və onu dəstəkləyir [5, s.128].

Liderlik tərzi liderin necə rəhbərlik etdiyini və qərarları necə qəbul etdiyini müəyyən edir. Demokratik liderlik tərzi komanda üzvlərinin fikirlərini və rəyini nəzərə alaraq qərar qəbul etmə prosesində iştirakını təmin edir. Bu, liderin nüfuzunu artırır və qəbul edilən qərarların daha geniş şəkildə dəstəklənməsinə kömək edir. Avtokratik liderlik tərzi isə daha sürətli qərar qəbul etməyə imkan verə bilər, lakin komanda üzvlərinin məmnuniyyəti və dəstəyi azalarsa, liderin nüfuzu zəifləyə bilər.

Bəzən insanlar səhvən müdir və lider ifadələrinin eyni olduğuna inanırlar. Əslində liderlə müdir arasında əhəmiyyətli bir fərq var. Əsl lider öz komandasına rəhbərlik etməli və həmkarları ilə eyni çətinliklərə dözməlidir.

Müdir yalnız nəticəyə diqqət yetirsə də, lider yalnız nəticənin özünə deyil, həm də ona çatma prosesinə əhəmiyyət verir.

Etibar və şəffaflıq liderlərin nüfuzunun əsas elementləridir. Liderlərin açıq və dürüst olması, qərar qəbul etmə prosesində şəffaflığı təmin etməsi, komanda üzvlərinin onlara olan etibarını gücləndirir. Etibarlı və şəffaf liderlər daha səmərəli və təsirli qərarlar qəbul edə bilərlər, çünki komanda üzvləri bu qərarların arxasında duran səbəbləri və məqsədləri anlayır və dəstəkləyir.

Liderlərin stratejik düşünmə qabiliyyəti və etik dəyərləri onların qərar qəbul etmə proseslərindəki təsirini artırır. Stratejik düşüncə liderin uzunmüddətli məqsədləri nəzərə alaraq qərarlar qəbul etməsinə imkan verir. Bu, təşkilatın məqsədlərinə çatmaq üçün daha effektiv və davamlı qərarların qəbul edilməsini təmin edir. Etik dəyərlərə sadiq qalan liderlər isə komanda üzvlərinin dəstəyi və hörmətini qazanır, bu da qərar qəbul etmə prosesində onların təsirini artırır [7, s.50].

Liderlərin komanda üzvlərinin dəstəyini əldə etməsi qərar qəbul etmə prosesində səmərəlilik və effektivliyi təmin edir. Liderlərin açıq ünsiyyət qurması, komanda üzvlərini qərar qəbul etmə prosesinə cəlb etməsi və onların rəyini nəzərə alması, qəbul edilən qərarların daha geniş şəkildə dəstəklənməsinə və uğurla həyata keçirilməsinə kömək edir.

Rəhbər liderlərin nüfuzu və qərar qəbul etmə qabiliyyəti təşkilatların və cəmiyyətlərin uğurunda əsas faktorlardan biridir. Liderlərin şəxsiyyət xüsusiyyətləri, liderlik tərzi, etibar və şəffaflıq, stratejik düşünmə

və etik dəyərlər, komanda dəstəyi və səmərəlilik kimi amillər, onların qərar qəbul etmə proseslərində təsirli olmasını təmin edir. Bu mövzunun dərinləşdirilməsi liderlərin təsirini artırmaq və təşkilatların uğurunu təmin etmək üçün praktiki tövsiyələr təqdim edir.

Müasir iş mühiti isə sürətlə dəyişən texnologiyalar, qloballaşma və rəqabət səbəbindən daha çevik və əməkdaşlığa əsaslanan yanaşmalar tələb edir. Yenilənmiş əməliyyat mühitində aşağıdakı xüsusiyyətlər ön plana çıxır:

1. Yeni texnologiyaların tətbiqi təşkilatların fəaliyyətində böyük dəyişikliklərə səbəb olur. Bu, həm iş proseslərinin, həm də məhsul və xidmətlərin yenidən düşünülməsini tələb edir.

2. Qloballaşma təşkilatların beynəlxalq səviyyədə fəaliyyət göstərməsini zəruri edir. Bu da, müxtəlif mədəniyyətlər və bazarlar haqqında məlumatlı olmağı və fərqli müştəri tələblərinə cavab verməyi tələb edir.

3. Müasir təşkilatlar bazar dəyişikliklərinə və rəqib fəaliyyətlərinə tez reaksiya vermək qabiliyyətinə malik olmalıdır. Bu, çevik və adaptiv iş modellərinin tətbiqini tələb edir.

4. Komanda işinin və əməkdaşlığın artırılması innovasiya və yaradıcı həllərin inkişaf etdirilməsinə kömək edir. İşçilərin fikirlərinə dəyər verilməsi və onların qərar qəbul etmə prosesinə cəlb edilməsi önəmli hala gəlir [1, s.108].

Keçmiş rəhbərlik tərzi yenilənmiş əməliyyat mühitinin tələblərinə cavab verməkdə çətinlik çəkir. Avtoritar və hierarxik rəhbərlik tərzi aşağıdakı səbəblərdən yeni mühitdə uğursuzluqla qarşılaşır:

- Avtoritar rəhbərlik tərzi dəyişikliklərə tez uyğunlaşmağı çətinləşdirir. Çevik və sürətli qərar vermə tələb edən mühitlərdə bu tərz, təşkilatın rəqabət qabiliyyətini azaldır.
- Hierarxik strukturlar işçilərin motivasiyasını və iş prosesinə iştirakını azaldır. Müasir mühit isə işçilərin daha çox iştirakını və yaradıcı təkliflər verməsini tələb edir.
- Yenilik və innovasiya əməkdaşlıq və açıq ünsiyyət tələb edir. Avtoritar tərz isə bu cür mühiti təmin etməkdə çətinlik çəkir.
- Müasir müştərilər daha fərdiləşdirilmiş və sürətli xidmətlər gözləyir. Avtoritar tərz müştəri tələblərinə tez və effektiv cavab verməkdə çətinlik yaradır [4, s.210].

Yeni əməliyyat mühitinə uyğunlaşmaq üçün rəhbərlər, aşağıdakı liderlik tərzlərinə keçid etməlidirlər:

1. Demokratik liderlik: İşçilərin fikirlərinə dəyər verən və onları qərar qəbul etmə prosesinə cəlb edən rəhbərlik tərzi. Bu, işçilərin motivasiyasını artırır və kollektiv qərarların daha geniş dəstək tapmasını təmin edir.

2. Transformasional liderlik: İşçilərin inkişafını dəstəkləyən, onları motivasiya edən və ilham verən liderlik tərzi. Bu tərz işçilərin potensialını maksimum səviyyədə istifadə etmələrinə kömək edir.

3. Çevik liderlik: Dəyişikliklərə tez uyğunlaşmağı və sürətli qərar verməyi bacaran rəhbərlik tərzi. Bu, təşkilatların rəqabət qabiliyyətini artırır.

4. Xidmətkar liderlik: Liderin əsas rolunun işçilərə xidmət etmək olduğu tərz. Bu, işçilərin məmnuniyyətini və işə olan bağlılığını artırır [3, s.222].

Yetərli təhsili və idarəetmə təcrübəsi olmayan şəxslərin rəhbərliyə gəlməsi, təşkilatların uğur və inkişafına ciddi maneələr törədə bilər. Bu problemi həll etmək üçün təşkilatlar, təlim və inkişaf proqramlarını gücləndirməli, mentorluq sistemlərini tətbiq etməli və seçim proseslərini daha şəffaf və ədalətli şəkildə aparmalıdırlar. Bu yanaşmalar, rəhbərliyin effektivliyini artırmaq və təşkilatların davamlı inkişafını təmin etmək üçün vacibdir.

Rəqabətli bazar iqtisadiyyatı sürətlə dəyişən texnoloji yeniliklər, qloballaşma və müştəri tələblərinin artması ilə xarakterizə olunur. Bu şəraitdə təşkilatların uğur qazanması və rəqabət üstünlüyünü qoruması üçün intellektual və bacarıqlı liderlərə ehtiyac vardır. Bu cür liderlər, yalnız müasir iqtisadiyyatın tələblərinə cavab verməklə qalmayaraq, həm də təşkilatların davamlı inkişafını və innovasiyasını təmin etmək qabiliyyətinə malik olmalıdırlar [9, s.157].

Rəhbər liderlər yüksək emosional zəkaya sahib olmalıdırlar. Bu onların öz hisslərini və başqalarının hisslərini anlamaq və idarə etmək qabiliyyətini artırır. Həmçinin etik prinsiplərə sadiq qalmaq liderlərin təşkilat daxilində güvən və dürüstlük mühitini yaratmasına kömək edir. Etik liderlər işçi və müştərilər arasında güvən qazanır və uzunmüddətli uğuru təmin edir.

Aydın məqsədlər və gözləntilər təmin etməklə, rəhbər lider öz komanda üzvlərinə təşkilatın məqsədlərinə uyğun olan əsaslandırılmış qərarlar qəbul etmək səlahiyyətini verirlər. Məsələn, açıq ünsiyyəti təşviq edən və müxtəlif perspektivləri dəyərləndirən bir lider işçiləri öz ideyalarını və anlayışlarını təqdim etməyə təşviq edir, nəticədə daha çox nəticə əldə edilir [6, s.84].

Bazarların və biznes mühitlərinin daim dəyişən dinamikası qərar qəbul etmə proseslərinə mürəkkəblik qatları əlavə edir. Rəhbərlər dəyişən şərtlərə və yaranan imkanlara cavab vermək üçün çevik və uyğunlaşa bilməlidirlər. Üstəlik, qərarlar bir-biri ilə bağlıdır, yəni bir qərarla atılan tək səhv təşkilatın müxtəlif aspektlərində dalğalanma effektləri yarada bilər, performansa, reputasiyaya və maraqlı tərəflərlə münasibətlərə təsir edə bilər.

Rəhbərlərin sağlam qərarlar qəbul etmələri, eləcə də bütün təşkilatda məlumatlı qərar qəbul etmə mədəniyyətini inkişaf etdirmələri vacibdir. Şirkətlər komandalara çətinliklərin öhdəsindən gəlmək üçün bacarıq və inam verməklə, qeyri-müəyyənlikləri idarə etmək və dinamik bazarlarda rəqabət qabiliyyətini qorumaq qabiliyyətini gücləndirə bilər.

Liderlərin qərar qəbul etmə prosesində oynadığı rol çoxşaxəlidir və təşkilatın uğuruna birbaşa təsir göstərir. Bu prosesin əsas aspektləri aşağıdakı kimidir:

Strategiya və məqsədlərin müəyyənləşdirilməsi: Liderlər təşkilatın strateji məqsədlərini və bu məqsədlərə çatmaq üçün konkret addımları müəyyənləşdirir. Onların bu istiqamətdə qərarları təşkilatın gələcək inkişafına yön verir.

Məlumatların toplanması və analizi: Qərar qəbul etmə prosesinin əsas mərhələlərindən biri məlumatların toplanması və analizi prosesidir. Liderlər bu mərhələdə mövcud məlumatları toplayır, analiz edir və ən doğru qərarları qəbul etmək üçün istifadə edir.

Komanda ilə müzakirələr: Liderlər qərar qəbul etmə prosesində komandanın fikirlərini və təkliflərini nəzərə alaraq müzakirələr aparır. Bu, həm liderin qərarlarının daha balanslı olmasına, həm də komandanın qərarlara bağlılığının artmasına səbəb olur.

Risklərin idarə edilməsi: Liderlər qərar qəbul etmə prosesində mövcud riskləri qiymətləndirir və bu riskləri minimuma endirmək üçün tədbirlər görür. Risklərin düzgün idarə edilməsi təşkilatın davamlılığını təmin edir.

Qərarların icrası: Qərarların uğurlu icrası liderin effektiv rəhbərliyini tələb edir. Liderlər icra prosesində bütün səviyyələrdə koordinasiya və nəzarət təmin edir, resursları yönləndirir və komandanın fəaliyyətini dəstəkləyir [2, s.27].

Liderlərin qərar qəbul etmə prosesində istifadə etdiyi müxtəlif modellər mövcuddur. Bu modellərdən bəziləri aşağıdakılardır:

Rasional model: Bu modelə görə liderlər məlumatları toplayır, analiz edir və ən optimal qərarı qəbul edirlər. Bu proses məntiqli və elmi yanaşma tələb edir.

İntuitiv model: Bu model liderlərin təcrübə və intuisiya əsasında qərar qəbul etməsini nəzərdə tutur. Liderlər bəzən kompleks və qeyri-müəyyən vəziyyətlərdə tez və təsirli qərarlar qəbul edə bilirlər.

Əməkdaşlıq modeli: Bu modelə görə liderlər qərar qəbul etmə prosesində komandanın üzvləri ilə sıx əməkdaşlıq edir. Komanda üzvlərinin fikirləri və təklifləri nəzərə alınaraq qərarlar qəbul edilir.

Kollektiv model: Bu model liderin qərar qəbul etmə prosesində komandanın hər bir üzvünün iştirakını və onların aktiv şəkildə cəlb olunmasını nəzərdə tutur. Kollektiv model qərarların daha demokratik və əhatəli olmasına səbəb olur [10, s.151].

Liderlərin qərar qəbul etmə bacarıqlarının inkişaf etdirilməsi təşkilatın uğuru üçün vacibdir. Bu bacarıqların inkişafı üçün bir sıra tədbirlər həyata keçirilə bilər:

Təlim və inkişaf proqramları: Liderlər üçün təşkil olunan təlim və inkişaf proqramları onların qərar qəbul etmə bacarıqlarını artırır. Bu proqramlar liderlərin strateji düşünmə və analiz bacarıqlarını inkişaf etdirir.

Mentorluq və kouçinq: Təcrübəli liderlər tərəfindən yeni liderlərə mentorluq və kouçinq xidməti göstərilməsi onların bacarıqlarını və təcrübəsini artırır.

İş təcrübəsi və praktikalar: Liderlərin müxtəlif sahələrdə iş təcrübəsi və praktikalar keçməsi onların qərar qəbul etmə bacarıqlarını artırır.

Əks-əlaqə və qiymətləndirmə: Liderlərin fəaliyyətinin müntəzəm olaraq qiymətləndirilməsi və onlara əks-əlaqə verilməsi, onların inkişafı üçün vacibdir [8, s.142].

Bu, liderlərin güclü və zəif tərəflərini müəyyən etməyə və onları inkişaf etdirməyə kömək edir.

## Nəticə

Rəhbər liderin nüfuzu və qərar qəbul etmə prosesində oynadığı rol təşkilatın uğurlu fəaliyyətində mühüm əhəmiyyətə malikdir. Liderin şəxsi keyfiyyətləri, bilik və təcrübəsi, effektiv kommunikasiya bacarıqları və emosional zəka səviyyəsi onun nüfuzunu müəyyən edir və qərar qəbul etmə prosesində təşkilatın uğurunu təmin edir. Bu səbəbdən, təşkilatlar liderlik bacarıqlarının inkişaf etdirilməsi və rəhbər liderlərin dəstək olunmasına xüsusi diqqət yetirməlidirlər.

Liderin öz sahəsində dərin biliklərə malik olması və zəngin təcrübə ilə təşkilata rəhbərlik etməsi,

onun nüfuzunu daha da artırır. Təcrübəli liderlər daha çevik qərarlar qəbul edə və mürəkkəb problemləri daha asanlıqla həll edirlər.

Effektiv kommunikasiya liderin nüfuzunu müəyyən edən mühüm faktorlardan biridir. Açıq, şəffaf və empatik ünsiyyət liderin təşkilatın üzvləri ilə əlaqələrini gücləndirir və onların motivasiyasını artırır.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Abbasov A.B., Abbasova R.Ə., Fərruxov A.H. və b. Biznesin əsasları. Bakı , 2005, 656 səh.*

*2. Əkbərova G., Korporativ münasibətlərin təşkilinin müasir problemləri, magistr dissertasiyası, Bakı, 2014, 90 səh.*

*3. Tağıyev A.H., Fərzəliyev S.A., (2007), Biznesin təşkili və idarə edilməsi, Bakı, "Təknur" MMC, 340 səh.*

*4. Гапененко А. Л. , А. П. Панкрухин, Стратегическое управление, Москва, 2004, 465 с.*

*5. Степанов Д.В.,"Эффективное управление", Команда, иерархия, единовластие. М., 2005, 144 с.*

*6. Харский К.В., "Благонадежность и лояльность персонала". СПб: Питер, 2003, 178 с.*

*7. Christina Osborne, Leadership, Dorling Lindersley limited, 2008, p.48-76*

*8. Darryl Plecas Colette Squires Len Garis, The Essentials of Leadership in Government, City of Surrey, Len Garis, 2018, p. 142*

*9. Jeffrey K. Pinto, Peg Thoms, Jeffrey Trailer, Todd Palmer, Michele Govekar, Project leadership from Theory to Practice, Pennsylvania USA, Project Management Institute Headquarters, 2008, p. 157*

*10. John Nirenberg, Global Leadership, Capstone publishing, 2002, p. 151*



**Mammadova Saba**
***College of Food Industry under Azerbaijan State University of Economics Department of "Economics and Management". Lecturer***


## THE AUTHORITY OF THE EXECUTIVE LEADER AND THEIR ROLE IN DECISION-MAKING

**Summary**


This article examines the role that executive leaders' authority plays in decision-making processes. The influence of senior leaders on decision-making in organizations and societies is widely analyzed. The article examines how leaders' personality traits, leadership styles, and the trust and authority they create within organizations affect effective decision-making processes.

Basically, it is emphasized that the trustworthiness and transparency of the executive leaders play an important role in the adoption and implementation of their decisions. The article focuses on leaders' strategic thinking abilities, ethical values, and ability to inspire their teams. At the same time, it is analyzed how leaders obtain the support of team members to achieve the organization's goals and what methods they use to ensure efficiency and effectiveness in this process.

In conclusion, the article shows that the authority and decision-making ability of executive leaders is one of the decisive factors in the success of organizations and societies. The importance of transparency, fairness and mutual trust is noted for increasing the authority of leaders. Building and maintaining this reputation is key to ensuring sustainable and effective decision-making.



**Key words:** *Executive leader, influence, decision-making, leadership style, personality traits, team.*



**Мамедова Саба**
***Колледж пищевой промышленности Азербайджанского Государственного Экономического Университета, Кафедра «Экономика и менеджмент», преподаватель***


## ПОЛНОМОЧИЯ РУКОВОДИТЕЛЯ И ЕГО РОЛЬ В ПРИНЯТИИ РЕШЕНИЙ

**Резюме**


В данной статье рассматривается роль, которую полномочия исполнительных руководителей играют в процессах принятия решений. Широко анализируется влияние высших руководителей на принятие решений в организациях и обществах. В статье рассматривается, как личностные качества лидеров, стили руководства, а также доверие и авторитет, которые они создают внутри организаций, влияют на эффективные процессы принятия решений.

В основном подчеркивается, что надежность

и прозрачность руководителей исполнительной власти играют важную роль в принятии и реализации их решений. В статье основное внимание уделяется способностям лидеров к стратегическому мышлению, этическим ценностям и способности вдохновлять свои команды. При этом анализируется, как лидеры получают поддержку членов команды для достижения целей организации и какие методы они используют для обеспечения эффективности и результативности в этом процессе.

В заключение в статье показано, что авторитет и способность руководителей-руководителей принимать решения являются одним из решающих факторов успеха организаций и обществ. Отмечается важность прозрачности, справедливости и взаимного доверия для повышения авторитета лидеров. Создание и поддержание этой репутации является ключом к обеспечению устойчивого и эффективного принятия решений.

**Ключевые слова:** *исполнительный лидер, влияние, принятие решений, стиль руководства, личностные качества, коллектив.*

## XÜLASƏ

Bu məqalədə rəhbər liderlərin nüfuzunun qərar qəbul etmə proseslərində oynadığı rolu araşdırılır. Rəhbər liderlərin təşkilatlarda və cəmiyyətlərdə nüfuz sahibi olmalarının qərarların qəbul edilməsinə olan təsiri geniş şəkildə analiz edilir. Məqalə liderlərin şəxsiyyət xüsusiyyətləri, liderlik tərzi və onların təşkilatlar içərisində yaratdıqları etibar və nüfuzun effektiv qərar qəbul etmə proseslərinə necə təsir etdiyini incələyir.

Əsasən, rəhbər liderlərin etibarlı və şəffaf olmasının, onların qərarlarının qəbul edilməsində və tətbiqində əhəmiyyətli bir rol oynadığı vurğulanır. Məqalədə liderlərin stratejik düşünmə qabiliyyətləri, etik dəyərləri və komandalarına ilham vermək bacarıqları üzərində dayanılır. Eyni zamanda, liderlərin təşkilatın məqsədlərinə çatmaq üçün komanda üzvlərinin dəstəyini necə əldə etdikləri, bu prosesdə səmərəlilik və effektivlik təmin etmək üçün hansı metodlardan istifadə etdikləri təhlil edilir.

Nəticə olaraq, məqalə göstərir ki, rəhbər liderlərin nüfuzu və qərar qəbul etmə qabiliyyəti təşkilatların və cəmiyyətlərin uğurunda həlledici faktorlardan biridir. Liderlərin nüfuzlarının artırılması üçün şəffaflıq, ədalət və qarşılıqlı etimadın önəmi qeyd edilir. Bu nüfuzun qurulması və qorunması, davamlı və təsirli qərar qəbul etmənin təmin olunmasında əsasdır.

**Açar sözlər:** *Rəhbər lider, nüfuz, qərar qəbul etmə, liderlik tərzi, şəxsiyyət xüsusiyyətləri, komanda.*

UOT 33
DOI: 10.30546/3006-0346.2024.4.82.90

# POST-KONFLİKT ÖLKƏLƏRDƏ İNVESTİSİYA CƏLBEDİCİLİYİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN TƏHLİLİ: AZƏRBAYCAN NÜMUNƏSİ

**MİSİR MƏMMƏDOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
*E-mail: misirmammadli@gmail.com*

## Giriş

Post-konflikt ölkələr adətən riskli biznes zonaları hesab edilir və bu ölkələrə sərmayə yatırmaq istəyən investorlar əsasən potensial imkan və təhlükələri nəzərdən keçirirlər; münaqişədən sonrakı qeyri-sabit və riskli siyasi, iqtisadi və ya sosial mühit irimiqyaslı investisiya layihələri üçün əsas təhlükə mənbəyi kimi qiymətləndirilir. Bu tip ölkələr arasındakı mübahisə və münaqişələr çox hallarda sərhəd əraziləri və resurslar üzərində baş verir, o cümlədən siyasi ideologiyalar və etnik millətçilik kimi məsələləri əhatə edir. Dünyanın bir çox regionlarında ərazi və etnik mübahisələr uzunmüddətli xarakter daşıyır və onların hər an alovlanıb silahlı münaqişəyə çevrilmə riski yüksəkdir [1]. Məhz bu səbəbdən qlobal şirkətlər üçün münaqişə zonalarına böyük investisiyalar yatırmaq təhlükəsizlik və səmərəlilik baxımından əlverişli hesab edilmir. Bu kontekstdə bir sıra siyasi, iqtisadi və hüquqi-institusional amillər vardır ki, post-konflikt ölkələrin investisiya cəlbediciliyində həlledici rol oynayırlar.

Post-konflikt ölkələrdə investisiya cəlbediciliyinə təsir göstərən amillər: ədəbiyyat icmalı

Artıq qeyd edildiyi kimi, iri investorlar keçmiş münaqişə zonalarında münaqişənin yenidən alovlanması riskini ciddi qiymətləndirirlər. Bununla belə, post-konflikt ölkələri potensial investorlara müəyyən təminatlar verə bilərlər. Təcrübə göstərir ki, münaqişə tərəfləri arasında qarşılıqlı etimada və sülhməramlı səylərə töhfə verə biləcək beynəlxalq institutların fəaliyyəti post-münaqişə zonalarına xarici investisiyaların cəlb edilməsində mühüm vasitə kimi çıxış edə bilər. Məsələn, Post-konflikt Ədalət (ing., Post-Conflict Justice, PCJ) mühakiməsi prosedurları münaqişədən sonrakı mühitlə bağlı qeyri-müəyyənliyi azaldır və xarici investorların münaqişə tərəflərinə inamını artırır. Post-konflikt ölkələrin liderləri münaqişədən sonrakı ədalət mühakiməsi prosedurlarını həyata keçirdikdə, potensial xarici investorlara hərbi-siyasi sabitlikdə qərarlı olduqlarını göstərirlər. 1970-2001-ci illər arasında aparılan statistik testlər münaqişədən sonrakı dövlətlərdə PCJ institutları ilə birbaşa xarici investisiyalar (BXİ) arasında əlaqənin olduğunu təsdiqləyir. Beləliklə, tədqiqatlar göstərir ki, transformativ ədalət mühakiməsi proseslərini həyata keçirən dövlətlər həyata keçirməyənlərə nisbətən daha çox birbaşa xarici investisiya əldə edirlər [2].

Post-konflikt ölkələrə xarici investisiya cəlb edilməsi prosesini stimullaşdıran digər amil investisiya qəbul edən ölkənin yerli və beynəlxalq investisiya qanunvericilik bazasının funksionallığıdır. İnvestorlar və transmilli korporasiyalar (TMK) çox vaxt xarici sərmayələri qorumaq üçün daxili qanunlara etibar etmirlər, ölkələr bu qanunları öz məqsədləri naminə dəyişə bilərlər. Dövlətlər və özəl firmalar arasında müqavilələrin icrasında beynəlxalq adət hüququ da ciddi etibarlılığa malik deyildir. Odur ki, beynəlxalq müqavilələr və ikitərəfli investisiya sazişləri xarici investisiyaların qorunması üçün məcburi və etibarlı müqavilə mexanizmini təmin edir. İkitərəfli investisiya sazişi (ing., Bilateral Investment Treaty, BIT) iki ölkə arasında müvafiq ölkələrin investorları tərəfindən bir-birinin ərazisində qoyulan investisiyaların təşviqi və qorunması haqqında imzalanmış sazişdir [3].

İkitərəfli investisiya sazişlərinin (İİS) imzalanmasında əsas məqsəd investorları qorumaqdır. Bu müqavilələr əsasən xarici investorlara ədalətli və bərabər münasibət, milliləşdirmə və dəymiş ziyan zamanı kompensasiya və əvəzin ödənilməsi, mübahisələrin həlli, investisiya ilə bağlı kapitalın sərbəst köçürülməsi məsələlərini tənzimləyir. Tədqiqatlara görə, İİS-lər inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə birbaşa xarici investisiya axınına müəyyən müsbət təsir göstərir [4]. Bundan əlavə, münaqişə ölkələri arasında ikitərəfli BXİ birtərəfli BXİ-dən daha güclü təsirə malikdir. Yəni münaqişənin tərəfi olmuş ölkələrin qarşılıqlı sərmayələri sülhün davamlılığı və hərbi münaqişə ehtimalının azaldılması baxımından xüsusi əhəmiyyət kəsb edir [5]. Bu kontekstdə münaqişədən sonrakı dövrdə ikitərəfli investisiya və ticarət sazişlərinin imzalanması və münaqişəli ölkələrin regional inteqrasiya proseslərinə qoşulması təhlükəsiz investisiya mühitinin formalaşdırılması ilə yanaşı, bu ölkələrə xarici investi-

siya axınını bir çox cəhətdən asanlaşdıra bilər.

Münaqişədən sonra sülh quruculuğu təhlükəsizlik və sabitliyin təmin edilməsi ilə yanaşı, siyasi institutların inkişafı və müvafiq islahatların həyata keçirilməsini əhatə edir. İnkişaf etməkdə olan ölkələrdə kövrək siyasi institutlar birbaşa xarici investisiya axınına ciddi mane kimi qiymətləndirilir. Siyasi idarəçilik problemləri, demokratiya və vətəndaş cəmiyyəti institutlarının vəziyyəti və qanunun aliliyi prinsipinin işlərliyi kimi məsələlər investorların ölkələrin investisiya profilini qiymətləndirərkən diqqət yetirdikləri mühüm siyasi və institusional amillərdir. Həmçinin post-konflikt ölkələri korrupsiya, layihələrin idarə edilməsində şəffaflıq və hesabatlılığın olmaması, məhkəmə sisteminin qeyri-müstəqilliyi kimi bir sıra problemlərlə üzləşirlər ki, bu da transmilli korporasiyaların və digər iri investorların investisiya qərarlarına ciddi təsir göstərir [6].

Münaqişədən sonrakı bölgələrdə xarici investorların qərar və davranışlarına təsir edən digər amil hərbi xərclərdir. Belə ki, BXİ ilə dövlətlərin sülh dövründə artan hərbi xərcləri arasında mənfi əlaqə mövcuddur; silahlı münaqişə tərəfi olmayan ölkələr tərəfindən hərbi xərclərin artırılması infrastruktura investisiyaların azalması və xarici investorlar üçün qəbul edilən risk səbəbindən xarici investisiya axınını azaldır. Əksinə, silahlı münaqişə zamanı ölkələr öz hərbi xərclərini artırdıqda, bu, investorların təhlükəsiz gəlirlərə inamını artırır və XBİ axınını artırır. Beləliklə, tədqiqat təklif edir ki, siyasətçilər xarici investisiyaları təşviq etmək üçün hərbi-siyasi təhlükə olmadığı halda yüksək müdafiə xərclərindən qaçmalı, lakin hərbi təhlükə zamanı xarici investisiyaları cəlb etmək və qorumaq üçün hərbi xərcləri kifayət qədər yüksək saxlamalıdırlar [7].

**Təhlil**

Silahlı münaqişələr bir çox hallarda tərəflər arasında iqtisadi əlaqə və kommunikasiyaların birbaşa kəsilməsinə və ya əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına gətirib çıxarır. Bunun ən bariz nümunəsi Sovet İttifaqının dağılması prosesində Ermənistanın Azərbaycan Respublikasının ərazilərini işğal etməsi və 30 illik Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycan hərb yolu ilə silahlı münaqişəyə son qoydu və iki ölkənin dövlət sərhədlərində nisbi sakitlik yarandı; lakin sülh müqaviləsi imzalanmadığına görə siyasi və iqtisadi əlaqələrin bərpası hələ ki mümkün deyildir. Bununla belə, münaqişələr əbədi deyil və yaxın gələcəkdə Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması iqtisadi əlaqələrin bərpası və regional inteqrasiya üçün geniş imkanlar aça bilər. Bu kontekstdə xarici investisiyalar istər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi quruculuğu prosesində, istərsə də iki ölkə arasında iqtisadi əlaqələrin yaradılması və inkişafında mühüm amillərdən biri kimi qiymətləndirilə bilər. Tədqiqatlar göstərir ki, qlobal miqyaslı xarici investisiyalar ilk növbədə yeni ərazi problemlərinin yaranma ehtimalını azaldır. Bundan əlavə, münaqişə tərəfləri arasında ikitərəfli investisiya axını münaqişənin genişlənməsi şansını məhdudlaşdırır və dinc idarəçilik və sülhün qurulması perspektivlərini artırır. Ümumilikdə isə adambaşına düşən ÜDM ilə ölçülən iqtisadi inkişaf qonşu ölkələrin yeni sərhəd münaqişələrinə girmə ehtimalını azaldır [8].

Məlumdur ki, Azərbaycanın post-konflikt ərazilərinin reabilitasiyası və ölkənin sosial-iqtisadi sisteminə inteqrasiyası böyük həcmdə maliyyə vəsaitləri tələb edir. Azad edilmiş ərazilərdə ilkin infrastruktur quruculuğu və bərpa işləri dövlətin maliyyə vəsaitləri hesabına həyata keçirilsə də, kənd təsərrüfatı və sənaye sahələrinə xarici maliyyə mənbələrindən vəsaitlərin cəlb edilməsi hökumətin iqtisadi siyasətinin prioritetlərinə daxildir. Bu prosesdə birbaşa xarici investisiyalar, o cümlədən beynəlxalq maliyyə institutları və donor təşkilatların vəsaitləri dövlət büdcəsinin yükünü azaldacaq və işğaldan azad edilmiş ərazilərin davamlı inkişafı üçün alternativ maliyyə mənbələri kimi çıxış edəcəkdir. Post-konflikt ölkələrində investisiya layihələrinin təsirlərinin qiymətləndirilməsi göstərmişdir ki, bu cür layihələr yerli iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi, iqtisadi artıma müsbət təsir göstərir, habelə məşğulluğun və vergi ödəyicilərinin sayının artmasına, biznes strukturunun emal müəssisələrinin xeyrinə təkmilləşdirilməsinə töhfə verir. Lakin artıq qeyd edildiyi kimi, xarici investorlar bu sahələrə irimiqyaslı investisiyalar yatırmaq üçün münaqişədən sonrakı sabitliyin davamlılığına dair güclü təminatlara üstünlük verirlər. Bu baxımdan Ermənistanla Azərbaycan arasında yekun sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı proseslərin yekunlaşması, regional kommunikasiyaların açılması, ticarət-iqtisadi əlaqələrin bərpası və mehriban qonşuluq münasibətlərinin qurulması bölgədə xarici investisiyalar üçün zəmin yaradacaq ilkin şərtlər hesab edilə bilər.

Bu kontekstdə imzalanacaq sülh sazişində təzminat hüququnun bütün formalarının əks olunması iki ölkə arasında davamlı sülhə və qarşılıqlı iqtisadi inkişafa təkan verəcək mühüm amil kimi çıxış edə bilər. Münaqişədən sonrakı dövrdə beynəlxalq təşkilat və institutların iştirakı ilə ədalət mühakiməsi prosedurlarının həyata keçirilməsi və kompensasiya öhdəliklərinin yerinə yetirilməsi xarici investorların münaqişə tərəflərinin sülhyaratma və dinc qonşuluq səylərinə inamını artıracaqdır. Bu məqsədlə Ermənistan və Azərbaycanın qarşılıqlı razılığı ilə müharibə cinayətlərinin üzə çıxarılması üçün beynəlxalq komissiyaların təşkili, müharibə cinayətkarlarının cəzalandırılması mexanizminin hazırlanması, amnistiya və təzminatların verilməsi, məhkəmələr və digər zəruri mühakimə prosedurları həyata keçirilə bilər. Bu siyasi və hüquqi tədbirlər azad edilmiş ərazilərin xarici investisiya cəlbediciliyini formalaşdırma prosesində mühüm rola malik olacaqdır.

Artıq qeyd edildiyi kimi, xarici investorlar üçün ən mühüm məsələlərdən biri də yerli və beynəlxalq investisiya qanunvericiliyinin innovativlik və funksionallığıdır. Bu baxımdan Azərbaycan Respublikasının investisiya qanunvericiliyi və beynəlxalq investisiya sazişlərinin təmin etdiyi təşviq və qoruma mexanizmlərinin nəzərdən keçirilməsi və təkmilləşdirilməsi zəruridir. Azərbaycanda xarici investisiya fəaliyyəti daxili qanunvericilik və müxtəlif beynəlxalq müqavilələr, o cümlədən ikitərəfli investisiya sazişləri və əlaqəli sektorlara aid qanunlarla tənzimlənir. 2022-ci ilin iyul ayında qüvvəyə minən “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu xarici investisiyalar və investisiya fəaliyyəti haqqında əvvəlki qanunları əvəz edib. Bu qanun investisiya fəaliyyətində dövlət siyasətinin əsas istiqamətləri, investisiyaların təşviqi tədbirləri, investorların hüquqlarının qorunması mexanizmləri və dövlət təminatlarını, mübahisələrin həlli üsulları və investorlara vurulan zərərlərin kompensasiyası ilə bağlı mühüm məsələləri əhatə edir. Qanuna görə, xarici investisiyalar dövlət tərəfindən qorunur və xüsusi hallar istisna olmaqla, milliləşdirilə və dövlət tərəfindən alına bilməz. Xarici investorlar Azərbaycan Respublikası ilə xarici investor arasındakı mübahisələrin həlli üçün yerli məhkəmələrlə yanaşı, beynəlxalq arbitraja müraciət edə bilərlər. Arbitraj qərarları yerli və beynəlxalq qanunvericiliyə uyğun olaraq tanınır və həyata keçirilir.

Göründüyü kimi, Azərbaycanın investisiya qanunvericiliyi xarici investisiyaları kifayət qədər müdafiə mexanizmləri ilə təmin edir və xüsusilə, “oxşar vəziyyətlərdə xarici investorlara və onların investisiyalarına yerli investorlara və onların investisiyalarına tətbiq edilən rejimdən az əlverişli olmayan rejim (milli rejim) tətbiq edilir” [9]. Bununla belə, bəzən mübahisələrin həlli zamanı yerli qanunvericiliyin müddəaları investorları qane etmədikdə, beynəlxalq qanunvericilik daha əlverişli şərtlər təmin edir və ikitərəfli investisiya sazişlərində nəzərdə tutulan fərqli qaydalar tətbiq edilir.

Müstəqilliyin ilk illərindən etibarən Azərbaycan Respublikası ikitərəfli investisiya sazişlərinin imzalanmasına xüsusi diqqət yetirib və imzalanmış 50 sazişdən 44-ü hal-hazırda qüvvədədir. Müqayisə üçün qeyd edim ki, bu müddət ərzində Ermənistan 42 ölkə ilə, Gürcüstan isə 37 ölkə ilə ikitərəfli investisiya sazişi imzalayıb [3]. Bununla belə, hesab edirəm ki, ikitərəfli investisiya sazişlərinin sayı artırılmalı və onların coğrafiyası daha da genişləndirilməlidir. Bu, post-münaqişə dövründə Azərbaycanın investisiya qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən biri kimi həm beynəlxalq investorlar üçün daha təhlükəsiz və institusional əsaslı investisiya mühiti təmin edəcək, həm də Azərbaycanla investisiya sazişləri imzalamış ölkələrin işğaldan azad edilmiş ərazilərə investisiya yatırmaq imkan və istəklərini artıracaqdır. Bundan əlavə, sülh prosesləri yekunlaşdıqdan sonra, Azərbaycanla Ermənistan arasında ikitərəfli investisiya sazişinin imzalanması orta və uzun dövrdə qarşılıqlı investisiya axınlarının təşviqi üçün yaxşı bir başlanğıc ola bilər. Belə bir saziş tərəflər qarşısında sərmayələrin qarşılıqlı qorunması və qarşılıqlı təşviqi üzrə beynəlxalq hüquqi qüvvəyə malik öhdəliklər qoyacaqdır ki, bu da münaqişədən sonrakı dövrdə regional sülh və təhlükəsizliyin gücləndirilməsinə töhfə verə bilər. Həmçinin Gürcüstanın da iştirak etdiyi iqtisadi inteqrasiya və əməkdaşlığa dair çərçivə sazişləri regionun post-münaqişə zonalarının davamlı iqtisadi inkişafı və rifahı üçün ciddi stimullar, Cənubi Qafqaz regionunda birbaşa xarici investisiyalar üçün daha açıq və cəlbedici mühit yarada bilər.

Post-münaqişə şərtlərində Azərbaycanın xarici investisiya cəlbediciliyinə təsir edəcək amillərdən biri kimi institutsional inkişaf amilini nəzərdən keçirmək mümkündür. Son illərdə həyata keçirilən bir sıra islahatlara baxmayaraq, Azərbaycanın Korrup-

siya Qavrama İndeksi üzrə ildən-ilə geriləməsi və digər institusional problemlər ölkənin investisiya cəlbediciliyi profilini zəiflədə və işğaldan azad edilmiş ərazilərə xarici investisiyaların cəlb edilməsi prosesinə mənfi təsir göstərə bilər. Odur ki, idari institutların inkişafının dəstəklənməsi və onların gücləndirilməsi, idarəetmədə şəffaflığın artırılması, mülkiyyət hüquqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsi, məhkəmə sisteminin inkişaf etdirilməsi, iqtisadi azadlıqların genişləndirilməsi, o cümlədən hüquqi-normativ qaydaların təkmilləşdirilməsi post-konflikt investisiya cəlbediciliyinə müsbət təsir göstərəcəkdir.

Münaqişədən sonrakı transformasiyalar şəraitində özəl sektorla xüsusən də xarici şirkətlərlə hökumət arasında kommunikasiya imkanlarının artırılması xarici investisiyalar baxımından mühüm əhəmiyyət kəsb edir. Xarici şirkətlərin cari və gələcək investisiya planları barədə davamlı olaraq məlumatlandırılması, qarşılıqlı kommunikasiya imkanlarının genişləndirilməsi və proqnozlaşdırıla bilən investisiya mühitinin yaradılması post-münaqişə zonalarında xarici investisiyaları ciddi şəkildə stimullaşdıra bilər. Araşdırmalar göstərir ki, bu sahədə bir sıra boşluqlar var. Məsələn, avropalı investorlar işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək investisiya layihələrində iştiraka ciddi maraq göstərsələr də, bu layihələr haqqında məlumat almaqda və hökumətlə əlaqə saxlamaqda ciddi çətinliklərlə üzləşdiklərini bildirirlər [10]. Azad edilmiş ərazilərdə həyata keçirilməsi planlaşdırılan investisiya layihələri ilə bağlı informasiya şəffaflığı və kommunikasiya siyasətini gücləndirməklə Azərbaycan hökuməti bu layihələrin xarici investisiyalara çıxış imkanlarını artıra bilər.

Artıq qeyd edildiyi kimi, hərbi xərclərin səviyyəsi ilə birbaşa xarici investisiyalar arasında əlaqə mövcuddur. Hesab edirəm ki, orta və uzunmüddətli perspektivdə bu məsələyə baxılmalıdır. Azərbaycanın geostrateji mövqeyi və qlobal təhlükəsizlik problemləri hərbi xərclərin davamlı olaraq artırılmasını şərtləndirir. Lakin Ermənistanla yekun sülh sazişi imzalandıqdan və hərbi təcavüz riski aradan qalxdıqdan sonra silahlanma xərclərinin azaldılması və ya müəyyən səviyyədə saxlanılması beynəlxalq investorların yeni silahlı münaqişə (müharibə) ilə bağlı qərarsızlığını aradan qaldıra bilər və Qarabağa və ətraf ərazilərə xarici investisiyaların yatırılmasını stimullaşdıran amil kimi çıxış edə bilər.

**Nəticə**

Post-konflikt transformasiyalar kontekstində, Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin imzalanması və iqtisadi əlaqələrin bərpası işğaldan azad edilmiş ərazilərdə təhlükəsiz və etibarlı investisiya mühitinin ilkin şərtlərini təşkil edəcəkdir. Post-konflikt ədalət mühakiməsi və kompensasiya prosedurlarının həyata keçirilməsi və sülh dövründə hərbi xərclərin azaldılması da yeni münaqişə riskini azaldacaq və azad edilmiş ərazilərdə xarici investisiyaları stimullaşdıracaqdır.

Bundan əlavə, yerli investisiya qanunvericiliyinin təkmilləşdirilməsi və ikitərəfli investisiya sazişlərinin artırılması Azərbaycanın beynəlxalq investisiya profilini yaxşılaşdırmaqla yanaşı, xarici investisiyaların müdafiə və təşviq mexanizmlərini möhkəmləndirəcəkdir. Bu kontekstdə, yaxın gələcəkdə Azərbaycanla Ermənistan arasında ikitərəfli investisiya sazişinin imzalanması iki ölkə arasında dinc qonşuluq və iqtisadi inteqrasiya proseslərinə ciddi töhfə kimi nəzərdən keçirilə bilər. Həmçinin, Azərbaycanda idarəçilik institutlarının gücləndirilməsi və bu istiqamətdə aparılan islahatların genişləndirilməsi, habelə xarici investorlarla hökumət arasında kommunikasiya imkanlarının artırılması da mühüm məsələlərdəndir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Carter, D. B., Wellhausen, R. L., & Huth, P. K. (2019). International law, territorial disputes, and Foreign direct investment. International Studies Quarterly , 63 (1), 58-71.*

*2. Appel, B. J., & Loyle, C. E. (2012). The economic benefits of justice: Post-conflict justice and foreign direct investment. Journal of Peace Research, 49(5), 685-699.*

*3. UNCTAD. (2024). Investment Policy Hub. https://investmentpolicy.unctad.org/international-investment-agreements/by-economy*

*4. UNCTAD. (2009). The Role of International Investment Agreements in Attracting Foreign Direct Investment to Developing Countries. p.144. https://digitallibrary.un.org/record/673286/files/diaeia20095_en.pdf?ln=ru*

*5. Li, Q. (2008). Foreign direct investment and interstate military conflict. Journal of International Affairs, 53-66.*

*6. Turner, N., Aginam, O., & Popovski, V. (2008). Post-conflict countries and foreign investment.*

UN University. http://collections.unu.edu/eserv/UNU:3066/pb08_08.pdf

7. Aziz, N., & Khalid, U. (2019). Armed conflict, military expenses and FDI inflow to developing countries. Defence and Peace Economics, 30(2), 238-251.

8. Lee, H., & Mitchell, S. M. (2012). Foreign direct investment and territorial disputes. Journal of Conflict Resolution, 56 (4), 675-703.

9. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu. https://e-qanun.az/framework/50048

10. Avropa İttifaqı. (2021). Biznes mühiti hesabatı – Azərbaycan. 6-cı buraxılış. https://www.eeas.europa.eu/sites/default/files/documents/A%C4%B0%20Biznes%20M%C3%BChiti%20Hesabat%C4%B1%20Az%C9%99rbaycan%202021.pdf

### XÜLASƏ

Tədqiqatın məqsədi: Bu tədqiqatın məqsədi post-konflikt ölkələrin investisiya cəlbediciliyinə təsir göstərən amilləri Azərbaycan perspektivindən qiymətləndirmək, həmçinin ölkə və işğaldan azad edilmiş ərazilərin xarici investisiya cəlbediciliyinin stimullaşdırılması prosesində effektiv ola biləcək siyasi, hüquqi və iqtisadi tənzimləmələr barədə müzakirə aparmaqdır.

Təqdiqatın metodu: Məqalədə post-konflikt ölkələrdə investisiya cəlbediciliyinə təsir göstərən amillərin siyasi, hüquqi və iqtisadi aspektlərini araşdıran tədqiqat işlərinin ədəbiyyat icmalı həyata keçirilmiş və bu amillər iqtisadi analiz, ümumiləşdirmə və proqnozlaşdırma metodları vasitəsilə Azərbaycan perspektivindən təhlil edilmişdir.

Tədqiqatın nəticələri: Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin imzalanması, iqtisadi əlaqələrin bərpası, münaqişədən sonrakı ədalət mühakiməsi və kompensasiya prosedurlarının həyata keçirilməsi, yerli investisiya qanunvericiliyinin daha da təkmilləşdirilməsi və xarici investisiyaları beynəlxalq qoruma və təşviq mexanizmləri ilə təmin edən ikitərəfli investisiya sazişlərinin sayının artırılması, xarici investorlarla hökumət arasında kommunikasiya imkanlarının genişləndirilməsi, o cümlədən hərbi xərclərin azaldılması post-münaqişə dövründə etibarlı və təhlükəsiz investisiya mühitinin formalaşdırılması prosesində əsas amillər kimi qiymətləndirilə bilər.

**Açar sözlər:** *post-konflikt, investisiya, təhlil, Azərbaycan, Qarabağ.*

## ANALYSIS OF FACTORS AFFECTING THE INVESTMENT ATTRACTIVENESS IN POST-CONFLICT COUNTRIES: THE CASE OF AZERBAIJAN

**Mammadov Misir İlham**
***Azerbaijan State University of Economics, Phd student***
***Email: misirmammadli@gmail.com***

### SUMMARY

Purpose: The purpose of this research is to evaluate the factors affecting the investment attractiveness of post-conflict countries from the perspective of Azerbaijan, and to discuss the political, legal, and economic regulations that can be effective in stimulating the foreign investment attractiveness of the country and the liberated territories.

Method: In this article, a literature review of research works that explore the political, legal, and economic aspects of factors affecting investment attractiveness in post-conflict countries has been conducted. These factors have been analyzed from the perspective of Azerbaijan using economic analysis, generalization, and forecasting methods.

Results: The signing of a final peace agreement between Azerbaijan and Armenia, the restoration of economic relations, the implementation of post-conflict justice and compensation procedures, further improvement of local investment legislation, increasing the number of bilateral investment treaties that provide international protection and promotion mechanisms for foreign investments, expanding communication opportunities between the government and foreign investors, as well as reducing military expenditures can be considered as key factors in the formation of a reliable and safe investment environment in the post-conflict period.

**Keywords:** *post-conflict, investment, analysis, Azerbaijan, Karabakh.*

# АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ИНВЕСТИЦИОННУЮ ПРИВЛЕКАТЕЛЬНОСТЬ ПОСТКОНФЛИКТНЫХ СТРАН: ПРИМЕР АЗЕРБАЙДЖАНА

**Мамедов Мисир Ильхам**
***Азербайджанский Государственный Экономический Университет, докторант***
***Эл. почта: misirmammadli@gmail.com***

## РЕЗЮМЕ

Цель: Целью данного исследования является оценка факторов, влияющих на инвестиционную привлекательность постконфликтных стран с точки зрения Азербайджана, и обсуждение политических, правовых и экономических норм, которые могут быть эффективными для стимулирования иностранной инвестиционной привлекательности страны и освобожденных территорий.

Метод: В данной статье проведен обзор литературы исследовательских работ, в которых исследуются политические, правовые и экономические аспекты факторов, влияющих на инвестиционную привлекательность постконфликтных стран. Эти факторы были проанализированы с точки зрения Азербайджана с использованием методов экономического анализа, обобщения и прогнозирования.

Результаты: Подписание окончательного мирного соглашения между Азербайджаном и Арменией, восстановление экономических отношений, реализация постконфликтных процедур правосудия и компенсации, дальнейшее совершенствование местного инвестиционного законодательства, увеличение количества двусторонних инвестиционных договоров, расширение возможностей коммуникации между правительством и иностранными инвесторами, а также сокращение военных расходов можно считать ключевыми факторами формирования надежной и безопасной инвестиционной среды в постконфликтный период.

**Ключевые слова:** *постконфликтный период, инвестиции, анализ, Азербайджан, Карабах.*

UOT 338.46
DOI:10.30546/3006-0346.2024.4.82.92

# XİDMƏT SƏNAYELƏRİNDƏ KORPORATİV MƏDƏNİYYƏTİN TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜÇÜN ƏSAS METRİKLƏR

**AYXAN RAMAZANOV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, magistr*
*E-mail: aykhanramazanov99@gmail.com*

## Xidmət Sənayelərində Korporativ Mədəniyyətin Təsirinin Qiymətləndirilməsi üçün Əsas Metriklərə Giriş

Müştəri məmnuniyyətinin əsas olduğu xidmət sənayesinin dinamik mənzərəsində korporativ mədəniyyətin təsirini qiymətləndirməmək olmaz. Şirkətin mədəniyyəti onun dəyərlərini, davranışlarını və qarşılıqlı əlaqələrini formalaşdırır, nəticədə onun nüfuzunu və uğurunu müəyyən edir. Xidmət yönümlü təşkilatlarda korporativ mədəniyyətin effektivliyini ölçmək üçün bir sıra əsas göstəricilər əvəzolunmaz fikirlər təqdim edir. Əsas göstəricilərdən biri işçilərin işə nə dərəcədə sadiq olduqlarını və şirkətin məqsədlərinə uyğunluğunu əks etdirən işçilərin işə cəlb edilməsidir. Yüksək səviyyəli məşğulluq tez-tez üstün müştəri xidməti ilə əlaqələndirilir, çünki motivasiya edilmiş işçilər müştəri ehtiyaclarını ödəmək üçün daha yüksək və kənara çıxma ehtimalı yüksəkdir. Bundan əlavə, dövriyyə dərəcəsi həlledici göstərici kimi çıxış edir; aşağı dövriyyə nisbəti müsbət iş mühiti və güclü işçi məmnuniyyətini göstərir, yüksək dövriyyə isə korporativ mədəniyyət daxilində əsas problemləri göstərə bilər. Net Promoter Score (NPS) və Customer Satisfaction Score (CSAT) kimi müştəri məmnuniyyəti göstəriciləri korporativ mədəniyyətin təsiri ilə bağlı başqa perspektiv təklif edir. Bu ölçülər müştərilərin müvafiq olaraq şirkətə tövsiyə etmə ehtimalını və onların göstərilən xidmətdən ümumi məmnuniyyətini ölçür. Müsbət müştəri təcrübəsinin təşviqində korporativ mədəniyyətin mühüm rolunu vurğulayan işçilərin işə cəlb edilməsi və müştəri məmnuniyyəti arasında müsbət korrelyasiya tez-tez müşahidə olunur. Bundan əlavə, müxtəliflik və inklüzivlik göstəriciləri korporativ mədəniyyətin inklüzivliyinə dair anlayışlar təmin edir. Təşkilatın müxtəlif səviyyələrində müxtəlifliyin təmsil olunması və daxilolma indeksi balları kimi göstəricilər müxtəlif və ədalətli iş yerinin yaradılması istiqamətində irəliləyişin ölçüləbilən ölçülərini təklif edir. Xülasə, xidmət sənayelərində korporativ mədəniyyətin təsirinin qiymətləndirilməsi işçilərin cəlb edilməsi, dövriyyəsi, müştəri məmnuniyyəti, müxtəliflik və inklüzivliklə bağlı ölçüləri nəzərə alan hərtərəfli yanaşma tələb edir. Bu əsas göstəriciləri izləməklə, təşkilatlar öz mədəniyyət təşəbbüslərinin effektivliyini qiymətləndirə və müstəsna xidmətlərin göstərilməsi üçün əlverişli iş mühitinin davamlı olaraq yaxşılaşdırılması və təşviq edilməsi üçün əsaslandırılmış qərarlar qəbul edə bilərlər.

## Məqsəd

Xidmət sənayesində korporativ mədəniyyətin təsirinin qiymətləndirilməsi onun həm işçilərin fəaliyyətinə, həm də müştəri məmnuniyyətinə necə təsir etdiyini başa düşmək üçün çox vacibdir. Bu qiymətləndirmə üçün əsas ölçü iki əsas komponenti əhatə edən İşçilərin Tənzimlənməsi konsepsiyasından asılıdır: Sorğular və Əlaqələr və Net Promoter Score (eNPS).

Mütəmadi olaraq işçilərin işə cəlb olunması sorğuları korporativ mədəniyyətin sağlamlığının ölçülməsi üçün əsas vasitə kimi xidmət edir. Bu sorğulara adətən ümumi məmnuniyyəti, motivasiyanı və korporativ dəyərlərə uyğunluğu ölçmək üçün hazırlanmış suallar daxildir. Əsas məqsəd işçilərin təcrübələri və iş yeri mühiti haqqında təsəvvürləri ilə bağlı dürüst və hərtərəfli rəy toplamaqdır. Ümumi iş məmnunluğuna yönəlmiş suallar işçilərin öz rollarında məmnunluq və dəyərli hiss edib-etmədiklərini müəyyən etməyə kömək edir. Yüksək məmnunluq səviyyəsi çox vaxt işçilərin yüksək qiymətləndirildiyini və məşğul olduqlarını hiss etdikləri müsbət korporativ mədəniyyətin göstəricisidir. İşçiləri hərəkətə gətirən və onları motivasiya edən şeyləri başa düşmək vacibdir. Sorğulara onların işə olan həvəsi, əlavə mil getməyə hazır olmaları və ümumi enerji səviyyələri ilə bağlı suallar daxil ola bilər. Motivasiya edilmiş işçilər ümumiyyətlə daha məhsuldardır və müştəri məmnuniyyətinə birbaşa təsir edən daha yaxşı xidmət göstərirlər. Sorğular işçilərin şirkətin əsas dəyərlərini anlayıb təcəssüm etdirmələrini qiymətləndirir. İşçilərin dəyərləri təşkilatın dəyərləri ilə üst-üstə düşdükdə, komanda işinin və ardıcıl müştəri xidmətinin həyati əhəmiyyət kəsb etdiyi xidmət sahələrində çox vacib olan vahid və dəstəkləyici mühiti gücləndirir.

eNPS, işçilərin sədaqətini və məmnunluğunu ölçmək üçün hazırlanmış xüsusi bir metrikdir. O, işçilərdən öz iş yerlərini başqalarına tövsiyə etmək ehtimalını 0-dan 10-a qədər miqyasda qiymətləndirməyi xahiş edir. Ballar daha sonra Promoterlər (9-10), Passivlər (7-8) və Detractors (0-6) kimi təsnif edilir [5, p.107]. Ehtimallarını yüksək qiymətləndirən işçilər promouter hesab edilir. Onlar adətən iş mühitindən çox razıdırlar və çox güman ki, şirkət haqqında həm daxili, həm də xaricdə müsbət danışacaqlar. Orta bal verənlər razıdırlar, lakin həvəsli deyillər. Onların şirkəti aktiv şəkildə tanıtmaq ehtimalı yoxdur, lakin onlar da pisləyici deyillər. Aşağı bal toplayan işçilər narazıdırlar və mənfi danışaraq şirkətin nüfuzuna xələl gətirə bilər. eNPS işçilərin əhvali-ruhiyyəsinin aydın, ölçüləbilən ölçüsünü təmin edir. Daha yüksək eNPS daha müsbət korporativ mədəniyyətə işarə edir, çünki bu, məşğul, sadiq və şirkət üçün müdafiə etmək istəyən işçi qüvvəsini əks etdirir.

Xidmət sənayesində korporativ mədəniyyətin təsiri ən yaxşı şəkildə eNPS ilə birlikdə işçilər arasında müntəzəm sorğular və rəylərin kombinasiyası vasitəsilə qiymətləndirilir. Bu alətlər birlikdə işçi məmnuniyyəti, motivasiya və korporativ dəyərlərlə uyğunlaşmanın hərtərəfli görünüşünü təmin edərək, həm işçi təcrübəsində, həm də müştəri məmnuniyyətində davamlı təkmilləşdirməyə səbəb ola biləcək dəyərli fikirlər təklif edir.

Xidmət sənayesində korporativ mədəniyyətin təsirinin qiymətləndirilməsi onun həm işçilərin işə cəlb edilməsinə, həm də müştəri məmnunluğuna təsirini başa düşmək üçün vacibdir. Bu təsirin qiymətləndirilməsinin ən təsirli yollarından biri iki əsas komponenti əhatə edən Dövriyyə və Saxlama Dərəcələri ölçüləridir: Könüllü Dövriyyə Faizləri və İşçilərin Saxlanılması Faydaları.

**Metodlar**

Xidmət sahələrində korporativ mədəniyyət təşkilat fəaliyyətinin müxtəlif aspektlərinə əhəmiyyətli dərəcədə təsir göstərir və bu təsirin qiymətləndirilməsi üçün əsas göstəricilərdən biri işdən çıxma nisbətidir. İşçilərin işdə olmadıqları günlərin sayını izləyən işdən çıxma nisbəti iş yeri mədəniyyətində əsas problemlərin həlledici göstəricisi kimi xidmət edir. İşdən çıxma hallarının yüksək olması işçilərin narazılığı, aşağı əhvali-ruhiyyə, tükənmişlik və zəif idarəetmə təcrübələri kimi bir sıra əsas problemlərdən xəbər verə bilər. İşdən çıxma nisbətləri təşkilatın mədəniyyətinin ümumi sağlamlığını əks etdirir [2, p.89]. İşçilər tez-tez işi əldən verdikdə, bu, çox vaxt şirkət daxilində lazımi səviyyədə qiymətləndirilməmiş və ya qiymətləndirilməmiş hisslərdən qaynaqlana bilən bağlılıq və motivasiya çatışmazlığına işarə edir. Dəstəkləyici və müsbət korporativ mədəniyyətdə işçilər aidiyyət və məqsəd hissini daha çox hiss edir, lazımsız işdən çıxma ehtimalını azaldır. Əksinə, toksik və ya dəstəklənməyən mədəniyyət işçiləri iş yerindəki stress və ya narazılığın öhdəsindən gəlmək üçün daha çox xəstə günlər və ya şəxsi məzuniyyətlər almağa sövq edə bilər. Bundan əlavə, yüksək işdən çıxma nisbətləri işçilərin ardıcıl və etibarlı mövcudluğunun vacib olduğu sənayelərdə xidmət axınını poza bilər. Bu, məhsuldarlığın müştəri məmnuniyyətinin azalmasına və nəticədə şirkətin mənfəətinə mənfi təsir göstərə bilər. Məsələn, səhiyyə, qonaqpərvərlik və ya pərakəndə satış kimi sektorlarda işçilərin olmaması xidmət keyfiyyətinə birbaşa təsir göstərə bilər və bu, gözləmə müddətinin uzadılmasına, müştəri xidmətlərinin azalmasına və potensial biznes itkisinə səbəb ola bilər. İşdən çıxma nisbətlərinin monitorinqi rəhbərliyə işçilərin narazılığına səbəb ola biləcək xüsusi mədəni problemləri müəyyənləşdirməyə və həll etməyə imkan verir. İşdən çıxma hallarını təhlil edərək, təşkilatlar xüsusilə yüksək göstəricilərə malik şöbələri və ya komandaları dəqiq müəyyənləşdirə və əsas səbəbləri anlamaq üçün daha çox araşdırma apara bilərlər. Bu, idarəetmə təcrübələrini, iş yükünün bölüşdürülməsini, işçilərlə münasibətləri və həmin sahələrdə dəstək sistemlərini qiymətləndirməyi əhatə edə bilər. Bundan əlavə, təşkilatlar iş yerində mədəniyyətin yaxşılaşdırılmasına yönəlmiş məqsədyönlü müdaxilələri həyata keçirmək üçün işdən çıxma məlumatlarından istifadə edə bilərlər. İşçilərin sağlamlıq proqramları, çevik iş tənzimləmələri və təkmilləşdirilmiş kommunikasiya kanalları kimi təşəbbüslər işdən çıxmama hallarını azaltmağa kömək edə bilər [7, p.143]. Müsbət və inklüziv korporativ mədəniyyəti inkişaf etdirməklə xidmət sənayesi şirkətləri işçilərin rifahını yaxşılaşdıra, bağlılığı artıra və ümumi təşkilati performansı yaxşılaşdıra bilər. Yekun olaraq qeyd edək ki, işdən yayınma dərəcəsi xidmət sənayesində korporativ mədəniyyətin təsirini qiymətləndirmək üçün vacib bir göstəricidir. O, işçilərin rifahı və təşkilat sağlamlığı ilə bağlı anlayışlar təqdim edir, daha dəstəkləyici və məhsuldar iş mühiti yaratmaqda rəhbərliyi istiqamətləndirir.

## Nəticə

Yekun olaraq, korporativ mədəniyyətin xidmət sahələrində təsirinin qiymətləndirilməsi bir sıra əsas ölçüləri nəzərə alan nüanslı yanaşma tələb edir. Birincisi, işçilərin məşğulluğu və məmnunluğu mədəniyyətin işçilərin dəyərlərinə nə qədər uyğun olduğunu və müsbət iş mühitini təşviq edən əsas göstəricilərdir. Yüksək nişanlanma səviyyələri çox vaxt təkmilləşdirilmiş müştəri məmnuniyyəti və sədaqətlə əlaqələndirilir və nəticədə biznes uğurunu təmin edir. İkincisi, müştəri rəyi və loyallıq göstəriciləri korporativ mədəniyyətin müştəri təcrübəsinə necə təsir etdiyi barədə məlumat verir. Net Promoter Score (NPS), müştəri saxlamaq dərəcələri və müştərinin ömürboyu dəyəri kimi göstəricilər müstəsna xidmət göstərmək və uzunmüddətli əlaqələr qurmaqda mədəniyyətin effektivliyini ölçməyə kömək edir. Üçüncüsü, məhsuldarlıq, səmərəlilik və innovasiya daxil olmaqla, təşkilati fəaliyyət göstəriciləri korporativ mədəniyyətin əməliyyat nəticələrinə təsiri haqqında dəyərli perspektivlər təklif edir. Əməkdaşlığı, yaradıcılığı və davamlı təkmilləşdirməni təşviq edən mədəniyyət, dinamik xidmət sənayesi mənzərəsində təşkilatı davamlı böyümə və rəqabətədavamlılıq üçün yerləşdirərək, innovasiya və uyğunlaşma qabiliyyətinə təkan verir. Bundan əlavə, gəlir artımı, rentabellik və investisiyanın qaytarılması (ROI) kimi maliyyə göstəriciləri korporativ mədəniyyətin biznes nəticələrinə təsirinin son ölçüləri kimi xidmət edir. Dürüstlüyə, müştəri mərkəzliliyə və etik davranışa üstünlük verən güclü mədəniyyət çox vaxt müştəriləri cəlb etmək və saxlamaq, brend reputasiyasını artırmaq və riskləri azaltmaqla maliyyə uğuruna çevrilir. Əslində, bu əsas ölçüləri hərtərəfli qiymətləndirməklə, təşkilatlar korporativ mədəniyyətlərinin xidmət sənayesində həm daxili dinamikanı, həm də xarici nəticələri necə formalaşdırdığına dair vahid anlayış əldə edə bilərlər. Bu, davamlı biznes performansını təmin edən və həm işçilər, həm də müştərilərlə mənalı əlaqələri gücləndirən mədəniyyəti inkişaf etdirmək üçün məlumatlı qərar qəbul etməyə və məqsədyönlü müdaxilələrə imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Brown A. "Managing State Investments", Chicago, "University of Chicago Press", 2020, 439 p.*

*2. Daniel W.B., Barbara C. "Designing Corporate Culture for Customer Satisfaction", Boston, "SAGE Publications Ltd", 2018, 671 p.*

*3. Henry A. "Theoretical Foundations of Public Administration", New York, "Oxford University Press", 2018, 394 p.*

*4. Hunger JD, Wheelen TL. "Essentials of Strategic Management2, Florida, "Prentice Hall", 2015, 521 p.*

*5. Jessie P., David L.R. "International Trade: The Basics", London, "Routledge", 2022, 210 p.*

*6. Keller K.P. "Marketing Management", New Jersey, "Pearson Prantice Hall", 2019, 832 p.*

*7. Lewis B. "Crisis management", London, "InfoWorld", 2020, 260 p.*

**Ramazanov Ayxan**

## XİDMƏT SƏNAYELƏRİNDƏ KORPORATİV MƏDƏNİYYƏTİN TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜÇÜN ƏSAS METRİKLƏR

## XÜLASƏ

Xidmət sənayelərində korporativ mədəniyyətin təsirini qiymətləndirmək davamlı uğur üçün vacibdir. Əsas ölçülər bu təsirin həyati göstəriciləri kimi xidmət edir. Sorğular və ya əks-əlaqə mexanizmləri ilə ölçülən işçilərin işə cəlb edilməsi işçilər və təşkilati dəyərlər arasında uyğunluğu əks etdirir və müştəri təcrübəsinə birbaşa təsir göstərir. Net Promoter Score (NPS) və Customer Satisfaction Score (CSAT) kimi müştəri məmnuniyyəti və sədaqət göstəriciləri korporativ mədəniyyətin müsbət müştəri qarşılıqlı əlaqəsi və münasibətlərinə nə qədər effektiv çevrildiyini ölçür. İşçilərin yerdəyişmə nisbətləri, mədəniyyətin istedadları saxlamaqda effektivliyini vurğulayır, aşağı dövriyyə isə adətən daha sağlam iş mühitini göstərir. Xidmət səviyyəsi razılaşmaları (SLAs) və ya cavab müddətləri kimi ölçülərlə ölçülən xidmətin çatdırılmasının keyfiyyəti mədəniyyətin mükəmməlliyi və səmərəliliyi nə dərəcədə təşviq etdiyini əks etdirir. Nəhayət, gəlir artımı və gəlirlilik də daxil olmaqla maliyyə göstəriciləri, güclü korporativ mədəniyyətin təsirinə məruz qalan real biznes nəticələrini nümayiş etdirir və onun xidmət sahələrində əsas təsirini vurğulayır.

**Açar sözlər:** *Xidmət, xidmət sənayeləri, korporativ mədəniyyət, metriklər.*

**Айхан Рамазанов**

**КЛЮЧЕВЫЕ МЕТРИКИ ОЦЕНКИ ВЛИЯНИЯ КОРПОРАТИВНОЙ КУЛЬТУРЫ В СФЕРЕ УСЛУГ**

**РЕЗЮМЕ**

В сфере услуг оценка влияния корпоративной культуры имеет важное значение для устойчивого успеха. Ключевые показатели служат важными индикаторами этого воздействия. Вовлеченность сотрудников, измеряемая с помощью опросов или механизмов обратной связи, отражает соответствие между сотрудниками и ценностями организации, напрямую влияя на качество обслуживания клиентов. Показатели удовлетворенности и лояльности клиентов, такие как показатель Net Promoter Score (NPS) и показатель удовлетворенности клиентов (CSAT), позволяют оценить, насколько эффективно корпоративная культура преобразуется в позитивное взаимодействие и отношения с клиентами. Уровень текучести кадров подчеркивает эффективность культуры в удержании талантов, причем более низкая текучесть обычно указывает на более здоровую рабочую среду. Качество предоставления услуг, измеряемое с помощью таких показателей, как соглашения об уровне обслуживания (SLA) или время ответа, отражает степень, в которой культура способствует совершенству и эффективности. Наконец, показатели финансовых показателей, включая рост доходов и прибыльность, демонстрируют ощутимые результаты бизнеса, на которые влияет сильная корпоративная культура, подчеркивая ее влияние на конечный результат в сфере услуг.

**Ключевые слова:** *Сервис, сферы услуг, корпоративная культура, метрики*

**Aykhan Ramazanov**

**KEY METRICS FOR ASSESSING THE IMPACT OF CORPORATE CULTURE IN SERVICE INDUSTRIES**

**SUMMARY**

In service industries, evaluating the impact of corporate culture is essential for sustainable success. Key metrics serve as vital indicators of this impact. Employee engagement, measured through surveys or feedback mechanisms, reflects the alignment between employees and organizational values, impacting customer experience directly. Customer satisfaction and loyalty metrics, such as Net Promoter Score (NPS) and Customer Satisfaction Score (CSAT), gauge how effectively corporate culture translates into positive customer interactions and relationships. Employee turnover rates highlight the effectiveness of the culture in retaining talent, with lower turnover typically indicating a healthier work environment. Quality of service delivery, measured through metrics like service level agreements (SLAs) or response times, reflects the extent to which the culture promotes excellence and efficiency. Lastly, financial performance metrics, including revenue growth and profitability, demonstrate the tangible business outcomes influenced by a strong corporate culture, emphasizing its bottom-line impact in service industries.

**Keywords:** *Service, service industries, corporate culture, metrics*

UOT 330.341.1:62
DOI:10.30546/3006-0346.2024.4.82.94

# AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESLƏRİN MALİYYƏLƏŞMƏSİNDƏ İNNOVASİYALARIN TƏTBİQİ

**ƏLİ HƏSƏNOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), doktorant*

*E-mail: hassanoff.ali@gmail.com, a.hasanov@unec.edu.az*

## Giriş

Kiçik və orta sahibkarlığın (KOB) Azərbaycanın iqtisadi mənzərəsində həlledici rol oynamaq, məşğulluğa, innovasiyalara və iqtisadiyyatın diversifikasiyasına əhəmiyyətli töhfə vermək kimi ciddi potensialı vardır. Bununla belə, adekvat və dayanıqlı maliyyələşmə əldə etmək ənənəvi olaraq bu bizneslər üçün əsas problem olmuşdur. Son illərdə innovativ maliyyə mexanizmlərinin tətbiqi Azərbaycanda KOB-ların maliyyələşdirmə mənzərəsini dəyişib. Bu məqalənin məqsədi bu yenilikləri araşdırmaq, onların tətbiqi və KOB-un inkişafı və davamlılığına təsirinə diqqət yetirməkdir. Rəqəmsal maliyyə xidmətləri, kraudfundinq platformaları, vençur kapitalı və hökumət tərəfindən dəstəklənən təşəbbüsləri araşdıraraq, bu tədqiqat Azərbaycanda KOB-un maliyyələşdirilməsinin cari vəziyyətinin hərtərəfli icmalını təqdim edir. O, həmçinin maliyyə əlçatanlığının və səmərəliliyin artırılmasında fintech-in roluna toxunur. Bu araşdırma vasitəsilə biz iqtisadiyyatda həm irəliləyişləri, həm də davamlı problemləri müəyyən etməyi, maliyyələşdirmə ekosistemində gələcək təkmilləşdirmələr üçün fikirlər və tövsiyələr təklif etməyi hədəfləyirik.

## Əsas hissə

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq iki qrupa bölünür: fərdi sahibkarlar (yəni hüquqi şəxs yaratmadan müəssisənin yeganə sahibləri) və mikro, kiçik və orta müəssisələr (yəni hüquqi şəxslər). Fərdi sahibkarlar əsasən kiçik biznesləri formalaşdırırlar, hüquqi şəxs kimi qeydiyyata alınanlar isə iki göstəriciyə görə təsnif edilir: işçilərin sayı və illik dövriyyə. [7]

Fərdi biznes və ya hüquqi şəxs kimi xidmət göstərməyindən asılı olmayaraq Azərbaycanda mikro, kiçik və orta bizneslərin (KOB) maliyyələşdirilməsində innovasiyaların tətbiqi, iqtisadi inkişafı sürətləndirmək və bazar rəqabətini gücləndirmək üçün mühüm əhəmiyyət kəsb edir. KOB-lar ölkə iqtisadiyyatının vacib hissəsini təşkil edir və onların inkişafı iqtisadi artımın və məşğulluğun təmin edilməsində mühüm rol oynayır.

Azərbaycanda KOB-lar iqtisadiyyatın inkişafında və yeni iş yerlərinin yaradılmasında mühüm rol oynayır. Onlar ölkə iqtisadiyyatının müxtəlif sektorlarında fəaliyyət göstərir və ümumi iqtisadi aktivliyin artırılmasına mühüm töhfələr verir. Lakin KOB-ların inkişafı və rəqabət qabiliyyətinin artırılması üçün maliyyə resurslarına çıxışın yaxşılaşdırılması vacibdir. KOB-ların maliyyələşdirilməsində də bir sıra problemlərlə üzləşildiyi məlumdur:

1. Ənənəvi kreditlər: Bank kreditləri KOB-lar üçün əsas maliyyələşdirmə mənbəyi olsa da, faiz dərəcələrinin yüksək olması və zaminlik tələbləri bu kreditlərdən yararlanmağı çətinləşdirir.
2. Vəsaitlərin məhdudluğu: KOB-lar üçün nəzərdə tutulmuş vəsaitlər bəzən məhdud olur və bu da onların inkişafını ləngidir.
3. Əlverişsiz şərtlər: KOB-lar tez-tez əlverişsiz şərtlərlə üzləşirlər ki, bu da onların maliyyə yükünü artırır. Bu şərtlərə vergi ödənişləri və lisenziyaların alınması, böyük şirkətlərlə rəqabət aparmaq, yüksək texnologiyaların tətbiqi üçün vəsait çatışmazlığı, məhdud marketinq büdcəsi və müştəri bazasının kiçik olması, risklərin idarə edilməsində kifayət qədər təcrübənin olmaması, infrastrukturun zəif olması və s. aiddir.

Bütün problemləri və digər amilləri nəzərə alaraq innovativ maliyyələşdirmə üsullarından istifadə etməklə KOB-ların maliyyə ehtiyaclarını qarşılamaq və onları inkişaf etdirmək üçün yeni imkanlar yaradılır. Aşağıda bu yanaşmalardan bəziləri qeyd olunmuşdur:

1. Rəqəmsal Bankçılıq və Fintech: Rəqəmsal bankçılıq və fintech (maliyyə texnologiyaları) vasitəsilə KOB-lar daha sürətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxış əldə edə bilirlər. Fintech şirkətləri kreditlərin verilməsində sürətli və çevik yanaşmalar təklif edir, bu da KOB-ların maliyyələşməsində əhəmiyyətli rol oynayır.
2. Kütləvi Maliyyələşdirmə (Crowdfunding): Kütləvi maliyyələşdirmə platformaları vasitəsilə KOB-lar layihələri üçün geniş kütlədən maliyyə dəstəyi əldə edə bilirlər. Bu üsul, ənənəvi kreditlər-

dən fərqli olaraq, daha elastik və sürətli maliyyələşdirmə imkanı təqdim edir.

3. Maliyyə texnologiyalarının istifadəsi:

Blokçeyn texnologiyası, maliyyə əməliyyatlarının təhlükəsizliyini artırmaq və şəffaflığı təmin etmək məqsədi ilə tətbiq edilir. Blokçeyn texnologiyasından istifadə etməklə KOB-ların əldə etdikləri üstünlüklər bunlardır: Məhsulun istehsalından müştəriyə çatdırılmasına qədər bütün mərhələləri izləmək; Ağıllı müqavilələr vasitəsilə KOB-lar avtomatik və şəffaf müqavilə idarəçiliyindən faydalanmaq; Sürətli və təhlükəsiz maliyyə əməliyyatlarını, beynəlxalq ödənişləri və kriptovalyutalarla bağlı əməliyyatları həyata keçirmək; İstifadəçi identifikasiyası və autentifikasiyası üçün təhlükəsiz və etibarlı yol təmin etmək [1].

Son olaraq qeyd etmək olar ki, blokçeyn üzərində saxlanılan məlumatlar dəyişdirilməzdir və hər kəs üçün şəffafdır ki, bu da KOB-ların fəaliyyətlərini daha effektiv və təhlükəsiz şəkildə idarə etmələrinə kömək edir. O cümlədən, blokçeyn texnologiyası əsaslı smart kontraktlar müqavilələrin avtomatlaşdırılması və icrasının asanlaşdırılması üçün istifadə edilə bilər.

4. Sərmayə Kapitalı (Venture Capital): Vençur Kapital fondları KOB-ların innovativ layihələrinə investisiya edir və onların inkişafına dəstək olur. Bu yanaşma, xüsusən yüksək potensiala malik startaplar üçün əhəmiyyətli maliyyə mənbəyi ola bilər. Lakin vençur investisiyaların təşviq edilməsi üçün ölkənin kapital bazarı inkişaf etdirilməlidir.

5. İnnovasiya Fondları və Dövlət Dəstəyi: Dövlət tərəfindən yaradılan innovasiya fondları və dəstək proqramları KOB-ların inkişafını təşviq edir. Bu fondlar vasitəsilə KOB-lar yenilikçi layihələrinə maliyyə dəstəyi ala bilirlər. Bu dəstəyi bir neçə kateqoriyaya bölmək olar:

1. Maliyyə dəstəyi və qrantlar. Buraya innovasiya qrantları, start-up və innovasiya fondları, tədqiqat və inkişaf (AR-GE) dəstəkləri daxildir [4].

2. Vergi güzəştləri və investisiya dəstəyi.

3. Kreditlər və zəmanətlər.

4. İnfrastruktur və tədarük zənciri dəstəyi.

5. Qloballaşma və ixrac dəstəyi, ticarət missiyaları və sərgilər.

Azərbaycanda KOB-ların inkişafını dəstəkləmək üçün müxtəlif dövlət proqramları və fondlar mövcuddur. Misal olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən KOB-lara verilən qrantlar və subsidiyalar vardır [5]. Azərbaycanda Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) də yaradılmışdır ki, onun məqsədi aşağıdakı kimidir:

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ölkədə mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən, onun tənzimlənməsində, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maraqlarının qorunmasında və problemlərinin həllində iştirak edən, sahibkarlara bir sıra xidmətlər göstərən, dövlət və özəl qurumların bu sahədə xidmətlərini əlaqələndirən və səlahiyyətli qurum kimi çıxış edən publik hüquqi şəxsdir [2], [3].

Agentliyin fəaliyyətinin məqsədi mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsində iştirak etməkdən, bu sahədə beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin və səmərəli əlaqələndirmə mexanizminin tətbiqi yolu ilə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında rolunu möhkəmləndirməkdən, xüsusi çəkisini və rəqabət qabiliyyətini artırmaqdan, maliyyə resurslarına çıxış imkanlarını genişləndirməkdən və onlara institusional dəstək mexanizmlərini təkmilləşdirməkdən, dövlət və özəl qurumlarının bu sahədə fəaliyyətini əlaqələndirməkdən, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılmasına, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsinə nail olmaqdan ibarətdir [6].

## Azərbaycanda İnnovativ Maliyyələşdirmə Perspektivləri

Azərbaycanda KOB-ların maliyyələşdirilməsində innovativ yanaşmaların tətbiqi üçün bir sıra tədbirlər həyata keçirilə bilər:

- Rəqəmsal İnfrastrukturun İnkişafı: Rəqəmsal bankçılıq və fintech şirkətləri üçün əlverişli mühitin yaradılması.
- Kütləvi Maliyyələşdirmə Platformalarının Təşviqi: Kütləvi maliyyələşdirmə platformalarının inkişafı və geniş kütlələr tərəfindən istifadəsinin təşviqi.
- Sərmayə Kapitalı və İnnovasiya Fondlarının Artırılması: Sərmayə kapitalı fondlarının yaradılması və onların KOB-lara yönəldilməsi.
- Təlim və Maarifləndirmə Proqramları: KOB-ların maliyyələşdirmə imkanları barədə məlumatlılığını artırmaq üçün təlim və maarifləndirmə proqramlarının həyata keçirilməsi.

## Nəticə

Azərbaycanda kiçik və orta bizneslərin maliyyələşdirilməsində innovasiyaların tətbiqi, ölkənin iqtisadi inkişafına və rəqabət gücünün artırılmasına mühüm töhfə verə bilər. KOB-ların innovativ həllərə və texnologiyalara inteqrasiyası, onların maliyyə resurslarına çıxışını asanlaşdırmaqla yanaşı, əməliyyat effektivliyini və məhsuldarlığını artırır. Blokçeyn, fintech, və AR-GE kimi sahələrdə tətbiq olunan yeniliklər KOB-ların qarşısında duran maliyyə məhdudiyyətlərini aradan qaldırmağa və onların yeni bazarlara çıxışını təmin etməyə imkan verir.

Dövlətin verdiyi dəstəklər, o cümlədən qrantlar, vergi güzəştləri, kredit zəmanət fondları və digər təşviqlər, KOB-ların innovasiyaları mənimsəməsinə və tətbiq etməsinə kömək edir. Xüsusilə, KOB-ların innovasiya qabiliyyətini artırmaq üçün yaradılan inkubatorlar və akseleratorlar, təlim və məsləhət xidmətləri, onların bazarda rəqabət gücünü artırır və davamlı inkişaflarını təmin edir.

Bütün bu faktorlar, Azərbaycanda KOB-ların innovasiya əsaslı maliyyələşdirmə ilə dəstəklənməsi nəticəsində, onların daha dayanıqlı, rəqabətqabiliyyətli və gələcəyə yönəlik bir biznes ekosistemində fəaliyyət göstərməsinə şərait yaradır. Gələcəkdə, bu cür təşəbbüslərin davam etdirilməsi və genişləndirilməsi, ölkənin iqtisadi inkişafını sürətləndirmək və qlobal iqtisadiyyatda daha güclü bir mövqeyə sahib olmasına imkan yaradacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Aslanlı, K. (2017). Azərbaycanda innovasiya siyasətinin effektivliyinin artırılması yolları. Bakı: Elm nəşriyyatı.*
2. *Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin Nizamnaməsi (2018). Bakı: Azərbaycan Respublikası.*
3. *"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2018). Bakı: Azərbaycan Respublikası. https://e-qanun.az/framework/39263*
4. *Qasımov, İ., Cəbiyev F. (2017). İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı.*
5. *Kiçik və orta sahibkarlığa dair idarəetmənin daha da təkmilləşdirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2017). Bakı: Azərbaycan Respublikası. https://e-qanun.az/framework/37470*
6. *Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) (2024), https://smb.gov.az/az/nav/haqqimizda*
7. *"Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (2018). Bakı: Azərbaycan Respublikası. https://e-qanun.az/framework/41048*


## XÜLASƏ


Təqdim edilən bu məqalədə Azərbaycanın iqtisadi inkişafında kiçik və orta bizneslərin rolu və əhəmiyyəti, onların maliyyələşdirilməsi araşdırılmış və təhlil edilmişdir. Eyni zamanda yaranan çətinliklərdən və həll yollarından bəhs edilmişdir. Tədqiqat rəqəmsal maliyyə xidmətləri, kraudfundinq, vençur kapitalı və hökumət tərəfindən dəstəklənən təşəbbüslər də daxil olmaqla müxtəlif innovativ maliyyə alətlərini araşdırır. O, həmçinin maliyyə proseslərinin rasionallaşdırılmasında və az diqqət göstərilən seqmentlərin əhatə dairəsinin genişləndirilməsində fintech-in rolunu qiymətləndirir. Keyfiyyət təhlilləri vasitəsilə bu məqalə bu yeniliklərin Azərbaycanda KOB-ların böyüməsinə və rəqabət qabiliyyətinə necə töhfə verdiyinə dair anlayışı təqdim edir. Əsas tapıntılar göstərir ki, əhəmiyyətli irəliləyiş əldə olunsa da, tənzimləyici məhdudiyyətlər və texnoloji inkişaf kimi problemlər hələ də qalmaqdadır. Araşdırma innovativ KOB-ların maliyyələşdirilməsi üçün daha əlverişli mühitin yaradılması və nəticədə Azərbaycanda iqtisadi diversifikasiyanın və dayanıqlığın dəstəklənməsi üçün iqtisadi və maliyyə institutları üçün tövsiyələrlə yekunlaşır.


**Açar sözlər:** *biznes, maliyyə, KOB, innovasiya.*

## ПРИМЕНЕНИЕ ИННОВАЦИЙ В ФИНАНСИРОВАНИИ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА В АЗЕРБАЙДЖАНЕ

**Али Н. Гасанов**

**Резюме**


В представленной статье исследованы и проанализированы роль и значение малого и среднего бизнеса в экономическом развитии Азербайджана, а также их финансирование. В то же время обсуждались проблемы и пути их решения. В исследовании рассматриваются различные инновационные инструменты финансирования, включая цифровые финансовые услуги, краудфандинг, венчурный капитал и инициативы, поддержи-

ваемые государством. В нем также оценивается роль финансовых технологий в рационализации финансовых процессов и расширении охвата недостаточно обслуживаемых сегментов. Благодаря анализу в этой статье представлено глубокое понимание того, как эти инновации способствуют росту и конкурентоспособности МСП в Азербайджане. Ключевые результаты показывают, что, несмотря на значительный прогресс, сохраняются такие проблемы, как нормативные ограничения и внедрение технологий. Документ завершается рекомендациями экономическим и финансовым учреждениям по созданию более благоприятной среды для инновационного финансирования МСП, что в конечном итоге будет способствовать экономической диверсификации и росту в Азербайджане.

**Ключевые слова:** *бизнес, финансы, МСП, инновации.*

**APPLICATION OF INNOVATIONS IN THE FINANCING OF SMALL AND MEDIUM BUSINESSES IN AZERBAIJAN**

**Ali N. Hasanov**

**Summary**

In this presented article, the role and importance of small and medium businesses in the economic development of Azerbaijan and their financing was investigated and analyzed. At the same time, problems and solutions were discussed. The study examines various innovative financing tools, including digital financial services, crowdfunding, venture capital, and government-backed initiatives. It also assesses the role of fintech in reationalizing financial processes and expanding reach to underserved segments. Through qualitative analyses, this article presents an in-depth understanding of how these innovations contribute to the growth and competitiveness of SMEs in Azerbaijan. Key findings suggest that while significant progress has been made, challenges such as regulatory constraints and technological adoption persist. The paper concludes with recommendations for economic and financial institutions to foster a more conducive environment for innovative SME financing, ultimately supporting economic diversification and growth in Azerbaijan.

**Keywords:** *business, finance, SME, innovation.*

УДК 336; 336.11
DOI:10.30546/3006-0346.2024.4.82.95

# ВЛИЯНИЕ РАЗВИТИЯ ЦИФРОВОЙ ЭКОНОМИКИ НА ЭКОНОМИЧЕСКИЙ РОСТ В АЗЕРБАЙДЖАНЕ

**КЯМРАН ГУЛИЕВ**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности, магистрант*

*E-mail: kamran.quliyev.2020@mail.ru*

В последние десятилетия появление и расширение цифровой экономики глубоко изменили глобальный экономический ландшафт, открыв эпоху беспрецедентных связей, инноваций и экономических преобразований. В этом более широком контексте Азербайджан, расположенный на перекрестке Восточной Европы и Западной Азии, идет по собственному пути цифровизации и экономического развития. Влияние этого перехода на экономический рост Азербайджана является предметом пристального внимания и изучения. Будучи страной, богатой природными ресурсами, особенно нефтью и газом, Азербайджан исторически в значительной степени полагался на свою добывающую промышленность как двигатель экономического роста. Однако, осознавая необходимость диверсификации и модернизации, азербайджанские политики все чаще обращают свое внимание на развитие динамичной цифровой экономики. Этот стратегический сдвиг подкреплен признанием преобразующего потенциала цифровых технологий в повышении эффективности, инноваций и конкурентоспособности в различных секторах.

Развитие цифровой экономики в Азербайджане включает в себя широкий спектр инициатив, начиная от инвестиций в инфраструктуру и заканчивая регуляторными реформами, направленными на развитие предпринимательства и создание благоприятной среды для цифровых инноваций. Ключевые столпы этой трансформации включают инвестиции в широкополосную инфраструктуру, продвижение цифровой грамотности и создание цифровых экосистем для поддержки предпринимательства и инноваций. На этом фоне понимание влияния цифровой экономики на экономический рост Азербайджана предполагает изучение ее влияния на производительность, динамику занятости, конкурентоспособность бизнеса и общую экономическую устойчивость. Более того, он предполагает оценку того, как цифровизация меняет традиционные отрасли, а также создает новые возможности для создания стоимости и диверсификации экономики.

### Цель

Развитие цифровой экономики в Азербайджане оказало многогранное влияние на экономический рост, стимулируя прогресс по различным каналам. Во-первых, цифровые технологии произвели революцию в производительности во всех секторах, автоматизировав задачи, повысив эффективность и сократив эксплуатационные расходы. Благодаря интеграции цифровых инструментов и систем предприятия оптимизировали процессы, оптимизировали рабочие процессы и увеличили производительность, что привело к значительному повышению производительности. Эта повышенная производительность не только увеличивает экономический рост, но и повышает конкурентоспособность, выгодно позиционируя азербайджанскую промышленность на мировом рынке [4]. Во-вторых, цифровая экономика стала катализатором инноваций, предоставив предприятиям беспрецедентные инструменты и платформы для разработки и коммерциализации новых продуктов и услуг. Этот всплеск инноваций не только привел к созданию новых отраслей, но также создал множество возможностей трудоустройства в новых областях, таких как искусственный интеллект, блокчейн и кибербезопасность. Поскольку предприятия используют возможности цифровых технологий для инноваций, они способствуют экономической диверсификации и устойчивости, обеспечивая устойчивый рост.

Кроме того, цифровизация повысила конкурентоспособность Азербайджана на мировой арене, позволив предприятиям более эффективно конкурировать и получить доступ к новым экспортным возможностям. Благодаря расширенным цифровым возможностям азербайджанские предприятия могут выйти на международные рынки, привлечь иностранные инвестиции и

способствовать развитию торговых отношений, тем самым способствуя экономическому росту и процветанию. Кроме того, цифровая экономика демократизировала доступ к информации и услугам, расширяя возможности как граждан, так и бизнеса. Благодаря цифровым платформам и сервисам люди могут более эффективно получать доступ к образовательным ресурсам, медицинским услугам и коммунальным услугам, тем самым улучшая общее благосостояние и качество жизни. Эта возросшая доступность способствует развитию человеческого капитала, стимулируя долгосрочный экономический рост и социальное развитие [2]. Более того, расширение цифровой экономики способствовало созданию рабочих мест в различных секторах, особенно в таких востребованных областях, как разработка программного обеспечения, анализ данных и цифровой маркетинг. Эти новые возможности трудоустройства не только уменьшают безработицу, но и повышают доходы, способствуя социально-экономической мобильности и стабильности. В заключение отметим, что развитие цифровой экономики в Азербайджане сыграло важную роль в стимулировании экономического роста и процветания за счет повышения производительности, инноваций, конкурентоспособности, доступности и создания рабочих мест. Поскольку Азербайджан продолжает осуществлять цифровую трансформацию, страна готова извлечь выгоду из множества возможностей, предоставляемых цифровой эпохой, еще больше ускоряя траекторию своего экономического развития.

**Методы**

Влияние развития цифровой экономики в Азербайджане на экономический рост было глубоким, в первую очередь катализируемым повышением производительности во всех секторах. Появление цифровых технологий привело к смене парадигмы, автоматизации задач, повышению эффективности и снижению эксплуатационных расходов. Эта трансформация проявилась в различных аспектах, способствуя устойчивому экономическому росту. Одним из основных драйверов экономического роста, обусловленного цифровой экономикой, является повышение производительности во всех секторах. Автоматизация и цифровизация оптимизировали процессы, оптимизируя распределение ресурсов и сокращая требования к ручному труду. Например, в производстве интеграция современного оборудования и автоматизированных систем ускорила производственные циклы, сведя к минимуму ошибки, что, как следствие, увеличило объемы выпуска продукции. Аналогичным образом, в секторе услуг внедрение цифровых платформ облегчило бесперебойные транзакции, повысило вовлеченность клиентов и ускорило предоставление услуг [6]. Более того, распространение цифровых технологий породило культуру инноваций и предпринимательства, создавая благоприятную среду для стартапов и малого бизнеса. Благодаря более легкому доступу к цифровым инструментам и платформам предприниматели могут более эффективно развивать и масштабировать свои предприятия, тем самым диверсифицируя экономический ландшафт и стимулируя рост. Кроме того, цифровизация государственных услуг и административных процессов повысила прозрачность, подотчетность и эффективность управления. Оцифровав бюрократические процедуры, такие как лицензирование, разрешения и подача налоговых деклараций, правительство упростило операции, сократило бюрократическую волокиту и создало более благоприятную бизнес-среду. Это, в свою очередь, привлекло иностранные инвестиции и укрепило доверие отечественного бизнеса, стимулируя экономический рост. Кроме того, цифровая экономика способствовала трансграничной торговле и инвестициям, разрушая географические барьеры и расширяя охват рынка.

Платформы электронной коммерции позволили азербайджанскому бизнесу получить доступ к мировым рынкам и задействовать более широкую потребительскую базу, тем самым стимулируя рост за счет экспорта и способствуя международной конкурентоспособности. В целом, появление цифровой экономики в Азербайджане сыграло важную роль в стимулировании экономического роста за счет повышения производительности, стимулирования инноваций, повышения эффективности управления и содействия глобальной интеграции. Поскольку страна продолжает переходить на цифровые технологии, перспективы устойчивого экономического развития остаются многообещающими, с широки-

ми возможностями для дальнейшего расширения и диверсификации.

Растущая цифровая экономика в Азербайджане не только стимулировала экономический рост, но и сыграла ключевую роль в создании рабочих мест, особенно в секторах с высоким спросом, таких как разработка программного обеспечения, анализ данных и цифровой маркетинг. Этот всплеск занятости не только снизил уровень безработицы, но также способствовал увеличению доходов и социально-экономической стабильности [8]. Появление цифровых технологий привело к смене парадигмы на рынке труда, создав спрос на квалифицированных специалистов, умеющих использовать эти технологии для стимулирования инноваций и повышения эффективности. В частности, разработка программного обеспечения стала краеугольным камнем цифровой экономики, при этом появляется множество возможностей в таких областях, как веб-разработка, разработка мобильных приложений и разработка программного обеспечения.

Азербайджанские технологические компании, стартапы и транснациональные корпорации постоянно ищут талантливых разработчиков программного обеспечения, чтобы возглавить свои цифровые инициативы, что приводит к резкому увеличению количества вакансий и перспектив карьерного роста в этой области. Аналогичным образом, распространение процессов принятия решений на основе данных привело к увеличению спроса на аналитиков данных и ученых, занимающихся данными. Поскольку предприятия используют возможности больших данных для получения ценной информации, оптимизации операций и реализации стратегических инициатив, потребность в профессионалах, способных интерпретировать и извлекать полезную информацию из сложных наборов данных, резко возросла. Следовательно, анализ данных превратился в развивающуюся область в Азербайджане, предлагающую прибыльные возможности карьерного роста и способствующую развитию культуры инноваций. Кроме того, цифровизация маркетинговых стратегий привела к резкому росту спроса на специалистов по цифровому маркетингу, умеющих использовать онлайн-каналы для охвата и привлечения целевой аудитории [1]. Поскольку предприятия все чаще выделяют ресурсы на цифровую рекламу, маркетинг в социальных сетях и поисковую оптимизацию, спрос на квалифицированных специалистов по цифровому маркетингу резко возрос, создавая возможности трудоустройства и стимулируя рост доходов. В целом влияние цифровой экономики на создание рабочих мест в Азербайджане было глубоким: появились новые возможности в разработке программного обеспечения, анализе данных, цифровом маркетинге и смежных областях. Предоставляя возможности для трудоустройства и получения доходов, цифровая экономика не только способствовала экономическому росту, но и сыграла ключевую роль в содействии социально-экономическому развитию и процветанию. Поскольку Азербайджан продолжает осуществлять цифровую трансформацию, перспективы дальнейшего создания рабочих мест и экономического развития остаются многообещающими, открывая путь к более устойчивой и инклюзивной экономике.

**Выводы**

В заключение отметим, что развитие цифровой экономики, несомненно, сыграло решающую роль в стимулировании экономического роста в Азербайджане. По мере того как страна переходит к более цифровой экономике, она стала свидетелем значительных успехов в различных секторах, включая финансы, телекоммуникации и электронную коммерцию. Одним из ключевых последствий цифровой экономики стало содействие инновациям и предпринимательству. Благодаря расширению доступа к цифровым технологиям и ресурсам начинающие предприниматели нашли новые возможности для запуска стартапов и изменения традиционных отраслей. Это не только создало возможности трудоустройства, но и стимулировало экономическую активность и производительность. Кроме того, цифровизация государственных услуг и процессов повысила эффективность и прозрачность, тем самым сократив бюрократические препятствия и создав более благоприятную бизнес-среду. Это, в свою очередь, привлекло иностранные инвестиции и повысило общую конкурентоспособность экономики. Более того, расширение цифровой инфраструктуры, такой как высокоскоростное подключение к Интернету и проникновение мобильной связи, способствовало расширению возможностей под-

ключения и доступа к глобальным рынкам. Азербайджанский бизнес теперь может использовать цифровые платформы для охвата более широкой аудитории, участия в трансграничной торговле и участия в глобальной цифровой экономике. Однако такие проблемы, как цифровой разрыв, угрозы кибербезопасности и нормативно-правовая база, остаются актуальными и требуют постоянного внимания со стороны политиков для обеспечения устойчивого роста цифровой экономики. По сути, хотя путь к полностью цифровой экономике, возможно, еще продолжается, преобразующее воздействие цифровизации на экономический рост в Азербайджане неоспоримо.

**Ключевые слова:** *Азербайджан, экономика, цифровая экономика, экономический рост.*

## ЛИТЕРАТУРА

1. *Aslanova, T. T., Fatahova, N. R., & Fatahov, I. V. (2024). Digitalization Perspectives of the Azerbaijan Economy. Propulsion Tech Journal, 45(1), 342-354.*

2. *https://amcham.az/en/committee/5*

3. *https://eufordigital.eu/countries/azerbaijan/*

4. *https://www.adb.org/documents/azerbaijan-country-digital-development-overview*

5. *https://www.adb.org/sites/default/files/institutional-document/484586/aze-digital-development-overview.pdf*

6. *https://www.adb.org/where-we-work/azerbaijan/economy*

7. *Main areas of development of the digital economy in the Republic of ... - ECDEV. (n.d.). Retrieved from https://ecdev.com.ua/en/journals/t-23-1-2024/osnovni-napryamki-rozvitku-tsifrovoyi-ekonomiki-v-azerbaydzhanskiy-respublitsi*

8. *The Impact of Digital Economy on the Economic Growth and the... - NCBI. (n.d.). Retrieved from https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC9164196/*

**Quliyev Kamran**

## AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATIN İNKİŞAFININ İQTİSADİ ARTIMA TƏSİRİ

## XÜLASƏ

Azərbaycanın rəqəmsal iqtisadiyyatının inkişafı onun iqtisadi artımına dərindən təsir edib. Artan məhsuldarlıq, avtomatlaşdırma və xərclərin azaldılması vasitəsilə rəqəmsal texnologiyalar sektorlar üzrə səmərəliliyi artıraraq, nəzərəçarpacaq məhsuldarlıq qazancını təmin edib. Bundan əlavə, innovasiya çiçəkləndi, yeni sənaye sahələrinin və iş imkanlarının yaranmasına kömək etdi. Rəqəmsal alətlərdən istifadə edərək, bizneslər qlobal səhnədə rəqabət qabiliyyətlərini gücləndirib, xarici investisiyaları cəlb edib və ixrac imkanlarını genişləndiriblər. Rəqəmsal transformasiya məlumat və xidmətlərə çıxışı demokratikləşdirib, təhsil, səhiyyə və ictimai təklifləri zənginləşdirib. Ən başlıcası, bu dəyişiklik proqram təminatının inkişafı və məlumatların analitikası kimi sahələrdə iş yerlərinin yaradılmasını sürətləndirdi, işsizliyi azaldıb və gəlirləri yüksəltdi. Ümumiyyətlə, Azərbaycanın rəqəmsal iqtisadiyyatı mənimsəməsi iqtisadi tərəqqiyə və sosial tərəqqiyə təkan verən çoxşaxəli faydalar verdi.

**Açar sözlər:** *Azərbaycan, iqtisadiyyat, rəqəmsal iqtisadiyyat, iqtisadi artım.*

**Guliyev Kamran Elshan**

## IMPACT OF DIGITAL ECONOMY DEVELOPMENT ON ECONOMIC GROWTH IN AZERBAIJAN

## SUMMARY

The development of Azerbaijan's digital economy has profoundly influenced its economic growth. Through increased productivity, automation, and cost reduction, digital technologies have enhanced efficiency across sectors, driving notable productivity gains. Moreover, innovation has flourished, fostering the emergence of new industries and job opportunities. Leveraging digital tools, businesses have bolstered their competitiveness on the global stage, attracting foreign investment and expanding export avenues. The digital transformation has democratized access to information and services, enriching education, healthcare, and public offerings. Crucially, this shift has catalyzed job creation in fields like software development and data analytics, mitigating unemployment and elevating incomes. Overall, Azerbaijan's embrace of the digital economy has yielded multifaceted benefits, propelling economic advancement and societal progress.

**Keywords:** *Azerbaijan, economy, digital economy, economic growth.*

UOT 331.5; 331.56/.57
DOI:10.30546/3006-0346.2024.4.82.97

# AZƏRBAYCANDA İNKLÜZİV MƏŞĞULLUQ SAHƏSİNDƏ APARILAN İSLAHATLAR VƏ İNKLÜZİV MƏŞĞULLUĞUN GÜCLƏNDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**LEYLA HACIYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*
*leylamirzeliyeva@hotmail.com*

## Giriş

Azərbaycanda məşğulluq və işsizlik probleminin həll edilməsi ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Bu baxımdan inklüziv məşğulluğun səmərəliyinin təmin edilməsi məsələsi aktual məsələlərdən hesab olunur.

Son illər dünyada yeni texnologiyaların inkişafı ilə yeni təcrübələrin ortaya çıxması əlilliyi olan şəxslərə münasibətdə məşğulluq siyasətinə yeni tələblər səviyyəsində baxılmasını tələb edir ki, bu da inklüziv məşğulluğun formalarının inkişafına təkan verən bəzi təcrübələrin öyrənilməsini zəruri etmişdir. Bu zaman cəmiyyətin sosial cəhətdən həssas qruplarının, o cümlədən, əlilliyi olan şəxslərin sosial məşğulluğunun mövcud problemlərinin aradan qaldırılması məsələsi meydana çıxır ki, bu da inklüziv məşğulluğun həyata keçirilməsinin xüsusiyyətlərinin təhlil edilməsini aktual məsələlərdən birinə çevirir.

Əmək bazarında məşğulluq keyfiyyətinin yüksəldilməsinin əsas məqsədi ölkəmizin sosial-iqtisadi inkişafına təkan verməkdən ibarətdir. Dövlət tərəfindən bu sahənin inkişafı üçün mühüm işlər görülür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 oktyabr 2018-ci il tarixli "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" Sərəncamı dövlət tərəfindən görülən işlərin bariz nümunəsidir.

Məhz bu baxımdan, "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ölkəmizdə məşğulluq və əməyin dəstəklənməsi ilə işçi qüvvəsinin rəqabətqabiliyyətliliyinin artırılması sahəsində əmək məhsuldarlığının yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Bu məqsədlə Məşğulluq Strategiyasının həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu sahədə görülən işlər barədə bütün məlumatlar Azərbaycan Respublikasının Prezidentinə hesabat şəklində təqdim edilir. Azərbaycanın dövlət siyasətinin əsasını vətəndaşların sosial müdafiəsinin təminatı təşkil edir. Bunu biz Azərbaycan Respublikasının "Məşğulluq haqqında" Qanununda da görə bilərik. Eyni zamanda, ölkədə məşğulluğun həyata keçirilməsi tədbirlərinin monitorinqinin aparılması və qiymətləndirilməsi, bu sahədə yarana biləcək problemlərin aradan qaldırılması istiqamətlərində tədbirlər görülməktədir.

Müasir dövrdə əhalinin həyat normasını dəstəkləyən inklüziv dəyərlərin möhkəmləndirilməsi Azərbaycanda sosial mühitin qorunmasında aktual məsələlərdən biri hesab olunur. Ölkədə məşğulluğun səmərəli və düzgün təşkili dövlətin sosial siyasətinin əsasını təşkil edir. Dövlətin apardığı həm daxili, həm də xarici siyasətinin beynəlxalq tələblər səviyyəsində inkişafı vətəndaşların sosial müdafiəsi təminatı ilə düz mütənasibdir. Belə ki, ölkədə məşğulluq əhalinin mövcud sıxlığı daxil olmaqla yerləşdiyi relyefdən, iqlim şəraitindən və s. məsələlərdən asılı olmaqla yanaşı, ölkənin beynəlxalq mövqeyindən də asılı olaraq müəyyənləşir.

Hər bir insanın həyat şəraitinin yaxşılaşmasının təmin olunması üçün əmək şəraitinin yaradılması, məşğulluğun təmin olunması vacib amillərdən biri hesab olunur. Məhz bu baxımdan, bütün dünyada məşğulluq siyasəti sosial siyasətin vacib elementi hesab olunmaqdadır.

Bütün bunları nəzərə alaraq, hər bir dövlətin əsas iqtisadi siyasətində birinci yeri vətəndaşının məşğulluğunun təminatı məsələsi dayanır. Bu sahədə dövlət bütün imkanlarından istifadə etməklə məşğulluğun təmin edilməsinə, yeni iş yerlərinin açılmasına köməklik göstərir. Bunu biz "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda görə bilərik [2].

Problemin qoyuluşu və öyrənilmə səviyyəsi: Azərbaycanda sosial mühitin qorunması baxımından əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında inklüziv məşğulluğa dair tədqiqatların azlıq təşkil etməsi bu sahədə yaranan problemlərin necə əhəmiyyətli olduğunu aktuallaşdırmışdır. Azərbaycan Respublikasında müasir dövrün tələblərinə əsaslanan inklüziv dəyərlərin qorunması və möhkəmlən-

dirilməsi aktual məsələlərdən biri hesab olunur. Bu sahədə ölkədə məşğulluğun səmərəliyinin qiymətləndirilməsi, inklüziv məşğulluğun təmin olunması sahəsində sosial siyasətlə bərabər, sosial təhlükəsizliyin təmin olunmasında yarana biləcək problemlərə də diqqət ayırmaq lazımdır.

**Dünyada inklüziv məşğulluğun gücləndirilməsi təcrübəsi**

İstənilən fəaliyyət sahəsi öncə toplanmış təcrübə məlumatlarına əsaslanır. Bu təcrübədən istifadə olunması isə göstərir ki, insan bəzən başqalarının təcrübəsindən tam istifadə edə bilmir. Belə ki, bu təcrübə nəsildən-nəslə ötürülərkən bəzi dəyişikliklərə də məruz qalır. Bu səbəbdən də, bəşəriyyətin malik olduğu bütün bilik və məlumatları toplayıb müqayisə etmək üçün ümumi bir sistem yoxdur. Lakin bu keçmiş təcrübənin öyrənilməsinə sosial-iqtisadi həyatda müxtəlif fəaliyyət sahələrinin modelləşdirilməsi üçün zəruri ehtiyac yaranmışdır.

Bu baxımdan, dövlətin sosial siyasətinin sosial-etik inkişaf çərçivəsində inklüziv məşğulluq sahəsi öz inkişafını intensivləşdirməklə diqqət çəkir. Bu səbəbdən də Azərbaycan Respublikasının inklüziv məşğulluq sahəsinin inkişafında dünya ölkələrinin inklüziv məşğulluq fəaliyyətinin həyata keçirilməsi təcrübəsinin öyrənilməsi vacibdir.

Əmək bazarının bazar mexanizmi sisteminin formalaşmasında yaranan problemlərin aradan qaldırılması üçün Azərbaycan Respublikasında aparılan iqtisadi islahatlar mühüm əhəmiyyət kəsb edir. Bu sahənin təsir göstəricisi təkcə çətin anlarda deyil, həm də məşğulluğun süni şəkildə saxlanması zamanı da problemə səbəb olur. Respublikada bazar münasibətlərinin inkişafında məşğulluğun yeri və rolunu nəzərə alaraq, bu sahənin diqqət mərkəzində saxlanması lazımdır. İqtisadiyyatın bütün sahələrinə təsir edən məşğulluq, əhalinin həyat səviyyəsinin göstəricisi kimi də çıxış edir. Bütün bunları nəzərə aldıqda, dövlətin iqtisadi siyasətinin əsasını məşğulluğun təmin olunmasının təşkil etməsi daha məqsədəuyğun olardı.

Bu məqsədlə Azərbaycanda görülən dövlət əhəmiyyətli layihələrə baxmayaraq, məşğulluq və əmək bazarı problemləri öz mürəkkəbliyin qoruyub saxlamaqdadır. Məşğulluq və əmək bazarı problemlərinin ziddiyyətli xüsusiyyət alması tək bizim ölkəmizdə deyil, dünyanın bütün ölkələrində aktual olmaqdadır.

Bəzi tədqiqatçılar bunu təbii hal kimi qəbul etməyi məsləhət görürlər. Belə ki, dünyanın müxtəlif ölkələrindəki mövcud qanunauyğunluqlar, respublikamızda da özünəməxsus şəkildə özünü göstərməkdədir. Bu baxımdan dünya ölkələri timsalında əmək bazarının yaratdığı müxtəlifliyin öyrənilməsi, ölkəmizdə də əhalinin məşğulluğunun məqsədyönlü həyata keçirməyə imkan verən alətlər paketinin formalaşmasına səbəb olar. Bazar iqtisadiyyatı sistemində sosial ziddiyyətlərin aradan qaldırılmasında beynəlxalq təcrübələrdən istifadə xüsusi əhəmiyyətli hesab olunmalıdır.

Məşğulluq əmək bazarında işəgötürən və işçilərin qarşılıqlı əlaqəli dinamik bir sistemin məcmusu kimi çıxış edir. Ölkə iqtisadiyyatında əmək bazarı işçi qüvvəsinin hərəkətini tənzimləməklə məşğulluq funksiyalarını yerinə yetirir və bazar münasibətlərinin əsasını təşkil edir. Məşğulluq olmadan münasib bazar iqtisadiyyatı yaratmaq mümkün olmur. Belə ki, ümumi iqtisadi idarəetmə formasında ölkə daxilində əhalinin əmək fəaliyyətinin idarə edilməsini nəzərdə tutur.

Bazar iqtisadiyyatına daxil olan ölkələrin sosial-iqtisadi sistemində problemlərin olmaması üçün əmək bazarında məşğulluğun səmərəliliyi mühüm rol oynayır. Əmək bazarı və inklüziv məşğulluğa həm ümumi, həm də xüsusi baxmaqla, bir çox problemlərin həllində fərqli yanaşılır. Bu səbəbdən, inklüziv məşğulluğu başa düşmək, bu sahədə yaranan problemlərə dünya səviyyəsində baxmaq lazımdır. Bu sahənin bütün mərhələlərini başa düşməyə kömək edən alətlərin olması labüd hal kimi qiymətləndirilməlidir.

Müasir dövrdə dünya təcrübəsində əlilliyi olan şəxslərlə bağlı müxtəlif sosial siyasətlər, ciddi müzakirələr həyata keçirilir. BMT-nin konvensiyasında göstərilir ki, əlillər də əmək hüququna malikdirlər və onların işlə təmin olunması üçün müvafiq addımların atılması vacibdir. Dayanıqlı İnkişaf Məqsədlərindən biri - bərabər məşğulluq və layiqli əməyin təmin edilməsinə nail olmaqdır.

Hazırda dünyanın bir sıra inkişaf etmiş ölkələrində əlilliyi olan şəxslərin məşğulluğunun tənzimlənməsində “kvota üsulu”ndan geniş istifadə olunur. Bu üsula müsbət ayrı-seçkilik təcrübəsi kimi də yanaşılır. Bu üsul məcburi məşğulluq öhdəliyini ifadə edir. Məsələn, Almaniyada 20-dən çox işçisi olan hər bir işəgötürən mövcud iş yerlərinin 5%-ni ağır əlilliyi olan işçilərlə təmin etməlidir. Bura özəl şirkətlər,

dövlət və bələdiyyə orqanları, idarə və müəssisələr, ictimai faydalı təşkilatlar, ictimai birliklər və s. daxildir. Dövlət və bələdiyyə işəgötürənləri kvotanı 6,5 faiz, özəl biznes və qeyri-dövlət müəssisələri cəmi 4,1 faiz yerinə yetirir (cədvəl 1).

**Cədvəl 1**

**Məcburi məşğulluq kvotaları tətbiq olunan inkişaf etmiş ölkələr(2)**

| Ölkələr | Məcburi məşğulluq kvotasının mövcudluğu | %-lə | Ətraflı göstəricilər |
|---|---|---|---|
| Avstraliya | Yoxdur | - | - |
| Braziliya | Var | 2-5% | 100-200 işçiyə 2%; 201-500: 3%; 501-1000: 4%; 1001 və 5%-dən yuxarı |
| Kanada | Yoxdur | - | - |
| Çin | Var | 1,5% | - |
| Fransa | Var | 6% | 20-dən çox part-time və yaxud tam ştatlı işçisi olan istənilən işəgötürənə aiddir. |
| Almaniya | Var | 6% | 19-dan çox işçi |
| Hindistan | Var | 3% | - |
| İtaliya | Var | 7% | Dövlət və özəl sektorda 50-dən çox işçi, 15-35 işçi – 1 yer; 36-50 işçi-2 yer |
| Yaponiya | Yoxdur | 2-2,3% | Dövlət təşkilatları 2,3% |
| Özəl təşkilatlar 2,0% | | | |
| İngiltərə | Yoxdur | - | - |
| ABŞ | Yoxdur | - | - |
| Türkiyə | Var | 3% | Dövlət və özəl sektorda 50-dən çox işçi |

*Mənbə: İLO, OECD. Labour market inclusion of people with disabilities. Buenos Aires, Argentina, 2018.20page. https://www.ilo.org/wcmsp5/groups/public/dgreports/inst/documents/publication/wcms_646041.pdf*

Cədvəldən göründüyü kimi, ABŞ, Kanada kvota yanaşmasına üstünlük vermir. Böyük Britaniya 1995-ci ildən kvota sistemindən imtina etmişdir və ayrı-seçkiliyin qarşısını almaq məqsədilə qanunvericilik qəbul etmişdir. Avropa Birliyində də kvota tətbiq olunmur.

Müxtəlif ölkələrdə əlilliyi olan şəxslərin məşğulluğunu dəstəkləyən sistem mövcuddur. Çində əlilliyi olan şəxslərin əməkhaqları Əlilliyi olan şəxslərin Məşğulluğunun Müdafiəsi Fondu tərəfindən ödənilir. Yaponiyada, Almaniyada, Fransada müəyyən edilmiş məcburi məşğulluq kvota tələbindən daha az işəgötürən biznes sahiblərindən rüsum alınır. Rusiya, Qazaxıstan, Ukrayna kimi ölkələrdə isə cərimələr inzibati xəta aktları və ya məcəllələri əsasında tətbiq edilir. Doldurulmamış kvota vəzifələrinə görə işəgötürənlərdən yığılan vəsaitlər yenidən bu problemin həllinə yönəldilir [3].

Məcburi məşğulluq kvotaları tətbiqindən inkişaf etmiş ölkələr geniş istifadə edir. Bu alətlərdən istifadə etməklə inklüziv məşğulluğun əmək bazarı ilə əlaqəsinə, konseptual aparatın təqdim edilməsinə nail olurlar. Bu da əmək bazarının çoxölçülü konsepsiyasının açılması ilə, onun sosial-iqtisadi kateqoriyada mahiyyətini müəyyən etməyə kömək edir. İnklüziv məşğulluğun əmək bazarında elementləri və funksiyalarının nəzərdən keçirilməsi müasir dövrün əsas problemlərindən hesab olunmalıdır.

Müasir dövrdə təcrübələrə əsasən dünyada əmək bazarlarının növlərinin, formalarının və xüsusiyyətlərinin inklüziv məşğulluğa təsir etdiyi müəyyən edilmişdir. Dünyada əmək bazarının yeni texnoloji sistemə uyğun formalaşması və inkişaf proseslərini şərtləndirən amillərin təhlili özü mürəkkəb bir forma olmaqdadır.

Respublikada işsizliyin bir neçə - regional, struktur, friksion, gizli növü vardır ki, bunların içərisində regional işsizlik ən çox yayılmışdır. Hal-hazırda Azərbaycanda əmək bazarının əsas problemləri sırasında işsizlik və işçi qüvvəsindən düzgün istifadə edilməməsi problemi vardır.

## Azərbaycanda inklüziv məşğulluq sahəsində aparılan islahatların təhlili

İnklüziv məşğulluq sahəsində aparılan tədqiqatlar onu göstərir ki, dünyanın bir çox ölkələri məşğulluq sahəsində öz keçid dövrünü yaşayır. İnklüziv məşğulluq sahəsində Azərbaycan Respublikasında fundamental tədqiqatların aparılmaması ölkədə bu sahədə inkişaf prosesinin ləngidiyini göstərir. İnklüziv məşğulluq sahəsində yaranan problemlərdən biri inklüziv məşğulluq sahəsinin müəyyən olunması zamanı itirilən vaxt itkisidir. Belə ki, inklüziv məşğulluq sahəsində mütəxəssislərin bir sahədən digərinə hərəkət etməsi vaxt alır ki, bu da yeni iş vərdişlərinin mənimsənməsinə mane olur. Bu sahədə gizli işsizlik daha çox müşahidə oluna bilər. Gizli işsizlik zamanı bir çox hallarda insanların həyat səviyyəsinin aşağı düşməsi, cəmiyyətin diferensiasiyasının artması müşahidə olunur.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) hökumətlərin sosial, iqtisadi siyasətlərini təkmilləşdirmək, beynəlxalq standartlara uyğun tövsiyələri hazırlamaq məqsədi daşıyan beynəlxalq təşkilatdır.

Orta əməkhaqqı alan bir işçi üçün orta vergi dərəcəsi 34,8% təşkil edib ki, bu da 2023-cü ildə Belçikada 53%-dən Kolumbiyada 0%-ə qədər dəyişir. [4]

**Şəkil 2.1.3.**
**OECD işsizlik səviyyəsi**




*Mənbə: Şəkil müəllif tərəfindən tərtib olunmuşdur.*

Texniki universitetlərin, kolleclərin və texnikumların məzunları iş tapmaqda çətinlik çəkir. Əmək bazarındakı bu tələb sənaye sahələrində fəhlə və mütəxəssislər üzrə çatışmazlığın olduğunu göstərir. Statistik göstəricilər bir çox halda düzgün məlumatları əks etdirə bilmir. Belə ki, bir çox işverənlər, vergidən yayınmaq üçün öz fəaliyyətinin məlumatlarını gizlədirlər. Bu da gizli işsizliyin artmasına səbəb olur.

Yüksəkixtisaslı və peşəkar hazırlığı olan işçinin qiymətləndirilməsi təhsil alan gənclərin sayının artmasına müsbət təsir göstərir. Keyfiyyətli biliyə və praktiki bacarıqlara malik işçilərin hazırlanması gələcəkdə işsizliyin tamamilə aradan qalxmasına, xüsusən də inklüziv məşğulluq probleminin yox olmasına səbəb olacaqdır. Bütün bunlara nail olmaq üçün isə, işəgötürənlərin əmək bazarında yeni reallıqlara uyğunlaşmaları lazımdır.

Artıq sahibkarlar və şirkət rəhbərləri tez qazanc əldə etməyə deyil, uzunmüddətli, davamlı gəlir əldə etməyə can atırlar. Bu da getdikcə artan rəqabət mühitində firma və müəssisələrə müsbət təsir göstərir. İstehsalın, şirkətlərin, müəssisələrin yeni avadanlıqlarla təchiz olunması, robotlaşdırılması, avtomatlaşdırılması proseslərinin aktivləşdirilməsi, eyni zamanda, rəqəmsal texnologiyaların geniş miqyasda tətbiqini sürətləndirir. Dünyada peşələrin birləşməsi bir məşğulluq sahəsindən digərinə keçidi asanlaşdırır. Ölkəmizdə yüksəkixtisaslı tibb kadrlarına: həkimlərə, tibb bacılarına kəskin ehtiyac vardır. Bu ehtiyac xüsusilə də ölkənin ucqar rayonlarında, kənd yerlərində hiss olunur.

İnklüziv məşğulluq proseslərinin ləng getməsi ölkənin əksər regionlarını əhatə edib. Məsələn, Azərbaycanda bir çox rayon və kənd yerlərində tibb məntəqəsi yararsız vəziyyətdədir. Bu sahələrdə əhalinin müalicə problemlərinin aradan qaldırılmasında yaxın ərazilərə üz tutulur ki, bir çox hallarda insanların həyatları təhlükə altında qalır. Bu cür inzibati subyektin rəsmi qeydiyyatlarında keçmiş işsizlərin sayının artdığını görürük. Bu problem COVID-19 pandemiyası zamanı daha çox hiss olundu. Deməli, bu sahəyə dövlət dəstəyinin olması qaçılmazdır.

Beləliklə, Azərbaycanda əmək bazarı inkişafında struktur dəyişiklikləri ilə xarakterizə olunan müsbət göstəricilər var. Amma tələb olunan mütəxəssislər içərisində inklüziv sahəni bilən mütəxəssislərin olmaması iqtisadiyyatın bu vəziyyətdən tam çıxmasına mane olur. İnklüziv məşğulluq faizinin qeyri-sabit olması işsizlikdə özünü göstərir.

Statistik məlumatlara əsasən, Azərbaycanda kütləvi işsizlik yoxdur. Azərbaycanda işsizlik regional xarakter daşıyır. 2022-ci ildə əmək bazarının inkişafına aşağıdakı amillər mane olub:

- Yaş və cins ayrı-seçkiliyi;
- İşəgötürənlərin pensiya həddində olan insanların maaşlarının azaltması;
- İş təcrübəsinə əsaslanan diskriminasiya;
- Gənc mütəxəssislərin layiqli əməkhaqını ala bilməməsi;
- Təcrübəsi olmayan insanlara təcrübəsi olan mütəxəssislər qədər maaş verilməsi;
- Optimallaşdırma yolu ilə işçilərin sayının azaldılması;
- Digər işçilərə daha geniş məsuliyyətlərin verilməsi.

Yeni texnologiyaların inkişafı informasiya texnologiyalarına keçidin olması, onu deməyə əsas verir ki, işəgötürənlər sadəcə olaraq hər şeyi bacaran işçilərə ehtiyac duymurlar, eyni zamanda, yaradıcı düşünməyi bacaran, eyni vaxtda bir neçə sahədə işləyə bilən, xarici dil səviyyəsi yüksək olan, daha dar istehsal sahələrini öyrənməyə hazır olan insanları işə götürməkdə maraqlıdırlar. Bu əmək bazarının strukturunda məşğulluğun xarakterik olan proseslərini nümayiş etdirir.

Yaxın gələcəkdə bu cür mütəxəssislər tələb olunan ən yüksək yerləri tutmaq imkanına malik olacaqlar. Analitiklər, marketoloqlar, mühəndislər, satış və ticarətlə məşğul olan insanlar ikinci sıraya keçəcəklər. Əmək bazarında İT mütəxəssisləri, marketoloqlar, mühəndislər, menecerlər eyni anda bir neçə sahəni bilən insanlarla rəqabət aparmalı olacaqlar [5].

İnklüziv təhsil almış insanlar əsasən əlaqəli peşəyə yiyələnməyə və praktiki və nəzəri bacarıqlarını dərinləşdirməyə nail olmuş frilanserlər və ya mütəxəssislərə çevrilə bilər. Xüsusən də ofis işçilərinin içərisində işləmək bacarığı qazana bilər. Bunu uzaqdan işləməyə üstünlük verən frilanserlər olaraq da həyata keçirə bilərlər. Bununla əlaqədar olaraq işəgötürən analitiklər qeyd edirlər ki, əmək bazarının sabitləşməsi üçün əməkhaqqının artması lazımdır.

İnklüziv məşğulluğun sabitləşməsi üçün işəgötürənlərin böyük bir hissəsi daimi gəlirin olmamasından qorxaraq nəinki maaşları artırırlar, eyni zamanda əlavə xərcləri ixtisar edirlər. Bu proses çox vaxt aztəminatlı peşələrin nümayəndələrinin hüquqlarının azalması ilə müşahidə olunur.

Dünyada ən populyar ixtisasların siyahısına proqramçılar, sistem administratorları, dizaynerlər, mühəndislər, sosial peşələrin nümayəndələri, tərcüməçilər, psixoloqlar, həkimlər, HR mütəxəssisləri, çilingərlər, qaynaqçılar, tornaçılar, quraşdırıcılar, elektriklər, qazmaçılar, maşinistlər, sənaye avadanlıqlarının operatorları, kimya və sənaye müəssisələrinin texnoloqları daxildir. Peşəkar mütəxəssislər stresə qarşı müqavimətli olmaqla yanaşı, yüksək səviyyədə ünsiyyət bacarıqlarına, empatiya, yenilikçi düşüncə və geniş praktiki bacarıqlara malikdirlər.

Azərbaycanda rayonlardan əmək qabiliyyətli əhalinin mərkəzə axın etməsi, bir çox rayonlarda işçi çatışmazlığına səbəb olmuşdur. Bu da, qeyri-formal məşğulluqla bərabər, bu cür "boz əmək bazarı"ında gizli əmək münasibətlərinin çoxalmasına səbəb olur. Bu sahədə yaranan problemlərin çoxalması, inklüziv məşğulluğun öyrənilməsini tələb edir. Hazırda bu məsələ ölkəmiz üçün də aktual məsələlərdən biri hesab edilir.

Əvvəla, inklüziv əmək bazarının leqallaşdırılması ifadəsi tamamilə yanlışdır. Bu sahəni leqallaşdırmamaq onun təbiiliyini, qanunauyğunluğunu tanımaq, iştirakçıları təqib etməmək deməkdir. Hazırda bu sahədə xüsusi işlərin görülməsinə ehtiyac vardır. Əmək bazarında inklüzivliyin təmin olunması məsələsi inklüziv məşğulluq məsələsinin həll olunmasına səbəb olar ki, bu da müasir dövrün tələbləri sırasındadır.

Ona görə də əmək bazarının leqallaşdırılmasından danışmaq düzgün deyildir. Ölkədə qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə inklüziv məşğulluğun müəyyənləşdirilməsinə, əmək münasibətlərinin leqallaşdırılmasının perspektivlərin artımına səbəb olur ki, bunu da müsbət hal kimi qiymətləndirmək lazımdır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində mülkiyyət formasından asılı olmayaraq, əmək qanunvericiliyinin pozulmasına görə vəzifəli şəxslər cinayət, inzibati və digər növ məsuliyyətə cəlb oluna bilərlər [1].

Lakin bir faktı da qeyd etmək lazımdır ki, hüquqların qorunmasının nəzərə alınması mühüm amillərdən hesab olunmalıdır. Belə ki, iş üçün müraciət edən (vətəndaş) işçi ilə işəgötürən arasında mənfi münasibət yarana bilər. Biznes etikasının pozulması halları baş verə bilər ki, bu da əmək bazarında məşğulluğun təmin olunması zamanı nəzərə alınmalıdır. Bu hal inklüziv məşğulluq sahəsində daha çox müşahidə olunur.

## Nəticə

Eyni zamanda, inklüziv məşğulluğun bir çox sahələrində xarici təcrübə ilə yanaşı, Azərbaycanda əmək bazarının xüsusiyyətlərinin də nəzərə alınması tövsiyə olunur. Belə ki, ölkəmizdə inklüziv məşğulluğun öyrənilməsi, əmək bazarının tənzimlənməsi və inkişafı üçün imkanlar vardır. Məhz buna görə də, inklüziv məşğulluğun öyrənilməsi və əməyin tənzimlənməsi məsələsi bir tədqiqat çərçivəsində qalmamalıdır. Bu sahədə dövlətin əmək bazarını tənzimləməsində inklüziv məşğulluğa diqqət yetirməsi məsələsini aktuallaşdırmaqla, əmək bazarında inklüziv məşğulluğun təmin olunması və tənzimlənməsinə nail olmaqla əmək bazarı siyasətinin tərkib hissəsinə çevrilə bilər.

İnklüziv məşğulluğun əsas formaları, mahiyyəti, kateqoriyaları, amillər və prinsiplərini tədqiq edərək Azərbaycanda məşğulluğun dinamikasının yaxşılaşdırılmasına nail olmaq olar. Bunun üçün də dövlət səviyyəsində gənclərin məşğulluq vəziyyətinə xüsusi diqqət yetirməklə onların gələcək inkişafı baxımından inklüziv məşğulluğun daha geniş təhlilinə ehtiyac vardır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3)*

*2. İLO, OECD. Labour market inclusion of people with disabilities. Buenos Aires, Argentina, 2018. 20 page. https://www.ilo.org/wcmsp5/groups/public/dgreports/inst/documents/publication/wcms_646041.pdf*

Əminliklə demək olar ki, insanın öz bədənini dərk etməsi, öz dövrünə xas olan dünyagörüşü ilə sıx bağlıdır. Deməli, mifoloji təfəkkürdə bədən və ruh yalnız mif kontekstində əks olunur. Çünki mifoloji təfəkkür bu dövrün yeganə düşüncə tərzidir. Antik dövrdə loqosun mifdən ayrılması ilə bədən-ruh barədə qavrayışda da dəyişikliklər baş verir və bədən artıq ruhdan ayrı bir obyekt kimi qəbul olunmağa başlayır. Orta əsrlərdə xristian dünyagörüşündə (qnostik baxışlar istisna olmaqla) ruh və bədənin vəhdəti problemi əsas müzakirə obyekti olmuşdur.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Аристотель. Большая этика // Аристотель. Сочинения: В 4-х т. Т. 4. М.: Мысль, 1983. – 830 с.*

*2. Аристотель. О душе // Аристотель. Сочинения в четырех томах. Т. 1. М.: Мысль, 1976. – 550 с.*

*3. Аристотель. Соч.: В 4-х т. Т. 4. – М., 1976-1984. – 830 с.*

*4. Библия. [Электронный ресурс] / URL: https://lib.pravmir.ru/data/files/Bible.pdf*

*5. Виндельбанд, В. История древней философии. [Electronic resource] / Киев «Тандем»., 1995 – 368 с. - URL: https://vk.com/doc6764297_412021605*

*6. Ждан, А.Н. История психологии от античности до наших дней. [Electronic resource] / Учебник. – М.: Изд-во МГУ, 1990. – 367 с. – URL: http://www.myword.ru*

*7. Константинов, В.В. История психологии: учебное пособие. – Пенза: ПГПУ им. В.Г.Белинского, 2007. – 144 с.*

*8. Лосев, А.Ф. Очерки античного символизма и мифологии. [Electronic resource] - М.: Мысль, 1993. – 714 с. URL: https://lib.rmvoz.ru/sites/default/files/fail/losev_aleksey_ocherki_antichnogo_simvolizma_i_mifologii_.pdf*

*9. Марцинковская Т.Д. История детской психологии. – [Electronic resource] - М.: гуманит. изд. центр ВЛАДОС, 1998. – 272 с. – URL: http://www.koob.ru*

*10. Молок Д.Ю. Классика и истина. Статьи об античном искусстве. М., 2016- 296 с.*

*11. Пифагор. Золотой канон. Фигуры эзотерики. [Electronic resource] - М.: Эксмо, 2003. – 448 с. URL: https://textarchive.ru/c-1169490-pall.html*

*12. Платон. Собрание сочинений в 4 т. Т. 3/ Пер. с древнегреч.; Общ. ред. А. Ф. Лосева, В. Ф. Асмуса, А. А. Тахо-Годи; Авт. вступ. ст. и ст. в примеч. А. Ф. Лосев; Примеч. А. А. Тахо-Годи. М.: Мысль, 1994. - 654 с.*

*13. Платон. Собрание сочинений в 4 т.: Т. I*

/ *Общ. ред. А. Ф. Лосева и др.; Авт. вступит, статьи А. Ф. Лосев; Примеч. А. А. Тахо-Годи; Пер. с древнегреч. М.: Мысль, 1990. - 860 с.*

*14. Платон. Диалоги. М.: Мысль, 1986. – 607 с.*

*15. Платон. Апология Сократа. Сочинения. В 3 т. Под общ. ред. А.Ф. Лосева и В.Ф. Асмуса. М., Мысль, т.1, 1968. 623 с.*

**Фарах Садыхова**

**Отношение к проблеме души и тела в античной философии и средневековом христианстве**

**РЕЗЮМЕ**

В статье рассматривается отношение к вопросу о душе и теле в античной философии и средневековом христианстве. Сравнительно анализируются взгляды античных философов на этот вопрос и исследуется происхождение выдвинутых ими взглядов. При этом сравнительно исследуются взгляды богословов средневековой христианской эпохи на данную тему и определяются последствия взглядов античных философов в их воззрениях. Выявляются параллели и противоречия во взглядах античных философов и средневековых христианских богословов на соответствующую тему.

**Ключевые слова:** *душа, тело, древнегреческая философия, античность, средние века, христианство, разум.*

**Farah Sadykhova**

**Attitude to the problem of soul and body in ancient philosophy and medieval Christianity**

**SUMMARY**

The article deals with the attitude to the question of soul and body in ancient philosophy and medieval Christianity. The views of ancient philosophers on this issue are comparatively analyzed and the origin of the views put forward by them is investigated. At the same time, the views of theologians of the medieval Christian era on this topic are comparatively studied and the consequences of the views of ancient philosophers in their views are determined. Parallels and contradictions are revealed in the views of ancient philosophers and medieval Christian theologians on the relevant topic.

**Keywords:** *soul, body, ancient Greek philosophy, antiquity, Middle Ages, Christianity, reason.*

**XÜLASƏ**

Məqalədə antik və orta əsr xristianlıq dövründə ruh və bədən məsələsinə münasibət məsələsi araşdırılır. Bu məsələyə aid antik dövrün filosoflarının fikirləri müqayisəli şəkildə təhlil edilir və onların irəli sürdüyü fikirlərin mənşəyi araşdırılır. Eyni zamanda, orta əsr xristianlıq dövrünün ilahiyyatçılarının mövzu barədə fikirləri müqayisəli şəkildə araşdırılır və onların fikirlərində antik filosofların baxışlarının təsirləri müəyyən edilir. Antik filosofların və orta əsr xristian ilahiyyatçılarının müvafiq mövzu ilə bağlı fikirlərində paralellər və ziddiyyətlər ortaya qoyulur.

**Açar sözlər:** *ruh, bədən, qədim yunan fəlsəfəsi, antik dövr, orta əsrlər, xristianlıq, ağıl.*

UOT 1:2; 141.45
DOI:10.30546/3006-0346.2024.4.82.104

# BEYNƏLXALQ KRİŞNA ŞÜURU CƏMİYYƏTİNİN İNANC VƏ İBADƏTLƏRİ

**VÜSALƏ MƏMMƏDOVA**
*Azərbaycan İlahiyyat İnstitutunun*
*"Dinlərin tarixi" ixtisası üzrə magistrantı*

*E-mail: vusale.memmedova780@gmail.com*
*ORCID:0009-0009-0172-7918*

## GİRİŞ

Başda ABŞ və Qərb ölkələri olmaqla demək olar ki, bütün cəmiyyətlərdə yeni dini hərəkatlar gündən - günə sürətli artımları ilə diqqət çəkməkdədirlər. (Güneş, 2023:401) "Yeni" adlandırılmalarının səbəbi kimi yalnız tarix olaraq yeni, yəni İkinci Dünya müharibəsindən sonra yaranmaları deyil, həm də yeni bir din, dindarlıq forması, fərqli inanc gətirmələri olaraq da dəyərləndirmək mümkündür. Dini sosial bir fakt kimi düşünsək, cəmiyyətdə bu qədər geniş yayılmış ikinci təsir vasitəsi görmək mümkün deyildir (Heydərov, Qənbərov, Qafarov, 2020 :14) Ənənəvi dinlərdən qopmalarına baxmayaraq özlərini ayrı bir din kimi təqdim edən bu cərəyanlar, mövcud dinin təsir gücünün zəiflədiyi cəmiyyətlərdə ənənəvi dinin alternativi olaraq yaranmış, qısa müddətdə ətraflarına xeyli tərəfdar toplamağa nail olmuşlar. Müxtəlif mədəniyyətlərin birlikdə yaşandığı, sekulyarizmin və modernizasiyanın mövcud olduğu, dini dəyərlərin və ailə institutunun zəiflədiyi Qərb dünyasında meydana gələn bu hərəkatların yaranmasına səbəb, insanların modernləşmədən gözlədiklərinin əksi ilə qarşılaşmaları olmuşdur. Belə ki, müharibələr, xüsusilə İkinci Dünya müharibəsindən sonra gözlənilən dəyişikliklər baş verdi. İnsanlar yenidən dini, mənəvi, mistik axtarışlara yönəlməyə başladı. Din, baş verən proseslərdə əsaslı dəyişimə məruz qalarkən, yeni din formalarının yaranmasına əlverişli zəmin yaratmış oldu. İnsanlarda yaranan qorxu, narahatlıq və inamsızlıq, onları özlərini daha təhlükəsiz hiss edəcəkləri dini qruplara yönəltdi.

Yeni dini hərəkatlar, əsasən Din sosiologiyası və Din psixologiyasının tədqiqat mövzusu olmuşdur. Mürəkkəb strukturları, fərqli ideologiyaları, müxtəlif inanc və ibadət formaları ilə bütün dünyada sürətlə və geniş yayılan bu hərəkatları adlandırmaq, xüsusiyyətlərini təsbit etmək, təsnifləndirmək o qədər də asan olmamışdır. Yeni dini hərəkatları müxtəlif meyarlarla təsnifləndirərkən, ilk olaraq mənşəyinə görə, yəni, xristianlıqdan ayrılan və Uzaq Şərq dinlərindən qopan hərəkatlar olaraq ayırmışlar. Şərq mənşəli, xüsusilə hind qaynaqlı yeni dini hərəkatlar daha çox diqqət cəlb etmiş və üzərində daha çox tədqiqat aparılmışdır. Pozitiv məqsədlərə yönəlmiş bu hərəkatlar eyni zamanda hind dinlərinin müqəddəslərini yaşatmaq, insanların ruhani dünyasını zənginləşdirmək və fərdi potensiallarını inkişaf etdirmək məqsədi hədəfləmişlər. Tanrı ilə daha dərin və yaxın bir əlaqə, bunu həyata keçirməkdə bir ustada tabeolma prinsipi bir çox Şərq mənşəli hərəkatlarda mövcuddur.Uzaq Şərq dinlərinə mənsub olan yeni dini hərəkatlara "Hare Krişna", "Sai Baba", "Transsendental meditasiya", "Brahma Kumaris" və digər dini qrupları misal görtərmək olar. (Qənbərov, 2018:178) Şərqin minillik mədəniyyət və inanclarını təmsil edən bu hərəkatlar Qərb cəmiyyəti üçün olduqca yeni idi (Köse, 2017:8). Qeyd etmək lazımdır ki, heç bir fəlsəfə Qərb dünyasına Hind fəlsəfəsi qədər təsir göstərməmişdir. "Beynəlxalq Krişna Şüuru Hərəkatı" Şərqdən Qərbə gələn onlarla dini cərəyanların bəlkə də ən uğurlusu və ən çox diqqət cəlb edəni olmuşdur (Köse, 2017:141).

Sosioloqlar bəzən cəmiyyətdə yaranmış xaosu müsbət bir hal kimi dəyərləndirirlər. Çünki əksər hallarda xaos, bir "ayılma" və ya yeni bir nizamın formalaşması ilə nəticələnir. Elm, insan ağlı, texnika qərblilərin dünyasını cansızlaşdırdıqda ilahi aləmə bağlı bir ruha sahib olan insan, çıxış yolu axtarmağa başlamışdır.

Dünyəviləşmənin güclü olduğu Qərb dünyası Şərqdən gələn dini ab-havanı asanlıqla mənimsəmişdir. 1960-cı illərdə Qərb cəmiyyətini bürüyən Uzaq Şərq dinləri cəmiyyətdəki təsirini heç vaxt itirməmişdir. "Beynəlxalq Krişna Şüuru Cəmiyyəti"nin dünyada geniş missyonerlik fəaliyyətləri və kifayət qədər ardıcılları mövcuddur. Hərəkatın Amerikada və Avropada sürətli inkişafına bəzi faktorların təsiri olmuşdur. İlk olaraq bu hərəkatın mənimsədiyi apokaliptik ideologiya, xristianlığın hakim olduğu cəmiyyətlərdə ənənəvi mədəniyyətə bənzər bir inanc idi. Digər bir faktora gəlincə, hinduizm və xristianlıq arasında önəmli fərqliliklər olmasına baxmayaraq Bhaqavad – Gitada qeyd olunan Krişnanın sözləri, ideologiyaları Əhdi - Cədidlə çox bənzərdir (Akalın 2015:21). Hinduizmdə Krişna, xristianlıq-

da İsa Məsih Tanrının avatarası hesab edilməkdədir. Elmin və sevginin insanı mükəmməlliyə aparan bir yol olması, hər iki inancda mövcuddur. Tanrı – sevgi Tanrısıdır, Ona çatmaq və bununla bərabər elmə, həqiqətə, imana və qurtuluşa yetişmək yalnız Tanrını sevməklə mümkündür. Fərdi olaraq qurtuluşa çatmış insan, başqalarının da qurtulması üçün çalışacaqdır. Pozitiv məqsədlərə yönəlmiş fəlsəfi və mistik hərəkatların təməl məqsədləri əvvəl insanı, sonra insanlığı və dünyanı dəyişməkdir, şüarları isə "biz dəyişərsək, dünya dəyişəcəkdir" şəklindədir (Turan, Battal 2020:103). Həmçinin hərəkata qoşulan üzvlərə göstərilən diqqət və qayğı, qruplara yönəlməyə marağı artıran əsas faktorlardan biridir.

Zərərli vərdiş sahibləri və bundan qurtulmaq istəyənlər üçün hərəkatın təqdim etdiyi yoqa təlimləri alternativ bir məşğuliyyət təsiri bağışlamışdır. Ümumilikdə elmin, siyasətin həll edə bilmədiyi bir çox problemin olduğu, kilsənin də çökməyə üz tutduğu Qərb cəmiyyətində axtardığı rahatlığı və rifah həyatı tapmayan insanlar üçün çıxış yolu, təsəlli qaynağı dini qruplara yönəlmək olmuşdur. İnsan fitrəti dinə ehtiyaclı şəklində yaradıldığı üçün daim ona yönəlir və suallarını cavablandıracaq ünvan axtarışında olur. Müasir dövrdə dinin cəmiyyətdə görünüş formalarından biri də yeni dini hərəkatlar şəklində olmuşdur (Əzimli, 2022 : 158).

## HƏRƏKATIN YARANMASININ QISA TARİXİ

Bu hərəkat, " Veda" mədəniyyətini və dinini Krişna şüuru altında Qərbdə yaymaq düşüncəsi ilə qurulmuşdur (Turan, Battal, 2020: 215). Hare Krişna hərəkatının qurucusu Svami Prabhupada, öz ruhani ustadı Abhay Bhaktisiddantanın istəyini yerinə yetirmək niyyəti ilə 1965-ci ildə, 69 yaşında, təkbaşına bir yük gəmisində Amerika Birləşmiş Ştatlarına yola düşmüşdür. Qısa müddət sonra ətrafına ardıcıllar toplamağa nail olan Prabhupada, Qərb mədəniyyətinə mənsub insanların Şərq mistisizminə qarşı maraqlarının yüksək olduğundan daha da ruhlanaraq, 1966 – cı ildə Nyu-Yorkda" Beynəlxalq Krişna Şüuru Cəmiyyəti"nin əsasını qoydu. Praphubada vəfatına qədər keçən on iki il ərzində Krişna şüurunu təbliğ etmiş, dəfələrlə dünyanı gəzmiş, "vayşnava"nın müqəddəs mətnlərinin şərhlərindən ibarət altmış cildə yaxın kitablar nəşr etdirmişdir. Praphubada 1977 – ci ildə vəfat etdiyi zaman artıq bir çox ölkədə məbədlər inşa etdirmiş, ardıcıllarının sayı isə on minə çatmışdır (Köse 2017: 42). Kitabları bir çox dillərə tərcümə edilmiş, beş yüz milyon nüsxədən çox satılmışdır. Onun ardıcılları bu kitabları ən dəyərli varis hesab edirlər və düşünürlər ki, hindu müqəddəs mətnlərin dünyanın müxtəlif dillərində tərcümə olunması, milyonlarla insanların "ruhi potensialını açmağa" kömək etmişdir. Onun əsərlərinə böyük ehtiramla yanaşan krişnaçılar, öz ruhani ustadlarını Krişna şüurunun yüksək zirvəsinə çatmış bir öndər olaraq qəbul edir, Tanrı Krişnaya göstərilən hörmət və təzimin ona da göstərilməsini vacib hesab edirlər. Çünki Praphubada, Krişnanın təmsilçisidir və onun sevgisini dünyaya yaymaqla vəzifələndirilmişdir. Onun ustadı ondan insanların bəhrələnməsi, xeyir tapıb ucalması üçün bu elmi bütün dünyaya çatdırmasını istəmişdir. Praphubada həyatı boyu bu missiyanı yerinə yetirməyə çalışmışdır. Onun yazdığı kitablar "özünü dərk etmək", "Allahı dərk etmək", "İlahi Varlıqla insanın itirdiyi münasibətləri bərpa etmək" və s. mövzuları əhatə etməkdədir. O, həmçinin Tanrı ilə insanlar arasında ünsiyyət vasitəsidir və insanlara doğru yolu göstərən bir rəhbərdir.

Praphubadaya öz missiyasını yerinə yetirmək üçün zəngin hindlilər öz maddi dəstəklərini əsirgəməmiş və bu elm Hindistandan bütün dünyaya yayılmışdır. 1966 – cı ildə Nyu-Yorkda əsas qoyulan bu hərəkat, 1968 – ci ildə Avropaya yayılmağa başlamışdır. Müxtəlif şəhərlərdə bir çox məbədlər inşa edilmiş, konfranslar keçirilmiş, məktəblər açılmışdır. Hindistanın dövlət xadimləri və bir çox hindular, hinduizmi və hind mədəniyyətini yaydığı üçün Praphubadanı, ölkələrinin "ruhani səfiri" hesab etmişlər.

1977-ci ildə Praphubadanın vəfatından sonra artıq "ruhani ustad "sayılan on bir nəfər ardıcılları onun missiyasını davam etdirərək hərəkatın rəhbərliyini öz üzərlərinə götürmüşlər. 1980 – ci illər, hərəkatda parçalanmalarla yadda qalan bir tarix olsa da, daha sonra hərəkatın idarəsi yenidən davam etdirilmişdir. Bu cür halların, lideri vəfat edən hər qrupda yaşandığı görülməkdədir.

## MÜQƏDDƏS KİTAB "BHAQAVAD – GİTA"

Hindistanın bir çox dinlərin yarandığı coğrafiya olması və bir sıra dinlərin Veda təlimi əsasında formalaşması məlumdur. "Beynəlxalq Krişna Şüuru Cəmiyyəti" də Veda təliminə əsaslanır və istinad etdikləri yazılı mətnlərdən ən nüfuzlusu Bhaqavad Gitadır. Bir neçə dilə tərcümə olunmuş bu müqəddəs kitabın əsas məzmununu tanrı Krişnanın nəsihət və göstərişləri təşkil edir.Bu mətnləri əzbərləmək, hərəkat üzvlərinin gündəlik ibadətlərinə daxildir.

Krişnaçıların fəaliyyətlərinin əsasını müqəddəs mətnləri tərcümə etmək, onun göstərişlərinə uyğun

təlimlər keçirmək və bu elmi insanlara aşılamaq təşkil edir. Hindu həyat və düşüncə tərzinin formalaşmasında mühüm rolu olan Bhaqavad – Gita, hind mifologiyasının döyüşçü qəhrəmanı Arcuna və tanrı Krişna arasında baş verən dialoqdan ibarətdir. Krişnaçılar Tanrının kəlamlarının hər birinin nəğmə olduğunu düşünür və onu "ilahi nəğmə", "Tanrının nəğməsi" adlandırırlar. Tanrının dilindən danışıldığı üçün onu müqəddəs hesab edirlər və beş min illik bir tarixi olduğunu iddia edirlər. Beş min il əvvəl qədim sanskrit dilində yazılmış Bhaqavad - Gitanın tərcümə olunmasında və Qərb dünyasında yayılmasında, hərəkatın lideri Praphubadanın böyük töhfəsi və zəhməti olmuşdur (Turan, Battal, 2020:218). Bu elm əsasən beş mövzunu əhatə etməkdədir: İlahi Varlıq haqqında keçən bəhslərdə, Onun hansı hikmətlərlə dərk olunması barədə məlumat verilir. İnsan olan varlıq kimdir, nə üçün doğulmuşdur? Nə üçün insan bu dünyada iztirab çəkir? Bu dünyada hansı enerjilər, hansı qanunlar vardır, kainat hansı enerjilər vasitəsilə idarə olunur? Zaman hər şeyi necə dəyişir və necə məhv edir? Kitabda dörd növ insanların Allah yoluna gəldiyi qeyd olunur: İztirab çəkən və bundan qurtulmaq istəyən insanlar. Hər şeylə maraqlanan insanlar; bu insanlar həyatda hər şeyi öyrənmək, bilmək istəyirlər. Maddi arzularının həyata keçməsi üçün Allaha yalvaran insanlar. Həqiqət axtarışında olan ağıllı insanllar.

Bhaqavad-Gitada reinkarnasiyadan yəni, sanskritcə "samsara" adlanan tənasüh, və "karma" adlanan səbəb -nəticə inancından bəhs olunur və bildirilir ki, insan uşaqlıq bədənini dəyişib yetkinlik, yetkinlik bədənini dəyişib qocalıq bədənini aldığı kimi, ölüm anı gəldikdə, mövcud bədəni atıb yeni bədənə daxil olur yəni, yenidən doğulur. Sonsuz olan ruh, xeyir və şər əməlləri ilə mövcud çürüməyə məhkum bədənlərdə uzun müddət dolaşır. "Keçici cənnət" adlanan yaxşı həyatı yaşamasında məqsəd, ruhun xeyirə qarşı diqqətini artırmaq və onu daha çox yaxşı əməllərə sövq etməkdir. Şər bədənlərdə dolaşan ruhun diqqətini isə pislik və kirli olana qarşı yönəldərək ondan uzaqlaşmasını təmin etməkdir. (Yitik 2013:159) İnsanın yolu bitməyibsə, müxtəlif bədənlərdə və formalarda yenidən doğulur. İnsan ruhi varlığı dərk edənədək reinkarnasiya silsiləsi davam edir və bundan sonra, onlar arasında rabitə sona çatır, ayrılma və qurtuluş baş verir (Yitik 2013:159). Bu mərhələdən sonra isə insan daha ölümlü dünyada doğulmur, aid olduğu, əzəldən gəldiyi yerə qayıdır. Tanrı ruhu maddi elementlərdən ibarət cismə tabe etmişdir. Bədən ruhun zindanıdır, hidayət isə ruhun bu girdabdan qurtuluşudur. Ruh Allahdan bir zərrədir və ruhu aşkar etmək bu elmin əsas məqsədidir. Yalnız bu zaman insan əbədiyyət qazana bilər.

Sitayiş haqqında Bhaqavad-Gitada tanrı Krişnanın dilindən deyilir: "İlahlara sitayiş edənlər İlahların yanına gedəcəklər. Ruhlara sitayiş edənlər ruhların arasında doğulacaqlar. Əcdadlara sitayiş edənlər əcdadların yanına, mənə sitayiş edənlər mənim yanıma qayıdacaqlar". Tanrıdan başqa sitayiş, bəzən əsas Uca Varlığı unutmağa səbəb olur. Halbuki hər bir halda bütün sitayişlər Tanrıya yaxınlaşmaq üçündür.

## İNANC VƏ İBADƏTLƏRİ

Krişna şüuru hərəkatı dünyanı rədd edən, dünyəviləşməyə qarşı mövqedə dayanan bir hərəkatdır, qrup üzvləri arasında birlik və bir-birinə bağlılıq duyğusu hakimdir. (Güneş 2023 :404) Bu hərəkat qatı bir şəkildə monoteist anlayışa sahibdir və tərəfdarlarının Krişna şüurunu tamamilə mənimsəməsi üçün həyatlarını asketik bir formada davam etmələri tələb olunur. (Uluç 2012 :172). Hərəkatın üzvləri yəni, özləri adlandırdıqları kimi "fədailəri" bu hərəkatı dini hərəkat deyil, elm hərəkatı hesab edirlər.

Veda təlimində və ya fəlsəfəsində ümumilikdə hər şeyin mahiyyəti haqqında dərin fundamental fəlsəfə olduğu üçün mükəmməl və kamil bilik əldə etmək mümkündür. Bu fəlsəfəyə əsasən hazırkı dövr "dəmir dövrü"dür və bu dövrdə insanın özünü dərk etməsinin ən asan yolu Tanrının müqəddəs adlarının tərənnümüdür. Tanrını daim adlarıyla zikr etmək Ona duyulan dərin sevginin göstəricisidir. . Krişnaçılar Tanrını üç adı ilə zikr edirlər:Hare, Krişna, Rama. Qədim sanskrit dilində Tanrının əsas adlarından olan Hare- Allahın qüdrəti, sevgi enerjisidir. Rama- hər kəsə sevinc bəxş edən deməkdir,- sevincin, xoşbəxtliyin mənbəyidir. Krişna - hər kəsi cəlb edən, "Cazibədar Tanrı" mənasındadır. Hərəkatın gündəlik ibadətlərinin əsas hissəsini mantra yəni, 108 ədədli təsbehlə Tanrının müqəddəs adlarından ibarət 16 kəlməni özündə birləşdirən dua təşkil etməkdədir: Hare Krişna Hare Krişna Krişna Krişna Hare Hare,Hare Rama Hare Rama,Rama Rama Hare Hare. Mantra iki sözün birləşməsidir; "man" – ağıldır, "tra" – ağılı qurtuluşa aparan deməkdir yəni, ağılı iztirablardan xilas etməkdir. Tanrının müqəddəs adlarını zikr etmək, ibadətlərin ən gözəlidir.

Krişna hərəkatının üzvlərinin gündəlik ibadətləri ən uzun ibadətlərdəndir. Onlar üçün gün saat 3:30 – da ruhani ustada təzimlə başlayır. Ardınca ibadət niyyəti ilə yuyunduqdan sonra təsbehlə Tanrının

müqəddəs adlarının zikri yerinə yetirilir. Təsbeh təmiz qalması üçün kisədə gəzdirilir. Zikr zamanı baş barmaq və orta barmaqdan istifadə edilir. Şəhadət barmağını, neqativ enerji daşıdığı üçün təsbehə toxundurmurlar. Baş barmaqda olan nöqtələrin beyinin təfəkkürünün inkişafında rolu olduğunu, orta barmağın isə onurğa sütunu ilə əlaqəli olduğunu bildirirlər. Krişnaçıların istifadə etdikləri təsbeh, Hindistanda bitən və müqəddəs hesab edilən Tulsi ağacından oyularaq hazırlanmışdır. Bu səbəbdən təsbeh "Tulsi mala " adlanır. Ətirli yarpaqları olan bu ağacı bütün Krişna məbədlərində görmək mümkündür. Krişnaçılar boyunlarına bu ağacdan hazırlanan boyunbağı da bağlayırlar. Tulsi ağacının İlahi məhəbbətin inkişafına kömək etdiyini düşünürlər. Ayinlərində bu ağacın ətrafına dolanırlar, həmçinin buxur və gül kimi müxtəlif ətirli atributlardan da istifadə edirlər. Mantranın ardından ibadətgahın açılışı olur və krişnaçılar "Govinda Adi puruhsam"- "Sən əzəli Tanrısan" himnini oxumaqla tanrılarını salamlayırlar. Gün ərzində ibadət mühazirələr, kitabların mütaliəsi və tərcüməsi, birlikdə yemək süfrəsi, təbliğ fəaliyyətləri və dualarla davam edir. Gün, gecə 21:00 - da zikrlərlə bitir (Turan, Battal 2020:218).

Krişna hərəkatının üzvləri xarici görünüşləriylə də özlərini büruzə verəcək qədər fərqlənməkdədirlər; bəzilərinin saçları tamamilə qısadır və hörgüdən ibarət olan aksessuar istifadə edirlər (Uluç 2012 :172). İbadətin bir parçası olan geyim və alınlarına çəkilən işarə, krişnaçılar üçün böyük əhəmiyyət kəsb edir. "Tuxoti və turta" adlanan uzun geyim narıncı rəngdə olur və bu rəng işığın, nurun, bilgi əldə etmənin simvolu sayılır. Ailə quran kişi krişnaçılar isə ağ rəngdə libasdan istifadə edirlər. Qadınlar hind milli geyimi olan "sari" geyinirlər. Rahiblər alınlarına "tillaki " adlanan işarə çəkirlər. Bu işarə Krişnanın yolunda olanların işarəsidir. "İlahi qədəm " adlanan bu işarə müqəddəs gildən çəkilir. Gilin, beş min il əvvəl Krişnanın zühur etdiyi torpaqdan olduğunu iddia edirlər. Bu işarə gündəlik ibadət üçün məbədə gələnlərə vacib olmasa da rahiblər üçün şərtdir. Bu simvolların ilahi inkişafda olanlara kömək etdiyini düşünməkdədirlər.

Krişna məbədlərində ibadət əsnasında müxtəlif zəng səslərindən istifadə edilir. Bunun insanlara rifah gətirdiyini, incə duyğularını aktivləşdirdiyini, həmçinin atmosferdə neqativ enerjini dağıtdığını və pozitiv enerji ilə yüklənməsini təmin etdiyini düşünürlər. Tanrının razılığını qazanmaq niyyəti ilə Onun adlarını tərənnüm edərək onları musiqi və rəqslərlə müşayiət edirlər.

Hərəkat daxilində dünyəvi adla yanaşı, sanskritcə olan mənəvi adla da adlanma mövcuddur. Bu, ardıcıllara müəyyən mərhələdən sonra hərəkata göstərdikləri xidmətləri müqabilində ruhani ustadlar tərəfindən, xüsusi mərasim təşkil olunaraq verilir. Bu zaman onlara "Tulsi – mala" hədiyyə olunur və dualar edilir.

Məbəd üçün hər gün təzə güllərdən toxunma çələnglər və yeni geyimlər hazırlanır. Bütün bu xərclər cəmiyyətin üzvlərinin ianələri və kitab satışlarından əldə olunan gəlirlərlə qarşılanmaqdadır. Həftəsonları hərəkat üzvlərinin iştirakı ilə tamaşalar təşkil olunur, və özlərinə məxsus bayram günlərində birlikdə dini ayinlər yerinə yetirilir.

Hərəkata daxil olmaq üçün sufi bir həyat tərzini mənimsəmək və xüsusi qaydalara əməl etmək vacibdir (Köse 2012:141). Əsas dörd qaydaya riayət etmək, kamilləşmə yolunda insana kömək olur: Ət, balıq, yumurta yemək qadağandır. "Ahimsa" prinsipinə əsasən heç bir canlıya zərər vermək olmaz. Krişnaçıların gündəlik menyularını meyvə, tərəvəz, süd məhsulları, dənli – paxlalı bol ədviyyatlı yeməklər təşkil edir. Bu növ yeməklər şən əhvali-ruhiyyə, xeyirxahlıq yaradır. Ət, balıq, yumurta isə əziyyəti, bədbəxtlikləri və xəstəlikləri artıra bilər. Bu cür qidalar insanın doğru düşünməsinə mane olur. Bir heyvanı öz qidası üçün öldürmək zorakılıqdır və öldürülən canlının ətini yeməklə onun neqativ enerjisi insana keçir. Bu qidaları tərk etmək insanın ürəyində rəhm hissinin yaranmasına səbəb ola bilər.

Bihuşedici maddələrdən istifadə etmək olmaz. Həmçinin çay, kofe kofein tərkibli olduğu üçün insan zehninin inkişafına mane olur və İlahi enerjini hiss etmək mümkün olmur. Hərəkat üzvləri müxtəlif otlardan, çiçəklərdən, ədviyyatlardan hazırlanmış içkilərdən istifadə edirlər.

İnsanı günaha vadar edən, acizləşdirən və səbirsizləşdirən qumar oyunları qadağandır. Yalnız İlahi qaydalar əsasında ailə həyatı mümkündür, nikahdankənar evlilik qəbul edilməzdir. Bu əməlləri tərk etməyən insan, təmizlik, dürüstlük, zahidlik, rəhmlilik duyğusunu itirmiş olur.

Ümumiyyətlə, ciddi pəhriz, az yemək, az yatmaq, zehni oyaq saxlayan, gücləndirən təbii qidalar qəbul etmək, zərərli olan hər şeydən uzaqlaşmaq fəlsəfi və mistik hərəkatlarda çox yayğındır. Yoqa və meditasiya vasitəsilə insanın ruhani dünyasını zənginləşdirmək və fərdi potensialını inkişaf etdirmək məqsədi daşıyan bir çox hərəkatlarda vegeteryan qidalanma əsas şərtlərdəndir. Yoqa - sanskritcədən tərcümədə "bağlam", "birləşdirmək" mənasındadır.

İnsanın enerjisini müəyyən məqsədə yönləndirməyi hədəfləyən üsuldur və bir növ "iradə tərbiyəsi" metodudur. Yoqa praktikası xilasolmanın fərdi yolu olub, hisslər və fikirlər üzərində nəzarətə nail olmağa yönəlmişdir. Bu zaman pis vərdişlərdən və neqativ olan hər bir şeydən uzaqlaşmaq lazımdır.

"Beynəlxalq Krişna Şüuru Cəmiyyəti"nin üzvlərinin daha bir inanclarına əsasən, hər bir insanın yeddi anası vardır; insanın öz anası, süd anası, ruhani ustadın anası, vətəni, dövlət başçısının həyat yoldaşı, müqəddəs kitablar və inək. Veda kitablarında inək südünün zəngin tərkibi haqqında qeyd olunmuşdur və bildirilmişdir ki, onun südündəki zülallar başqa heç bir heyvanın südündə yoxdur və bu zülallar insan beyninin toxumalarını inkişaf etdirir, ruhugörmə və dərketmə qabiliyyətini artırır. İnsanlar ana südündən qısa müddət, inəyin südündən hazırlanan müxtəlif qidalardan isə ömür boyu istifadə edirlər.

"Beynəlxalq Krişna Şüuru Cəmiyyəti"nin əsas məqsədi üzvlərini bir-birinə və Uca Varlıq Krişnaya yaxınlaşdırmaq, ümumilikdə bütün dünyada hər bir ruhun Krişnanın bir parçası olması şüurunu yaymaqdır. Hər kəs bu dünyada xoşbəxtlik axtarır. Krişnaçılar bu xoşbəxtliyi Tanrı ilə ünsiyyətdə və Ona duyulan sevgidə görürlər. Bu isə Tanrının adlarını daim zikr etməklə mümkündür. Zikr və onun coşqusuyla rəqs etmək Tanrı şüurunu və dini həyəcanı artıran vasitələrdir.

## NƏTİCƏ

Mənsublarının sayına görə Xristianlıq və İslamdan sonra dünyada üçüncü ən böyük din olaraq bilinən Hinduizm, bir dindən daha çox həm də,bir həyat tərzi və fəlsəfədir. Bu dindən qaynaqlanan Beynəlxalq Krişna Şüuru cəmiyyəti, özünəməxsus inanc və ritualları ilə Qərb cəmiyyətində maraqla qarşılanmış və asanlıqla qəbul edilmişdir.

Tanrıya imanı əsas alaraq, sevgini və elmi hər bir fərdin qurtuluş yolu hesab edən bu hərəkatın müqəddəs kitabı Bhaqavad Gitada qeyd olunan nəzəriyyələr, Əhdi - Cədidlə bənzər olduğundan, qərblilər tərəfindən mənimsənilməsi çətin olmamışdır. Qərbə axın edən onlarla dini cərəyanlardan biri olan Krişna hərəkatı, Qərb cəmiyyətinin yaşamaqda olduğu mənəvi böhrandan uzaqlaşaraq yönəldiyi ünvanlardan sadəcə biri idi.

Şərqdən gələn yeni dini hərəkatlar, öz mədəniyyət və inanclarını Qərb mədəniyyətinə nüfuz etməyi bacarmışdır. Modern insanın müqəddəslə əlaqəsini vurğulayan nəzəriyyələri həm Şərqdən, həm də Xristianlıqdan qaynaqlanan dini cərəyanların ortaq xüsusiyyəti olaraq hesab etmək mümkündür. Müasir insanın modern həyatın əsirinə çevrilməsi, cəmiyyətdə rifah yaşamla deyil, mənəvi böhranla nəticələnmişdir. Öz sosial funksiyasını itirməkdə olan kilsə, insanların sadəcə ibadət etmək üçün getdikləri bir məkan olmaqda idi. Artıq cəmiyyətdə insanların dəyərləri, sahib olduqları ilə ölçülməkdə, maddi dəyərlər, mənəvi dəyərlərin önünə keçməkdə idi. Nuklear ailələrin yaranması səbəbilə ailə dəyərləri də, dini dəyərlər kimi get-gedə zəifləmiş,insanlar arasında ünsiyyət ən az həddə çatmışdır. Bütün bunlar isə insanlarda depressiya halları və mənəvi boşluğun yaranmasına səbəb olmuşdur. Belə bir cəmiyyətdə milyonlarla insan Şərqdən gələn dini - fəlsəfi cərəyanlara yönəlmiş, axtardığı mənəvi rahatlığı bu ünvanlarda tapmışdır.

Bu cərəyanlara xas olan ən önəmli xüsusiyyətlərdən biri, fərdin daxili dünyasına, insani əlaqələrə üstünlük vermək və daha təbii bir həyat tərzi, yaşam forması təqdim etməkdir. Təbiətin bir parçası olan insan, artıq təbiətlə arasında əlaqəni yalnız ondan faydalanmaqda görmüş, həqiqi əlaqəni isə itirmişdir. Ənənəvi dəyərlərin və inancların zədələnməsinə yol açan bir çox dəyişikliklər, Qərb dünyasında yenə də qərblilərin narazılığına səbəb olmuş və bunun nəticəsində bir çox dini cərəyanların ortaya çıxmasına əlverişli mühit yaranmışdır. Xüsusilə Şərq mənşəli cərəyanların üstünlük verdiyi ruhi tərbiyənin, insanın özünəinam duyğusunu artırdığına inanan qərblilər, bu cərəyanları daha rəğbətlə qarşılamışlar. Gündəlik həyatı bir disiplin şəklində qaydalarla yaşamağı təqdim edən Krişna hərəkatı kimi cərəyanlar yoqa, meditasiya metodlarıyla insanları cəlb etmiş və bu təlimlər həm də bir çox zərərli vərdişlərə daha faydalı alternativ olaraq qəbul edilmişdir. Modern həyatın insanlardan qoparmağa çalışdığı mənəvi dəyərlər, yeni dini hərəkatlar tərəfindən xüsusilə vurğulanaraq həyat tərzinin əsas məqsədi olaraq təqdim etməsi, insanları bu cərəyanlara yönəltmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Qənbərov Asəf. 2018.Din sosiologiyası. Bakı: Tuna Printing, Publishing, Paskaging.*

*2. Akalın Kurşat Haldun. 2015.Krişnanın Bhaqavad Gitasının İşdüzümü Olaraq Günümüzün İncilleri. Gümüşhane Üniversitesi İlahiyyat Fakültesi Dergisi.*

*3. Turan Süleyman, Battal Emine. 2020.Yeni Dini Hareketler Ansiklopedisi. İstanbul Metamorfoz Yayıncılık Medya Reklam Organizasyon Matbaacılık LTD Şti.*

4. *Köse Ali. 2017.Milenyum tarikatları Batıda Yeni Dini Akımlar. İstanbul. Timas Yayınları.*

5. *Ezimli Elnur. 2022.Sosyal Kontrol ve din. İstanbul. Dönem Yayıncılık.*

6. *Güneş Abdurrahman. 2023.Toplumsal bir protesto:Yeni Dini Hareketler. Elazığ. Sosyal Bilimler Dergisi.*

7. *Heydərov Səyavuş, Qənbərov Asəf, Qafarov Anar. 2020.Din və ideoloji təhlükəsizlik. Bakı :Tuna Printig, Publishing, Paskaging.*

8. *Yitik Ali Ihsan. 2013. Milel ve Nihal inanç, kültür vü mitoloji araştırmaları dergisi.*

9. *Uluç Özlem. 2012. İstanbul. Yenin Dini Hareketler. İstanbul Matbaacılık.*

10. *https://az.wikipedia.org/wiki/Vedalar*

11. *https://news.milli.az/society/51823.html*

**Вюсала Мамедова**

## УБЕЖДЕНИЯ И РЕЛИГИИ МЕЖДУНАРОДНОГО ОБЩЕСТВА СОЗНАНИЯ КРИШНЫ

### РЕЗЮМЕ

Во второй половине 20-го века великие инновации в области технологий, а также «моральный кризис», вызванный секуляризацией и многими другими факторами, особенно в западном мире, где доминировала модернизация, привели к появлению новых религиозных движений. . Новые религиозные движения, использующие особенности традиционных религий, имеют синкретическую природу. Эти движения, которые с каждым днем растут и расширяются, привлекая внимание и интерес, в частности, молодежи, стали одной из наиболее исследуемых тем в последние годы. Новые религиозные движения, которые в основном являются предметом исследования социологии религии и психологии религии, имеют весьма разнообразную и сложную структуру. Новые религиозные движения, берущие свое начало либо из христианства, либо из дальневосточных религий, с интересом встречались в обществах, где они появлялись, легко принимались и сумели за короткий период собрать вокруг себя множество сторонников. Движения из дальневосточных дюн завоевали особую симпатию жителей Запада и привлекли большее внимание исследователей. В результате над ними было проведено больше исследований.

Различные аспекты новых религиозных движений являются предметом различных исследований. В данной статье в качестве основной темы взяты верования и поклонение движению Кришны — религиозно-философскому направлению, берущему свое начало в индуизме. «Международное общество сознания Кришны» характеризуется поиском Бога посредством мантр, осознанием души, которая является Его частицей. Движение Кришны, утверждающее, что высший и наиболее совершенный путь к этому возможен только через йогу и медитацию, основано на ведическом учении. Существует несколько священных текстов, и лучшим из них считается «Бхагавад-Гита». В статье упоминаются некоторые темы, обсуждаемые в этой книге. В статье также представлена краткая история движения Кришны, его основателя Свами Прапхубады и его деятельности. В статье также отражены ежедневные молитвы членов этого движения, их собственные убеждения, а также сведения об их одежде и правилах питания.

**Ключевые слова:** *Новые религиозные движения, Кришна, святой, поклонение, вера.*

**Vusala Mammadova**

## BELIEFS AND RELIGIONS OF THE INTERNATIONAL SOCIETY FOR KRISHNA CONSCIOUSNESS

### SUMMARY

In the second half of the 20th century, great innovations in the field of technology, as well as the "moral crisis" caused by secularization and many other factors, especially in the Western world dominated by modernization, led to the emergence of new religious trends. New religious movements that benefit from the characteristics of traditional religions have a syncretic nature. These movements, which are increasing and expanding day by day, attracting the attention and interest of young people in particular, have become one of the most researched topics in recent years. New religious movements, which are mainly the subject of research in Sociology of Religion and Psychology of Religion, have a very diverse and complex structure. New religious movements originating from either Christianity or the Far Eastern religions were greeted with interest in the societies where they appeared, were easily accepted and managed to gather a lot of supporters around them in a short period of time. Movements from the Far Eastern dunes have won the special sy-

mpathy of Westerners and attracted more attention of researchers. As a result, more studies have been carried out on them.

Different aspects of the new religious movements are the subject of various researches. In this article, the beliefs and worship of the Krishna movement, a religious-philosophical trend originating from Hinduism, are taken as the main topic. “International Society for Krishna Consciousness” is characterized by finding God through mantras, realizing the soul which is a particle of Him. The Krishna movement, which claims that the highest and most perfect path to this is possible only through yoga and meditation, is based on Vedic teaching. There are several sacred texts, and the best of them is considered to be “Bhagavad - Gita”. The article mentions some of the topics discussed in this book. The article also gives a brief history of the origin of the Krishna movement, giving a brief account of its founder, Swami Praphubada, and his activities. The daily prayers of the members of this movement, their own beliefs, as well as the information about their clothing and dietary rules are also reflected in the article.

**Keywords:** *New religious movements, Krishna, saint, worship, faith.*

### XÜLASƏ

XX əsrin ikinci yarısında texnologiya sahəsində böyük yeniliklər, həmçinin sekulyarizasiya və bir çox digər faktorların səbəb olduğu “mənəvi böhran”, xüsusilə modernizasiyanın hakim olduğu Qərb dünyasında yeni dini cərəyanların meydana çıxmasına səbəb olmuşdur. Ənənəvi dinlərin xüsusiyyətlərindən bəhrələnən yeni dini hərəkatlar senkretik bir mahiyyətə sahibdirlər. Gündən-günə artan və genişlənən, xüsusilə gənclərin diqqətini və marağını cəlb edən bu hərəkatlar son illərin ən çox araşdırılan mövzularından birinə çevrilmişdir.

Əsasən Din Sosiologiyası və Din Psixologiyasının tədqiqat mövzusu olan yeni dini hərəkatlar, olduqca müxtəlif və mürəkkəb quruluşa sahibdirlər. Mənşəyi istər Xristianlıq, istərsə də Uzaq Şərq dinlərindən olan yeni dini hərəkatlar ortaya çıxdıqları cəmiyyətlərdə maraqla qarşılanmış,asanlıqla qəbul edilmiş və qısa müddətdə ətraflarına xeyli tərəfdar toplamağa nail olmuşlar. Uzaq Şərq dinlərindən qopan hərəkatlar qərblilərin xüsusi rəğbətini qazanmışdır və tədqiqatçıların diqqətini daha çox cəlb etmişdir. Bunun nəticəsində onlar üzərində daha çox araşdırmalar həyata keçirilmişdir.

Yeni dini hərəkatların fərqli cəhətləri müxtəlif yönlü araşdırmaların mövzusu olmaqdadır. Bu məqalədə Hinduizmdən qaynaqlanan dini-fəlsəfi bir cərəyan olan Krişna hərəkatının inanc və ibadətləri əsas mövzu olaraq ələ alınmışdır. “Beynəlxalq Krişna Şüuru Cəmiyyəti” mantralar vasitəsilə Tanrını tapmaq, Onun bir zərrəsi olan ruhu dərk etməklə xarakterizə olunur. Bunun ən ali və kamil yolunun yalnız yoqa və meditasiya ilə mümkün olduğunu iddia edən Krişna hərəkatı, Veda təliminə əsaslanır. Bir neçə müqəddəs mətnləri mövcuddur və bunlardan ən üstünü “Bhaqavad – Gita” hesab edilməkdədir. Məqalədə bu kitabda bəhs olunan mövzulardan bəziləri qeyd olunmuşdur. Məqalədə həmçinin Krişna hərəkatının yaranmasının qısa tarixinə nəzər salınmış, qurucusu Svami Praphubada və onun fəaliyyətləri haqqında qısa məlumat verilmişdir. Bu hərəkatın üzvlərinin gündəlik ibadətləri, özlərinə məxsus inancları, o cümlədən geyim formaları və qidalanma qaydaları barəsində məlumatlar da məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** *Yeni dini hərəkatlar, Krişna, müqəddəs, ibadət, inanc.*

UOT 101.1:316
DOI:10.30546/3006-0346.2024.4.82.106

# İQLİM DƏYİŞMƏLƏRİNİN ƏHALİNİN HƏSSAS TƏBƏQƏLƏRİNƏ TƏSİRİNİN FƏLSƏFİ TƏHLİLİ

**HAFİZƏ İMANOVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Davamlı inkişafın fəlsəfə və sosiologiyası" şöbəsinin elmi işçisi*
*E-mail: hafizaimanova@yahoo.com*

## Giriş

Həssaslığın qiymətləndirilməsi, iqlim dəyişikliyinin təbii sistemlərə və insan icmalarına təsirlərini anlamaq üçün həlledici bir vasitədir və təsirli adaptasiya planlaşdırması üçün zəmin yaratmağın təməl elementidir. Bu səbəbdən həssaslığın qiymətləndirilməsi adətən adaptasiya planlaşdırma prosesinin əvvəlində aparılır. İqlim dəyişikliyi üzrə hökumətlərarası panel bildirir ki, dünya miqyasında və Avropada iqlim dəyişikliyi son onilliklər ərzində bəzi ekstremal hava şəraiti və iqlimlə əlaqəli hadisələrdə həddindən artıq temperatur və bir çox bölgələrdə sıx yağıntılar kimi özünü büruzə vermişdir (1). İnsanların və bütün canlıların həddindən artıq iqlim təsirinə məruz qalması, dünyada baş verən fəlakət hadisələri ("fəlakət itkiləri") nəticəsində iqtisadi itkilərdəki artımın artmasına səbəb olur. İqlim həddində müşahidə olunan dəyişikliklər və bəlkə də təbii ekosistemlərin vəziyyətinin pisləşməsi də bu proseslərdə rol oynamış ola bilər (2). "Fəlakət ziyanları", "fəlakət itkiləri" və "fəlakət xərcləri" ifadələri hər zaman açıq şəkildə fərqlənmir. Bu hesabatda 'zərər' termini fiziki ziyana (məsələn, məhv edilmiş infrastruktur) aiddirsə, "zərər" ifadəsi iqtisadi zərərlərə aiddir. İqtisadi zərərlər birbaşa itkilər (əsasən fiziki ziyanla uyğun gəlir) və dolayı itkilər (işin dayandırılmasının iqtisadi təsirləri kimi) kimi bölünə bilər (3). Xüsusi iqlim həddinin insandan qaynaqlanan qlobal iqlim dəyişikliyinə statistik aidiyyətindəki irəliləməyə baxmayaraq, hazırda iqtisadi itkilərdəki müşahidə olunan dəyişiklikləri qlobal iqlim dəyişikliyinə aid etmək mümkün deyil. Fəlakət təsirlərinin yalnız qismən müşahidələri ilə fəlakət riskinin stoxastik təbiəti, müşahidə olunan iqlim dəyişikliyinin fəlakət itkilərində artan tendensiyaya nə dərəcədə təsir etdiyini qiymətləndirməyi çətinləşdirir. Bununla birlikdə, seçilmiş həddindən artıq iqlim hadisələrinin antropogen iqlim dəyişikliyinə statistik aidiyyəti baxımından əhəmiyyətli bir irəliləyiş əldə edilmişdir. Son illərdə fəlakət riskinin azaldılması və idarəolunmasına dair siyasətlər, qarşısının alınması, qorunması, hazırlığı, reaksiyası və bərpasını əhatə edən əhatəli bir çox təhlükəli yanaşmaya keçdi (4). İqlim dəyişikliyinə və fəlakət risklərinin idarə edilməsinə uyğunlaşma, iqlim həddindən artıq risklərin idarə olunması üçün bir sıra tamamlayıcı yanaşmalar təmin edir (2.1). Fəlakət sığortasının daha çox alınması, şübhəsiz geniş təhlükələr üçün zərər hesabatını yaxşılaşdırmışdır. Ekstremal iqlim hadisələrindən iqtisadi itkilər artmışdır, lakin geniş məkan və illik dəyişkənlik ilə. Bildirilən fəlakət itkiləri əksər hallarda sağlamlıq, ekosistemlərin bütövlüyü və qeyri-maddi mədəni irs üzərində təsirləri nəzərə almadan yalnız maddi fiziki varlıqlara olan struktur ziyanlarını əks etdirir. Beləliklə, bildirilən iqtisadi itkilər birbaşa itkilərə yönəldilir və bu səbəbdən daha aşağı hədlər kimi başa düşülməlidir. Avropa da daxil olmaqla bütün dünyada və ya əksər bölgələrdə yüksək temperatur yağış hadisələri və quraqlıq ilə ciddi şəkildə artacaqdır. Bundan əlavə, Avropanın böyük hissələri artan quraqlıq riski ilə üzləşəcəkdir (5). İqlim dəyişikliyinin çoxsaylı sektorları əhatə edən həddindən artıq iqlim hadisələri nəticəsində Avropa ölkələrində sistemli uğursuzluqların olma ehtimalını artıracağına orta inam var (6). Artan həddən daha çox itkiyə səbəb olacaqdır. İqlim dəyişikliyinin dolayı təsirlərindən bir çoxu eyni zamanda iqlim dəyişikliyi ilə birlikdə hərəkət edən digər qlobal dəyişikliklər və sosial-demoqrafik təzyiqlərdən təsirlənəcəkdir. Bunlara gələcək onilliklərdə artması ehtimalı olan və daha çox yayılmış pozulmalar, çıxıqlar və qarşıdurmalardan yaranan dolayı sağlamlıq təsirləri və sağlamlıq və sağ qalma üçün üçüncü dərəcəli təsirlər daxildir (7). İqlim dəyişikliyi əsasən onsuz da mövcud olan sağlamlıq problemlərini daha da artıraraq hərəkət edəcək və ən böyük risklər hazırda iqlimlə əlaqəli xəstəliklərdən ən çox təsirlənən əhalidə tətbiq olunacaq.

Bəzi bölgələrdə daha yumşaq keçən qışlardan əldə ediləcək sağlamlıq faydalarının, birbaşa və dolayı, təcili və təxirə salınmış risklər yolu ilə sağlamlığa mənfi təsirlər riskini üstələməsi gözlənilmir, iqlim dəyişikliyi su çatışmazlığı və keyfiyyətini artıra və əlavə problemlər yarada bilər. Avropa İttifaqına üzv dövlətlərinin hazırda bildirməli olduqları 50-dən çox yoluxucu xəstəlikdən təxminən yarısı iqlim dəyişikliyindən birbaşa və ya dolayı şəkildə təsirlənə bilər; vektorla əlaqəli bir çox xəstəlik daxil olmaqla digər

iqlimə həssas xəstəliklər, Avropadakı iqlim dəyişikliyi ilə əlaqəli prioritet yoluxucu xəstəliklər hesab olunur (8). Bütün insanlar iqlim dəyişikliyindən təsirlənir, lakin iqlim dəyişikliyinin insanların sağlamlığına təsiri əsasən onların həssaslığından (məsələn, yaş, əvvəlcədən mövcud olan xəstəliklər, məruz qalma, yerləşmə) və uyğunlaşma qabiliyyətindən, ekoloji, sosial, iqtisadi və mədəni amillər, o cümlədən təhsil və səhiyyə sistemlərinə daxil olmaq kimi amillərdən qaynaqlanır. Həssas əhali qruplarına yaşlılar və uşaqlar, şəhər yoxsulları, ənənəvi cəmiyyətlər, yaşayış təsərrüfatları və sahilyanı ərazilərdə yaşayan əhali daxildir (11). Həssaslıqlar həm Avropa bölgələrində, həm də fərqli olaraq dəyişir. Bəzi Avropa bölgələrindəki əhali, iqlim təhlükələrinə məruz qalmağına və həssaslığına görə digərlərinə nisbətən iqlim dəyişikliyindən daha yüksək risk altındadır. İqlim dəyişikliyi istilik dalğalarının tezliyini və intensivliyini artıracaq və iqtisadi itkiləri və bu cür həddindən artıq istilik hadisələrindən təsirlənən insanların sayını artıra bilər. Məsələn, Cənubi Avropada meşə yanğınları riski (9) və ya Arktik populyasiyalar qida, su və infrastruktur üçün fiziki mühitə etibar etdikləri üçün xüsusilə risklidirlər (6.1). Arktikada temperatur və yağıntıdakı dəyişikliklər, permafrostun əriməsi və azalan dəniz buzları, sahil eroziyası, landşaft çevrilməsi və biomüxtəlifliyin dəyişməsi yerli əhalinin həyat tərzinə və mədəniyyətinə təsir göstərə bilər.

## İqlim siyasəti

İqlim dəyişikliyi, geniş yayılmış siyasət və ictimaiyyətin diqqətini cəlb edən, yeni ortaya çıxan bir təhdiddir. Sağlamlığın qorunmasında və xalq sağlamlığı prioritetlərinin yenidən nəzərdən keçirilməsini tələb edir. Bu gün ən təsirli reaksiyalar və qlobal istiləşmə sənayedən əvvəlki səviyyələrlə müqayisədə 2° C artımın altında qalsa da, ətraf mühitin idarəedilməsi, müşahidə və təbii fəlakətlərdən qorunma və yoluxucu xəstəliklərdəki dəyişikliklər kimi əsas funksiyaların gücləndirilməsi, eləcə də xəstəlik nümunələri və inkişaf qərarlarının insan sağlamlığını yaxşılaşdırmaq üçün son hədəfə xidmət etməsini təmin etmək üçün daha proaktiv bir yanaşmalar ola bilər. Həm iqlimə həssas sağlamlıq riskləri, həm də istixana qazı tullantılarının azaldılmasının sağlamlığa faydaları, iqlim dəyişikliyi ilə bağlı hər hansı bir müzakirə üçün əsas olmalıdır (11). Məsələn, Avropa ölkələrində istilik dalğasına hazırlıq, planlaşdırma və cavab tədbirlərinin daha da yaxşılaşdırılması, inkişafı və tətbiqi istiliklə əlaqəli ölümlərin azalmasına, güclü sektorlararası koordinasiyanın inkişaf etdirilməsinə, effektiv erkən xəbərdarlıq və sağlamlıq sistemi cavab mexanizmlərinin, nəzarət və qiymətləndirmə tədbirlərinin gücləndirilməsini tələb edəcək.

